İslamofobiya.

Şərq və Qərbin “divanı”

Bakı – 2025



İslamofobiya. Şərq və Qərbin "divanı"
– Bakı, 2025. – 424 səh.

ISBN: 978-9952-8606-0-3

Araz Qurbanov
Gündüz İsmayılov
Könül Bünyadzadə
Kamal Qasımov

Baş məsləhətçi: **Rəvan Həsənov**
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru

Elmi məsləhətçilər: **Aqil Şirinov**
Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent

Qəmər xanım Cavadlı
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, filologiya üzrə fəlsəfə doktoru

Ramiz Sevdimalıyev
siyasi elmlər doktoru, professor

Bu kitab XXI əsrin ən aktual problemlərindən biri olan islamofobiyaya həsr olunmuşdur. Qərbdə və digər qeyri-islam cəmiyyətlərində sürətlə yayılan bu fenomen sadəcə dini dözümsüzlüyün ifadəsi deyil, həm də qlobal siyasətin, geosiyasi və geoiqtisadi maraqların ağır mürəkkəb nəticəsidir. Burada həm elmi faktlara, həm də real həyatdan nümunələrə əsaslanan aydın və sadə dildə yazılmış təhlillər yer alır. Məqsəd yalnız islamofobiyanın nə olduğunu izah etmək deyil, həm də bu problemin qarşısının alınması üçün ictimai şüurun, təhsilin və dialoqun nə qədər vacib olduğunu göstərməkdir. Kitab bu mövzuya maraq göstərən geniş oxucu auditoriyası üçün nəzərdə tutulmuşdur.

© BBMM, 2025

MÜNDƏRİCAT

Ön söz
(Rəvan Həsənov) 11

İslam və Qərb. Mənfi stereotiplərdən gerçəkliyə doğru
(Qəmər xanım Cavadlı) 14

Giriş əvəzi.
Dövrün anlatmaq dərdi 19

Dialoq əzabları
(Araz Qurbanov) 35

İslamofobiya – XXI əsrin sosial pandemiyası
(Araz Qurbanov) 56
Dini qarşıdurmalar: idarə olunan xaos 60
Qərbin kompromis variantı: "avroislam" 94
İslamofobiya və dini stereotiplər 102
III Reyxin "islam sevgisi". Mif və reallıqlar 122
İslamofobiya: Fransanın "irsi xəstəliyi" 135
İslamofobiya Qərb kinematoqrafiyasında 159

Şərq və Qərbin "divanı".
İslam mədəniyyəti əyri güzgülər səltənətində
(Araz Qurbanov) 172

İslam dini və müsəlman mədəniyyəti
(Gündüz İsmayılov) 234
Qurani-Kərim və hədislərdə elmə münasibət 235
İslama görə, elm nəyə xidmət etməlidir? 239
Allahı dərk etmək baxımından elmin əhəmiyyəti 242
Müsəlmanların ilk elmi fəaliyyətləri 245
İslam dünyasında elm-təhsil müəssisələrinin yaradılması 252
Xəstəxanalar və tibb mədrəsələri 253
Kitabxanalar 269
Akademiya və universitetlər 279
Rəsədxanalar 289

Azərbaycanın islam sivilizasiyasında yeri və rolu
(Könül Bünyadzadə) 303

Müsəlmanların dünya sivilizasiyasına töhfələri
(Kamal Qasımov) 358
Elmi kəşflər mədəniyyətlərarası dialoqun nəticəsidir 362
Müsəlman alimləri dünya elmində 371
Tərcümə mədəni fenomen kimi.
Müsəlman dünyasından Avropaya elmi biliklərin ötürülməsi 392

İstifadə olunmuş ədəbiyyat 404

“Dili, dini, rəngi nə olursa olsun, yaxşılar yaxşıdır”.

Hacı Bektaş Vəli

“İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda Bakıda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına MÜRACİƏT

Hörmətli konfrans iştirakçıları,

Sizi “İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda salamlayıram.

Bugünkü konfrans BMT tərəfindən “İslamofobiya ilə Beynəlxalq Mübarizə Günü”nün təsis olunmasının üçüncü ildönümünə həsr olunub. Ölkəmizdə artıq ənənəvi olaraq təşkil edilən bu vacib tədbir bəşəriyyəti narahat edən islamofobiya probleminə diqqətin artırılmasına xidmət edir.

Azərbaycan islamofobiya ilə mübarizəyə dair BMT Baş Assambleyası tərəfindən qəbul olunmuş qətnamələri alqışlayır və sənədlərdə qeyd olunan tədbirlərin təxirəsalınmaz qaydada həyata keçirilməsinə çağırış edir.

Təəssüflər olsun ki, islamofobiya son dövrdə qlobal müstəvidə daha qabarıq və sistematik xarakter almağa başlamışdır. Hazırda bu mənfi tendensiya hər hansı konkret ölkədə deyil, dünyanın bir çox yerlərində müşahidə olunur. İslama qarşı düşmənçilik, müsəlmanlara qarşı nifrət və dözümsüzlük, antiislam əhvali-ruhiyyəsi getdikcə böyük vüsət almağa başlayır və daha da kəskinləşir.

İslamofobiya müxtəlif formalarda, o cümlədən gündəlik həyatda müsəlmanlara qarşı irqçilik və ayrı-seçkilik, nif-

rət nitqi, fiziki hücumlar, media və sosial media platformalarında stiqmatizasiya, institusional diskriminasiya və digər formalarda təzahür edir. Bu cür ədalətsiz və qərəzli münasibət müsəlmanların cəmiyyətə inteqrasiya olunmalarına və özlərini onun bərabərhüquqlu üzvü kimi hiss etmələrinə böyük maneə yaradır.

Vaxtilə qul ticarəti ilə məşğul olan, işğalçılıq və müstəmləkəçilik siyasəti yürüdən, soyqırımıları törədən, indi isə özlərini insan hüquqlarının keşiyində duran demokratik ölkələr qismində təqdim edən bəzi ölkələrdə bu gün islamofobiya, bir növ, dövlət siyasətinə çevrilmişdir. Bu ölkələrdə dünyəvi dəyərlərin müdafiəsi adı altında müsəlmanların hüquqlarını və etiqad azadlığını məhdudlaşdıran qanunlar qəbul edilir, onların təhsil almaq, mənzil sahibi olmaq, işlə təmin olunmaq və digər hüquqları tapdalanır.

Eyni zamanda Məhəmməd peyğəmbəri (s.ə.s) təhqir edən hərəkətlər, müqəddəs Qurani-Kərimin yandırılması, məscidlərə və ibadət yerlərinə qarşı hücumlar, müsəlman qəbiristanlıqlarının vandalizmə məruz qalması və digər hərəkətlər müsəlmanların hisslərini təhqir etməyə yönəlmiş və sayı getdikcə artan antimüsəlman hadisələri sırasındadır. "Söz azadlığı" adı altında islam dininə və müsəlmanlara qarşı hücumlar qəbuledilməzdir.

Məyusedici haldır ki, islamofobiya kimi ümumbəşəri bəlaya və təhlükəyə qarşı nəinki mübarizə aparılmır, hətta bir sıra ölkələrdə onun yayılması təşviq edilir. İslam dinini və müsəlmanları Qərb kimliyinə və dəyərlərinə təhdid kimi göstərərək insanların hisslərini və düşüncələrini yönəltməyə çalışan radikal cərəyanların və ifrat sağçı partiyaların pərəstiş-

karlarının sayı getdikcə artır, onların nümayəndələri parlamentlərdə daha çox yer qazanmağa başlayırlar. Eyni zamanda Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar qərəz və ikili standartlara üstünlük verərək antimüsəlman əhvali-ruhiyyəsini təlqin edir.

İslamofobiyanın yayılmasına təkan verən digər faktorlardan biri də ictimai rəyin formalaşdırılmasında və müsəlmanların mənfi obrazının yaradılmasında dağıdıcı rolu olan bəzi media orqanlarının fəaliyyətidir. Bu media qurumları məqsədyönlü şəkildə ekstremizm, terrorizm və bu kimi anlayışları islamla eyniləşdirərək dinimizə qarşı qərəzli təsəvvür yaradır, dinimizi təhlükə mənbəyi kimi aşılayır və ona terror damğası vurmağa çalışır. Ölkənin ictimai-siyasi və sosial-iqtisadi həyatında mövcud problemləri islam və müsəlmanlarla əlaqələndirərək cəmiyyətdə etimadsızlıq və qorxu hisslərini alovlandırırlar.

Azərbaycan islamofobiya ilə üzləşmiş və bu gün də ondan əziyyət çəkən ölkələrdən biridir. Torpaqlarımızın otuzillik işğalı dövründə xalqımıza qarşı Xocalı soyqırımı törədilmiş, etnik təmizləmə aparılmış və bunun nəticəsi olaraq bir milyondan artıq soydaşımız qaçqın və məcburi köçkün vəziyyətinə salınmışdır. Ərazilərimizdə milyona yaxın mina basdırılmış, urbisid, kultursid və ekosid cinayətləri törədilmişdir. Ancaq, əfsuslar olsun ki, Qərbdə bəzi dairələr sırf dini təəssübkeşlik və islamofob mövqedən çıxış edərək Ermənistan tərəfindən torpaqlarımızın işğalına göz yummuş, münaqişənin əsl mahiyyətini təhrif etmiş, onu dini zəmində münaqişə kimi təqdim etməyə çalışmışdır.

İşğal dövründə bəşəri əhəmiyyətə malik çoxəsrlik tarixi-mədəni abidələrimiz, o cümlədən islam dininə aid abi-

dələr, ziyarətgahlar, məscidlər, türbələr, məzarlıqlar dağıdılmış, təhqir edilmiş, yerlə yeksan edilmişdir. Bir sıra mədəni irs obyektləri qarət edilmiş, onların təyinatı dəyişdirilmiş, mənsubiyyəti saxtalaşdırılmışdır. Hazırda işğaldan azad olunmuş torpaqlarımızda aparılan genişmiqyaslı yenidənqurma işləri çərçivəsində dağıdılmış məscidlərimiz və dini abidələrimiz bərpa edilir, yeniləri inşa edilir.

Əfsuslar olsun ki, soydaşlarımızın qovulduğu və tarixi torpaqlarımız olan Qərbi Azərbaycanda da xalqımızın zəngin maddi-mənəvi irsini şüurlu və planlı şəkildə tamamilə məhv etmək və ya saxtalaşdırmaq, azərbaycanlıların tarixi-etnik torpaqlarındakı izlərini yox etmək siyasəti aparılır.

Bir neçə gün əvvəl Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurasının iclasında İrəvan qazılığının fəaliyyətinin bərpası barədə qərarın qəbul edilməsi tarixi ədalətin təmin olunması, Qərbi Azərbaycanda yerləşən mədəni və dini-mənəvi irsimizin məhv edilməsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində atılan vacib addımdır.

Məhdud sayda monoetnik ölkə istisna olmaqla dünya ölkələrinin əksəriyyəti çoxmillətli və çoxkonfessiyalı cəmiyyətlərdən ibarətdir. Bunu nəzərə alaraq müxtəlif millətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin qarşılıqlı dialoq və anlaşma şəraitində yaşaması ölkədə vətəndaş sülhü və vətəndaş həmrəyliyi baxımından xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanın bu sahədə müsbət təcrübəsi bir sıra ölkələr üçün örnək ola bilər.

İslam dünyasının ayrılmaz parçası olan Azərbaycan müxtəlif dinlərin, mədəniyyətlərin nümayəndələrinin tarix boyu qardaşlıq və dostluq şəraitində yaşadığı ölkədir. Bu cür nü-

munəvi münasibətlərin təşəkkülündə və inkişafında ümumbəşəri dəyərlərin daşıyıcısı kimi islam dini müstəsna rol oynamışdır. Azərbaycan xalqı bu gün də özünün zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, islam həmrəyliyinə öz töhfələrini verir, islam dəyərlərinin dünyada təbliği istiqamətində ciddi addımlar atır.

İslam sülh, həmrəylik və mərhəmət dinidir. Ona qarşı aparılan qarayaxma kampaniyalarına baxmayaraq, islam yüksək əxlaqi dəyərləri, ədaləti, xeyirxahlığı təcəssüm etdirən və milyardlarla insan üçün mənəvi dayaq və bələdçi rolunu oynayan din olaraq qalmağa davam edir.

Hazırkı qlobal çağırışlar və böhranlar, islam dünyasının üzləşdiyi yeni sınaqlar və çətinliklər, habelə islamofobiya meyillərinin artması, dinimizi gözdən salmaq cəhdləri müsəlman ölkələri arasında həmrəyliyin və birliyin möhkəmləndirilməsini, qarşılıqlı dəstəyin göstərilməsini olduqca labüd edir. Bütün müsəlman dünyasını narahat edən islamofobiya ilə mübarizə aparmaq üçün vahid cəbhədən çıxış etmək, bu ədalətsizliyə və zərərli təmayüllərə etiraz səsimizi birgə ucaltmaq lazımdır.

Konfransın işinə uğurlar diləyir və onun islamofobiya ilə mübarizəyə, islam dini ilə bağlı qərəzin aşkara çıxarılması və stiqmaların dağıdılması işinə dəyərli töhfə verəcəyinə dair əminliyimi ifadə edirəm.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 26 may 2025-ci il

Müraciət BMT Baş Assambleyasının
və Təhlükəsizlik Şurasının sənədi kimi yayılmışdır.

Ön söz

Bu kitabın səhifələri arasında Qərbin siyasətində, mediasında və gündəlik həyatında getdikcə daha çox görünən, lakin bəzən səssiz razılıqla müşayiət olunan bir problemin – islamofobiyanın izinə düşürük. "İslamofobiya. Şərq və Qərbin "divanı"" – adından da göründüyü kimi, yalnız coğrafi bölgələr arasında deyil, sivilizasiyalar, dəyərlər və insan təsəvvürləri arasında dialoqun bərpa edilməsinə çağırışdır.

İslamofobiya təkcə dini nifrətin forması deyil. O həm də siyasi güc münasibətlərinin, kimlik böhranlarının və tarixi yaddaşın təhrif olunmasının məhsuludur. Onun kökləri Qərbin Şərqə baxışında, müstəmləkəçilik tarixində və oriyentalizmdə axtarılmalıdır. Lakin bu kitabın diqqət mərkəzində olan əsas məsələ – müasir dövrdə islamofobiyanın təzahür formaları və onların fərdlərə və cəmiyyətlərə təsiridir.

Bu gün müsəlman olmaq bəzən sadəcə bir ad, bir geyim və ya ibadət forması ilə hədəfə çevrilmək deməkdir. Avropa və Şimali Amerikada məscidlərə edilən hücumlar, hicablı qadınlara qarşı artan zorakılıq halları, mediada müsəlmanların davamlı olaraq ekstremizmlə eyniləşdirilməsi – bunlar islamofobiyanın gündəlik və sistematik formalarıdır. Hər bir müsəlmanın cəmiyyətin "digəri" kimi təqdim edilməsi nəinki insan hüquqlarını, eyni zamanda vətəndaşlıq hissini də aşındırır.



2025-ci ildə Bakıda "İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçıları

Bu gün islamofobiya yalnız keçmişin kölgəsi deyil – o çox real və gündəlik təhlükədir. XXI əsrin ilk illərində 11 sentyabr hücumları bu qorxunu qlobal miqyasda yenidən kəskinləşdirdi. Ardınca gələn "terrorla mübarizə" adı altında aparılan kampaniyalar, Yaxın Şərqə edilən müdaxilələr, milyonlarla müsəlmanın qaçqına çevrilməsi, Qərb mediasında islamın davamlı olaraq təhlükə və radikalizmlə eyniləşdirilməsi – bunlar islamofobiyanın sistematikləşməsinin əsas mərhələləridir.

Kitabda yer alan araşdırmalar və təhlillər göstərir ki, islamofobiya təkcə fərdi nifrət deyil – o, siyasətlərin və institutların bəzən şüurlu, bəzən də şüursuz şəkildə bəslədiyi bir sistemdir. Müsəlmanların terrorla əlaqələndirilməsi, miqrasiya siyasətlərində ikili standartlar, təhlükəsizlik diskursunda müsəlmanların daim "risk" kateqoriyasında yer alması sadəcə ictimai qavrayışa deyil, hüquqi sistemlərə də nüfuz etmişdir.

Bu kitab eyni zamanda Şərqin səsini də dinləməyə çağırır – yalnız dini yox, həm də mədəni, fəlsəfi və bəşəri səsini. Müsəlmanların özlərinin gündəlik həyatda islamofobiya ilə necə mübarizə apardıqları, dəyərlərini necə qoruyub saxladıqları və cəmiyyətlərə necə töhfə verdikləri unudulmamalıdır.

"İslamofobiya. Şərq və Qərbin "divanı"" oxucunu yalnız müşahidəçi deyil, həm də iştirakçı olmağa dəvət edir. Bu kitab nifrətə qarşı humanist bir çağırış, qorxuya qarşı biliklə silahlanma və susqunluğa qarşı ədalətin səsləndirilməsidir.

Rəvan Həsənov,
Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru

İslam və Qərb. Mənfi stereotiplərdən gerçəkliyə doğru

Bu gün yaşadığımız həyat reallıqları çərçivəsində önəmli mövzulardan sayılan dini maarifləndirmənin tətbiqi problemləri keçmişdə olduğu kimi yenə də gündəmdə olan aktual məsələdir. Xüsusilə ölkəmiz dövlət müstəqilliyini qəbul etdikdən sonra milli-mənəvi dəyərlərə və islamın təməl mənbələrinə qayıdış meyillərini nəzərə alsaq, cəmiyyətimiz qarşısında duran vəzifənin nə qədər vacib olduğunu görə bilərik. Milli-mənəvi və dini dəyərlərə münasibətdə dəqiq, aydın və perspektivli bir mövqenin hazırlanması çətin olduğu qədər həm də çox şərəfli vəzifədir, çünki məqsədi bu günün gəncliyini, sabahın ailəsini və millətimizin mənəviyyat bazasını gücləndirmək, inkişaf etdirmək, düzgün istiqamətə yönləndirməkdir.

Azərbaycanda islam dininin əsaslarına olan təbii maraq müəyyən bir zərurətlə bağlıdır. Belə ki, müstəqillik dövründə islamın təbliğ etdiyi mənəvi dəyərlərə qayıdış meyli güclənsə də, bizim humanitar elmlərdə, xüsusilə islamşünaslıq və şərqşünaslıqda dini mühitin və müasir elmin tələblərinə cavab verən konsepsiya işlənib-hazırlanmamışdır. İslamı düzgün başa düşmək üçün zəruri olan mətnlər, hədis və xəbərlər, orta əsr mənbələri sənədləşdirilmiş şəkildə kifayət qədər elmi səviyyədə tərcümə edilməmişdir. Bəzi təxribat və təkfir xarakterli ədəbiyyatın təsiri altında cəmiyyətdə islam, onun peyğəmbəri və kitabı haqqında yanlış təsəvvürlər hökm sürür. Hətta islamın sosial ədalət, bərabərlik barədə təsəvvürləri də təhrif olunmuş şəkildə, “sinfi mübarizə”

dəyərləri səviyyəsində başa düşülür. Halbuki Hz. Məhəmmədin (s) gətirdiyi dini dəyərlər sosial həyatda deyil, mənəviyyat, əxlaq və davranış sahəsində axtarılmalıdır, daha doğrusu, islamda sosial problemlər mütləq şəkildə mənəviyyatla əlaqələndirilməlidir. Məhz bu mənada Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşəbbüsü ilə müəlliflər qrupu tərəfindən hazırlanmış "İslamofobiya. Şərq və Qərbin "divanı"" əsəri Azərbaycan müsəlmanlarına dinimizin mədəni, elmi və mənəvi mahiyyəti, islamofobiyaya qarşı mübarizənin nəzəri və təcrübi əsasları barədə dəyərli rasional bilgilər verən önəmli mənbələrdən birinə çevriləcəkdir.

Milli mədəniyyətimizə islamın göstərdiyi təsirdən, bu mədəniyyətdəki təkamülün yönümlərindən danışarkən dini-mədəni tərəqqinin əsas xüsusiyyətlərini qeyd etmək müasir nöqteyi-nəzərdən çox vacibdir. Belə ki, bu xüsusiyyətlərin birincisi çoxmədəniyyətlilik və tolerantlıq məfhumu ilə bağlıdır və çox təqdirəlayiq haldır ki, kitabın müəllifləri əsas ana xətt kimi bu tendensiyanı önə çıxarmışlar. İslamın yayılması sayəsində təşəkkül tapan müsəlman mədəniyyəti elmə misli görünməmiş maraq göstərmişdir. Qurani-Kərimdə və peyğəmbər (s) hədislərində elmə verilən dəyərin böyüklüyü dini və dünyəvi elmlərin, təcrübi tədqiqat sahələrinin yaranmasına şərait yaradırdı. İslam təfəkkürü Azərbaycanda dünya elminə böyük töhfələr verən alimlərin yetişməsinə səbəb olmuşdur.

Eyni zamanda islam dininin mənəvi dəyərləri və əxlaqi özəllikləri əsasında Azərbaycanda yeni incəsənət – memarlıq, xəttatlıq, miniatür məktəbi, xalçaçılıq və digər sənət növləri formalaşmışdır. Ən güclü təsir isə özünü Azərbaycan dilində, şifahi xalq yaradıcılığında və bədii ədəbiyyatda büruzə

vermişdir. Bütün sadalanan xüsusiyyətlər təsdiq edir ki, islamın Azərbaycan mədəniyyətinə və Azərbaycanın islam mədəniyyətinə bəxş etdiyi töhfələr qarşılıqlı olmuş və bəşər sivilizasiyasını daha da zənginləşdirmişdir.

Tarixi reallıq ondan ibarətdir ki, çoxmillətli və çoxkonfessiyalı dövlət olan Azərbaycan uzun əsrlərdən bəri islam sivilizasiyasının əsas mərkəzlərindən biri olub. O, xristianlıq və yəhudilik kimi səmavi dinlərin təşəkkülündə, eyni zamanda müsəlman intibahının bərqərar olmasında mühüm rol oynayıb. Şərq və Qərbin birləşmə nöqtəsi sayılan Azərbaycan tarixi İpək yolu dəhlizi vasitəsilə təkcə iqtisadi tərəqqiyə deyil, dinlər və məzhəblərarası münasibətlərin inkişafına da əvəzsiz xidmətlər göstərib. İslamın dini və mədəni dəyərlərinə sadiq olan Azərbaycan həm də dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Azərbaycanda fərqli mədəniyyətlərin, etnik və dini tolerantlıq mühitinin təmin edilməsi dünya ictimaiyyəti tərəfindən böyük nailiyyət kimi qiymətləndirilir. Ölkəmizdə heç bir zaman dini və etnik zəmində ayrı-seçkilik olmamışdır və bütün dinlərin nümayəndələri burada sülh və qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu bizim həyat tərzimizdir və irəliyə doğru inamla hərəkət etmək üçün ən düzgün yoldur.



İslamofobiyaya qarşı mübarizə plakatlarda

Azərbaycan Respublikası özünün xarici siyasətində Avropa və Qərb dövlətləri ilə əməkdaşlığa önəm verdiyi kimi eyni zamanda Türk Dövlətləri Təşkilatının, İslam Əməkdaşlıq Təşkilatının, İSESCO-nun, müsəlman ölkələrini təmsil edən digər mötəbər qurumların üzvü kimi islam aləmi ilə qarşılıqlı faydalı münasibətlər qurub. Şərq və Qərbin iqtisadi və mədəni istiqamətlərini özündə birləşdirən bir sıra qlobal əhəmiyyətli forumların, məşhur Bakı prosesinin sivilizasiyalararası dialoqda Azərbaycanın aparıcı rolu təsbit edilmişdir. IV İslam Həmrəyliyi Oyunlarının 2017-ci ildə Bakı şəhərində keçirilməsi, 2009-cu ildə Bakı və 2018-ci ildə Naxçıvan şəhərlərinin islam mədəniyyətinin paytaxtı elan olunması bir daha təsdiq edir ki, Azərbaycanda dini-mədəni və elmi potensialın inkişafı yüksək təqdirə layiqdir.

Bu gün müasir dünyada ziddiyyətli proseslər, ayrı-ayrı bölgələrdə milli-mədəni və siyasi qarşıdurmalar, islamofobiya, antisemitizm, ksenofobiya halları, etnik-siyasi konfliktlər, terrorizm, separatçılıq, dindən sui-istifadə edərək münaqişələr yaratmaq kimi bəşər sivilizasiyasını təhdid edən hadisələr yaşanır. Bəşəriyyət həm dini, həm də etnik konfliktlər və qarşıdurmalarla sarsılır. İslamofobiya zəminində nifrət çağırışları nəticəsində Azərbaycan xalqı XX əsrin sonunda Ermənistan dövlətinin işğalçı siyasəti ilə etnik təmizləmə və soyqırıma məruz qalmışdır. Azərbaycanın işğal olunmuş ərazilərində çoxlu tarixi, mədəni və dini abidələr vəhşicəsinə məhv edilmiş, təhqir edilmiş, torpaqlarımız minalanmışdır. Faktlar təsdiq edir ki, Ermənistanın işğalçı siyasətinin məqsədi yalnız Azərbaycanın dini və mədəni dəyərlərinə deyil, ümumən, islamın tarixi və mədəni irsinə təcavüz etmək olmuşdur.

Biz, Azərbaycan dindarları mütərəqqi milli adət-ənənələrə və dini-əxlaqi vəzifələrimizə həssaslıqla yanaşırıq və şükür edirik ki, bugünkü gündə din-dövlət vəhdətinin və məzhəbi birliyin nadir nümunəsini ölkəmizdə yaşamaq və bəyan etmək imkanımız mövcuddur. Əminik ki, "İslamofobiya. Şərq və Qərbin "divanı"" kitabının mündəricatına daxil olan bütün mövzular islam mədəniyyətinin təbliği və təşviqi, milli-mənəvi ənənələrin qorunması, islam dininin mütərəqqi mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində görülən işlərin, dəyərli tədqiqatçı alimlərin zəhmətinin nümunəsi kimi Azərbaycan oxucularına əvəzsiz töhfə olacaqdır. Kitabın müəlliflərinə və nəşrində xidməti olan hər bir kəsə dərin minnətdarlığımızı bildirir, bu elm, maarif və mərifətə xidmət edən gözəl əməlin savabının yüksək olmasını diləyirik.

Qəmər xanım Cavadlı,
Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini,
filologiya üzrə fəlsəfə doktoru

Giriş əvəzi

Dövrün anlatmaq dərdi

"Ən çox ondan qorxuram ki,
məni düzgün başa düşsünlər".
Oskar Uayld

Əsərlərində Böyük Britaniyanın müstəmləkəçilik siyasətini, Qərb sivilizasiyasının digərlərindən "əbədi" üstünlüyünü tərənnüm edən ingilis yazıçısı Redyard Kiplinq də Şərq və Avropa mədəniyyətlərini, onların mənəvi-əxlaqi dəyərlərini antaqonist hesab etmiş, istənilən yaxınlaşmanın problemlərə səbəb olacağına əmin idi. "Cəngəlliklər kitabı"nın müəllifi Avropada Şərq dünyası haqqında formalaşmış ənənəvi stereotiplərin təsiri altında olduğu üçün "Qərbi və Şərq haqqında ballada" poemasında belə yazırdı: **"Qərb ilə Şərq həmişə Qərb və Şərq olaraq qalacaqdır, onlar heç zaman bir-biri ilə görüşməyəcək. Nə qədər ki Yer və Göy var, onlar Rəbbin yaratdığı kimi olacaq. Lakin iki güclü və cəsur kişi üz-üzə dayanıb bir-birinin gözünün içinə baxanda nə Qərb qalacaqdır, nə də Şərq, nə millətlər olacaq, nə nəsillər, nə də maneələr"**.[1] Bu sətirlərin yazılmasından yüz ildən də çox vaxt keçsə də, təəssüf ki, mövqe də, Şərq haqqında stereotiplər də dəyişilməz qalmış, sadəcə olaraq, məzmununu nisbətən dəyişmişdir…

[1] Баллада о Западе и Востоке. перевод из Р. Киплинга, https://www.stihi.ru/2000/12/31-39

Ötən əsrdə baş vermiş qanlı dünya müharibələrinin, bu gün Yaxın Şərqdə, Şimali Afrikada, Avropada cərəyan edən hərbi-siyasi münaqişələrin ibrət dərsləri bir daha göstərir ki, istənilən tərəfin etnik, dini və ya mədəni "üstünlük" iddiaları son nəticədə təkcə regionları, burada yaşayan insanları deyil, bütövlükdə bəşəriyyəti fəlakətə sürükləyir. Bu qaçılmaz təhlükə isə xalqlar və dinlər arasında universal, səmimi və qarşılıqlı, hamılıqla qəbul olunan yeni əməkdaşlıq prinsiplərinin formalaşması zərurətini daha sürətlə gündəmə gətirir. Bəşəriyyəti təqib edən böyük təhlükəni öncədən görənlərdən biri, tanınmış alman yazıçısı, Nobel mükafatı laureatı Herman Hesse hələ XX əsrin ortalarında bunları yazırdı: **"Şərq və Qərb arasında ciddi və faydalı qarşılıqlı anlaşma məsələsi təkcə siyasətdə və sosial sahədə deyil, mənəviyyatda və mədəniyyətdə də zəruri olan böyük, lakin hələ də həyata keçməyən tələbdir. Bizim borcumuz və arzumuz nə başqalarının dinini dəyişmək, nə də özümüzün başqa dinə tapınmaq deyil, imkan daxilində açıqlığa və genişliyə nail olmaqdır. Biz Qərbin və Şərqin müdrikliyində artıq düşmənçiliyi, toqquşan qüvvələri yox, aralarında həyatın canlandığı qütbləri görürük".**[2]

Artur Şopenhauer əmin idi ki, **"Din atəşböcəyinə bənzəyir. O yalnız qaranlıqda işıq saça bilir"**. Filosofun bu fikrinə ruhanilərin və ateistlərin münasibəti bir-birindən kəskin fərqlənir. Ateistlərin şərhinə görə, dinlərin yaranması, yayılması, insanların dünyagörüşündə, davranışında dərin

[2] Восток – Запад. Исследования, переводы, публикации. М., 1982, 1985, 1988.

kök salması, onları istənilən ideya uğrunda kortəbii səfərbər etməsi üçün ən münbit şərait məhz ictimai şüurdakı "qaranlıq mühit", yəni cəhalətdir. Din xadimləri isə bunun tamamilə əksini yozurlar: Şopenhauer demək istəyir ki, insanları zülmətdən – xurafatdan, cəhalətdən çıxartmaq üçün ən işıqlı yol dindir. Əslinə qalsa, hər iki ziddiyyətli yanaşmada barışıq yarada bilən ortaq məqam mövcuddur: din hansı qüvvənin əlindədirsə, o da insanları istiqamətləndirir... Təqribi hesablamalara görə, son 5500 ildə yer üzündə 14 min 500-dən çox irili-xırdalı müharibə baş vermiş və bu münaqişələrdə 3,5 milyardan çox insanın həyatına son qoyulmuşdur. Tarixçilər onu da hesablamışlar ki, həmin minilliklər ərzində bəşəriyyət üst-üstə yalnız 300 il əmin-amanlıq içərisində yaşamış, hər yüz ildə cəmi bir həftə asudə nəfəs ala bilmişdir! İndiyədək baş vermiş humanitar fəlakətlərin bir çoxunun kökündə siyasi və iqtisadi maraqların, ərazi iddialarının dayanmasına baxmayaraq, onların əsl səbəblərinin saxta dini bəhanələr altında gizlədilməsi də şəksizdir. İstisnasız olaraq bütün konfessiyaların insanları sülhə, əmin-amanlığa çağırmasına baxmayaraq, indiyədək törədilmiş soyqırımı və terror aktlarının, kütləvi insan tələfatı ilə nəticələnmiş silahlı toqquşmaların dərinləşdirilməsində məhz "dini dözümsüzlük" amilindən də istifadə edilmişdir. Odur ki yer üzündə sırf "dini zəmində" baş vermiş müharibələrin dəqiq statistikası məlum deyildir. Bir sıra mütəxəssislər isə silahlı münaqişələrin cəmi 6,87%-ni "dini zəmində qarşıdurma" kimi xarakterizə etməklə kifayətlənirlər.

Qlobal siyasəti çox zaman şahmat oyununa bənzədirlər. Əslində, tarixin bütün mərhələlərində onun da öz qrosmeysterləri və diletantları, çoxgedişli mürəkkəb uğurlu

kombinasiyaları, şaş, mat, pat və ya suqsvanq vəziyyətləri, iri fiqurları və istənilən an qurban verilə bilən piyadaları, "şah" olmaq iddiası yaşayan "vəzir"ləri vardır. Siyasət meydanında "şahmat gedişi", "qrosmeyster oyunu" ifadələri isə, bir qayda olaraq, gələcəyi hədəfə alan mükəmməl strategiyaya, çevik, gözlənilməz taktiki gedişlərə aid edilir. Qlobal siyasətin məşhur qrosmeysterlərindən sayılan Zbiqnev Bjezinski "Böyük şahmat taxtası: Amerikanın hökmranlığı və onun geostrateji imperativləri" kitabında dinləri siyasi məqsədlərə çatmaq üçün əlverişli vasitələrdən biri kimi dəyərləndirirdi. Onun fikrincə, beynəlxalq siyasətdə, geosiyasi maraqların ödənilməsində, ayrı-ayrı dövlətlərin strateji gedişlərində, münaqişələrin, xüsusilə Qərb və Şərq arasında qarşıdurmaların yaradılmasında və ya sülhün əldə olunmasında din amilinin əhəmiyyəti olduqca böyükdür. Onun qənaətinə görə, müxtəlif konfessiyalar və dini cərəyanlar dünya siyasətinə, dövlətlər və xalqlar arasında münasibətlərə, siyasi rejimlərə güclü təsir etmək imkanına malikdir. Eyni zamanda bu amil geosiyasi şahmat oyunlarında – sosial qarşıdurmalar, din pərdəsi altında gizlədilən kütləvi etirazlar vasitəsilə dövlətlərin siyasi iradəsinin dəyişdirilməsində, onlar arasında hərbi-siyasi qarşıdurmaların salınmasında, işğal və hərbi əməliyyatlara bəraət qazandırılmasında, etnik, dini separatizmin qızışdırılmasında, daxili proseslərə müdaxilə olunmasında effektiv və sınanmış müttəfiq funksiyasını daşımaqdadır.

"Dini müharibələr" termini, bir qayda olaraq, müxtəlif konfessiyalara aid icmalar arasında və ya dini icmalarla dövlət arasında hərbi-siyasi toqquşmalar kimi izah edilir. Elmi mənbələrdə dinlərarası müharibələrə misal çəkdikdə, bir qayda olaraq,

Yəhuda müharibələrini (e.ə. 66-136-cı illər), Bizans-ərəb müharibələrini (VII-XI əsrlər), səlib yürüşlərini (XI-XIII əsrlər), Fransada katharlara qarşı səlib yürüşünü (1209-1229), Şimal səlib yürüşünü (XII-XIV əsrlər), Avropada katoliklər və protestantlar (qugenotlar) arasında müharibəni (1562-1598-ci illər), "Səksənillik müharibəni" (1568-1648), "Otuzillik müharibəni" (1618-1648), Afrikada və Asiyada müsəlmanlar və xristianlar arasında müharibələri (XVI-XIX əsrlər), Hindistanda müsəlmanlar və hindlilər arasında silahlı toqquşmaları (XX əsr), İsrail-ərəb müharibələrini (XX-XXI əsrlər) və s. önə çəkirlər. Halbuki həmin qarşıdurmaların da hər birinin arxasında iqtisadi, siyasi mənafelər tam çılpaqlığı ilə dayanmış, din ya bəhanə, ya manipulyator, ya da katalizator funksiyasını daşımışdır.

Xatırlatmaq istərdik ki, orta əsrlərdə baş vermiş çoxsaylı səlib yürüşləri zahirən dini xarakter daşısa da,



XIII əsrdə Kastiliya (İspaniya) kralı X Alfonsonun sifarişi ilə tərtib edilmiş "Libro de los juegos" ("Oyunlar kitabı") toplusundan götürülmüş bu şəkillər siyasətdə böyük şahmat oyununun qədim tarixi köklərə malik olduğunu göstərir. Yuxarıdan aşağıya: xristian və müsəlman, yəhudi və müsəlman, din xadimi və kral şahmat taxtası arxasında

kütləvi psixi epidemiya yaratmış həmin dini-siyasi mif-stereotiplərin arxasında Avropanın sosial-iqtisadi məqsədləri dayanırdı. Aclıq və səfalətdən əziyyət çəkən xristian dünyası sosial partlayış ərəfəsində idi. Artıq xalq narazılığının işartıları lokal qiyamlar şəklində özünü büruzə verirdi. Nəhayət, kilsə və monarxlar getdikcə dərinləşən böhrandan çıxış yolu kimi narazı kütlənin aqressiyasını "xarici düşmən"ə yönəltmək, qiyam təhlükəsini özlərindən uzaqlaşdırmaq üçün onları İsa Məsihin məzarını (?) müsəlmanların əsarətindən azad etməyə, xristianların torpaqları uğrunda "müqəddəs müharibə"yə, əslində, qarət və soyğunçuluğa ruhlandırmışdı. Roma papası II Urban Klermon kilsəsindəki məşhur moizəsində *(26 noyabr, 1095-ci il)* cəngavərləri Fələstini – "üzərində bal və süd çayları axan müqəddəs torpaqlarımızı Persiyanın şər qüvvələrə tapınan türk tayfasının" əsarətindən xilas etməyə çağırmışdı. Bir tərəfdən səlib yürüşlərinə xeyir-dua verən, digər tərəfdən həmin səfərlərdən xeyli gəlir gözləyən kilsənin müsəlmanlara münasibəti nifrət və hərislik üzərində köklənmişdi. Məhz bu hiss avropalıların təsəvvüründə müsəlmanların mənfi obrazını formalaşdırır, insan qətlinə bəraət verərək onu "Rəbbə xoş olan əməl" adlandırır, kütlənin şüurunda dini fanatizmin dərin kök salmasına imkanlar açırdı. Kilsə əlinə silah alan xristianları "zəvvar", İsa Məsihi tanımayan kafirlərlə müharibəni isə "müqəddəs torpağın ziyarəti" kimi tanıdırdı. Lakin o da sirr deyil ki, müharibə Avropanın maddi imkanlarının xeyli artması ilə nəticələnmişdir. Misal üçün, səlib yürüşlərinin ən böyük qəhrəmanı sayılan İngiltərə kralı I Riçard həm xəzinəsini doldurmaq, həm də gələcək hərbi səfərlərini maliyyələşdirmək üçün zəbt etdiyi ərazilərin satışına və

vergi yığımına başlamış, döyüşlərdə fərqlənən cəngavərlərə böyük pullar müqabilində zadəgan titulları vermişdir. Kilsə və monarxlarla yanaşı, bu yürüşlərdən ən çox qazanan İtaliyanın liman şəhərləri olmuşdur. Onlar təqribən iki yüz il ərzində iritutumlu yelkənli gəmilərlə səlibçiləri Aralıq dənizindən keçirərək "müqəddəs torpaqlar"a çatdırmışdır.

Lakin cəngavərlər və əlisilahlı "zəvvarlar" Fələstinə aparan yolda var-dövlətlə, bolluqla, bal-süd çayları ilə deyil, məhrumiyyətlər, aclıq, xəstəlik və səfalətlə üzləşmişdilər. Məsələn, 1098-ci ildə ac Avropa cəngavərləri Suriyanın Maar qalasını iki ay mühasirədə saxladıqdan sonra müsəlmanların təslim olması barədə razılığa gəlmişdilər. Danışıqlara görə, yerli əhaliyə aman verilməli və onlar qalanı maneəsiz tərk etməli idilər. Lakin qalanı ələ keçirən "imanlı" səlibçilər burada vəd olunmuş sərvətə rast gəlməmiş və bütün müsəlmanları xüsusi amansızlıqla qətlə yetirmişlər. Xristian salnaməçisi Ralf Koen yazırdı: **"Döyüş iştirakçılarının bəziləri danışırdılar ki, onlar aclıq üzündən yaşlı müsəlmanları qazanda, uşaqları isə şişə keçirib bişirirdilər".** Digər tarixçi Şartrlı Fulxerin sözlərinə görə, **"Adamlarımızın bir çoxu aclıqdan ağlını itirmişdi. Onlar ölmüş sarasinlərin ətlərini kəsir, ocaqda tam bişməsini gözləmədən vəhşilər kimi marçıltı ilə yeyirdilər".** Axenli Albert isə bu mənzərəyə öz əlavəsini edirdi: **"Səlibçilər təkcə müsəlmanların meyitlərini deyil, hətta itləri də yeməkdən çəkinmirdilər"**.[3] Yeri gəlmişkən, səlib yürüşləri haqqında Qərbdə formalaşmış dini stereotiplərin əksinə olaraq

[3] Thomas Asbridge, «The First Crusade: A New History», Oxford University Press, 2004

onlar yalnız müsəlmanlarla deyil, dindaşlarına – "batil" Bizans kilsəsinin xristianlarına qarşı da vuruşur, məbədləri qarət edirdilər. Bunun şahidi olmuş yunan tarixçisi Nikita Xionatın yazdıqlarına əsasən **"Onlar** *(səlibçilər)* **soyğunçuluq edir, İsa Məsihin və həvarilərin təsvirləri olan müqəddəs ikonaları yerə çırpır, tapdalayır və əgər üzərlərində qiymətli bir şey tapırdılarsa, dartıb qoparırdılar. İkonaları isə yoldan keçənlərin ayaqları altında qalsın deyə ya küçəyə tullayır, ya da yemək bişirəndə ocağa atırdılar"**.[4]

Kanadalı filosof, MakGill Universitetinin professoru Çarlz Teylor da bu qənaəti bölüşür və yazır ki, beyinlərə "dinlərarası münaqişələr", "dini müharibələr", "Şərq-Qərb qarşıdurması" kimi yeridilən bütün münaqişələrin nə mədəniyyətlərarası, nə də sivilizasiyalararası ziddiyyətlərlə əlaqəsi var. Müharibələrin "insanların öz dini identikliklərini zərərli xarici təsirlərdən qoruyan vasitə" kimi təqdim edilməsi təhlükəli yanlışlıqdır. Çünki həm nəzəri, həm də məntiqi baxımdan bütün "dini müharibələr"də, əsasən, aşağıdakı əlamətlər özünü büruzə verməlidir:

Birincisi, bu tip müharibələrin baş verməsi üçün həmin dini təlimlər və onların daşıyıcıları arasındakı ziddiyyətlər siyasiləşdirilməli, kəskin xarakter almalı, hər iki tərəfin iqtisadi-siyasi və sosial vəziyyətinə ciddi təsir göstərməli və son nəticədə qarşılıqlı nifrət hissi kəskinləşərək silahlı qarşıdurma səviyyəsinə çatdırılmalıdır. İkinci əlamətə görə, belə müharibələrdə döyüş əməliyyatlarına, orduya peşəkar

[4] Thomas Asbridge, «The First Crusade: A New History», Oxford University Press, 2004

hərbçilər deyil, dini liderlər, ruhanilər rəhbərlik etməli, hərbi kampaniyalarda dini rəmzlərə və şüarlara üstünlük verilməlidir. Sonuncu əlamətə gəldikdə isə hərbi qarşıdurmada iştirak edən tərəflərdən, heç olmasa, birinin döyüşçülərini bir dinin nümayəndələri – ruhanilər, sıravi dindarlar təşkil etməlidir. Doğrudur, yaxın tarixdə məhz sonuncu əlamətə nisbətən cavab verən silahlı toqquşmalar baş versə də, təhlillər zamanı onların arxasında, əsasən, üçüncü tərəfin geosiyasi və geoiqtisadi maraqlarının dayanması üzə çıxır.

Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2025-ci ildə Bakıda "İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda keçirilmiş beynəlxalq konfransın iştirakçılarına ünvanladığı müraciətdə deyilirdi: **"İslamofobiya son dövrdə qlobal müstəvidə daha qabarıq və sistematik xarakter almağa başlamışdır. Hazırda bu mənfi tendensiya hər hansı konkret ölkədə deyil, dünyanın bir çox yerlərində müşahidə olunur. İslama qarşı düşmənçilik, müsəlmanlara qarşı nifrət və dözümsüzlük, antiislam əhvali-ruhiyyəsi getdikcə böyük vüsət almağa başlayır və daha da kəskinləşir… Bu cür ədalətsiz və qərəzli münasibət müsəlmanların cəmiyyətə inteqrasiya olunmalarına və özlərini onun bərabərhüquqlu üzvü kimi hiss etmələrinə böyük maneə yaradır".** Azərbaycan Prezidenti onu da bildirmişdir ki, vaxtilə qul ticarəti ilə məşğul olan, işğalçılıq və müstəmləkəçilik siyasəti yürüdən, soyqırımları törədən, indi isə özlərini insan hüquqlarının keşiyində duran demokratik ölkələr qismində təqdim edən bəzi ölkələrdə bu gün islamofobiya, bir növ, dövlət siyasətinə çevrilmişdir. Bu ölkələrdə

dünyəvi dəyərlərin müdafiəsi adı altında müsəlmanların hüquqlarını və etiqad azadlığını məhdudlaşdıran qanunlar qəbul edilir, onların təhsil almaq, mənzilə sahib olmaq, işlə təmin olunmaq və digər hüquqları tapdalanır.

Müraciətdə o da vurğulanmışdır ki, bu gün islamofobiya kimi ümumbəşəri bəlaya və təhlükəyə qarşı nəinki mübarizə aparılmır, hətta bir sıra ölkələrdə onun yayılması təşviq edilir. İslam dinini və müsəlmanları Qərb kimliyinə və dəyərlərinə təhdid kimi göstərərək insanların hisslərini və düşüncələrini yönəltməyə çalışan radikal cərəyanların və ifrat sağçı partiyaların pərəstişkarlarının sayı getdikcə artır, onların nümayəndələri parlamentlərdə daha çox yer qazanmağa başlayırlar. Eyni zamanda Avropa Parlamenti və Avropa Şurası Parlament Assambleyası kimi təsisatlar qərəz və ikili standartlara üstünlük verərək antimüsəlman əhvali-ruhiyyəsini təlqin edir.[5]

Hüquqi anlamda din bəşəriyyətin indiyədək mövcud olan ən mürəkkəb və mükəmməl sosial institutu kimi qəbul edilir. "Din" anlayışı son dövrlərədək ümumbəşəri mədəniyyətin mühüm elementi, mənəvi-əxlaqi dəyərlər sistemi kimi dərk edilir, onların hər biri özünəməxsus dayanıqlı stereotipləri – ehkam və ənənələri, ayin və münasibətlər sistemi, məhdudiyyət və qadağaları, davranış normaları və s. ilə seçilirdi. Lakin müasir dövrdə iradə və istəyimizdən asılı olmayaraq bütün konfessiyalar bu çərçivədən çıxmış, siyasiləşdirilmiş və daha doğrusu, geosiyasi və geoiqtisadi maraqların ödənilməsində təsirli vasitəyə çevrilmişdir. Hazırda

[5] "İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına https://president.az/az/articles/view/68919

hakimiyyət kürsüsünə can atan "siyasiləşmiş din" və hakimiyyətin kütlələri idarə etməsi üçün "dini siyasət" kimi anlayışlar ictimai dövriyyəyə möhkəm daxil olmuşdur. Tarixi təcrübələr sübut edir ki, din ictimai şüura təsiretmə imkanları sayəsində təkcə cəmiyyət daxilindəki sosial-mədəni proseslərə deyil, hətta dövlətlərarası münasibətlərə də ciddi təsir göstərməyə, qarşıdurma və ya barışıq yaratmağa qadirdir. Belə olan təqdirdə "din" anlayışını politoloji mövqedən, dini təhlükəsizlik kontekstindən şərh etdikdə o, böyük səfərbəredici qüvvəyə, mükəmməl manipulyativ imkanlara, geniş sosial bazaya malik olan ideologiyadır. Dövlətçiliyin möhkəmləndirilməsinə yönəldilə və ya destruktiv vasitə kimi istifadə edilə bilən bu ideologiya dini identikliyin, siyasi mövqeyin formalaşmasında, dünyəvilik prinsiplərindən fərqlənən davranışın, düşüncə tərzinin, siyasi maraqlara yönəldilən avtostereotiplərin[6] və heterostereotiplərin[7] yaranmasında və yayılmasında başlıca rol oynayır. Bəşəriyyətin xilas yolunu xalqlar, dinlər və mədəniyyətlər arasında dialoqun, sülhün bərqərar olunmasında, ortaq dəyər və təmas nöqtələrinin müəyyən edilməsində görən Mahatma Qandinin "Rəbbin dini yoxdur" sözləri bir vaxtlar qatı dindarlarda şok effekti yaratmış, onu ateizmdə və ya aqnostisizmdə ittiham etmişlər. Yunis Əmrə kimi "yaradılanı Yaradanın xatirinə" sevməyi təbliğ edən dərin imanlı mütəfəkkirlər müxtəlif xalqların fərqi adlarla çağırdıqları Mütləq Həqiqətə nəinki qarşı çıxmış, insanların inanclarını sarsıtmaq

---

[6] ***Avtostereotiplər*** – etnik və ya dini toplumun, siyasi qrupun özü haqqında formalaşdırdığı dayanıqlı müsbət rəy

[7] ***Heterostereotiplər*** – fərqli etnik, irqi, dini toplumlar haqqında yaradılan, əsasən, mənfi xarakter daşıyan ümumiləşdirilmiş rəy

niyyətinə düşmüş, əksinə, dinin siyasiləşməsinə, insanlar arasına nifaq, qarşıdurma salınmasında ondan bir alət kimi istifadə edilməsinə qarşı çıxmışlar.

Son hesablamalara görə, hazırda yer üzündə 2780-dən çox din, məzhəb, təriqət, cərəyan, deməli, bir o qədər də dünyanı dərketmə yolu vardır. ABŞ-nin populyar "Christian Post" saytının yazdıqlarına görə, 2022-ci ildə dünya əhalisinin 62%-i özünü dindar, 9%-i ateist hesab etmişdir. Respondentlərin 25%-i isə mövqeyini hələ də müəyyənləşdirməmişdir. O da maraqlıdır ki, həm dindarların, həm də ateistlərin sayında davamlı olaraq artım müşahidə olunmaqdadır. Ciddi sosioloji araşdırma tələb edən məsələlərdən biri də ənənəvi olaraq xristian dövləti hesab edilən dövlətlərdə İsa Məsihə tapınanların sayının azalması, lakin qeyri-xristian ölkələrdə onların sayının sürətlə artmasıdır. Mütəxəssislərin qənaətinə əsasən məhz missionerlik fəaliyyətinin genişləndirilməsi sayəsində 2050-ci ilədək dünyanın xristian əhalisinin 50,4%-i İsa Məsih təliminin dominant din olmadığı müsəlman dövlətlərinin ərazisində cəmləşəcəkdir.[8] Amerikanın "Pew Research Center" tədqiqat mərkəzinin dinlərin gələcəyi ilə bağlı proqnozları isə nisbətən fərqlidir. Belə ki, yaxın 40 il ərzində xristianlıq ən çoxsaylı konfessiya kimi dominant mövqeyini qorumağa çalışsa da, islam digər dinlərlə müqayisədə daha geniş coğrafi əraziləri əhatə edəcəkdir. 2050-ci ilə kimi dünyada müsəlmanların demoqrafik göstəriciləri isə

[8] R.Foley. Religious populations growing faster than atheists worldwide; 2 Christian denominations stand out: report, Christian Post Reporter, https://www.christianpost.com/news/religious-populations-growing-faster-than-atheists-worldwide.html

təqribən İsa Məsih ardıcıllarının sayı qədər olacaqdır. Buddistlərin demoqrafik vəziyyəti isə tədricən 2010-cu il səviyyəsinə enəcəkdir. Bundan başqa, Avropa əhalisinin 10%-i müsəlmanlardan ibarət olacaq, ABŞ-də xristianların sayı 30% azalacaq, dünyanın hər on xristianından biri Afrikada yaşayacaqdır. Müsəlmanlar arasında artım 2010-cu il ilə müqayisədə 73%-ə çatacaq, 2050-ci ildə isə onların sayı 2,8 milyard nəfər təşkil edəcəkdir. Bu həmin dövr üçün xristianların ümumi sayına bərabər olacaqdır.[9]

İslamofobiya dinlər arasında qarşıdurma deyil, dinlərdən qarşıdurma vasitəsi kimi istifadə edilməsidir. Təhlillərə görə, xristian və müsəlman mədəniyyətləri, reallıqda isə Şərq və Qərb arasında fərqlərin etnosiyasi və etnomədəni ziddiyyətlər səviyyəsinə, islamofobiyanın isə kütləvi psixoz həddinə çatdırılması, Avropada demoqrafik dəyişikliklərin, iqtisadi-maliyyə və mədəni problemlərin getdikcə dərinləşməsi "siyasi avropasentrizm" nəzəriyyəsinin sürətli iflasına güclü təkan vermişdir. Bu proseslər Qərb dövlətlərini həm daxildən sarsıtmış, həm də onlar arasında qarşılıqlı etimadı, əməkdaşlığı nəzərə çarpacaq dərəcədə zəiflətmiş, "mərkəzdənqaçma" meylini sürətləndirmişdir. Avropa öz daxili problemlərini həll etmək əvəzinə "xarici düşmən" obrazını gündəmə gətirərək geosiyasi və geoiqtisadi maraqlar naminə bütün imkan və bacarıqlarını regiona daxil olmayan dövlətlərin, xüsusilə suveren Yaxın Şərq və Şimali Afrikanın müsəlman ölkələrinin daxili işlərinə kobud müdaxiləyə, "demokratiyanın yayılması" örtüyü altında öz uğursuz

[9] Будущее мировых религий: прогнозы демографического роста – 2010-2050, Pew Research Center, https://inosmi.ru/religion/20170208/238688310.html

dəyərlərinin ixracına yönəltmiş, bununla da həmin ərazilərdə etnik və dini zəmində silahlı qarşıdurmalara, separatizm və terror fəaliyyətinə süni zəmin yaratmışdır.

Lakin "bumeranq effekti" Qərb-Şərq münasibətlərində də özünü göstərmiş, Avropa ailəsi geri qayıdan analoji problemlərlə – etnik və dini separatizmin, ksenofobiyanın, neofaşizmin, dini və irqi dözümsüzlüyün radikal təzahürləri ilə üzləşmişdir. Nəticədə, Qərbi yeni sosial bəlalardan "xilas etməyə" çalışan ifrat millətçi və radikal dini partiyaların siyasi əhatə dairəsi və təsiretmə imkanları genişlənmişdir. Bütün bunlar isə Avropada mərkəzdənqaçma prosesinin daha da sürətlənməsinə, "Ümum-Avropa evi"nin parçalanması ehtimalının sürətlə reallaşmasına zəmin yaratmışdır. Məsələn, Böyük Britaniya Avropa İttifaqı sıralarını tamamilə tərk etməklə bütün imkanlarını özünün daxili problemlərinin həllinə yönəltmiş, Ağ Ev administrasiyası bu ittifaqa daxil olan dövlətlərə ABŞ ilə birbaşa iqtisadi və siyasi əlaqələrin qurulmasını tövsiyə etmişdir. Danimarka, İsveçrə, Norveç və Finlandiya isə avrozonadan çıxmaqla Aİ-nin alternativ variantının – özlərinin siyasi-iqtisadi və mədəni ittifaqının – "Şimal Birliyi"nin yaradılması təşəbbüsünü irəli sürmüşdür.

XIX əsrdə bəşəriyyət rasional düşüncənin hakim olduğu mərhələyə qədəm qoymuşdur. Bu mərhələdə elm və texnikanın inkişafı, materialist düşüncənin sürətlə yayılması dinin siyasi və mədəni dayaqlarının zəifləməsinə, onun ehkamlarının təftişinə mühüm təsir göstərmişdir. Dünyanı dərketmə formaları təkmilləşdikcə ənənəvi dini təsəvvürlər ümumi təkamül prosesindən geri qalmış, öz doqmalarını inadla qorumağa çalışmışdır. Nəticədə, Qərb dünyası özü-

nün geosiyasi və geoiqtisadi iddialarını təmin etmək, natamamlıq kompleksindən qurtulmaq məqsədilə xristianlığın təhrifindən, onun ideoloji imkanlarından bəhrələnmək yolunu seçmişdir. O da sirr deyildir ki, son yüz ildə baş vermiş davamlı münaqişələr üzündən müsəlman dünyası böyük itkilər vermiş, humanitar fəlakətə məruz qalmışdır. Bu ölkələrdə daxili siyasi vəziyyət gərginləşərək böhran, "əlvan inqilablara" əlverişli zəmin xarakteri almış, sosial qruplar, eləcə də müxtəlif din, məzhəb və təriqətlərə mənsub icmalar arasında ziddiyyətlər dərinləşmiş, təhsil, mədəniyyət, əhalinin yaşam tərzi, onun intellektual səviyyəsi tənəzzül etmişdir. Bu isə xaricdən idarə edilən radikal dini cərəyanların fəallaşması, din pərdəsi altında fəaliyyət göstərən destruktiv siyasi qruplaşmaların region üçün qeyri-ənənəvi olan zərərli dini ideologiyalarının yayılması üçün imkanlar açmışdır. 2005-ci ildən etibarən başlanan "karikatur qalmaqalı" xristian və müsəlman mədəniyyətləri daşıyıcıları arasında uçurumu daha da dərinləşdirmiş, islamofobiyanı siyasi gündəmə gətirmişdir. Məlum terror hadisəsindən sonra Parisdə nəşr olunan "Charlie Hebdo" jurnalının baş redaktoru Loran Surisso müsəlmanların inancını təhqir edən rəsmlərin yayımlanmamasına söz versə də, "The Washington Post" qəzetinə müsahibəsində əvvəlki mövqedə qaldığını və aşağılayıcı karikaturların dərcinin "Qərb demokratik dəyərləri" ilə bağlılığını belə ifadə etmişdir: **"Jurnalın əməkdaşları islam peyğəmbərinin karikaturlarından özünüifadə azadlığı prinsiplərinin müdafiəsi məqsədilə istifadə edirdilər..."**

Hörmətli oxucu! Bu kitab Şərqin polietnik müsəlman mədəniyyəti ilə Avropa mədəniyyəti arasında bu gün süni

şəkildə siyasi müstəviyə çıxarılan Qərb-Şərq qarşıdurmasına, Qərbin "unutduğu" tarixi əlaqələrə, ortaq dəyərlərə həsr olunmuşdur. Kitabın yazılmasında məqsəd həmin tarixi əlaqələri bir daha xatırlatmaqla yanaşı, xristianlıq və islam dini daşıyıcıları arasında uçurum yaradan, münasibətlərin bərpasına maneələr yaradan siyasi amilləri də mümkün qədər göstərməkdir. Əlbəttə, tarix subyektiv və siyasiləşdirilmiş elmdir. Tanınmış alman yazıçısı Ziqmund Qraffa görə, **"Tarix səhvlərinin aradan qaldırılması mümkün olmayan siyasət, siyasət isə qaydaya salınması hələ də mümkün olan tarixdir"**. Məsələyə müasir dinlərarası və mədəniyyətlərarası dialoq zərurəti kontekstlərindən yanaşılanda xristian və müsəlman mədəniyyətlərinin tarixi əlaqələri arasında "yaddaş itkisinin" aradan qaldırılması bu gün artıq taleyüklü vəzifəyə çevrilmişdir. Qarşıda iki yol var. Onlardan birini – tarixi əlaqələrin köklərinə qayıdışı eramızdan əvvəl VI əsrdə yaşamış Çin mütəfəkkiri Sun-Tzı tövsiyə edir: **"Min il əvvəl baş verənlər mütləq təkrarlanır. Keçmişin daimiliyi də budur"**. Əks təqdirdə bəşəriyyət vaxtilə Hegelin nişan verdiyi ikinci yolu tutmağa məcbur ediləcəkdir: **"Tarixin dərsi onun xalqlara heç vaxt və heç nəyi öyrətməməsidir"**. Yeri gəlmişkən, müasir beynəlxalq ictimai-siyasi leksikada "böhran" kimi qəbul olunan çoxişlənən "krizis" kəlməsi siyasi və sosial stereotiplər sayəsində məzmununu radikal şəkildə dəyişmişdir. İlk dövrlərdə bu kəlmə yunan dilində *(κρίσις)* "dönüş nöqtəsi", "problemləri həll etmək" anlamını verirdi. Həqiqətən də, dünyanın böhrandan dönüş nöqtəsinə keçməsi vaxtı çatmışdır.

Araz Qurbanov

Dialoq əzabları

"Dialoq zamanı "Siz məni başa düşmədiniz"
deməyin. Ən yaxşı halda deyin ki, "Mən, deyəsən,
fikrimi sizə düzgün çatdıra bilmədim".
Rober Merl,
fransız yazıçısı

…Dialoq iki və ya daha çox insanın söhbətidir. Əgər iki nəfər bir-birinin sözünü kəsib özünün haqlı olduğunu inandırmağa çalışırsa, buna "mübahisə" deyirlər. Onların ortaq rəyə gəlməsi çətin məsələdir. Amma tərəflərdən biri səsini qaldırıb digərini ağzını açmağa belə qoymursa, bu, faydası olmayan monoloqdur. Ən nəhəyət, əgər həmin iki nəfər bir-birini səbirlə dinləyib fikirlərini bölüşə bilirlərsə, bu artıq dialoqdur. Təəssüf ki, bu gün ən müxtəlif səviyyələrdə mənasız qızğın mübahisələr də, birinin digərinə təzyiq formasına çevrilən psevdomonoloq da "sağlam dialoq" kimi təqdim olunmaqdadır.

Bəşəriyyət XXI əsrə böyük ümidlərlə ayaq basmışdır. Lakin yeni minilliyin ilk illərindən etibarən dünyanın növbəti dəfə humanitar və təbii fəlakətlərlə, müharibələr və siyasi münaqişələrlə, fasiləsiz dini, irqi, etnik qarşıdurmalarla, qütbləşmə meyilləri ilə yüklənməsi, təhdidlərin qlobal miqyas alması onda gələcəyə inamsızlıq, ruh düşkünlüyü yaratdı. Xalqlar arasında ksenofobiyanın, etnofobiyanın, etnik və dini

narsizmin və dözümsüzlüyün getdikcə radikal xarakter alması, mədəni müxtəlifliyin zorən "qlobal etnosiyasi və etnomədəni standartlar" çərçivəsinə salınması cəhdləri yeni dövrü daha mürəkkəb proseslərlə üz-üzə qoymuşdur.

Hələ 2009-cu ildə UNESCO-nun yer üzündə mədəni müxtəlifliyin qorunmasına və mədəniyyətlərarası dialoqa sərmayə qoyulmasına dair geniş hesabatında bu problemlərin həllinin vacibliyi insanlıq qarşısında duran taleyüklü vəzifələrdən biri kimi dəyərləndirilmişdir. Hesabatda vurğulanmışdır ki, dünyanın mədəni müxtəlifliyi bütün bəşəriyyətə məxsus olan misilsiz nailiyyət və ən dəyərli sərvətdir və bu xəzinə qorunmalı, olduğu kimi qəbul edilməlidir. Dünya mədəniyyətləri üçün hər hansı bir iyerarxiya pilləsi mövcud deyildir. Dövlətlərin yaratdıqları müxtəlif ittifaq, alyans və birliklərin özəl maraqlarına baxmayaraq, hər bir xalq öz gələcəyi naminə digərləri ilə sağlam, səmimi münasibətlərin qurulmasına həvəslidir. Bu arzunun qlobal zərurətə çevrilməsi üçün atılan istənilən əməli addımın, gerçəkləşən hər bir xoş niyyətin böyük əhəmiyyəti vardır. Sənəddə bildirilirdi: **"Bizim dünyamız özünün mahiyyəti etibarilə elə bir mühitdir ki, burada bəşəriyyəti formalaşdıran bütün mədəniyyətlər qarşılıqlı əlaqələr, birgəyaşayış və plüralizm şəraitində mövcuddur. Bizim "inkişaf" adlandırdığımız proses davamlı olaraq irəlilədikcə həmin mədəni rəngarənglikdən fəal şəkildə istifadə etməliyik".**[10]

İstənilən dialoqun məqsədi qarşılıqlı hörmət, qarşılıqlı güzəşt və hüquq bərabərliyi əsasında qarşılıqlı anlaşmaya

[10] Инвестирование в культурное разнообразие и межкультурный диалог: всемирный доклад ЮНЕСКО, https://unesdoc.unesco.org/ark:/48223/pf0000185202_rus

nail olmaqdır. Mədəniyyətlər arasında sağlam əlaqələrin qurulması prosesi müasir qloballaşmanın real mənfi və müsbət tendensiyalarının göstəricisidir. Bu proses bir tərəfdən dünya əhalisinin sosial-mədəni həyatına öz təsirini göstərməklə digər tərəfdən fərqli etnik mədəniyyətlərin inkişaf yollarının xarakterini müəyyən edir. Müasir beynəlxalq münasibətlərin təcrübəsi də təsdiq edir ki, bu gün mədəniyyətlər və sivilizasiyalar arasında dialoqun reallaşmasına ən böyük maneə dünya dövlətlərinin iqtisadi və siyasi bərabərsizliyi, fövqəldövlətlərin, hərbi-siyasi, iqtisadi koalisiyaların, transmilli şirkətlərin geosiyasi və geoiqtisadi maraqları, təbii ehtiyatlar və bazar uğrunda yırtıcı rəqabətidir. Məhz həmin mənafelərin ödənilməsi məqsədilə baş verən hərbi-siyasi və etnomədəni qarşıdurmalar, xalqların və mədəniyyətlərin irqi, etnik, dini fərqlərinin siyasiləşdirilməsi bir tərəfdən qlobal problemlərin birgə səylərlə həllini çətinləşdirir, digər tərəfdən müxtəlif mədəniyyətlərin, dinlərin daşıyıcıları arasında dialoqun qurulmasına mənfi təsir göstərir.

Bu gün din də, təəssüf ki, mənəvi dəyərlər sistemindən çıxarılmaqdadır. Onu əvvəlki mövqeyinə qaytarmaq çətin məsələdir. Siyasiləşdirilmiş din ictimai şüurun manipulyasiyasında, insanların davranışının, mövqeyinin, cəmiyyətdə yerinin və fəallıq səviyyəsinin müəyyən edilməsində güclü təbliğat vasitəsinə çevrilmişdir. Heç də təsadüfi deyildir ki, kütlə təfəkküründün idarə olunmasında özünün effektivliyi ilə seçilən “siyasət + din” tandemi əvvəlki əhəmiyyətini indi də saxlamışdır. O da maraqlıdır ki, beynəlxalq terminologiyada geniş istifadə olunan *propaqanda (təbliğat)* kəlməsinin ilkin etimologiyası da “dinin təbliği” an-

lamını verir. Bu ifadə XVII yüzillikdə Romada katolik məzhəbini "günahkar kafirlər arasında" yaymaq və "batil dinlərə" qarşı mübarizə aparmaq üçün yaradılmış radikal missioner təşkilatının *(Congregatio de Propaganda Fide)* qısaldılmış adı olmuşdur.[11] Qustav le Bonun sözləri ilə desək, kütləni yanlışlığa sürükləyənlər onu asanlıqla idarə edənlərə çevrilirlər.

Bu məsələyə təkcə teoloji konteksdən deyil, bu gün dünyada cərəyan edən neqativ proseslərin təhlili müstəvisindən yanaşsaq, heç bir dinin fərqi insan toplumları arasında dözümsüzlüyü, nifrət hissini təbliğ etmədiyinə bir daha əmin olarıq. Onların humanizm, birgəyaşayış prinsipləri arasında da konseptual ziddiyyətlər yoxdur. Əgər dünyadakı bütün dinləri mental xüsusiyyətlərdən, siyasi mif və rəvayətlərdən təmizləsək, onların hər birinin özəyində eyni ehkamların – "öldürmə", "oğurlama", "başqalarına zərər vurma", "yalan danışma", "valideynlərinə hörmət et" kimi ali hökmlərin dayandığını görərik. Yalnız siyasi maraqlar dünya dinlərini bir-biri ilə açıq rəqabətə sövq etmiş, onları məzhəb və təriqətlərə, "din" adı altında pərdələnmiş siyasi qruplaşmalara bölmüşdür. Hətta Qərbin "ən humanist din" hesab etdiyi buddizm də 2017-ci ildə Myanmada baş vermiş kütləvi müsəlman qətliamından sonra minillik "tərki-dünyalıq" obrazını itirmiş, radikal dinçilərin əlində siyasi alətə çevrilmişdir. Bu qətllərdə isə günahkar nə insan, nə də onun tapındığı dindir. Baiskar inanclı insanları Rəbbin adı ilə cinayətlərə sürükləyən siyasi qüvvələr və onların "propaqandasıdır".

[11] Амелин В. Социология политики. Москва, 1992

Misal üçün, xristianlığın "əzəli günahlar" və ya "əcdadların günahları" adlandırdığı ehkama əsasən insan günahlarla doğulur və ömrünün sonunadək çirkabdan təmizlənməyə məhkumdur. O həm özü üçün, həm də əcdadlarının əvəzinə tövbə etməli, pis əməllərdən çəkinməli, axirətə təmizlənmiş, pak vəziyyətdə daxil olmalıdır. İslam dinində isə bu məsələyə münasibət fərqlidir. "Əşrəfi-məxluqat" *("yaradılanların əşrəfi"),* "xəlifə" adlandırılan insan Allahın yaratdığı ən mükəmməl varlıqdır. O, dünyaya ruhən azad, məsum, günahsız gəlmişdir və ömrü boyu İlahinin ona bəxş etdiyi bu paklığı qorumalıdır. Quranın, hədislərin təqsirsizlik prezumpsiyasına əsasən o nə valideynlərinin, nə də uzaq əcdadlarının günahlarına məsuliyyət daşıyır. Lakin hazırda fövqəlgüclərin ssenariləri üzrə dünyada cərəyan edən proseslər həm xristianlığın, həm də islamın həmin ehkamlarına öz "düzəlişlərini" etmişdir. Belə ki, Avropada, ABŞ-də və Yaxın Şərqdə "əzəli günahkar olan" xristianlar "günahkar", məsum müsəlmanları məhv etməklə özlərini "günahdan" təmizləyir, "pak" müsəlmanlar isə, öz növbəsində, "günahkar" xristianlara qarşı terror aksiyaları törətməklə axirətə getmək üçün "günahsızlıq zəmanəti" alırlar! Odur ki bu gün "dinlərarası dialoq" təşəbbüslərinin uğursuzluğunun səbəblərini heç də fərqli konfessiyaların bir-biri ilə qarşılıqlı əlaqə



"İnteqrasiya", "Söz azadlığı" və "Tolerantlıq" şüarları altında Qərbin Şərqlə dialoqu

qura bilməməsi bəhanəsində axtarmaq lazım deyil. Çünki "günah" bu təşəbbüsün fəlsəfəsində deyil, maraqlı tərəflərin taktiki gedişlərindədir.

Beləliklə, dövlətlər və xalqlar arasında mədəniyyət mübadiləsi, bərabərhüquqlu ünsiyyət modellərinin qurulması tarixi zərurətə çevrildikcə qlobal güc mərkəzlərinin maraqları buna paralel xətt olaraq yer üzündəki etnomədəni fərqləri və əlamətləri məqsədli şəkildə siyasiləşdirir və onları "mədəniyyətlərin qarşıdurması" amili səviyyəsinə qaldırır. Onu da xatırladaq ki, Sovet İttifaqının süqutundan sonra sabiq SSRİ məkanında, Mərkəzi və Şərqi Avropa dövlətlərində müstəqillik, demokratikləşmə və etnik özünüdərk proseslərinin genişlənməsi burada milli dövlətçiliyin formalaşmasına zəmin yaratsa da, kənar qüvvələr tərəfindən həvəsləndirilən etnik narsizm, etnofobiya, etnik natamamlıq kompleksi, buraya missioner təşkilatlarının nüfuz etdirilməsi daxili ictimai-siyasi proseslərə, xalqlar və dinlər arasında münasibətlərə ciddi təsir göstərmişdir.

Dialoqa mane olan obyektiv amillər içərisində stereotiplər – subyektiv etnomədəni mif və illüziyalar xüsusi yer tutur. Stereotipləşmə prosesi nəticəsində bir qrup – "bizimkilər" başqaları ilə müqayisədə özlərini daha üstün, daha mədəni hesab edir, qarşı tərəfin mədəniyyətini birtərəfli və əsasən, mənfi kontekstdə nəzərdən keçirir, "özgələrin" mənəvi dəyərlərini, həyat və davranış tərzlərini isə özlərinə qarşı təhdid kimi qiymətləndirirlər. Bu zaman çoxluqda olan "bizimkilər" qarşı tərəfin – azlığın etnik və dini identikliyini nəzərə almadan onların da özlərinə oxşamasına, eyni mədəniyyəti, eyni mənəvi-əxlaqi dəyərləri, həyat və davranış tərzlərini bölüşdürməsinə səy göstərir. Bu tələblərə uyğun

gəlməyənlər, yaxud da həmin cəhdlərə etiraz edənlər haqqında isə "düşmən obrazı" yaradılır.

Bu gün fərqli mədəniyyətlər arasında ortaq birgəyaşayış normalarının müəyyən edilməsi probleminin getdikcə aktual xarakter alması bütövlükdə "mədəniyyət" anlayışına yeni yozum verilməsini gündəmə gətirmişdir. Mövcud şəraitə əsasən müasir "mədəniyyət" anlayışı həm də müxtəlif sosial qruplara xas olan fərqli həyat və davranış tərzlərinin, inanc və dəyərlər sisteminin, dünyagörüşünün, ünsiyyət modellərinin və s. məcmusudur. Bəşəriyyətin minilliklər ərzində topladığı təcrübə onu göstərir ki, fərqli mədəniyyətlər arasında istənilən səviyyədə dialoqun, qarşılıqlı anlaşmanın əldə olunmasına aparan yolun başlanğıcında təkcə siyasi-iqtisadi məqsədlər, korporativ mənafelər deyil, digər amillər – tərəflərin tarixi ənənə halını almış ziddiyyətli münasibətləri, dayanıqlı yanlış təsəvvürlər, fərqli etnomədəni və etnosiyasi maraqlar, din amili, dayanıqlı stereotiplər və s. də dayanır. Əlbəttə, bu maneələrin dəf olunması mürəkkəb və birgə səylər tələb edən prosesdir. Çünki istənilən halda mədəniyyətlər və sivilizasiyalar arasında sağlam və davamlı münasibətlərin formalaşması məhz həmin sədlərin müəyyən edilməsindən və aradan qaldırılmasından keçir.

İstisnasız olaraq bütün fərqli konfessiya daşıyıcılarında "dini sentrizm" təzahürləri özünü qabarıq büruzə verir. Onlar öz inanclarının, mədəniyyətlərinin digərləri ilə müqayisədə daha üstün və daha mükəmməl olduğuna əmindir. Fərqli mədəniyyətlərə "bizimkilər-özgələr" müstəvisindən yanaşma onlar arasında ziddiyyətləri daha da dərinləşdirir. Mütəxəssislərin qənaətinə görə, aşağıdakı etnomə-

dəni və etnopsixoloji amillər müxtəlif mədəniyyətlərin nümayəndələri arasında sağlam münasibətlərin və qarşılıqlı anlaşmanın yaranmasına ciddi mane olur:

- *dialoq səylərinin siyasiləşdirilməsi;*
- *insanların başqalarını da özləri kimi görmək istəməsi;*
- *onların arasındakı dil və hər hansı bir fikri ifadə etmək fərqləri;*
- *daim dayanıqlı dini və etnik stereotiplərin təsiri altında olmaları, fərqli mədəniyyətlərin yanlış dəyərləndirilməsi və s.*[12]

Həm fərqli mədəniyyət daşıyıcıları olan insanlar, həm də bütöv mədəniyyətlər arasında sağlam dialoqun qurulması üçün tələb olunan yeganə prinsip çox sadədir: Başqalarının mentalitetini, həyat tərzini, inancını, xarakterini, dünyaya baxışını, bütövlükdə mədəniyyətini olduğu kimi qəbul etmək, anlamaq, onlara hörmətlə yanaşmaq və zərərli stereotipləri dağıtmaq. Bu, xalqlar, mədəniyyətlər arasında səmimi münasibətlərin, qarşılıqlı etibar və etimadın, yardımlaşmanın ilk bünövrə daşıdır. Çünki sivilizasiyaların, mədəniyyətlərin dialoqu fərqli etnomədəni toplumlarla yaxından tanış olmaq, öyrənmək, dəyər vermək, həm də özünün milli dəyərlərini zənginləşdirmək yolu ilə qazanılır. Regionlarda, dünyada sülhün və əmin-amanlığın bərqərar olunması, dövlətlər, xalqlar və mədəniyyətlər arasında bütün anlaşılmazlıqlar, münaqişələr, problemlər üçüncü tərəfin müdaxiləsinə ehtiyac olmadan

[12] А.Садохин. Межкультурные барьеры и пути их преодоления в процессе коммуникации,
http://www.ifapcom.ru/files/Monitoring/sadohin_mejcult_barrier.pdf

məhz həmin sadə, lakin möhkəm bünövrə üzərində gerçək həllini tapmalıdır. Mədəni müxtəliflik xalqlar, mədəniyyətlər arasında konfrontasiyanın deyil, yaxınlaşmanın, qarşılıqlı faydalı inteqrasiyanın, əməkdaşlıq meyillərinin güc mənbəyi kimi nəzərdə tutulmalıdır. Başqaları haqqında toplanmış bilgilər nə qədər obyektiv olarsa, qərəzli stereotiplərin və mövhumatın dağıdılmasına, dialoq iştirakçıları arasında sağlam münasibətlərin formalaşmasına, bir-birinin mənəvi dəyər və davranış normalarının dərk və qəbul etməsinə yol açır.



Qərb və Şərq sivilizasiyaları arasında dialoq Avropa karikaturlarında

Etnomədəni rəngarəngliyin qorunması, sivilizasiyalar və mədəniyyətlər arasında dialoq məsələləri bu gün dünyanın gündəmindədir. Lakin bu təşəbbüs yeni deyildir, çünki tarix həm də unudulmuş keçmişin təkrarıdır. Hələ qədim dövrlərdə, ilkin mədəniyyət və sivilizasiyaların formalaşmağa başladığı mərhələlərdə ibtidai mədəniyyətlərin qarşılıqlı mübadiləsi, maddi-mənəvi dəyərlərin həm təbii yayılması, həm də zorakı mübadiləsi baş vermiş, imperiyaların böyük coğrafi məkanları əhatə etməsi, dinlərin geniş ərazilərə yayılması, ticarət əlaqələri, müharibələr, o cümlədən səlib yürüşləri kimi amillər bu prosesi sürətləndirmişdir. Həmin qarşılıqlı mübadilə proseslərinin nəticəsidir ki, indi istənilən sivilizasiyanın və ya mədəniyyətin tarixən "toxunulmaz qaldığını", "qatqısız, saf" olduğunu iddia etmək ən yaxşı halda məlumatsızlığın əlaməti sayıla bilər.

Kütlə təfəkkürünün sağlam ictimai şüuru, azad fikri üstələməsi cəmiyyət daxilində "etnik şizofreniya" adlandırılan sosial deqradasiya prosesinə səbəb olur. Bu gün həmin diaqnozun əlamətlərinə kəskin daxili və xarici problemlərlə üzləşən ölkələrdə, o cümlədən MDB-yə üzv olan bəzi dövlətlərdə də rast gəlinir. Buna parlaq misallardan biri kütlənin şüuruna nüfuz etdirilən dayanıqlı stereotiplər nəticəsində etnik şizofreniyanın əlamətlərindən olan etnik narsizmin Ermənistanı öz çənginə almasıdır. Çünki kütlə içərisində əriyən şəxsiyyət sürətlə fərdiliyini və müstəqil düşünmək qabiliyyətini itirir, simasızlaşır və demoqrafik vahidə, statistik rəqəmə çevrilir. Görkəmli psixiatr Karl Yunqun sözləri ilə desək, **"Kütlə böyüdükcə insanlar arasındakı fərdlər daha da cılızlaşır"**. Çünki bu zaman etnik və dini identikliyi saxtalaşdırılan kütlə ona təlqin edilən istənilən dini, etnik və ya irqi stereotipləri gerçəklik kimi dərk edir və siyasətin əlində asan idarə olunan insan axınına çevrilir. K.Yunq bir fikri ilə də haqlıdır: **"Kütlə həmişə əcinnələri özünə cəlb edir"**.

Etnomədəni natamamlıq kompleksindən qaynaqlanan kütlə təfəkkürünün formalaşmasına zəmin yaradan sosial-psixoloji amillərdən biri də dini narsizmdir. Narsizm, əslində, psixiatriyada ruhi pozğunluğun diaqnozlarından olsa da, xudbinlik, özünəvurğunluq kimi izah edilsə də, sosial-ictimai həyatda onun geniş təzahürləri vardır. Tarixi təcrübə və müasir dövrün gerçəklikləri göstərir ki, təkcə ayrı-ayrı fərdlər deyil, etnik, dini, siyasi toplumlar da bu "sosial xəstəliyə" yoluxurlar.

London Universitetinin dosenti, sosial psixoloq Aqneşka Qolev dö Zavala "Aeon" jurnalında kollektiv narsizm haqqında dərc etdirdiyi məqalədə bildirir ki, hər hansı bir

qrupun *(dini, etnik toplumun)* özünü başqalarına tanıtmaq, olduğundan da pozitiv göstərmək istəyi patoloji xarakter alırsa, bu zaman onda özünəvurğunluq meyli və üstünlüyü ilə razılaşmayan tərəflərə aqressiv münasibət yaranır. Onlar əmindirlər ki, başqaları xudbinlikləri üzündən onlara ehtiramla yanaşmır, düşmən gözü ilə baxır, zərər vurmaq üçün əlverişli imkan axtarırlar. Digər tərəfdən patoloji rəqib saydıqları "özgələrin" hər bir uğursuzluğuna sevinirlər. ABŞ-dəki Yel Universitetinin psixiatriya üzrə professoru B.Li də bu fikirdədir ki, hazırda dünyada cərəyan edən siyasi, iqtisadi və sosial-mədəni proseslər fonunda etnik, dini, irqi narsizm diaqnozunu təkcə fərdlərə deyil, həm də dövlətlərə aid etmək olar. Onun qənaətinə əsasən bu diaqnozun əlamətləri aşağıdakılardır:

- *öz əhəmiyyətini və mövqeyini həddən artıq şişirtmək;*
- *heç bir əsas olmadan özünün etnik, dini və irqi üstünlüyünün başqaları tərəfindən qəbul etdirilməsinə çalışmaq;*
- *özünün etnik və dini kimliyi, "misilsiz nailiyyətləri", "zəngin intellektual imkanları və mədəni üstünlüyü" barədə rəy yaymaq;*
- *İlahinin seçdiyi toplum olduğuna əmin olmaq və başqalarını buna inandırmaq.*

Ayrı-ayrı dövlətlərdə patoloji özünəvurğunluq meyillərinin müqayisəli təhlili göstərir ki, bu vəziyyət əsas etibarilə etnomədəni natamamlıq kompleksindən əziyyət çəkən, qonşu dövlətlərlə davamlı ziddiyyətlərdə olan, daxili sosial-iqtisadi problemlərlə üzləşən ölkələrin özünümüdafiə ele-

mentidir. Bütün hallarda kollektiv narsizm bir dövlət hakimiyyətinin aqressiv sosial stereotipləri kütlə təfəkküründə yeritməklə özünə cəmiyyət içərisinə bəraət qazandırmaq cəhdləri ilə nəticələnir. Əlbəttə, beyinlərin bu tərzdə yuyulması, yeni dini, etnik stereotiplərin sosiallaşdırılması cəmiyyətin hər hansı bir məsələyə dair mövqeyinin dəyişməsinə ciddi təsir göstərir, onun təfəkküründə, yaddaşında silinməz iz buraxır. Davamlı xarakter daşıyan bu beyin yuyulması prosesinin ən ağrılı hissəsi gerçəkliklərin məqsədli şəkildə saxtalaşdırılmasıdır.

Tarixi təcrübə onu göstərir ki, xalqlar, sivilizasiyalar arasında onsuz da kövrək olan inteqrasiya məhz siyasi, iqtisadi və mədəni maraqların ciddi müdaxiləsi sayəsində geriləyərək etnomədəni böhran vəziyyəti – dezinteqrasiya və özünütəcridlə əvəzlənir. Alman sosioloqu, Münhen Universitetinin professoru, "refleksiv modernləşmə" və "risk cəmiyyəti" konsepsiyalarının müəllifi Ulrix Bek "Qloballaşma nədir? Qloballaşmanın səhvləri – qloballaşmaya cavablar" kitabında transmilli maraqları dövlətlər, xalqlar, mədəniyyətlər arasında ortaq dəyərlərin, əməkdaşlığın formalaşmasına mane olan, milli iqtisadiyyatı və milli dövlətçiliyi məhvə sürükləyən təhdid adlandırır. Onun fikrincə, qloballaşma prosesini müşayiət edən, onu istiqamətləndirən və bununla da potensiallarını artıran transmilli iqtisadiyyatın irəli sürdüyü "qlobal mədəniyyət" *(vahid din, dil, mədəniyyət, davranış normaları, təfəkkür tərzi və s.)* ideyası stereotip olsa da, öz gücünü milli dövlətlərin maddi və mənəvi həyatına, etnik və dini identikliyinə, ölkədəki etnomədəni tarazlığa ciddi müdaxilədən götürür.

U.Bek yazır: **"Əslinə qalsa, "qlobal mədəniyyət" ifadəsi yanlışdır. Həqiqətdə isə bu gün transmilli, translokal mədəniyyətlər, yeni sosial məkanlar yaradılır. Turizm bumu, heç bir coğrafi ərazi ilə bağlılığı olmayan kiçik transmilli "dünyaların" formalaşması, hər hansı bir yolla dövlətlərin daxili işlərinə qarışan yeni beynəlxalq təsisatların, qrup və hərəkatların yaradılması, bir neçə dilin** *(ingilis, ispan)* **ümumişlək dil kimi təsdiq olunması və s. buna əyani sübutdur… Bütün bu arqumentlərə baxmayaraq, "mədəni konvergensiya"** *(mədəniyyətlərin qarşılıqlı kompromis yolu ilə yaxınlaşması – A.Q.)* **haqqında tezisi "iqtisadi unifikasiyanı sürətləndirən amil" kimi qəbul edənlər isə, sadəcə olaraq, nadandırlar".** [13]

Bu mədəni böhranın özü də hazırda qlobal xarakter daşımaqdadır. Dünyanın məlum güc mərkəzləri öz geosiyasi və geoiqtisadi mənafelərini hətta "humanitar dialoq" səviyyəsində ödəmək üçün onun diskussiya formatını dəyişməyə – Qərbin monoloquna, Neron teatrına dəyişməyə hazırdırlar. Bu zaman qondarma irqçi konsepsiyalardan, məsələn, müasir nordizm, avropasentrizm nəzəriyyələrinə, Avropa xalqlarının və Qərb mədəniyyətinin digər xalq və sivilizasiyalardan üstünlüyünü bəyan edən təsəvvürlərə, irqi, etnik, dini stereotiplərə əsaslanan siyasi ideologiyalar reanimasiya olunaraq yenidən ictimai dövriyyəyə buraxılır. İnsanlığın daim "bizimkilərə" və "özgələrə", "dost və düşmənlərə", "mömin və kafirlərə", "mədəni və geridə qalmış-

[13] Ульрих Бек. Что такое глобализация? Ошибки глобализма – ответы на глобализацию М.: Прогресс-Традиция, 2001.

lara" bölünməsinin hər bir yeni mərhələsi isə "qlobal mədəni konvergensiyadan" deyil, bəşəriyyəti gözləyən labüd qlobal təhlükələrdən xəbər verir. Eyni zamanda "ali" və "seçilmiş" xalqların, "həqiqi dinlərin" digər xalqlar və konfessiyalar üzərində müstəsna dominantlığını təmin etmək məqsədilə "kreativ" ünsiyyət modelləri inadla tövsiyə olunur. Nəticədə, hətta ən səmimi dialoq səyləri dəyərdən düşür, mədəniyyətlərini yaxınlaşma meyilləri siyasiləşir və "dalana dirənir". Odur ki ideoloji müharibənin cəbhə xətti boyu "biz və özgələr" prinsipi əsasında bölünmüş siyasi təhlilçilərin bir qismi dialoq probleminin həllini yuxarıda göstərilən maneələrin aradan qaldırılmasında görür, digər tərəf isə onun mümkünlüyünün yalnız Qərbin monoloqundan asılı olduğunu vurğulayır.

"Tarixin sonu və sonuncu insan" essesinin müəllifi, amerikalı filosof Frensis Fukuyama bu əsərinə ad qoyanda heç də bəşəriyyətin xronoloji mövcudluq mərhələsinin başa çatmasını nəzərdə tutmurdu. Filosof bu tezis altında "soyuq müharibə" dövrünün, ideoloji qarşıdurmalar, qlobal inqilab və müharibələr əsrinin sona çatmasını, üzərinə "Made in USA" möhürü vurulmuş demokratiyanın isə yeni mərhələdə bütün rəqib ideologiyaları sıradan çıxarmasını iddia edirdi. Onun qənaətinə görə, Qərbin indiyədək "qüvvədə olan" liberal demokratiya modelinin bütün dünyada yayılması bəşəriyyətin sosial-mədəni inkişafının sonuncu mərhələsi olmuş və bununla da "ideoloji müharibələr tarixinin son nöqtəsini" qoymuşdur.

Lakin F.Fukuyamanın müəllimi, Harvard Universitetinin professoru Samuel Hantinqton şagirdinə tələsik nəticə çıxarmamağı tövsiyə etmiş, "kommunizm və ya onun kimi digər

radikal meyilli sosial-siyasi ideyaların başqa formalarda" reinkarnasiyasını, liberal demokratiyanın isə tədricən müxtəlif fraqmentlərə parçalanmasını proqnozlaşdırmışdır. S.Hantinqton "Sivilizasiyaların toqquşması?" məqaləsində açıqladığı alternativ konsepsiyasında "soyuq müharibə" illərində geniş yayılmış siyasi stereotiplərə, məsələn, ABŞ-nin timsalında "Qərbin demokratiya və sivilizasiyanın beşiyi olması" mifinə söykənərək bəşəriyyətin fərqli mədəniyyətlərə parçalanması ehtimalının mümkünlüyünü və bu zaman isə Qərbin digər dövlətlər üzərində hegemonluğunun daha möhkəm, daha sarsılmaz olacağını iddia etmişdir. O, Çexiyanın keçmiş prezidenti Vatslav Havel və Avropa Komissiyasının keçmiş prezidenti Jak Delordan sitatlar gətirərək aşağıdakı fikri gündəmə gətirmişdir: **"Yeni dünyada baş verə biləcək münaqişələrin əsas mənbəyi nə iqtisadiyyat, nə də ideologiya olacaqdır. Bəşəriyyəti hündür divarlar bölməkdədir və gələcəkdə baş verən münaqişələrin əsas mənbəyi də məhz mədəniyyət olacaqdır. Milli dövlət beynəlxalq məsələlərdə aparıcı rolunu saxlayacaq, müxtəlif sivilizasiyalara aid xalq və qruplar arasında yaranan münaqişələr isə dünya siyasətində aparıcı amilə çevriləcəkdir. Sivilizasiyalar arasında yaranan bölücü sədd gələcəyin cəbhə xətti kimi qalacaqdır".**[14] Fərqli mədəniyyət daşıyıcıları olan cəmiyyətlərin spesifik inkişaf modelləri – sivilizasiyalar arasında qarşıdurmaları labüd və təbii hal hesab edən S.Hantinqtonun nəzəriyyəsi, əslində, "soyuq müharibə"dən, SSRİ-nin süqutun-

[14] Samuel P. Huntington, The Clash of Civilizations and the Remaking of World Order, New York: Simon & Schuster, 1996, səh. 28.

dan sonra dünyada sabitliyin bərqərar olunmasında liderlik rolunun ABŞ-yə, ümumiyyətlə, Qərbə verilməsi, onun digər sivilizasiyalar üzərində müstəsna mövqeyinin saxlanılması, "dialoq" arzularının isə "monoloq"a tranformasiyası qənaətinin nəzəri təsdiqidir.

Digər Qərb kulturoloqu, professor Arnold Toynbinin irəli sürdüyü nəzəriyyədə də analoji mövqe aydın hiss olunur. O da bəşəriyyətin ümumi inkişafının məhz sivilizasiyalar arasında dərinləşən ziddiyyətlərdən istifadə edən Qərbin hegemonluq iddialarında görür. A.Toynbinin düşüncəsinə görə, **"Qərb dünyasının liderlik imkanları sivilizasiyalar arasında qarşıdurmaların baş verməsini qaçılmaz edir və bu, insanlığı inkişafa doğru aparan ən real yoldur. Qərb sivilizasiyasının digər sivilizasiyaların təsirinə qarşı cavab reaksiyası gələcəkdə dünyanın yeni simasını və perspektivlərini müəyyən edəcəkdir"**.[16] İngilis alimi əsas münaqişə xəttinin məhz Qərb və Rusiya arasından keçəcəyini bildirirdi.

Təbii ki, Şərq dünyası və digər "qeyri-Qərb sivilizasiyaları" bu yanaşmaları cavabsız qoymamışdır. Müsəlman dövlətlərinin ümumi mövqeyinə görə, sağlam dialoq prosesinin reallaşması üçün Qərb ilk növbədə Şərq haqqında olan bütün mənfi stereotipləri bir kənara qoymalı, masa arxasına qərəzsiz və sağlam düşüncə ilə əyləşməlidir. Eyni zamanda Qərb sivilizasiyası ilə səmimi, bərabərhüquqlu, qarşılıqlı faydalı əlaqələrin qurulması və genişləndirilməsi üçün müsəlman dünyası da analoji münasibətlərə əngəl olan illüziyalardan imtina etməlidir. İslam ölkələrinin konsolidasiyası perspektivdə onların etnik və dini identikliklərinin

[16] Тойнби А. Дж. Цивилизация перед судом истории. Москва, 2003

qorunmasında, regional və qlobal sülhün, təhlükəsizliyin təminatında, radikal dini, siyasi ekstremizmin, terrorçuluğun, eyni zamanda islamofobiyanın təzahürlərinə qarşı birgə mübarizəyə, ümumbəşəri problemlərin həllində fəal iştiraklarına geniş imkanlar açacaqdır. "Qeyri-Qərb sivilizasiyalarının" Qərbin dominant mövqe iddialarına reaksiyası olan həmin modelə əsasən dialoq təşəbbüsü yalnız o halda gözlənilən nəticə verə bilər ki, bu proses sivilizasiyalar arasında etimadsızlığı, inamsızlığı tamamilə aradan qaldırsın və hamılıqla qəbul edilən ortaq mənafelər formalaşdırılsın. Lakin tarixi təcrübədən göründüyü kimi, müsəlman ölkələrinin hələ də öz aralarında dialoqa nail ola bilməməsi, məzhəb fərqi, fikir ayrılığı, özəl siyasi-iqtisadi maraqlar, kənar geosiyasi və geoiqtisadi təsirlər onların qlobal dialoq prosesində iştirakını xeyli ləngitməkdədir.

Mədəniyyətlərarası dialoq təkcə müxtəlif mədəniyyətlərin nümayəndələri olan fərdlərin, sosial qrupların ünsiyyəti deyil, həm də fərqli mədəniyyətlərin daşıyıcıları olan dövlətlərin beynəlxalq miqyasda bir-biri ilə qarşılıqlı faydalı əməkdaşlıq formasıdır. İndiki dövrdə belə əməkdaşlıq bir tərəfdən mədəniyyətlərarası münasibətlərə mane olan "bizimkilər-özgələr" prinsipinin təsir mexanizmlərini zəiflədir, digər tərəfdən isə insanların fərqli mədəniyyətlərlə tanış olmalarına, mədəniyyətlərin uğurlu adaptasiyasına yeni imkanlar açır. Bununla belə, məhz etnomədəni stereotiplər sayəsində müxtəlif mədəniyyət daşıyıcılarında formalaşdırılmış "psixoloji uyğunsuzluq" Şərq-Qərb ziddiyyətləri kontekstində özünü daha qabarıq göstərməkdədir.

Qərbin ilk dinlərarası dialoq və ortaq dəyərlərin müəyyən olunması təşəbbüsü Avropanın intibah və maarifçilik

dövrlərinə aid edilsə də, ilk əməli addım təqribən 135 il bundan əvvəl ABŞ-nin Çikaqo şəhərində atılmışdır. 1893-cü ildə Ümumdünya Dinlər Parlamentinin *(The World's Parliament of Religions)* ilk iclası Qərb və Şərq dinləri arasında rəsmi dialoqun başlanğıcı hesab olunur. ABŞ protestant kilsəsinin təşəbbüsü ilə Çikaqoda keçirilən və dünyanın təqribən 400 din xadiminin iştirak etdiyi iclasda müsəlman dünyası cəmi bir nümayəndə ilə – ABŞ-nin Filippindəki sabiq səfiri, islamı qəbul etmiş Məhəmməd Uebb ilə təmsil olunmuşdur. Həmin toplantıda dinlərarası dialoqun indiyədək davam edən əsas prinsipləri müəyyənləşdirilmiş, əlaqələrin qurulması və möhkəmləndirilməsində xristian dininə dominant funksiya verilməsi təklif olunmuşdur. Belə ki, parlamentin sədri Con Henri Barrouz yekun çıxışında xristianlığı "bəşəriyyəti tarixən inkişafa aparan amil" kimi dəyərləndirmiş, İsa Məsihin "dünyanın yeganə xilaskarı" olduğunu vurğulamışdır.

Yüz il sonra, Ümumdünya Dinlər Parlamentinin 1993-cü ildə yenidən Çikaqo şəhərində keçirilmiş yubiley iclasında yeni sənəd – dünyanın 150 dini liderinin imzaladığı "Qlobal mənəviyyata doğru: İlk Bəyannamə" *(Qlobal etika haqqında Bəyannamə)* qəbul edilmiş, lakin əvvəlki mövqedən fərqli olaraq həmin sənəddə dinlərarası dialoq prosesində xristianlığın dominant statusu açıq təsdiqini tapmamışdır. Əksinə, qloballaşmanın və ABŞ multikulturalizminin *(melting pot – əritmə qazanı)* fəaliyyət prinsipləri əsasında bütün konfessiyalara xas olan dəyərlərin "Yeni Dünya Düzəninə məxsus Ümumdünya mənəviyyatı" ətrafında unifikasiyasının vacibliyi tövsiyə edilmişdir. Sənədin bəzi müddəalarında diqqət çəkən məqam "Ümumdünya

mənəviyyatı” və qloballaşmanın aparıcı prinsiplərinin aşağıdakı şəkildə uyğunlaşdırılmasıdır:

- *“Ümumdünya mənəviyyatı olmadan Yeni Dünya Düzəninin yaradılması mümkün deyildir... Xalqların, etnik və etik qrupların, dinlərin dinc yanaşı yaşaması, Yer planetinə ümumi məsuliyyətin bölüşdürülməsi üçün bəşəriyyətə vahid yanaşma tərzi lazımdır”.*
- *“Bütün dini təlimlərdə Yeni Dünya Düzəninin qurulması üçün möhkəm əsaslar, insan davranışı qaydaları vardır”.*
- *“Biz təsdiq edirik ki, dinlər arasında Ümumdünya mənəviyyatının bünövrəsi ola biləcək razılaşma mövcuddur”.*
- *“Biz “ümumdünya mənəviyyatı” dedikdə mövcud ümumi dəyərlərin, dəyişilməz standartların və fərdi mövqelərin konsensusunu nəzərdə tuturuq”.*
- *“Biz təsdiq edirik ki, bütün dini təlimlər Ümumdünya mənəviyyatını formalaşdıra biləcək ümumi dəyərlərə malikdir”.*
- *“Biz həqiqətin məlum olduğunu təsdiq edirik: …həyatın bütün sahələri, ailə və icmalar, irqlər, xalqlar və dinlər üçün qəbul oluna biləcək normalar vardır”.*
- *“Əgər Ümumdünya mənəviyyatına dair konsensus yaranmazsa, hər bir cəmiyyət gec və ya tez xaos və diktatura ilə üzləşəcək, bəşəriyyət çıxılmaz vəziyyətdə qalacaqdır”.*[17]

[17] Декларация мирового этоса.
http://anthropology.ru/ru/text/dokumenty/deklaraciya-mirovogo-etosa

Qərbin dinlərarası dialoqa, tolerantlığa, multikulturalizmə dair populist bəyanatlarına baxmayaraq, özü və Şərq arasında "bərabərlik" işarəsini qoymağa tələsmir. Səbəbi isə onun nəzərindəki "dialoq" anlayışının yozumunda, təbliğində, bir çox hallarda öz mövqeyini ortaq konseptual yanaşma kimi təqdim etməsində, siyasi və sosial-mədəni şəraitin nəzərə alınmamasında, xüsusilə dialoq ideyasının bərabərlik və qarşılıqlı faydalılıq kimi aparıcı prinsiplərinin siyasiləşdirilməsində korporativ maraqların gizlənməsidir. Avropanın sivilizasiyalararası və dinlərarası dialoq təşəbbüsü ilk vaxtlar nə qədər cəlbedici görünsə də, məhz bu ideyanın daxilindəki geosiyasi və geoiqtisadi maraqlar, həmin mənafelərin ödənilməsində dindən manipulyasiya aləti kimi yararlanmaq səyləri bu təşəbbüsün düzgün istiqamət almasına ciddi maneə olmuş, onu dialoqdan monoloqa və "ölü doğulmuş körpəyə" çevirmişdir. Son nəticədə dialoqu monoloqa, bir aktyorun teatrına çevirmişdir. Görünür, alman materialist filosofu, qatı ateist Lüdviq Feyerbax bir məsələdə tamamilə haqlı idi: İnsan özünə xas olan mənfi keyfiyyətləri, xudbinliyi dəf etmək əvəzinə onları Rəbbə aşılamağa çalışır…

Elm və texnikanın inkişaf səviyyəsindən asılı olmayaraq, din müasir cəmiyyətdə də öz əhəmiyyətini saxlamaqdadır. Dini etiqad cəmiyyət daxilində mənəvi birliyin möhkəmləndirilməsində, insanlarda mənəvi-əxlaqi dəyərlər sisteminin, dünyagörüşünün, davranış və yaşam tərzinin, birgəyaşayış normalarının formalaşdırılmasında fəal iştirak edir. Lakin dinlər arasında dialoqun effektivliyinə nail olmaq mürəkkəb prosesdir. Onun əsas vəzifəsi bütün dini ehkamların ortaq prinsiplərinə – sülhə, təhlükəsizliyə, sabitliyə,

qarşılıqlı anlaşmaya, hörmətə, faydalı əməkdaşlığa, ədalətə, mədəniyyət mübadiləsinə birgə səylərlə nail olmaq, xurafat və dezinformasiya, siyasi təsirlər sayəsində yaranmış maneələrin aradan qaldırılmasına öz töhfələrini verməkdir. Bunun üçün isə konkret şərtlər nəzərə alınmalıdır.

İlk növbədə siyasi maraqlar və dinlərarası dialoq arasında keçilməz Çin səddi çəkilməlidir. Hər bir konfessiyanın *(dini icmanın)* digər dinlərə *(icmalara)* fərqli yanaşma tərzi və dinlərarası dialoqdan öz gözləntiləri olsa da, dialoq prosesi qlobal problemlərin, dövlətlər arasında hərbi-siyasi qarşıdurmaların, etnomədəni münaqişələrin müzakirəsində siyasi müdaxilədən və dəyərləndirmədən, ikili standartlardan çəkinməli, neytrallığını və obyektivliyini qorumalı, qərar və tövsiyələrin qəbul olunmasında barışdırıcı mövqedən çıxış etməlidir. Son onilliklərdə müəyyən qüvvələr öz geosiyasi və geoiqtisadi mənafelərinin ödənilməsi üçün destruktiv fəaliyyətlərində din amilindən, dini mətnlərin və ehkamların təhrifindən və mənfi yozumundan istifadə etməkdədir. Bu çirkin proses fərqli dinlərin daşıyıcıları arasında münasibətlərdə qarşılıqlı etimadsızlığı məqsədli şəkildə şiddətləndirməklə qarşılıqlı nifrət hissini, etimadsızlığı dərinləşdirir və onları açıq qarşıdurmaya sürükləyir. Dialoq iştirakçısı olan dini qurumlar və təşkilatlar bu tipli pozuculuq fəaliyyətlərini ifşa etmək üçün səylərini birləşdirir.

Araz Qurbanov

İslamofobiya – XXI əsrin sosial pandemiyası

"Dünyanın elə bir guşəsi yoxdur ki, orada dini baxışlar arasındakı fərq torpağı qanla suvarmasın".
Deni Didro

"Pandemiya" ifadəsi təkcə tibbi termin deyildir. Qədim yunan dilindəki "pandemos" sözündən yaranan bu kəlmə uzaq keçmişdə, hətta Homerin "Odisseya" poemasında "ictimai", "hamıya aid və ya məxsus olan" anlamını verirdi. Yalnız 2003-cü ildə "pandemiya" kəlməsi dünya səhiyyə sisteminin terminologiyasına daxil olmuş və qısa vaxt ərzində bir sıra ölkələrin, bəzi hallarda isə bütöv qitənin əhalisini yoluxduran yayğın epidemioloji prosesin qısa etimoloji izahına çevrilmişdir. Bu gün islamofobiya xalqlar, ölkələr, qitələr arasında o dərəcədə geniş yayılmışdır ki, onu yalnız bütün bəşəriyyət üçün təhlükəli sosial pandemiya kimi xarakterizə etmək olar…

"Primordialistlər"[18] adlanan sosioloqlar zümrəsinin yanaşmasına görə, bütün etnik və dini münaqişələrin kökündə düşmənçilik edən tərəflərin – xalqların, dini icmaların tarixən bir-birinə bəslədikləri qarşılıqlı nifrət, ədavət və qısqanclıq hissləri dayanır. Dövlət isə özünün maraqlarını nəzərə alaraq bu qarşıdurmalara siyasi don geyindirə, idarə edə, yəni

[18] ***Primordializm*** (lat. *primordialis* – ilkin) insan birliklərinin formalaşmasında mədəni, irqi, etnik xüsusiyyətlərin ilkin və ən vacib rol oynadığını iddia edən nəzəriyyə

dondura, istədiyi vaxt yenidən qızışdıra və ya dayandıra bilər. Lakin ölkədə siyasi rejimin zəiflədiyi halda xalqların "qədim nifrət" hissi birmənalı şəkildə konservasiya vəziyyətindən çıxır və etnik qarşıdurma meyilləri özünü açıq şəkildə büruzə verməyə başlayır. Etnik qarşıdurmaların başvermə səbəblərinə belə yanaşma tərzinin tərəfdarı olan rusiyalı və ermənistanlı primordialistlər, bəzi Qərb sosioloqları Qarabağ münaqişəsində Ermənistanın Azərbaycana olan ərazi iddialarına qətiyyən toxunmayaraq qarşıdurmanın səbəblərini guya ermənilər və türklər arasındakı "qədim və qarşılıqlı nifrət" hissinin pik nöqtəsinə çatması ilə izah etməyə çalışırlar. Onların məntiqinə görə, SSRİ-nin zəifləməsi və dağılması nəticəsində hər iki xalq arasındakı qarşılıqlı nifrət rejimin nəzarətindən çıxmış və yatmış vulkan kimi püskürmüşdür.[19] Alman sosioloqu və antropoloqu Günter Şleenin "Münaqişələrin idarə olunması. Nəzəriyyə və praktika" kitabındakı fikirlərinə əsasən müxtəlif xalqlar və konfessiyalar arasında qarşıdurmaların yaranmasında, etnofobiyanın şiddətlənməsində aşağıdakı amillər mühüm rol oynayır:

- *onların arasında etnomədəni fərqlərin qabardılması və siyasi xarakter alması;*
- *bir toplumun inanclarında, adət-ənənələrində, mənəvi irsində digərlərinə qarşı mənfi stereotiplərin, təhriflərin möhkəm yer tutması, kütlə təfəkküründə "qədim nifrət hissinin" reanimasiyası;*

[19] Микаел Золиан. Исторический нарратив и репрезентация конфликта (еще раз о конфликте в Нагорном Карабахе и вокруг него), https://ge.boell.org/en/2005/01/16/istoricheskiy-narrativ-i-reprezentaciya-konflikta-eshche-raz-o-konflikte-v-nagornom

- *insanların zorən hər hansı bir etnomədəni topluma aid edilməsi və onların etnik və dini identikliyinin dəyişdirilməsi.*[20]

Vaxtilə Otto Bismark müdrik siyasəti "mövcud imkanlar çərçivəsində olan incəsənət" adlandırmışdı. Amma müasir Qərbin islam dünyasına, bütövlükdə Şərqə yönəlik siyasətini nə "müdrik", nə də "incəsənət" adlandırmaq çətindir. Burada müsəlman və qeyri-müsəlman əhali arasında gərginlik daim şiddətlənməkdədir. Fərqli dinlər və mədəniyyətlər, onların daşıyıcıları arasına səpilən nifaq toxumu, qarşılıqlı aqressiya, dözümsüzlük getdikcə özünü daha radikal formalarda büruzə versə də, Qərbin konspiraloji "proqnoz"larında Avropanın yaxın gələcəkdə Qədim Babil qülləsinin taleyini yaşayacağını, çıxış yolunu isə xristian torpaqlarının müsəlmanlardan təmizlənməsində və ya onların yerli xalqlar içərisində tamamilə assimilyasiya olunmasında görmək, əks təqdirdə "Qərb dünyasını hicaba büründüyəcəyini", məscidlərin kilsələri əvəzləyəcəyini, Avropada nə vaxtsa "xilafət quracağını" iddia etmək ən yaxşı halda paranoik şizofreniyadır.

Yüzilliklər boyu dünyanın bütün dinləri, xüsusilə islam, xristianlıq, yəhudilik və buddizm yer üzünün müxtəlif hissələrində yaşayan insanların şüurunda dərin kök atmış, onların siyasi, sosial, mədəni həyatının, mənəvi-əxlaqi normalarının, ənənələrinin formalaşmasında mühüm rol oynamışdır. Hətta özlərini "qatı ateist" adlandıranlar etiraf etmə-

[20] Г.Шлее. Управление конфликтами: теория и практика, Москва, 2004

sələr də, yaşam, davranış və düşüncə tərzlərini, mövqelərini bu mühitin təsiri altında formalaşdırmışlar. Belə olan təqdirdə ateizmin özü də "dinləri inkar edən" konfessiyadır. Dinlər insanları qarşıdurmaya, terrora, aqressiyaya çağırış etmir, mübahisəli məsələləri ədalətlə, səbirlə, qarşılıqlı hörmətlə, bir-birinə dözümlü olmaqla aradan qaldırmağa dəvət edir. Lakin burada ən həssas məqam dinlərin tarixən dövlət idarəçiliyinin mühüm elementlərindən biri olmasıdır. Hətta dinin dövlətdən ayrı olduğu dünyəvi dövlətlər də bu reallığı etiraf edir, dinlərin ictimai şüura təsir imkanlarından bəhrələnir. Ateizmi dövlət siyasətinə çevirmiş SSRİ də istisna deyildi. Çünki kommunizm ideologiyası da dinlərin strukturu, insanların vahid ideya ətrafında toplaya bilmək mexanizmi, bir sıra ehkamları və s. üzərində qurulmuşdu. Kommunizm ideologiyası da humanizm ideyalarını, sülhü, qarşılıqlı anlaşmanı, əməkdaşlığı, ədalətli cəmiyyət quruculuğunu özünə əsas şüar seçmişdir. Elə isə bu gün ictimai-siyasi terminologiyaya daxil olan, bir sıra hallarda dövlətlər, xalqlar, fərqli dinlər arasında münaqişələrin "əsas səbəbləri" kimi göstərilən "dini radikalizm", "dini ekstremizm", "dini terrorizm" kimi ifadələr hansı mənbələrdən qaynaqlanır?

"Dini radikalizm" başqa dinlərə, onların daşıyıcılarına qarşı barışmaz mövqedə dayanan və aqressiv fəaliyyətini dini ehkamlar üzərində köklәyən destruktiv ideologiya kimi təqdim olunur. Lakin politoloji ədəbiyyatda, sosial şəbəkədə "islam radikalizmi", "cihadizm" ifadələri daim gündəmdə olsa da, nədənsə "xristian radikalizmi" kəlməsinə rast gəlinmir. Halbuki Qərbdə, hətta Afrika və Asiyada İsa Məsihin bayrağı altında gizlənən radikal, ekstremist, terrorçu cərəyanların və qruplaşmaların, qeyri-ənənəvi təriqətlərin sayı

daha da çoxdur. Məgər milyonlarla insanın tələf olduğu, dövlətlərin, şəhərlərin yer üzərindən silindiyi I və II Dünya müharibələrini müsəlmanlarmı başlamışdır? Bu gün "islam terrorçu təşkilatları" kimi təqdim olunan qruplaşmaları hansı fövqəldövlətlərin yaratması, maliyyələşdirməsi, silahlandırması, ən nəhayət, xristian dünyasına qarşı istiqamətləndirilməsinin arxasında hansı Qərb dövlətlərinin dayanması məlum deyilmi? Əgər ədalət tərəzisinin bir gözündə "siyasi islam" dayanırsa, nə üçün onun o biri gözündə həmin mifi yaradan "siyasi xristianlığ"a yer olmasın?

Dini qarşıdurmalar: idarə olunan xaos

"Yalnız bir dinin cənnətinə inanıb digərlərinin cəhənnəminə düşməmək böyük risk tələb edir".
Jülyen Falkenare,
Belçika yazıçısı

Dövrümüzün daha bir paradoksu: yer üzünün bütün dinləri insanları sülhə, barışığa çağırır. Amma elə gün yoxdur ki, məhz din naminə insanlar zorakılığa məruz qalmasın, təqib olunmasın, qətlə yetirilməsin. Son yüz ildə "dini müharibələr" kəlməsi siyasətdə, demək olar ki, epizodik, hətta məcazi işlədilirdi. Silahlı münaqişələrin əsas hissəsi ya ərazi iddiaları, ya da etnik zəmində baş verirdi. Görünür, maraqlar kimi bu tendensiya da dəyişikliyə məruz qalır, siyasət və din arasında yeni müttəfiqlik yaranır və dünya yenidən "deja-vü fenomeni"ni yaşamağa məcbur olur.

2022-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası mart ayının 15-ni İslamofobiyaya qarşı Beynəlxalq Mübarizə Günü elan etmişdir. Bununla bağlı qəbul edilmiş sənəddə xüsusilə vurğulanmışdır ki, son illər islamofobiya ən müxtəlif dezinformasiya üsulları, mənfi stereotiplər və siyasi ritorika sayəsində güclənmiş, miqyasını genişləndirmiş və bəşəriyyət üçün qlobal təhlükəyə çevrilmişdir. Beynəlxalq birlik bu problemin ciddiliyini etiraf etməli, ədalətli cəmiyyətin qurulması məqsədilə mübarizəyə başlamalıdır. Qeyd olunmuşdur ki, terrorçuluq, ekstremizm kimi təhdidlər heç bir halda istənilən dinə, xalqa, mədəniyyətə bağlanmamalıdır. İslamofobiyaya qarşı Mübarizə Günü ilə bağlı BMT-nin Baş Assambleyasında keçirilmiş iclasda baş katib Antoniu Quterreş vurğulamışdır ki, yer üzünün mədəni müxtəlifliyi bəşəriyyət üçün təhdid deyil, əksinə, dünyanın misilsiz zənginliyidir. Lakin buna baxmayaraq, bu gün Qərb dövlətlərində müsəlmanlara nifrət hissi hələ də müxtəlif formalarda özünü göstərməkdədir: **"Bütün bunlar "ali irqin üstünlüyü" ideologiyasının, əhalinin həssas təbəqəsinə, o cümlədən müsəlmanlara, yəhudilərə və azlıqda olan bəzi xristian dini icmalarına qarşı yönəldilən zorakılığın, millətçiliyin, neonasizm ideologiyasının yenidən dirçəldilməsidir… Diskriminasiya bizi alçaldır və onunla mübarizə aparmaq hər birimizin borcudur"…**

İslam dünyanın üç monoteist İbrahimi dindən üçüncü, ardıcıllarının sayına görə ikinci, haqqında yayılan mənfi stereotiplərin, təhlükəli illüziyaların bolluğuna görə isə birincidir. Əgər ümumbəşəri sosial təhdidlər sırasında rasizm irqi müxtəlifliyə, antisemitizm iudaizmə deyil, etnik yəhudilərə qarşı yönəldilmişdisə, islamofobiyanın hədəfi həm islam

dini, həm müsəlman mədəniyyəti, həm də etnik mənsubiyyətlərindən asılı olmayaraq dünyanın bütün müsəlman xalqlarıdır. Bu təhlükənin səbəblərinin obyektiv izahını ilk dəfə tanınmış politoloq Samuel Hantinqton 1993-cü ildə nəşr etdirdiyi məşhur "Sivilizasiyaların toqquşması" *(The Clash of Civilizations)* əsərində verməyə çalışmışdır. Onun qənaətinə görə, islam dini növbəti dəfə intibah etməyə başlamış və müsəlman dünyası tədricən dünyanın yeni geosiyasi güc mərkəzinə çevrilməkdədir. Paralel olaraq Şərqdə, Avropada, Amerikada islam dininə tapınanların sayının sürətlə artması, insanların arzu və ümidlərini bu konfessiyaya bağlaması, dini identikliyin isə öz mövqeyini və potensialını möhkəmləndirməsi tendensiyası müşahidə olunmaqdadır. S.Hantinqton onu da vurğulayır ki, müasir müsəlmanların xarakterik xüsusiyyətlərini heç də "ekstremizm", "aqressivlik", "terrorçuluq" kimi mənfi stereotiplər deyil, bu gün islam dünyasında geniş kök salan mədəni, siyasi-iqtisadi, sosial inkişaf, elmə, tərəqqiyə maraq müəyyən etməkdədir.



Avropa İttifaqı müsəlmanlara: "Qorxmayın, bu sadəcə söz azadlığıdır!"

"Müxtəlifliyin qorunması: 2024-cü ildə islamofobiya ilə mübarizə" mövzusunda Bakıda keçirilən beynəlxalq konfransda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev bildirmişdir ki, islamın insanlara potensial təhdid mənbəyi kimi təqdim edilməsi, müsəlmanlara qarşı ayrı-seçkilik və

nifrət hissinin geniş yayılması kimi dini inanclarla bağlı ayrı-seçkilik, dözümsüzlük və şiddət hallarının çoxalması dərin narahatlıq doğurur. Qeyd etmişdir ki, **"Acınacaqlı haldır ki, hazırda islamofobiya özünü demokratik hesab edən bir sıra Qərb ölkələrinin dövlət siyasətinin tərkib hissəsini təşkil edir… İslamofobiyanın ən yüksək səviyyəyə çatdığı və rəsmi ideologiya kimi tətbiq olunduğu bəzi Avropa ölkələrində müqəddəs kitabımız Qurani-Kərimin yandırılması, Məhəmməd peyğəmbərin *(s)* karikaturlarının nəşr edilməsi və sair təhqiramiz hərəkətlər söz azadlığı kimi qələmə verilir… Müsəlmanların hisslərini təhqir edən bu cür təzahürlərlə mübarizə aparmaq, cinayətkarları məsuliyyətə cəlb etmək əvəzinə həmin ölkələrin hökumətləri islamofob əhvali-ruhiyyəni daha da qızışdırır, müsəlmanlara qarşı təqibləri təlqin edir və bu kimi mövzuları davamlı olaraq gündəlikdə saxlamağa çalışır".**

Misal üçün, Almaniyadakı Vestfal Universitetinin professoru, dinlərin sosiologiyası üzrə tanınmış ekspert Detlef Pollak "Almanlar müsəlmanlara daha az dözümlüdürlər" məqaləsində etiraf edir ki, digər Avropa xalqları ilə müqayisədə almanların fərdi qaydada müsəlmanlara münasibəti kəskindir və dramatik xarakter daşayır. Əgər Niderlandın yerli əhalisinin 62%-i, fransızların 56%-i və danimarkalıların 55%-i müsəlmanlar haqqında müsbət fikirdədirlərsə, bu göstərici Şərqi Almaniyada 26%-ə, Qərbi Almaniyada isə 34%-ə bərabərdir. 2022-ci ildə professor D.Pollakın rəhbərliyi altında aparılmış sosioloji araşdırmalar zamanı müəyyən edilmişdir ki, buna əsas səbəb hər iki dini icma nümayəndələri – xristianlar və müsəlmanlar arasında ünsiyyətin,

demək olar ki, olmamasıdır. Belə ki, Qərbi Almaniyadakı respondentlərin təqribən 40%-i, Şərqi Almaniyada rəyi soruşulanların yalnız 16%-i müsəlmanlarla nadir hallarda ünsiyyətdə olduğunu etiraf etmişdir. Almanların bir çoxu müsəlmanlardan uzaq durmağı düzgün hesab edir. Sorğunun nəticələrinə əsasən respondentlərin 48%-i əmindir ki, alman cəmiyyətində islam dininə yer yoxdur. Bundan başqa, sorğuda iştirak edənlərin 42%-i ölkədə müsəlmanların dini ibadətlərini məhdudlaşdırmağı təklif etmişdir. Qərbi Almaniyada respondentlərin 30%-i, Almaniyanın şərq hissəsində isə 20%-i ölkə ərazisində məscid inşasının qadağan olunmasını tələb etmişdir.[21]

ABŞ-nin Boston İlahiyyat Universitetinin nəzdində fəaliyyət göstərən Qordon-Konvel Teoloji Seminariyasının təqribi hesablamalarına əsasən hazırda yer üzündə 2,732 milyard xristian və dünyanın 120 ölkəsində 2,044 milyard müsəlman yaşayır. 2050-ci ilədək isə müsəlmanların sayının 26,4% artımı gözlənilir. "Pew Research Center" Analitik Tədqiqat Mərkəzinin (ABŞ) proqnozlarına görə, 2030-cu ildə Qərbi Avropa əhalisinin 8%-i, təqribən 58 milyon nəfər müsəlmanlardan ibarət olacaqdır. Həmin dövr ərzində Avropanın 10 ölkəsində, o cümlədən Kosovoda 93,5%, Albaniyada 83,5%, Bosniya və Hersoqovinada 42,7%, Makedoniyada 40,3%, Bolqarıstanda 15,7%, Fransada 10,3%, Belçikada

[21] Detlef Pollack. "Germans are much less tolerant of Muslims." Survey on religious plurality in Europe shows delicate results in terms of integration politics, https://www-uni--muenster-de.translate.goog/Religion-und-Politik/en/aktuelles/2010/dez/PM_Studie_Religioese_Vielfalt_in_Europa.shtml? x tr sl=en& x tr tl=ru& x tr hl=ru& x tr pto=rq#:~:text=42%20per%20cent%20of%20Germans,Muslim%20holidays%20is%20even%20lower.

10,2% müsəlman yaşayacaqdır. Artım bu sürətlə davam edərsə, 2050-ci ildə Avropanın demoqrafik göstəricilərində müsəlmanların payı 20%-i ötəcəkdir. Təqribən 2100 məscidi olan Fransada hazırda 6 milyondan çox müsəlman yaşayır. 2050-ci ilədək bu ölkə əhalisinin 12,7%-i, yəni 8,54 milyon nəfəri müsəlmanlardan ibarət olacaqdır. Tədqiqat mərkəzi onu da bildirir ki, 2040-cı ildə Amerika Birləşmiş Ştatlarında islam dininin xristianlıqdan sonra ikinci din olması, 2050-ci ilədək burada müsəlmanların sayının iki dəfə artması, 2070-ci ildə isə Avropada xristianlarla müsəlmanların sayının bərabərləşməsi gözlənilir. Yeri gəlmişkən, bu gün islam dini ardıcıllarının ümumi sayına görə Rusiya Federasiyasında ikinci konfessiyadır. Təqribi hesablamalara əsasən hazırda ölkə vətəndaşlarının 17-20 milyon nəfəri müsəlmanlardır. Bundan başqa, 2030-cu ildə burada müsəlmanların ölkə əhalisinin 30%-ni, 2050-ci ildə isə 50%-ini təşkil edəcəyi proqnozlaşdırılır.

Qərb mütəxəssisləri bu göstəricilərin, əsasən, iki amil – müsəlmanların demoqrafik artım sürəti və Şimali Afrika, Yaxın və Orta Şərq ölkələrindən miqrant axınının davam edəcəyi ilə izah edirlər. Belə ki, hazırda dünya əhalisinin təqribən 3,6%-i, yəni 281 milyondan çox insan miqrant və qaçqın taleyini yaşayır. Avropa ölkələrində onların ümumi sayı 82 milyon nəfəri ötmüşdür. Müsəlman miqrantların ilk kütləvi axını isə ötən əsrin 60-cı illərinə – Şimali Afrika və Asiya ölkələrinin müstəmləkəçilik əsarətindən azad olunduğu, dövlət müstəqilliyi qazandığı dövrlərə təsadüf edir. 2000-ci illərin əvvəllərindən etibarən Şərq ölkələrində, xü-

susilə müsəlman dövlətlərində baş vermiş qanlı müharibələr, "əlvan inqilablar", siyasi qarşıdurmalar, iqtisadi-sosial böhran nəticəsində bu proses xeyli sürətlənmişdir.

Qərbdə müsəlmanlara münasibətdə xofun və mənfi rəyin kütləviləşməsinin, həm də paralel olaraq populyarlaşmasının digər mühüm səbəbini Almaniyanın Əlcəzairdə və Mərakeşdəki sabiq səfiri, yazıçı, Münhen Universitetinin doktoru, "İslam alternativ din kimi", "İslam-2000", "Məkkəyə səyahət" kitablarının müəllifi Murad Vilfred Hoffman yazır ki, **"Müsəlmanlar "Şəhadət verirəm ki, Allahdan başqa ilah yoxdur"** *(Əşhədu ən la ilahə illəllah)* **formulu ilə Rəbbin birliyini bəyan edirlər. Bu prinsip** (tövhid) **ruhaniyyət və maddiyyat, ruh və cism, elm və din, insan və təbiət arasında, ən nəhayət, müsəlmanların bir-biri ilə münasibətlərini tənzimləyir. Çünki ümmət hər zaman öz birliyini nümayiş etdirməlidir"**. 1980-ci ildə islam dinini qəbul etmiş Murad Hoffman bildirir ki, Avropada xristian kilsəsi öz mövqelərini itirməkdədir. Üstəlik, bəzi icmaların "dövrün tələbləri ilə ayaqlaşmaq" adı ilə etdiyi ağlasığmaz "güzəştlər" isə, məsələn, homoseksual rahiblər, dini icmalara rəhbərlik edən ruhani qadınlar, kilsənin aborta razılıq verməsi və s. xristianlığı Avropada xeyli nüfuzdan salmışdır. Nəticədə, avropalıların bir qismi yeni, etibarlı mənəvi dəyərlərin, alternativ inancın sorağı ilə axtarışa çıxmış, bəzi hallarda isə ezoterik təlimlərin, satanizmin, şamanizmin, qeyri-ənənəvi destruktiv və totalitar dinlərin təsiri altına düşmüşdür. Belə olan təqdirdə mənəvi ehtiyaclarını ödəmək istəyən avropalıların islam dininə üz tutması təbii və anlaşılandır…

ABŞ-də nəşr olunan “Ümumdünya almanaxı və faktlar kitabı”nın *(The World Almanac and Book of Facts)* 2024-cü il nəşri də yer üzündə islam dininin sürətlə yayılması tendensiyasını təsdiq etmişdir. Qeyd edilir ki, son on il ərzində dünyada xristianların sayı 46% artsa da, müsəlmanların artımına dair göstərici 235%-ə çatmışdır. Nəşrin məlumatına görə, həmin müddət ərzində Fransada və Böyük Britaniyada neofitlərin – dinini dəyişənlərin sayı təqribən 50 min nəfər olmuşdur. Amerika Birləşmiş Ştatlarında hər il 100 minə yaxın insan islam dinini qəbul edir. Bu gün London, Paris, Roma, Vyana, Lissabon, Zaqreb, Nyu-York, Los-Anceles kimi iri xristian şəhərlərində məscidlərin inşası adi hal almışdır.

Klassik mənbələrdə din insanların düşüncə və davranışlarını, onlar arasında sosial münasibətləri mənəvi və əxlaqi normalar çərçivəsində saxlayan, məkrli niyyətlərdən və günahlardan uzaq saxlayan fenomen kimi dəyərləndirilir. Hər bir din daşıdığı və yaydığı mənəvi dəyərlər vasitəsilə təkcə cəmiyyət daxilində deyil, icmalar, xalqlar, dövlətlər arasında sülhün, əmin-amanlığın, dini, etnik, irqi müxtəlifliyə dözümlü münasibətin bərqərar olunmasına yol göstərir və buna çalışır. Din mahiyyət etibarilə hərbi-siyasi qarşıdurmalara, cəmiyyətdə antaqonizm, etnik, konfessional, irqi ayrı-seçkilik mühitinin formalaşmasına qarşıdır. O, sülhü, sabitliyi, xalqların və mədəniyyətlərin qarşılıqlı faydalı inteqrasiyasını təbliğ edir. Din sivilizasiyalar, mədəniyyətlər arasında dialoq prosesi üçün süni maneə, qarşıdurmalara bəhanə olmamalıdır. Yüzilliklər boyu formalaşmış ehkamlar, dayanıqlı əxlaqi-mənəvi dəyərlər, düşüncə və davranış

tərzi, davranış qaydaları arasında fərqlər əvvəllər də mövcud olmuş, bundan sonra da mövqelərini qoruyub saxlayacaqdır. Odur ki bu gün "dinlərarası dialoq" dedikdə təkcə fərqli konfessiyaların bir-biri ilə sağlam təmasları nəzərdə tutulmamalıdır. Dialoqun effektivliyi ilk növbədə həmin dinlərin daşıyıcıları arasında qarşılıqlı anlaşmanın və ünsiyyətin birgəyaşayış normalarının qurulmasından asılıdır.

Tənqidçilərin ümumi qənaətinə görə, Qərbdə multikulturalizm ideyasının və siyasətinin iflasına həm də müsəlman icmasının dini identikliyinə xas olan əsas xüsusiyyətə – onların ideoloji xarici təsirə güclü müqavimət qabiliyyətinə Avropanın liberal münasibət bəsləməsi səbəb olmuşdur. Digər konfessional səbəb isə bu identikliyə mədəni-siyasi təsir göstərərkən radikal dinçilər, mühafizəkarlar, dini mənsubiyyəti etnik mənsubiyyətdən üstün tutanlarla "müsəlmanlar" – islam dininə ənənəvi bağlılığı olan, dünyəvi, müasir baxışlı, inteqrasiyaya meyilli təbəqə arasında fərqlərin nəzərə alınmaması, nəticədə, ikincilərin də radikallaşmasına zəmin yaradılmasıdır.



2019-cu ildə qədim Azərbaycan şəhəri olan Dərbənddə tolerantlığa həsr edilmiş abidə: ravvin, keşiş və imam çay süfrəsi arxasında

Belə münasibət Avropada islamın siyasi proseslərə müdaxiləsini sürətləndirmiş, islamofobiyanı isə sosial-psixoloji müstəvidən ayıraraq populyar siyasi terminə çevir-

mişdir. Yel Universitetinin professoru, filosof Seyla Benhəbib həmin yanaşmanın səhvləri barədə bildirmişdir: **"Liberal cəmiyyətə tətbiq olunan multikulturalizm bir çox qruplara** (dini, etnik) **eyni yanaşma nəticəsində onların cəmiyyətə daxil edilməməsinin əvəzidir. Multikulturalizm həmin qruplarda yeni korporativ identiklik tipinin yaranmasına səbəb olmuşdur"**.[22] Fransanın "IFOP" şirkətinin Almaniyada apardığı tədqiqatlara görə, yerli əhalinin 40%-i dini identiklik problemlərini əsas götürərək etnik mənsubiyyətindən asılı olmayaraq, bütün müsəlman icmasını alman etnik və dini identikliyinə başlıca təhlükə kimi qiymətləndirir. Hələ 2005-ci ildə Bilefeld Universitetinin keçirdiyi sosioloji sorğu göstərmişdir ki, almanların 25%-i müsəlman mədəniyyətinin Qərb sivilizasiyasına uyğunlaşa bilməyəcəyinə əmindir.[23] Bütün bunlar yerli əhalinin multikulturalizm siyasətinə neqativ münasibətin göstəricisi olmaqla Avropada *PEGIDA* (Vətənpərvər avropalılar Qərbin islamlaşmasına qarşı) kimi antiislam ruhlu ifrat sağçı (xristian-millətçi) qruplaşmaların yaranmasına və kütləviləşməsinə siyasi şərait yaratmışdır.

Beləliklə, multikulturalizm siyasətinin "dini identikliyin qorunmasına" yönəldilmiş fəaliyyəti son nəticədə Avropada dinlərarası dialoq prosesinin reallıqda "dinlərarası mübahisə" ilə əvəzlənməsinə səbəb olmuşdur. Məsələn, prezident Nikolya Sarkozi Fransanın postmultikulturalizm dövrünün

---

[22] С.Бенхабиб. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. М., 2003.

[23] Мультикультурализм и кризис национальной идентичности, http://studme.org/59710/politologiya/multikulturalizm_krizis_natsionalnoy_identichnosti

etnomədəni siyasətinin əsas prinsiplərini belə şərh etmişdir: **"Biz ölkəmizin milli identikliyindən daha çox buraya gələn insanların identikliklərinin qorunmasında maraqlı idik… Əlbəttə, hamımız müxtəlifliyə hörmətlə yanaşmalıyıq. Lakin bizə… ayrı-ayrı icmalardan ibarət cəmiyyət lazım deyildir. Əgər sən yaşamaq üçün Fransaya gəlirsənsə, əritmə sobasında olan kimi vahid cəmiyyət, məhz milli cəmiyyət içərisində əriməyə razı olmalısan. Bunu qəbul etmirsənsə, deməli, Fransada arzuolunan şəxs deyilsən".**[24]



PEGIDA – Almaniyanın "Vətənpərvər avropalılar Qərbin islamlaşmasına qarşı" ultrasağçı antiislam ekstremist siyasi hərəkatının yürüşü. PEGIDA üzvləri "Müsəlmanlar Almaniya cəmiyyətinin bir hissəsidir və islam Almaniya üçün yad din deyildir" deyən federal-kansler Angela Merkeli hicabda təsvir etmişlər.

Multikulturalizmin cəmiyyət daxilində dinlərarası münasibətlərə təsiretmə imkanları həmin konfessiyaların *(xristianlıq, islam və iudaizm)* dini identiklik prinsiplərindən də asılıdır. Məhz bu prinsiplər müsəlman dövlətlərinə yönəlik

[24] Сильный удар по иммигрантам от Саркози, http://www.pravda.ru/world/europe/european/07-03-2012/1110581-sarkozy-0/

multikulturalizm siyasətinin bir sıra məqamlarına aydınlıq gətirir. Məsələn, ilk dövrlərdə polietnik, sonralar isə monoetnik din olan iudaizmdə dini və etnik identifikasiya *(yehudit, yehudim)* bölünməzdir: Əgər iudaistdirsə, deməli, yəhudidir. Bu prinsipə görə, başqa xalqların nümayəndələri yalnız "qiyur" ayini vasitəsilə iudaizmi qəbul etdikdən sonra yeni dini-etnik identiklik əldə edir, yəhudi hesab olunurlar. Lakin dinini dəyişən etnik yəhudi isə dərhal bu identiklikdən çıxarılır. Səbəb "yəhudi" sözünün tarixən etnonim deyil, eyni dinə tapınan fərqli etnik qrupların birliyini ifadə etməsidir. Belə ki, iudaizmin doqmaları digər xalqlar içərisində missionerlik fəaliyyətini inkar etdiyi üçün Xəzər xaqanlığının "yəhudi dövləti" kimi tanınmasına qarşı çıxır. Amma bu dinə tapınan Efiopiya falaşalarını *(neqroid irqi),* karaimləri *(türkəsilli karalar və ya karaylar),* cuhud və ya dağ yəhudilərini *(etnik tatlar)* "assimilyasiya olunmuş yəhudilər" kimi qəbul edir. Bununla belə, Fəzlullah Rəşidəddin *(görkəmli tarixçi və dövlət xadimi),* Ubeydullah əl-Mehdi *(Fatimilər sülaləsinin banisi),* Saad əd-Dövlə *(1229-cu ildə Hülaki dövlətinin baş vəziri),* Tomas Torkvemada *(böyük inkvizitor),* Xristofor Kolumb *(səyyah)*, İbn Yəmin *(fars şairi),* keçmiş ravvin Toroslu Şaul *(müqəddəs Pavel, xristian doqmalarının yaradıcısı)* və yüzlərlə başqaları islamı və ya xristianlığı qəbul etdikləri üçün şərti olaraq "yəhudi" sayılırlar.

Etnik və dini identikliklərin vəhdəti islam dininin də başlıca prinsiplərindəndir. İslamda **"ümmət"** anlayışı dini identikliyin etnik identifikasiya üzərində dominantlığının – irqi, etnik, sosial mənsubiyyətindən, coğrafi mənşəyindən asılı olmayaraq, bütün müsəlmanların vahid icma ətrafında birliyinin təmin edilməsidir. Təsadüfi deyildir ki, Quranda

“ümmət” sözü eyni zamanda hər iki identikliyə aid olunmuşdur: “icma, qrup, camaat” anlamında *(Əraf surəsi, 7; 159, 182)* və “əqidə, din” mənasında *(Yunus surəsi, 10; 19, Ənbiya surəsi, 21; 92)*. Məsələn, Bəqərə surəsinin 143-cü ayəsində bildirildiyi kimi, **“Beləliklə də, sizi** *(ədalətli və seçilmiş)* **bir ümmət etdik ki, insanların əməllərinə şahid olasınız, peyğəmbər də sizə şahid olsun”**. Burada “ümmət” sözü hər iki mənada işlədilmişdir.

Lakin yəhudiliklə müqayisədə islamda bu ənənə nisbətən zəifdir və geniş kök sala bilməmişdir. Bunun səbəbləri içərisində islamı qəbul etmiş bəzi etnoslarda, o cümlədən türk xalqlarında etnik identikliyin dini identifikasiyadan üstün tutulması, etnomədəniyyətin güclü müqavimət qabiliyyəti və “xalq islamı” modeli çərçivəsində dini dəyərləri öz prinsiplərinə uyğunlaşdıra bilməsidir. Digər tərəfdən klassik ərəb islamının mühafizəkarlığı, yayıldığı areallarda mövcud şəraitə adaptasiya oluna bilməməsi, əksinə, yerli etnomədəni mühitin təsiri nəticəsində “etnik islama” transformasiyası ümmət identikliyinin imkanlarını xeyli məhdudlaşdırmışdır. Ümmətin etnik və məzhəb zəminlərində parçalanması məsələsinə hədislərdə də rast gəlinir. İslam peyğəmbərinə istinadən bildirilir: **“Yəhudilər 71 firqəyə, xristianlar 72 firqəyə bölündülər. Mənim ümmətim isə 73 firqəyə bölünəcək”** və ya **“Bəni-İsrailin başına gələnlər mənim ümmətimin də başına gələcəkdir. Belə ki, Bəni-İsrail yetmiş iki firqəyə bölündü. Mənim ümmətim isə yetmiş üç firqəyə bölünəcəkdir”**.[25]

[25] Bu hədislərə müxtəlif yanaşmalar haqqında bax. Mevlüt Özler, İslam düşüncesinde 73 fırka kavramı, İstanbul: Nun Yayıncılık, 1996.

Yaxın və Orta Şərqin müasir hərbi-siyasi vəziyyətinin nəticələri nəzərə alınmazsa, güc mərkəzlərinin regiondakı geosiyasi və geoiqtisadi maraqlarının neytrallaşdırılacağı təqdirdə islam ilə iudaizmin ortaq dini ehkamları və oxşar dini identiklik prinsipləri əsasında hər iki konfessiya arasında tarixi dialoq imkanları bərpa edilmiş olar. Belə ki, islam özündən əvvəlki monoteist dinləri inkar etmir, əksinə, özünü "İbrahim dini" adlandırır. İudaizm də xristianlıqdan fərqli olaraq islamı monoteist və qohum din kimi qəbul edir, hətta yəhudilərin məsciddə ibadətinə icazə verir. Orta əsrlərdə Avropanın xristian ölkələrindən fərqli olaraq müsəlman dövlətlərində yəhudilər dini etiqad azadlığına, yaşayış yeri və peşə seçmək hüququna malik idilər. Təsadüfi deyildir ki, 712-1066-cı illər arasında İspaniya ərazisində mövcud olmuş müsəlman Əndəlis *(Andaluziya)* əmirliyində yəhudilərə yaradılmış əlverişli şərait "yəhudi dini identifikasiyasının və yəhudi mədəniyyətinin intibah dövrü" adlandırılır. 1492-ci ildə ispan kralı yəhudiləri öz ərazisindən sürgün edərkən Osmanlı sultanı II Bəyazid onları ölkəsinə gətirmək üçün donanma göndərmiş və Kral Ferdinanta "mənim xəzinəmi öz hesabına artırdığı üçün" minnətdarlığını bildirmişdir.[26] Tarixi mənbələrə görə, 1500-cü ildə İngiltərə, İspaniya və Fransa əhalisinin 100%-i katoliklərdən ibarət olmuşdur. İtaliyada isə bu rəqəm 98-99% təşkil edirdi. Buna səbəb orta əsr Avropasında mühacirlərə yönəlik sərt

[26] Христианская идентичность в плюралистической Европе, Доклад на Европейском форуме католиков-мирян (Братислава, 1-6 июля 2008 г.), http://www.katolik.ru/mir/1016-archive/101109-st34406.html

siyasətin həyata keçirilməsi və onlara münasibətdə dini identiklik amilinin əsas götürülməsi idi.[27]



İsveçrədə Quranın yandırılması. Almaniyada islam dəyərlərinin təhqir olunmasına müsəlmanların etirazı

Bu gün xristian ilahiyyatçıları da etiraf edirlər ki, İsa təlimində dini identiklik prinsipləri iudaizm və islamla müqayisədə çox zəifdir. Buna səbəb isə xristianlığın bir-biri ilə ziddiyyətdə olan məzhəblərə *(katoliklik, pravoslavlıq, protestantlıq, baptistlik, lüteranlıq, kalvinizm, metodizm və s.)*, həm də etnik identiklik əsasında *(kopt, Assuriya, erməni, gürcü, efiop, rus, fin, eston, Ukrayna, Belarus, bolqar, serb, rumın, latış, moldavan, polyak, çex, alban, udin və digərləri)* kilsələrə ayrılmasıdır. 451-ci ildə Xalkidon kilsə məclisində təməli qoyulan və 1054-cü ildə Konstantinopol Böyük Kilsə məclisinin qərarları ilə daha geniş miqyas alan kilsə parçalanmasını xristian dünyası bu günədək aradan qaldıra bilməmişdir. Kilsənin yüzdən çox məzhəb və təriqətlərə bölünməsi Qərb xristian identikliyinin nominal xarakter da-

[27] Хафса Орхан Астром. Мультикультурализм: османский опыт, http://islam.com.ua/dialog/1699-mulytikulyturalizm-osmanskiy-opyt

şımasına, dini zəmində natamamlıq kompleksinin artmasına, islamofobiyanın yerli etnik identiklik üzərində qurulan dini-millətçilik əhvali-ruhiyyəsi ilə möhkəmlənməsinə gətirib çıxarmışdır.

Əlbəttə, bu gün Qərb dünyası orta əsrlərdə olduğu kimi müsəlman Şərqini "Min bir gecə nağılları" prizmasından seyr etmir. Dinlərə, mədəniyyətlərə münasibəti geosiyasət müəyyən edir. Orta əsrlərdə Avropanın bir sıra xristian müəllifləri islam dinini "İblisin təlimi" kimi təqdim edirdilər. Məsələn, İspaniyada – Əndəlisdə anonim müəllifin qələmə aldığı kilsə salnaməsində *(Tultusceptru de libro domni Metobi)* guya iblisin Ozim *(Əzim)* adlı ərəbi yoldan çıxararaq insanları Rəbbin yolundan azdırmaq üçün xristianlığı təhrif etməyə məcbur etmişdir. Digər salnaməçilər, məsələn, benedikt ordeni rahibi Bedanın *(Beda Venerabilis)* yazdıqlarına görə, guya Tövratın "Yaranış" kitabında İbrahim oğlu İsmayıl "gələcəkdə əlləri ilə bütün insanlara müsibət gətirən vəhşi adam" kimi təsvir edilir. Sonra isə söhbəti islam dininin üzərinə gətirir: **"İndi onun insanlara qan udduran əli böyümüş və özünə qarşı çevrilmişdir. Onlar öz hakimiyyətlərini bütün Afrikaya yaymış, Asiyanın böyük hissəsini, Avropanın bir hissəsini ələ keçirmiş, hamıya nifrət edərək onları özlərinə qarşı qaldırmışlar.**[28] Yeri gəlmişkən, yunan dilində "Şərq adamı" anlamını verən və köçəri bədəvi tayfalarına aid edilən "sarasin" kəlməsini Qərbi Avropa ilk dəfə orta əsrlərdə bizanslı tacirlərdən eşitmişdir. Sonralar Avropanın kilsə sal-

[28] Tolan, Saracens; Islam in the Medieval European Imagination (2002)

naməçiləri Bibliyada yazılanları unudaraq yunan yozumuna öz düzəlişlərini etmiş və bu ifadə "Saranın oğulları" kimi tərcümə olunmuşdur. Halbuki xristian dininin müqəddəs mətnlərində aydın göstərilir ki, ərəblərin soyu Saradan olan İshaqdan deyil, İbrahim peyğəmbərin ikinci həyat yoldaşı Aqarın *(Hacərin)* dünyaya gətirdiyi İsmayıldan gəlir. Səlib yürüşləri zamanı avropalılar bütün müsəlmanları – ərəbləri, türkləri bu adla çağırmışlar.

Alman klassik fəlsəfəsinin banilərindən biri sayılan Georq Hegel "Tarixin fəlsəfəsinə dair mühazirələr" əsərində xristianlıq-islam münasibətlərinə toxunmuş və Şərqi "tarixin uşaqlıq dövrü" adlandırmışdır. Onun fikrincə, dünya tarixinin – "Fövqəlruhun möhtəşəm əsərinin" kökləri qədim Şərqdən qidalanır. Bununla belə, müsəlman Şərqi haqqında populyar stereotiplərin təsiri altında olan filosof Qərb və Şərq arasında fərqləri müqayisə edərək vurğulayırdı ki, **"Fiziki** (maddi) **Günəş Şərqdə çıxır, Qərbdə isə batır. Lakin ətrafı daha güclü nura qərq edən daxili, özünüdərk Günəşi yüksəklikliyə yalnız Qərbdən ucalır"**.[29] Yəni Şərqin günəşi səma cismi olsa da, Qərbin günəşi bəşəriyyət üçün mənəvi nur mənbəyidir…

Dünyanın müsəlman xalqları üçün islam dini təkcə inanc deyil, yüzilliklər boyu formalaşmış yaşam, düşüncə, davranış tərzidir. Onların sosial-siyasi həyatı, adət və ənənələri, cəmiyyət və ailədaxili münasibətləri, stereotipləri, mədəniyyəti, dünyaya baxışları məhz islam dininin müqəddəs ehkamları üzərində qurulmuş və bu proses nəsildən nəslə

[29] Гегель. Сочинения. Т. IX. М.-Л., 1932.

ötürülməkdədir. İslam eyni zamanda sayları iki milyarda çatan bu insanların etnik və dini identikliyinin qorunmasını, birliyini təmin edən yeganə və mükəmməl sistemdir. Bu gün ABŞ və Avropanın siyasətçiləri, psevdoxristian cərəyanları, missioner təşkilatları, Qərbin kütləvi informasiya vasitələri və ən nəhayət, beynəlxalq donor təşkilatları müsəlmanları bu ənənəvi sistemdən, mənəvi dəyərlərindən ayırmaq, marginallaşdırmaq, asan idarə olunan kütləyə çevirmək, bəzi hallarda isə məqsədli şəkildə radikallaşdırmaq üçün *fəaliyyətlə*rini güc*ləndir*miş, çirkin mə*qsədlərinə* çatmaq niyyə*ti ilə* səylərini və maliyyə imkanlarını birləşdirmişlər.

XX əsrin əvvəllərindən etibarən Qərb və islam dünyası arasında yaranan və bu gün də müxtəlif adlar və bəhanələr altında davam etdirilən münaqişələr İordaniya, Pakistan, Əlcəzair, Mərakeş, Tunis, Sudan, Küveyt, Bəhreyn, Qətər kimi ölkələr, eləcə də sabiq SSRİ-nin müsəlman respublikaları dövlət müstəqilliyi əldə etdikdən, Misirdə, İraqda, İranda, Əfqanıstanda qərbyönümlü monarxiyaların devrilməsindən, Fələstin məsələsinin hərbi müstəviyə keçməsindən sonra da genişlənmişdir. "Yeni dünya düzəni" iddiasına düşən dövlətlərin "idarəolunan xaos" nəzəriyyəsi əsasında müsəlman dünyasını parçalamaq, burada öz mövqelərini möhkəmləndirmək, geosiyasi və geoiqtisadi maraqlarını təmin etmək məqsədilə dinlərarası və məzhəblərarası ziddiyyətlərin, qarşılıqlı etimadsızlıq və nifrət hissinin dərinləşdirilməsinə süni imkanlar yaradılır. Məhz xristian Qərbin gündəmə gətirdiyi "idarəolunan xaos" nəzəriyyəsi "ərəb baharı" adı altında Misirdə, Tunisdə tətbiq edilmiş, Liviya, Suriya, İraq, Əfqanıstan, Yəmən kimi ölkələrdə vətəndaş müharibələri, dövlət çevrilişləri baş vermiş, yüz minlərlə insan ABŞ və Fransa

kimi dövlətlərin iddialarının qurbanı olmuşdur. Məhz Fransanın fəal iştirakı ilə 2011-ci ilin oktyabr ayında Liviyada Müəmmar Qəddafi rejimi devrilmiş, bu ölkənin zəngin təbii sərvətləri, o cümlədən neft və şirin su ehtiyatları Qərb şirkətlərinin nəzarəti altına keçmişdir.

Bu gün isə yer üzündə Şərq və Qərb sivilizasiyaları arasında süni qarşıdurmaların və qarşılıqlı etimadsızlığın yaranması və dərinləşdirilməsində dinlərin, xüsusilə islam və xristian mədəniyyətlərinin, bu irsin daşıyıcılarının qarşıqarşıya qoyulmasında geosiyasi və geoiqtisadi maraqların gizlənməsi şəksizdir. Əslinə qalsa, bu son dərəcə təhlükəli "idarəolunan xaos" yanaşması sivilizasiyalar və mədəniyyətlər arasında dialoqun, xalqların, dövlətlərin, fərqli mədəniyyətlərin və dinlərin birgəyaşayış qaydalarının, onlar arasında səmimi əməkdaşlığın formalaşmasına mane olan, bir qayda olaraq, fövqəldövlətlərin və dünyanın aparıcı transmilli şirkətlərinin mənafelərinin ödənilməsinə yönəldilən səylərə bəraət qazandırmaqdan, münaqişəyə "dini müharibə", "cihad", "XX-XXI əsrlərin səlib yürüşləri" donu geyindirilməsi cəhdlərindən başqa bir şey deyildir. Son dövrlərdə islamofobiya daha radikal xarakter almaqla Avropada bir çox neofaşist, radikal-millətçi siyasi dairələrin yerli cəmiyyət içərisində mövqelərinin möhkəmlənməsinə, nüfuz qazanmasına xidmət etməkdədir.

Siyasət və din arasında münasibətlər həmişə simbioz – qarşılıqlı faydalı əməkdaşlıq xarakteri daşımışdır. Onların manipulyativ metodları arasında da konstruktiv fərq yoxdur. Həmin metodlardan bəzən bir-birinə qarşı istifadə olunsa da, din və siyasətin maraqları üst-üstə düşdükdə bir-birini qida-

landırır və qoruyur. Bu əməkdaşlıqda siyasət daha çox qazanır. Çünki sosial stereotiplərin formalaşmasında təkcə siyasi ştamplardan deyil, dini miflərdən, mövhumatdan, xurafatdan da hərtərəfli yararlanmaqdadır. Bunlar isə təkcə keçmiş haqqında təsəvvürləri dəyişmək üçün deyil, bu günü və gələcəyi də idarə etməyə imkan verir.

Qərbin islam dininə qarşı patoloji dözümsüzlüyünün kökləri qədim olsa da, "islamofobiya" termini elmi-siyasi ədəbiyyata ötən əsrin 80-ci illərindən etibarən daxil olmuşdur. Lakin məhz 2001-ci il sentyabr ayının 11-də Nyu-Yorkda törədilmiş terror aktından sonra ictimai dövriyyədə müsəlmanlara və bütövlükdə islam dininə qarşı dayanıqlı ifadəyə, hərbi müdaxilələr, dövlət çevrilişləri üçün siyasi bəhanəyə çevrilmişdir. Həmin hadisədən dərhal sonra ABŞ prezidenti Corc Buş terrorizmə qarşı qlobal müharibənin başlanmasını elan etmiş və bu mübarizəni Şərq dünyası – müsəlmanlar əleyhinə səlib yürüşləri ilə eyniləşdirmişdir. Bununla da islam dünyasına qarşı yeni yürüşün, dinlərarası qarşıdurmanın ən ağır mərhələsinin startı verilmişdir…

"İslamofobiya" anlayışı, bir qayda olaraq, etnik mənsubiyyətindən, irqindən asılı olmayaraq bütün müsəlmanlara nifrət hissindən, xurafatdan, dini fanatizmdən və dözümsüzlükdən qaynaqlanan siyasi alətdir. O sadəcə müsəlmanlara qarşı nifrət hissini aşılamır, islam dinini və mədəniyyətini, maddi-mənəvi dəyərlərini, Qərb mədəniyyətinin formalaşmasında müsəlman sivilizasiyasının rolunu təhrif edir, xristianlıq və islam arasında ortaq dəyərləri, təmas nöqtələrini saxtalaşdırır. Müasir islamofobiya Qərbin geriyə doğru "təkamülü" kimi orta əsrlərdəki analoqundan seçilmir, dini əlamətlərə görə diskriminasiya siyasətində, qarşılıqlı nifrət

hissinin, ədavətin qızışdırılmasında, müsəlmanların hüquq və azadlıqlarının kütləvi şəkildə pozulmasında, onların sistemli şəkildə marginallaşdırılmasında təzahür etməkdədir.[30]

Oksford Universitetinin professoru, dinlərarası münasibətlər üzrə tanınmış mütəxəssis Sandra Fredman "Diskriminasiya və insan hüquqları" kitabında islamofobiyanı xalqlar və fərqli konfessiyalar arasında qarşıdurmalara səbəb olan sosial fəlakət kimi dəyərləndirmiş, bu termini "islam dininə və müsəlmanlara münasibətdə düşüncəsizlik, ağılsız adamların xofu və diskriminasiya siyasəti" kimi izah etmişdir.[31] 1997-ci ildə Böyük Britaniyanın irqi bərabərlik və vətəndaş hüquqları üzrə "Runnymede Trust" Analitik Tədqiqat Mərkəzi Qərbin islamofobiya siyasətini "islama və müsəlmanlara münasibətdə insanlara qorxu və nifrət hissinin aşılanması" adlandırmışdır. Qeyd edilmişdir ki, islam dininin daşıyıcıları haqqında mənfi sosial təsəvvürlərin, o cümlədən dini stereotiplərin davamlı şəkildə ictimai şüura yeridilməsi islamofobiyanın manipulyasiya imkanlarını genişləndirmiş, Böyük Britaniyada yaşayan



Qərb plakatında Avropa Birliyinə can atan Türkiyə "müsəlmanların Troya atı" kimi təsvir edilmişdir.

[30] Христианская идентичность в плюралистической Европе, Доклад на Европейском форуме католиков-мирян (Братислава, 1-6 июля 2008 г.), http://www.katolik.ru/mir/1016-archive/101109-st34406.html

[31] Fredman, Snadra. Discrimination and Human Rights. Oxford University Press, 2012

müsəlmanların ölkənin sosial və iqtisadi həyatından məqsədli şəkildə təcrid edilməsinə ideoloji baza yaratmış, Qərb sivilizasiyası ilə müqayisədə islam dininin "primitiv" olmasına və onun din deyil, təsirli siyasi ideologiya kimi formalaşması ideyalarının ictimai şüura təlqininə istiqamətləndirilmişdir. "Runnymede Trust" mərkəzinin mütəxəssisləri islamofobiyanın orta statistik avropalının beynində dərin kök salmasına səbəb olan səkkiz dayanıqlı sosial ştamp müəyyən etmişdir:

1. İslam sivilizasiyası təkamülə, inkişafa qarşıdır.

2. İslam mədəniyyəti ümumbəşəri mədəni dəyərlərdən kəskin şəkildə fərqlənir. O nə digər mədəniyyətlərə təsir göstərə, nə də özü onlardan bəhrələnə bilir.

3. Müsəlmanlar özündə geriliyi, barbarlığı, irrasionallığı, şəhvət düşkünlüyünü əks etdirən mədəniyyətin daşıyıcılarıdır.

4. İslam mədəniyyəti kobud və aqressivdir, terrora meyillidir və digər mədəniyyətlərlə qarşıdurmaya can atır.

5. İslam təlimi dövlətlərin hərbi-siyasi maraqlarının ödənilməsində istifadə olunan siyasi ideologiyadır.

6. Müsəlmanların Qərb sivilizasiyasını tənqid etməsi bu gün aktual deyil.

7. Qərbin islam dininə düşmən konfessiya kimi yanaşması, müsəlmanların diskriminasiyası, yerli cəmiyyətdən təcrid edilməsi vacib və özünü doğrultmuş fəaliyyətdir.

8. İslam dini ilə düşmənçilik Qərb dünyası üçün normal haldır və s.[32]

[32] Islamophobia: A Challenge for Us All, https://www.runnymedetrust.org/publications/islamophobia-a-challenge-for-us-all

Lakin Qərbin siyasi, dini və elmi dairələrində islamofobiyanın total xarakter alması daha bir stereotiplə izah olunur. Alman filosofu Osvald Şpenqler hələ 1918-ci ildə nəşr etdirdiyi "Avropanın qürubu" kitabında Qərbin xristian sivilizasiyasının yaxın gələcəkdə öz inkişaf mərhələsini başa çatdırdığını və onun etnomədəni identiklik əsasında parçalanmasının labüdlüyünü proqnozlaşdırmışdır. Polşalı professor Mixail Severinski isə düz 90 il sonra – 2008-ci ildə Bratislavada keçirilmiş Katoliklərin Ümum-Avropa Forumunda bu böhranın artıq baş verdiyini bildirmiş və onun əsas səbəblərindən biri kimi xristian dəyərlərinin guya müsəlmanların, əsas etibarilə Avropada məskunlaşmış miqrantların maraqlarına güzəştə gedilməsini göstərmişdir. Onun sözlərinə görə, **"Avropa identikliyinin mənbəyi olan xristianlığa vurulan ciddi zərər nəticəsində Rəbbin adının dini kontekstdən kənarda çəkilməsi qadağan olunmuşdur… Xristianlar onların dini baxışları üçün təhdid olan çağırışlara cavab verməli, xristian identikliyi gündəlik təcrübəmizlə zənginləşməlidir"**.



Müasir Avropa mətbuatında islam dininə və məscid tikintisinə qarşı yayılan plakat-işarələr

Belçika yazıçısı Jülyen Falkenarenin fikrincə, "Yalnız bir dinin cənnətinə inanıb digərlərinin cəhənnəminə düşməmək insanlardan böyük risk tələb edir". Sosial sorğuların nəticələrinə əsasən Polşada respondentlərin 66%-i xristian ol-

duqları üçün islama və müsəlmanlara mənfi münasibət bəslədiklərini bildirmişlər. Macarlar və italiyalılar arasında bu rəqəm müvafiq olaraq 72%-ə və 69%-ə bərabərdir. 2016-cı ilin iyul ayının 14-də Fransanın Nitsa şəhərində Tunis mənşəli radikal islamçı Məhəmməd Lahuaiej Bulelin törətdiyi terror aktından *(86 nəfər ölmüş, 308 nəfər yaralanmışdır*) sonra Nikolya Sarkozi **"Fransanın öz həyat tərzini dəyişməyəcəyini… Fransız xalqının küçədə, hamının gözü qarşısında müsəlmanların namaz qılmaq istəmədiyini"** bildirmişdir. Polşanın daxili işlər naziri Mariuş Blaşak jurnalistlərə verdiyi müsahibədə həmin cinayətin baş verməsində multikulturalizm siyasətini təqsirli hesab etmişdir: **"Biz Paris və Brüsseldəki terror aktlarından dərs ala bildikmi? Bütün bunlar multikulturalizm siyasətinin və onun siyasi məqsədəuyğunluq prinsipinin nəticəsidir"**.[33] Devid Kemeron, öz növbəsində, **"müsəlman cəmiyyətində nüfuza malik olan, lakin Qərb dəyərlərinə uyğunlaşmaq istəməyən təşkilatların universitet şəhərciklərindən qovulmasını və onların maliyyə dəstəyindən məhrum olunmasını"** təklif etmişdir. Ultrasağçı "Milli Cəbhə" təşkilatının lideri Marin Le Pen müsəlmanların küçədə kütləvi namaz qılmalarını 1940-1944-cü illərdə Fransanın Hitler Almaniyası tərəfindən işğalına bənzətmişdir.

Bu gün milyonlarla müsəlmanın yaşadığı Fransa islamofobiya pandemiyasının kritik həddə çatdığı ölkədir. Son illər, xüsusilə Emmanuel Makronun prezidentliyi dövründə islam dininə qarşı təhdidlər burada dövlət siyasəti

[33] Адам Тейлор. Что думает Франция о мультикультурализме и исламе, http://inosmi.ru/social/20160717/237220560.html

səviyyəsinə çatdırılmışdır. 1980-1990-cı illərdə mühafizəkar katolik, 1990-cı ildən 2018-ci ilədək deist, həmin ildən bu günədək islahatçı katolik olan E.Makron "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibədə Fransadakı dinlərarası münasibətlərə, dinin təhsil sistemindən və dövlət sektorundan uzaqlaşdırılmasına güzəştlərin edilməyəcəyinə toxunmuş, ölkəsində dünyəviliyi qorumasına dair planlarını açıqlamışdır. Onun sözlərinə görə, əgər təsirli tədbirlər görülməzsə, Fransanın müsəlman icması tezliklə özünün alternativ cəmiyyətini yaratmağa nail olacaqdır. Makron özünün islamofob tezislərini **"islamın bu gün bütün dünyada böhran içində olan bir din olması"** ilə əsaslandırmışdır.



Fransanın "Charlie Hebdo" jurnalı hicablı müsəlman qadınları belə təqdim edir.

Makronun bu sözləri Fransanın sosial mediasında da kəskin reaksiyaya səbəb olmuşdur. Müsəlman ictimai fəalı Yasser Louati özünün tviter səhifəsində prezidentin aqressiv fikirlərinə belə münasibət bildirmişdir: **"Əvvəllər müsəlmanlara qarşı repressiya tədbirləri gözlənilən təhlükə olduğu halda, indi reallığa çevrilmişdir. Fransa prezidenti birsaatlıq çıxışında dünyəviliyi dəfn etmiş, ifrat sağçıları və müsəlmanların əleyhinə olan solçuları həvəsləndirmiş, qlobal pandemiyaya baxmayaraq, evdə**

təhsil almaq üçün kəskin məhdudiyyətlərin həyata keçirilməsinə çağırış edərək müsəlman tələbələri hədələmişdir". Fransalı akademik Rim-Sarah Alouane isə öz hiddətini belə ifadə etmişdir: **"Prezident Makron islam dinini bu gün bütün dünyada böhran içində olan bir din kimi xarakterizə etmişdir. Mən nə deyəcəyimi bilmirəm. Bu o qədər səfeh fikirdir ki, onu izah etməyə ehtiyac görmürəm. Narahatlığımı gizlətməyəcəyəm. Kraystçerç şəhərində baş verən dəhşətli terror aktı Fransanı rasizmi ixrac edən ölkəyə çevirmişdir".**

Qərbin psevdomultikulturalizm modelinin tərəfdarları müasir Avropanı qloballaşmanın başlanğıc modeli kimi nəzərdə tutmuş, islamofobiya sayəsində onilliklər ərzində çoxsaylı etnik və dini icmaları marginallaşdıraraq "vahid Avropa ailəsi" ətrafında toplaya biləcəklərinə əmin idilər. Lakin liberal Avropa elitasının səhv mövqeyi həmin qruplar arasında fərqlərin dərinləşməsi və siyasiləşməsi, bu prosesə daxili müqavimətin artması ilə nəticələnmişdir.[34] Eyni zamanda qloballaşma kontekstindən yanaşılanda Qərb multikulturalizminin Şərq dövlətlərinə, o cümlədən MDB məkanına yönəlik strategiyasında "ümum-Avropa identikliyi" prinsipi və "Avropa dəyərlərinə inteqrasiya" imitasiyası əsas götürülsə də, bu siyasət müstəmləkəçiliyin yeni variantı – milli dövlətçiliyin geosiyasi və geoiqtisadi maraqların təsiri altına salınmasına istiqamətləndirilən siyasi vasitə kimi dəyərləndirilir.

---

[34] Д.Наумов, С.Ломов. Мультикультурализм в контексте формирования общеевропейской идентичности, http://cyberleninka.ru/article/n/multikulturalizm-v-kontekste-formirovaniya-obscheevropeyskoy-identichnosti



Parisin mərkəzində islamofobiyaya qarşı kütləvi etiraz aksiyası

Müasir qloballaşma şəraitində dünyanın bütün dövlətləri, o cümlədən əhalisinin 85-90%-i bir etnosun nümayəndələrindən ibarət olan monoetnik Qərb dövlətləri öz ərazilərindəki məhdud etnomədəni müxtəlifliyi demokratiyanın əsas göstəricilərindən biri kimi təqdim etsələr də, ilk dövrlərdə "avropalılaşdırma" xətti əsas götürülmüş, multikulturalizmin "inteqrasiya" və "adaptasiya" tipləri adı ümum-Avropa identikliyini – dini və ya etnik icmanın ilk növbədə özünü "avropalı" kimi tanımasının vacibliyini önə çəkmişdir. Bu siyasət Fransa, Almaniya, Belçika, Kanada, Böyük Britaniya kimi Qərb ölkələrində ilk dövrlər xarici əlaqələrin genişlənməsi, ölkəyə ucuz işçi qüvvəsinin cəlb edilməsi ilə nəticələnsə də, sonralar qastarbayterlərin yerli cəmiyyətə adaptasiya olunmamasına, etnik və konfessial ziddiyyətlərin yaranmasına səbəb olmuşdur. Belə ki, Fransanın "IFOP" Sosial Araşdırmalar İnstitutunun Almaniyada apardığı tədqiqatlara görə, yerli əhalinin 40%-i dini identiklik fərqlərini əsas götürərək bütün müsəlman icmasını almanların həm etnik, həm də dini identikliyi üçün başlıca təhlükə kimi qiymətləndirir.

Təqribən 20 il əvvəl Almaniyanın Bilefeld Universitetinin keçirdiyi sosioloji sorğunun nəticələrinə əsasən almanların yalnız 25%-i bu ölkədəki müsəlmanların Qərb sivilizasiyasına uyğunlaşa bilməyəcəyinə inanırdı.[35] Bununla da son illər Yaxın Şərqdə və Şimali Afrikada baş verən hərbi qarşıdurmalar nəticəsində Avropanın, demək olar ki, bütün dövlətləri kütləvi miqrant axını və yerli əhalinin buna sərt reaksiyası ilə üzləşmiş, irqi ayrı-seçkilik, ksenofobiya, islamofobiya, ifrat millətçilik və neofaşizm təzahürləri sürətlə yayılaraq radikal siyasi hərəkat xarakteri almağa və dövlət siyasətinə təsir göstərməyə başlamışdır. "The International New York Times" qəzetinin şərhçisi Kənan Malikin təhlillərinə görə, **"Multikulturalizm siyasətinin tətbiq olunduğu dövlətlərdə eyni nəticələr əldə olunmuşdur: Cəmiyyət etnik və dini fraqmentlərə parçalanmış, onlar arasında qarşılıqlı ziddiyyətlər şiddətlənmiş, vətəndaşların hakimiyyətdən narazılığı artmışdır"**.[36] Onu da vurğulamaq lazımdır ki, Qərbin aparıcı dövlətlərində islamofobiyanın kritik həddə çatdırılmasında aşağıdakı "tənzimləmə" modelləri nəzərəçarpacaq dərəcədə mənfi rol oynamışdır:

• **Assimilyasiya –** miqrantların dini və etnik identikliyinin tədricən dominant mədəniyyət içərisində əridilməsi. Etnik qrupların könüllü və ya məcburi qaydada ənənəvi etnomədəni norma və dəyərlərdən uzaqlaşdırılması və onlara dominant xalqın etnomədəni kimliyinin aşılanması;

---

[35] Мультикультурализм и кризис национальной идентичности, http://studme.org/59710/politologiya/multikulturalizm_krizis_natsionalnoy_identichnosti

[36] К.Малик. Крах мультикультурализма, http://www.globalaffairs.ru/number/Krakh-multikulturalizma-17450

• **Marginallaşdırma –** etnik qrupun bir tərəfdən öz identikliyini itirməsi, digər tərəfdən dominant mədəniyyətin identikliyini mənimsəyə bilməməsi;

• **Diskriminasiya –** miqrantlar da daxil olmaqla əhalinin irqi, etnik və dini əlamətlərə görə bölünməsi, dominant çoxluqla müqayisədə azlıqların hüquq və azadlıqlarının qismən məhdudlaşdırılması;

• **İzolyasionizm –** dövlət ərazisində mədəni müxtəlifliyin yol verilməzliyi. Dominant etnik və ya dini identikliyi xarici təsirlərdən qorumaq məqsədilə qeyri-ənənəvi mədəniyyətlərin ölkəyə nüfuz edilməsinin qarşısının alınması;

• **Separasiya –** miqrant mədəniyyəti daşıyıcılarının dominant etnik çoxluqdan tam və ya qismən təcrid olunması. Bir dövlət daxilində etnik mədəniyyətlərin siyasi-hüquqi vasitələrlə bir-birindən ayrılması, onların daşıyıcılarının hüquq və azadlıqlarının məhdudlaşdırılması;

• **Diffuziya və ya "əritmə sobası"** *(ing. melting pot)* **–** etnik və dini mədəniyyətlərin bir cəmiyyət və ya toplum daxilində əridilərək vahid sinkretik mədəniyyətin formalaşdırılması. Bütün etnik və din icmaların hüquqlarını təmin etməklə onların etnomədəni identikliyinin tədricən aşınması, ortaq mentalitet, norma və dəyərlərə söykənən cəmiyyətin yaradılması.

Misal üçün, "əritmə sobası" modelinə söykənən ABŞ-nin etnomədəni siyasətini yalnız şərti olaraq "multikulturalizm" adlandırmaq olar. Bu dövlətin rəsmi "ortaq identiklik" ideyasının bazasını təşkil edən konsepsiya hüquqi baxımdan etnik və dini azlıqlarla dominant qrup arasında bərabərliyi təmin etsə də, faktiki olaraq islamofobiya, etnik-dini

şovinizm çərçivəsindən kənara çıxa bilməmişdir. Bu siyasətdə prioritet hüquqlar dövlət siyasətində, iqtisadiyyatda və bank işində aparıcı olan "dövlətyaradıcı etnik təbəqəyə" – protestant ingilis-saksonlara verilmişdir. Amerika multikulturalizmi isə irqindən, dinindən və etnik mənşəyindən asılı olmayaraq, bütün vətəndaşların həmin tipin dominant mədəniyyətinə identifikasiya edilməsini nəzərdə tutur.



Parisdə Fransa senatının ictimai yerlərdə hicabı qadağan edilməsinə dair qərarına qarşı etiraz mitinqi

Böyük Britaniya vətəndaşı olan miqrantlar isə yerli cəmiyyətə assimilyasiya edilmələrinə qarşı çıxaraq dezinteqrasiya yolunu seçmiş, ölkədə etnik və dini fərqlər siyasiləşdirilmişdir. Böyük Britaniyanın sabiq Baş naziri Devid Kemeron da 2010-cu ildə Münhen şəhərində keçirilmiş konfransda Avropaya mühacirət etmiş insanların Qərb mədəniyyətinə uyğunlaşmaq istəməməsini etiraf etmiş, səbəb kimi avropalıların öz milli və dini dəyərlərini onlara güzəştə getməsi olduğunu göstərmişdir. Onun sözlərinə görə, **"Biz hətta bu ziddiyyətlərə də göz yumub tolerantlıq nümayiş etdirirdik… Passiv dözümlülüyü** *(tolerantlığı)* **fəaliy-**

yətdə olan liberalizm ilə, əzələli liberalizm ilə əvəz etmək və Britaniya cəmiyyətinin hansı əsas dayaqlar üzərində qurulduğunu göstərmək vaxtı çatmışdır". D.Kemeron sonra əlavə etmişdir: **"Biz ölkədə müxtəlif mədəniyyətlərin bir-birindən uzaqlaşmasına səbəb olan siyasətimizin multikultural doktrinaya uyğunlaşdırılmış uğursuz səhifəsini çevirməliyik"**. Uzun illər boyu multikulturalizmin separasiya modelinin Almaniyanın etnik-dini münasibətlərində tətbiqi bu siyasətin son nəticədə illüziya xarakteri daşıdığını, etnik identiklik problemlərini siyasi müstəviyə qaldırdığını göstərmişdir. Angela Merkelin "The Washington Post" qəzetinə müsahibəsindəki etirafına əsasən "multikulturalizm dövlət daxilində paralel cəmiyyətlərin yaranmasına səbəb olan yalana çevrilmişdir". Məsələn, 2008-ci ilin dekabr ayında Bundestaqda məhz etnik azlıqların təkidi ilə konstitusiyada dövlət dili ilə bağlı düzəliş *(alman dilinin dövlət dili elan olunması)* təsbit edilə bilməmiş və bu, "şovinizm", "etnik azlıqların hüquqlarının pozulması" kimi dəyərləndirilmişdir.

Psixologiyada yer alan və bu gün islam dinində müsəlmanlara qarşı təbliğat və əks-təbliğat fəaliyyətində tətbiq olunan "xarici nəzarət lokasiyası"[37] anlayışı bu gün sosial-siyasi, iqtisadi böhranla üzləşmiş bir sıra dövlətlərdə, məsələn, Fransada, Almaniyada, Avstriyada, Yunanıstanda, Ermənistanda ictimai şüurun effektiv manipulyasiya alətinə çevrilmişdir. 1954-cü ildə amerikalı sosial psixoloq Culian Rotterin elmi dövriyyəyə gətirdiyi bu termin, təkcə fərdlərə

[37] ***Eksternal locus control*** *(lat. locus – yer, ərazi; fr. contrule – yoxlama, nəzarət)* – insanların öz uğurlarının, üzləşdikləri çətinlik və problemlərinin səbəblərini başqalarında, xarici amillərdə, yad təsirlərdə axtarmaq meyli

deyil, bütöv cəmiyyətə də şamil edilən bu fenomen insanlarda natamamlıq kompleksindən, özünə və başqalarına inamsızlıqdan, paranoik şübhələrdən yaranır, ən nəhayət, bütün uğursuzluqların səbəbinin məhz "bədxah özgələrdə", "xarici düşmənlərdə" olduğuna inandırmaq məharətində təzahür edir. Bu isə cəmiyyətin artan sosial aqressiyasının hakimiyyətdən yayındırılaraq konkret hədəfə – "xarici düşmən obrazına" doğru yönəldilməsinə əlverişli təbliğat imkanları yaradır. Bir sıra Avropa dövlətlərində müsəlman icmalarının sürətlə "xarici düşmənlərdən" "daxili düşmənlərə" çevrilməsinə baxmayaraq, xarici nəzarət lokasiyasının tətbiqi daimi deyildir. İctimai şüurun manipulyasiyasında fasilələrin yarandığı təqdirdə xarici nəzarət lokasiyası effektivliyini itirir və absurd "xarici düşmənlərə" nifrət hissi yenə də daxili proseslərə yönəldilir və bu dəfə hakimiyyətə qarşı sosial aqressiyaya transformasiya olunur.

"Avtoritar etatizm"[38] nəzəriyyəsinin banilərindən və alman nasional-sosializminin nəzəriyyəçilərindən biri olan Karl Şmitt *(1888-1985)* bu fikirdə idi ki, **"Cəmiyyətin mövcud olması və inkişafı üçün ona mütləq düşmən obrazı lazımdır"**. Belə ki, təkcə kütlənin, qaragüruhun deyil, hətta ziyalı təbəqənin də vahid məqsəd ətrafında səfərbər olunması üçün süni təhdidlərdən, siyasi miflərdən *(stereotiplərdən)* istifadə edilməsi vacibdir: **"Qılıncın edə bilmədiyini siyasi miflər reallaşdıra, idarəolunanların etimadını qazana bilər"**. Karl Şmitt 1928-ci ildə yazdığı "Siyasiliyin dərki" kita-

[38] ***Etatizm*** – dövlətin cəmiyyətin həyatına müdaxiləsini, vətəndaşlar üzərində dövlətin tam nəzarətini təqdir edən konsepsiya

bında vurğulayırdı ki, “idarəolunanların” – hər bir fərdin, bütövlükdə cəmiyyətin dünyagörüşü “bizimkilər-özgələr” formulunun ən radikal variantı – “dost-düşmən” dual kodu əsasında formalaşmalıdır və bu prinsip dövlət ideologiyasının bazasını təşkil etməlidir. Düşmən isə kütlənin təsvir etdiyi kimi heç də həmişə eybəcər, kobud, səviyyəsiz, yarımvəhşi deyildir. O, ağıllı, səviyyəli, savadlı da ola bilər və əslində, belələri ilə dil tapmaq, iş görmək də mümkündür. Lakin dövlətin maraqlarından asılı olaraq düşmən haqqında siyasi miflər onun yad, özgə, qaniçən olmasını daim vurğulamalıdır. Kütləyə təlqin olunmalıdır ki, ən doğru yol düşməninin məhv edilməsidir.[39]



Müsəlman ailəsində yeni həşşaşinin – radikal dinçinin tərbiyəsi haqqında qərəzli karikatur

İslamofobiyada “günah keçisi” – bütün bəlaların mənbəyi olan “xarici düşmən” obrazı hazırda bir sıra Qərb dövlətlərinin ümummilli ideologiyasında, qanunvericilik aktlarında, ictimai təfəkkürdə özünü qabarıq göstərməkdədir. Əlbəttə, bu tipli dövlətlərdə əhaliyə kütləvi informasiya vasitələri ilə məqsədli və davamlı şəkildə aşılanan sosial stereotiplər, siyasi, dini, etnik miflər vasitəsilə “xarici düşmən” obrazının təlqin edilməsi, əhalinin diqqətinin hakimiyyətin həll edə bilmədiyi daxili problemlərdən yayındırılması, sax-

[39] К.Шмитт Понятие политического, Киев: Изд. «КНТ», 2021

ta vətənpərvərlik ruhunu, dini identikliyi gücləndirmək xalqın dəstəyini qazanmaq üçün çox vacibdir. Xüsusilə vurğulamaq lazımdır ki, Qərbin iştirakı ilə Yaxın və Orta Şərqdə, Şimali Afrikada baş vermiş bütün silahlı qarşıdurmalarda, "əlvan inqilablarda", dövlət çevrilişlərində və s. müsəlmanların "xarici düşmən" obrazı hərbi-siyasi müdaxilələrə bəraət qazandırılmasında xüsusi rol oynamışdır.

Beləliklə, Qərb dünyası məhz islamofobiya bəhanəsi altında bir tərəfdən özünün sosial problemlərinə, uğursuz daxili siyasətinə qarşı baş qaldıran kütləvi etirazları, sosial narazılığı "daxili və xarici düşmənlərə" – miqrant müsəlmanlara və islam dövlətlərinə yönəltməyə, digər tərəfdən müxtəlif təzyiqlər vasitəsilə həmin ölkələrdə geosiyasi və geoiqtisadi mənafelərini ödəmək üçün "bəraətverici sübutlar" əldə etməyə çalışır. Nəticədə, bu gün islamofobiya yeni, daha mürəkkəb mərhələyə yüksəlməklə ümumbəşəri təhdidə – dövlətlərarası münasibətlərə ciddi təsir göstərən, geosiyasi maraqların ödənilməsində effektiv bəhanəyə çevrilmişdir. Bu gün islamofobiya siyasəti etnik mənşəyindən asılı olmayaraq bütün müsəlmanlara, islam dininə qarşı nifrət çağırışlarını, dini dözümsüzlüyü təbliğ edən, hakimiyyət orqanları tərəfindən idarə olunan ksenofobiyanın və irqi ayrı-seçkiliyin açıq təzahürü olmaqda, onun ictimai şüura təsir imkanları və əhatə dairəsi getdikcə genişlənməkdədir. 2024-cü ildə "Müxtəlifliyin qorunması: islamofobiya ilə mübarizə" mövzusunda Bakıda keçirilmiş beynəlxalq konfransda Böyük Britaniya parlamentinin müsəlman fraksiyasının sədr müavini Əfzal Xan öz çıxışında dünyada islamofobiya meyillərinin ötən illərə nisbətən 335% artdı-

ğını, İngiltərədəki müsəlman icmasının yoxsulluq içində yaşadığını, onların 35%-nin isə dini zəmində təzyiq və təqiblərə məruz qaldığını bildirmişdir.

Qərbin kompromis variantı: "avroislam"

"Tarix boyu bütün yaramaz insanlar öz çirkin əməllərini dini maraqlar, mənəviyyat və vətənpərvərlik pərdəsi altında gizlətməyə çalışmışlar".
Henrix Heyne

Avropada xristian dininin və islamın müqayisəsi, bir qayda olaraq, mübahisələr və fikir ayrılığı ilə nəticələnir. Səbəb isə bu məsələyə hələ də ənənəvi Qərb-Şərq, xristian-müsəlman ziddiyyətləri kontekstindən yanaşılmasıdır. Məhz belə yanaşma tərzi islam dininin "günün tələblərinə" cavab verməməsi, "Avropa demokratiyasına və dünyəvilik prinsiplərinə" uyğunlaşa bilməməsi, "xristian dünyası ilə daim qarşıdurmada olması" onun fərqli regional tiplərə ayrılması, "müasirləşməsi" ideyasını gündəmə gətirmişdir. Florensiya Universitetinin professoru Franko Kardini "Avropa və islam: anlaşılmazlığın tarixi" kitabında "Aralıq dənizi islamına" geniş yer vermişdir. Çünki Avropa dövlətləri məhz bu dənizin sahillərindəki müsəlman dövlətləri ilə ilk təmaslarını qurmuş, mədəniyyət mübadiləsi aparmış, əlaqələri genişləndirmişdir. Onun sözlərinə görə, islam da yekcins din deyildir. Lakin xristian dini kimi onun da çoxsaylı formalarının olmasına baxmayaraq, yer üzündəki bütün dindaşları vahid dini icma daxilində toplamaq qabiliyyətinə malikdir. Franko Kardini Qərb

və Şərq arasında bu günədək davam edən qarşıdurmanın səbəbini Avropada islam dünyası haqqında məlumatsızlıqda, qərəzdə, dezinformasiyada, dayanıqlı mənfi stereotiplərin hələ də populyarlığını saxlamasında görür. O yazır: **"Əslində, "Avropa" və "islam" terminlərinin yozumları asimmetrikdir. Biri coğrafi məkan, digəri isə dindir. Lakin xristianlardan fərqli olaraq müsəlmanlar üçün "din" anlayışı daha geniş məna kəsb edir. İslam, sadəcə olaraq, inanc sistemi deyildir. O daha çox konstitusiya normalarını, həyat tərzini, mülki hüququ tənzimləyən sistemdir"**. Müsəlman xalqlarının maddi-mədəni irsinin Qərb mədəniyyətinə təsirinə gəldikdə isə F.Kardini Avropaya yaddaşını təzələməyi, müsəlman mədəniyyətinin xristian dünyasının inkişafına verdiyi töhfələri xatırlamağı və ona dəyər verməyi tövsiyə edir: **"Levantda**[40] **ilk dəfə yaradılan hər nə varsa bütün dünyaya yayılmış və bizim gündəlik həyatımızın bir hissəsinə çevrilmişdir. Misal üçün, qəhvə onun qohumu və rəqibi olan çay ilə paradoksal şəkildə "işğalçı dövləti" işğal etmişdir. Onlar hərbi və texnoloji baxımdan zəif tərəfin qaliblərə özünəməxsus təsir vasitəsinə – "mədəni vendetta"nın bir formasına çevrilmişdir"**.[41]

Ksenofob insanlar çox zaman nifrət etdiklərini, aşağıladıqları xalqları yaxşı tanımır, onlar haqqında obyektiv məlumata malik deyillər. Öz mövqelərində, bir qayda olaraq, mü-

[40] ***Levant*** – Aralıq dənizinin şərq sahillərini əhatə edən ölkələrin (Suriya, Livan, Fələstin, Türkiyə və s.) ümumiləşdirilmiş adı

[41] Ф.Кардини. Европа и ислам. История непонимания, Серия «Становление Европы», изд. «Алнександлия», 2016

cərrəd və yanlış təsəvvürlərə, şayiələrə inanır, totalitar, teokratik rejimlərdə isə "yuxarıların" göstərişlərinə əsaslanırlar. Qarşı tərəfin dili, dini, mədəniyyəti, tarixi, özünəməxsus etnik xüsusiyyətləri, adət və ənənələri, inancları və s. barədə məlumatsızlıq təkcə ksenofobiya üçün deyil, etnokratiya *(dövlət ərazisində bir xalqın dominantlıq hüququ),* radikalizm və ekstremizm üçün də əlverişli şərait yaradır. Natamamlıq kompleksindən əziyyət çəkən xalqlar nə vaxtsa ksenofobiyaya yoluxur, "özgələrə" məhz bu müstəvidən yanaşır. Müasir islamofobiya da siyasi-iqtisadi maraqlara tabe etdirilmiş natamamlıq kompleksinin yetirməsi və müsəlmanlar haqqında xristian heterostereotipləri ilə kapital dünyasının geosiyasi mənafelərinin "izdivac"ından doğulan sosial klişelərin məcmusudur.

Qeyri-Avropa xalqları, o cümlədən müsəlman xalqlar haqqında mənfi ictimai rəyin formalaşmasında avropasentrizm nəzəriyyəsinin mühüm rolu vardır. Avropa xalqlarının, xristian mədəniyyətinin, həyat və düşüncə tərzinin dünyanın digər regionlarındakı etnos və sivilizasiyalar üzərində müstəsna üstünlüyünü iddia edən bu cərəyan da, əslində, nəzəriyyədən daha çox siyasi ideologiya, rasizmin "yumşaq" formasıdır. Avropasentrizm də mahiyyət etibarilə dini, etnik, irqi ayrı-seçkiliyə "elmi konsepsiya" səviyyəsində bəraət qazandırmağa çalışan nordizm nəzəriyyəsinin *(alm. Nord – Şimal)* bir qolu olaraq rasizm konsepsiyasından qaynaqlanır. XVII əsrdə yaranmış bu nəzəriyyənin ardıcıllarının iddialarına görə, nordidlər – şimal xalqları *(avropalılar)* bəşəriyyətin "ali irqinin" nümayəndələri olmaqla yanaşı, qədim dövrlərdən indiyədək ən zəngin mədəniyyətin və mükəmməl sivilizasiyanın qurucularıdır. Onu da xatırladaq ki, alman antropoloqu,

Adolf Hitlerin yaxın məsləkdaşı, nasional-sosializmin ideoloji bazasının və antisemitizmin yaradıcılarından olan Hans Fridrix Karl Günterin irqçilik nəzəriyyəsi məhz nordizmin ən radikal formasıdır.

11 sentyabr hadisələrindən sonra amerikalı politoloqlar Frensis Fukuyama, Samuel Hantinqton əmin edirdilər ki, islam dini Qərbin liberal dəyərləri ilə əbədi ziddiyyətdədir və genişmiqyaslı xristian-müsəlman qarşıdurması gec-tez baş verəcəkdir. Qarşıdurma ehtimalı Avropada da yeni müzakirə mövzusunu – xristian dövlətlərində yaşayan çoxsaylı müsəlman icmalarının Qərbin yaşam tərzinə, dəyərlərinə və prinsiplərinə adaptasiyası üçün Avropadakı islamda "düzəlişlər edilməsi", yerli şəraitə uyğunlaşdırılmış "ideal islam modeli"nin yaradılması gündəmə gəlmişdir. Nəticədə, 1990-cı illərin sonu – 2000-ci illərin əvvəllərində Qərbi Avropaya miqrant axınının şiddətlənməsi elmi-ictimai dövriyyəyə yeni termin – "Avropa islamı" və ya "avroislam" ifadəsini gətirmişdir. Bir sıra tədqiqatçılar bu modelin "dünyəvi islam" adı altında Qərbi Avropada tətbiqinə, müsəlman dövlətlərində, o cümlədən postsovet məkanındakı müsəlman ölkələrində təbliğinə başlanıldığına əmindirlər. Qərb mətbuatında tez-tez hallandırılan "dünyəvi islam" modeli isə hətta adından göründüyü kimi, qüsurludur. Materializmə söykənən dünyəviliklə idealizmə əsaslanan dinin sintezi "şaxtalı bürkü", "qaynar buz" ifadələri kimi absurddur.

"Liberal və ya mütərəqqi islam" təşəbbüsü yeni deyildi. XIX əsrdə Avropada, Yaxın və Orta Şərqdə filosof və ilahiyyatçı kimi tanınan, əslən Cənubi Azərbaycandan olan Seyid Cəmaləddin Astarabadi *(Əfqani)* islam dininin modernləşdirilməsini, Qərb dünyasının nümunəsində müsəlmanların elmi

tərəqqiyə, dünyəvi təhsilə marağının artırılmasını, yerli cəmiyyətə optimal adaptasiya modelinin hazırlanmasını təklif etmişdir. Avropa islamı ideyasına əsasən bu modelin tətbiqi Qərb dünyasında xristianlıq və islam arasında münasibətlərin tənzimlənməsinə, birgəyaşayış normalarının formalaşmasına, insan hüquqları, tolerantlıq, demokratiya, gender bərabərliyi kimi anlayışların, dünyəvi dövlətlərin qanun və qərarlarının dini prinsiplərdən üstünlüyünün müsəlmanlara aşılanmasında mühüm rol oynaya biləcəkdir. Qərbdə həm də "islam liberalizmi" və "mütərəqqi islam", Rusiya Federasiyasında isə "maarifçi islam" və "neocədidizm" kimi tanınan bu konsepsiyanın müəlliflərinin – Avropada yaşayan iki ərəbmənşəli alimin – Bassam Tibinin və Tariq Ramadanın qənaətinə görə, Qərb dünyası hazırda seçim qarşısındadır: ya Avropa islamlaşmalı, ya da islam dini avropalaşmalıdır. Birinci variantın reallaşması qeyri-real hesab edildiyi üçün ikinci varianta üstünlük verilməsi daha məqsədəuyğun hesab edilmişdir.



Bosniyadakı Bosanska Krupa meydanında katolik kilsəsi, pravoslav məbədi və məscid

"Avroislam" mahiyyət etibarilə lokal coğrafi ərazidə, məsələn, ayrı-ayrı dövlətlərdə müsəlman icmalarında tətbiq olunması üçün nəzərdə tutulmuş spesifik ideologiyadır. Bu ideologiyaya prototip olaraq Bosniya və Hersoqovinadakı

təqribən yüzillik tarixi olan və Qərbin həyat tərzinə, prinsiplərinə, eləcə də polikonfessional cəmiyyət daxilində müsəlmanları avropalılarla birgəyaşayışa uyğunlaşdıran "avropalaşmış islamın" təcrübəsi öyrənilmişdir. Avstriya-Macarıstan imperiyasına daxil olan həmin ərazilərdə yaşayan əhalinin əsas hissəsi müsəlman olsa da, onların katoliklərlə, yəhudilərlə, pravoslavlarla heç bir problemi olmamışdır. Burada müsəlmanların dini icması xristian kilsəsinin strukturu əsasında formalaşdırılmış, "yeparxiyalara" bölünmüş, ölkədəki bütün müsəlmanlara rəhbərlik etmək, onları Şərqin dini liderlərinin, dini-siyasi cərəyanlarının təsirindən çıxarmaq üçün Böyük müfti vəzifəsi təsis olunmuşdur.

İdeya müəlliflərindən Tariq Ramadan Avropa islamını Qərb dövlətlərində dini tarazlığın əldə edilməsi üçün zəruri ideologiya kimi qiymətləndirir. O əmindir ki, eyni zamanda həm müsəlman, həm də avropalı olmaq mümkündür. Qərbdə məskunlaşan müsəlman bəzi istisnalar olmaqla Avropanın qanunları ilə yaşamalıdır. Əgər etnik mədəniyyəti, mental xüsusiyyəti ilə fərqlənən "Asiya islamı" və ya "Afrika islamı" varsa, nə üçün Qərb ölkələrində lokal "Avropa islamı" olmasın? Bunun üçün isə Avropada dinlərarası münasibətlər tənzimlənməli, müsəlman fəlsəfəsinin daha düzgün dərk olunması üçün islam dininin ehkamları, xüsusilə Qurani-Kərimin ayələri geniş təftiş olunmalı, onlara "daha dəqiq və obyektiv" yozumlar verilməlidir.

Digər müəllifin – Bassam Tibinin qənaətinə görə, Avropa islamı hüquq prinsiplərinə söykənməlidir. Xristian ölkələrində "avroislam" modelinin tətbiqi müsəlmanların heç bir hüquqi, mənəvi problem olmadan Qərbin siyasi sistemi daxilində Avropanın liberal dəyərlərini asanlıqla mənimsəməsinə, yerli şəraitə adaptasiyasına, inteqrasiyasına, müasirləşməsinə, sosial

fəallığının artırılmasına geniş imkanlar açacaqdır. Bəri başdan deyək ki, hazırda avroislam ayrı-ayrı Avropa ölkələrinin daxili sosial prosesi çərçivəsindən çıxaraq ABŞ başda olmaqla bir sıra Qərb dövlətlərinin Yaxın Şərq müsəlmanlarına yönəlik "yumşaq güc" siyasətinin effektiv elementinə çevrilmişdir.



Qərbdə avroislama çəkilmiş karikatur

Elmi fəaliyyətində islam dininin modernləşdirilməsinə, daha doğrusu, "sadələşdirilməsinə" və xristian dünyasına adaptasiyasına geniş yer verən Bassam Tibi belə hesab edir ki, avroislam konsepsiyası Avropanın və Şərqin müsəlman icmalarının ən optimal inanc xarakterini daşımalı, xristian və müsəlmanlar arasında əlaqələr, birgəyaşayış normaları şəriət qaydaları əsasında deyil, müasir hüquq prinsipləri, liberalizm və demokratiya ideyaları əsasında tənzimlənməli, müsəlman və Qərb mədəniyyətlərini, islam və İsa Məsih təliminin ortaq dini dəyərlərini qabartmalıdır.

Lakin "Avropa islamı"nın da ciddi çətinlikləri vardır. İş burasındadır ki, Qərb dövlətlərinin yürütdüyü seqreqasiya[42] siyasəti sayəsində buradakı müsəlman icmaları, bir qayda olaraq, etnik prinsip, təriqət və məzhəb fərqləri əsasında formalaşmışdır. Onların vahid dini ideologiya ətrafında birləşdirilməsinin olduqca mürəkkəb proses olduğunu professor Bassam Tibi də etiraf etməli olmuşdur: **"İslam həmişə dini**

[42] ***Seqreqasiya*** – vahid cəmiyyətin, bəzən isə bir xalqın məqsədli olaraq etnik, dini, irqi əlamətlərə görə bölünməsi siyasəti

və mədəni rəngarəngliyi ilə seçilmişdir. Müsəlman üçün məscid ibadət evidir… Biz "alman islamı" adında strukturun mövcud olması barədə heç nə deyə bilmirik. Bu o deməkdir ki, Almaniyada bütün sünniləri, ələviləri, şiələri, ərəbləri, türkləri, boşnakları birləşdirən müsəlman məbədi tikilməlidir. Bu isə mümkün olan iş deyil…"

Odur ki Qərbdə "nümunəvi avroislama" keçid üçün aşağıdakı tələblər müəyyən olunmuşdur:

- *şəriət qaydaları Avropa dövlətlərinin konstitusiyasının müddəalarına və qanunvericilik aktlarının tələblərinə zidd olduğu üçün yerli dini icmalar bütövlüklə ondan imtina etməlidir;*
- *dini ehkamlar, ayinlər sadələşdirilməli, cəmiyyətin həyat tərzinə uyğunlaşdırılmalıdır;*
- *müsəlman icmaları yerli xristian cəmiyyətindən təcrid olunmamalı, əksinə, dominant xalqın etnik mədəniyyətinə, ictimai-siyasi, iqtisadi və mədəni həyatına inteqrasiya olunmalıdır;*
- *hər bir Avropa və Şərq dövlətinin özünəməxsus, yerli adət və ənənələrə, yaşam tərzinə uyğunlaşdırılmış islam dini olmalıdır;*
- *"ümmət" anlayışı yerli müsəlman icması ilə məhdudlaşdırılmalıdır;*
- *Avroislam dinin müasirləşdirilməsinə, azlıqların, müsəlman qadınların və kişilərin hüquq bərabərliyinin təmin olunması prosesinin sürətləndirilməsinə mane olmamalıdır…*

Lakin islam dininin təkcə Avropa dövlətlərində deyil, müsəlman ölkələrində də "müasirləşdirilməsi", "dünyəviləşdirilməsi", lokallaşdırılması" və "fundamental islahatlara" məruz qalması ideyasının reallaşdırılmasının arxasında Qərbin geosiyasi maraqlarının gizlənməsi özünü getdikcə qabarıq göstərməkdədir. Bu təşəbbüsün Qərbin siyasi-ideoloji xətti olaraq islam dünyasının zəifləməsi və ümmətin parçalanması, lokal, bir-biri ilə ziddiyyətdə olan "milli islam dinlərinə" bölünməsi ilə nəticələnəcəyi, Avropa müsəlmanlarının isə etnik-dini identikliyini itirə biləcəyi ehtimalı böyükdür.

İslamofobiya və dini stereotiplər

"İnsanlar yenə də dinlə bağlı mübahisə edəcək, din haqqında kitablar yazacaq, din uğrunda öləcək, lakin dinin dediyi kimi yaşamayacaqlar".
Çarz Kaleb Kolton,
yazıçı və xristian ruhani

"Bir dəfə söylənilən yalan elə yalan olaraq qalır. Amma yalan yüz dəfə təkrar olunursa, onu həqiqət kimi qəbul edirlər". Vaxtilə fransız yazıçısı və diplomatı Fransua Rene de Şatobrianın bu sitatı sonralar Üçüncü Reyxin baş ideoloqu Yozef Gebbelsin adına çıxarılsa da, yanlış təsəvvürlərin ictimai şüura nüfuz etdirilməsi ilə bağlı mahiyyəti bu gün də gündəmdədir. Yüz dəfə təkrarlanıb gerçəklik kimi qəbul edilən bu təsəvvürlər fenomenal inandırma qabiliyyətinə malikdir. Məhz saxta illüziyalar sayəsində bu

gün dinlərə, onların daşıyıcıları arasında fərqli xüsusiyyətlərə siyasi çalarlar vurulur, ədavətə, qarşılıqlı ittihamlara, düşmənçiliyə zəmin yaradılır, cəmiyyət isə asan idarəolunan insan sürüsünə çevrilir, xalqlar müharibəyə sövq edilir. Mahir manipulyatorların əlində sosial-ideoloji təsir vasitəsi olan saxta təsəvvürlər bizi əhatə edən insanları, ətrafımızda baş verən hadisələri, keçmişimiz və gələcəyimiz haqqında təsəvvürlərimizi dəyişməyə, düşməni dosta, qələbəni məğlubiyyətə, xaini qəhrəmana, cahili müdrikə və ya əksinə çevirməyi bacarır. Onlar tarix boyu istənilən siyasi qərarın, dini ideologiyanın, psixoloji-ideoloji qarşıdurmaların, müasir dövrdə isə bütün "əlvan inqilabların" ən effektiv və kütləvi silahıdır…

Həyat təcrübəsi orta statistik insana "cəngəllik qanunlarının hökm sürdüyü aləmdə", dini ideologiya isə "fani dünyada" yaşadığını öyrətsə də, o nədənsə bu dərsləri özünə aid etmir, sayıqlığını heç zaman itirməyəcəyinə və heç kəsin onu aldada bilməyəcəyinə möhkəm əmindir. Onu manipulyatorların toruna salan da məhz özünə arxayın olmasıdır. İstənilən sosial toplumu hörümçək toru kimi əhatəsinə alan həmin manipulyativ təsirlərin bu gün ümumişlək adlarından biri də "beyinlərin yuyulmasıdır". Fərdi və ictimai *şüurun* "yuyulmasına", təmizlənməsinə, onun "0" səviyyəsinə endirilib sonra siyasi-ideoloji, dini-siyasi, sosial-mədəni "viruslarla" – stereotiplərlə, illüziyalarla yüklənməsinə görə cəmiyyət siyasətçilərə, ideoloqlara, təbliğatçılara, kütləvi informasiya vasitələrinə, reklamçılara, ruhanilərə, bütövlükdə hiss və təsəvvürlərimizlə jonqlyorluq edən bütün manipulyatorlara "minnətdar olmalıdır". Əgər qədim dövrlərdə

insanlarda eynitipli davranış və düşüncə modellərinin formalaşdırılması, onların təsir gücünün qorunması üçün hakimiyyətin və dinin birgə təsəvvür modellərindən istifadə olunurdusa, müasir dövrdə bu funksiyaları kütləvi informasiya vasitələri, sosial şəbəkələr, kütlə mədəniyyəti yerinə yetirməkdədir. Həmin kənar təsirlərin nə üçün fasiləsiz olmasının, insanın bütün bunları "normal hal" kimi qəbul etməsinin və onu ömrü boyu qarabaqara izləməsinin səbəbini isə yazıçı Çingiz Aytmatov özünəməxsus kinayə və sərrastlıqla belə ifadə etmişdir: **"İnsanın mədəsi onun beynindən daha şüurludur. Çünki mədə xoşuna gəlməyəni dərhal özündən rədd etməyi bacarır. Beyin isə fikirləşmədən hər zibili həzm etməyə hazırdır..."**

Mədəni müxtəlifliyə baxmayaraq, bütün xalqlar eyni məqsədə doğru fərqli yollarla irəliləyir. Təhlillər göstərir ki, istisnasız olaraq hər bir xalqın daxilindəki fərqli mədəniyyətlərə, dinlərə köklənmiş bütün stereotiplərdə radikalizm və etnik narsizm meyilləri özünü qabarıq göstərməkdədir. Məhz onların vasitəsilə özlərini təkrarolunmaz, başqalarından fərqli və üstün hesab edir, yad mədəniyyətlərə, icmalara, etnoslara münasibəti də bu təsəvvürlərin üzərində qururlar. Belə yanaşma nəticəsində həmin stereotiplər kütlə mədəniyyətinin, dini, siyasi ideologiyaların ayrılmaz hissəsi kimi qəbul edilir. Məsələn, eyni mənbədən qaynaqlanan İbrahimi dinlər və məzhəblər arasında münasibətlərdə mövhumatın – dayanıqlı mənfi stereotiplərin yaratdığı vəziyyət heç vaxt ürəkaçan olmamışdır. Kitabın sonrakı fəsillərində belə münasibətə ətraflı toxunsaq da, hələlik onu bildirək ki, xristianlar arasında yayılmış populyar stereotiplərə görə islam təlimindəki "cihad" anlayışı guya "terror" və "müharibə" sözlərinin

sinonimidir. Guya xristianofob müsəlmanlar tamamilə fərqli ilahiyə sitayiş edir, digər dinlərə sonsuz nifrət bəsləyir və onların ali məqsədi dünyanın islamlaşdırılması və şəriət qaydaları ilə idarə olunmasıdır. Tipik müsəlman isə, öz növbəsində, xristianları islamofobiyada, bəşəriyyətin mənəvi-əxlaqi dəyərlərini sarsıtmaqda təqsirli bilir, xaça və ikonalara tapındıqları üçün onları "bütpərəst", "Allaha şərik qoşanlar" və ya "üç tanrıya tapınanlar" adlandırırlar. Xristianlıq tarixində həm antisemitizm təzahürlərinə, həm də yəhudiliyin müdafiəsinə dair xeyli fakta rast gəlmək olar. Xristian təliminde yəhudiliyə və yəhudilərə qarşı radikal meyillər öz kökünü bu dinin ideologiya kimi formalaşmağa başladığı ilk dövrdən – eramızın II əsrindən götürür.

Xristian stereotiplərində yəhudilər həm İsanın məsih olaraq göndərilməsini inkar etdikləri, həm onun qətlini "sifariş verdikləri" üçün təqsirli bilinirlər. Xristian mövhumatçıların orta əsrlərdən etibarən yaydıqları absurd stereotiplərdən də bu gün qalmaqdadır. Onların qənaətinə görə, guya yəhudilər müqəddəs Pesax bayramlarında bişirdikləri matsaya *(acıtmasız lavaşa)* körpə uşaq qanı qatırlar (!). İslam və iudaizm arasında daha çox ortaq təmas nöqtələri olsa belə, **"müsəlmanlar heç zaman yəhudilərə "kosmik miqyasda şər" mənbəyi kimi yanaşmamışlar... İslam təliminde cəmi bir hal istisna olunmaqla yəhudiliyi inkar edən və ya yəhudilərin təqib olunmasına səbəb olan heç bir müddəa yoxdur"**.[43] Bununla belə, mövhumatçı

[43] Lewis Bernard. «The New Anti-Semitism», The American Scholar, Volume 75 No. 1, Winter 2006

müsəlmanlar arasında yayılmış dini stereotiplərdə yəhudilər "Allahın yolunu azanlar", "Tövratı təhrif edənlər", "dinlərində "cənnət" və "cəhənnəm" anlayışı olmayanlardır.

Təbii ki, yəhudilik də bu "estafetdə" geri qalmaq istəmir. Tipik yəhudinin təfəkküründə dərin kök salmış stereotiplərdə həm xristianlar, həm də müsəlmanlar "kafir", "Rəbbin yolundan azanlardırlar". Yeri gəlmişkən, hər üç dinin ştampında buddizm təlimi tamamilə yanlış olaraq bütpərəstliklə eyniləşdirilir. Eyni zamanda 2016-2017-ci illərdə Myanmada müsəlmanların kütləvi qətliamı buddizmin deyil, müasir buddaçıların "pasifist", "sülhsevər" din olması barədə stereotipləri tamamilə dağıtmışdır. Həmin hadisələr zamanı Tailandın ultramillətçi buddist rahibləri isə əhalini ölkədəki bütün məscidləri yandırmağa çağırmışdır. Tipik müsəlman və xristian mövhumatçılarının səhvən "yezidilik" adlandırdıqları yezdilik dininin *(şərafətdinlik)* "iblisə sitayiş edənlər" kimi tanıdılması da bu inanc haqqında məlumatsızlığın və dini ştampların nəticəsidir.

Faşizmin opponentlərinə, "aşağı irqdən" olan xalqlara qarşı aksiyaları Fransa yakobinçilərinin, bolşeviklərin "xalq düşmənlərinə" münasibətlərindən fərqlənmirdi. 1933-cü ildə Adolf Hitler Almaniyanın kansleri olduqdan sonra, fevral ayının 28-də hökumət vətəndaşların söz, mətbuat, sərbəst toplaşma azadlıqlarını, şəxsi mülkiyyətin toxunulmazlığı hüququnu ləğv etmiş, güc strukturlarına vətəndaşların mənzillərində ordersiz axtarış aparmaq səlahiyyətini vermişdir. Mart ayının 4-də isə ölkədəki "xalq düşmənlərini" və "dövlətin düşmənlərini" islah etmək üçün Dahauda ilk konsentrasiya düşərgəsi öz qapılarını siyasi opponentlərin üzünə açmışdır. Elə həmin ay Münhen polis idarəsinin

rəisi, sonralar isə SS reyxsfüreri olmuş Henrix Himmler nasist mətbuatına verdiyi müsahibədə bildirmişdir ki, Hitler ona rejimin siyasi müxalifəti üçün rezervasiyalar yaratmağı tapşırmışdır. **"Buraya bütün kommunist və sosial-demokrat funksionerlər, lazım olduğu təqdirdə isə dövlət üçün təhlükə yaradan cinayətkarlar yönəldiləcəklər".**[44] Həqiqətən də, Dahaunun məhbuslarının 80%-i nasizmin siyasi opponentlərindən, 10%-i "aşağı irq" nümayəndələrindən, qalan 10%-i isə kriminal elementlərdən ibarət olmuşdur. Əgər hər 10 cinayətkardan 8-i bir müddətdən sonra azadlığa çıxa bilirdisə, birinci və ikinci kateqoriyaya daxil olanların şansı, demək olar ki, yox idi. Ümumiyyətlə, Dahau konsentrasiya düşərgəsində 250 min məhbus olmuş, onların 70 min nəfərdən *(28%-i)* ibarət olan siyasi dustaqları isə məhv edilmişdir.

Müasir insanın üzləşdiyi ən böyük psixoloji problemlərdən biri onun digər insanları, xüsusilə yer üzündəki fərqli mədəniyyət, din daşıyıcılarını hələ də düzgün dərk edə bilməməsidir. Mədəniyyətlərarası və sivilizasiyalararası kommunikasiyanın qurulmasının zərurətə çevrildiyi, mədəni əlaqələrin genişləndiyi, miqrasiya prosesinin – "xalqların yeni köçünün" adi hal aldığı, siyasi proseslərin və iqtisadi münasibətlərin durmadan dəyişdiyi bir dönəmdə bu problem getdikcə daha böyük əhəmiyyət kəsb etməkdədir. Bununla belə, son onilliklərdə dövlətlərarası münasibətlərdə yaşanan gərginlik xalqlar arasında əlaqələrə də sirayət etmiş, bir cə-

[44] Ю.Кантор. Образцово-показательный террор, http://www.vremya.ru/print/225527.html

miyyətdə digərləri haqqında obyektiv təsəvvürlərin formalaşmasına mənfi təsir göstərən stereotiplərin manipulyativ imkanlarının genişlənməsi üçün əlverişli şərait yaratmışdır.

"İctimai rəy" konsepsiyasının müəllifi, "stereotip" anlayışını ictimai-elmi dövriyyəyə gətirən amerikalı publisist və siyasi şərhçi Volter Lippmana görə, **"Biz dünyanı özümüz dərk etməyə imkan tapmamış stereotiplər bizə onun haqqında hazır məlumat ötürmək gücünə malikdir"**.[45] Elm, bir qayda olaraq, "stereotip" ifadəsini uzun illərin təcrübəsi nəticəsində ayrı-ayrı fərdlər, sosial qruplar, hadisələr, proseslər və s. haqqında formalaşmış dayanıqlı və sadələşdirilmiş təsəvvürlər, mövhumat kimi izah edir. Bir sıra tədqiqatçılar isə onu "kütləvi hipnoz", "məqsədyönlü illüziya", "subyektiv münasibət", "subyektiv mövqenin həqiqət kimi təqdim olunması", "dayanıqlı şayiə" və s. adlandırırlar. Stereotiplər təkcə cəmiyyətin həyatını tənzimləyən, hər hansı bir problemli məsələyə "təlimatlara uyğun ictimai rəy" formalaşdıran və cəmiyyətin total idarə olunmasını asanlaşdıran müdafiə mexanizmi deyildir. O həm də kütləni idarə etmək üçün hazırlanmış mənəvi-əxlaqi və davranış normalarının, şablon ənənələrin, sosial baxışların, eləcə də siyasi, dini və sosial təbliğatın başlıca elementidir.

V.Lippmanın nəzəri baxışlarına əsasən "insan dünyanı əvvəlcə təsəvvür edir və sonra onu görməyə başlayır". Bunun səbəbini isə "gerçəkliyin dərk edilməsinin hüdudsuz, mürəkkəb və dəyişkən olması" ilə izah edir. Bütün bunlardan sonra stereotipləri "insan beyninə kənardan yerləşdirilmiş

[45] У.Липпман. Общественное мнение. – М.: Институт Фонда «Общественное мнение», 2004

təsvirlər" adlandıran *tədqiqatçı* onların son dərəcə güclü inandırma qabiliyyətinə malik olması, insanlarda əminlik yaratması haqqında bunları yazır: **"Onlar** *(orta əsrlərdə Avropa inkvizitorları)* **elə düşünürdülər ki, guya iblislə mübarizə aparırlar***,* **amma bunun əvəzinə günahsız qoca qarıları dar ağacından asırdılar. Xəlifə** *(Ömər)* **İsgəndəriyyə kitabxanasının yandırılması əmrini verəndə əmin idi ki, o məhz Allahın iradəsini yerinə yetirir… Biz bütün müharibələrin və siyasi qarşıdurmaların nə dərəcədə qəddar olduğunu yalnız o zaman aydın dərk edə bilərik ki, bu qırğınların hər bir iştirakçısının öz əməllərinin doğruluğuna, düşmən haqqında onlara təlqin olunmuş təsəvvürlərə nə üçün sidq-ürəklə inandığını düzgün başa düşək. Çünki həmin iştirakçı "fakt" dedikdə heç də həqiqəti deyil, ona "fakt" kimi təqdim olunanları** *(stereotipi)* **qəbul edir"**.[46]

İslamofobiyanın qlobal təhdidə çevrilməsində sosial stereotiplərin, xüsusilə dini stereotiplərin rolu inkaredilməzdir. Stereotiplərin, xüsusilə dini stereotiplərin tarixi insan sivilizasiyası qədər qədimdir. Bəşəriyyət minilliklər ərzində özünün davranış qaydalarını, düşüncə "normativlərini" – stereotipləri müəyyən etmişdir. Dini stereotip unikal fenomendir. Onların digər sosial ştamplardan üstünlüyü isə yüzilliklər boyu dayanıqlığı, dəyişməzliyi, toxunulmazlığı, inkaredilməzliyi, eyni zamanda dövrlə ayaqlaşa bilməsi, vaxtaşırı radikal və inandırıcı şərhlərlə yüklənməsidir. Bu

[46] У.Липпман. Общественное мнение. – М.: Институт Фонда «Общественное мнение», 2004

stereotipin başqa bir üstünlüyü isə estafet ağacı kimi nəsildən nəslə, valideyndən övlada, müəllimdən şagirdə, ruhanidən dindara və s. fasiləsiz ötürülə bilməsidir. Misal üçün, dünyada yayılan populyar mənfi dini stereotiplərə əsasən bütün müsəlmanlar terrorçu, xristianlar bütə (ikonaya və xaça) tapınan bütpərəstlər, ateistlər ədalətsiz və mənəviyyatsız, yəhudilər isə Hz. İsanın qatilləridirlər.

Təyinatlarından və hədəflərindən asılı olaraq elmi-ictimai leksikada stereotiplər "sosial ştamplar", "şablon düşüncə", "klişelər", "standart ictimai rəy", "paradiqmalar", "mövhumat", "ümumi qənaət", "mifologemlər", "xurafat", "arxetip", "parodiya", "model", "mövqe imitasiyası" da adlandırılır. Onlar istənilən ictimai rəyin, mövqeyin, toplumun özü və başqaları haqqında təsəvvürlərin formalaşdırılmasında, kütlənin asanlıqla idarə olunmasında, istiqamətləndirilməsində, qarşıdurmaların salınmasında istifadə edilən effektiv manipulyasiya vasitəsidir. İnsan həyatı boyu öz iradəsindən asılı olmayaraq "kənar proqramlarla" – stereotiplərlə yüklənir. Dünyada sosial psixologiya üzrə tanınmış mütəxəssislərdən biri sayılan Robert Çaldini (ABŞ) "Təsir-etmə psixologiyası" əsərində yazır ki, **"Stereotiplər bizi həyatımız boyu o dərəcədə qarabaqara izləyir ki, çox vaxt onların hakimiyyəti altında olduğumuzu hiss edə bilmirik… Bu gün biz son dərəcə mürəkkəb olan, məkanını sürətlə dəyişməyi bacaran çoxşaxəli qıcıqlandırıcı amillərin əhatəsində yaşayırıq"**. Stereotiplər qısa vaxt ərzində cəmi bir neçə kiçik emosional epizod əsasında onlara öz "düzgün" tövsiyələrini verir və ən optimal mövqenin nə olduğunu göstərir. İstehlakçı təfəkküründə malik in-

sanlar isə həmin tövsiyələrin nə dərəcədə doğru olub-olmadıqlarının fərqinə varmadan onlara səmimiyyətlə inanır və kor-koranə əməl edirlər.[47]

ABŞ-nin Kaliforniya Universitetinin professoru, "Mədəniyyətlərarası kommunikasiyaya giriş" kitabının müəllifi Fred Jandt dini stereotiplərin bir çox hallarda rasizm və ksenofobiyanın, etnik və dini dözümsüzlüyün təbliğində təsirli vasitə kimi istifadə olunmasını bildirir. Müəllif yazır: **"Ötən əsrin 20-ci və 30-cu illəri ərzində Almaniyada antisemitizmin stereotiplər vasitəsilə geniş təbliğatı nəticəsində alman xalqının böyük hissəsi 6 milyon yəhudinin məhv edilməsini olduqca laqeydliklə, hətta razılıqla qarşılamışdır"**.[48] Onun həmkarları – Cek Naçbar və Kevin Lauze "Populyar mədəniyyətə giriş" (Popular Culture: An Introductory Text) kitabında stereotipləri əlavə olaraq kütlə mədəniyyətinin tərkib hissəsi kimi dəyərləndirirlər. Belə ki, **"Kütlə mədəniyyətində onlar yaş həddinə, irqi mənsubiyyətə, insanların dini etiqadına, peşə xüsusiyyətlərinə, etnik kimliyə görə də formalaşırlar… Rasizm, seksizm və islamofobiya kimi mənfi təzahürlər məhz stereotiplər əsasında yaranır"**.[49]

Cəmiyyətin azad düşüncəyə, müstəqil mövqeyə malik olmasına, digər fərdlər və qruplar, hadisələr və proseslər haqqında öz təsəvvürlərinin, qənaətlərinin formalaşdırmasına mane olan başlıca amillərdən biri toplumun kütləvi şəkildə stereotipləşdirilməsidir. Stereotipləşmə sosial-psixoloji

---

[47] Чалдини Роберт. Психология влияния, издательство Питер, 2009
[48] Власть стереотипов, Washington ProFile, 2005, https://psyfactor.org/lib/stereotype.htm
[49] Yenə orada

prosesdir. O, sosial obyektlərin və hadisələrin hər hansı bir xarakterik xüsusiyyətləri və ya onlar haqqında dayanıqlı miflərin, subyektiv dəyərləndirmələrin kütləvi xarakter alması, "ictimai rəy" kimi sistemli şəkildə cəmiyyətə təlqin olunmasına istiqamətləndirilib. Stereotipləşdirmə həm də mövhumatdır, istehlakçı təfəkkürlü insanlara riskə getmədən, "günah etmədən" kütlə içərisində asanlıqla əriməyə, "təhlükəsiz yaşamağa", başqalarından seçilməməyə, ən başlıcası isə "obyektiv" düşünməyə imkan verir. Emil Zolya belə mövhumatın cəmiyyətə verə biləcəyi mənəvi ziyan barədə yazırdı: "Mövhumat çox təhlükəlidir. Onun yayılmasına yol vermək ən böyük qorxaqlıqdır. Mövhumata dözmək nadanlıqla barışmaq, orta əsr xurafatını yenidən yaşatmaq demək deyilmi? Mövhumat insanı zəiflədir və kütləşdirir".



Misirin "Əl-Vətən" qəzetində dərc olunan bu karikaturda 11 sentyabr olaylarından sonra ABŞ manipulyatorlarının müsəlman obrazları tənqid edilir.

"Təbliğat", "əks-təbliğat", "sosial-psixoloji təsir" adlandırdığımız informasiya fəaliyyəti də bir çox hallarda kütləvi stereotipləşdirilmənin, ictimai rəyin manipulyasiyasının və ya kütlə təfəkküründə total nəzarətin bir formasıdır. Bu metod qədim və müasir informasiya müharibələrində asimmetrik mübarizə üsulu kimi dəfələrlə özünü doğrultmuş, dövlətlərarası, mədəniyyətlərarası münasibətlərdə, daxili sosial-siyasi vəziyyətin tənzimlənməsində, siyasi və ya dini ideologiyanın kütləyə nüfuz etdirilməsində bu gün

də geniş istifadə edilməkdədir. Manipulyatorlar onu da yaxşı bilirlər ki, həm uzaq keçmişdə, həm də müasir dövrdə yaşayan insanın xarakterik psixoloji xüsusiyyətlərindən biri onun obyektiv informasiya qıtlığı zamanı konspiralogiyaya meyil etməsi, "etibarlı" saydığı mənbənin rəyinə inanmasıdır. Doğrudur, bu dayanıqlı vərdiş, bir qayda olaraq, onun manipulyatoru özünə "lider" kimi qəbul etdiyi və ona bütün səmimiyyəti ilə inandığı zaman özünü daha qabarıq göstərir.

Elə isə nə üçün kütlə həqiqətdən daha çox stereotiplərə meyil edir? Səbəbləri aydındır. Birincisi, kütlə təfəkküründün daşıyıcısı sadə stereotipləri daha asan qavrayır və onları, adəti üzrə, "çeynəmədən", yəni mahiyyətinə varmadan həzm edə bilir. İkincisi, ən inandırıcı stereotiplər həmin fərdin düşüncəsinin məhsulu deyildir. O, "mötəbər mənbənin" mövqeyinə daha çox üstünlük verir. Üçüncüsü, stereotipə inanan kəs özünü kütlənin tamhüquqlu üzvü hesab edir və bununla qürur hissi keçirir. Ən nəhayət, stereotiplər güclü ağrıkəsici preparatlar kimi obyekti uzun müddət öz təsiri altında saxlaya bilir. Bu fikri Kaliforniya Universitetinin professoru, "Mədəniyyətlərarası kommunikasiyaya giriş" *(An Introduction to Intercultural Communication: Identities in a Global Community)* kitabının müəllifi Fred Jandt da təsdiqləyir. O bu qənaətdədir ki, stereotiplərin imkanlarından, əsasən, "beyinlərin yuyulmasında", hər hansı bir məsələyə dair kütlə təfəkküründə dayanıqlı mövqenin formalaşdırılmasında daha çox istifadə olunur və onlar islamofobiya, etnofobiya, şovinizm, rasizm, faşizm, etnik və dini dözümsüzlük kimi çirkin siyasi-ideoloji yanaşmaların təbliğində effektiv təsir vasitələridir.

Dayanıqlığı, dinamikası, inandırıcılığı, özünün "oyun qaydaları" və ictimai şüura asanlıqla uyğunlaşması ilə seçilən dini stereotipləşmədə "kim bizimlə deyilsə, bizim düşmənimizdir" prinsipi özünü qabarıq göstərir. Bu prinsip qarşıdurmaların salınmasında detonator rolunu oynamışdır. Hətta XX əsrdə və XXI əsrin əvvəllərində baş vermiş silahlı toqquşmalarda, asimmetrik mübarizədə, informasiya müharibələrində həmin neqativ ştamplar mühüm rol oynamış, geosiyasi, geoiqtisadi mənafelər uğrunda hərbi-siyasi qarşıdurmalara məqsədli şəkildə "dini müharibə" çaları verilmişdir.

Aşağıda islamofobiya siyasətində islam dininə və müsəlmanlara qarşı geniş təbliğ edilən bəzi saxta təsəvvürləri təqdim edirik:

1. **"Xristianların Rəbbi ilə müsəlmanların İlahisi fərqlidir".** Halbuki müsəlmanlar da, xristianlar da, yəhudilər də eyni Rəbbə itaət edirlər. "Allah" müsəlmanların Uca Yaradana müraciət formasıdır. Yeri gəlmişkən, arami dilində danışan Hz. İsa da Rəbbə "Ellah" deyə müraciət edirdi. Bu stereotipin məntiqinə əsaslansaq, ingilislərin Rəbbə "Qod", ispanların "Dios", maltalıların "Alla", rusların "Boq", estonların "Jumal", fransızların "Dieu", finlərin "Jumala", almanların "Gott", rumınların "Dumnezeu", latışların "Dievs", macarların "İsten" və s. adlarla müraciət etməsi onların xristian olmasını şübhə altına almalıdır.

2. **"Müsəlmanlar İsa Məsihi inkar edirlər".** Xristianlar Hz. İsanı "Rəbbin oğlu" adlandırır, müsəlmanlar isə İsa bin Məryəmi digər peyğəmbərlər – Hz. İbrahim, Hz. Musa və başqaları kimi Allahın elçisi, Allahın ruhundan yaranmış insan (Ruhullah) olaraq dəyərləndirirlər. Qurani-Kərimin

90 ayəsində Hz. İsanın adı çəkilir. Bundan əlavə, Quranın 19-cu surəsi onun anası Hz. Məryəmin adı ilə bağlıdır.

3. **"Quran tolerantlığa qarşıdır"**. Halbuki Qurani-Kərimdə buyurulur: **"Sizin dininiz sizə, mənim dinim mənə aiddir"** (Kafirun surəsi, 6). Quran əxlaqına görə, bir mömin müsəlman başqalarının dininə, həyat tərzinə hörmətlə yanaşmalı, onlarla ədalətli davranmalı, fitnə-fəsaddan çəkinməli, zəifləri və günahsızları qorumalıdır. İslama görə, birgəyaşayış müxtəlif inanclı insanlar arasında mənəvi körpüdür. Quranda hökm edilir ki, **"Allahdan başqalarına tapınanları söyməyin. Yoxsa onlar da bilmədikləri üzündən Allahı düşməncəsinə söyərlər"** (Ənam surəsi, 108). Bəqərə surəsinin 205-ci ayəsində də vurğulanır ki, **"Allah fitnə-fəsadı sevməz!"**

4. **"İslam dini digər dinlərə dözümsüzlük təbliğ edir".** Bu dayanıqlı stereotip Qərbin minillik antiislam təbliğatından qaynaqlanmışdır. İslam özündən əvvəlki səmavi dinləri, onların peyğəmbərlərini və kitablarını qəbul edir və müsəlmanları digər inanclara münasibətdə dözümlü olmağa çağırır. İslam Allahın birliyinə tapınan xristianları və yəhudiləri "əhli-kitab" adlandırır. Quranın əl-Mumtəhənə surəsinin 8-ci ayəsində deyilir: **"Allah sizinlə din uğrunda vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyinizi və onlara qarşı ədalətlə davranmağınızı qadağan etmir. Şübhəsiz ki, Allah ədalətli olanları sevir"**.

5. **"İslam terrorçuluğu təqdir edir".** Quran ayələrinin birində deyilir: **"Kim bir kimsəni öldürməmiş və yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə, o bütün insanları öldürmüş kimi olur. Hər kəs belə bir kimsəni diriltsə** (ölümdən qurtarsa)**, o bütün insanları diriltmiş kimi**

olur” (əl-Maidə, 32). İslamda terror anlayışı yoxdur. Bununla belə, davamlı sülhün, əmin-amanlığın bərqərar olunması, insanlar, xalqlar, dövlətlər arasında qarşılıqlı faydalı əlaqələrin qurulması nə qədər nəcib niyyət olsa da, bu istək çox zaman sərt maneələrlə üzləşməkdədir. Bu səbəbdən **“Sizinlə vuruşanlara qarşı Allah yolunda siz də vuruşun və həddi aşmayın!”** (əl-Bəqərə, 190) ayəsində doğma torpağın, xalqın, ədalətin müdafiəsi üçün müharibələr, silahlı mübarizə məcburi addım kimi qəbul olunur. Buna bənzər zərurətlərə İncildə və Tövratda da rast gəlinir. Bu zərurət Quranın Mumtəhənə surəsinin 8-9-cu ayələrində belə ifadə olunur: **“Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər! Allah sizə ancaq sizinlə din yolunda vuruşan, sizi yurdunuzdan çıxardan və çıxartmağa kömək edən kimsələrlə dostluq etmənizi qadağan edər. Onlarla dostluq edənlər əsl zalımlardır!”**

6. **“İslam dünyasında qadın hüquqsuzdur”.** Qurani-Kərim nazil olduğu vaxtdan etibarən onlara hüquq və azadlıqlar bəxş etmişdir. İslama görə, ailə qadın-kişi münasibətləri üzərində qurulan kiçik cəmiyyətdir. Burada əmin-amanlıq, xoşbəxtlik onlar arasındakı qarşılıqlı hörmətdən, ehtiramdan çox asılıdır. Ailədə qadın və kişinin birbiri üzərində haqqı vardır və nikah mahiyyət etibarilə kişi və qadın arasında könüllülük prinsipi əsasında bağlanmış müqavilədir. İslam qızların razılıq olmadan, zorən ərə verilməsini qadağan etmiş, qadınlara vərəsəlik, təhsil almaq hüququnu da vermişdir. Müqəddəs kitabda hüquq bərabərliyinə, qadın azadlığına, onların təhsilinə dair kifayət qədər ayə

vardır: **"Mən istər qadın, istərsə də kişi, fərqli olmayan insanların heç bir əməlini puç etmərəm. Siz bir-birinizdənsiniz"** (Ali İmran, 195); **"Qadın və kişi olmasına baxmayaraq, saleh əməllər edən hər bir şəxs mömin olarsa, cənnətə daxil olacaq, xurma çəyirdəyinin əyriliyi qədər onlara zülm olunmaz"** (Nisa, 124); *"Onlar (qadınlar) sizin üçün libasdırlar və siz onlar üçün libassınız"* (Bəqərə, 187). İslam peyğəmbərinin hədislərinin birində isə deyilir: **"Bilikli olmaq hər bir müsəlman kişi və müsəlman qadın üçün vacibdir"**. Allahın elçisi digər hədislərdə kişiləri qadınların hüquqlarını gözləməyə dəvət edərək bunları buyurmuşdur: **"Qadınların haqlarını yerinə yetirməkdə Allahdan qorxun! Çünki siz onları Allahın bir əmanəti olaraq aldınız"**. Yeri gəlmişkən, Avropada feministlərin və sufrajistlərin qadın hüquqlarına dair qaldırdıqları məsələlərin bir çoxu təqribən 1400 il bundan əvvəl islam dinində öz əksini tapmışdır.



Qərb stereotiplərində müsəlman qadının obrazı

7. **"Cihad" kəlməsi "zorakılıq", "müharibə" deməkdir".** Almaniyanın Tyübingen Universitetinin fəxri professoru, tanınmış ilahiyyatçı, islam, xristianlıq və yəhudilik üzrə bir sıra fundamental əsərlərin müəllifi, II Vatikan Məclisinin ilahiyyat üzrə məsləhətçisi Hans Künq islamda "müqəddəs müharibə" anlayışını Qərb insanının təfəkkürünə yeridilmiş zərərli stereotip adlandırır. Onun fikrincə, **"Xristianlar bilməlidirlər ki,**

ərəb sözü olan "cihad" kəlməsi olduqca geniş məna yükünə malikdir və heç də "müqəddəs müharibə" kimi yozulmamalıdır. Bu söz ilk növbədə "cəhd etmək", "səy göstərmək" deməkdir. Qurandakı anlamı isə insanın mənəvi cəhətdən öz nəfsi üzərində mübarizəsidir. Quranda "müqəddəs" və "müharibə" kəlmələrini yanaşı görməzsiniz. Çünki müsəlmanların təsəvvüründə müharibə heç zaman müqəddəs ola bilməz... Xristianların bir çoxunun heç ağlına da gəlməz ki, Quran ayələrinin yalnız çox kiçik sayda hissəsində "müharibə" kəlməsinə rast gəlmək olar. Bununla yanaşı, "sülh", "rəhm" kimi sözlərin sayı da "cihad" kəlməsindən dəfələrlə çoxdur. Quranın hər bir surəsi Rəhim və Rəhman olan Allahın adı ilə başlanır. Onun adları *(əsmayi-hüsna)* **içərisində "Mumin"** *(əmin-amanlıq yaradan)*, **"Qəffar"** *(günahları bağışlayan)*, **"Vədud"** *(sevən və sevilməyə layiq olan)*, **"Rauf"** *(mərhəmətli, şəfqətli)* **kimi kəlmələr də vardır"**.[50]

8. "İslam dini elmi inkar edir". Fransalı şərqşünas, professor Robert Pyer Jozef bu iddianı inkar edərək yazır: **"Heç şübhə yoxdur ki, islam öz ardıcıllarını biliklərə yiyələnməyə və öyrəndiklərini tətbiq etməyə çağıran elm və bilik dinidir. Təəccüblü deyildir ki, möcüzəli Quranın ilk nazil olan ayəsində Rəbb buyurur: "Yaradan Rəbbinin adı ilə oxu!"** İslam dini insanlara fayda verən dünyəvi elmlərin öyrənilməsini, tədrisini həmişə təqdir etmişdir. Təsadüfi deyildir ki, ilkin orta əsrlərdən etibarən dünya elminin

[50] Hans Küng. Der Islam. Geschichte, Gegenwart, Zukunft, Piper Verlag GmbH, Munchen 2004

inkişafında, o cümlədən Qərbdə İntibah dövrünün formalaşmasında müsəlman alimlərinin əvəzsiz xidmətləri olmuşdur. Qurani-Kərimdə o da bildirilir ki, **"Allahdan qulları arasında yalnız alimlər** (layiqincə) **qorxarlar"** (Fatir, 28).

İslamofobiya islam dininə, müsəlman xalqlara qarşı sosiallaşdırılmış radikal sosial-siyasi, etnomədəni münasibətin təzahürüdür. 2021-ci ildə Birləşmiş Millətlər Təşkilatının dini azadlıqlar üzrə xüsusi məruzəçisi Əhməd Şahidin islamofobiyaya dair hesabatında yer üzündə az qala qlobal "pandemiya" halını alan bu vəziyyəti siyasi-iqtisadi maraqlara xidmət edən dini və etnik stereotiplərlə əlaqələndirmiş və onu "strukturlaşmış və neqativ stereotiplərlə gücləndirilmiş diskriminasiyanın nəticəsi" adlandırmışdır. Hesabatda bildirmişdir ki, **"Müsəlmanlara nifrət hissi dərin "imperialist" köklərə malikdir və bu, islamofob təsəvvürlərin dövlət səviyyəsində dəstəklənməsinə söykənir. Müsəlmanlara mənfi münasibət zəminində düşmənçiliyin, diskriminasiyanın formalaşması, bütün bunların söz azadlığı haqqında saxta bəyanatlar arxasında gizlədilməsi artıq epidemiya miqyasını almış və həyəcan doğuran reallığa çevrilmişdir"**.[51]

Bir sözlə, stereotip bizə bilavasitə aid olan və olmayan, bizi əhatə edən bütün məsələlərə dair formalaşmış və ümumiləşdirilmiş münasibətlər, fərdlər, sosial qruplar və hadisələr haqqında sadələşdirilmiş rəy, dayanıqlı təsəvvürlər, hazır dəyərləndirmə sxemidir. O, insanlar, hadisələr, ətraf aləm, "özümüz" və "özgələr" haqqında ən sadələşdirilmiş və

[51] Исламофобія опирается на стереотіпное «імперіалістіческое» мышленіе – эксперт ООН, https://news.un.org/ru/story/2021/03/1397982

ümumiləşdirilmiş qənaətləri, münasibətlər modelini verir və beyini düşünmək kimi "əlavə yüklənmədən" azad edir.

Stereotiplərlə necə mübarizə aparmalı? İndiki halda çətindir, Don Kixotun yeldəyirmanlarına müharibə elan etməsindən fərqlənmir. Çünki mübarizə aparmaq istəyən ilk növbədə təfəkküründəki stereotiplərə qalib gəlməlidir. Əsas problem isə həmin mübarizənin ciddi müqavimətlə üzləşməsidir. Orta statistik insan – məsələlərə özünün şəxsi rəyi olmayan milyonlarla insan öz mövqesini məhz onlara təlqin edilən stereotiplərin köməyi ilə formalaşdırır. "Beyinlərin yuyulmasında" – stereotiplərin kütlə təfəkkürünə "ictimai rəy", "obyektiv mövqe" kimi təlqin olunmasında siyasətin, təbliğatın, saxta "elmi mənbələrin", kütləvi informasiya vasitələrinin mühüm rolu vardır. Stereotiplər asimmetrik mübarizənin təsirli vasitələrindən biridir. Ermənistanın anti-Azərbaycan təbliğatının dərslərindən göründüyü kimi, saxta ideyanın dəfələrlə, təkidlə və müxtəlif formalarda təkrarlanması, onun "təsdiqləyici faktlarla" və "nüfuzlu mənbələrlə" möhkəmləndirilməsi son nəticədə həmin stereotipi hamılıqla qəbul edilmiş mövqeyə çevirir.

1947-ci ildə UNESCO-nun "Xalqlar arasında qarşılıqlı anlaşmaya aparan yollar" layihəsi çərçivəsində doqquz ölkədə 9 min nəfərin iştirakı ilə aparılmış sosial tədqiqatların nəticələrinə görə, stereotiplər siyasi, etnik və dini zəmində münaqişələrin əsas mənbəyi olmasa da, ədavətin və qarşıdurmaların qızışdırılmasında katalizator funksiyasını daşıyır. O zaman bir qənaət əldə olunmuşdur ki, stereotiplərlə mübarizənin ən yaxşı yolu stereotiplər vasitəsilə birtərəfli təlqin olunan məsələlərlə bağlı insanlar geniş və obyektiv

şəkildə məlumatlandırılmalı, onların zərərli təsirini anlamalı, bütövlükdə yanlış təsəvvürlər düzgün obrazlarla əvəz edilməlidir. Yalnız bütün bunlardan sonra insan qrupları arasında anlaşılmazlığın, etimadsızlığın aradan qaldırılması üçün növbəti addımlar atıla bilər. Sosial psixoloqlar indi də həmin sorğunun nəticələrinin aktuallığını təsdiqləsələr də, əlavə edirlər ki, çıxış yolu yalnız stereotiplərin ifşası ilə məhdudlaşdırılmamalıdır. Bu, işin yalnız birinci mərhələsidir. Sosial qruplar arasında sağlam qarşılıqlı münasibətlərin qurulması üçün ikinci mərhələdə onların geniş və açıq dialoqu qurulmalı, istənilən halda stereotiplər qarşılıqlı faydalı ünsiyyətdə polemika və ittiham mövzusu olmamalıdır.

Odur ki neqativ stereotiplərin təsirinin azaldılmasına yönəldilmiş bütün sosial modellərdə dialoq zərurətinin vurğulanması ilə yanaşı, əks-təbliğat və maarifçilik işinin mühüm əhəmiyyət kəsb etməsi xüsusi qeyd edilir. Onlardan qurtulmanın yolu təkcə fərdlərin deyil, bütövlükdə cəmiyyətin inkişafından, intellektual səviyyəsinin yüksəlməsindən, zərərli stereotiplərə qarşı müqavimətin artırılmasından, müstəqil düşünmək və düzgün nəticə əldə etmək bacarığının aşılanmasından və qarşı tərəf haqqında obyektiv məlumatın alınmasından keçir.[52] Deni Didro min dəfə haqlıdır: “İnsan kitab oxumasa, düşünmək qabiliyyətini itirər”.

[52] Т.Стефаненко. Стереотипы социальные, https://www.krugosvet.ru/enc/gumanitarnye_nauki/sociologiya/STEREOTIPI_SOTSIALNIE.html?page=1

III Reyxin "islam sevgisi". Mif və reallıqlar

"Din adi insanlar üçün həqiqət,
hökmdarlar üçün isə əlverişli vasitədir".
Edvard Gibbon,
ingilis tarixçisi

İslamofobiya siyasətinə həsr edilmiş kitabda faşist Almaniyasının islam dininə münasibətinin xatırlanması heç də təsadüfi deyildir. Bu gün Qərbin bir sıra dövlət rəhbərlərinin, ictimai-siyasi xadimlərinin, siyasi təşkilatlarının, hətta beynəlxalq qurumların müsəlman Şərqinə, sayları iki milyarda çatan müsəlman xalqlarına qərəzli mövqeyi, münaqişə və qarşıdurmalarda islam dinindən "detonator" kimi istifadə etməsi cəhdləri III Reyxin, onun lideri Adolf Hitlerin analoji mövqeyini xatırlatmaqdadır. Bu paralellər, eləcə də Hitlerin islama münasibəti paradoks xarakter daşıyırdı. Onun da "islamsevər" olduğunu iddia etmək ən azı sadəlövhlükdür. Fürer islam dininə müsbət yanaşmasına baxmayaraq, digər "geridə qalmış bioloji varlıqlar" kimi müsəlmanlara rəğbət bəsləmirdi. Onun üçün islam siyasi-ideoloji vasitə, müsəlmanlar isə həmin ideologiya altında "Böyük Almaniyanın" yolunda ölməyə hazır olan kütlə idi. Hitler formal olaraq katolik sayılsa da, hələ gənc yaşlarından əvvəlcə ezoterik təlimlərlə, mistika ilə maraqlanmış, bir müddət sonra ateistlərə qoşulmuş, daha sonra isə deist olmuşdur. O, yer üzünün bütün konfessiyalarını "saxta təlimlər" adlandırmış, katolik kilsəsinə isə sonsuz nifrət bəsləmişdir. Bu-

nunla belə, çıxış və müsahibələrində Rəbbə inandığını etiraf etsə də, Fridrix Nitsşe fəlsəfəsinin təsiri altında xristianlığı nasistlərin irqi doktrinasına, alman xalqının etnik psixologiyasına yad olan "saxta, zəiflərin, acizlərin inancı", islamı isə "cəsarətli, döyüşkən insanların dini" adlandırırdı.

"Kütlənin instinkti hər şeydən üstündür, etiqad bu hissdən yaranır" deyən Adolf Hitler Almaniyada hakimiyyəti zəbt etdikdən sonra nasional-sosializmin ideoloji bazasının yaradıcılarından olan Hans Günterin irqçilik nəzəriyyəsinə əsaslanan nasizm və antisemitizm sürətlə Üçüncü Reyxin dövlət ideologiyasının aparıcı elementinə çevrilmişdir. Bu təlimin ehkamları üzərində qurulmuş stereotiplərə görə, arilərin – "təmizqanlı" german xalqlarının "ali missiyası" bəşəriyyətə hökmranlıq etmək, yeni sivilizasiyanın təməlini qoymaqdır. İnkişafı əngəlləyən xalqlar isə bir toplum kimi məhv edilməli, yəhudilikdən qaynaqlanan xristian dininin insanlara təsiri məhdudlaşdırılmalıdır. 1936-cı ildə Hitlerin əmrinə əsasən Almaniyanın bütün katolik məktəblərində xristian xaçlarının svastika işarəsi ilə əvəzlənməsi ilə yanaşı, bütün dərsliklərə ali alman irqi haqqında materiallar daxil edilmişdir. Həmin dərsliklərin birində bildirilirdi: **"Yəhudilərin atası İblisdir. Rəbb dünyanı yaradanda İblis aşağı irqləri – hinduları, zənciləri, çinliləri, eləcə də "yəhudi" adlandırılan digər günahkar məxluqları xəlq etmişdir"**. Bu dayanıqlı stereotiplər inkvizisiya, səlib yürüşləri dövrlərində səslənən ittihamlardan seçilmirdi. Hətta Avropada XIX-XX əsrlərə aid karikaturlarda və bədii ədəbiyyatda yarıminsan, yarıheyvan obrazında canlandırılırdı.







Alman faşizminin Qafqazın müsəlman xalqlarına ünvanladığı siyasi plakatlar: "Qafqaz xalqları! Biz sizi bolşevik zülmündən azad edirik!"

Faşizmin irqlər konsepsiyasında almanlar və müsəlmanlar arasında hətta ən kiçik bərabərlik işarəsi belə yox idi. Hitler müsəlmanları "üçüncü növə aid bioloji varlıqlar", hərbi-siyasi məqsədlərə çatmaq üçün vasitə hesab edirdi. Nasizmin irqi ayrı-seçkilik nəzəriyyəsinə əsasən ərəblər yəhudilərdən, qaraçılardan bir pillə yuxarıda dayansalar da, slavyan xalqları ilə müqayisədə "əqli və mədəni baxımdan" aşağı yer tuturdular. SSRİ-nin müsəlman xalqları da bu irqçi təsnifata daxil edilmişdilər. III Reyxin "Ost" planına əsasən Sovet İttifaqı işğal edildikdən sonra istisnasız olaraq bütün xalqlar "Böyük Almaniya"nın çiçəklənməsinə xidmət etməlidir. Onların xoşbəxt həyat, müstəqil dövlət və ya muxtariyyət istəkləri isə arzu olaraq qalmalı idi. Odur ki III Reyx və müsəlmanlar arasında "ittifaq" praqmatik deyil, şərti, sırf ideoloji xarakter daşımışdır.

Hitler Almaniyasının müsəlmanlara və islam dininə formal meylinin arxasında da böyük siyasət – onları Böyük Britaniya və SSRİ-yə qarşı mübarizədə, antisemitizm fəaliyyətində onlardan müvəqqəti potensial müttəfiq kimi istifadə

etməsi dayanırdı. Almanlar Şimali Afrikada, İraqda, Fələstində, SSRİ-nin işğalı altında olan müsəlmanları öz tərəflərinə çəkməklə və onlardan potensial hərbi qüvvə, ərazilərindən isə xammal mənbəyi kimi istifadə etməklə həm fransızların və ingilislərin nəzarət etdikləri ərazilərdə vəziyyəti gərginləşdirir, həm də Sovet İttifaqı üçün daxildə ikinci cəbhənin açılmasına səy göstərirdilər. 1940-cı ilin dekabr ayının sonunda III Reyx Xarici İşlər Nazirliyinin xüsusi iclasında Almaniyanın müsəlman Şərqi ilə əlaqələrinin perspektivləri müzakirə edilmiş və bu prosesdə ərəblərdən və islam dinindən istifadənin iqtisadi səbəbləri də açıq vurğulanmışdır: **"Ərəblər Cənubi və Şərqi Asiyaya, eləcə də Şərqi Afrikaya doğru uzanan yolda körpü rolunu oynayan dövlətin sakinləridir və islam dininin təməlini qoymuşlar. Onlarda bizim sürətli inkişafda olan sənayemiz üçün kifayət qədər zəngin neft ehtiyatları vardır"**.



Fransız rəssamı Jan Lui Şanselin pozitiv xristianlıq və vermaxtın "Rəbb bizimlədir!" devizinə həsr etdiyi karikatur

Lakin Hitler Almaniyanı ateist dövlət kimi görmək istəmirdi. Kütləni daim ideoloji təzyiq altında saxlamaq, beyinlərini ehkamlarla yumaq, onları nasizmin məqsədlərinə istiqamətləndirmək üçün idarəolunan dinə böyük ehtiyacı vardı. 1933-cü ildə nasistlərin hakimiyyətə gəlişindən sonra Almaniyanın dövlət-din münasibətləri əsaslı dəyişikliklərə məruz qalmışdı. Hitlerin

hakimiyyət kürsüsünü ələ keçirən kimi ölkədə yürütdüyü genişmiqyaslı "qlayxşaltunq"[53] siyasəti faktiki olaraq bütün konfessiyaları, məbəd və kilsələri qeydsiz-şərtsiz dövlət orqanlarına tabe etdirmişdi. Digər tərəfdən III Reyx xristianlığı din kimi qəbul etmir, onun ehkamlarını Almaniyada nasional-sosialistlərin inqilabı üçün ciddi maneə hesab edirdi. Hitlerin dini məsələlərdə əsas məqsədi Almaniyada katolisizmin kökünü kəsmək, protestant kilsəsini, eləcə də digər dinləri dövlətin xidmətinə yönəltmək idi. Alman nasizminin yeni rəsmi dininin "pozitiv xristianlıq" hərəkatının "övliyası" sayılan Hitlerin fikrincə, "Xristianlığın yaranması bəşəriyyətin indiyədək aldığı ən böyük zərbədir. Bolşevizm isə xristianlığın qeyri-qanuni övladıdır". Bütün bunlara baxmayaraq, öz komandasına qatı dindarlarla yanaşı ateistləri də daxil etmişdi. Hitlerin qənaətinə görə, din yalnız və yalnız siyasətə xidmət etməlidir.

"Pozitiv xristianlıq" (alm. *positives christentum*) konfessional təlimdən daha çox nasist Almaniyasının "ari xalqı" konsepsiyasına, faşizm ideologiyasına, antisemitizmə xidmət edən və ənənəvi xristianlığın bəzi ehkamlarına əsaslanan radikal dini-siyasi hərəkatın ideologiyası olmuşdur. Xristianlığın digər cərəyanlarını, xüsusilə katolisizmi inkar edən, ezoterik ayinlərlə zənginləşdirilən bu təlim "ari xalqlarının təmiz xristianlığı", alman xalqının "doğma inancı" olmalı idi. Bu ideologiyaya görə, Hz. İsa yəhudi deyil, ari xalqının nümayəndəsi olmuş, lakin sonrakı dövrlərdə onun

[53] ***Qlayxşaltunq*** (alm. *Gleichschaltung)* – "eyniləşdirmə", "bərabərləşdirmə" deməkdir. Nasional-sosialistlər Almaniyada bu siyasəti yürütməklə ölkədəki bütün ictimai və siyasi proseslərə, təşkilatlara, dini icmalara və s. nəzarəti təmin etmişlər.

şəxsiyyəti, etnik mənşəyi və tutduğu yol qəsdən "yəhudiləşdirilmişdir". Pozitiv xristianlıq kilsənin yəhudi elementlərindən təmizlənməsi məqsədilə Bibliyada Tövratdan gəlmiş bütün "saxta məqamları", eləcə də katolisizmi batil elan etmişdi. Hətta 1920-ci ildə Alman Nasional-Sosialist Partiyasının platforması müzakirə edilərkən Adolf Hitler demişdir: "Bizim partiya pozitiv xristianlığın mövqeyində dayanır və hər hansı bir konfessiyaya bağlı deyildir". Təsadüfi deyildir ki, bu kilsə az sonra Adolf Hitleri "yeni peyğəmbər" kimi tanıtmağa başlamışdı. Hitler isə vəziyyətdən və auditoriyadan asılı olaraq özünü gah katolik, gah "yeni Məsih", gah "İsa Məsih aşiqi", gah da "xristian dininin müdafiəçisi" elan etmişdi.

1934-cü ildə Hitlerin silahdaşı, alman filosofu və ilahiyyatçısı, professor Ernst Berqman pozitiv xristianlığın 25 bənddən ibarət tezislərini hazırlamışdı. Həmin tezislərdə deyilirdi ki, **"Yəhudilərin İncili yenilənmiş Almaniyaya qətiyyən yaramır. İsa Məsih yəhudi deyildi. O, Rəbbin yəhudilərlə ölüm-dirim müharibəsinə göndərildiyi əzabkeş, ari irqinə məxsus döyüşçü idi... Adolf Hitler dünyanı yəhudilərdən xilas etmək üçün Yerə nazil edilmiş peyğəmbərdir… Biz almanların öz İlahisi olmalıdır… Çünki xristianların Rəbbi bizi taleyin ümidinə buraxmışdı"** və s.[54] Nəticədə, faşizm ideologiyasına daha bir stimul, Hitleri alman xalqı və Almaniya dövlətindən uca tutan psevdodini "məsih" statusu ictimai dövriyyəyə buraxılmışdır.

[54] В.Захаров. Между властью и верой: религиозные конфессии Восточной Германии в годы советского оккупационного режима, 1945-1949, https://statearchive.ru/398

Nasist təbliğatı alman xalqını fürerin "məsih" olmasına inandırmışdı. Psixoloq Karl Qustav Yunq bu fenomeni də psixoanalizin süzgəcindən keçirərək dəqiq izahını vermişdi: Başının üzərində totalitar rejimin, faşist diktaturasının Damokl qılıncı asılan, təqiblərinə məruz qalan Almaniya vətəndaşının qarşısında yalnız iki xilas yolu vardı: ya ümumi axına, qaragüruha qoşularaq faşizmi, onun liderini alqışlamalı, törətdiyi cinayətləri təqdir etməli, ya da təklənərək, cəmiyyətdən təcrid olunaraq ağır cəzasını gözləməli idi. Karl Qustav Yunq alman faşizminin "bizimkilər-özgələr" prinsipi, "xarici düşmən" və "xilaskar lider", "məsih" siyasi mifləri üzərində qurulmuş dövlət ideologiyasının alman xalqının mənəviyyatına vurduğu ziyana sonralar belə qiymət vermişdir: **"Kölgəsindən məhrum olan hər bir kəs, yenilməz, qüsursuz olduğuna inanan hər bir xalq mütləq başqalarının şikarına çevrilməlidir. Biz cinayətkarı sevir, ona böyük maraq, ehtiram göstəririk. Çünki qardaşımızın gözündəki kiçicik toz zərrəciyini görəndə iblis öz gözümüzdə olan tiri dərhal bizə unutdurur. Bu isə bizi yoldan çıxartmağın bir üsuludur. Almanlar yalnız öz günahlarını etiraf edəndən sonra özlərinə qayıda bilərlər"**.[55]

Onun həmkarı Erix Fromm da "Azadlıqdan qaçış" kitabında bu inamı sosial-iqtisadi vəziyyətlə əlaqələndirir və alman faşizminin siyasi-ideoloji prinsipləri timsalında göstərir ki, hakimiyyətə iddialı olan hər bir radikal ideologiya ölkədəki mövcud iqtisadi böhranın, sosial gərginliyin kəskin

[55] В.Захаров. Между властью и верой: религиозные конфессии Восточной Германии в годы советского оккупационного режима, 1945-1949, https://statearchive.ru/398

xarakter almasından yararlanmağa çalışır, kütlə təfəkküründə təsirini gücləndirmək üçün insanların düşdüyü psixoloji vəziyyətdən, sarsıntılardan, ümidsizlikdən, nicat yolu axtarışından məharətlə istifadə edir. Erix Fromm öz qənaətini belə əsaslandırmışdır: **"Məhz ölkədə** (Almaniyada) **iqtisadi vəziyyətin pisləşməsi və siyasi şəraitin dəyişməsi nəticəsində özünün əhəmiyyətsizliyini, gücsüzlüyünü, lazımsız olduğunu aydın dərk edən hər bir fərd faşizmin köklərini qidalandıran münbit mühitə çevrilmişdir"**.[56] Təəssüf ki, müasir Avropada Hitlerin yolu ilə gedərək "məsih" olmaq iddiasına düşən siyasətçilər, dövlət başçıları bu gün də vardır…

"İlahinin alman xalqına göndərdiyi yeni məsihin", Adolf Hitlerin islam dininə rəğbəti onun sevimli filosofu olan Fridrix Nitsşenin xristianlığa dərin nifrətindən doğurdu. Hitlerin fikrincə, 732-ci ildə baş vermiş Puatye döyüşündə frank oldusunun komandanı Karl Martelin Əndəliz valisi Əbdürrəhman ibn Abdullahın ordusunu məğlub etməsi islamın Avropaya yayılmasına son qoymuşdur. **"Əgər bu döyüşdə ərəblər qələbə çalsaydılar, german tayfaları ruhən onlara daha yaxın olan islam dinini qəbul edəcəkdilər".** Hətta 1939-cu ildə hərbi



1940-cı ildə Berlində nasistlərin vəsaiti hesabına tikilmiş Cümə məscidi

[56] Эрих Фромм. «Бегство от свободы», АСТ, 2017

sənaye naziri Albert Şpeyer ilə söhbətində gileylənərək demişdi: *"Gördüyünüz kimi, bizim bədbəxtliyimiz özümüzə düzgün din seçmədiyimizdən irəli gəlir. Nə üçün yaponlarda olduğu kimi vətən uğrunda ölümü böyük şərəf bilən dinimiz olmasın? Mütilik aşılayan xristianlıqdan fərqli olaraq məhəmmədilik (islam) bizə daha uyğun din idi".* İkinci səbəbə gəldikdə isə III Reyx vaxtilə Kayzer Almaniyasının sonuncu imperatoru II Vilhelmin (1859-1941) Şərq siyasətindən bəhrələnərək qlobal siyasətdə, digər Qərb dövlətlərinə, Rusiyaya qarşı hərbi-siyasi planlarında islam dininin imkanlarından istifadə etməyi qərara almışdı.

1898-ci ildə II Vilhelm Yaxın Şərqə rəsmi səfəri zamanı keçirdiyi görüşlərdə Almaniya və müsəlman Şərqi arasında dostuq əlaqələrinin qurulmasından, bu əlaqələrin hər iki tərəf üçün zəruriliyindən və tarixi köklərindən danışmış, üstəlik, Dəməşqdə Səlahəddin Əyyubinin məzarı önündə etdiyi tarixi çıxışda özünü "300 milyon müsəlmanın yaxın dostu" adlandırmışdı. Bu siyasətin uğurlu nəticələri özünü I Dünya müharibəsində göstərmiş, regionun və sonralar Rusiyanın da müsəlman xalqları alman ordusu ilə birlikdə Böyük Britaniyaya, Fransaya və Rusiyaya qarşı "cihad"a qoşulmuş, hərbi əməliyyatlarda fəal iştirak etmişdir...

Hitler hakimiyyətə yiyələndikdən sonra birdən-birə islam mədəniyyətinin geniş təbliğ olunmasına, radio kanallarında Şərqin müsəlman xalqları ilə almanlar arasında oxşar xüsusiyyətlərə dair ərəb dilində verilişlərin yayımlanmasına başlanılmışdı. Amerikalı jurnalist Dominik Qrin 2015-ci ilin yanvar ayının 18-də "The Wall Street Journal" qəzetində yazırdı ki, Avropa siyasətçiləri arasında ilk dəfə Adolf Hitler islamın terror dini olmamasını bəyan etmiş,

III Reyxin kütləvi informasiya vasitələrinə islam dünyasının mədəniyyətini təbliğ etməyi tapşırmış, bu din haqqında mənfi materiallar hazırlamağı qadağan etmişdir. Bundan başqa, Hitlerin sərəncamı ilə Berlində dövlət hesabına cümə məscidinin inşasına başlanılmış və 1940-cı ildə onun tikintisi tamamlanmışdı. Nasist ideoloqları türkləri, ərəbləri, farsları və kürdləri "Nürnberq irqi qanunların"dakı "natamam xalqlar" siyahısından çıxarmış, onları "ariləşdirmiş", 1943-cü ildə isə həmin xalqların nümayəndələrinə Nasional-Sosialist Partiyasına üzv olmaq, təşkilatın icra orqanlarına seçilmək hüququ vermişlər.

Bütün bunlarla yanaşı, II Dünya müharibəsi illərində vermaxtın və SS dəstələrinin tərkibində Şərqi Avropada və SSRİ ərazisində könüllü döyüşən müsəlmanlar – ərəblər, boşnaklar, albanlar və sovet hərbi əsirlərinə müəyyən güzəştlər edilmişdir. Vermaxtın hərbi hissələrə göndərdiyi xüsusi təlimatda müsəlmanların dini etiqadına hörmətlə yanaşmaq barədə göstəriş verilmişdir. Onların ibadətləri üçün şərait yaradılmış, legionlarda "hərbçi imamlar" təsis edilmiş, əsgər yeməkxanalarında islam qaydaları tətbiq olunmuş, Ramazan və Qurban bayramlarını keçirmələrinə icazə verilmişdir.



"Vaffen-SS" mühafizə divizi-yasının boşnak əsgərləri

O da maraqlıdır ki, Hitler slavyan xalqlarından təşkil edilmiş legionların III Reyxə sədaqətinə həmişə şübhə ilə yanaşırdı. Müsəlman əsgər və zabitlərə gəldikdə isə onları

“etibarlı və cəsur döyüşçülər” hesab edirdi. Odur ki faşistlərin işğalı altında olan ərazilərdəki sovet müsəlmanların alman təbliğatına asanlıqla uymasının səbəbləri bolşeviklərin kommunizm ideologiyasına ən ciddi və təhlükəli rəqib saydıqları dini ideologiyaya, o cümlədən islama düşmənçilik münasibəti və SSRİ-nin etnik siyasəti ilə bağlıdır.

Müəllif kitabda Hitlerin hakimiyyəti ələ keçirdikdən sonra nə üçün üzünü müsəlman Şərqinə tutmasının geniş şərhini vermişdir. Belə ki, 1941-ci ilin noyabr ayının 18-də Almaniyanın Misirdəki səfiri Eberxard fon Ştorer Berlinə göndərdiyi məxfi memorandumda bildirirdi ki, III Reyxin Böyük Britaniya və Fransa ilə müharibəsi müsəlmanlar arasında böyük rəğbət qazanmışdır. Almaniya bu imkandan istifadə etməli və nasional-sosialistlərlə müsəlmanlar arasında güclü ittifaqa nail olmalıdır. Bunun üçün ilk növbədə müsəlmanların və almanların yaxınlığı – hər iki toplumun ailə dəyərlərinə üstünlük verməsi, liderlərinə dərin sədaqəti təbliğ edilməli, Şərq ərazilərində islam və nasist ideologiyalarının yaxınlığına dair ictimai rəy formalaşdırılmalıdır: **“Müsəlmanlar defakto fanatikdirlər. Onları Almaniya ilə ittifaqa asanlıqla razı salmaq olar. Onsuz da fürerin yəhudiliklə mübarizəsini müsəlmanlar rəğbətlə qarşılamışlar”**.[57]

Məhz E.Ştorerin tövsiyəsi ilə 1942-ci ilin dekabr ayının 18-də Berlində İslam İnstitutu fəaliyyətə başlamış və buraya nüfuzlu müsəlman ruhaniləri, ilahiyyatçılar, şərqşünaslar, etnoqraflar, linqvistlərlə yanaşı, III Reyxin məxfi strukturlarının zabitləri də cəlb edilmişlər. Mərkəz Almaniyanın nasional-sosialist ideologiyasının Şərqdə fəal təbliğ

[57] Эрих Фромм. «Бегство от свободы», АСТ, 2017

olunmasında baza rolunu oynamışdır. 1942-ci ildə isə Almaniyanın Xarici İşlər Nazirliyi Şərqin ictimai nüfuza malik din xadimləri ilə əlaqələrin qurulmasına dair xüsusi proqramın icrasına başlamışdır. İlk olaraq Qüdsün müftisi Məhəmməd Əmin əl-Hüseyni (1895–1974) Hitlerin şəxsi qonağı qismində Almaniyaya dəvət edilmişdir.

1.  2. 

1. Adolf Hitlerin Məhəmməd Əmin əl-Hüseyni ilə görüşü. 2. Qüds müftisi müsəlman legionerlər arasında

Almanların bu seçimi təsadüfi deyildi. Bir tərəfdən Qüdsün müftisi təkcə Fələstində deyil, Yaxın Şərqin müsəlmanları arasında böyük nüfuza malik idi. Digər tərəfdən Məhəmməd Əmin əl-Hüseyni müsəlman Şərqində ərəb millətçiliyinin, "radikal islamın" ideoloji təməlini qoymuş və antisemit baxışları ilə seçilirdi. Qeyd etmək lazımdır ki, radikal çağırışlarına, 1936-cı ildə Fələstində baş vermiş üsyanda fəal iştirakına görə ölkəsindən qovulmuşdur. Hitler Berlindəki iqamətgahında "ərəb xalqının milli azadlıq hərəkatının böyük lideri" adlandırdığı mötəbər qonağını qəbul etmiş, söhbət zamanı "Yaxın Şərqdə yəhudi elementlərinin məhv edilməsinə nail olacağını" bildirmişdir. Söhbətdən ra-

zı qalan müfti Adolf Hitleri "islam dininin xilaskarı" kimi tanıdığını xüsusi qeyd etmişdir. Bundan başqa, "islam dininin xilaskarı" Qüds müftisinə müsəlmanların güclü ordusunun yaradılmasında, Fələstində ərəb dövlətinin təsis edilməsində hərtərəfli yardım göstərəcəyinə vəd vermişdir.

Devid Motadel yazır ki, Berlini özünə daimi yaşayış yeri seçən Qüds müftisinin İslam Mərkəzində "yerli ictimaiyyət nümayəndələri" ilə vaxtaşırı görüşləri keçirilmiş, Almaniyadakı müsəlmanlara radiomüracətləri təşkil edilmişdir. 1944-cü ildə radio ilə yayımlanan çıxışında alman və müsəlman dinləyicilərinə müraciətlə demişdir: **"Ayağa qalxın, öz müqəddəs hüquqlarınız uğrunda mübarizə aparın. Yəhudiləri harada gördünüzsə, öldürün. Allah da, tarix də, din də bu əməldən razı qalacaqdır"**. Bundan başqa, 25 min Bosniya müsəlmanının "Vaffen-SS" diviziyasının sıralarına cəlb olunması da bilavasitə Məhəmməd Əmin əl-Hüseynin adı və Almaniyadakı fəaliyyəti ilə bağlıdır.[58]

Lakin Hitler müsəlmanlara verdiyi saxta vədlərin heç birinə əməl etmədi. III Reyxin Afrikanın şimalındakı uğursuz hərbi kampaniyadan sonra Əlcəzairdə, Tunisdə, Suriyada və Fələstində ərəblərin Fransa və Böyük Britaniyaya qarşı qiyamlarını dəstəkləyə bilmədi. Halbuki hələ 30-cu illərin sonlarında ərəblərin başı üstündən Mussolini ilə gizli danışıqlara getmiş, Suriyanı və Fələstini İtaliyaya verməyi nəzərdə tutmuşdu. Bundan sonra islam dünyasına, nasional-sosialistlərin müsəlmanlarla ittifaqına maraq və ümidlərini də tamamilə itirmişdi. Hətta Qüds müftisinin etirazına baxmayaraq, Bolqarıstan və Rumıniyadakı yəhudiləri

[58] Эрих Фромм. «Бегство от свободы», АСТ, 2017

konsentrasiya düşərgələrinə deyil, Fələstinə göndərməyi, onları ingilislərin əsir götürdükləri alman hərbçilərinə dəyişməyi planlaşdırmışdı.

İslamofobiya: Fransanın "irsi xəstəliyi"

"Müasir dünyanın faciəsi odur ki, bu gün səlib yürüşlərindən 900 il keçməsinə baxmayaraq, biz və müsəlmanlar hələ də bir-birimizi yaxşı başa düşə bilmirik".
Ridli Skott,
ingilis kinorejissor

1903-cü ildə fizika üzrə Nobel mükafatı laureatı, fransalı alim Pyer Küri həmkarları ilə söhbətlərin birində islam mədəniyyətinin dünya elminə verdiyi töhfələri sadalayaraq bunları demişdir: **"Bizə Əndəlisin müsəlman kitabxanasından cəmi otuz əsər qalıb. Bu kitablar isə bizə nüvəni parçalamağa kömək etmişdir. Əgər xristianların yandırdıqları yarım milyon kitab əlimizdə olsaydı, yəqin ki, indi kosmosda qalaktikalar arasında səyahət edərdik"**. Tarixi mənbələr də təsdiqləyir ki, 1502-ci ildə İspaniyada Qranada əmirliyinin süqutundan sonra kraliça İzabellanın əmri ilə şəhərin Bab Rambala meydanında dünya elminin müxtəlif sahələrinə aid yüz minlərlə nadir kitab tonqala atılmışdır. "Kafir kitabları"nın yandırılmasına isə katolik kilsəsinin kardinalı Sisneros başçılıq etmişdir…

Dünya şöhrətli fransalı alimin acı etiraflarını xatırlatmağımız əbəs yerə deyildir. "İslamofobiya" termini əcnəbi mənşəli olsa da, "Fransa" kəlməsinin sinoniminə, onun keçmişinin, bu gününün üzərində ləkəyə çevrilmişdir. Hələ 1910-cu ildə tarixçi Alen Russo Fransanın və fransızların timsalında Qərbdə getdikcə şiddətlənən antiislam əhvali-ruhiyyəsini "cəhalət" adlandıraraq yazırdı: **"Qərbin xristian sivilizasiyasının xalqları əvvəllər də, indi də islama qarşı mənfi mövqedə dayanmışlar. Onların əksəriyyəti belə hesab edir ki, müsəlmanlar xristianların və avropalıların təbii və barışmaz düşmənləridir. Guya islam digər sivilizasiyaların mövcudluğunu inkar edir və müsəlmanlardan yalnız barbarlığı və alçaqlığı gözləmək olar"**. İtaliyanın Florensiya Universitetinin professoru Franko Kardini Qərb dünyasının, o cümlədən Fransanın islama radikal münasibətinin Avropanın "etnomədəni ənənə" xarakteri almasının obyektiv səbəbini tarixi köklərdə axtarır. Qeyd edir ki, bu məsələdə islam-xristianlıq təlimləri arasında fərqlərin qabardılması mənasızdır. Orta əsrlərdə səfalət içərisində yaşamağa məhkum olan avropalı xristian müsəlmanın zəngin həyatına, xoş güzəranına həmişə həsəd aparmışdı.

Səlib yürüşlərinin, Qərbin müstəmləkəçilik siyasətinin, xristian-müsəlman ziddiyyətlərinin, hətta müasir islamofobiyanın arxasında həm də bu hiss dayanır. Belə ki, **"Xristian cəmiyyətinin sərt siyasi və institusional strukturunun əsiri olan, daim əzilən, bütün maddi imkanları əllərindən alınan yoxsullar müsəlman dünyası-**

na ümid və paxıllıq hissi ilə baxırdı: Əgər mən, heç olmasa, Kalabriyada[59] balıqçının və ya alban dağlısının ailəsində doğulsaydım, bəlkə də, ya monarx, ya da admiral olardım".[60] Nyu-York Universitetinin professoru Con Dreyper dolayı yolla da olsa, Qərbin Şərqə "genetik" qısqanc münasibətinin səbəbini müsəlman dünyasının formalaşdığı dövrdən inkişafa və tərəqqiyə meyil etməsində görür. O, "Elm və din arasında müzakirə" kitabında analoji mövqe nümayiş etdirir. Bildirir ki, müsəlmanların elmlə ciddi məşğul olması 638-ci ildə İsgəndəriyyə şəhərinin fəthi ilə başlamışdır. Xəlifə Məmunun dönəmində Bağdad şəhəri dünya elminin mərkəzinə çevrilmişdir. O, Bağdada tanınmış alimləri cəlb etmiş, onlara hörmət və ehtiram göstərmiş, buraya dünyanın müxtəlif guşələrindən saysız-hesabsız kitablar gətirmişdir. Professor yazır: **"Əgər biz onların əsərlərinin adlarını toplasaq, bu siyahı bir kitaba sığmaz. Müsəlmanlar qədim elmlərin inkişafına görünməmiş təkan vermişlər. Eyni zamanda yeni elm sahələrini yaratmışlar… Müsəlman universitetlərinin qapıları bilik almaq istəyən avropalıların da üzünə açıq idi. Üstəlik,**



İslam dini və xristianlıq islamofobiyanın gözü ilə

[59] ***Kalabriya*** – İtaliyanın cənubunda yerləşən, 918-956-cı illərdə müsəlman Siciliyasının tabeliyində olan ərazi

[60] Кардини Франко, Европа и ислам. История непонимания, Александрия, 2016

Avropa hökmdarları müalicə almaq üçün müsəlmanların ölkələrinə gedərdilər”.[61]

Parisdəki Mişel de Monten adına institut Fransada dini müxtəlifliyin perspektivlərini proqnozlaşdırmaq məqsədilə 2016-cı ildə apardığı sosial araşdırma nəticəsində müəyyən etmişdir ki, ölkədə hər iki valideyni müsəlman olanların 15%-i, valideynlərindən biri müsəlman olanların 7,5%-i ata-babalarının inancından imtina etmişdir. Fransada müsəlmanların sayı (9 milyon nəfər) katoliklərdən (33 milyon) az olmasına baxmayaraq, islam dininə etiqad daha mütəşəkkildir. Əgər Fransada cəmi 1,35 milyon xristian vaxtaşırı kilsəyə gedirsə, məscidlərdə müntəzəm ibadət edən müsəlmanların sayı 2,5 milyon nəfəri ötmüşdür. İnstitut həmin sorğu zamanı Fransa müsəlmanları arasında “radikalların” sayının müəyyən edilməsinə çalışmışdı. Belə ki, onların şərti olaraq 28%-i, təqribən 1,5 milyon nəfəri “radikal” hesab edilən dini baxışları bu və ya digər səviyyədə bölüşür. Lakin onlar nə “radikal islamçı”, nə də “potensial terrorçudurlar”. Sadəcə olaraq, bu müsəlmanların böyük hissəsi şəriət qaydalarını Fransa Respublikasının qanunlarından daha üstün hesab etsə də, digərləri kimi Fransa cəmiyyətinə inteqrasiya olunmaları ilə bağlı heç bir problemləri yoxdur.[62]

Digər sosial araşdırma qrupunun, “World Values Survey” beynəlxalq tədqiqat proqramının yüzə yaxın sosioloqun müxtəlif ölkələrdə keçirdikləri sosioloji sorğuların

---

[61] Свидетельства западных ученых об Исламской культуре, https://islam.uz/statya/4994

[62] Karoui el H. La fabrique de l’islamisme. Institut Montaigne. Rapport. Septembre 2018. Paris, 2018

nəticələrinə əsasən yer üzünün "tolerantlıq xəritəsi" tərtib edilmiş və məlum olmuşdur ki, Avropanın ən irqçi, ksenofob dövləti özünü "demokratiyanın müdafiəçisi" adlandıran Fransa Respublikasıdır. Rəsmi Parisin "radikal islamçı" adlandırdığı Pakistan isə Asiyanın ən tolerant dövləti seçilmişdir. Sorğudan on ildən çox vaxt keçməsinə baxmayaraq, Fransanın mövqeyində cüzi də olsa, müsbət dəyişiklik baş verməmişdir. Əksinə, patoloji islamofob Emmanuel Makronun prezident kürsüsündə əyləşdiyi dövrdən etibarən qeyri-adekvat çıxışları, bəyanat və qərarları ilə vaxtilə "Azadlıq, Bərabərlik, Qardaşlıq" şüarının carçısı olan respublikanı ksenofobiyanın, neomüstəmləkəçiliyin, irqçiliyin dövlət siyasəti səviyyəsinə çatdırmışdır.

XVII əsrdə dünyanın ilk müstəmləkə imperiyasını yaradan dövlət Fransadır. II Dünya müharibəsi ərəfəsində bu imperiya Yer səthinin 10%-nə ağalıq etmiş, Afrikadan Asiya qitəsinin cənub-qərbinə doğru uzanan əraziləri 14 milyon kvadratmetrə çatmışdır. Fransanın müstəmləkə zülmü altında olan xalqların XX əsrin 50-ci illərindən başlanan milli azadlıq hərəkatı 1962-ci ilədək imperiyanın böyük ərazilərinin itirilməsi ilə nəticələnmişdi. Lakin Fransa Respublikası reallıqda bu gün də imperiya iddialarında olan dövlət olaraq qalır və Kanada, Afrika sahillərindəki adalarda, Cənubi Amerikada, hətta Antarktidada 120 min kvadrat kilometr ərazilərə nəzarətini davam etdirir.

Fransa bəlağətli bəyanatlarına, ikiyüzillik "Azadlıq, Bərabərlik, Qardaşlıq" şüarına baxmayaraq, fərqli inanclı insanlara, hətta islamı qəbul etmiş fransızlara münasibətdə heç zaman tolerantlığı ilə seçilməmişdir. 1982-ci ildə tanınmış yazıçı, filosof və siyasi xadim Roje Qarodi islam dinini

seçdiyinə görə təqib və təhqirlərə məruz qalmışdır. Digər fransız yazıçısı, "Bibliya, Quran və elm" kitabının müəllifi, 1998-ci ildə dünyasını dəyişmiş Moris Bukay islamı qəbul etdiyini ömrünün sonunadək gizlətməli olmuşdur. Dinlərin tarixi üzrə mütəxəssis, Stokholm Universitetinin professoru Egil Asprem Qərb dövlətlərində müsəlmanların "vandal", "barbar", "cahil" kimi tanıdılması haqqında yayılan mənfi stereotiplərə qarşı tutarlı dəlillər gətirərək qeyd etmişdir ki, hələ orta əsrlərdə Avropada aparılan islahatların sürətlənməsinə müsəlman dövlətlərinin təsiri danılmazdır. Bir sıra Avropa tarixçiləri 1529-cu ildə osmanlıların Vyana şəhərini mühasirədə saxlamasını Avropa sivilizasiyasını məhvə apara biləcək təhlükə kimi dəyərləndirsələr də, bu hadisə xristian dünyasında güc balansının yaranması və xristian məzhəblərinin öz statuslarının dəyişməsi ilə nəticələnmişdir. Sultan Süleyman öz fərmanı ilə bu ərazidə yaşayan bütün lüteranlara və kalvinistlərə dini etiqad azadlığı vermiş, sərbəst ibadətləri üçün şərait yaratmışdır. Yeri gəlmişkən, məşhur "Liever Turks dan Paaps" (Türk papadan yaxşıdır) ifadəsi də məhz həmin dövrdə yaranmışdı.[63]

Əlbəttə, Emmanuel Makron Fransa islamofobiyasının müəllifi deyildi. Bu siyasət onun prezident kürsüsündə əyləşməsindən xeyli əvvəl, orta əsrlərdən başlamış, mənbəyini səlib yürüşlərindən, Fransanın müstəmləkəçilik siyasətindən, dünyaya hakim olmaq iddialarından götürmüşdür. Fransa və müsəlman Şərqi arasında əlaqələrin tarixinə nəzər salaq. Bu əlaqələrin təqribən 1300 illik tarixi vardır. Hər

[63] Эгиль Аспрем (Egil Asprem), Ислам играет важную роль в религиозной истории Европы, https://inosmi.ru/social/20160529/236690324.html

iki fərqli dünya arasında ilk tanışlıq 714-cü ildə baş vermişdir. Həmin əlaqələrin bəzi məqamlarına diqqət yetirək. İspaniyanın Əndəlis ərazilərini müsəlmanlar zəbt etdikdən sonra xilafət ordusu "firənglərin torpaqları"na doğru irəliləməyə başlamışdı. Təqribən 250 il – 719-cu ildən 972-ci ilə kimi Lion körfəzindəki Narbon şəhərindən başlanan hərbi yürüş ölkənin cənub-şərqindəki La-Qard-Frene qəsri yaxınlığındakı döyüşlə başa çatmışdı, Narbon, Avinyon, Lion, Tuluza, Nitsa və Bordo şəhərləri onların nəzarətinə keçmişdi. Monpelye regionunu isə XII əsrə kimi əllərində saxlamışlar. Lakin bunu sırf "işğal aktı" da adlandırmaq çətindir.



Kral VII Lüdovik kilsənin xeyir-duası ilə səlib yürüşünə çıxır. XIV əsrə aid fransız miniatürü

Həmin dövrdə Fransa və müsəlman Şərqi arasında uzunmüddətli qarşılıqlı ticarət əlaqələrinin, elmi, mədəni mübadilənin möhkəm təməli qoyulmuşdur. Xatırladaq ki, 1536-cı ildə isə Fransa kralı I Fransisk ilə Osmanlı sultanı Süleyman arasında müqavilə imzalanmışdır. Tarixi əhəmiyyət daşıyan həmin müqavilənin şərtləri sayəsində Müqəddəs Roma imperiyasının kralı V Karlın və İspaniya krallığının Fransaya ərazi iddialarına son qoyulmuş, ölkə ərazi bütövlüyünü qoruyub saxlamışdı.

İslam dünyasına qarşı səlib yürüşləri Fransanın da adı ilə bağlıdır. "İsa Məsihin məzarınının kafirlərdən xilas edilməsi" bəhanəsi altında aparılan həmin kampaniyalarda

Fransanın hökmdarları da fəal iştirak etmiş, qarətçi ordulara komandanlıq etmişlər. Misal üçün, İkinci səlib yürüşünə (1147-1149-cu illər) qoşulmuş kral VII Lüdovikin Dəməşq şəhərini ələ keçirmək cəhdi uğursuzluqla nəticələnmiş və o, Fransaya qayıtmağa məcbur olmuşdur. Lakin bu uğursuzluq kilsənin onu "Müqəddəs Lüdovik" adlandırmasına mane olmamışdır. Fransanın digər monarxı II Filipp Avqustun isə Üçüncü səlib yürüşündə məqsədi İstanbulu işğal etmək olsa da, arzusuna çatmamış, Fələstinin bir neçə yaşayış məntəqəsini ələ keçirməklə kifayətlənmişdir. Ən nəhayət, 1189-1192-ci illərdə baş vermiş Üçüncü səlib yürüşünə II Filipp Avqust Avstriya hersoqu V Leopold Babenberq və İngiltərə kralı I Riçard ilə birlikdə çıxmışdır. Həmin yürüşlərdə Fransa hökmdarlarının iştirakı onların hakimiyyətini möhkəmləndirmiş, kilsədə və yerli xristianlar arasında nüfuzlarını xeyli artırmışdır...

Qərbdə islam dininin təhrif edilməsində, müsəlmanların düşmən obrazının formalaşdırılmasında, avropalıların şüuruna dini ayrı-seçkiliyin yeridilməsində orta əsr folklorunun, poeziyanın, kilsə ədəbiyyatının da rolu danılmazdır. Bütün bunlar klassik fransız poeziyasının şah əsərləri, ilk qəhrəmanlıq dastanı sayılan və arxasında işğalçılıq siyasətinin gizləndiyi proto-islamofobiyanın parlaq nümunəsi olan "Roland haqqında nəğmə" poemasında da özünü açıq göstərir. Epos Fransa kralı, Karolinqlər sülaləsinin banisi, təbəələri arasında "Avropanın atası", "xristian dünyasının mayakı" və ən nəhayət, "Qərbin imperatoru" kimi tanınan Böyük Karlın 778-ci ildə İspaniyaya hərbi yürüşündən, silahdaşlarının qəhrəmanlığından, əyanlarının isə xəyanətin-

dən bəhs edir. Tarixi mənbələrə görə, İspaniyadakı Saraqosa şəhərini ələ keçirə bilməyən kral Fransaya dönərkən Pireney dağlarından, baskların[64] torpaqlarından keçməli olur. Fransız ordusu yolboyu Pamplona şəhərini, kəndlərini dağıdır, qarət edir. İntiqam hissi ilə yaşayan basklar isə kraldan qisas almaq üçün məqam gözləyirlər. Nəhayət, avqust ayının 15-də Böyük Karlın qardaşı oğlu, cəngavər Rolandın başçılıq etdiyi aryerqard (ordunun arxasınca gedən xüsusi mühafizə dəstəsi) Ronsesvales dərəsindən keçərkən baskların pusqusuna düşür və qüvvələrin qeyri-bərabər olduğu döyüşdə cəngavər Roland öldürülür.

Lakin XII əsrin ortalarında anonim müəllifin qələmə aldığı poemada hadisələr və iştirakçılar tamamilə fərqli təqdim olunur. Əvvəla, məlum olur ki, Böyük Karl vaxtilə sarasinlərə (ərəblərə) qarşı səlib yürüşlərinin iştirakçısı olmuşdur. Halbuki ilk səlib yürüşü onun ölümündən 300 il sonra baş vermişdir. Poemada baskların da adı çəkilmir. Çünki "xristian dünyasının mayakı" olan Böyük Karl xristian basklarla vuruşa bilməzdi! Əvəzində isə səlib yürüşlərinin ideoloji paradiqması – xristianlıq və islam arasında hərbi-siyasi qarşıdurmalar, etnomədəni fərqlər ön plana çəkilmiş, hadisələr İsa Məsihin sadiq qulları olan frankların (fransızlar) "kafir sarasinlərlə" barışmaz mübarizəsi kimi oxuculara çatdırılmışdır. Təbii ki, poemanın dramatik süjet xəttində basklar müsəlmanlarla əvəz edilmişdir. O da maraqlıdır ki, həmin əsərdə guya müsəlmanlar da özlərini "kafir" adlandırır, xristianlığın isə "Rəbbin müqəddəs dini" olmasını etiraf edirlər...

[64] ***Basklar*** – İspaniyanın şimalında və Fransanın cənub-qərbində yaşayan xalq

“Roland haqqında nəğmə” eposunda Qərb dünyasına məxsus proto-islamofobiyanın sosial-mədəni stereotipləri ilə yanaşı, orta əsərlərdə müsəlmanlara qarşı amansız münasibətin, zorakılığa çağırışın, onların diskriminasiyası da geniş əks olunmuşdur. Məsələn, müəllif Fransa kralını tərif edərək yazır: **“Karl xristian dininin təəssübkeşi idi. Əmr etmişdi ki, mavrları dərhal xaç suyuna salsınlar** (vəftiz etsinlər)**. Əgər onlardan kimsə buna razı olmasa, yazıqları gəlməsin, məhv etsinlər, assınlar, diri-diri yandırsınlar”**. Xristian dininin aliliyi iddiası Böyük Karlın ərəb sərkərdəsi Baliqanla (?) söhbətində də yer almışdı. Kral “kafir müsəlmanı” torpaqlarından imtina etməyə, onun hakimiyyəti altına keçməyə çağırarkən bunları demişdi: **“Mən min il də keçsə, kafirlərlə barışmaram. Amma sən vəftiz olub bizim müqəddəs dinimizi qəbul etsən, ölənəcən sənin dostun olaram”**. Bu münasibət cəngavər Rolandın çoxsaylı dualarında, silahdaşlarına çağırışlarında da özünü büruzə vermişdi: **“Dostlar, irəli! Haqlı olan kafir deyil, bizik. Rəbb bizimlədir!”**

Əsərdə diqqətçəkən digər məqamlardan biri “bizimkilər və özgələr” prinsipi və Qərbin müsəlmanlar haqqında saxta təsəvvürlərinin təsiri altında olan anonim müəllifin Şərq dünyası, islam dini haqqında məlumatsızlığıdır. Burada müsəlmanlar da üç üqnuma inanırlar. Lakin xristianlardan fərqli olaraq onların tapındıqları Məhəmməd, Apollon və İblisin təcəllası olan “Tervaqan” adlı ilahidir. Düşmən ərəblərin “Marsil”, “Baliqan”, “Aelrot” kimi adları da təəccüb doğurmaya bilməz.



Cəngavər Ronaldın "müsəlmanlarla" döyüşü.
Orta əsr Fransa miniatürü

"Roland haqqında nəğmə" eposu xristianlığın islam dini üzərində "aliliyinin" tarixi nümunəsi kimi Qərb dünyasında indiyədək populyardır. Orta əsrlərdən etibarən ayrı-ayrı Avropa xalqları poemanın 15 dildə variantlarını yaratmış, ona əlavə qəhrəmanlıq detalları və lirika – Rolandın uşaqlıq illərini, ilk məhəbbətini əlavə etmişlər. Misal üçün, eposun ispan variantına əsasən Ronsesvales dərəsində cəngavər Roland deyil, "xristianlığın mayakı" kral Böyük Karl məğlub olaraq öldürülmüşdü. Danimarkalılar isə poemada Rolandı deyil, öz həmyerliləri cəngavər Ojyeni önə çəkmişlər.

Fransanın ənənəvi islamofobiyasına dair digər misal isə bu fobiyanın və onun ermənilərə sevgisinin saxta tarixi qaynaqlarını və unikal "öncəgörmə qabiliyyətini" açıq göstərir. Məlum olur ki, "qondarma erməni soyqırımı" haqqında mif 1915-ci ildə deyil, həmin tarixdən düz 26 il əvvəl yaranmış və dövriyyəyə buraxılmışdır. Avropanın bu gün də Türkiyə və türklərə qarşı siyasi təzyiq vasitəsi kimi istifadə etdiyi həmin mifin arxasında təkcə "xristian təəssübkeşliyi",

Avropanın Yaxın və Orta Şərqdə geosiyasi mənafeləri deyil, həm də Fransa kilsəsinin maliyyə maraqları, marketinq gedişləri, "Rəbbin yolunda" daha çox gəlir əldə etmək hərisliyi gizlənməkdədir.

Belə ki, Aşağı Normandiyada, Parisdən təxminən 100 kilometrlik məsafədə yerləşən məşhur La-Trapp monastırı katolik dünyasının ən zəngin rahib ordeninin – sistersianlığın dini mərkəzi idi. Lakin bu monastır təkcə ibadət yeri deyildi. Əlbəttə, ordenin "daxili nizamnaməsinə" əsasən sisterian rahiblərin dünya malında gözü olmamalı, bütün vaxtlarını ibadətə həsr etməli, zənginlikdən qaçmalı, olduqca sadə həyat tərzi sürməlidirlər. Buna baxmayaraq, geniş maliyyə-iqtisadi fəaliyyəti ilə məşhur "Dünya malında gözü olmayan" rahiblərin təkcə Fransada deyil, digər ölkələrdə də geniş biznes şəbəkəsi, əkin sahələri, dəyirmanları, dəmirçi və dülgərlik sexləri, suvarma qurğuları və hətta metaləritmə emalatxanaları vardı və bütün bunlar "gözükönlü tox" ordenə xeyli gəlir gətirirdi. La-Trapp monastırı hətta Fransanın siyasətinə də təsir etməyə imkan tapırdı. Məhz bu səbəbdən Fransanın antiklerikal hakimiyyəti 1880-ci ildə monastırı ləğv etmiş, rahibləri oradan qovmuş, onların səkkizyüzillik dini-iqtisadi fəaliyyətinə son qoymuşdur. Lakin hakimiyyətlə barışığa gedən rahiblər yeddi il sonra yenidən monastıra qayıtsalar da, tikililərin bir çoxunun baxımsızlıq üzündən dağıldığını görmüş və genişmiqyaslı inşaat işlərinə başlamağı, bunun üçün isə ilk növbədə gəlirli iqtisadi fəaliyyəti bərpa etməyi, yeni müəssisələr yaratmağı qərara almışlar.

1. 

2. 

1. "Chocolaterie d'Aiguebelle" fabrikinin "erməni soyqırı"mına həsr etdiyi şokolad qutusunun üzərində "türklərin ermənіləri qətlə yetirməsinin" təsviri; 2. "Erməni soyqırımı təkrarlanacaq!" Azərbaycanın 44 günlük Vətən müharibəsində qələbəsindən sonra Ermənistanda önündə Ənvər paşanın portreti olan ksenofob plakatların hazırlanmasında "Chocolaterie d'Aiguebelle"nin açıqçalarından istifadə edilir.

La-Trapp monastırının yeni istehsal sahələrindən biri "Chocolaterie d'Aiguebelle" şokolad fabriki idi. Həmin dövrdə təkcə Fransada deyil, bütün Avropada şokolad bumu yaşanırdı. Təbii ki, monastır özünün "dini fəaliyyətini" də unutmur, onu həm iqtisadi fəaliyyətlə, həm də Fransanın dövlət siyasəti ilə əlaqələndirməyə çalışırdı. Bu məqsədlə 1888-ci ildən etibarən "Chocolaterie d'Aiguebelle"nin şokolad konfetlərin qablaşdırıldığı qutuların üzərinə dini mövzularda açıqçalar yapışdırılırdı. Nəticədə, 1889-cu ildə rahiblər növbəti marketinq gedişi edərək "Osmanlı dövlətində xristian ermənilərin qətliamı" mifini uydurараq bu mövzuda şokolad qutuları seriyasının istehsalını qaydaya salmışlar. "Qətliam" seriyası 14 qutudan ibarət idi və onların hər birini "Türklərin təqib etdikləri ermənilər rus gəmilərinə çatmaq üçün özlərini dənizə atırlar", "Kürdlərin qovduğu ermənilər", "Əsir ermənilər qul bazarında" kimi qondarma stereotipləri

təbliğ edən təsvirlər bəzəyirdi. Elə həmin il Parisdə keçirilmiş ümumdünya sərgisində "Chocolaterie d'Aiguebelle" fabriki "erməni qətliamı" şokoladlarının istehsalına görə qızıl medala layiq görülmüşdür. Bununla da qondarma "erməni soyqırımı" həm siyasi, həm də dini işbazlar üçün gəlirli mövzuya çevrilmişdir...

Fransa "xristian bayrağı" altında işğalçı səlib yürüşlərini XX əsrdə də davam etdirmişdi. Xatırladaq ki, 1916-cı ildə Fransa, Böyük Britaniya, Rusiya və sonralar İtaliya arasında bağlanmış gizli "Says-Piko" müqaviləsinə əsasən Osmanlı dövlətinin darmadağın edilməsindən sonra Yaxın Şərqdəki ərazilərin parçalanaraq bu dövlətlərin arasında bölünməsi nəzərdə tutulmuşdu. Belə ki, müqavilənin şərtlərinə görə, indiki İsrail, Fələstin torpaqları, İraqın cənub hissəsi, eləcə də Aralıq dənizinə çıxışı olan Hayfa və Akka limanları Böyük Britaniyanın, Türkiyənin şərq əraziləri, Suriya və Livan Fransanın tabeliyinə keçməlidir. Lakin islam dininə və müsəlmanlara patoloji nifrəti olan Fransa bu məsələdə də ciddi uğursuzluğa məruz qaldı...

Fransızlar 1908-1956-cı illər ərzində bütün hərbi ekspedisiyalarda "qumyerlərdən" – Mərakeşdən, Sudandan və Yuxarı Voltadan orduya cəlb edilmiş muzdlu müsəlman döyüşçülərdən istifadə etmişlər. Fransa müstəmləkə zülmü altında saxladığı ərəb ölkələrinin təbii sərvətlərini talamaqla, əhalisini də ucuz işçi qüvvəsi kimi istifadə etməklə kifayətlənmirdi. I Dünya müharibəsində Fransa ordusunun əsgər heyəti, əsasən, ərəblərdən – 173 min əlcəzairlidən, 58 min tunislidən və 25 min mərakeşlidən ibarət olmuşdur. II Dünya müharibəsində də on minlərlə müsəlman əlinə silah alıb alman faşizminə qarşı mübarizədə

Fransanın maraqlarını qorumuşdu. Fransanın protektoratı olan Mərakeşin sultanı V Məhəmməd müharibənin ilk illərində təbəələrinə müraciətlə demişdi: **"Bu gün Fransa öz torpaqlarını, şərəfini, ləyaqətini, özünün və bizim gələcəyimizi qoruyanda biz prinsiplərimizə, tariximizə və dinimizə sadiq qalaraq bu gündən etibarən Fransanın və onun müttəfiqlərinin bayraqları qələbə ilə şərəflənənədək ona hərtərəfli yardım göstərməli, bu yolda qurban verməyə hazır olmalıyıq..."**[65]

Hərbi hissələrdə "müdrik tayfa başçısı" rolunu oynayan fransız zabitlər "vəhşi", "adamayovuşmaz" qumyerləri döyüş qabiliyyətlərinə, şaxtaya, istiyə, ərzaq çatışmazlığına, susuzluğa dözümlülüklərinə görə yüksək qiymətləndirir, mürəkkəb dağ şəraitində kəşfiyyat işini onlara tapşırırdılar. Lakin qumyerlərin Fransa ordusuna qoşulması heç də onların imperiya təəssübkeşliyindən, Fransaya məhəbbətindən və sədaqətindən irəli gəlmirdi. Əsasən, dağ kəndlərindəki yoxsul ailələrdən çıxmış savadsız müsəlmanları ilk növbədə qazanc, güzəranlarının yaxşılaşdırılması düşündürürdü. Fransa ordusunun marşalı Alfons Juen qumyerlər qarşısında çıxış edərkən onları döyüşə ruhlandırmaq üçün bunları da



II Dünya müharibəsində Fransa ordusunda xidmət edən qumyerlər – Mərakeş əsgərləri

[65] Мусульмане в войсках антигитлеровской коалиции. https://islam-today.ru/istoria/musulmane-v-vojskah-antigitlerovskoj-koalicii/

demişdi: **"Siz öz torpaqlarınızın azadlığı uğrunda vuruşmursunuz. Əgər döyüşdən qələbə ilə qayıtsanız, dünyanın ən yaxşı evləri, qadınları, şərabları sizin olacaqdır. Almanların bir nəfəri də sağ qalmamalıdır. Qələbədən əlli saat sonra siz tamamilə azad olacaq, heç kəs cəbhədə törətdiklərinizə görə sizi cəzalandırmayacaq. Bu sözləri mən sizə deyirəm və vədimə əməl edəcəyəm"**.

1940-cı ilin may ayında Mərakeş müsəlmanlarından ibarət 10 atıcılıq alayı Fransaya göndərilmişdir. Bundan başqa, 17 min nəfərlik 1-ci Mərakeş diviziyası Belçikada Brüssel şəhərinin yaxınlığında mövqe tutaraq almanların "Totenkopf SS" diviziyası və tank diviziyası ilə qeyri-bərabər döyüşdə böyük hünər göstərmişdir. Doqquz gün davam edən həmin döyüşlərdə 13 min mərakeşli qəhrəmanlıqla həlak olmuşdur. Almanlar əsmər bənizli mərakeşliləri əsir götürmür, yerindəcə vəhşicəsinə qətlə yetirirdilər. Bütövlükdə, Fransa ordusuna 22 min mərakeşli cəlb edilmişdir. Qumyerlər II Dünya müharibəsi illərində Liviyada italiyalılara, Tunisdə almanlara qarşı döyüşlərdə, fransız ordusunun İtaliyaya, Almaniyaya daxil olmasında, Korsikanın azad edilməsində xüsusilə fərqlənmişlər. Lakin müsəlman döyüşçülərinin ön cəbhədə fədakarlığına baxmayaraq, Fransa hələ də onlara münasibətdə dini və irqi ayrı-seçkiliyindən qalmırdı. Fransız əsgərlərlə müqayisədə onlara iki-üç dəfə az əməkhaqqı verilir, hətta müharibədən sonra ərəb döyüşçülərə verilən pensiyanın məbləği də olduqca aşağı idi. Müsəlmanların ərzaq və isti geyimlə təminatı da qənaətbəxş deyildi...

Müstəmləkəçi Fransa ərəb dünyasında baş qaldırmış milli azadlıq hərəkatlarını da vəhşicəsinə boğurdu. Onun

müsəlmanlara qarşı tətbiq etdiyi işgəncə və edam üsulları səlibçi kralların VII Lüdovikin və II Filipp Avqustun qəddarlığını da kölgə altına salırdı. Təkcə 1954-1962-ci illər ərzində Əlcəzairin dövlət müstəqilliyi uğrunda mübarizədə 1,5 milyon müsəlman soyqırıma məruz qalmış, dinc əhalinin əmlakı talanmış, şəhər və kəndləri yerlə yeksan edilmişdir. Tarix təkrar olunur. 1830-cu ildə Fransa Əlcəzairi işğal edərkən Parisin arxiyepiskopu bunu "xristianların islam üzərində qələbəsi" adlandırmışdır. 1954-1962-ci illərdə Əlcəzair xalqının milli azadlıq hərəkatı zamanı bu ölkəyə təyin edilmiş arxiyepiskop Düval dəfələrlə öz moizələrində bu mübarizəyə dini don geyindirməyə çalışmışdır.




Fransa əsgərlərinin Əlcəzairdəki cinayətləri

E.Makron hələ prezidentliyə namizəd olarkən seçicilərinə ölkədəki dini vəziyyətə xüsusi diqqət yetirəcəyinə, konfessiyalararası münasibətlərin tənzimlənməsi üçün yeni proqram təşəbbüsü ilə çıxış edəcəyinə və müvafiq qanunvericilik aktlarının qəbuluna nail olacağına söz vermişdir. 2017-ci ildə irəli sürdüyü proqramda ölkədə bütün dinlərin eyni hüquqlara malik olması ənənəsini möhkəmləndirməklə yanaşı, müsəlmanlar arasında "ekstremizm" ideyalarının yayılmasının qarşısını almaq məqsədilə islam dininin xüsusi

nəzarətə götürülməsi də yer almışdı. O, Fransa Respublikasının prezidenti seçildikdən sonra rəsmi Parisin ənənəvi islamofobiyası, "demokratiyanın və ənənəvi dəyərlərin" qorunması adı ilə ölkədəki milyardlarla müsəlmanın hüquq və azadlıqlarının, xüsusilə dini etiqad azadlığının məhdudlaşdırılması daha aqressiv xarakter almağa başlamışdır.

Prezidentin iddialarına görə, bu gün "islam dini bütün dünyada dərin böhran içərisindədir" və Fransanın müsəlman vətəndaşları ilə problemi "onların islam dinini düzgün başa düşməməsindədir". Odur ki E.Makronun tövsiyəsi ilə "Fransanın respublikaçı islamının", "liberal islamın" və ya "maarifçi islamının" yaradılması kampaniyasına start vermişdir. Prezident bu qənaətdədir ki, islam dininin idarəolunan yeni tipi bir tərəfdən Fransanın qanunvericilik aktlarına tamamilə cavab verəcək, digər tərəfdən maarifçilik funksiyası daşımaqla ölkəsinin müsəlman vətəndaşlarının "paralel cəmiyyət" yaratmaq, ölkədə vətəndaş birliyini pozmaq səylərinə son qoyacaq, onların radikalizm və ekstremizm, "islam separatizmi" meyillərindən uzaqlaşmasına yardım edəcəkdir. Onun fikrincə, "radikal islam" Fransa üçün ciddi təhlükədir.

Bu məqsədlə Fransa hökumətinin islama dair "Makron planında" ölkədəki müsəlmanların islam aləmindən izolyasiyası və marginallaşdırılmasını nəzərdə tutan plana əsasən rəsmi Parisin indiyədək yürütdüyü açıq qapı siyasəti islam ölkələrindən radikal ideyaların, terrorçuluğun və ekstremizmin ölkəyə maneəsiz nüfuz etməsinə əlverişli imkanlar açmışdır. Bu arzuolunmaz fəaliyyətin qarşısının alınması, etnik-dini balansın bərpası və qorun-

ması üçün vacib addımlardan biri dövlətin öz müsəlmanlarını xarici dini ideologiyaların zərərli təsirindən qorumaqdır. Belə ki, onlar fərqli dini icmalar ətrafında deyil, hakimiyyətyönlü və indiyədək formal fəaliyyət göstərən Fransa Müsəlmanları Şurasında (CFCM) birləşməli, yalnız onun təlimatlarına və fətvalarına əməl etməlidirlər. Hicaba və dini rəmzlərə qadağalardan başqa ölkədəki məscidlər Türkiyə, Əlcəzair, Tunis və Mərakeşin təsirindən çıxarılmalı, imamlar xaricdən "ixrac olunmamalı", yalnız Fransanın ali məktəblərində hazırlanmalıdırlar. Xatırladaq ki, hələ 2020-ci ilin fevral ayının 15-də Fransanın nüfuzlu "Le Point" jurnalı Makron hökumətinin "islamçılığa və respublikanın prinsiplərinə qəsd cəhdlərinə qarşı mübarizənin strategiyası" adlı 31 səhifəlik məxfi sənədi ictimailəşdirmişdir. Sənəddə ilk dəfə olaraq Fransaya xarici ölkələrdən "ezam edilmiş imamlar" probleminə birdəfəlik son qoyulması məsələsi qaldırılmış, Türkiyə, Mərakeş və Tunislə bu barədə danışıqlar aparılması vurğulanmışdır. Mətbuata sızdırılan digər məlumata görə, təqribən 300 əcnəbi imamın ölkədən çıxarılması qərara alınmışdır.

Bundan başqa, evlərdə dini təhsilə dair qadağalar gücləndirilməli, bu qaydaları pozan imamlar və valideynlər üçün böyük məbləğdə cərimələr və altı ayadək həbs cəzası müəyyən olunmalıdır. Müsəlman ailəsindən olan hər bir məktəbliyə identifikasiya nömrəsi verilməli, onların orta məktəb dərslərinə davamiyyəti ciddi nəzarətə götürülməlidir və s. Bu təkliflərə və qanunlara ilk etiraz edənlər isə Fransadakı radikal xristianlığın nümayəndələri olmuşlar. Onlar E.Makronu müsəlmanlara münasibətdə "yumşaq si-

yasət" yürütməkdə təqsirləndirmişlər. Radikalların tələblərinə görə, bütün miqrant müsəlmanlar yalnız kilsədə vəftiz olunduqdan və adlarını dəyişdikdən sonra Fransa Respublikasının vətəndaşı ola bilərlər.

Emmanuel Makron 2020-ci ildə Qətərin "Əl-Cəzirə" televiziya kanalına verdiyi müsahibədə Fransa hökumətinin "Charlie Hebdo" jurnalında dərc edilmiş karikaturlarla hər hansı bir əlaqəsi olmasını inkar etmişdir: **"İslam peyğəmbərinə çəkilmiş karikaturların nəşrinə görə müsəlmanların keçirdikləri hissləri başa düşsəm də, bildirirəm ki, bu nəşrlərin arxasında hökumət deyil, hakimiyyətlə bağlılığı olmayan azad və müstəqil kütləvi informasiya vasitələri dayanır"**. Prezidentin sözlərinə əsasən o da həmin karikaturları bəyənmir və dünya müsəlmanlarının onun çıxışına mənfi reaksiyasının səbəbi "fikirlərinin qəsdən təhrif edilməsidir". Makronun fikrincə, müsəlmanlar islam dinini təhrif edib onu müdafiə etməyə çağıranlardan daha çox ziyan çəkirlər.

Makronun Fransa müsəlmanlarının dini etiqad azadlığına, etnik mədəniyyətlərinin qorunmasına qarşı yürütdüyü siyasət təkcə Şərqin müsəlman ölkələrində deyil, ölkənin ziyalı təbəqəsində, bir sıra xristian dövlətlərində də hiddət doğurmuş, bu addımları "müsəlmanların heysiyyətinə toxunan, şəxsi həyatına, inancına müdaxilə edən, onların hüquqlarını pozan təxribat" kimi dəyərləndirmişlər. Bütün bunlar bir daha aydın şəkildə göstərir ki, Fransanın formal demokratik prinsiplərinə baxmayaraq, bu ölkədə totalitar siyasi rejim mövcuddur və hakimiyyət öz vətəndaşlarına münasibətdə ikili standartlardan yanaşmaqdadır.

Ötən əsrin 90-cı illərinin sonundan etibarən müsəlman və xristian mədəniyyətləri arasında ziddiyyətin daha da kəskinləşdirilməsində Qərb mətbuatının mənfi rolu danılmazdır. 2005-ci ilin sentyabr ayının 30-da Danimarkanın ən nüfuzlu nəşrlərindən biri olan ingilisdilli "Jyllands-Posten" qəzetində ölkədə söz azadlığının vəziyyətinə və jurnalistlərin daxili senzurasına dair məqalə dərc olunmuşdur. Məqalədə bildirilirdi ki, danimarkalı yazıçı Kore Blüytqen uşaqlara islam haqqında yazdığı kitab üçün rəssamlara illüstrasiya sifariş edəndə onlar islam ehkamlarına görə insan və canlıların, xüsusilə islam peyğəmbərinin təsvir olunmasının qadağan olunduğunu əsas gətirərək rəsmlərin altına imzalarını qoymaqdan imtina etmişlər. "Jyllands-Posten" rəssamların etirazını "söz azadlığının boğulması" kimi dəyərləndirərək həmin məqaləyə "Terrorçuluq özünün mənəvi gücünü islamdan alır" devizi altında müsəlmanlara və islam peyğəmbərinə qarşı təhqir və həqarət dolu 12 karikatur əlavə etmişdir. Xüsusilə rəssam Kurt Vesterqorun çəkdiyi karikatur müsəlmanlarda hiddət doğurmuşdur. Burada islam peyğəmbəri əlində atom bombası tutmuş terrorçu kimi təsvir edilmişdir. Ölkənin daha 16 nəşri "Jyllands-Posten" ilə həmrəy olduqlarını nümayiş etdirərək həmin karikaturları öz səhifələrində yaymışlar.



Müasir Qərbin "tipik müsəlmanlar" stereotipi "Jyllands-Posten" qəzetində

Qərb dünyasının islam və müsəlmanlar haqqında mənfi stereotiplərini özündə əks etdirən karikaturlar Danimarkada yaşayan müsəlmanların ciddi narazılığına səbəb olmuş, az sonra etiraz dalğası bütün islam dünyasını bürümüşdür. Liviya, Səudiyyə Ərəbistanı, Suriya kimi dövlətlər öz səfirlərini Danimarkadan geri çağırmış, bu ölkənin mallarının müsəlman dünyasında boykot edilməsinə başlanılmışdır. Danimarkanın bir sıra ziyalıları da etirazçılara qoşulmuş və qəzeti demokratik mühitdən, söz və mətbuat azadlığından sui-istifadə etməkdə təqsirləndirmişlər. Doğrudur, "Jyllands-Posten" qəzetinin redaksiyası karikaturlara görə müsəlmanlardan üzr istəmiş, lakin təxribat dolu hərəkətlərinin guya "ölkədə söz azadlığının mövcud olmasını bir daha göstərmək" məqsədilə edildiyini bildirmişdir. Bununla belə, Danimarkada karikatur qalmaqalı səngiməmiş, beş il sonra – 2010-cu ildə jurnalist Flemminq Rozenin işıq üzü görmüş "Sükutun tiranlığı" kitabında həmin karikaturlar təkrar çap olunmuşdur. Onu da qeyd edək ki, F.Roze 2005-ci ildə "Jyllands-Posten" qəzetinin mədəniyyət bölməsinin redaktoru vəzifəsində işləmişdir. Danimarka xarici işlər naziri Lene Espersen etirazların yeni dalğasını səngitmək məqsədilə 17 müsəlman dövlətin ölkəsində akkreditasiya olunmuş səfirləri ilə təcili görüş keçirmiş, lakin "Sükutun tiranlığı" kitabının müəllifinin yerli qanunları və söz azadlığı prinsiplərini pozmadığını vurğulamışdır. Artıq bir neçə ildir ki, F.Roze polisin mühafizəsi altında yaşayır. Danimarkanın müsəlman icmaları şurası isə yaydığı press-relizdə müsəlmanları asayişi pozmamağa çağırmış, jurnalistin hərəkətlərinə görə Danimarka xalqının məsuliyyət daşımadığını bildirmişdir.

2015-ci ilin yanvar ayının 7-də Parisdə nəşr olunan "Charlie Hebdo" satirik jurnalına avtomat və qumbaraatanlarla silahlanmış maskalı üç şəxs basqın etmiş, nəticədə 12 nəfər – nəşrin sahibi Jan Kabyü, baş redaktor, karikaturçu rəssam Jorj Volinski, daha 8 əməkdaş və iki polis işçisi öldürülmüş, 20 nəfər isə müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Şahid ifadələrinə görə, basqın zamanı silahlılar jurnalın ayrı-ayrı əməkdaşlarının adlarını çəkərək onları axtarmış və "Məhəmməd peyğəmbərin qisası alınacaqdır!" sözlərini qışqırmışlar. Qeyd edək ki, ifrat solçu mövqeyindən çıxış edən "Charlie Hebdo" qəzetinin redaksiyası ateist baxışları ilə də seçilirdi. Qəzet öz səhifələrində xristianlıq, iudaizm və islama qarşı satirik materiallar və karikaturlar dərc etsə də, məlum səbəblərə görə məhz müsəlmanlara qarşı daha aqressiv mövqedən çıxış edirdi. Belə ki, islam ölkələrindən gəlmiş miqrantların assimilyasiyasına söykənən multikulturalizm siyasətinin Fransa modelinin iflasından sonra "Charlie Hebdo" qəzeti də digər yerli kütləvi informasiya vasitələri kimi ölkədə yaranmış sosial-iqtisadi və etnomədəni böhranın, kütləvi iğtişaşların səbəblərini müsəlman icmasında axtarırdı. Onu da vurğulamaq lazımdır ki, bu qəzet hələ 2005-ci ildə Danimarkanın "Jyllands-Posten" nəşrinə



"Charlie Hebdo" qəzetinin iudaizmə, xristianlığa və islam dininə həqarət edən karikaturlarından biri

həmrəylik nümayiş etdirərək onun antiislam karikaturlarını da dərc etmişdir. Nəticədə, qəzetin tirajı bir gündə üç dəfə artmış, sahiblərinə xeyli gəlir gətirmişdir.

Bu hərəkətlər Fransadakı çoxsaylı müsəlman icmasının və islam ölkələrinin ciddi narazılığına səbəb olmuşdur. Azadlıq və söz azadlığı prinsiplərindən sui-istifadə o həddə çatmışdır ki, qəzet müsəlmanların kütləvi etiraz mitinqlərinə baxmayaraq, islam peyğəmbəri haqqında silsilə karikaturların nəşrini davam etdirmiş, rəsmlərin birində onun yarıçılpaq təsvirini vermişdir. 2008-ci ildə Fransanın müsəlman icması "Charlie Hebdo" nəşrinə qarşı iddia qaldırsa da, islam dininə qarşı karikaturların dərcinin dayandırılmasını tələb etsə də, məhkəmə qəzetin fəaliyyətində hüquq pozuntusu "tapa bilməmiş" və ona bəraət qazandırmışdır. Bütün bunlardan sonra "Charlie Hebdo"nun antiislam mövqeyi daha aqressiv və açıq xarakter almağa başlamış və ən nəhayət, qəzet əməkdaşlarına qarşı terror aktı ilə nəticələnmişdir.

2006-cı ilin əvvəllərində "Charlie Hebdo" qəzeti danimarkalı həmkarları ilə mövqe birliyini bir daha nümayiş etdirərək öz səhifələrində "12-lərin manifesti" adlı müraciəti dərc etmişdir. Manifestə imza atmış on iki "intellektual"ın içərisində yazıçı Karolin Fure (xristian), filosof Bernar-Anri Levi (yəhudi), islam dinini təhqir etdiyinə görə barəsində İranda qiyabi ölüm hökmü verilmiş yazıçı Salman Rüşdi, jurnalist Antuan Sfeyr, "Charlie Hebdo"nun redaktoru Filipp Val ilə yanaşı, keçmiş müsəlmanlar – iranlı mühacir yazıçılar Məryəm Namazi, Şəhla Şafik, uqandalı yazıçı İrşad Manci, "Mən nə üçün müsəlman deyiləm?" kitabının müəllifi pakistanlı Mehdi Mozaffari, banqladeşli yazıçı və həkim, islam dini əleyhinə kitabların müəllifi Təslimə Nəsrinin adları da vardır.

Qərbin islam və müsəlmanlara dair ənənəvi stereotipləri və "monoloq" iddiaları əsasında tərtib olunmuş "manifest", əslində, Avropanın Şərq dünyasına birtərəfli münasibətini özündə əks etdirməklə yanaşı, karikatur qalmaqalında, Qərbin islamofobiyasında… müsəlmanları günahlandırır, islamçılığı "yeni totalitarizm" adlandırırdı: **"Dünya faşizm, nasizm və stalinizmə qalib gəldikdən sonra totalitar tipli yeni təhlükə – islamçılıqla üzləşmişdir. Biz… dini totalitarizmə müqavimət göstərməyə, azadlığı, hamı üçün imkan bərabərliyini və dünyəviliyi dünyada bərqərar etməyə çağırırıq"**. Manifest müəllifləri onu da əlavə edirlər ki, yaranmış vəziyyət heç də "sivilizasiyaların toqquşmasından və ya Qərb və Şərq arasında antaqonizmdən irəli gəlmir. Bu, demokratların teokratlara qarşı apardıqları qlobal mübarizədir.[66]

İslamofobiya Qərb kinematoqrafiyasında

"İncəsənətin əsl məqsədi olmayanlar haqqında gözəl yalanlar uydurmaqdır".
Oskar Uayld

Artur Şopenhauer yazır: "Dünya estetik baxımdan karikatura, intellektinə görə dəlixanaya, mənəviyyatca oğru yığnağına, bütövlükdə isə həbsxanaya bənzəyir". Məlumdur ki, Şərq və Qərb dünyası, islam və xristian mədəniyyətləri arasında ziddiyyətlərin dərinləşməsində, müsəlmanlar

[66] Манифест 12 "Вместе против нового тоталитаризма", https://vseobislame.livejournal.com/56738.html

haqqında mənfi stereotiplərin formalaşmasında, dini dözümsüzlüyün qarşıdurma səviyyəsinə yüksəldilməsində kinematoqrafiyanın da özünəməxsus təsiri və dəst-xəti vardır. Bu proses 2001-ci ilin sentyabr ayının 11-də ABŞ-nin Nyu-York və Vaşinqton şəhərlərində baş vermiş məlum terror hadisələrindən sonra daha radikal və daha barışmaz xarakter almışdır. Son illərdə Qərb kinematoqrafiyasında islam dünyasına və ya epizodik də olsa, müsəlmanların həyat tərzinə, dünyagörüşünə həsr olunmuş filmlərdə siyasi maraqlar, islamofobiya meyilləri özünü qabarıq göstərməkdədir. Belə ekran əsərlərində müsəlman obrazı orta əsr Avropasının islam dünyası haqqında primitiv təsəvvürlərindən, demək olar ki, seçilmir. Etnik mənsubiyyətindən, Avropada, Yaxın və ya Orta Şərqdə, Afrikada yaşamasından asılı olmayaraq bütün müsəlmanlar terrora meyilli, qəddar, mədəni və mənəvi dəyərlərdən uzaq varlıqlar kimi təsvir olunur, islam dini açıq şəkildə alçaldılır, təhrif və təhqir olunur.

Bu zaman siyasiləşdirilmiş və bir qədər də natamamlıq kompleksindən əziyyət çəkən Qərb mənəviyyatının mahiyyəti, onun ikili standartları özünü qabarıq büruzə verməkdədir. Belə ki, Avropada, xüsusilə Fransada Holokostu, qondarma "erməni soyqırımı"nı danmaq cinayət sayıldığı halda, islam dünyasını, onun müqəddəs məkanlarını, Qurani-Kərimi təhqir etmək məlum səbəblər üzündən "demokratiyanın, insan hüquqları azadlığının təzahürü" kimi qəbul edilir. Təsadüfi deyildir ki, Harvard Universitetinin professoru, ABŞ-nin Yaxın Şərq siyasəti üzrə mütəxəssis Çarlz Battervort "The Times" qəzetinə verdiyi müsahibədə təəssüflə bildirmişdir ki, hələ səlib yürüşlərindən etibarən

Avropada geniş yayılan etnik və dini stereotiplərdə Qərb əhalisi ərəbləri vəhşi hesab etməkdədir: **"Onların fikrincə, müsəlmanlar vaxtilə Yerusəlimi işğal edən və müqəddəs şəhərdən qovulan dəhşətli adamlardır. Bu stereotiplər əsrlər boyu Qərb mədəniyyətinə sızdırılmış, hətta Şekspirin əsərlərində də özünə yer tapmışdır. Tədqiqatlar göstərmişdir ki, bu gün müsəlmanların mənfi obrazda təqdim olunması ilə müsəlmanlara zərər verən, hüquqlarını məhdudlaşdıran siyasəti dəstəkləyən, onlara qarşı müharibəni təqdir edən insanlar arasında qarşılıqlı əlaqə mövcuddur"**.[67]

İslamofobiyanın daha radikal xarakter almasında və miqyasının genişləndirilməsində Qərbin, bütövlükdə xristian dünyasının seçdiyi taktiki metodlardan biri onun informasiya müharibəsinin mühüm elementinə, xüsusilə kinematoqrafiyanın mövzularından birinə çevrilməsidir. Antiislam, anti-Şərq stereotiplərə söykənən Qərb filmlərində, bir qayda olaraq, müsəlmanlar (iraqlılar, liviyalılar, suriyalılar, iranlılar, əfqanlar və b.) ya terrorçu, zorakılığa patoloji meyli olan cinayətkar, ya da mədəniyyətdən, mənəvi dəyərlərdən uzaq olan primitiv təfəkkürlü insanlar kimi təqdim olunurlar. Lakin burada bir məqam xüsusi diqqət çəkməkdədir.

---

[67] Взгляд на распространенные мусульманскіе і арабскіе стереотіпы на телевіденіі і в кіно, https://www.greelane.com/ru/%d0%b3%d1%83%d0%bc%d0%b0%d0%bd%d0%b8%d1%82%d0%b0%d1%80%d0%bd%d1%8b%d0%b5-%d0%bd%d0%b0%d1%83%d0%ba%d0%b8/%d0%b2%d0%be%d0%bf%d1%80%d0%be%d1%81%d1%8b/tv-film-stereotypes-arabs-middle-easterners-2834648/

ABŞ-nin, Avropanın aparıcı kinostudiyaları təkcə müsəlmanların deyil, bütövlükdə cəmiyyətin dini-etnik diskriminasiyaya kəskin etirazından ehtiyat edərək bəzi hallarda bu tipli təbliğatı birbaşa deyil, dolayı yolla – "25-ci kadr" effekti ilə təbliğ etməyi daha üstün hesab edir.

Buna tipik misallardan biri rejissor Etan Vaylinin 2006-cı ildə çəkdiyi "Bulanıq sular. İblisin qovulması" ("Blackwater Valley Exorcism") filmidir. Xristian dünyasında hələ inkvizisiya dövründən populyar olan bu mistik ayinə – insanların bədəninə daxil olan şər qüvvələrin qovulmasına həsr edilmiş filmdə islamdan, müsəlmanlardan birbaşa bəhs olunmasa da, islamofob təbliğatın elementləri, sətiraltı eyhamları aydın hiss olunmaqdadır. Belə ki, filmin ilk epizodları İraqda cərəyan edir. İblis azan səsinin sədaları altında günahsız xristian qızın, İzabelin bədəninə daxil olur və onun həyatını dəyişir. Qızın atası yardım üçün xristian ruhanilərə müraciət edir. Lakin ruhani ekzorsizm ayinini icra etmək üçün özü qətiyyətli və imanında möhkəm olmalı, ilk növbədə öz qəlbini şübhələrdən təmizləməlidir. Bu filmin Qərb tamaşaçısına təlqin etdiyi ideyalardan biri də budur ki, "şər qüvvələr xristian dünyasına islam vasitəsilə daxil olur".



"Bulanıq sular. İblisin qovulması" (2006) filmindən bir kadr

ABŞ, Rusiya, Çin kinofilmlərində təbliğ olunan stereotiplərin effektivliyi, Olqa Leoneviçin tədqiqatlarının göstərdiyi

kimi, "düşmən obrazının sabit olmaması, siyasi münasibətlərə uyğun olaraq dəyişməsi", keçmiş "dostların" "qatı düşmənlərə" və ya əksinə çevrilməsi bir çox hallarda mövcud siyasi vəziyyətdən, həmin dövlətlərin geosiyasi maraqlarından və beynəlxalq münasibətlərdən çox asılıdır. 2001-ci ilin 11 sentyabr hadisələrindən sonra Qərbdə, bütövlükdə xristian dünyasının ictimai rəyində ərəblərə, Rusiyada isə Çeçenistan müharibəsindən sonra Qafqaz xalqlarına dair stereotiplər radikal şəkildə dəyişmişdir. Bu dəyişkənlik həmin dövlətlərin milli kinematoqrafiyasına da təsirsiz ötüşməmişdir. "Ərəb caniləri: Hollivud xalqa necə böhtan atır" kitabının müəllifi, kinoşünas Cek Şahin ərəblər haqqında mənfi etnosiyasi stereotiplərin bədii filmlər vasitəsilə kütlə təfəkküründə geniş nüfuz etdirilməsinə belə dəyər vermişdir: **"Təəssüf ki, ərəb və müsəlmanlar haqqında mənfi stereotiplər əvvəlki kimi Amerika filmlərində və televiziya proqramlarında fasiləsiz olaraq yayılmaqdadır"**.[68]

Din, mədəniyyət fərqinə baxmayaraq, İran uzun illər boyu ABŞ-nin Orta Şərqdə ən etibarlı müttəfiqi olmuşdur. ABŞ və İran arasında müxtəlif sahələrdə dostluq və tərəfdaşlıq münasibətləri İran islam inqilabınadək davam etmiş və bu əlaqələrin yüksəlişi hətta Hollivudun ekran əsərlərində öz əksini tapmışdır. Lakin 1979-cu ildə baş vermiş İran islam inqilabı ictimai-siyasi dövriyyəyə islamofobiyanın radikal ideoloji formasını – "islamofaşizm" terminini gətirmişdir. İslamofobiyanı, ekstremizmi, faşizmi, hətta nasional-

[68] Том Брук. Стереотіпы Голлівуда: почему русскіе всегда плохіе? BBC Culture,
https://www.bbc.com/russian/society/2014/11/141110_vert_cul_why_russians_always_bad_guys

sosializmi özündə birləşdirən bu ifadə 11 sentyabr terror aktından sonra ABŞ-nin kütləvi informasiya vasitələrində, rəsmi şəxslərin çıxış və bəyanatlarında daha da populyarlaşmışdır. Hətta prezident Corc Buş 2006-cı ilin dekabr ayının 8-də "Amerikanın səsi" radiostansiyasına verdiyi müsahibədə "islamofaşizm" ifadəsini xüsusi olaraq vurğulayaraq demişdir: **"Terrora qarşı mübarizə XXI əsrin əsas vəzifələrindəndir. Bu, ideologiya, ideoloji reallıqlarla uzunmüddətli mübarizənin başlanğıcıdır. Bu hədəf islamofaşizmdir. O, fərqli cildlərə girsə də, xaosun bərqərar olması, insanların və onların əmlaklarının məhv olunması üçün vahid taktikadan istifadə edir. Ümid edirlər ki, onların dünyaya baxışları Yaxın Şərqin dominant mövqeyi olacaqdır"**.



Hollivudun 1962-ci və 2006-cı illərdə lentə aldığı "300 spartalı" filmlərində iranlı döyüşçü ABŞ-İran münasibətlərinin əvvəlki və indiki xarakterinə uyğunlaşdırılmışdır.

1962-ci ildə Hollivudda lentə alınmış "300 spartalı" filmində *Əhəməni imperiyasının hökmdarı Kserks və döyüşçüləri* nisbətən müsbət obrazlarda təsvir olunmuşdur. Lakin İranda şah rejiminin devrilməsindən sonra rəsmi Vaşinqtonun strateji müttəfiqi ilə münasibətləri kəskin şəkildə pisləşmiş, qarşılıqlı ittihamlar, "sanksiyalar siyasəti" getdikcə daha aqressiv xarakter almağa başlamışdır. Bu münasibət Hollivud filmlərindən də yan ötüşməmişdir. 2006-cı

ildə İrana dair yeni siyasi stereotiplər və xüsusilə "islamo-faşizm" klişesi əsasında çəkilmiş növbəti "300 spartalı" kinolentində (rejissor Zak Snayder) isə iranlılar tipik düşmən, ən mənfi personaj obrazında təqdim olunmuşdur. Film həm məzmununa, həm də tarixi hadisələri kobudcasına saxtalaşdırdığına görə təkcə İranda deyil, ABŞ-də də ciddi narazılıq doğurmuşdur. Təsadüfi deyildir ki, Amerika jurnalistlərindən Stiven Ri "Philadelphia Daily News" qəzetində həmin kinolentin **"Qərbin Asiya və Afrika mədəniyyətləri haqqında zərərli stereotiplərinin əsasında lentə alındığını"** vurğulamışdır.[69]

Hollivudun əksər filmlərində müsəlmanlar – xüsusilə iranlılar, iraqlılar, liviyalılar yeganə məqsədləri imanlı Qərb əhalisini məhv etmək, "dünya xilafəti" qurmaq istəyən terrorçular kimi təsvir edilirdilər. Məsələn, "20th Century Fox" kinoşirkətinin 1994-cü ildə lentə aldığı "Həqiqətə uyğun yalan" ("True Lies") komediyasında Mərkəzi Kəşfiyyat İdarəsinin əməkdaşı Harri Tasker (aktyor Arnold Şvartsenegger) və həyat yoldaşı Helenin ABŞ-də fəaliyyət göstərən və Amerikada yaşayan ərəblərdən ibarət "Qırmızı cihad" (Crimson Jihad) müsəlman terrorçu təşkilatına qarşı mübarizəsindən bəhs olunur. Filmdə Qərb dünyasının islam və müsəlmanlar haqqında aqressiv dini-irqi stereotiplərinin, müsəlman ərəblərin guya ABŞ-də, dünyanın digər dövlətlərində kütləvi insan tələfatı ilə nəticələnə biləcək terror aktları törətmək iddialarının təbliğ olunması Los-Anceles, Nyu-York, San-

[69] Rea Steven. Just 300, but CG on their side, Philadelphia Daily News (9 March 2007)

Fransisko və digər şəhərlərdə yaşayan ərəbmənşəli Amerika vətəndaşlarının hiddətinə, etiraz nümayişlərinə səbəb olmasına baxmayaraq, "Həqiqətə uyğun yalan" "Qızıl qlobus" və "Oskar" mükafatlarına layiq görülmüşdür.

Bu gün islam dünyasına qarşı radikal çağırışları ilə xüsusi canfəşanlıq edən Niderlandın tanınmış islamofob və ultrasağçı siyasətçisi, faşist ruhlu deputat Gert Vilders özünün siyasi karyerasını və maddi kapitalını məhz qatı antiislam mövqeli müsəlmanların Avropadan deportasiyasına dair populist çıxışları hesabına qazanmışdır. Onun 2008-ci ildə çəkdirdiyi və geniş ekranlara buraxdığı qısametrajlı "Fitnə" filmi islamofaşizmin ideoloji elementləri ilə zəngindir. Film islam aləmində ciddi narahatlığa və növbəti etiraz dalğasına səbəb olmuşdur. Filmdə Gert Vilders Quran ayələrinə məqsədli şəkildə yanlış şərhlər verərək guya terrorizmin, xristianofobiyanın, dini dözümsüzlüyün islam dininin mahiyyətini təşkil etdiyini "sübuta yetirməyə" çalışmışdır.



"Fitnə" filminin afişası

Lakin "Fitnə"nin əleyhdarlarının cavab reaksiyası özünü çox gözlətmədi. Elə həmin ilin aprel ayında sosial şəbəkədə özünü "Səlib yürüşünün cəngavəri Vilders" kimi təqdim edən anonim müəllifin xristianları və yəhudiləri "terrorçu", Roma papası XVI Benedikti isə "islamın başlıca düşməni" kimi təqdim edən on dəqiqəlik filmi yayımlanmışdır. May ayında isə İranda "Fitnənin o biri üzü" adlı film ek-

ranlara çıxmışdır. İrandakı "İslam və xristianlıq" qeyri-hökumət təşkilatının sözçüsü Məhəmməd Kəriminin sözlərinə görə, film tanınmış ilahiyyatçıların nəzarəti altında lentə alınmışdır: "Bu film bütün İbrahim dinlərinə ehtiramı özündə əks etdirməklə yanaşı, Qərb ekstremistlərinin islam dini əleyhinə təbliğatına reaksiyadır".

Doğrudur, o dövrdə BMT-nin baş katibi Pan Gi Mun, Niderlandın Baş naziri Yan Peter, İslam Əməkdaşlıq Təşkilatı, Birləşmiş Ərəb Əmirliklərinin, Sloveniyanın, İranın, İndoneziyanın, Pakistanın, Banqladeşin, Rus Pravoslav Kilsəsinin rəsmi şəxsləri filmə, xüsusilə G.Vildersin təxribatçılıq, xalqlar və dinlər arasında qarşıdurma yaradılmasına yönəldilmiş pozuculuq fəaliyyətinə kəskin etirazlarını bildirsələr də, Fransanın prezidenti Nikolya Sarkozi nəinki "Fitnə" filmini dəstəkləmiş, hətta "radikal islamçıların G.Vildersə və onun tərəfdarlarına qarşı mümkün zorakılıq aksiyalarının qarşısını almaq üçün" ölkəsinin köməyini təklif etmişdir. Qurani-Kərimi "faşist kitabı" adlandıran müəllif isə "De Volkskrant" qəzetinə verdiyi müsahibədə öz filminə həyasızcasına belə dəyər vermişdir: **"İslam ideologiyasının əsas məqsədi bizim üçün son dərəcədə qiymətli olan azadlığımızı məhv etməkdir. "Fitnə" Qərbin islam dünyasına son xəbərdarlığıdır. Azadlıq uğrunda mübarizəmiz artıq başlamışdır"**.[70]

ABŞ-də 55 yaşlı islamofob, özünü Misir xristianı, kopt (qipti) kimi təqdim edən, "Nakula Basela Nakula", "Sem Bacil",

[70] Режиссеру не дали показать фільм об исламе, http://news.bbc.co.uk/hi/russian/entertainment/newsid_7311000/7311253.stm

“Sem Basil” təxəllüsləri ilə tanınan, əsl adı isə Mark Besli Yusuf olan avantüristin ssenarisi və maliyyə vəsaiti hesabına çəkilmiş “Müsəlmanların məsumluğu” *(“Innocence of Muslims”)* qısametrajlı filmi həqiqi məqsədinə çatmış, Avropada, Asiyada xristian və müsəlmanlar arasında toqquşmalara, insan ölümlərinə, iğtişaşlara yol açmışdır. Müəllif-prodüserin dediklərinə görə, 2012-ci ildə yutub vasitəsilə ingilis və ərəb dillərində ictimai dövriyyəyə buraxılmış həmin film guya Misirdə yaşayan xristianların acınacaqlı vəziyyətinə həsr olunmuşdur. İslam dinini “insanlığın bədənindəki xərçəng şişi” adlandıran Mark Besli Yusuf bu addımını məqsədli şəkildə atdığını bildirmişdir.



“Müsəlmanların məsumluğu” filmində “vəhşi müsəlmanlar”

Film müasir Misirdə bir qrup müsəlmanın xristian-koptlara (qiptilərə) hücum səhnələri ilə başlanır. Hücumdan sonra kopt ata qızlarını başına yığaraq onlara müsəlmanların bütün xristianları məhv etmək niyyətindən, islam dövlətinin isə İsa Məsih tərəfdarlarına qarşı törədilən cinayətləri gizlətməsindən danışır. Bundan sonra filmdə Məhəmməd peyğəmbərdən, onun yaxın ətrafından, ailəsindən alçaldıcı tərzdə bəhs olunur. Bildirilir ki, guya islam peyğəmbərinin ömür-gün yoldaşı Tövrat və İncil mətnləri əsasında Quranı yazır və s. “Müsəlmanların məsumluğu” filmində dəfələrlə guya Quranda qətl və zorakılığı təbliğ edən “ayələrə” istinad edilsə də, əslində, həmin “müqəddəs mətnləri” Nakula Basela Nakula özündən uydurmuşdur.

Yeri gəlmişkən, ssenarinin yazılmasında, aktyor heyətinin cəlb olunmasında və filmin çəkilişində ona əqidə dostları – pornoqrafik filmlərin rejissoru Alan Roberts (Robert Braunel) və patoloji islamofob, xristian pastoru Terri Cons yardımçı olmuşlar. Təhqir və təhriflərlə dolu olan "İslam – İblisin dini" ("Islam is of the Devil") kitabının müəllifi Terri Cons 2010-cu ilin sentyabr ayının 11-də kütlənin gözü qarşısında Quranı yandıracağına söz vermiş və bunun üçün 200 kitab əldə etmişdir. ABŞ prezidenti Barak Obama, Roma papası, BMT-nin Baş katibi Pan Gi Mun, ABŞ Dövlət katibi Hillari Klinton, NATO-nun Baş katibi, ABŞ-nin baş prokuroru, bir sıra islam dövlətlərinin rəsmi şəxsləri, xristian təşkilatları onu bu təxribatdan çəkindirmək üçün müraciət etsələr də, 2011-ci ilin mart ayında Terri Cons Florida ştatının kilsələrinin birində Quran nüsxələrini yandırmış və bu barədə ABŞ mətbuatında məlumat verilmişdir. Pastorun düşünülmüş təxribatına cavab olaraq Əfqanıstanda xristian dövlətlərinin diplomatik nümayəndələrinə qarşı bir sıra terror aktları törədilmişdir.

Bununla belə, islamofob pastor 2012-ci ilin aprelində yenidən Quran nüsxələrini yandırmış, ABŞ-nin hüquq mühafizə orqanları isə onu "yanğın təhlükəsizliyi qaydalarını pozduğuna" görə 271 dollar məbləğində cərimə etməklə kifayətlənmişdir. Həmin ilin sentyabr ayının 11-də Terri Cons kilsədə "Müsəlmanların məsumluğu" filmini nümayiş etdirmiş və həmin günü "Məhəmməd üzərində beynəlxalq məhkəmə günü" adlandırmışdır. Bütün bunlar islam ölkələrində etiraz dalğalarına səbəb olmuşdur. Lakin pastorun Almaniyadakı həmfikirləri – antiislamçı, ultrasağçı təşkilatlar bu dəfə onun müdafiəsinə qalxmış, Terri Consu Berlinə dəvət

etmişdi. Almaniya Daxili İşlər Nazirliyi isə, öz növbəsində, ölkədə yeni iğtişaşların yaranmasından ehtiyat edərək pastorun səfərinin qarşısını almışdı…

ABŞ kinematoqrafiyasının siyasi texnoloqları uşaqların da "qayğısına" qalmış, onlar üçün də islamı təhrif edən bədii və cizgi filmləri istehsal etmişlər. Onlardan biri bu gun dünyanın müxtəlif guşələrində nümayiş etdirilən və etnik kimliyindən, dini, irqi mənşəyindən asılı olmayaraq uşaqların maraqla izlədikləri tammetrajlı "Ələddin" cizgi filmidir. "Min bir gecə nağılları" toplusuna daxil olan "Ələddinin sehrli çırağı", əslində, nə qədər ecazkar olsa da, tərbiyəvi xarakter daşısa da, "The Walt Disney Company" şirkətinin 1992-ci ildə çəkdiyi cizgi filmi variantında hələ ilk dəqiqələrdən həm islama, həm də Yaxın Şərq xalqlarına qarşı neqativ Qərb stereotiplərinin təsiri aydın hiss olunmaqdadır. Misal üçün, filmin geniş ekran üçün variantında səsləndirilən mahnıda deyilir ki, Ələddin **"dəvə karvanlarının yola çıxdığı, sifəti xoşa gəlməyən adamların qulaqlarının kəsildiyi uzaq diyardan gəlmişdir. Bu, vəhşilikdir, amma onun evidir"**. Lakin Amerika müsəlmanlarının və hüquq müdafiəçilərinin etirazından sonra şirkət cizgi filminin CD diskləri üçün yazılmış variantında mahnının sözlərini dəyişməli olmuşdur. Bundan başqa, ac uşağını yedirtmək üçün oğurluq etmiş qadının əllərini kəsmək istəyən ərəb taciri ilə bağlı kadrlar da çıxarılmışdır. Amerika müsəlmanları "zərərsiz" cizgi filmində ərəblərin yöndəmsiz, əyriburunlu, eybəcər təsvir olunmasına da qarşı çıxmışlar.

Ekran əsərinin "məziyyətləri" bununla bitmir. Süjet xətti dəyişdirilmiş filmdə ən mənfi personaj – sadəlövh sultanın məkrli, hiyləgər vəziri olan cadugər Cəfər obrazı da,

əslinə qalsa, Qərbin islamofobiyasının uşaq filmlərində növbəti təzahürüdür. Cəfər obrazı və onun adı film üçün təsadüfən seçilməmişdir və tarixdə onun Cəfər ibn Yəhya Bərməki adında real prototipi mövcud olmuşdu. Cəfər ibn Yəhya Abbasilər dövründə xəlifə Harun ər-Rəşidin vəziri olmuş, təkcə dövlət xadimi kimi deyil, elm, ədəbiyyat və incəsənətin himayədarı kimi tanınmışdır. Məhz onun vəzirlik etdiyi dövrlərdə müsəlman mədəniyyəti fəlsəfə, tibb, həndəsə, fizika, riyaziyyat, memarlıq sahələrində böyük uğurlar əldə etmişdir.

Cəfər ibn Yəhya Əməvilər və Abbasilər sülalələrinin hakimiyyətdə olduqları dövrlərdə xilafətdə mötəbər vəzifələr tutmuş bərməkilər nəslinin nümayəndəsi idi. Xatırladaq ki, bərməkilər nəslinin nümayəndələri Abbasilər xilafətində vəzirlik vəzifəsini uzun illər icra etmişlər. Onların ulu əcdadları Bəlx şəhərindəki buddist məbədində xidmət etmiş, lakin onlardan biri Osmanın xilafəti dövründə əsir kimi Mədinəyə gətirilmiş və islamı qəbul etmişdir. Xəlifə Harun ər-Rəşidin dönəmində bərməkilər dövlətdə böyük nüfuza və sərvətə malik olmuşlar. Az sonra xəlifə onları özünün ən güclü rəqibi hesab etmiş, hakimiyyəti ələ alacaqlarından ehtiyat edərək vəzir Cəfər ibn Yəhyanı edam etdirmişdir…

Araz Qurbanov

Şərq və Qərbin "divanı". İslam mədəniyyəti əyri güzgülər səltənətində

"İnsanların din yolunda həvəslə vuruşması,
amma dinin qanunları ilə yaşamağa
həvəs göstərməməsi heyrət doğurur".
Georq Lixtenberq,
alman filosofu və publisisti

Təəssüf ki, Qərbin özünəməxsus siyasi ideoloji və fəlsəfi ehkamları bu gün də Avropa mədəniyyətinin digərlərindən üstünlüyü və mükəmməlliyi, dünya tarixində müstəsna rolu barədə mifi vurğulamaqdadır. Bir vaxtlar Fransa maarifçiləri, ilk növbədə Volter bunu sındırmağa çalışmış, mədəniyyətin coğrafi, etnik, dini məkanla məhdudlaşdırılmaması, onun ümumbəşəri irs olaraq dəyərləndirilməsi ideyasını irəli sürsə də, sonralar digər filosoflar, o cümlədən Hegel "kompromis" variant üzərində dayanmış, ümumbəşəri sivilizasiya ideyasını avropasentrizm nəzəriyyəsi çərçivəsində dəyərləndirməyi daha "düzgün" hesab etmişdir.

Avropasentrizmin formalaşdırdığı digər etnosiyasi mifə görə, guya müsəlmanların dünyagörüşləri, irqi və etnik xüsusiyyətləri elm və texnikanı irəliyə doğru aparmağa, kəşflər və ixtiralar etməyə qadir deyildir və islam mədəniyyətini heç də müsəlman xalqlar deyil, onların qul etdikləri, dinlərini zorən dəyişdirdikləri xristianlar və yəhudilər yaratmışlar. Təəssüf ki, bu tendensiya bu gün də davam etməkdədir…

Tövratın "Yaranış" kitabına görə, Rəbb onun məqamına yetişmək iddiasına düşən və bunun üçün Babil qülləsini ucaldanları – "eyni dildə danışan" insanları cəzalandıraraq onlara fərqli dillər göndərmişdir. Bundan sonra tikintidə çalışanlar bir-biri ilə anlaşa bilməmiş və qüllənin inşasını yarımçıq qoymağa məcbur olmuşlar. Babil qülləsi haqqında qədim rəvayət, əslinə qalsa, bütün zamanlar, məkan və xalqlar üçün aktual olan ibrətamiz alleqoriyadır. Əgər Herodot, Strabon kimi antik müəlliflərin əsərlərindəki "eyni dildə danışan xalqlar" ifadəsinin qədim dövrlərdə linqvistik anlam kəsb etmədiyini, əksinə, "eyni dinə tapınanlar", "eyni maraqda olanlar" kimi yozulduğunu nəzərə alsaq, bu zaman Rəbbin iddialı insanları heç də "müxtəlif dillərlə" deyil, məhz fərqli dinlərlə cəzalandırdığını aydın anlaya bilərik.

Yaradanın verdiyi "cəzaçəkmə müddəti" – insan cəmiyyətinin din, məzhəb zəmində parçalanması, insan toplumlarının bir-birini hələ də başa düşə bilməməsi bu gün də davam etməkdədir. Eləcə də "eyni dildə danışan" müsəlmanlar, xristianlar, yəhudilər və s. arasında da birlik, həmrəylik hələ də mövcud deyildir. Onlar bir-biri ilə rəqabətdə olan və çox vaxt açıq düşmənçilik edən, maraqlı qüvvələrin əlində siyasi alətlərə çevrilən yüzlərlə məzhəb və təriqətə ayrılmışlar. İslam peyğəmbərinə aid hədislərin birində deyildiyi kimi, **"Yəhudilər yetmiş bir hissəyə, xristianlar isə yetmiş iki hissəyə bölünmüş, mənim ümmətim isə yetmiş üç hissəyə parçalanacaqdır**"…

Xristian dini də nə əvvəllər, nə də olduğu bu gün də düşünülən qədər monolit deyildir. İlkin xristianlıq eramızın V əsrindən – Efes və Xalkidon kilsə məclislərinin qərarlarından sonra Roma-katolik, şərqi katolik, pravoslav, qədim

şərq, süryani və daha sonrakı dövrlərdə protestant, anqlikan kilsələrinə, xeyli sayda təriqətə bölünmüşdür. İsa Məsih təliminin təməli üzərində qurulan müasir qeyri-ənənəvi xristian təriqətlərinin, dini-siyasi hərəkatların, dini-ezoterik birliklərin sayı da təqribən bir o qədərdir. Ayrı-ayrı konfessiyaları üz-üzə qoyan heç də onların ehkamları, özlərini "Rəbbə daha yaxın" hesab etmələri deyildir. Onlar dini mətnləri qəsdən təhrif edən, nifrət çağırışları ilə kütlənin beyninə qəzəb dolduran, dinləri və insanları cinayətlərə sürükləyən, bununla da Rəbbin, Allahın, Yəhvanın, Buddanın adı ilə möhtəkirlik edən qüvvələrdir.

Hər bir dinin güclü və həssas tərəfləri var. Xristianlar inanırlar ki, Nazaretli İsa Məsih Rəbbin özü və sözüdür. Bəşəriyyətin gələcək nicatı da onun əlindədir. Əlbəttə, xristianlığın və islamın Hz. İsaya münasibətində müəyyən fərqlər var. Lakin bu fərqlər qarşıdurma, nifaq üçün bəhanə ola bilməz. Mömin müsəlmanın Hz. İsa Ruhullaha məhəbbəti xristianın ona olan sevgisindən az deyildir. İslam dinində də İsa bin Məryəm və ya Məryəm oğlu İsa Allahın İsrail oğullarına göndərdiyi peyğəmbər və Məsihdir. Müsəlmanlar da İsa Ruhullahın Allahın müqəddəs ruhundan xəlq edilən insan olduğuna, qiyamət günü Dəccalı məhv edib dünyanı bütün bəlalardan xilas edəcəyinə inanır. Avropa ölkələrində psevdoxristian vandalların Quran kitablarını yandırdıqları, islam peyğəmbərinə karikaturlar çəkdikləri halda, indiyədək bir nəfər də müsəlman nə İsa Ruhullahı, nə də İncili təhqir etməyi ağlına gətirmişdir. Quran və İncildəki ehkamların və müqəddəs mətnlərdəki hökmlərin məqsədli şəkildə yanlış izah edilməsinə gəldikdə isə bu həmin şəxslərin inancı ilə deyil, ləyaqəti, vicdanı ilə bağlı olan məsələdir.

Məsələn, xristianlıqda və islam dinində Hz. İsa sülhün, barışığın, əmin-amanlığın, insanın insana olan sevgisinin carçısıdır. Lakin, təəssüf ki, xristianlar arasında İncil mətnlərinə, İsa Məsihin sözlərinə açıq qərəz, səthi yozum cəhdləri vardır və bu səylər xristianlığın mahiyyətinin saxtalaşdırılması, təhrif olunması xarakteri daşıyır. Misal üçün, Hz. İsa Həvari Mattanın müjdəsində bildirir: **"Mən isə sizə deyirəm, pis adama qarşı olma. Əksinə, sağ üzünə şillə vurana o birini də çevir"**.[71] Elə həmin mətndə Məsih tamamilə fərqli obrazda göstərilir və fərqli ifadələr söyləyir: **"Elə düşünməyin ki, mən dünyaya sülh gətirmək üçün gəlmişəm. Mən sülh deyil, qılınc gətirmək üçün gəlmişəm. Mən oğulu atasından, qızı anasından, gəlini qayınanasından ayırmaq üçün gəlmişəm. Çünki insanın düşməni onun ailəsində olanlardır"**.[72] Lukanın müjdəsində isə daha kəskin şəkildə bəyan edir: **"Mən yer üzündə alov yandırmağa gəlmişəm və alov artıq yanırsa, mənə bundan başqa nə lazımdır ki?!"**[73]

Müqəddəs mətnlərin tərcüməsinə gəldikdə Bibliyanın Tövratdan götürülmüş birinci hissəsi – Əhdi-ətiq ilk dəfə ərəb dilinə X əsrdə yəhudi filosofu Saadiya ben İosif Qaon *(Səid bin-Yusif və ya Səid al-Fayyumi)* tərəfindən çevrilmişdir. Yəhudiliyin masora[74] qaydalarına riayət olunaraq tərcümə edilən mətn dəqiqliyi ilə seçilmiş, Paris və Londonun

[71] İncil, Mattanın müjdəsi, 5:39
[72] İncil, Mattanın müjdəsi, 10:34-36
[73] İncil, Lukanın müjdəsi, 12:49
[74] ***Masora*** – yəhudi dini mətnlərinin köçürülməsi, tərcüməsi zamanı onların orijinallığını, mahiyyətini, tərtibatını qoruyan və tənzimləyən qaydalar toplusu

poliqlottaları[75] tərkibinə daxil edilmişdir. 1143-cü ildə ingilis ilahiyyatçısı Kettonlu Robert *(Robert of Ketton)* ilk dəfə olaraq Qurani-Kərimi latın dilinə çevirmiş və onu *"Lex Mahumet pseudoprophete" ("Məhəmmədin, saxta peyğəmbərin qanunları")* adlandırmışdır. Adından göründüyü kimi, qərəzli əlavələr və düzəlişlərlə dolu olan "tərcümə"də məqsəd xristianları islam dininə, müsəlmanlara qarşı kökləmək idi. Maraqlıdır ki, Quranı digər Avropa dillərinə çevirənlər də məhz Kettonlu Robertin tərcüməsinə əsaslanmışlar. Müsəlman dünyasının müqəddəs mətnlərinin Avropa dillərinə ilk ədəbi tərcüməsinin müəllifi fransız diplomatı və şərqşünası Andre de Ryer də yuxarıda adıçəkilən kitabdan bəhrələnmişdir. 1647-ci ildə nəşr olunan kitabının təkcə adı – "L'Alcoran de Mahomet" *("Məhəmmədin Quranı") onun fransız dilinə hansı səviyyədə və hansı məqsədlə çevrildiyinin göstəricisidir*. Bu nəşrdə də Quranın mahiyyəti, hökmlər tanınmaz dərəcədə saxtalaşdırılmışdır.

XVI-XVII əsrlərdə Avropa ədəbiyyatında islam dini, müsəlmanlar xristian dünyasına təhlükə mənbəyi kimi təqdim olunurdu. Bu, Fransa maarifçisi, filosofu, şair və publisisti Volterin də yaradıcılığında, xüsusilə satirasında aydın hiss olunurdu. 1742-ci ildə yazdığı "Fanatizm və ya Məhəmməd peyğəmbər" faciəsində islam peyğəmbərini insanların səmimiliyindən, sadəliyindən öz məqsədləri üçün istifadə edərək hakimiyyətə can atan "ikiüzlü, riyakar tiran" kimi təsvir etmişdir. Onun nəzərində islam dini "yalançı

[75] ***Poliqlotta*** – Bibliyanın orijinal mətni ilə yanaşı, müxtəlif dillərə tərcüməsinin bir kitabda toplanması

Allah elçisinin” şəxsi iradəsi və ətrafındakı fanatiklərin səyləri nəticəsində yaranmışdır. Şərq dünyasına kilsənin gözü ilə baxan Volter pyesin səhnələşdirilməsindən əvvəl onun mətnini Roma papası XIV Benediktə göndərmiş və ondan təqdir, xeyir-dua və minnətdarlıq dolu cavab məktubu almışdır. Üstəlik, Volterin kilsə qarşısında böyük xidmətini dəyərləndirən XIV Benedikt ona üzərində portreti olan qızıl medal göndərmişdir.



Volterin “Fanatizm və ya Məhəmməd peyğəmbər” pyesinə illüstrasiya

Müasir Fransada islamofobiyanın tüğyan etdiyi bir vaxtda, 2006-cı ildə Sen-Jeni-Puyi şəhərinin meri Yuber Bertran uzun fasilədən sonra birdən-birə Volterin “Fanatizm və ya Məhəmməd peyğəmbər” pyesini xatırlamış və onu səhnələşdirməyi qərara almışdır. Fransa müsəlmanları bu qərara qarşı çıxaraq islam dinini və peyğəmbərini təhqir edən tamaşanın qadağan edilməsini tələb etsələr də, hakimiyyət orqanları buna əhəmiyyət verməmişdir. Pyes tamaşaya qoyulduğu gün şəhəri müsəlmanların kütləvi iğtişaşları bürümüş, yalnız polisin müdaxiləsindən sonra vəziyyət sabitləşmişdir. Fransa Milli Kitabxanası isə Volter islamofobiyasının tərəfdarlarının müdafiəsinə qalxaraq Volterin yaradıcılığına, eləcə də onun “Fanatizm və ya Məhəmməd peyğəmbər” pyesinə həsr olunmuş sərgi təşkil etmişdir…

Volterdən sonra, 1888-ci ildə analoji islam və Məhəmməd peyğəmbər mövzusunu digər fransız dramaturqu Anri

de Bornye qaldırmış, özünün qələmə aldığı "Məhəmməd" pyesini Parisin Komedi Fransez Teatrına təqdim etmişdir. Osmanlı sultanı II Əbdülhəmid həmin pyesin islam dininə, onun peyğəmbərinə və müsəlmanlara qarşı həqarətlə, alçaldıcı ifadələrlə dolu olması barədə məlumat almış və pyesin səhnələşdirilməsini dayandırmaq üçün öz elçisini Fransa rəhbərliyi ilə görüşə göndərmişdir. Osmanlı dövlətinin Fransadakı səfiri Mahmud Əsəd Paşa yüksəkçinli yerli məmurlarla danışıqlar aparmış, həmin tamaşanın rəsmi Parisin islam dövlətləri ilə münasibətlərinə, eləcə də Fransanın müsəlman Şərqindəki müstəmləkə ərazilərində kütləvi narazılığa və iğtişaşlara səbəb olacağını diqqətə çatdırmışdır. Fransa "Məhəmməd" pyesinin səh-nələşdirilməsini iki il müddətinə təxirə salınacağına söz versə də, vədinə əməl etməmiş, 1890-cı ildə Komedi Fransez tamaşanı yenidən öz repertuarına daxil etmişdir. Fransanın Xarici İşlər Nazirliyi isə Osmanlı diplomatlarını əmin etmişdir ki, tamaşada islam dini və Məhəmməd peyğəmbərə qarşı heç nə yoxdur və pyes Əlcəzair və Tunisdə səhnələşdirilməyəcəkdir.

Bütün bunlardan sonra Sultan II Əbdülhəmid Fransanın Osmanlı dövlətindəki səfiri Qustav Montebellonu saraya çağırmış və bu dəfə tələblərini ultimativ formada rəsmi Parisin diqqətinə çatdırmışdır. Nəticədə, hökumətin qərarı ilə Anri de Bornyenin bədnam "Məhəmməd" pyesinin Fransa ərazisində səhnələşdirilməsi qadağan olunmuşdur. Dramaturq isə inadından dönməmiş, "Məhəmməd" pyesinin tamaşaya qoyulması üçün bu dəfə Londonun Lisey Teatrı ilə sövdələşmişdir. Lakin Böyük Britaniyanın xarici işlər naziri Robert Qaskoyn-Sesil Osmanlı dövləti ilə dostluq əlaqələrinin tərəfdarı olduğu üçün sultanın xahişinə dərhal əməl

etmiş və bununla da Anri de Bornyenin avantürasına son qoyulmuşdur.

Hazırda Avropada, Şimali Afrikada, Yaxın, Orta və Uzaq Şərqdə baş verən hadisələrlə bilavasitə əlaqəli olan əhəmiyyətli fərq isə dinlərin, xüsusilə islam və xristianlıq təlimlərinin insana və onun günahlarına olan teoloji münasibətidir. Məsələn, xristianlığa əsasən insan kimliyindən asılı olmayaraq, hətta peyğəmbərlər də doğulduqları andan etibarən "Rəbb qarşısında gözükölgəli" və günahkardırlar. O hələ ana bətnində olarkən Adəm və Həvvanın bütün günahlarının, iblisin insana təlqin etdiyi bütün mənfi əxlaqi və mənəvi keyfiyyətlərin, pis əməllərin irsi, "qeyri-ixtiyari" daşıyıcısıdır. İsa Məsih insanları günahlardan təmizləmək üçün özünü qurban vermişdir. Xristianlığın "əzəli günahlar" və ya "əcdadların günahları" adlandırdığı həmin doqmaya görə, günahkar doğulmuş insan ömrünün sonunadək bu ağır mənəvi yükü daşımağa məhkumdur. O həm özü üçün, həm də əcdadlarının əvəzinə tövbə etməli, pis əməllərdən çəkinməli, axirətə "təmizlənmiş", "pak" vəziyyətdə daxil olmalıdır.

İslam dinində isə bu məsələyə münasibət tamamilə fərqlidir. "Əşrəfi-məxluqat" *("Yaradılanların ən şərəflisi")*, "xəlifə" adlandırılan insan Allahın yaratdığı ən mükəmməl varlıqdır və irqindən, dinindən, dilindən, sosial vəziyyətindən asılı olmayaraq dünyaya ruhən azad, pak, məsum, günahsız gəlmişdir. Quranın, hədislərin "təqsirsizlik prezumpsiyasına" əsasən o nə valideynlərinin, nə də ulu əcdadlarının törətdiyi günahlara, eləcə də savab əməllərinə məsuliyyət daşıyır. İslam dininin həmin teoloji doqmasından göründüyü kimi, insan öz iradəsi və imanı ilə ömrü boyu pisliklərlə mübarizə aparmalı, İlahinin verdiyi paklığı

qorumalıdır. Müsəlmanların dərin inamına görə, İsa peyğəmbər heç də iddia edildiyi kimi insanları günahlardan təmizləmək üçün göndərilməmişdir. Çünki islam təliminə görə, hər kəs öz günahlarına cavabdehdir.

Lakin hazırda fövqəlgüclərin ssenarisi üzrə dünyada cərəyan edən proseslər həm xristianlığın, həm də islamın həmin konseptual doqmalarına radikal şəkildə "düzəlişlərini" etmişdir. Belə ki, Avropada, ABŞ-də və Yaxın Şərqdə "əzəli günahkar olan" xristianlar "günahkar" məsum müsəlmanları məhv etməklə özlərini "günahdan" təmizləyir, "pak" radikal müsəlmanlar isə, öz növbəsində, "günahkar" dinc xristianlara qarşı terror aksiyaları keçirməklə axirət üçün "günahsızlıq zəmanəti" alırlar. Odur ki bu gün "dinlərarası dialoq" təşəbbüslərinin uğursuzluğunun səbəblərini heç də fərqli konfessiyaların bir-biri ilə qarşılıqlı əlaqə qura bilməməsi bəhanəsində axtarmaq lazım deyil. Çünki səhv bu təşəbbüsün fəlsəfəsində deyil, Qərbin məqsədində və taktiki gedişlərindədir. Xatırladaq ki, orta əsrlərdə xristian dini ilə müqayisədə islamın daha mütərəqqi ideologiya kimi üstün mövqeyə malik olması, Misir, Suriya, Şimali Afrika ərazilərində "Məhəmməd dininin" sürətlə yayılması, Aralıq dənizi ətrafındakı region əhalisinin, demək olar ki, yarısının xristianlıqdan imtina edərək



İncilin ərəb dilinə tərcüməsi. Qədim Sinay mətninin bir hissəsi

ümmətə qoşulması, xilafət dövründə İspaniya və Siciliyanın islamlaşdırılması, Bizansın süqutu və Osmanlı dövlətinin Balkanları zəbt etməsi, Qərbin səlib yürüşləri, müsəlman dövlətlərinin iqtisadi və mədəni yüksəlişi və Avropadan Şərqə doğru uzanan ticarət yollarını nəzarətə götürmələri və s.

Tarix siyasiləşdirilmiş və subyektiv elmdir. Bunu tarixçilər də etiraf edirlər. Hər bir tarixi mətnin – qədim salnamələrdən tutmuş müasir elmi araşdırmalaradək hər bir əsərin arxasında müəllifin hadisələrə şəxsi mövqeyi və qənaətləri, istinad etdiyi mənbələr, yaşadığı dövrün ictimai-siyasi mühiti və tələbləri, eləcə də təmsil etdiyi təbəqənin siyasi maraqları dayanır. Odur ki qədim dövrlərdən indiyədək tarixi proseslərin, xalqlar, dövlətlər, mədəniyyətlər arasında münasibətlərin obyektiv öyrənilməsində, tədqiqat prioritetlərinin müəyyən edilməsində, xüsusilə qarşı tərəflərin mövqeləri arasında tarazlığın gözlənilməsində və ya ondan imtina edilməsində konkret maraqların, mif və stereotiplərin, etnomədəni və etnosiyasi təsir əlamətlərinin olması təbiidir. Bu zaman tanınmış fransız filosofu və semiotiki Roland Bartın bu sözləri yada düşür: **"Mən müasir dövdən bəhs edən, lakin hər saniyə təbiətlə tarixin yerini səhv salan insanları eşidəndə əsl cəhənnəm əzabı çəkirəm. Bərbəzəkli bayram vitrinlərinə baxdığım kimi onları dağıdıb içərisində gizlənən ideoloji yalanları açıb göstərmək istəyirəm"**.[76] Alman yazıçısı Ziqmund Qraff da tarix elminin, əslində, siyasi maraqların əsiri olduğunu söyləyir: **"Tarix elə bir siyasətdir ki, onun səhvlərini tamamilə**

[76] Р. Барт. «Избранные работы. Семиотика. Поэтика». М. Прогресс, 1979

aradan qaldırmaq mümkün deyildir. Siyasət isə nizamlanması hələ də mümkün olmayan tarixdir”.

1.  2. 

İslam mədəniyyətinin xristian müqəddəslərinə münasibəti. 1. Mələk Cəbrayıl Hz. İsanın doğulacağını Hz. Məryəmə xəbər verir. Əbu Reyhan Biruninin əsərinə illüstrasiya (XVI əsr); 2. Hz. Məryəm və körpə İsa. Orta əsr Şərq miniatürü

Odur ki məsələyə müasir geosiyasi və geoiqtisadi maraqlar, dövlətlərarası münasibətlər, dövlətdaxili problemlər kontekstindən, mədəniyyətlərarası dialoq zərurəti, eləcə də etnik və konfessional qarşıdurmalar müstəvisindən yanaşsaq, bu qənaətə gələrik ki, siyasi illüziyalardan təmizlənmiş real tarixin, bəşəriyyətin tarixi yaddaşının bərpası bu gün dünyanın taleyüklü vəzifələrindən biridir. Tarix həm müəllifin – qələm sahibinin, həm də sifarişçinin mövqeyindən, əqidəsindən, mənafeyindən, dünyagörüşündən və “istehlakçı”nın tələblərindən çox asılıdır. Eyni zamanda onun məzmunu stereotiplərlə reallıqlar arasındakı qarşıdurmalardan ibarətdir. Bunu hələ XIV əsrdə görkəmli filosof və mütəfəkkir İbn Xəldun müşahidə etmişdir. O yazırdı: **“Bil ki, “tarix”, əslində isə, “tarixi həqiqətlər” insanların**

birgəyaşayışı, daha doğrusu, dünyanın düzəni haqqında olan xəbərlərdir… Lakin bir sıra səbəblər üzündən bu düzən haqqında xəbərləri yalan müşayiət edir".[77]

Tanınmış psixoloq, sosioloq və antropoloq İqor Kon ötən əsrin 60-cı illərində qələmə aldığı "Mövhumatın psixologiyası: mənfi etnik təsəvvürlərin sosial-psixoloji kökləri haqqında" məqaləsində stereotiplərin fərdlərə və bütövlükdə kütləyə təsir mexanizmlərinin ətraflı təsvirini vermişdir. O, azadfikirli və mövhumatçı insanların eyni obyektə – irqə, xalqa, dinə fərqli yanaşma tərzləri barədə bunları yazırdı: **"Belə təsəvvür var ki, əgər iki insanın hər hansı bir predmet barədə təsəvvürləri üst-üstə düşmürsə, deməli, onlardan biri mütləq səhv edir. Lakin psixologiya elmi belə düşünmür. Hətta ən sadə obyektin dərk olunması əlahiddə akt deyil, mürəkkəb sistemin tərkib hissəsidir. İnsanın istənilən obyekti dərketmə prosesi onun həmin predmetə yanaşma tərzindən, topladığı təcrübədən, maraqlarından və məqsədlərindən asılıdır. Yəni avam adamın lazımsız dəmir yığnağı kimi qavradığını mühəndis tanış mexanizmin konkret detalları kimi görür. Necə ki oxucu, kitab satıcısı və kitab kolleksiyaçısı eyni kitaba tamamilə fərqli yanaşırlar"**.[78]

İslam və xristian dünyası arasında ziddiyyətlərin kökündə təkcə fərqi dini ehkamların dayanmasını düşünmək yanlışlıqdır. Bu stereotip yüz illər boyu davam edən hərbi-

---

[77] Ибн Халдун. Введение (ал-Мукаддима), Составление, перевод с арабского и примечания А.В. Смирнова, Историко-философский ежегодник 2007. М.: Наука, 2008

[78] И.Кон. Психология предрассудка: о социально-психологических корнях этических предубеждений// Новый мир. 1966, №9

siyasi qarşıdurmalar, işğalçılıq müharibələri, səlib yürüşləri və s. nəticəsində məhz Avropada formalaşmışdır. İslam dini xristianlıq və yəhudilik kimi monoteist inancdır. Yəhudilikdən fərqli olaraq həm islam, həm də xristianlıq polietnik dinlər sayılır. Adıçəkilən hər üç din Yaradanın birliyinə və onun göndərdiyi peyğəmbərlərə *(nəbi, rəsul)* inam üzərində bərqərar olmuşdur. Aparıcı ehkamları ilə bir-biriylə sıx bağlı olan bu inanclar həm Qərbdə, həm də Şərqdə "İbrahimi dinlər" kimi ümumiləşdirilir.



İsa Ruhullahın dağüstü moizəsi. Orta əsr Şərq miniatürü

Qədim sanskrit mətnlər – vedalar da öyrədir ki, hər bir təlim üç təməl prinsip əsasında yayılır: məkan, zaman və şərait. Başqa sözlə desək, məhz bu səbəblər üzündən eyni təlim ayrı-ayrı region və dövrlərdən, müxtəlif şəraitdən – yaşam tərzləri və təsəvvürlərdən asılı olaraq fərqli şəkildə dərk edilir. Lakin yer üzündə mövcud olan bütün dini təlimlərin üzərindəki qalın mif və rəvayət təbəqələri götürülərsə, üzərləri ayrı-ayrı xalqların yaşam tərzlərindən yaranan adət və ənənələrdən, mifoloji təsəvvürlərdən, fərqli cəmiyyətlərə olan münasibətlərdən ibarət qalın laylardan tamamilə təmizlənərsə, hər birinin bünövrəsində eyni və dəyişilməz həqiqətin, bu gün "ümumbəşəri əxlaq və mənəviyyat" kimi qəbul etdiyimiz ali və pak dəyərlərin dayandığını görərik. Bütün müqəddəs mətnlərdə Rəbbin Musa, İsa və Məhəmməd

vasitəsilə insanlara göndərdiyi on öyüd – “Tanrı təkdir və şəriki yoxdur”, “öldürmə”, “oğurluq etmə”, “yalandan şahidlik etmə” kimi əbədi nəsihətlər bütün ibrahimi dinlərin ehkamlarında vardır. Necə ki tövbəetmənin, ruhun günahlardan təmizlənməsinin, insanın Rəbbə tapınmasının ilk addımı olan qüsl ayini islamda, yəhudilikdə, xristianlıqda, buddizmdə, induizmdə olduğu kimi Qədim Misirdə, Yunanıstanda, eləcə də Qədim Roma politeizmində vardı. İncildə xatırlanır ki, insanlıq tarixində “əllərini yumaqla” qüsl etmiş, bununla da özünü günahdan təmizləndiyini sanmış ən məşhur romalı İsa Məsihin edamına göz yummuş Roma prokuratoru Ponti Pilat olmuşdur…

Odur ki Qərb və Şərq dünyasında hər iki aparıcı din – mükəmməl dini-siyasi sistemə və cəmiyyətin idarə olunması üçün çevik strukturlara malik olan, onların dinamikliyini mükəmməl ideologiya ilə təmin edən xristianlıq və islam arasında münasibətlərə həm əvvəllər, həm də indi onların ortaq dəyərləri müstəvisindən deyil, əsas etibarilə dövrün və şəraitin, geosiyasi maraqların antaqonist ziddiyyətləri baxımından yanaşılmışdır. Lakin bu gün də işlək vəziyyətdə olan həmin stereotiplərin kökündə guya həmin dinlərin aparıcı ehkamlarının dayandığını iddia etmək də yanlışlıqdır. Əlbəttə, ibrahimi dinlərin yaranma prosesindəki “dialektikaya” əsasən



Avropada məzhəb qətliamı. Fransız rəssam Fransua Dübuanın çəkdiyi “Varfolomey gecəsi” əsərindən fraqment (1572-ci il)

onların hər biri özünü daha mükəmməl hesab edir, özündən əvvəlkiləri "pozulmuş", sonra gələnləri isə "əsassız" və "batil" adlandırır. Xristianlığın, daha dəqiq desək, xristian ideoloqlarının yəhudiliyə *(iudaizmə)* və islama siyasi münasibətində də bu sxem özünü daha açıq şəkildə büruzə verir. **"Sonuncu xristianın** *(İsa Məsih)* **çarmıxda edam olunmasını"** bildirən Fridrix Nitsşe bu iddiasında nisbətən haqlıdır. Xristianlıq təliminin aparıcı doqmaları məhz sabiq ravvin olmuş Həvari Pavelin fəaliyyəti nəticəsində iudaizmin, Qədim Roma inanclarının, mehraniliyin elementləri əsasında formalaşmışdır. İudaizmin mühafizəkar essenilər *(isiyim)* məzhəbinin parlaq nümayəndəsi İsa Məsih isə nəinki xristianlığın təməlini qoymuş, əksinə, yəhudiləri öz dinlərinin ilkin normalarına qayıtmağa çağırmışdır. İslam isə "siyasiləşdirilmiş xristianlığın" nəzərində "ilahi kökləri olmayan süni din" adlandırılır. Bütün bunlara baxmayaraq, hər üç İbrahim dini arasında həm xronoloji ardıcıllıq, həm də baza ehkamlarının eyniliyi baxımından ciddi konstruktiv fərq yoxdur.

Görəsən, dini zəmində, hətta xristian məzhəbləri zəminində ilk genişmiqyaslı qarşıdurmalar, kütləvi insan qətlləri dünyanın hansı qitəsində daha geniş miqyas almış və xüsusi qəddarlığı ilə seçilmişdir? Qərb siyasətçiləri və din xadimləri islam dinini əsassız olaraq terror fəaliyyətinə ideoloji zəmin olmaqda, islam mədəniyyətini "gerilikdə" və "radikalizmdə" ittiham edəndə öz tarixi keçmişlərini xatırlayırlarmı? Məlumdur ki, xristian dünyası ilk dəfə dini zəmində 395-ci ildə baş vermiş hadisə nəticəsində Şərqi və Qərbi Roma imperiyalarına, eləcə də Şərq və Qərb kilsələrinə bö-

lünmüşdür. Bunun nəticəsində hər iki kilsənin bütün xristianlara rəhbərlik etməsi uğrunda mübarizəsinin əsası qoyulmuşdur. XVI əsrin ikinci yarısından etibarən isə Avropa dövlətləri mənafe mübarizəsində din amilindən, xüsusilə məzhəb fərqi bəhanəsindən yararlanmağa başlamış və iki cəbhəyə parçalanmışdır. Bu qarşıdurmalarda katolik kilsəsi həm tərəfdarlarının sayı, həm də təşkilatlanma bacarığı, həm də məqsədləri – dini-siyasi liderlik iddiaları ilə seçilirdi. Protestantizm isə bu iddialara qarşı həm dini, həm də siyasi müqavimət hərəkatı idi. Onunla bir cəbhədə olan dövlətləri məhz katolik kilsəsinin Avropanın bütün ərazilərində mütləq dini-siyasi hakimiyyət qurmaq planlarından qurtarmaq üçün ətrafına birləşdirə bilmişdi. Nəticədə, 1608-ci ildə Protestant, bir il sonra isə Katolik liqası yaradılmış, XVI-XVII əsrlərdə Avropada bu məzhəblər arasında aramsız və yüz minlərlə insanın ölümünə səbəb olan dini müharibələr *(İsveçrə-Almaniya, Fransa-İngiltərə, İspaniya-Hollandiya və s.)* baş vermişdir.

Təhlilçilərə görə, "məzhəb ədavəti" bəhanəsi altında başlanılan bu müharibələr, əslində, Avropada ayrı-ayrı dövlətlərin öz mədəni identikliklərinin və dövlətçiliklərinin qorunmasına yönəldilmiş kəskin reaksiyaları idi. Bununla belə, Fransada, İngiltərədə, İspaniyada, Almaniyada, Hollandiyada, Portuqaliyada xristianlığın müxtəlif cərəyanları arasında ciddi toqquşmalar da baş vermişdir. Tarixə "Varfolomey gecəsi" adı altında düşmüş qətliamda – 1752-ci ilin avqust ayının 24-də təqribən 6 min qugenot xüsusi amansızlıqla öldürülmüşdür. Fransanın digər şəhərlərində – Tuluza, Bordo, Lion, Ruan və Orleandakı analoji qırğınlarda da yüzlərlə qugenot qətlə yetirilmişdir.

Onu da qeyd edək ki, Şərqin müsəlman dövlətləri də Qərbdəki reformistlər hərəkatının fəaliyyətini diqqətlə izləyir, burada dini islahatlar adı altında cərəyan edən proseslərə açıq dəstək göstərirdilər. Məsələn, katolik kilsəsi 1529-cu ildə Osmanlı ordusunun Vyananı mühasirəyə almasını xristian dini və Qərb mədəniyyəti üçün təhlükə kimi qiymətləndirsə də, Roma papasının nəzarətində olan Hollandiyadakı protestantlar onu Avropada dini vəziyyəti islahatçıların xeyrinə dəyişə biləcək tarixi fürsət kimi qəbul etmişlər. O da yaxşı məlumdur ki, Sultan Süleyman protestantların antikatolik üsyanlarına yardım göstərməyi, Osmanlı dövlətinin tərkibinə daxil olacaq Avropa ərazilərində isə lüteran və kalvinistlərə dini etiqad azadlığını vəd etmişdir. Bir çox məsələlərdə müsəlmanlar *(türklər)* və xristianlar *(protestantlar)* hətta dini etiqadlarında ortaq təmas nöqtələrini müəyyənləşdirməyə də nail olmuşlar. Misal üçün, hər iki tərəfin məbədlərdəki ikonalara və bütlərə *(heykəllərə)* münasibəti mənfi idi. Xatırladaq ki, XVI əsrdə Hollandiyada baş qaldırmış dini (reformist) üsyanlar zamanı ən populyar şüarlardan biri "Liever Turks dan Paps!", yəni "Türk papadan yaxşıdır!" olmuşdur.

Bu gün Avropanın ictimai rəyinə müsəlman mədəniyyətinin daşıyıcıları "radikal dinçilər" kimi təqdim edilirlər. Halbuki din və məzhəb ədavəti zəminində radikal hərəkatların da beşiyi məhz Avropa sayılır. XVI əsrdə Qərb dünyasında baş qaldıran dini müharibələr son nəticədə Avropanın məzhəb fərqi əsasında dövlətlərə parçalanması ilə nəticələnmişdir. 1566-cı ildə Hollandiyada radikal əhvali-ruhiyyəli protestantlar kilsələrə hücum edərək ikonaları, heykəl və xaçları yandırmış, dindarları xüsusi amansızlıqla qətlə yetirmişlər. Onların və sonrakı protestant dövlətlərin dini

dözümsüzlüyü ilə indiki İŞİD qruplaşmalarının əməlləri arasında isə heç bir fərq yoxdur. Hələ XV əsrdə din xadimi, lüteran kilsəsinin banisi və paralel olaraq qatı antisemit Martin Lüter yəhudilərin xristian dinini qəbul etməkdən imtinasına görə sinaqoqları yandırmağa, yəhudilərin mal və mülklərini, dini kitablarını məhv etməyə, özlərini isə öldürməyə çağırmışdır. Bu isə XX əsrdə alman faşistlərinin yəhudilərə qarşı əməllərindən seçilmirdi.[79]

1517-ci ilin oktyabr ayının 18-də Roma papası X Lev "Müqəddəs Pyotr kilsəsinin tikintisi və xristian dünyasının ruhən xilası" məqsədilə məlum fərmanını yaymışdır. Fərmana əsasən həmin nəcib məqsədlər üçün tətbiq olunan indulgensiya – günahların pul *(ianə)* müqabilində təmizlənməsi xristian dünyasında birmənalı qarşılanmamış, Martin Lüter 93 tezisdən ibarət etiraz məktubunu papaya göndərmişdir. İki il sonra M.Lüter Romaya – dini məhkəmə qarşısında cavab verməyə çağırılsa da, o, papanın qarşısına getməkdən imtina etmişdi. Nəticədə, papa X Lev xüsusi bulla – "Exsurge Domine" ilə onu kilsədən kənarlaşdırmışdır. Lüter isə



Martin Lüter Roma papasının bullasını yandırır. Ağac üzərində qravür, 1557-ci il

[79] Эгиль Аспрем. Ислам играет важную роль в религиозной истории Европы. 29.05.2016 - http://inosmi.ru/social/20160529/236690324.html

Vittenberq Universitetinin həyətində həmin sənədi yandırmış, papanı alman xalqının həyatına müdaxilə etməkdə ittiham etmişdir.

Tədqiqatçıların ümumi qənaətinə görə, XI əsrə kimi Qərb dünyası islam və xristianlıq arasındakı ortaq dəyərləri əsas götürərək onu müstəqil din kimi qəbul etməmiş, "xristianlığın radikal və küfrlü cərəyanı" adlandırmışdır.[80] Sonralar bu dinə, o cümlədən müsəlman mədəniyyətinə "ehkam qohumluğu" müstəvisindən deyil, Qərb və Şərq arasında mənafe ziddiyyətləri, Avropa dövlətlərinin hərbi-siyasi və iqtisadi maraqları müstəvisindən yanaşılmışdır. Sonralar bu münasibətlərə İsa Məsihin təcəllasında fikir ayrılığı və səlib yürüşlərinin "müqəddəs məqsədləri" də əlavə edilmiş və islam dini əsas etibarilə Qərbin hərbi-siyasi, iqtisadi, dini-mədəni müstəvisindən təhlil olunmuşdur. Mahiyyət etibarilə işğalçılıq və soyğunçuluq müharibələri olan səlib *(xaçlı)* yürüşlərinin təşəbbüskarı papa II Urban *(Ed de Şatilyon de Lajeri, 1042-1099)* xristian cəngavərləri "müqəddəs torpaqları", "Rəbbin məzarını" din düşmənlərindən – "Persiyanın türk tayfalarından", "İblisin nökərlərindən" təmizləməyə çağıranda onlara həm də qarət yolu ilə varlanmaq hüququnu vermişdir.[81] Hətta XIX-XX əsrlərdə Avropanın müstəmləkəçilik siyasətinin icrasında da din amili, "xristianlığın islam ilə mübarizəsi" bəhanəsi aparıcı ideoloji

[80] Ibn Kammuna, Examination of the Three Faiths, trans. Moshe Perlmann (Berkeley and Los Angeles, 1971; Warraq Ibn. Leaving Islam: Apostates Speak Out. — Prometheus Books, 2003.

[81] «Деяния франков и прочих иерусалимцев», Новосибирск, 2010; А.Журавский. Христианство и ислам социокультурные проблемы диалога. Москва «НАУКА» Главная редакция восточной литературы 1990

xətlərdən biri idi. Məsələn, 1830-cu ildə Paris arxiyepiskopu Fransanın Əlcəzairi işğal etməsini "xristianlığın islam üzərində tarixi qələbəsi" adlandırmışdır. O, "kafir müsəlmanlarla" müharibəyə getməyi "zəvvarlıq", Qüdsdə "Rəbbin məzarını" ziyarət etmək kimi dəyərləndirirdi.



Morisk (müsəlman ispan) ailəsi.
Xristofor Veylitsin illüstrasiyası, XVI əsr

Xatırladaq ki, hələ XX əsrin əvvəllərində İspaniyada Əndəlisin *(Andaluziyanın)* və Estramaduranın ayrı-ayrı guşələrində qocalar xristian əhali üçün qeyri-adi görünən "ayinləri" icra edirdilər. Müşahidə edənlər bildirirdilər ki, həmin qocalar gün ərzində bir neçə dəfə üzlərini, qulaqlarını, dirsəyəcən əllərini yuyur, sonra şərqə *(qibləyə)* tərəf diz çökür, alınlarını yerə vurur, başqalarının başa düşmədiyi dildə dua oxuyurdular. Onları Qrenadada, Kastiliyada, Portuqaliyada "kriptomüsəlmanlar", "morisklər" *("kiçik mavrlar")* adlandırırdılar. Araqon krallığında isə belələrinə "mavr", Valensiya və Kataloniyada isə "sarasin" deyirdilər. Yeri gəlmişkən, Şekspirin "venesiyalı mavr" adlandırdığı Otello da morisk idi. İspaniyanın, Portuqaliyanın xristian

kilsələri hətta XVIII əsrdə onları təqib edir, cəzalandırır, ən müxtəlif yollarla "barbar adətlərindən" imtina etdirməyə çalışırdı. Kim idi "morisklər"? İspaniyada ərəb-müsəlman hakimiyyətinə son qoyulduqdan sonra zorən xristianlığı qəbul edən müsəlman ispanları belə çağırırdılar. Kilsənin "kafir" elan etdiyi əhali arasında marranlar da vardı. "Donuzlar" anlamını verən bu həqarətli kəlmə edam qorxusu altında dinindən dönən xristian yəhudilərə *(iudaizm təlimi də donuz ətini yeməyi qadağan edir)* aid olunurdu.

Səlib yürüşü nəticəsində İspaniyanı tərk etmək məcburiyyətində qalmış ərəblərin 1492-ci ildə Kral Ferdinantın qarşısına qoyduqları əsas şərt buradakı müsəlman əhalinin dininə və ənənələrinə hörmətlə yanaşmaq olmuşdur. Kral söz versə də, sonralar vədinə əməl etməmiş, 1501-ci ildən etibarən müsəlmanların İsa Məsih dinini qəbul etməsi, əks təqdirdə isə ölkəni tərk etməsi barədə fərman vermişdir. Müsəlmanların bir çoxu kilsədə vəftiz olunmağa razılıq versə də, hələ XVIII əsrin sonlarına kimi gizli şəkildə namaz qılmış, oruc tutmuş, islamın haram bildiyi qidalardan çəkinmişdir. Onların yaşayışı inkvizisiyanın ciddi nəzarəti altında idi.[82] 1562-ci ildə Kral II Filipp xüsusi fərmanla ölkə ərazisində "əl-arabiyyə" dilində *(ərəb dilinin ispan dialekti)* danışmağı, Şərq tipli paltar geyinməyi, hətta xristianlığa zidd olan "kafir əməlini" – hər gün hamamda yuyunmağı qadağan etmişdir.

Bundan başqa, "yeni xristianların" – morisk və marranların "kafir dininə" gizli ibadət etmələrinin qarşısını al-

[82] Синицына Р. Кто такие мориски?. Http://espanamyhome.com/?p=5723

maq üçün onlar xüsusilə cümə və şənbə günlərində yaşadıqları evlərin qapısını hər zaman açıq saxlamalı idilər. Bu adət Əndəlisdə indiyədək qalmışdır. Morisklər mavi mahuddan ovuc içi böyüklüyündə aypara kəsib fərqləndirici nişan kimi papaqlarına tikməli idilər. Fridrix Nitsşe "Antixrist – xristianlığın lənəti"ndə Avropanın həmin dövrünü, İspaniyanın "xristian köklərə" və "İsa Məsih ənənələrinə" qayıdışı "nailiyyətlərini" belə dəyərləndirmişdir: **"Xristian dinində səmimilik də çatışmır. Qaranlıq yerlər, künc-bucaqlar onun ruhuna uyğundur. Burada insan bədəninə də nifrət edilir, gigiyena rədd olunur. Kilsə hətta təmizkarlıqdan da iyrənir. Mavrların qovulmasından sonra xristianların həyata keçirdiyi ilk tədbir ictimai hamamların bağlanması olmuşdur. Halbuki təkcə Kordovada onların sayı 270-ə çatırdı. Xristianlıq mahiyyət etibarilə özünə və başqalarına münasibətdə qəddarlıq, fərqli düşüncəyə nifrət, təqiblərə meyil deməkdir"**.[83]

1.  **2.** 

1. İspaniya müsəlmanlarının zorən kütləvi vəftiz olunması. Qranada kafedral kilsəsində barelyef.* 2. *"Morisklərin sürgün olunması", Qabriel Puiq Rodanın rəsmi

[83] Ницше Ф. Антихрист. Проклятие христианству. Москва, 1988

1609-cu ildə isə Kral III Filipp inanclarını gizli şəkildə qoruyan morisklərin ərəblər və türklərlə ittifaq bağlaya bilməsindən ehtiyatlanaraq onları İspaniyadan sürgün etməyi qərara almışdır. Qısa vaxt ərzində təqribən 300 min insan mal və mülklərini vətənlərində qoyaraq İspaniyanı tərk etməyə, Afrikanın şimalına, Osmanlı dövlətinə, hətta Amerikaya köç etməyə məcbur olmuşlar. Gizli yolla geri qayıdanlar isə sərt şəkildə cəzalandırılır, gümüş mədənlərində ömürlük işləməyə məhkum edilirdilər. İspan müsəlmanlarının vətən nisgili Migel de Servantesin "Don Kixot" əsərində də əks olunmuşdur. İspaniyaya gizli yolla qayıtmış morisk Rikote üzünü Sanço Pansaya tutaraq kədərlə deyirdi: **"Tale bizi haraya atsa da, İspaniya üçün ağlayırıq. Biz axı burada doğulmuşuq, axı bura bizim həqiqi vətənimizdir"**.

Əsrlər boyu xristian dünyasında islam dini haqqında yayılmış saxta təsəvvürlərin təsiri altında olan sıravi avropalılarla yanaşı, onun Hobbs, Volter, Monteskyö, Kant, Göte kimi böyük düşüncə sahibləri üçün də müsəlman Şərqini, onun mənəvi aləmini, mədəni zənginliyini anlamaq asan olmamışdır. Onların bəziləri üçün Şərq sirli və qaranlıq dünya, bəziləri üçün "Min bir gecə" nağıllarının, hərəmxana gözəllərinin, məhəbbət rübailərinin romantik diyarı, digərləri üçün isə taxtında qaniçən tiranların əyləşdiyi məmləkət, cihad fətvasını gözləyən fanatiklərin və həşşaşilərin vətəni idi. İslam haqqında "elmi təsəvvürlər", əsasən, xristian ruhanilərin əlyazmaları, səfər qeydləri, şayiələr əsasında yaranırdı.

Məsələn, son araşdırmalara, xüsusilə Britaniya Milli Kitabxanasının Çin şöbəsinin direktoru Frensis Vudun,

Neapol Universitetinin professoru Daniele Petrellanın qənaətinə görə, XIII əsrdə yaşamış venesiyalı səyyah Marko Polo heç zaman Mərkəzi Asiyaya, Uzaq Şərqə səfər etməmiş, Krımda ticarətlə məşğul olmuşdur. Şərq dünyası haqqında yanlışlıqlarla dolu olan "Dünyanın müxtəlifliyi haqqında" kitabı isə xristian və müsəlman tacir həmkarlarından eşitdikləri şayiələr əsasında qələmə almışdır. İraq və Hindistan arasındakı ərazilərdə insanların islam dinini sürətlə qəbul etməsi barədə IX fəsildə yazır ki, **"Burada həmişə quldurluqla, oğurluqla məşğul olan insanlar ona görə müsəlman oldular ki, islam dini onlara qeyri-müsəlmanların karvanlarına basqın etməyə icazə verir"**. Kitabın VIII fəslində isə guya xristianların Bağdadda yerləşən Kəbədən (?) Həcər daşını oğurlayıb tikdikləri kilsənin bünövrəsinə qoymalarından bəhs edir. Marko Polonun "səyahətnaməsində" sarasinlərin xristianlara nifrət etməsi, onlara pislik etmək üçün məqam axtarması haqqında da absurd fikirlərə də rast gəlinir. Ondan təqribən beş yüz il sonra ingilis şairi Çarlz Monteqyu Dauti ikicildlik "Ərəbistan səhrasına səyahət" *("Travels in Arabia Deserta")* kitabında qeyd edirdi ki, müsəlmanlar Kəbə ətrafında təvaf edərkən Allahdan xristian və yəhudiləri lənətləməyi və məhv etməyi diləyirdilər.

Bu gün özünü "multikulturalizm" və "tolerantlıq" carçısı elan etmiş Avropa Şərqi dini dözümsüzlükdə ittiham edəndə morisklərlə yanaşı, marranların da acı taleyini, onların İspaniyada və Portuqaliyada məhz dini zəmində başlarına gətirilənləri də unutmamalıdır. Onlar da XIV əsrin sonu – XV əsrin əvvəllərində edam və sürgün qorxusu altında xristianlığı "könüllü" qəbul etmişlər. Belə ki, 1492-ci

ildə İspaniya kralı II Ferdinandın və kraliça İzabellanın birgə qərarı ilə yəhudilərə üç ay müddətində ya xristianlığa tapınmaq, ya da ölkəni birdəfəlik tərk etmək əmr olunmuşdur. Yəhudilərin bir hissəsi Portuqaliyaya köçsə də, həmin vəziyyət burada da təkrar edilmişdir. Lakin onların arasında xristianlığı qəbul edib İspaniyada qalanların da sayı çox idi.

Zəngin yəhudilər xristianlığı qəbul etmələrinə baxmayaraq, öz dini etiqadlarını və etnik kimliklərini gizli şəkildə də olsa qorumaq üçün yalnız öz qapalı icmaları daxilində ailə qurur, bir-birinə yardım göstərmək üçün iqtisadi-maliyyə birlikləri yaradırdılar. Onlar özlərinə "anusim" *(ivr. məcbur edilmiş)* deyirdilər. Bundan başqa, onların hər birinin iki adı vardı. Cəmiyyət içərisində olarkən vəftiz zamanı götürdükləri xristian adları ilə çağırılır, evdə və gizli icmalarında isə yəhudi adlarını daşıyırdılar. Xristianlar içərisində, xüsusilə katolik kilsəsində ibadət vaxtı ispanca, evdə və yaxınlarının arasında isə ibranicə danışırdılar. Bəziləri isə evlərində, xüsusilə zirzəmilərdə gizli ibadətgahlar qururdular.[84] Katolik qanunları iudaistlərin rəsmi qurumlarda çalışmasını qadağan etdiyi üçün gizli yəhudilər özlərini mömin xristianlar kimi təqdim etməyə məcbur idilər. Orta əsrlərdə nəinki sarayda, hətta inkvizitorlar arasında da belə yəhudilər vardı.[85] Qeyd edək ki, həmin dövrlərdə İspaniya kralı II Ferdinandın ən etibarlı adamlarından biri, kral xəzinəsinin baş müfəttişi Migel Lüis

[84] Michael Alpert, Crypto-judaism and the Spanish İnquisition Basingstoke, Hampshire; New York. Palgrave, 2001. p.246

[85] Meriç S. Büyük yahudi göçünün gerçek hikayesi. http://odatv.com/endulus-muslumanlari-ve-yahudi-surgunun-gercek-yuzu-0205101200.html

de Santagnel də belələrindən idi. Onun atası vaxtilə yəhudi dini icmasının rəhbəri – haham olmuşdur.[86]



1. İspan kralının müşavirləri yəhudilərin ölkədən qovulmasını xahiş edirlər; 2. Yəhudilərin İspaniyadan sürgün olunması. XIV əsr kitab miniatürü

Lakin İsa Məsihin "qonşunu özün qədər sev" kəlamına məhəl qoymayan Avropa hələ o dövrdə dini fanatizm keyfiyyətlərinə malik olduğunu, bir sözlə, "Holokostun prototiplərini" nümayiş etdirə bilmişdir. 1391-ci ildən etibarən morisk və marranlara qarşı onların sıx yaşadıqları Sevilyada, Kordovada, Toledoda, Valensiyada, Barselonada, Palma-de-Malorkada, Jironada, Loqronyoda və s. yerlərdə kütləvi qırğınlar həyata keçirilmişdir. Qırğınlara əsas səbəb isə onların başqa dinə etiqad etmələri ilə yanaşı, yerli xristian əhali ilə müqayisədə daha yaxşı yaşamaları idi. Nəticədə, minlərlə yəhudi xüsusi amansızlıqla qətlə yetirilmiş, inkvizisiyanın ağlasığmaz işgəncələrinə məruz qalmış, qul edilərək ərəblərə satılmışdır. Onların bir çoxu həyatlarını qorumaq üçün məhz

[86] Real Academia de la Historia Boletin XV. Historia social, politica y religiosa de los Judíos de Espaňa y Portugal, Tomo III. Madrid.1875

islam dünyasına – Osmanlı dövlətinə sığınmışdır. Nəticədə, XVII əsrin sonlarında təkcə Sevilyada cəmi 7 min morisk qalmışdır. Tarixi mənbələrə görə, təkcə XV əsr ərzində İspaniyadan yüz min nəfərdən çox yəhudi qaçmışdır.

Müxtəlif dövrlərdə Portuqaliyaya sığınmış təqribən 120 min yəhudi və müsəlman da az sonra Avropanın, katolik kilsəsinin antisemitizmi ilə üzləşmişdir. Kral I Manuelin müsəlman və yəhudilərə loyal münasibətinə baxmayaraq, güclü İspaniyanın və katolik kilsəsinin təşviqi ilə 1497-ci ildə onların zorən xristianlaşdırılması barədə fərman verməli olmuşdur. Belələrini isə Portuqaliyada həqarətlə "jenti di nasason" *(məlum xalqın adamları)* adlandırırdılar. 1504-cü və 1506-cı illərdə Lissabon qətliamları zamanı da xeyli sayda "kriptoyəhudi" və "kriptomüsəlman" öldürülmüş, qul edilmiş, ölkədən qovulmuşdur.



Lissabon qətliamı. 1755-ci ilin qravürü

Bir qayda olaraq, hər bir xalqın içərisində etnik-dini stereotiplərin təsiri ilə yaşayan kütlə vardır. Bu toplumun nümayəndəsi qonşu xalqdan, onun inancından, mədəniyyətindən söz düşəndə gördüklərini, öyrəndiklərini deyil, eşitdiyi bütün "faktoloji materialları" ümumiləşdirərək təsəvvüründə yaratdığı ortaq obraza öz subyektiv əlavələrini edir. Sonda isə müdrikcəsinə alnını qaşıyaraq "onların hamısı bu gündədir" deyərək "qəti qərarını" yayaraq onu icti-

mailəşdirməyə çalışır. Məşhur amerikalı yazıçı, böyük yumor ustası Mark Tven "Yerdən məktublar" kitabında xristian Qərbinin yəhudilərə olan qərəzli münasibəti timsalında kütlənin beyinlərdə dərin kök salmış bu tipli subyektiv rəylərini belə dəyərləndirmişdir: **"Bütün xalqların gözü birbirini götürmür. Amma elə ki bir yerə yığışdılar, hamılıqla yəhudilərə nifrət etməyə başlayırlar"**. Mark Tven 1898-ci ildə qələmə aldığı "Yəhudilərə dair" məqaləsində bunun nə dini, nə də etnik səbəblərdən qaynaqlandığını, Avropada yəhudilərə olan qısqanclıqdan yarandığını göstərir: **"Xristian Avropası bütün yüzilliklər boyu yəhudilərin fəaliyyətini məhdudlaşdırmağa məcbur idi. Çünki əgər yəhudi mexanika və ya maşınqayırma sahəsində çalışmağa başlayırdısa, xristianlar bu işi atmalı olurdular. Əgər yəhudi təbabətlə məşğul olurdusa, ən yaxşı həkim kimi tanınır və zəngin təcrübə qazanırdı. Əgər kənd təsərrüfatından yapışırdısa, digər fermerlər özlərinə başqa peşə axtarmalı olurdular. Bütün sahələrdə yəhudilərlə rəqabətə girmək mümkün deyildir. Ona görə də xristianları qul vəziyyətindən çıxarmaq üçün qanunları köməyə çağırırdılar"**.

Beləliklə, Avropanın sivilizasiyalararası və dinlərarası dialoq təşəbbüsü ilk vaxtlar nə qədər cəlbedici görünsə də, məhz bu ideyanın daxilində gizlənən geosiyasi və geoiqtisadi maraqlar, həmin mənafelərin ödənilməsində din amilindən yararlanmaq səyləri onu "doğulduğu andan günahkar" etmiş, iflasa uğratmışdır. Qərbin həmin təşəbbüs altında öz korporativ şərtlərini, iddialarını təkidlə irəli sürməsi son nəticədə "dialoqu" monoloqa, bir aktyorun teatrına çevirmişdir. Halbuki ilkin məqsəd heç də dinlərin, məzhəblərin

deyil, məhz həmin ideologiyaların daşıyıcıları olan insanlar, xalqlar, icmalar arasında dialoqun qurulması, ortaq maraq və təmas nöqtələrinin müəyyən edilməsi olmalı idi.

Quran müsəlmanların müqəddəs kitabı olsa da, Tövrat və İncil kəlamlarının da Allah tərəfindən nazil edildiyinə inanır, xristian və yəhudiləri "əhli-kitab" adlandırırlar. Quranda deyilir: *"(Ey möminlər)* **Belə deyin: "Biz Allaha, bizə nazil olana** *(Qurana),* **İbrahimə, İsmayıla, İshaqa, Yəquba və onun övladına** *(əl-əsbat)* **göndərilənlərə, Musaya və İsaya verilənlərə, Rəbbi tərəfindən peyğəmbərlərə verilənlərə inanmışıq. Onlardan heç birini digərindən ayırmırıq. Biz ancaq Allaha boyun əyən müsəlmanlarıq!"** *(2:136).* Həm müsəlmanların, həm yəhudilərin, həm də xristianların nəzərində Adəm peyğəmbər dinindən, dilindən, irqindən asılı olmayaraq bütün insanların ulu əcdadıdır. Bununla belə, yəhudilərin peyğəmbərlər sırasını Moşe *(Moisey, Mozes, Musa)*, xristianların İsus *(Yeşua, İsa)* ilə məhdudlaşdırmalarına baxmayaraq, müsəlmanlar onları da peyğəmbər kimi qəbul edir, bununla belə, Hz. Məhəmmədin Allahın insanlara göndərdiyi sonuncu rəsul olmasına inanırlar. Faktiki olaraq Tövrat və İncildə yer almış peyğəmbərlərin bir çoxunun adı Quranda da vardır.

İslam ehkamlarına görə, Allahın buyurduqlarına əməl edən yəhudilərə və xristianlara, onların inancına hörmətlə yanaşılmalı, canları, mülkləri qorunmalıdır. Quranda müsəlmanlara belə buyurulur: **"O kəslər ki sənə göndərilənə** *(Qurana)* **və səndən əvvəl göndərilənlərə** *(Tövrat, İncil, Zəbur və s.)* **iman gətirir və axirətə də şəksiz inanırlar, məhz onlar öz Rəbbi tərəfindən** *(göstərilmiş)* **doğru yoldadırlar. Nicat tapanlar** *(axirət əzabından qurtarıb*

cənnətə qovuşanlar) **da onlardır"** *(Bəqərə surəsi, 4-5-ci ayələr).* Lakin tərəflər arasında dini məsələlərdə hər hansı bir mübahisə yaranarsa və qarşı tərəf bütün arqumentləri məqbul saymazsa, müsəlmanlara bu ayədəkilərə riayət etmək tövsiyə olunur: *"(Ya Rəsulum! Kitab əhlinə de)* **"Siz Allah barəsində bizimlə mübahisəmi edirsiniz? Halbuki O həm bizim, həm də sizin Rəbbinizdir. Bizim əməllərimiz bizə, sizin əməlləriniz isə sizə aiddir. Ona sadiq olan bizik!"** *(Bəqərə surəsi, 139-cu ayə).*

Lakin minillik polemika indiyədək davam etməkdədir. Xristianlar üçün İsa Məsih "Rəbbin təcəllası", "xilaskardır". Yəhudilik məlum səbəblərdən Hz. İsanı "meşiah" *(məsih, xilaskar)* kimi qəbul etmir, hətta ravvinlər dini qadağalara əsasən sinaqoqlardakı moizələrdə zərurət yaranarsa, "Yeşua" *(İsa)* adını "O adam" və ya "Yeşua ha-Nosri" *(Nazaretli Yeşua)* sözləri ilə əvəz edirlər. İlkin orta əslərə aid Talmud şərhlərində "İsrail övladlarını yoldan çıxaran şəxs kimi təqdim olunur və həqarətlə "Yeşua ben Panter" adlandırırlar. Məryəmin isə üzərindən sükutla keçirlər. İddiaya görə, İsa "Rəbbin oğlu" deyil, "Panter" adlı Roma legionerinin qeyri-qanuni doğulmuş övladıdır.

Quranda və hədislərdə "məsih" dedikdə "nəbi" olan İsa Ruhullah nəzərdə tutulur. Bu kəlmə müsəlmanların müqəddəs kitabında İsanın "Allahın təcəllası" deyil, bəşər əhlinə peyğəmbər kimi göndərilmiş insan övladı "İsa ibn Məryəm" *(Məryəm oğlu İsa)* olmasını təsdiqləmək üçün də işlədilir. İslam dini Quranın İxlas surəsinə istinadən Hz. İsanın Allahın övladı olması iddiasını qəbul etmir: **"O nə doğmuş, nə də doğulmuşdur!"** *(112:3).* İslam onu "Ruhullah" – "Rəbbin pak nurundan yaranan insan", İsa ibn Məryəm

və ya “İsa Ruhullah” kimi təqdim edir. Eləcə də xristianlığın üç üqnum – “Ata, Oğul və Müqəddəs Ruh” prinsipi də inkar edilir. Bununla belə, ona böyük ehtiramla yanaşılır, “nəbi” *(peyğəmbər)* adlandırılır, onu insanların günahlarını yumaq məqsədilə dünyaya gəldiyi inkar edilir və yeni kitabı – İncili gətirməklə yəhudiləri Tövratda buyurulanlara qaytarmaq üçün göndərildiyi bildirilir. Üstəlik, islam təliminə əsasən Allahın yaratdığı insan olan İsa çarmıxa çəkilməmiş, Rəbb onu işgəncə və əzablardan qurtarmış, yerinə isə münafiqlərdən biri edam edilmişdir. İslam yəhudilikdən fərqli olaraq İsanın anasına – Hz. Məryəmə də sonsuz ehtiramla yanaşır. Təsadüfi deyildir ki, “Məryəm” sözü Quranda yer almış yeganə qadın adı kimi 34 dəfə çəkilir. Hər üç dində olan digər qadın adlarına, məsələn, “Həvva”, “Sara” və “Hacər” adlarına isə Quranda deyil, hədis və təfsir əsərlərində rast gəlinir.



Avropanın islama münasibəti. Əlində Quran tutmuş müsəlman mələklərin ayaqları altında. Belçikanın Dendermond şəhərindəki Müqəddəs Məryəm kilsəsində qoyulmuş heykəl, XVII əsr

Qərb “dinlərarası dialoqa”, “tolerantlığa”, “multikulturalizmə” dair populist bəyanatlarına baxmayaraq, özü və Şərq arasında “bərabərlik” işarəsini qoymağa tələsmir. Səbəbi isə onun nəzərindəki “dialoq” anlayışının yozumunda, təbliğat və ha-

mılıqla qəbul edilə bilən dərketmə konsepsiyalarının işlənməməsində, tətbiqi cəhdlər zamanı siyasi və sosial-mədəni şəraitin nəzərə alınmamasında, xüsusilə bu ideyanın "bərabərlik" və qarşılıqlı faydalılıq kimi aparıcı prinsiplərinin siyasiləşdirilməsində gizlənir. Odur ki Qərb xristian dünyası və müsəlman Şərqi arasında salınmış "Çin səddi" isə zənn edildiyi kimi müasir dövrün dini-siyasi "arxitektura abidəsi" deyildir. Bu gün həmin "səddin" və yaranmış Qərb-Şərq ziddiyyətlərində detonator rolunu oynayan "üçüncü millenium", "siyasiləşmiş xristianlıq" kimi konfessional-siyasi təşəbbüslərin, Avropanı çənginə almış ksenofobiya əhvali-ruhiyyəsinin həqiqi "memarları" içərisində fövqəlgüclərin geosiyasi və geoiqtisadi maraqları, transmilli şirkətlərin mənafeləri olsalar da, bu ssenarinin tarixi kökləri antik dövrlərədək uzanır. Hələ Homerin yaşadığı dönəmlərdə böyük dövlətlərin hərbi-siyasi qarşıdurmalar məkanı iki antaqonist hissəyə – Frakiya mənşəli "Ereb" *(Qərb)* və "Asu" *(Şərq)* adlandırılan və bir-biri ilə kəskin siyasi-mədəni qarşıdurmada olan ərazilərə bölünmüşdür.[87]

"Müsəlman mədəniyyəti" nədir? Mühafizəkar xristian və müsəlman kulturoloqların nəzərində müsəlman xalqların daşıyıcısı olduğu bu mədəniyyət ilkin orta əsrlərdə ortodoksal "ərəb islamının" ənənələri üzərində formalaşmış unikal fenomendir. Bu zaman həm islam dininin, həm də müsəlman mədəniyyətinin gerçək sinkretik mahiyyəti, bu fenomenin təşəkkülündə rol oynamış qədim Yaxın və Orta Şərqin *(Misir, Babil, Şumer, Assuriya*), Qərbin *(ellinizm)*

[87] Т.Григорьева. Еще раз о Востоке и Западе // Иностранная литература. 1976. № 7; В.Бартольд. История изучения Востока в Европе и России. Л., 1925

ənənələrinin, bu dinin yayıldığı ərazidə yaşayan müxtəlif etnik mədəniyyətlərin və islamaqədərki inancların təsiri arxa plana çəkilir. Bu baxımdan "müsəlman mədəniyyəti" əlahiddə kulturoloji hadisə deyil, ümumbəşəri dəyər, dünya sivilizasiyasının ayrılmaz hissəsidir. O, mahiyyət etibarilə heç də "ərəb-islam mədəniyyəti" də deyildir. Bu mədəniyyətin yaranmasında, inkişafında və yayılmasında orta əsr polietnik müsəlman cəmiyyəti ilə yanaşı, islam dininin əhatə etdiyi regionların, ölkələrin qeyri-müsəlman əhalisi – xristianlar, buddistlər, induistlər, yəhudilər və b. da fəal iştirak etmişlər.



İsveçin Qotland adasındakı kilsənin divar təsvirlərində Məhəmməd peyğəmbər Avropanın rəqibi – Osmanlı sultanı kimi təsvir edilmişdir (XVII əsr).

Belə olan təqdirdə "xristian mədəniyyəti" adlandırılan anlayış da özəl, yekcins və yalnız İsa Məsih təlimi ilə bağlanan sistem deyildir. Bu mədəniyyət üç sinkretik sütun üzərində qurulmuşdur. Onlardan biri xristianlığın təməl prinsipləri olsa da, digər ikisi xristian dinini qəbul etmiş xalqların etnik mədəniyyətləri və müsəlman mədəniyyətinin elementləridir. Bu gün həm Qərb, həm də Şərq dünyasında aydın şəkildə dərk edilir ki, Avropa mədəniyyətinin formalaşması və inkişafı islam sivilizasiyasının, bu fenomenin daşıyıcısı olan müsəlman xalqlarının adı və müstəsna xidmətləri ilə bağlıdır. Avropanın yüksəlişini təmin etmiş İntibah və Maarifçilik dövrlərinin

təkamülü üçün zəngin Şərq mədəniyyəti, onun elmi təfəkkürü, mənəvi-əxlaqi dəyərləri tükənməz mənbə rolunu oynamış, məhz islam dünyasının mənəvi-mədəni və elmi xəzinəsi əsrlər boyu Qərb intellektinin əsas və güclü opponenti olmuşdur. Bu fakt hazırda Avropanın bəzi dini-siyasi dairələrində qıcıq oyatsa da, gerçəklikləri etiraf etmək bacarığının özü də böyük mədəniyyətdir.

Qərbin İ.Kant, Y.Göte, F.Nitsşe, N.Daniel, R.Saufern, R.Genon, H.Hesse, V.Montqomeri kimi mütəfəkkirləri də etiraf etmişlər ki, Qərb-xristian sivilizasiyasının təşəkkülündə və inkişafında müsəlman mədəniyyətinin xidmətləri hələ də düzgün və layiq olduğu səviyyədə dəyərləndirilməmişdir. Vaxtilə zəngin intellektual potensiala, fikir azadlığına malik olan islam dünyası, polietnik müsəlman mədəniyyəti yüz illər boyu Avropanın qabaqcıl ideyalarının mənbəyi, onu təkamülə doğru aparan avanqard qüvvə rolunu oynamışdır. Şərqin bilavasitə təsiri nəticəsində bu sinkretik Qərb mədəniyyəti orta əsr İntibah dövründən etibarən davamlı şəkildə inkişaf etmiş, formalaşmış və nəhayət, "xristian sivilizasiyası" kimi özünün pik nöqtəsinə çatmışdır. Əgər islam və xristianlıq arasında münasibətlər tarixinə, bu əlaqələr arasında qarşılıqlı mədəniyyət mübadiləsinin həcminə diqqətlə və obyektiv nəzər salsaq, Şərqin Qərb dünyasına ötürdüyü intellektual payın, əslində, təsəvvür edildiyindən və bu gün unudulandan daha çox olduğuna əminlik yaranacaqdır. **İslam yalnız özünün zəngin maddi-mədəni və qeyri maddi-mədəni irsini, texniki nailiyyətlərini Qərb ilə bölüşməklə, onun elm və fəlsəfəsinin, təhsil sisteminin inkişafına təkan verməklə kifayətlənməmişdir.**

Orta əsrlərin sonlarından etibarən Avropanın bəzi elmi-siyasi dairələrinin "maarifçiləri" Kant, Göte, Genon kimi mütəfəkkirlərin müsəlman Şərqinə verdikləri yüksək dəyəri azaltmaq, bu mədəniyyətin Qərb yarımkürəsinə təsirini gizlətmək üçün məhz islam dinini hədəf seçmiş, onun mahiyyətini və rolunu ciddi şəkildə təhrif etməyə və azaltmağa çalışmışlar. Təsadüfi deyildir ki, fransalı şərqşünas, tarixçi və filosof Ernest Renan 1883-cü ildə Fransa Elm Assosiasiyasının Sorbon Universitetində keçirilmiş toplantısında "islam" və "elm" anlayışlarının bir-biri ilə kəskin ziddiyyətdə olduğunu, "Məhəmməd təlimi"nin azadlıq, elm və iqtisadiyyat üçün ciddi maneələr yaratdığını bildirmişdir. E.Renanın fikrincə, müsəlman dünyasının Avropa xristian mədəniyyətinə heç bir təsiri olmamışdır. Çünki **"Təqribən 1275-ci ildən sonra dünyada iki əks prosesin başlanğıcı qoyulmuş, müsəlman ölkələrində intellektual tənəzzül meylinin yaranması müşahidə olunmuşdur. Qərb, əksinə, miqyası hələ də ölçüyə gəlməyən nəhəng qövs kimi müstəqil və qətiyyətlə həqiqətin elmi şəkildə öyrənilməsinə başlamışdır"**.[88] Bu "tənəzzülün" əsas səbəbini isə "tərəqqi üçün ciddi maneə olan" islam dinində axtarırdılar. Belə ki, E.Renan tarixin bu "səhvini" düzəlmək üçün gələcək Avropaya yeni "xilaskarlıq missiyasını" tövsiyə etmişdir: **"Müsəlmanlar islamın ilk qurbanlarıdır. Onları öz dinlərindən xilas etmək müsəlmanlara göstərilə biləcək ən böyük xidmətdir"**.

[88] Баязитов А. Возражение на речь Эрнеста Ренана, сказанную в Научной французской ассоциации. – С.-Петербург, 1883

Halbuki islam sivilizasiyası Avropanın dünyaya gözünü açmış, onun özü haqqında təsəvvürlərini, həyat tərzini dəyişmiş və son nəticədə, müasir Qərb mədəniyyətinin, Avropa təfəkküründün təməlini qoymuşdur. XIX əsrdə yaşamış fransız filosofu Rene Genon bu barədə yazırdı: "Orta əsrlər Avropasına islamın təsiri o dərəcədə əhəmiyyətli olmuşdur ki, hətta Şərqin ən qatı düşmənləri belə bunu etiraf etmək gücünə malik deyillər". Lakin bu gün isə müsəlman Şərqi tamamilə əks proseslə, "şanslı" tələbənin qoca və "tükənmiş" müəlliminə nankor, qərəzli münasibəti və "bumeranq effekti" – vaxtilə Avropaya ötürdüklərinin "Qərbin dəyərləri" kimi hissə-hissə, özü də təhrif edilmiş şəkildə geri qaytarılması ilə üzləşmişdir.

Bəşər sivilizasiyasının formalaşmasında islam dünyasının xidmətləri nəinki unudulmuş, üstəlik, bu inkişaf üçün müstəsna zəmin rolunu oynamış mədəniyyət mübadiləsini siyasi və dini ziddiyyətlər, geosiyasi maraqlar müstəvisinə gətirməyə çalışırlar. Təsadüfi deyildir ki, politoloq Samuel Hantinqton da "Sivilizasiyaların toqquşması" adlı tədqiqatında islam dininin hazırkı mərhələdə geosiyasi qüvvə kimi intibahını, müsəlman mədəniyyətinin Qərbə nüfuz olunmasını və uyğunlaşması səylərini etiraf etmişdir. Onun qənaətinə görə, islam mədəniyyətinin indiki intibahı "radikalizm", "aqressiya", "ekstremizm", "terror" kimi siyasi stereotiplər kontekstindən öyrənilməməli, onun Qərbə meyli isə müsəlman mühiti içərisində intellektual, mədəni, sosial və siyasi proseslərin geniş miqyas alması ilə əlaqələndirilməlidir.

Qərb və Şərqin qarşıdurması nə coğrafi, nə də konfessional səbəblər üzərindən yaranıb. Həm orta əsrlərdə, həm də indi hər iki coğrafi cəhətə məxsus mədəniyyətlər və

aparıcı dinlər arasında olan ziddiyyətlər öz başlanğıcını mənafe mübarizəsindən götürür. Lakin Qərbin nəzərində bu ziddiyyətlərə kəskin rəng qatan digər səbəb isə islam dininin xristianlıqla müqayisədə güclü və çevik sosial ideologiya olmasıdır. Bu üstünlük, daha dəqiq desək, islamın öz səfərbəredici potensialı ilə hakimiyyətə və müsəlman əhalinin bütün təbəqələrinə təsir göstərmək qabiliyyəti də Avropada bu din haqqında qərəzli və yanlış təsəvvürlərin formalaşması və yayılması ilə nəticələnmişdir.

Məsələn, orta əsrlərdə Avropanın bir sıra xristian müəllifləri açıq şəkildə islam dinini "iblisin təlimi", islam peyğəmbərini isə "antixrist" *(Dəccal)* kimi təqdim edirdilər. İspaniyada – Əndəlisdə anonim müəllifin qələmə aldığı kilsə salnaməsində *(Tultusceptru de libro domni Metobi)* guya iblis Ozim *(Əzim)* adlı bir ərəbi aldadaraq insanları Rəbbin yolundan azdırmaq üçün xristianlığı təhrif etməyə məcbur etmişdir. Həmin şəxs isə guya sonralar bu təlimi inkişaf etdirmiş və "Məhəmməd" adını götürmüşdür. Digər salnaməçi – benedikt ordeni rahibi Bedanın *(Beda Venerabilis)* yazdıqlarına əsasən guya Əhdi-ətiqin "Yaranış" kitabında İbrahim oğlu İsmayıl "gələcəkdə əlləri ilə bütün insanlara müsibət gətirən vəhşi adamların əcdadı" kimi təsvir edilmişdir.

Daha sonra Beda İsmayılın soyundan gələnləri – bütün müsəlmanların Qərb üçün təhlükə olduğunu iddia edərək yazır: **"İndi onun insanlara qan udduran əli böyümüş və özünə qarşı çevrilmişdir. Onlar öz hakimiyyətlərini bütün Afrikaya yaymış, Asiyanın böyük hissəsini, Avropanın bir hissəsini ələ keçirmiş, hamıya nifrət**

edərək onları özlərinə qarşı qaldırmışlar.[89] Bizanslı ilahiyyatçı Qriqori Palama *(1296-1359)* isə müsəlmanların təsvirini aşağıdakı kimi verir: "**İsanı dərk və həmd etmədikləri üçün Rəbb onların ağıllarını şəhvət və şərəfsizliyin əsirinə çevirmişdir… Onlar yay-ox və qılıncla pozğunluq içində yaşayır, insanları öldürməkdən, əsir etməkdən, oğurlamaqdan və qarətdən həzz alırlar. Onlar bu əməlləri törətməklə elə zənn edirlər ki, guya Rəbb bu hərəkətləri bəyənir"**. Fransız riyaziyyatçısı, fiziki və filosofu Blez Paskal (*1623-1662*) isə islam dini və müsəlman mədəniyyəti haqqında məlumatsızlığını belə büruzə vermişdir: **"Məhəmmədin etdiyini hər kəs edə bilər. Onun gələcəyi qabaqcadan bəyan olunmamışdır. O, kitab oxumağı qadağan etmişdir. Möcüzələri də yox idi"**.



"İbrahim Həcər və İsmayılı evindən qovur". Y.Karosfeldin qravürü (1850-1860)

Qeyd etmək lazımdır ki, islam dini təşəkkül tapmasından az sonra böyük sürətlə təkcə regionda deyil, bütövlükdə orta əsr dünyasında baş verən proseslərə, buradakı siyasi-mədəni mühitə sürətlə ciddi təsir göstərməyə başlamışdır. Təqribən min beş yüz illik dövr ərzində müsəlman aləminə daxil olan xalqlar həm islam sivilizasiyasının, həm

[89] Tolan, Saracens; Islam in the Medieval European Imagination, 2002

də etnik mədəniyyətlərin daşıyıcıları olmuşlar. Bu prosesin unikal xüsusiyyətlərindən biri Mərakeşdən Çinə, Rusiyadan İndoneziyaya, Yaxın Şərqdən Şərqi Avropaya qədər uzanan ərazilərə bu dinin "ərəb islamı" kimi daxil olması, lakin bir müddətdən sonra yerli xalqların etnik mədəniyyətlərinə, adət və ənənələrinə, hətta əvvəlki ənənəvi inanclarının elementlərinə uyğunlaşaraq özəl "xalq islamı" modellərini uğurla formalaşdırmasıdır. Bu modellər bu gün də yaşamaqda, din pərdəsi altında gizlənən dini-siyasi hərəkatlara, radikal dini qruplaşmalara qarşı əsas müqavimət səddi olaraq qalmaqdadır. Bununla belə, Əfqanıstanda, Liviyada, İraqda, Suriyada bu müqavimətin sürətlə zəifləməsi, xalq islamının "radikal islam"la əvəz edilməsi prosesi nəticəsində bu ərazilərdə dini zəmində qarşıdurmalar, xeyli sayda insanın ölümünə səbəb olan davamlı münaqişələr baş qaldırmış, həmin dövlətlər zəifləmiş və Qərbin fövqəlgüclərinin təsiri altına düşmüşdür.

Orta əsrlərdə Avropanı çənginə almış iqtisadi və mədəni böhranı kilsə heyrətamiz şəkildə cəhalət, ksenofobiya, dini fanatizm ilə örtməyə, bütün günahları və fəlakətləri müsəlmanların və islam dininin ayağına yazmağa nail ola bilmişdir. Bu özünü həmin dövrün ədəbiyyatında və dini-fəlsəfi düşüncəsində də büruzə vermişdir. Misal üçün, Dante Aligyeri və onun bir sıra müasirləri də kilsənin antiislam ideologiyasının təsiri altında yazıb-yaratmışlar. Halbuki bir sıra avropalı alimlərin, o cümlədən tanınmış ispan şərqşünası Migel Asin Palasiosun araşdırmalarına görə, "İlahi komediya" əsəri Dantenin təxəyyülünün bəhrəsi deyildir. Əsərin süjet xətti müsəlmanların rəvayətlərindən, islam peyğəmbə-

rinin meracı haqqında Şərq mətnlərindən və Əndəlis ərəblərinin "Pillələr kitabı"ndan götürülmüşdür. Həmin kitab XIII əsrdə Kastiliya və Leon kralı X Alfonsonun sarayında ərəb dilindən tərcümə edilmişdir.

Lakin həmin dövrdə islama və onun dəyərlərinə qorxu və nifrət hissi elə həddə çatmışdır ki, Dante "İlahi komediya" əsərində islam peyğəmbərini və Həzrət Əlini digər "xristian cəhənnəminin" əbədi buzlarının, qandonduran şaxtanın məskənində – doqquzuncu qatında təsvir etməkdən çəkinməmişdir. Bu qatda isə müəllifin yazdığı kimi, Lüsifer doğmalarını, yaxınlarını, dostlarını satanların, vətən xainlərinin, o cümlədən islam müqəddəslərinin, Yəhuda İskariotun *(İsa Məsihi otuz gümüş axçaya satan həvari),* Sezarın qətlində iştirak etmiş dostu Brutun ruhlarına ağır işgəncələr verir.

Poemanın 28-ci fəslində yazılır: **"Bax gör Məhəmməd necə eybəcər hala salınıb! Mənim önümdə gedən isə Əlidir. Başı iki yerə parçalanıb. Burada yaxında və uzaqda olanların hamısı sağ ikən nifaq salmaqda, ara vurmaqda günahkardırlar. Ona görə bu vəziyyətə düşmüşlər"** *(sətri tərcümə – A.Q.)*. Yeri gəlmişkən, kilsə ideologiyasının islama düşmənçilik münasibəti "İlahi komediya"nın orta əsrlərə, eləcə də XIX-XX əsrlərə aid illüstrasiyalarında da özünü qabarıq büruzə vermişdir. Belə ki, cəhənnəmin doqquzuncu qatının bütün təsvirlərində Məhəmməd peyğəmbərin ruhu "sinəsi yarılmış" şəkildə təsvir edilmişdir. Səbəb isə Quranın Şərh surəsindəki ayələrdən xəbərdar olan rəssamın, bəlkə də, sifarişçinin onu bilərəkdən yanlış və qərəzli şəkildə yozmasıdır. Belə ki, rəvayətə görə, kiçik yaşlarında peyğəmbərin həyatında ilahi möcüzə baş

vermiş: Məhəmməd süd qardaşı ilə oynayarkən onun qarşısında iki mələk peyda olmuşdur. Mələklərdən biri – Cəbrayıl onun sinəsini yararaq qəlbini çıxarmış, onu təmizləmiş, peyğəmbərlik nuru ilə doldurub yerinə qoymuşdur.

Quranın Əl-İnşirah *(Açılma)* surəsində bu barədə bildirilir: *"(Ya Peyğəmbər!)* **Məgər Biz** *(haqqı bilmək, elm və hikmət dəryası etmək üçün)* **sənin köksünü** *(qəlbini)* **açıb genişlətmədikmi?! Ağır yükünü səndən götürmədikmi?!**



Dante və bələdçisi Vergili cəhənnəmin doqquzuncu qatında islam peyğəmbərinin əzablarını müşahidə edirlər (Q.Dorenin qravürü).

(Peyğəmbərlik yükünü yüngülləşdirmədikmi?!) **Sənin belini bükürdü. Sənin ad-sanını ucaltmadıqmı?!** *(94:1-4).* Xristian dünyası isə həmin ayəni kilsə maraqlarına uyğunlaşdıraraq guya mələk Cəbrayılın deyil, iblisin peyğəmbərin sinəsini yarıb oraya "nifaq və pisliklərin doldurulması" kimi qələmə verməyə çalışmışlar. İslam ənənəsində bu mövzuda müxtəlif fikirlər mövcud olsa da, əsasən, peyğəmbərin sinəsinin yarılması və qəlbinin təmizlənməsi hadisəsinin üç dəfə baş verməsi qeyd olunur. Bunlardan biri Hz. Məhəmmədin körpəliyində, digəri ona peyğəmbərlik veriləndə, sonuncusu isə Merac gecəsi baş vermişdir. Onu da vurğulayaq ki, islam dininə böyük rəğbəti olmuş və yaradıcılığında bu mövzuya dəfələrlə toxunmuş böyük rus şairi Aleksandr Puşkin də 1826-cı ildə,

Qafqaza sürgündən qayıtdıqdan sonra qələmə aldığı "Peyğəmbər" şeirində də "sinənin yarılmasının" islam variantını poetik dillə təsvir etmiş, xristian ədəbiyyatında Hz. Məhəmmədin müsbət obrazını yarada bilmişdir. Şair peyğəmbərin dili ilə yazır:

Tanrı dilə gəldi başımın üstdə:
"Oyan, ey peyğəmbər, həm gör, həm eşit, –
Mənim istəyimlə get dolan rəşid;
Sən ellər dolaşıb dənizlər adla,
Bəşər ürəyini sözünlə odla!"[90]

Qərbin formalaşdırdığı siyasi-dini miflərə görə, islam dini ərəb etnomədəni məkanında təşəkkül tapsa da, müsəlman mədəniyyətinin müəllifliyi bu dinə tapınan xalqlara deyil, "onların qul etdikləri" xristian və yəhudilərə məxsusdur. Həm orta əsrlərdə, həm də müasir dövrdə Avropaya xas olan fəlsəfi tendensiyalar, dini-siyasi paradiqmalar ilk növbədə Qərb xalqlarının "intellektual üstünlüyünə" və xristian mədəniyyətinin digərləri üzərində dominantlığına əsaslanır və onu təbliğ edir. Onların qənaətinə əsasən Avropanın xristian xalqlarının keçdiyi təkamül ən düzgün inkişaf yoludur və digər xalqlar, o cümlədən islam mədəniyyətinin daşıyıcıları yalnız bu "nümunəvi" yolu örnək kimi seçməli, "unikal" Qərb sivilizasiyasının nailiyyətlərindən bəhrələnməlidirlər.

Bundan başqa, Avropanın siyasi təmayüllü avropasentrizm nəzəriyyəsindən doğan iddiaya əsasən islam dini

[90] Şeirin tərcüməsi Eyvaz Borçalınındır.

müstəqil şəkildə elm və texnikanı inkişaf etdirməyə, qabaqcıl nailiyyətlər qazanmağa qadir olmamışdır. Halbuki yer üzündə "müstəqil", "bir etnosun adı ilə bağlanan" elm sahəsi və ya mədəniyyət yoxdur. Tarix boyu istənilən intellektual fenomen, o cümlədən "xristian mədəniyyəti" və ya nə qədər absurd səslənsə də, "xristian elmi" anlayışı polietnik, polikonfessional xarakter daşımış, mübadiləyə əsaslanmış, əlahiddə formalaşmamışdır. İslam dünyasında "ümmət" anlayışından savayı, dini-etnik müxtəlifliyi özündə əks etdirən "millət" kateqoriyasının da mövcudluğu Şərq dünyasındakı yəhudi və xristianların da islam mədəniyyətinin ayrılmaz hissəsi və onun daşıyıcıları olması fikrini təsdiqləyir.

Bununla belə, XVII əsrdən etibarən Fransanın bəzi maarifçiləri avropasentrizmin çərçivəsindən kənara çıxaraq tarix və mədəniyyətin yalnız Avropa coğrafi məkanı ilə məhdudlaşdırılmasına qarşı çıxmağa başlamış, "ümumbəşəri tarix" və "ümumbəşəri mədəniyyətin" yaradılmasına çağırışlar etmişlər. Lakin islam dini və Şərqin müsəlman mədəniyyəti ilə tanışlıqları "Min bir gecə nağılları" səviyyəsində məhdudlaşan F.Volter kimi maarifçi filosoflar da məramlarına baxmayaraq, avropasentrizmin təsirindən çıxa bilməmiş, xristian Avropa mədəniyyətinin digərləri üzərində üstünlüyünün və "himayədarlığının" təbliğatçılarına çevrilmişlər. Məsələn, islam peyğəmbərini "yalançı", "yaşadığı şəhərdə xalqı qiyama qaldıran dəvə sarbanı", Quranı isə "hər sətri sağlam məntiqi diksindirən qeyri-müəyyən kitab" adlandıran Volter özünün "Fanatizm və ya Məhəmməd peyğəmbər" faciəsində islam dinini "yalançı peyğəmbərin", Məhəmmədin "icadı" və onun subyektiv düşüncələrinin

bəhrəsi kimi dəyərləndirmişdir. Bununla da Volter öz subyektiv mülahizələrini Avropanın müsəlman dünyası haqqında bəsit təsəvvürləri ilə uyğunlaşdırmağa, Məhəmməd peyğəmbərin karikatur obrazını yaratmağa çalışaraq islamın yaranışını kilsə iddiaları kontekstində təqdim etmişdir. Yeri gəlmişkən, analoji ideyaya 1753-cü ildə anonim müəllifin Almaniyada yazıb dərc etdirdiyi "Üç yalançı haqqında" adlı traktatda da rast gəlirik. Burada da islam peyğəmbəri "dünyanın ən məşhur fırıldaqçılarından biri" kimi təqdim olunur.

Volterin adıçəkilən faciəsinin bəsit süjet xətti, əslində, Şərqin populyar məhəbbət dastanlarının motivləri və Qərb dünyasında müsəlman aləmi haqqında qəsdən formalaşmış stereotip təsəvvürlər əsasında yazılmışdır. Tamaşada hadisələr miladi tarixi ilə 630-cu ildə cərəyan edir. Məkkənin bütpərəst şeyxi olan Zopir (?) qatı düşməni olan Məhəmmədin bu şəhəri işğal etmək niyyəti haqqında xəbər alır. Səbəb isə Zopirin qızı gözəl Palmiranın (?) bir müddət əvvəl "dəvə sarbanı" Məhəmmədin kənizi olması, sonra isə əsirlikdən – Mədinədən qaçaraq yenidən Məkkəyə sığınması idi. Çünki Palmira Məhəmmədi deyil, başqasını sevirdi. Palmiraya aşiq olan Məhəmməd onu məkkəlilərdən geri tələb etmiş, əks halda "şəhəri viran edəcəyini" (?) bildirmişdir. Məhəmmədin Palmiraya olan məhəbbətindən savayı, digər "əlçatmaz iddiası" vardı. O deyir: "Mən Allah olmalıyam, yoxsa dünyanı məhv edəcəyəm". Zopir isə ondan qorxmur, Məhəmmədin on il əvvəl Məkkədə kim olmasını xatırladır və peyğəmbəri "adi sarban, avara, etibarsız ər, yaramaz boşboğaz, misli görünməyən yalançı" adlandırır.

Süjetə görə, Volter yazırdı: **"Mən yaxşı bilirəm ki, Məhəmməd mənim yazdığım faciənin süjetindəki xəyanəti etməmişdir. Çünki məqsədim heç də olmuş hadisələri səhnəyə gətirmək deyildir. Əksinə, insanların düşdüyü şərait üzündən onların mənəviyyatını, həqiqi fikirlərini açıb göstərmək, qəddar yalanın və qəddar fanatizmin nəyə qadir olduğunu açıb göstərməkdir. Mənim Məhəmmədim əlinə silah almış Tartüfdür"**.

Alman klassik fəlsəfəsinin banilərindən sayılan Georq Hegelin yaratdığı "Şərq-Qərb" və ya "xristianlıq-islam" sxemi də Avropanın "siyasi-mədəni və intellektual üstünlüyü" stereotipi üzərində qurulmuşdur. Hegel öz sxemində Şərq və Qərb arasında münasibətlərə idealizm metodologiyasından yanaşsa da, dünya tarixinin qədim Şərqdən başlandığını bildirsə də, sonrakı dövrlərdə **"Şərqdə tarix günəşinin söndüyünü və öz nuru ilə Qərb dünyasını işıqlandırdığını"**, dünya *(Avropa)* mədəniyyətinin mərkəzində isə alman millətinin dayandığını iddia etmişdir. Sonralar Hegelin bu iddiaları alman millətçiliyində və faşizm ideologiyasında əsas istinad nöqtələrindən olmuşdur. O, **"bəşəriyyət tarixində süquta getməkdə olan"** Şərq *(müsəlman)* mədəniyyətini, islam dinini, müsəlman fəlsəfəsini dünya sivilizasiyasından tamamilə istisna edir. Fəlsəfi baxışlarında Prussiya şovinizmi elementlərini gizlədə bilməyən Hegel "tarixi xalqlar" adlandırdığı avropalıların daşıdığı mədəniyyəti bəşər sivilizasiyasının "dayaq nöqtəsi" hesab etmiş, Şərqin "qeyri-tarixi xalqların" mədəniyyətlərinə isə ikincidərəcəli – "yardımçı" funksiya ayırmışdır. Onun qənaətinə əsasən **"Şərq xalqlarının dini** *(islam)* **insanların təbii**

qorxu hissi üzərində bərqərar olmuşdur və Şərq təfəkkürünün öz təbii məzmunundan sonsuzluğa doğru yüksəlməsinə baxmayaraq, güc qarşısında acizdir… Şərq adamlarının substansiyasının qeyri-müəyyən olması üzündən onların xarakteri, azadlığı və müstəqilliyi də dayanıqlı deyildir. Şərqdə "hüquq", "mənəviyyat" və "dövlət" anlayışları, əslinə qalsa, ən pis və ən nəcib əməllərin mövcudluğuna imkan verən təbii hisslərdən qaynaqlanır. Məhz bu səbəbdən "Şərq təfəkkürü fəlsəfə tarixindən çıxarılmalıdır".[91]

Hegel məktəbinin qismən davamçılarından sayılan ateist və materialist Lüdviq Feyerbax "Xristianlığın mahiyyəti" əsərində bütün dinlərə qarşı çıxmasına baxmayaraq, dinləri və bu dinlərin təsiri ilə formalaşan mədəni təsəvvürləri iki qismə ayırırdı. O, "ruhani dinlər" dedikdə buraya iudaizm, buddizm, xristianlıq və islamı daxil etmiş, bütün ibtidai inancları isə "təbii dinlər" kimi göstərmiş, mədəniyyətin formalaşmasında və inkişafında bu amillərin müstəsna rol oynadığını bildirmişdir. Bununla belə, avropasentrizmin təsirindən çıxa bilməyən və islam dini ilə əhatəli məlumata malik olmayan Feyerbax Şərq və Qərb dünyaları arasında yaranmış ziddiyyətlərə məhz Avropanın etnosiyasi müstəvisindən yanaşmış, Hegel kimi xalqları və mədəniyyətləri "ali" və "geridə qalmış" *(müsəlman mədəniyyəti daxil olmaqla)* kateqoriyalara bölmüşdür.

İslamşünaslığa dair XIX-XX əsr Qərb fəlsəfəsində və ədəbiyyatında müsəlman və xristian mədəniyyətlərinin tarixi əlaqələrinə münasibət müxtəlif illərdə Qərb alimlərindən

[91] Гегель. Сочинения. Т. IX. М.-Л., 1932.

– E.Renanın, N.Danielin, R.Genonun, V.Montqomerinin, R.Dozinin, A.Şprengerin, A.Müllerin, A.Kremerin, İ.Qoltsiyerin, R.Saufernin, A.Tokvilin, A.Servyenin, A.Şopenhauerin, B.Lsisin, B.Paskalın, B.Rasselin, T.Karleylin, R.Spenserin, S.Trifkoviçin, P.Krounun, M.Onfreyin, Albert Molerin, R.Parslinin və başqalarının əsərlərində geniş yer almışdır. Bu müəlliflər islam dinini və müsəlman mədəniyyətinin Qərb dünyası ilə əlaqələrinin tarixi, elmi və teoloji (xristian ehkamları) müstəvidən təhlilinə çalışmış, bir çox hallarda isə məhz dini və etnomədəni mənsubiyyətləri onların islam mədəniyyəti haqqında obyektiv qənaətə gəlmələrinə ciddi maneə olmuşdur. Belələrinin bir qismi üçün Şərq sirli, mistik və qaranlıq dünya, bəziləri üçün məhəbbət dastanları və rübailərin vətəni olan romantik diyar idi. Qalanlarının təsəvvürləri isə səlib yürüşləri zamanı formalaşmış stereotiplər əsasında formalaşmışdır. Onların nəzərində müsəlman Şərqi nə yolla olursa olsun, Avropanı ayaqları altına atmaq istəyən qaniçən tiranların və əbədi cəhalət yuxusuna dalmış fanatiklərin məskəni idi. Heç də təsadüfi deyildir ki, Avropada Quran ilk dəfə olaraq 1647-ci ildə Fransada nəşr olunmuş və sonra müxtəlif dillərə tərcümə edilmişdir. Lakin səthi edilmiş tərcümələr, kitaba olunan əlavələr də islam və müsəlman mədəniyyəti haqqında mənfi təsəvvürlərin formalaşmasında müəyyən rol oynamışdır.

Məsələn, dinləri “xalqların metafizikası” adlandıran Artur Şopenhauerə görə, bütün dinlər “pessimist” və “optimist” kateqoriyalara bölünür. Birinci kateqoriyanın önündə isə mistisizmi və tərki-dünyalığı tərənnüm etdiyi üçün bud-

dizm və hinduizm dayanır. A.Şopenhauer onları "ən humanist və nəcib" inanclar hesab edirdi. Bu sıraya daxil olan xristianlığı isə avropasentrizm nəzəriyyəsinə söykənərək "müdrikliyi təbliğ edən din" hesab edirdi. Lakin bu inancda yer almış bəzi ziddiyyətlər, xüsusilə iudaizm doqmaları ilə İsa Məsih təliminin ehkamları arasında kəskin fərqlər xristianlığın mükəmməlliyini pozmaqdadır. Şopenhauer "optimist" dinlər kateqoriyasında "axirətdən daha çox fani dünya ilə bağlı olan", özündə materializm elementlərini saxlayan islam və iudaizmi nəzərdə tuturdu. Bununla belə, aşağıdakı ziddiyyətli fikirlərin də müəllifi idi: **"Qurana nəzər salaq. Bu cılız kitab kifayət etdi ki, dünya müharibəsi başlasın, iki min il ərzində milyonların metafiziki tələbləri ödənilsin, onların mənəviyyatının özəyinə və qanlı müharibələrin, işğalların ilhamvericisinə çevrilsin. Bu kitabda teizmin ən kədərli və ucuz formalarına rast gəlirik. Ola bilsin ki, bir çox fikirlər tərcümə zamanı itirilsin. Lakin mən Quranda heç bir qiymətli ideya tapa bilmədim"**.

Ən yaxşı halda, islam dini və müsəlman mədəniyyəti haqqında məlumatsızlar arasında Artur Şopenhauer tək deyildir. Aşağıda XIX-XX əsrlərdə yaşamış bəzi elita nümayəndələrinin bu barədə yanlış və qərəzli fikirlərini diqqətə çatdırırıq.

Aleksis de Tokvil *(1805-1859)* Fransanın tanınmış dövlət xadimi, 1849-cu ildə xarici işlər naziri olmuşdur: *"Mən Quranı çox öyrənmişəm. Tədqiqatlarımı bu qənaətlə başa çatdırmışam: "Dünyada Məhəmməd dini qədər bəşəriyyət üçün ölüm təhlükəsi gətirən bir neçə inanc vardır.*

Müsəlman dünyasının tənəzzülü də bununla bağlıdır. Anlaşılmazlığına görə çoxilahiliklə müqayisədə Məhəmməd dininin ehkamları nisbətən fərqlənsə də, onun sosial və siyasi tendensiyaları daha absurddur. Bu səbəbdən bütpərəstlikdən fərqi olaraq islam tərəqqinin deyil, tənəzzülün formasıdır".

Bertran Rassel *(1872-1970)* – ingilis filosofu və riyaziyyatçısı: *"Bolşevizm öz xarakterinə görə Fransa inqilabını və islamı özündə birləşdirir. Bolşevizmi qəbul edənlər elmi sübutlara həssaslıqlarını itirir, intellektual intihara yol verirlər. Əgər dinləri bolşevizm ilə müqayisə etmək istəsək, xristianlığı və buddizmi deyil, islamı göstərməliyik. Çünki xristianlıq və buddizm əsas etibarilə mistik təlimləri və mükəmməlliyə məhəbbəti ilə şəxsiyyət dinləridir. İslam və bolşevizm praktiki, sosial və ruhsuz olan, dünya imperiyalarının yaranmasına yönəldilən dinlərdir".*

Vinston Çörçill *(1874-1965)* – Böyük Britaniyanın sabiq Baş naziri. **II Dünya müharibəsi illərində Quranı A.Hitlerin "Mayn kampf" kitabı ilə eyniləşdirmişdir:** *"Müsəlmanlıq öz ardıcıllarının üzərinə insan üçün quduz it qədər təhlükəli olan fanatik qəzəbdən, qorxunc ətalətdən – taleyə boyun əyməkdən savayı, ağır lənət yükü də qoyur. Nəticəsi isə bəzi ölkələrdə özünü göstərir: dəhşətli dərəcədə pis davranış tərzi, yarıtmaz əkinçilik, rəzil ticarət metodları. Peyğəmbərin varislərinin yaşadığı ərazilərdə özünəinamsızlıq hakim kəsilib. Müsəlmanlıq nəinki hələ ölməmiş, hətta Mərkəzi Afrikada geniş yayıla bilmişdir. Əgər islamın hədər yerə daim mübarizə apardığı elmin güclü əli ilə xristianlıq müdafiə olunmasaydı, müasir Avropanın sivilizasiyası antik Roma sivilizasiyası kimi süqut edəcəkdi".*

Herbert Uells *(1866-1946)* – ingilis yazıçısı: *"Məhəmməd həyatının son dörd ili ərzində, 632-ci ilədək bütün Ərəbistanı öz hakimiyyəti altına ala bilmişdir… Görünür, bu insanda özündənrazılıq, hərislik, hiyləgərlik və açıq dini ehtiras hissləri cəmləşmişdir. O, tapşırıq və şərhlərdən ibarət kitab – Quranı tərtib etmiş və bunların guya Rəbb tərəfindən ona diktə edildiyini bildirmişdir. Dini və fəlsəfi nəzər nöqtəsindən bu kitab ilahi mənşəli deyildir".*

Lakin medalın o biri üzü də vardır. Görkəmli alman mütəfəkkiri Yohann Volfqanq Götenin yaradıcılığı XVIII əsrin sonları – XIX əsrin əvvəllərində Avropa mədəniyyətində mühüm yerlərdən birini tutur. O, dünyada ölməz "Faust" əsərinin müəllifi kimi tanınsa da, digər əsəri "Şərq-Qərb divanı" da Qərb dünyasında böyük populyarlıq qazanmışdır. Lakin Şərq müsəlman mədəniyyəti ilə Avropanın xristian mənəvi-mədəni dəyərlərini poetik dillə uzlaşdırmağa çalışan bu əsərin adı hər iki mədəniyyət arasında indiki ziddiyyətlərin dəyərləndirilməsi kontekstindən də paradoksal və müasirdir. Çünki "divan" kəlməsi daşıdığı məna çalarlarına görə təkcə Şərq poeziyasında janr növünü deyil, həm də orta əsrlərdə "ədalət məhkəməsi" anlamını da verir. Orta əsrlərdən etibarən davam edən "məhkəmə çəkişməsində" islam dünya-



C.Bellininin Şərq miniatürləri əsasında çəkdiyi "Xəttat" əsəri

sı və müsəlman mədəniyyəti Qərbin ən müxtəlif ittihamlarına, qərəz və böhtanlarına, açıq saxtakarlıq cəhdlərinə məruz qalmaqdadır. Lakin Qərbdə bu "divanın" müdafiə edən tərəfi də vardı. Odur ki bu fəsildə müsəlman mədəniyyətinə, onun bəşər sivilizasiyasının formalaşmasında müstəsna roluna dəyər verən Qərb mütəfəkkirlərinin fikirlərini diqqətə çatdırırıq.

XVIII əsrin ortalarından XX əsrin 30-cu illərinədək Avropada mövcud siyasi-hüquqi və sosial şəraitə, Qərbin xristian təməlçiliyinə və mənəvi-əxlaqi stereotiplərinə etiraz edən ziyalılar arasında islam dininə və müsəlman mədəniyyətinə maraq birdən-birə xeyli artmışdır. Avropanın bir sıra iri mərkəzlərində ayrı-ayrı populyar maraq qrupları – ezoterik sufi dərnəkləri fəaliyyətə başlayır, islam dininə, xüsusilə sufilik fəlsəfəsinə, Şərq poeziyasına həsr olunmuş gecələr keçirilir, müsəlman xalqların poeziya nümunələri və dastanlar əsasında onlara nəzirələr, poemalar yazılır, pyeslər səhnələşdirilirdi. Avropa poeziyasında populyar lirik personajlara "Məhəmməd", Züleyxa", "Abdulla" kimi adlar verilir, Şərq fəlsəfəsi, müsəlman dövlətlərin tarix və etnoqrafiyası, mədəniyyəti təhlil edilir, arxeoloji ekspedisiyalar təşkil edilirdi. Özünə hörmət edən hər bir muzeydə Şərq ekspozisiyasının yaranması adi hal almışdı. Əslinə qalsa, bu dövrü müsəlman və xristian mədəniyyətləri arasında əlaqələrin İntibah, Qızıl dövrü adlandırmaq olardı. Həmin dövrdə islama və müsəlman mədəniyyətinə yeni münasibətin formalaşdırılmasına başlanmışdı.

XX əsrin əvvəllərində Qərbi Avropada şərqşünaslıq mərkəzləri fəaliyyətə başlamış, ilk müsəlman icmaları yaradılmış, xristian mədəniyyəti stereotiplərindən yorulmuş

xeyli insan islam dinini qəbul edərək onların sırasına qoşulmuşdu. 1889-cu ildə Böyük Britaniyada, Surrey qraflığının Vokinq şəhərində xristian şərqşünas Qotlib Vilhelmin sifarişi ilə müsəlmanların ibadəti üçün Şah Cahan məscidi inşa olunmuşdu. Ötən əsrin 20-ci illərində isə Berlindəki müsəlmanlar üçün tikilmiş Əhmədiyyə məscidi alman ziyalılarının da əsas elmi müzakirə mərkəzlərindən birinə çevrilmişdi. Alman filosofu, etnik yəhudi Hüqo Markus Şərq fəlsəfəsinə mükəmməl yiyələndikdən sonra islamı qəbul etmiş, "Həmid" adını götürmüş, Əhmədiyyə məscidinin nəşr etdirdiyi (?) "Moslemische Revue" jurnalında yeni Avropa insanının formalaşmasında islam və müsəlman mədəniyyətinin əhəmiyyətinə dair məqalələrlə çıxış etmişdir. Onun "Yeni insan" konsepsiyası Avropanın, demək olar ki, bütün siyasi cərəyanları arasında populyar olmuşdur. Markus-Həmidin baxışlarına əsasən **"iudaizmin və xristianlığın varisi olan islam "Avropanın gələcək insanının" zəruri və çatışmayan amilidir"**.[92] Başqa bir misal: Böyük alman filosofu, alman klassik fəlsəfəsinin banisi İmmanuel Kant da *(1724-1804)* islam dini və islam mədəniyyəti ilə yaxından tanış idi. Onun bir sıra fəlsəfi fikirlərində Şərq dünyasının görkəmli mütəfəkkirlərindən Əbu Hamid Əl-Qəzalinin və Muhyiddin ibn Ərəbinin təsiri aydın sezilməkdədir. Təsadüfi deyildir ki, İ.Kant 1755-ci ildə qələmə aldığı doktorluq dissertasiyasının titul səhifəsində öz əli ilə **"Bismillahir-rəhmanir-rəhim"** kəlməsini yazmışdır.

[92] Ханнун М., Спан С.. Когда Европа любила ислам. 05.06.2016 - http://inosmi.ru/religion/20160605/236764173.html

İslam avropalılar üçün təkcə “kreativ” din deyildi. Onlar xristian ehkamlarının sosial-mənəvi dayaqlarının sürətlə


AUSPICATISSIMO REGIMINE
DOMINI
FRIDERICI
REGIS PRUSSIÆ,
MARCHIONIS BRANDENBURGICI, S.R.I. ARCHICAMERARII ET PRINCIPIS ELECTORIS, SUPREMI SILESIÆ DUCIS,
RECTORE MAGNIFICO
COELESTINO KOWALEWSKI,
EMANUELI KANT,
JOHANNES BERNHARDUS

İ.Kantın doktorluq diplomu üzərində “Bismillahir-rəhmanir-rəhim” kəlmələri

itirildiyi bir dövrdə öz ümid və arzularını, həm də Avropanın gələcək simasını islam dinində axtarır, müsəlman mədəniyyətinə isə “ekzotika” kimi deyil, mənəvi-əxlaqi saflığa aparan fenomen kimi yanaşırdılar. Sanki Almaniya, Böyük Britaniya, Fransa, Hollandiya, Belçika müsəlmanlara daha yaxşı münasibətin bəslənilməsi yarışına çıxmışdı. Şərq dünyasına, müsəlman mədəniyyətinə, islam dəyərlərinə, dünyagörüşünə, təfəkkürünə maraq nəticəsində hələ XVIII-XIX əsrlərdə Avropanın mədəni və intellektual həyatında yeni tendensiyanın – oriyentalizm ənənəsinin təməli qoyulmuş və bu cərəyan XX əsrin əvvəllərinədək populyarlığını qoruyub saxlaya bilmiş, lakin, təəssüf ki, sonralar Qərbin geosiyasi mənafelərinin ödənilməsi üçün siyasi vasitələrdən birinə *(məsələn, R.Kiplinqin yaradıcılığında)* çevrilmişdir. Oriyentalizm Qərbi və Şərqi Avropanın, Rusiyanın fəlsəfəsində, poeziyasında, heykəltaraşlıq, memarlıq və rəngkarlığında geniş yayılmış, bir sıra unikal və dünya şöhrətli əsərlərin yaradılmasına səbəb olmuşdur. Müsəlman mədəniyyəti, Şərqin həyat tərzi R.Genon, Göte, V.Atkinson, Ş.Barq, Q.Qobo, F.Franü, E.Beers, F.Rökkert, A.Silvestr de Sasi, F.Peti de La Krua, Ş.Monteskyö, A.Bida, C.Bellini, Q.Braun, E.Delakrua, F.Bridjmen, F.Vallotton,

İ.Lazerje kimi böyük sənətkarların yaradıcılığında əks olunmuşdur. Rusiyanın tanınmış oriyentalist şair, yazıçı, bəstəkar və rəssamları arasında isə A.Puşkinin, M.Lermontovun, A.Jukovskinin, K.Brülovun, S.Raxmaninovun, V.Vereşaqinin də adları çəkilir.

Qərb oriyentalizminin klassik nümayəndələrindən olan Y.Göte "Şərq-Qərb divanı"nı 1771-1772-ci illər arasında ciddi mütaliə etdiyi Quranın və şair Hafiz Şirazinin "Divan"ının təsiri altında yaratmışdır. Əsərdə Şərq və Qərb təfəkkürlərini, xristian və müsəlman mədəniyyətlərini unikal şəkildə əlaqələndirməyə, onlar arasında ümumbəşəri dəyərləri, ortaq təmas nöqtələrini müəyyənləşdirməyə nail olmuşdur. "Şərq-Qərb divanı" əsərinə daxil olan "Eşqnamə", "Züleyxanamə", "Teymurnamə", "Saqinamə", "Hafiznamə", "Təfkirnamə", "Məsəlnamə", "Hikmətnamə" kimi hissələrdə Şərq dünyasını, Şərq təfəkkürünü avropalı oxuculara poetik dillə çatdıra bilmişdir.

Götenin islam dinini qəbul etməsinə, sufi olmasına dair də ehtimallar vardır. Bəzən o, məktublarını hətta "Məhəmməd Yohann Volfqanq Göte" kimi də imzalayırdı. Göte sevgilisi Marianna fon Villemeri "mənim Züleyxam" adlandırırdı. Bir dəfə Züleyxaya evlənmək təklifi etmək üçün gedəndə kareti sınır və o dərhal geri qayıtmaq qərarını verir. Sonra dostlarından birinə yazır: **"Beləliklə, biz islam dinində qalmalıyıq, öz taleyimizi İlahinin iradəsinin ixtiyarına buraxmalıyıq"**. 1831-ci ildə, Almaniyada vəba epidemiyasının yayıldığı dövrdə bu sətirləri qələmə almışdı: **"Bizə igidliyi öyrədən islamda qalırıq"**. Götenin yaradıcılığına əsasən o, Quranı Rəbbin nazil etdiyi kitab, Məhəmməd peyğəmbəri isə onun şərti müəllifi – Allahın

ona təlqin etdiklərini insanlara çatdırmaq üçün göndərilmiş şəxsiyyət hesab edirdi. O, eyni zamanda xristian kilsəsinin – lüteranlığın bir sıra mücərrəd doqmalarını da qəbul etmirdi. Bu doqmaları islam ehkamları ilə müqayisə edərək personajlardan birinin dili ilə deyirdi: **"Bizim ruhanilər dişlərini qozun qabığında itiləyəndə mən onun içərisindəkindən həzz alıram"**.[93] Onun yaxın dostu, britaniyalı yazıçı və filosof Tomas Karleyl xatirələrində bunları yazır: **"Almaniyada dostum Göteyə islam dini haqqında topladığım məlumatları və bu mövzuda fikirlərimi çatdırdım. Göte məni diqqətlə dinlədi və sonra dedi: "Əgər islam budursa, hamımız müsəlman olmalıyıq"**. Göte 1832-ci ilin mart ayının 22-də dünyasını dəyişmişdir. Şahidlərin dediklərinə görə, o, son nəfəsində barmaqları ilə sinəsində "W" işarəsini çəkmişdir. Leo Karder Götenin bununla öz adının baş hərfini çəkdiyini iddia etsə də, islam dünyasında bu işarə haqqında fərqli yozum vardır. Onların qənaətinə əsasən ərəb əlifbasını yaxşı bilən Göte barmaq işarəsi ilə "Allah" kəlməsini yazmışdır.[94] Göte yazırdı:

Müqəddəs kitablar Kitabi-Quran,
Öz əzəməti ilə keçir ürəkdən.
Mənim də qəlbimi fəth etdi, inan,
Onunçün də sənin bənzərinəm mən.

Quran müəllifi, ulu peyğəmbər
Bizdən yaxşı bilir günahımızı.

[93] Гете И.В. Собрание сочинений в 10 томах. Том 7. М., 1978
[94] Аюпова Д. И. Синтез Запада и Востока в «Западно-восточном диване» Гёте // Молодой ученый. – 2014. – №7. – С. 621-623. – URL https://moluch.ru/archive/66/10824/

İman gətirməyən lənətə gələr,
Göylər guruldayar hər ahımıza.[95]

Aşağıda bir sıra dünya şöhrətli mütəfəkkirin, dövlət xadiminin islam dini və müsəlman mədəniyyəti haqqında bəzi sitatlarını diqqətə çatdırırıq:

Yohann Volfqanq Göte – *"Quranın üslubu son dərəcə alidir, ciddidir, bəzi yerlərdə isə həqiqətə doğru yüksəlir"; "Rəbb, həqiqətən də, Quran vasitəsilə bizə deyir: "Biz o kəsləri elçi göndərmişik ki, öz xalqının dilində danışa, (Quranın mahiyyətini) insanlara çatdıra bilsin"; "O, (Məhəmməd peyğəmbər) şair deyil, peyğəmbərdir və onun Quranı İlahinin qanunudur, insanın əyləncə və ya ümumi savadının qaldırılması üçün qələmə aldığı kitab deyildir"; "Peyğəmbərlikdən danışanda onu deməliyəm ki, indi elə hadisələr baş verir ki, əvvəllər onlar barədə hətta söz açmağı peyğəmbərlərə icazə verməzdilər. Hələ bir neçə il əvvəl bizim protestant gimnaziyalarımızda ruhanilərin ibadətlər keçirmələrini və Qurandan surələrin oxunmasını belə təsəvvür etməyə kim icazə verə bilərdi! Lakin bu baş verdi və biz başqırdların ibadətində olduq, onların mollasını gördük, teatrda isə knyazlarını salamladıq. Mənə xüsusi münasibət bəslədiklərinə görə yay və oxlar hədiyyə etdilər. Mən onları ocağımın başından asdım. Bizim olduqca dindar xanımlarımızın bəziləri isə kitabxanada Quranın tərcüməsini sifariş etmişlər".*

[95] Y.Göte "Şərq-Qərb divanı". Alman dilindən tərcümə edən Ələkbər Qubatov, Bakı: Şirvannəşr, 2008.

Edvard Gibbon – ingilis tarixçisi: *"Məhəmməd həyatındakı möhtəşəm uğurlara qılınc sayəsində deyil, hər yerə nüfuz edə bilən güclü mənəviyyatla nail olmuşdur".*

Napoleon Bonapart – Fransa imperatoru və müasir Fransa dövlətinin banisi: *"Allahın varlığını və birliyini Musa öz millətinə, İsa romalılara, amma Məhəmməd isə bütün dünyaya bildirdi. Ərəbistan tamamilə bütpərəst idi. İsadan altı əsr sonra özündən əvvəl gəlmiş İbrahim, İsmayıl, Musa və İsanın Rəbbini ərəblərə tanıtdı. Məhəmməd onlara doğru yol göstərdi. Ərəblərə yalnız bir Allahın mövcudluğunu, onun nə atası, nə də oğlu olduğunu, bütpərəstliyin isə günah adət olduğunu anlatdı"; "Mən ümid edirəm ki, dünyanın bütün guşələrindəki ağıllı və savadlı insanların hamısını birləşdirəcəyim, yeganə həqiqət olan və insanları xoşbəxtliyə aparan Quranın prinsiplərinə əsaslanan vahid rejim quracağım vaxta çox qalmayıb".*

Fridrix Nitsşe – alman filosofu və şairi. Onun nəzərində islam almanların ruhuna daha yaxın olan mübariz din idi: *"Xristianlıq antik mədəniyyətin məhsulunu, sonra isə islam mədəniyyətinin bəhrəsini məhv etdi. Roma və yunan mədəniyyətləri ilə müqayisədə mədəniyyəti mahiyyət etibarilə bizə daha qohum olan, bizim hisslərimiz və zövqümüzlə danışa bilən İspaniyanın möcüzəli Mərakeş mədəniyyəti dünyası tapdandı (Mən hələ hansı ayaqlar altına atıldığını demirəm). Niyə? Çünki bu mədəniyyət öz yaranışına görə nəcib və mərd instinktlərə borclu idi və buna görə də nadir Mərakeş incəliklərini həyatda təsdiq edə bilirdi… Sonra səlibçilər nəcib görünən nə var idisə, onu*

məhv etdilər… Qarşısında hətta yaşadığımız XIX əsrin də sönük və "gecikmiş" göründüyü yüksək mədəniyyəti məhv etmişlər. Əlbəttə, onlar qənimət istəyirdilər. Şərq dövlətli idi… Lakin utanmaq da lazım deyil. Səlibçilər yalnız və yalnız əsl piratlar idilər"… Alman zadəganlığı, onun kökündə dayanan vikinq zadəganlığı öz stixiyasında idi. Kilsə də onun aqibəti üçün nələrin olacağını çox yaxşı bilirdi… Çünki alman zadəganlığı həmişə kilsənin "gözətçiləri" olmuşdur, kilsənin bütün çirkin instinktlərinin xidmətində dayanmışdır. Amma yaxşı məvacib müqabilində… Məhz alman qılıncının, alman qanının və igidliyinin hesabına kilsə dünyanın bütün nəcibliklərinə qarşı müqəddəs müharibə aparmışdır! Bu məsələdə nə qədər vacib suallar var! Ali mədəniyyət tarixində alman zadəganlığının izi, demək olar ki, yoxdur. Səbəblərini isə tapmaq çətin deyildir: xristianlıq və alkoqol – çürümənin iki böyük vasitəsi… Ərəblə yəhudi arasında, islamla xristianlığın arasında seçim ola bilməz!.. "İslam ilə sülh və dostluq!" Baxın, böyük azad ruh, alman imperatorları içərisində dahi olan II Fridrix bunu hiss edir və belə hərəkət edirdi".

Tomas Karleyl – britaniyalı yazıçı, publisist, tarixçi və filosof: *"Quranı oxuduqca onun adi bir bədii əsər olmadığını o an hiss edəcəksiniz. Quran qəlbdən gələn və digər qəlblərə nüfuz edən bir əsərdir. Digər bütün əsərlər bu möhtəşəm kitabın yanında çox sönük görünür. Quranın nəzərəçarpan ilk xüsusiyyəti onun doğru və mükəmməl yol göstəricisi, dürüst bir rəhbər olmasıdır. Məncə, Quranın ən böyük məziyyəti budur. Bu məziyyət digərlərinə də yol açır"; "Bizim aramızdan kimlərinsə müsəlman olmasının heç bir təhlükəsi*

yoxdur. Mən Məhəmməd haqqında yalnız yaxşı sözləri demək istəyirəm"; "Bu ərəblər, Məhəmmədin adamları yüz il ərzində partlayıcı toza bənzəyən dünyanın üzərinə düşən qığılcım olmuş, Dehlidən Qrenadaya kimi bütün məkanı yandıra bilmişlər. Mən demək istəyirəm ki, bu böyük insan ətrafdakıları öz odu ilə alışdıran ildırıma bənzəyir".

Alfons de Lamartin – Fransanın siyasi xadimi, şair və yazıçı: *"Ona (Məhəmməd peyğəmbərə) rəqibləri moizələrindən imtina edəcəyi təqdirdə ali rütbələr, sərvət və pul vəd etmişdilər. O isə qəti şəkildə bunlardan imtina etdi və bütün fiziki, mənəvi çətinliklər yükünün altına girdi. Öz əqidəsində qaldı. Allahın adını alçaldan, cəmiyyətdə qarşıdurma, etimadsızlıq yaradan qüvvələrin qarşısında nəhəng qaya kimi dayandı. O dərəcədə unikal və təkrarolunmaz idi ki, bir çox şair və natiqlər, eləcə də onun müasirləri onu tanımağa məcbur oldular. Quranda əksini tapmış təbii amillərə və hadisələrə ona kimi heç kəs toxuna bilməmişdi. Görəsən, nə üçün hakimiyyəti və gücü olsa belə, məhrumiyyət içində yaşayır, bütün çətinliklərə dözürdü? Məhəmmədin ölümqabağı dediyi sözlər mütləq diqqətlə təhlil edilməlidir: "Biz peyğəmbərlər özümüzdən sonra heç bir irs qoymuruq. Bizdən sonra qalan yalnız sədəqədir"; "Həqiqətən də, Məhəmməd dünyanın yaranışından sonra müxtəlif dövrlərdə göndərilən peyğəmbərlərin sonuncusudur. Söhbət üç ölçüdən – inanılmaz dərəcədə ali məqsəddən, heyrətamiz nəticələrdən və bunlara nail olmaq üçün məhdud imkanlardan düşəndə onunla kimisə müqayisə etmək olmaz"; "Adəm nəslinin bu övladı haqqında nə demək olar? O, bü-*

töv orduları, imperiyaları hərəkətə gətirməklə kifayətlənmədi. Planetin üçdəbirindən çoxu onun ardınca getdi. Güclü iradəsi, böyük ideyalar naminə heyrətamiz fədakarlığı, rütbə və hakimiyyətlə ələ almaq bacarığı, Allahla dialoqu, ölümü və əməllərinin böyük təntənəsi onun qüdrətli şəxsiyyət və ideya daşıyıcısı olmasını təsdiqləyən faktlardır".

Otto fon Bismark – Almaniyanın dövlət xadimi, Almaniya imperiyasının ilk kansleri: *"Ey Məhəmməd! Sənin müasirin olmadığım üçün mən kədərlənirəm. Bəşəriyyət yalnız bir dəfə sənin böyük qüdrətini gördü və bir daha onu görə bilməyəcəkdir. Mən sənə pərəstiş edirəm".*

Lev Tolstoy – rus yazıçısı: *"Əlbəttə, hər bir şüurlu insanın son instansiyası islamdır"; "Pravoslavlıqla müqayisədə Məhəmməd dininə üstünlük verilməsinə gəldikdə isə… mən bütün ruhumla belə keçidi alqışlaya bilərəm. Deyilişi nə qədər qəribə də olsa, mənim üçün, həqiqi xristian ideallarının mahiyyətini hər şeydən üstün tutan üçün Məhəmməd dini özünün xarici formaları ilə kilsə pravoslavlığından qat-qat yuxarıda yer tutmuşdur. Beləliklə, əgər insanın qarşısına yalnız iki seçim – kilsə pravoslavlığı və ya Məhəmməd dinindən yapışmaq məsələsi qoyularsa, şübhəsiz ki, hər bir şüurlu insan ilahiyyatda mürəkkəb və anlaşılmaz olan üç üqnumu, şərtləri, müqəddəsləri və onların təsvirlərini, mürəkkəb ayinləri deyil, yalnız vahid doqmanı – Rəbbin birliyini və onun peyğəmbərini tanıyan Məhəmməd dinini seçəcəkdir.*

Mahatma Qandi – Hindistanın siyasi və ictimai xadimi: *"Müsəlmanlar ən əzəmətli və möhtəşəm günlərində belə, dözümsüz olmamışlar. İslamiyyət dünyanı yaradana və Onun əsərinə heyran olmağı əmr edir. Qərb qorxunc bir qaranlıq içərisində olanda Şərqdə parlayan gözqamaşdırıcı islam ulduzu əzab çəkən dünyaya işıq, sülh və rahatlıq vermişdir. İslam dini yalançı inanc deyildir. Hindlilər bu dini diqqətlə öyrəndikləri zaman onu mənim kimi sevəcəklər. Mən islam dininin peyğəmbərinin və onun ətrafında olanların necə yaşadıqları haqqında kitablar oxudum. Bunlar mənə o qədər təsir etdi ki, kitabları bitirən zaman o insanlarda daha çox olmamasına üzüldüm. Mən bu qənaətə gəldim ki, islamiyyətin sürətlə yayılmasının səbəbi qılınc olmamışdır. Əksinə, hər şeydən öncə sadəliyi, məntiqli olması və peyğəmbərin böyük ürəkaçıqlığı, sözünün üstündə durması, yaxınlarına və müsəlman olan hər kəsə münasibətdə sonsuz sədaqəti sayəsində islam dini bir çox insanlar tərəfindən sevə-sevə qəbul edilmişdir"; "İslamiyyət yarandığı dövrdən etibarən sosial ədaləti əmr edən dindir. Xristianlığın bir sıra çatışmazlıqları olduğu üçün islahatlar aparmaq məcburiyyətində qaldığı halda islam ilk günündəki şəklini saxlamış, heç nəyi dəyişməmişdir".*

Corc Bernard Şou – irlandiyalı dramaturq və nasir, Nobel mükafatı laureatı: *"Əgər hər hansı bir dinə yaxın yüz il ərzində İngiltərəni və ya daha çox – Avropanı idarə etmək imkanı verilsəydi, bu inanc islam olacaqdı"; "Mən dözümlü olmasına görə Məhəmməd dininə həmişə hörmətlə yanaşmışam. Mənə elə gəlir ki, islam həyat tərzinin istənilən şəkildə dəyişkənliyinə çevik münasibət göstərən və məhz bu*

səbəbdən insanları özünə cəlb edən yeganə dindir. Mən onun (Məhəmməd peyğəmbərin) həyatını öyrəndim. Mənim fikrimcə, gözəl insandır və "antixrist" (Dəccal) olmaqdan uzaqdır, əksinə, onu "insanların xilaskarı" adlandırmaq olar"; "Belə hesab edirəm ki, əgər onun kimi insan müasir dünyaya rəhbərlik etsəydi, birmənalı olaraq bütün problemləri həll edərdi. Biz isə, nəhayət ki, ehtiyac duyduğumuz xoşbəxtlik və razılıq içərisində yaşayardıq".



Gündüz İsmayılov

İslam dini və müsəlman mədəniyyəti

Səmavi dinlərin sonuncusu olan islam meydana çıxdığı gündən elmə böyük dəyər vermiş, elm öyrənməyi, təhsil almağı ibadət səviyyəsinə qədər yüksəltmişdir. İslam dininin tələbinə görə müsəlmanın iki seçimi var: ya elm öyrənməli, ya da elm öyrənən insana kömək, dost olmalıdır. Bu baxımdan islamın elmə verdiyi qiymət bu dinin yalnız sülh və əmin-amanlığa münasibəti ilə müqayisə oluna bilər. Təsadüfi deyil ki, "islam" sözünün hərfi mənası "sülh", "əmin-amanlıq" deməkdir. Bəzi ilahiyyatçılar müsəlmanın həyat fəlsəfəsini qısaca belə izah edirlər: müsəlman tək Allaha inanmalı, ibadət etməli, elm öyrənməli, sülh, əmin-amanlıq və rifah üçün çalışmalıdır. Bütün bunları isə Allahdan əvəzini – mükafatını alacağına inanaraq, Ona xatir etməlidir.

İslamda elmə yüksək dəyər verilməsi Qurani-Kərimdən və Məhəmməd peyğəmbərdən qaynaqlanır. Buna görə də islam və elm münasibətlərindən bəhs edilərkən ilk növbədə Qurani-Kərimə və islam peyğəmbərinin hədislərinə müraciət olunur. Qurani-Kərimin ilk ayəsi, yəni Məhəmməd peyğəmbərə nazil olmuş ilk vəhy "Oxu" kəlməsi ilə başlayır (Ələq, 1). Ayədə "oxu" sözü əmr formasındadır. Müsəlman ilahiyyatçıların təfsirinə əsasən əmr formasında olmasının səbəbi və hikməti Yaradanın kişi və qadın fərqi qoymadan hər kəsə oxumağı, elm öyrənməyi vacib buyurmasıdır. Əslində, eyni mahiyyətli fikir Məhəmməd peyğəmbərin hədislərində də var.

Həmin hədislərin birində deyilir ki, "Elm öyrənmək kişi və ya qadın olsun, hər bir müsəlman üçün vacibdir".[96]

Qurani-Kərimdə elm öyrənməyi təşviq edən onlarla ayə var. Hətta Qələm surəsinin 1-ci ayəsində Allah qələmə and içir: "And olsun, qələmə və (qələmlə) yazılanlara". Qələmə and içilməsi yazının, elmin müqəddəsliyinə işarədir. Bu həm də o deməkdir ki, Quranın yanaşmasına görə, elmi simvolizə edən qələm Allahın insanlara bəxş etdiyi nemətlərdən biridir. Elm elə bir nemətdir ki, o, dində cənnətə gedən yol kimi qəbul olunur. Çünki Məhəmməd peyğəmbər buyurur: "Hər şeyin bir yolu vardır. Cənnətin yolu da elmdir". Başqa bir hədisdə isə "Dünya həyatını istəyən elmə sarılsın, axirət həyatını istəyən elmə sarılsın. Həm dünya, həm axirət həyatını istəyən də elmə sarılsın"[97] deyilir.

Qurani-Kərim və hədislərdə elmə münasibət

Məhəmməd peyğəmbərə aid edilən hədislərə görə, müsəlman "beşikdən məzara qədər öyrənməlidir". Çünki "Elm yolunda xərclənən birgünlük zaman Allah dərgahında yüz savaşdan daha sevimlidir". Bu baxımdan müsəlman "elm Çində belə olsa, arxasınca getməlidir".[98] Bəzi təfsirçilərin fikrincə, bu hədisdə Çin təkcə uzaqlıq mənasında işlədilməmişdir. Belə ki, çinlilər bütpərəstdir və islamın bütpərəstliyə münasibəti səmavi dinlərdən fərqlənir. Əslində,

[96] Hədislərlə islam (Sərlövhə hədislər), Diyanet İşleri Başkanlığı, 2017, səh. 205
[97] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 11
[98] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 7 s.

bu hədis ilə elm bütpərəstin əlində də olsa, onu öyrənməyin zəruriliyinə işarə edir. Məhəmməd peyğəmbər Allahın elçisi kimi göndərilməsinin səbəbini hədislərinin birində özü belə açıqlayır: "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm".[99] Başqa bir hədisdə isə "Allah məni bir müəllim olaraq göndərdi" deyir. Qurani-Kərimdən məlum olur ki, peyğəmbərin konkret missiya ilə göndərilməsinə baxmayaraq, ona da elm öyrənmək əmr olunmuşdur. Çünki Taha surəsinin 14-cü ayəsində buyurulur: "Sənə tamam-kamal vəhy olunmadan əvvəl Quranı oxumağa tələsmə və: "Ey Rəbbim! Mənim elmimi artır! – de". Hud surəsinin 46-cı ayəsində isə Nuh peyğəmbər nəzərdə tutularaq "Sənə cahillərdən olmamağı tövsiyə edirəm" buyurulur. Qeyd edilən bu ayələr elm öyrənməyin peyğəmbərlər də daxil olmaqla hər kəsə əmr olunduğunu təsdiqləyir.

İslam inancında sədəqə vermək ibadət sayılır və bunun müxtəlif növləri, dərəcələri ola bilər. Məhəmməd peyğəmbər deyir ki, "Sədəqənin ən üstünü müsəlmanın elm öyrənməsi, sonra da öyrəndiyi bu elmi bir mömin qardaşına öyrətməsidir". Deməli, elm öyrənmək və öyrətmək sədəqə, başqa sözlə, ibadətdir.

Elm öyrənməyin ibadət olması ilə bağlı bir neçə hədis var. Onların birində deyilir: "Bir saat təfəkkür etmək (düşünmək) yetmiş il nafilə (vacib buyurulmayan) ibadətdən daha xeyirlidir". Başqa bir hədisdə isə Məhəmməd peyğəmbər səhabələrindən Əbu Zərə müraciətlə buyurur: "Elmdən bir mövzu öyrənməyin onu tətbiq edib-etməyindən asılı olmayaraq

[99] Hədislərlə islam (Sərlövhə hədislər), Diyanet İşleri Başkanlığı, 2017 səh. 121

min rükət (nafilə) namaz qılmağından daha xeyirlidir".[100] İslam peyğəmbərinə görə, "Mələklər Allah rizası üçün elm öyrənənləri qanadları altına alır". "Elm öyrənən bəndənin gördüyü işlər keçmiş günahlarına kəffarə olur". "Övladın atadan alacağı ən yaxşı miras yaxşı təhsildir". Həmçinin Məhəmməd peyğəmbər buyurur ki, "İnsanlar içərisində peyğəmbərlik dərəcəsinə ən yaxın olan elm və cihad əhlidir". "Hər gün səviyyəsini yüksəltməyənin vay halına", "Elm (hikmət) möminin itmiş malıdır, onu harada tapsa, götürməlidir".[101]

İslam elm öyrənməyi ibadət səviyyəsinə yüksəltdiyi kimi alimi də peyğəmbərlərdən sonra ən uca mərtəbəyə layiq bilir. Qurani-Kərim bəyan edir ki, "Allah iman gətirənlərin və elm bəxş edilmiş kimsələrin dərəcələrini yüksəldir" (Mücadələ, 11); "Əgər "Kimə hikmət (elm) bəxş edilmişsə, ona çoxlu xeyir verilmişdir" (Bəqərə, 269); "Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?" (Zumər, 9); "Biz insanlara örnəklər veririk, onları yalnız bilənlər anlayır" (Ənkəbut, 43). Eyni zamanda müqəddəs kitabda "Allahdan daha çox alimlərin qorxduğu" (Fatir, 28) bəyan edilir və bir çox ayələrdə insanlara "düşünmək", "fikirləşmək", "ağıl, təfəkkür sahibi olmaq" tövsiyə olunur.

Alimlərin məqamı hədislərdə də yüksək qiymətləndirilir, onlara böyük ehtiram nümayiş etdirilir. İslam peyğəmbərinə görə, "Alimin mürəkkəbi şəhidin qanından üstündür"; "Alimin başqa insanlardan üstünlüyü bədirlənmiş ayın başqa ulduzlardan üstünlüyü kimidir"; "Alimə hörmət etmiş mənə

---

[100] İrfan Yılmaz, İ.Hakkı İhsanoğlu, Selim Aydın, Fuat Bozer, Nevzat Bayhan, İhsan İnal, İlim ve Din (Yeni Bir Bakış Açısıyla), I və II cild, İstanbul 1998, səh. 282

[101] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh.11

hörmət etmiş olur"; "Alimlər peyğəmbərlərin varisləridir"; "Bir alimin ölümü bütün bir millətin ölümündən daha böyük itkidir"; "Alimin yuxusu cahilin ibadətindən daha xeyirlidir"; "Cahillər içində bir alim ölülər içərisində bir diri deməkdir"; "Elmindən istifadə edilən bir alim min zahiddən daha üstündür"; "Alimlər dünyanın nuru, axirətin çırağıdırlar".[102]

Beləliklə, Qurani-Kərimdə və Məhəmməd peyğəmbərin hədislərində elmə, təhsilə verilən yüksək dəyər nəticəsində islam dini qısa müddətdə yayıldığı ərazilərdə möhtəşəm müsəlman mədəniyyətinin formalaşmasına zəmin yaratmışdır. Bu mədəniyyətin nümayəndələri qədim yunan alimlərinin əsərlərini ərəb dilinə tərcümə etməklə həm onları məhv olmaq təhlükəsindən qurtarmışlar, həm də Avropada intibahın təşəkkülünə təkan vermişlər.

Qərb alimlərinin özləri də etiraf edirlər ki, əgər müsəlmanlar islamın çiçəklənməsi dövründə ellin sivilizasiyasının incilərini mühafizə etməsəydilər, qədim yunan filosoflarının, fizik və riyaziyyatçılarının, astronom və kimyaçılarının əsərlərini vaxtilə latın dilinin Avropada oynadığı rolu müsəlman aləmində oynamış ərəb dilinə tərcümə etməsəydilər, bəşəriyyət çox böyük bir elmi irsdən məhrum qalar və Avropada intibah baş verməzdi. Bu baxımdan xüsusi qeyd etmək lazımdır ki, Avropada intibaha təkan vermiş islam mədəniyyətinin bünövrəsində Qurani-Kərim və Məhəmməd peyğəmbər dayanır.

[102] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 7 s.

İslama görə, elm nəyə xidmət etməlidir?

Qurani-Kərimdə və hədislərdə müsəlmanların elmə təşviq edilməsi, alimə yüksək dəyər verilməsi, bunun nəticəsində böyük bir coğrafiyada zəngin islam mədəniyyətinin formalaşması, demək olar ki, böyük əksəriyyətin qəbul etdiyi həqiqətdir. Amma bu məsələdə ilk baxışdan sadə görünən, əslində, islam dininin mahiyyətinin düzgün başa düşülməsi baxımından da böyük aktuallıq kəsb edən belə bir sual yaranır: İslam nə üçün elmə bu dərəcədə əhəmiyyət verir? Mahiyyət və məqsədini dəyişdirmədən bu sualı fərqli formada verənlər də var. Məsələn, islama görə, elm nəyə xidmət etməlidir və ya elmin faydaları nələrdir? Müsəlman alimlərin əksəriyyəti elmin əhəmiyyətini üç istiqamətdə izah edirlər: 1. Həqiqəti bilmək baxımından; 2. Faydalanmaq baxımından; 3. Allahı dərk etmək baxımından.

Həqiqəti bilmək baxımından elmin əhəmiyyəti: İslama görə, elm əşyanın, təbiətdə baş verən hadisə və proseslərin mahiyyətini, eləcə də səbəb və nəticəsini bilməyə, həqiqətləri dərk etməyə kömək edir. Elm olmadan təbiət və insanla bağlı həqiqətləri bilmək qeyri-mümkündür. Həqiqəti bilmək isə müsəlman üçün çox önəmlidir. Çünki Qurani-Kərimdə və Məhəmməd peyğəmbərin hədislərində insanlar həqiqəti öyrənməyə, gerçəyi araşdırıb üzə çıxarmağa təşviq edilir.

Hədislərin birində deyilir ki, "Allahın ilk yaratdığı şey əqldir".[103] Müsəlman alimlərin fikrincə, Məhəmməd peyğəmbər bu hədisi ilə əqlin, sağlam məntiq və təfəkkürün

[103] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 7 s.

Allah yanında necə böyük qiymət kəsb etdiyini ümmətinə çatdırmaq istəmişdir. Həmçinin Quranın bir çox ayələrində Allah insanlara "düşünməyi", "ağıl, təfəkkür sahibi olmağı" tövsiyə edir və bunun əsasında elmin bünövrəsini təşkil edən əql dayanır.

Əql insanı düşünməyə, araşdırmağa sövq edir. Muminun surəsinin 80-ci ayəsində buyurulur: "Dirildən də, öldürən də Odur. Gecə və gündüzün bir-birinin ardınca gedib-gəlməsi də Onun əmridir. Məgər düşünmürsünüzmü?" Qurani-Kərimin məntiqinə görə, elm insanlara ən gözəl hədiyyə olaraq verilib, amma elm əldə etməyin yeganə yolu əql deyil. Əqllə yanaşı, qəlb və duyğu orqanları da elm qazanmağa vasitədir. "Məgər onlar yer üzündə gəzib-dolaşmırlar ki, düşünən qəlbləri (bəsirət gözləri), eşidən qulaqları olsun? Həqiqətən, gözlər kor olmaz, lakin sinələrindəki ürəklər (qəlb gözü) kor olar" (Həcc, 46).



Mədrəsə.
Orta əsr ərəb miniatürü

İslam elmə kainatın sirrini ortaya çıxaracaq tək yol kimi baxır. Eyni zamanda alimlərin elmi araşdırmalar və müşahidələr vaxtı tam obyektiv olmalarını zəruri sayır. İslam hesab edir ki, alim gəldiyi elmi nəticəni hansısa siyasi ideologiyaya görə dəyişməməli, elmi siyasiləşdirməməli, həqiqəti nə olursa olsun, təhrif etməməlidir. Bir sözlə, həqiqəti bilmək baxımından böyük əhəmiyyət kəsb edən elm nəyəsə alət olmamalıdır.

Faydalanmaq baxımından elmin əhəmiyyəti: Qurani-Kərimin Zariyat surəsinin 56-cı ayəsində buyurulur: "Mən cinləri və insanları yalnız Mənə ibadət etmək üçün yaratdım!" Nəhl surəsində (5-16-cı ayələr) isə dünya nemətləri sadalanaraq onların insanın xidmətinə verildiyi bəyan edilir. İslamın yanaşması belədir: Allah insanı ibadət üçün yaratmış, kainatı da onun xidmətinə vermişdir. Bundan necə istifadə etmək isə insanın öz ixtiyarındadır. Amma Allah kainatdan, yaratdıqlarından istifadə etmək üçün insana elm də bəxş etmişdir. Deməli, Allahın yaratdıqlarından faydalanmaq baxımından elm əhəmiyyətli, hətta zəruridir.

İslam inancına görə, alim məşğul olduğu işin ilk növbədə bəşəriyyət üçün nə qədər faydalı olduğunu düşünməli, insanlığa zərər vuran, xeyir gətirməyən elmdən uzaq durmalıdır. Bir sözlə, alim və elm bəşəriyyətə və insana xidmət etməlidir. Bununla bağlı Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir: "Faydasız elmdən Allaha sığınıram".[104] Hətta Qurani-Kərimdə elmi faydasız olan alim belində yük daşıyan uzunqulağa bənzədilir.

İslam alimləri tarixən insan üçün maddi və mənəvi baxımdan xeyirli olan elm və əxlaq anlayışı formalaşdırmış, nəticədə, heç kim elmdən zərər görməmişdir. Elmə əxlaq çərçivəsində yanaşılması islam aləmində elmdən çirkin məqsədlərlə istifadə edilməsinin qarşısını almışdır. Məsələn, atomda güclü enerji olduğunu, onun parçalana biləcəyini, parçalandığı zaman Bağdadı dağıdacaq bir gücə malik olduğunu ilk dəfə söyləyən böyük islam alimi Cabir ibn Həyyan (721-815) olmuşdur. Hətta böyük islam mütəfəkkiri

[104] Hədislərlə islam (Sərlövhə hədislər), Diyanet İşleri Başkanlığı, 2017 səh. 29

Mövlana Cəlaləddin Rumi (1207-1273) səkkiz əsr öncə atomun mahiyyətini və parçalana biləcəyini simvolik şəkildə izah etmişdir: "Əgər bir atomu kəssən, ortasında bir Günəş və onun ətrafında dayanmadan fırlanan planetlər görərsən".[105] Başqa bir türk-müsəlman alimi Davud Qeysəri (ö. 1350) atomun və təbiətin əslinin enerji olduğunu söyləmişdir. Amma bu alimlər atomla bağlı fikirləri ilə insanları narahat etməmiş, yaşadıqları dövrdə enerji problemi olmadığı üçün atomu parçalamağı düşünməmişlər. O dövrdə əsas məqsəd yalnız maddə və kainatın strukturu ilə bağlı həqiqəti ortaya çıxarmaq olmuşdur.

Allahı dərk etmək baxımından elmin əhəmiyyəti

İslama görə, elmin ən son məqsədi insanı Allahın varlığına inandırmaqdır. Əgər alim hansısa siyasi ideologiyanın təsiri altına düşməyibsə və obyektiv düşünə bilirsə, o öz elmi ilə Allahın varlığını və birliyini dərk edəcəkdir. Qurani-Kərimin bir çox ayələrində kainatdakı varlıqların hər birinin Allahın bir "ayəsi" və "əlaməti" olduğu bildirilir, onları görən, onlardakı sirri açıqlayan elm adamlarının Yaradanın varlığını mütləq sezə biləcəyi bəyan edilir. Həqiqi elm adamları təbiətdəki varlıqların necə mükəmməl yaradıldığını, hər birinin möcüzəvi sənət

[105] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh.14

əsəri kimi işləndiyini görər və bunun qarşısında acizliyini dərk edər və Allaha yaxınlaşar. Qurani-Kərimdə "Allahdan ən çox qorxanlar gerçək alimlərdir" buyurulması məhz buna görədir.[106] Eyni zamanda Allah bəzi ayələrdə insanların elmsiz şəkildə Yaradanın varlığı və birliyi haqqında danışmasını qadağan edir: "İnsanlar içərisində eləsi də vardır ki, heç bir şey bilmədən, haqq yolu göstərən heç bir rəhbəri və nurani kitabı olmadan Allah barəsində mübahisə edər" (Həcc, 8). Bu baxımdan həm Allahı tanımaq, həm Onun haqqında danışmaq, həm də insanları islama dəvət etmək üçün elm şərtdir. Qurani-Kərimin məntiqinə görə, elm təkcə dini hökmləri, şəriət məsələlərini deyil, həm də təbiət və insanla bağlı bütün məsələləri ehtiva edir. Beləliklə, "elm" dedikdə həm dini, həm də dünyəvi elmlər nəzərdə tutulur.

İslam peyğəmbəri elmə və alimə böyük dəyər verdiyi üçün orta əsrlərdə müsəlman hökmdarların əksəriyyəti onun yolu ilə gedərək alimlərə hörmətlə yanaşmışdır. Bu fikri təsdiqləyən onlarla tarixi fakt qeyd etmək olar. Məsələn, böyük islam alimlərindən Biruni (973-1048) yazır ki, bir dəfə Xarəzmşah məni çağırmışdı. Yanına çatanda atdan düşüb mənimlə birgə addımladı. Nə qədər and versəm də, ata minməkdən imtina etdi və mənə "Elm vəzifələrin ən üstünüdür. Digər vəzifə və rütbələrin hamısı elmdən sonra gəlir" dedi.

Bu cür nümunələrə islam tarixində sonrakı dövrlərdə də rast gəlmək mümkündür. Böyük Səlcuq hökmdarı Məlikşah (1055-1092) "Hökmdarların ən yaxşısı alimləri ziyarət edən, alimlərin ən pisi padşah ziyarətinə getməyə adətkar

[106] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 7 s.

olandır" deyərək alimin məqamının hökmdarlardan daha yüksək olduğunu bəyan etmişdir.

Avropadan fərqli olaraq Şərqdə nə vaxtsa müsəlman alim hansısa kəşfinə və ixtirasına görə tonqala atılmamış və ya işgəncə ilə öldürülməmişdir. Əksinə, bəzi dövrlərdə xurafatçı qrupların təzyiq və təqibləri istisna olmaqla elmi ixtiralar müsəlman cəmiyyətlərində rəğbətlə qarşılanmış, alimə həm dövlət, həm də xalq tərəfindən yüksək dəyər verilmişdir. Bunun əsas səbəbi odur ki, islamda bütün kəşflər insanı Allaha aparan yol kimi qəbul edilir və onlar Yaradanı dərk etməyə xidmət göstərir.

Orta əsrlərdə elmə münasibətdə Şərqlə Qərbi fərqləndirən əsas cəhətlərdən biri də müsəlmanların tolerantlığı idi. İslam dünyasında alimlər fikir və düşüncələrinə görə təqib və təzyiqlərə məruz qalmırdılar. Avropalıların ağır işgəncələr verilməsi yolu ilə qarşısını almağa çalışdıqları bəzi fəlsəfi fikir və ideya cərəyanları islamın ümumi mahiyyətinə zidd olmasına baxmayaraq, müsəlmanlar arasında sərbəst yayıla bilmişdir. Hətta fərqli düşünən elm adamları arasında böyük nüfuz sahibi şəxsiyyətlər də olmuşdur. Məsələn, Əlamıəkr Məhəmməd ibn Zəkəriyyə əl-Razinin (865-925) fikir və düşüncələri islamla ziddiyyət təşkil etsə də, yaşadığı dövrün ən böyük alimlərindən biri kimi rəğbət və şöhrət qazanmışdır. Məhz bu cür yüksək tolerantlığın nəticəsində islam dünyasında VIII-XII əsrlərdə bugünkü mədəniyyətə zəmin yaradan elmi hərəkatın təməli qoyulmuşdur.

Müsəlmanların ilk elmi fəaliyyətləri

İslam Məkkədə meydana gəldikdən sonra tədricən Ərəbistan yarımadasının hüdudları daxilində yayılmağa başladı. Raşidi xəlifələri (Əbu Bəkr, Ömər, Osman və Əlinin hakimiyyəti illəri: 632-661) və Əməvilər dövründə (661-750) isə müsəlmanlar Şərqdə Orta Asiya və Çinə qədər uzanan bölgələrə, Qərbdə Əndəlüs (İspaniya) vasitəsilə Avropanın bir hissəsinə hakim oldular. Abbasilər dövründə islam fütuhatı səngidi, elmi axtarışlar başladı, mədəni əlaqələr genişləndi. Şərqdə Abbasi xəlifələri hökm sürərkən Qərbdə Əndəlüs Əməvi (Kordova) xilafəti (756-1031) quruldu. Onların hər ikisi elmin, mədəniyyətin inkişafına böyük xidmət göstərdi. Həmin dövrdə Şərqdə elmin hamisi Abbasilər, Qərbdə isə Əməvilər idi.

Müsəlmanlar ilk öncə dinin əməllərini daha yaxşı anlamaq və tətbiq etmək üçün elm öyrənməyə başlamışlar. Riyaziyyat xüms və zəkat ibadətinin və miras hüququnun, astronomiya namaz və oruc ibadətinin, coğrafiya həcc ibadətinin, tibb yenə də namaz və oruc ibadətlərinin yerinə yetirilməsində müsəlmanlara yardımçı olmuşdur. Bir sözlə, din elmləri ilə ictimai və təbiət elmləri bir-biri ilə elə qaynayıb-qarışmışdır ki, islam və elm vəhdətə çevrilmişdir.

Ərəbistan yarımadasının sərhədlərini aşdıqdan sonra islam yayıldığı ölkələrdə yerli mədəniyyətlərlə təmas qurdu. Bu mədəniyyətlər ilk növbədə qədim yunan, İran, Misir, Mesopotamiya mədəniyyətləri idi. Müsəlmanlar qədim yunanlardan fəlsəfə, tibb, həndəsə və nücum elmlərini, iranlılar-

dan ədəbiyyat, tarix və musiqini, babillilərdən tilsim və sehri, misirlilərdən anatomiya və kimyanı öyrəndilər. Bu elmlər əvvəllər ərəbcəyə tərcümə yolu ilə keçmiş, sonralar isə bu tərcümələrin təsiri ilə həmin sahələrdə yüzlərlə əsər yazılmışdır. Bu mədəniyyətlərlə ilk təmas hicrətin birinci əsrində, Əməvilər dövründə başlamış, Abbasilər dövründə daha da inkişaf etmişdir.[107]



Şərqdə rəsədxana. Kembric Universitetinin Tarix Muzeyi

Dini elmlərə gəlincə Quranda təbiət elmlərinə işarə edən ayələrin təfsirinə başlanılması Abbasilər dövründə Aristotel fəlsəfəsinin, Ptolemey astronomiyasının tərcümə yolu ilə islam dünyasına nəql edilməsi və tədricən müsəlmanlar arasında yayılması nəticəsində olmuşdur. Beləliklə, bütün elmi araşdırmaların və kəşflərin ilham qaynağı olan Qurani-Kərimi daha yaxşı anlamaq üçün təfsir elmi, təfsir edə bilmək üçün isə hədis elmi yaranmışdır. Dini hökmləri açıqlayan fiqh (islam hüququ), inanc əsaslarını açıqlayan kəlam və islam tarixini aydınlaşdıran siyər elmləri formalaşmışdır.

İslam dünyasında elm və mədəniyyətin çiçəklənməsi elə bir dövrdə baş verirdi ki, hunların və onların Qərbə doğru sıxışdırdıqları german tayfalarının dağıdıcı basqınları nəticəsində Avropada antik mədəniyyət artıq tənəzzülə

[107] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – səh. 17.

uğramışdı. Təsadüfi deyil ki, orta əsrlərin əvvəlləri Avropada "qaranlıq dövr" adlandırılır. Sonrakı mərhələdə isə Avropanı feodal müharibələri bürümüş, Qərb dünyası uzun sürən mədəni, elmi durğunluqla üzləşmişdir.

Orta əsrlər Avropasında elmin qarşısını kəsən əsas qüvvə kilsə hesab edilirdi. Çünki elmin inkişafı son nəticədə cəmiyyətin və insanların tərəqqisinə xidmət edir, bu isə kilsənin imtiyazlarını itirməsinə səbəb olurdu. Məhz Avropada elmin və mədəniyyətin tənəzzülə uğradığı bir zamanda islam dünyasında, o cümlədən Avropanın qərbində, Pireney yarımadasında yaranan müsəlman dövləti – Kordova xilafətində mədəniyyət və elm tərəqqi dövrünü yaşayırdı. İslam dünyasında elm və mədəniyyətin inkişaf etdiyi dövr VIII-XIII əsrlərə təsadüf edir ki, bu dövr "İslamın qızıl əsri" və ya "Müsəlman intibahı" adlandırılır. Bu dörd-beş əsr ərzində müsəlman elm adamları həm keçmiş mədəniyyətlərdən tərcümə yolu ilə əldə etdikləri biliklərin nöqsanlı tərəflərini müəyyənləşdirərək onları daha da təkmilləşdirdilər, həm də bir-birindən önəmli elmi nəzəriyyə və kəşflərə imza atdılar.

Eyni zamanda müsəlman alimlər elmi kəşflərə və yeniliklərə islam dininin əsaslarına və düşüncə tərzinə uyğun yaratdıqları fəlsəfi yanaşma ilə təkan verdilər və həmin fəlsəfənin ümumi mahiyyəti çərçivəsində elmi kəşfləri izah etdilər. Onların elmə yanaşma fəlsəfəsinin məqsədi hər şeydən öncə təbiətdəki və insandakı ilahi hikməti göstərmək və bəşəriyyətin zəruri ehtiyaclarını ödəmək üçün elmdən faydalanmaq idi. İslam alimləri əsla indiki dövrdə olduğu kimi təbiəti vandalcasına istismar etməyə, elmdən çirkli məqsədlər üçün yararlanmağa çalışmırdılar. Bəlkə də, elə buna

görədir ki, müsəlman alimlərin adı ilə bağlı olan elmi nəzəriyyə və kəşflərin bir çoxu bugünkü müasir elmin bünövrəsini təşkil edir, həmçinin həmin nəzəriyyə və kəşflərin bəziləri indi də öz aktuallığını qoruyur.

İslam dünyasında elmin inkişafı qısa bir zamanda və çox sürətlə baş verdi. Belə ki, islamda ilk təhsil fəaliyyəti Məhəmməd peyğəmbərin dövründə Bədr savaşından sonra başlamışdı. Bədr savaşında əsir düşən, oxumağı-yazmağı bilən və bir müsəlmana oxuyub-yazmağı öyrədən şəxs Məhəmməd peyğəmbərin qoyduğu şərtə əsasən azad olunurdu. Müsəlmanlara oxuyub-yazmağı öyrətməklə başlayan təlim-tədris fəaliyyəti daha sonra məscidlərə keçdi. Növbəti mərhələdə məhəllə məktəbləri adlanan təhsil ocaqları yarandı. Eyni zamanda buna paralel olaraq o dövrdə bəzi savadlı qəbilə rəisləri evlərində öz uşaqları ilə yanaşı, başqalarına da oxuyub-yazmağı öyrədirdilər. İlk vaxtlarda məktəblərdə dərs proqramı çox bəsit idi. Şagirdlərə oxuyub-yazmaq və cümlə quruluşu öyrədilir, əsas dini biliklər verilirdi. Qurani-Kərim oxudularaq əzbərlədilirdi. Habelə gündəlik lazım olan hədislər oxudulur, sadə riyazi məsələlər izah olunurdu.[108]

632-ci ildə Məhəmməd peyğəmbər vəfat etdiyi zaman müsəlmanlar bəsit biliklərə, hətta sadə silahlara sahib idilər. Buna baxmayaraq, 634-cü ildə Suriyanı Bizansın əlindən aldılar, 635-ci ildə Anadolunun cənub sərhədlərinə kimi gəlib çıxdılar, 637-ci ilə qədər bütün İraqı fəth etdilər, 641-ci ildə Misiri, 642-ci ildə İranı ələ keçirməklə çox böyük

[108] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 15

dövlət qurdular. Müsəlmanların 649-cu ildə Kipr adasında qısamüddətli hakimiyyətləri, 652-ci ildə Siciliya sahillərini fəth etmələri, bir neçə il sonra Krit və Rodosdan başqa Egey dənizindəki bir çox adalara və İzmirə hücum etmələri, 674-678-ci illərdə hər il Konstantinopolu mühasirəyə almaları onların Məhəmməd peyğəmbərin vəfatından keçən 40 il ərzində nə qədər böyük gücə çevrildiklərini göstərir. Bütün bunlar elmsiz və təhsilsiz baş verə bilməzdi. Həmçinin dövlətin güclənməsi elmin inkişafına da təkan verirdi.

İslam dünyasında elmin inkişafında tərcümə fəaliyyətinin xüsusi əhəmiyyəti olmuşdur. Ümumiyyətlə, müsəlmanların ilkin elmi fəaliyyətləri məhz tərcümə ilə bağlıdır. Bu sahədə araşdırma aparmış tədqiqatçılar islam dünyasında elmin inkişafını, əsasən, iki mərhələyə bölürlər: elmi kitabların ərəb dilinə tərcümə edilməsi mərhələsi (tərcümə dövrü) və yeni kitabların yazılması mərhələsi (yaradıcı dövr). Birinci mərhələdə, demək olar ki, bütün elm sahələrinə aid başqa dillərdə yazılmış kitabların əksəriyyəti ərəbcəyə tərcümə olundu. Təxminən VIII əsrdə sürətlənən "tərcümə mərhələsi" IX əsrin əvvəllərində başa çatdı. Cəmi 60-70 il davam edən bu mərhələdə müsəlmanlar həm elm sahələri ilə tanış oldular, həm də elmi mənimsəyə bildilər. VIII əsrdə yunan dilində yazılmış əsərlərin bir çoxu ya birbaşa, ya da digər dillərdən ərəbcəyə tərcümə edilmişdir. Hətta bəzi əsərlərin tərcüməsi qənaətbəxş sayılmadığı üçün yenidən tərcümə olunmuşdur.[109]

[109] Fuat Sezgin, İslam Elmlər Tarixi Haqqında Konfranslar, Başlakitab, 2017, səh. 142

Beləliklə, müsəlmanlar qısa müddət ərzində həm güclü dövlət qurdular, həm də o dövr üçün müasir sayılan elmi biliklərə sahib olmaq məqsədilə böyük yol qət etdilər. Hələ xəlifə Ömərin (634-644) dövründə islamdan öncə dağınıq şəkildə olan ərəb dilinin ilk qrammatik qaydalarının yaradılmasına başlandı, habelə kimyaya aid bir neçə kitabça yunan dilindən ərəbcəyə tərcümə edildi. Onu da qeyd edək ki, ərəb dilinin qrammatikası ilə bağlı ilk kitab yazan bəsrəli Əbül-Əsvəd Duəli yalnız fail və məfulun, bugünkü ifadə ilə desək, "mübtəda" və "tamamlığ"ın dildəki funksiyasını incələmişdi. Həmin kitabça cəmi dörd vərəq olsa da, bu sahədə ilk əsər idi. Sonrakı dövrdə ərəb qrammatikasında qət edilən bir əsrlik yol əslən fars olan Sibəveyhin (765-796) bizə gəlib çatmış qrammatika kitabında mükəmməl şəkildə öz əksini tapdı. Onun "Əl-Kitab" adlı əsərinə bənzər bir kitaba həmin dövrdə digər dillərdə rast gəlmək qeyri-mümkündür. Ərəb dilinin qrammatikası ilə bağlı kitabların yazılması Sibəveyhi ilə bitmədi, bu sahə öz inkişafını hələ bir neçə əsr davam etdirdi. Avropada qrammatik qaydalara aid bu cür kitablar XIX əsrdə yazılmağa başladı. Halbuki islam dünyasında bu əsərlər XI yüzillikdə yazılmışdı.



Orta əsrlərə aid ulduz xəritəsi

Başqa dillərdəki elmi kitabların ərəbcəyə tərcüməsi çox vaxt xəlifələrin göstərişi və təşəbbüsü ilə həyata keçirilirdi. Məsələn, Abbasi xəlifəsi Mənsur (713-775) hələ 770-ci ildə hind-

lilərin irihəcmli “Siddhanta” adlı astronomiya və riyaziyyat kitabını ərəbcəyə tərcümə etdirmişdi.[110] O, Bizans imperatoruna məktub yazaraq riyaziyyata aid kitabların tərcümə edilərək onlara göndərilməsini istəmişdi. İmperator isə ona Evklidin əsərlərini və təbiətşünaslığa dair bəzi kitabları göndərmişdi.

Ümumiyyətlə, müsəlmanlar qədim dünyanı çox erkən tanımağa başlamışlar. Hələ VII əsrdə Çində, VIII əsrdə Madaqaskarda ərəb tacirləri var idi. Hətta Çinin Kanton şəhərində müsəlman məhəlləsi salınmışdı. IX əsrin ikinci yarısında İraqın Bəsrə şəhərinin yaxınlığında hazırlanmış gəmilər indiki Mərakeşin Massa əyalətindəki limandan dəniz yolu ilə Çinin Kanton limanına yük daşıyırdı.[111] Çünki Afrikanın cənubunda Atlantik okeandan Hind okeanına keçid o dövrdən müsəlmanlara məlum idi. Onlar artıq VIII əsrin əvvəllərində dünyanın dairəvi olduğunu yunan mənbələrindən öyrənib tərəddüdsüz qəbul etmişdilər.

Həmçinin müsəlmanlar IX əsrin ilk rübündə yunanların dünya xəritəsi ilə tanış olmuşdular. Ərəb dilinə köçürülən Ptolemey xəritəsindən sonra xəlifə Məmun (786-833) yetmişə qədər alimə dünya xəritəsi yaratmağı və dünya coğrafiyası yazmağı tapşırmışdı. Həmin dövrdə hazırlanmış xəritənin yeganə nüsxəsi hazırda Türkiyədə saxlanılır. Maraqlıdır ki, qədim yunan xəritələrində Hind və Atlantik okeanlar qapalı dənizlər kimi göstərilir. Lakin xəlifə Məmunun hazırlatdığı xəritədə bu okeanlar qapalı dəniz kimi yox, həqiqətə daha yaxın formada təsvir edilir.[112]

---

[110] Fuat Sezgin, İslam Elmlər Tarixi Haqqında Konfranslar, Başlakitab, 2017, səh. 126
[111] Yenə orada, səh. 149
[112] Yenə orada, səh. 17

Beləliklə, əvvəlcə tərcümələr əsasında, daha sonra onlara istinadən yeni elmi kitabların yazılması ilə islam elminin təməl daşları qoyuldu. İslamın hələ birinci əsri sona çatmadan müsəlmanlar yalnız tərcümə işi ilə kifayətlənməyib bir çox sahələrdə kitablar yazdılar. Həmin dövrdə dünyəvi elmlərlə yanaşı, dini elmlər sahəsində də tərəqqi baş verdi. İlk Quran təfsirləri, hüquq, hədis və tarix kitabları bu dövrdə yazıldı.

İslam dünyasında elm-təhsil müəssisələrinin yaradılması

Məhəmməd peyğəmbərin vəfatından sonra qısa müddətdə islam dünyası sürətlə inkişaf etdi. Müsəlmanlar təxminən 20 il ərzində tarixən mədəniyyətlər beşiyi olan indiki Suriya, İraq, Misir və İran ərazisini tutdular. Bu dövrdə islam dünyası təkcə ərazi cəhətdən böyümədi, həm də yeni mədəniyyətlərlə tanışlıq müsəlmanların iqtisadi, mədəni, elmi baxımdan inkişafına zəmin yaratdı. Qədim yunan, Mesopotamiya, Hind, Misir və Çin mədəniyyətinə məxsus yazılı kitabların ərəb dilinə tərcüməsi dövrü uzun çəkmədi. İslam elmində yeni – yaradıcı mərhələ başladı. Bu mərhələdə ərəb dilinə tərcümə edilmiş elmi kitablara istinadən yeni kitablar yazıldı. Elmi kitabları ərəbcəyə tərcümə edənlərin əksəriyyəti müsəlmanların yeni tanış olduqları mədəniyyətlərin nümayəndələri idi. Hətta onların bir çoxu islamı qəbul etməmişdi. Amma buna baxmayaraq, islam dövləti inancından və di-

nindən asılı olmayaraq elmlə məşğul olan hər kəsi dəstəkləyir və himayə edirdi. Əslində, elmin sürətlə inkişafına təkan verən əsas amillərdən biri məhz islamın və dövlət rəhbərlərinin elmi axtarışları və yenilikləri təşviq etməsi idi.

Müsəlmanlar dünya və axirət işlərini islamın prinsiplərinə uyğun olaraq bir-birindən ayırmadan cəmiyyətin və insanların zaman keçdikcə artan maddi və mənəvi ehtiyaclarını nəzərə alaraq bütün sahələrdə təhsil və tədrisin həyata keçirilməsinin vacibliyini başa düşürdülər. Ona görə də hələ ilk dövrlərdən təhsil ocaqları və elm müəssisələri yaratmağa başladılar. Nəticədə, islam dünyası həm siyasət və dövlət işlərində, həm də elm sahəsində paralel şəkildə sürətli inkişafa nail ola bildi.

Xəstəxanalar və tibb mədrəsələri

Tədqiqatçıların ümumi qənaətinə görə, islam dünyasında ilk akademik təhsil müəssisəsi xəstəxanalar və tibb mədrəsələri olmuşdur. Bunun başlıca iki səbəbi var: birincisi, Məhəmməd peyğəmbərin elmləri qruplaşdırarkən təbabətə xüsusi işarə vurması, ikincisi, hər şeydən öncə insanın özünü qorumaq istəməsi, sağlam yaşamaq arzusudur.[113]

Məhəmməd peyğəmbərin hədislərinin birində deyilir ki, "İman istisna olmaqla insana sağlamlıqdan daha xeyirli bir ne-

[113] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 16

mət verilməmişdir". Başqa bir hədisində "Dualarınızın ən xeyirlisi Allahdan bağışlanmağı və sağlam olmağı diləməyinizdir"[114] buyurulur. Təsadüfi deyil ki, islam təbabəti məhz Məhəmməd peyğəmbərin müxtəlif xəstələrə tövsiyələrini ehtiva edən sözləri ilə başlayır. Bu sözlər daha sonra "Tibbi-Nəbəvi" ("Peyğəmbər təbabəti") adı altında kitab formasına salınmış, hədis kitablarında isə müstəqil bölüm kimi verilmişdir.

Müsəlmanlar arasında ilk həkim adlandırılan şəxslər səhabələrdən Haris ibn Kələdə və Təmim qəbiləsindən məşhur cərrah İbn Əbi Ramsa olmuşdur. Tarixi mənbələrdə peyğəmbər dövrünün məşhur həkimi sayılan Haris ibn Kələdənin İrandakı Cündişapur xəstəxanasında (eyni zamanda tibb mədrəsəsi hesab edilirdi) təhsil aldığı qeyd olunur.

Hələ Məhəmməd peyğəmbərin dövründə Xəndək döyüşü zamanı, indiki ifadə ilə desək, ilk hərbi-səhra xəstəxanası yaradılmışdır. Bu cür xəstəxanalar döyüşdə yaralananlara ilkin yardım göstərmək üçün idi və müasir dövrdəki müalicə müəssisələrinə bənzəmirdi. İslam dünyasında xəstələrin müalicəsi məqsədilə xəstəxanaların yaradılması VIII əsrin əvvəllərinə təsadüf edir. Tarixi qaynaqlara əsasən ilk xəstəxana və onun tərkibində tibb mədrəsəsi Əməvi xəlifəsi Vəlid ibn Əbdülməlik (668-715) tərəfindən 707-ci ildə Dəməşqdə yaradılmışdır.[115] Onun fəaliyyəti və təhsil forması barədə tarixi qaynaqlarda ətraflı məlumat yoxdur.

İslam coğrafiyasında xəstəxanaların və tibb mədrəsələrinin çoxalması Abbasilər dövrünə təsadüf edir. Bu müəssisələrdə həm praktik, həm də nəzəri dərslər keçilirdi.

---

[114] Hədislərlə İslam (Sərlövhə hədislər), Diyanet İşleri Başkanlığı, 2017 səh. 380
[115] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 16

Tələbələr diplom almazdan əvvəl müasir dövrümüzün diplom işinə bənzər elmi əsər yazırdılar. Bu cür qurumları, adətən, ya xəlifələr, ya valilər, ya digər dövlət adamları, yaxud varlı şəxslər yaradırdılar. Xəstələrin müalicəsi və tələbələrin təhsili üçün xərcləri, əsasən, dövlət ödəyirdi. Onların arasında fərqli dinlərin və xalqların nümayəndələri var idi və heç bir ayrı-seçkiliyə yol verilmirdi.

ABŞ-nin Corc Vaşinqton Universitetinin professoru, islam tədqiqatçısı Seyid Hüseyn Nəsr yazır ki, "xəstəxana müsəlmanlara bir qurum kimi İran və Bizansdan miras qalıb. İslamın meydana çıxmasından az əvvəl indiki Əhvaz şəhəri (İran ərazisindədir) yaxınlığındakı Cündişapur xəstəxanası xəstələrin müalicə olunması ilə yanaşı, əhatəli tibb təhsilinin verildiyi böyük bir tibb qurumu idi. Həqiqətən də, bu xəstəxana-məktəb kompleksi hind və İran təbabəti ilə yanaşı, yunan təbabətinin də islam dünyasına nəqlində başlıca vasitə olmuşdur.

...İslam dünyasının bir hissəsinə çevrilən Suriya kimi Şərq əyalətlərində bizanslıların qurduğu xəstəxanalar da var idi. Bu qurumlardan yararlanan müsəlmanlar qısa vaxt ərzində öz xəstəxanalarını yaratdılar".[116] Cündişapur tibb məktəbini Sasani hökmdarı I Şapur təxminən 260-cı illərdə inşa etdirmişdi. Onun yanındakı xəstəxana isə II Şapur tərəfindən 350-ci ildə yaradılmışdı. Cündişapur xəstəxanası və tibb məktəbi X əsrin sonunadək fəaliyyət göstərmişdir. Onun fəaliyyətində Bizans imperiyasından qovulmuş nəsturi məzhəbinə mənsub həkimlərin və Hindistandan gəlmiş təbiblərin böyük xidmətləri olmuşdur.

---

[116] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", "Şans Mətbəə Ltd" MMC, 2017. – 22 s.

İslamın ilkin dövrlərində müsəlmanlar qədim yunan, hind, Misir və Çin təbabətindən bəhs edən kitabların tərcüməsi ilə kifayətlənmədilər, qısa müddətdə bu sahə ilə bağlı xeyli kitab yazdılar və yeniliklərə imza atdılar. Nəticədə, təbabət Qalen və Hippokratdan sonra müsəlmanların sayəsində sürətli inkişaf yolu keçdi.



XI əsrə aid tibb kitabında qan dövranı və daxili orqanlar

Tarixi mənbələrə əsasən IX əsrdən etibarən islam dünyasında ixtisaslaşmış xəstəxanalar (darüşşəfa) yaradılmışdır. Onların arasında cüzamlı və ruhi xəstələr üçün açılmış şəfa ocaqlarını xüsusi qeyd etmək lazımdır. Xəlifə Mütəvəkkilin (822-861) dövründə Bağdadla Vasit arasında Deyir Hızkıl adlı yerdə yalnız ruhi xəstələr üçün xəstəxana yaradılmışdır. Ən qədim psixiatriya xəstəxanası olan bu şəfa ocağı 1409-cu ildə İspaniyada (Hospital General de Valencia) və 1404-cü ildə İngiltərədə (Bethlem Hospital) yaradılmış eyni təyinatlı xəstəxanalardan daha modern hesab olunur. Hətta 872-ci ildə Misir hakimi Əhməd ibn Tulun (835-884) tərəfindən inşa edilmiş şəfa ocağında xəstələr xüsusi paltarlar geyinmiş, dərman və yeməklə təmin edilmişdir. İbn Tulunun hər cümə günü xəstəxanaya gedərək həkim və xəstələrlə görüşməsi də mənbələrdə qeyd olunmuşdur.[117] Böyük islam tarixçisi

[117] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", "Şans Mətbəə Ltd" MMC, 2017. – 23 s.

Məqrizinin (1364-1442) verdiyi məlumatdan aydın olur ki, tibb və psixiatriya tarixində böyük önəm daşıyan bu xəstəxana xəstələrə göstərilən xidmətlərə görə modern xəstəxanalarla eyni pillədə dayanmışdır.

Abbasilər dövründə tibbi xidmət sahəsində bir sıra yeniliklərə imza atılmışdır. Məsələn, məşhur həkim Sinan ibn Sabitin tövsiyəsi və Abbasi vəziri Əli ibn İsanın əmri ilə həkimlər hər gün həbsxanaya gedir, məhbusları müayinə və müalicə edirdilər. O dövrdə səyyar xəstəxanalar da fəaliyyət göstərirdi. Həmin xəstəxanalardakı həkimlər kəndbəkənd gəzir, həm müsəlmanların, həm də qeyri-müsəlmanların müayinə və müalicəsi ilə məşğul olurdular.

İslam dünyasında tibbin və xəstəxanaların inkişafının ən yüksək mərhələsi X-XI əsrlər hesab olunur. Bu əsrlərdə, demək olar ki, bütün müsəlman şəhərlərində xəstəxanalar fəaliyyət göstərmişdir. IX əsrdə ən məşhur xəstəxanalardan biri Rey şəhərində yaradılmışdır. Böyük islam alimi Əbu Bəkr Məhəmməd ibn Zəkəriyyə əl-Razinin fəaliyyət göstərdiyi bu xəstəxanada tibb sahəsində önəmli tədqiqatlar aparılmışdır.

X əsrdə islam coğrafiyasında ən böyük şəfa ocağı 981-ci ildə Büveyhi əmiri Adudüddövlə (949-983) tərəfindən inşa etdirilmiş Adudi xəstəxanası olmuşdur. Burada göz həkimi, ortoped, cərrah da daxil olmaqla 24 həkim fəaliyyət göstərmiş, Səlcuq hökmdarı Sultan Toğrulun (990-1063) dövründə həkimlərin sayı 28-ə çatdırılmışdır. Xəstəxanada tibb təhsili də verilmiş, dövrün böyük təbabət mərkəzinə çevrilmişdir. Tarixi mənbələrə görə, Dəclə çayından xəstəxanaya xüsusi üsulla su çəkilmiş və həkimlərin rahatlığı və müalicə üçün hər cür şərait yaradılmışdır. Həkimlər

gecələr də növbəli şəkildə işləyir, xəstələr üçün dərmanlar hazırlayır, müxtəlif müalicə metodları tətbiq edirdilər. Adudi xəstəxanası 1258-ci ildə monqollar Bağdadı işğal edənə qədər fəaliyyət göstərmişdir.

İslam dünyasında xəstəxanaların yaradılmasında və tibbin inkişafında Səlcuqluların böyük xidməti olmuşdur. Son dövrün araşdırmaları təsdiqləyir ki, Çin və Hindistandan Aralıq dənizinə qədər böyük coğrafiyada Səlcuqluların yayılması və dövlət qurması təkcə türk-islam deyil, həm də Avropa tarixi baxımından dönüş nöqtəsi olmuşdur. Səlcuqluların Avropada xüsusilə xəstəxanaların və universitetlərin fəaliyyətinə necə böyük təsir göstərmələri artıq faktlarla sübut edilmişdir.

Bəzi qaynaqlara görə, Səlcuqluların ilk xəstəxanası və tibb mədrəsəsi Səlcuq sultanlarının vəziri Nizamülmülk (1018-1092) tərəfindən Nişapurda yaradılmışdır. Səlcuqlular 1055-ci ildən etibarən Bağdad, Şiraz, Zəncan, Gəncə, Mardin və digər şəhərlərdə onlarla xəstəxana açmışlar. Həmin xəstəxanalar içində cüzamlı və psixoloji problemləri olan xəstələrin müalicə olunduğu xüsusi şəfa ocaqları var idi. İndiki Türkiyə ərazisində bu cür xəstəxanalar indi də tarixi abidə kimi qorunur.

Ümumiyyətlə, islam dünyasında Səlcuqlulara qədər fəaliyyət göstərmiş xəstəxanalardan heç birinin binası dövrümüzə qədər gəlib çatmamışdır. Bu baxımdan islam dünyasındakı xəstəxanaların memarlıq xüsusiyyətlərini Səlcuqlular dövrünə əsasən tədqiq etmək mümkündür. O dövrdə inşa edilmiş xəstəxanaların memarlıq xüsusiyyətlərinin tədqiqi bir sıra həqiqətləri ortaya çıxarmışdır. Məsələn,

xəstəxanaların tikilişində bəzi elementlərdən (heyvan fiqurları, Ay və Günəş motivləri və s.) istifadə olunması, eləcə də binanın önündə çoxtağlı eyvan olması Səlcuqlulara xasdır. Orta Asiyadan gəlmiş bu memarlıq elementlərinə sonrakı dövrlərdə Avropada inşa edilmiş xəstəxana binalarında rast gəlinir. Çünki Səlcuqlular dövründə yaradılmış xəstəxanalar səlib yürüşləri zamanında fəaliyyət göstərirdi. İslam mədəniyyətinin Avropaya ən güclü təsir dövrü də məhz səlib yürüşləri zamanına təsadüf edir. Bu baxımdan Səlcuqluların digər sahələrdə olduğu kimi təbabətdə də Avropaya təsiri özünü əyani formada göstərmişdir.

Səlcuqlular dövründə xəstəxanalarla yanaşı, Anadoluda müalicə məqsədilə bir sıra mineral sulardan istifadə etmək üçün hamam və şəfa ocaqları (müasir sanatoriyaların ilkin forması) yaradılmışdır. Ümumiyyətlə, ozamankı xəstəxanaları dörd qrupa bölmək olar: 1. Səyyar xəstəxanalar; 2. Karvansara xəstəxanaları; 3. Saray xəstəxanaları; 4. Tibbi təhsil üçün yaradılmış, ümumi xəstəxana mahiyyətli mədrəsələr.[118]

Səlcuq sultanı Məlikşahın ordusunda təbiblərlə xəstələrin, tibbi alət və dərmanların 100 dəvə ilə daşındığı səyyar xəstəxana var idi. Bu tip xəstəxanaların yaradılmasını misirli Məmlük sultanları Səlcuq sultanlarından öyrənmişdilər. Misir ordusu səfərə çıxanda bu xəstəxana onlarla birlikdə gedir və yaralılara xidmət göstərirdi. Səlcuq sultanları karvansara xəstəxanalarını səfərdə olanlara xidmət etmək üçün yaratmışdılar. Bu cür xəstəxanalar karvansaralarda yaradılır və

[118] TDV İslam Ansiklopedisi, Bimaristan, Cild 6, səh. 168, 1992

səfər zamanı xəstələnmiş şəxslərin müalicəsini həyata keçirirdi. Karvansara xəstəxanaları bir çox şəhərlərdə, xüsusilə Anadolu ərazisində fəaliyyət göstərmişdir.

Səlcuqluların saray xəstəxanası ənənəsini sonrakı dövrlərdə Osmanlılar və Monqollar davam etdirmişdir. Hətta bu ənənə Avropaya və Çinə də təsir göstərmişdir. Kirman Səlcuq sultanı I Turanşahın (1085-1097) sarayında yaratdığı xəstəxana saray məmurlarına və mühafizəçilərə xidmət göstərirdi. Səlahəddin Əyyubi Səlcuqlu atabəyi Nurəddin Zənginin sərkərdəsi kimi Qahirəni tutanda (1181) oradakı Fatimilər sarayının bir hissəsində xəstəxana yaratmışdı. O dövrdə tibb təhsili üçün ümumi xəstəxana mahiyyətli mədrəsələrin yaradılması Səlcuq sultanlarının vəziri Nizamülmülkün adı ilə bağlıdır. O, Bağdadda yaratdığı Nizamiyyə mədrəsəsində xəstəxana da açmışdı. Bu tip mədrəsələrdə həm xəstələr müalicə edilir, həm də tibb təhsili verilirdi. Nəticədə, tələbələr nəzəriyyə ilə praktikanı eyni vaxtda və eyni yerdə əldə etmiş olurdular.

Tarixi qaynaqlara görə, Səlcuqlular dövründə məşhur tibb akademiyasına çevrilən Adudi xəstəxanasında həm xəstələr müalicə olunur, həm də tələbələr təhsil alırdı. Tələbələr sonda indiki doktorluq dissertasiyası mahiyyətində risalə yazırdılar.[119] Tibb mədrəsələrindəki bu qayda daha sonralar Avropadakı tibb fakültələrində tətbiq edilmişdir.

Müsəlman alimlər xəstəxanaların və həkimlərin fəaliyyətinin tənzimlənməsi, xəstə-həkim münasibətləri ilə bağlı çoxsaylı kitablar yazmışlar. Araşdırmalardan məlum

[119] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 16

olur ki, müsəlman həkimlər fəaliyyətə başlamazdan öncə qocaman müəllimlərin qarşısında imtahan verməli, uğur qazanacaqları təqdirdə "Hippokrat andı" kimi and içməli idilər. Demək olar ki, "Hippokrat andı"nın ərəb dilinə tərcüməsindən ibarət olan bu andnamədə əsas fərq o idi ki, müsəlman həkimlər yunanların tanrılarına yox, Allaha and içirdilər. Səlcuqluların dövründə formalaşmış bu qayda katolik İspaniyada və II Fridrixin zamanında (1194-1250) Siciliyada da tətbiq olunmuşdur. İslam mədəniyyətinə böyük rəğbət bəsləyən II Fridrixin 1231-ci ildə qəbul etdiyi qanuna əsasən həkimlik etmək istəyənlər Salerno tibb məktəbinin müəllimləri qarşısında imtahan verməli, uğur əldə edəcəkləri təqdirdə and içməli idilər. Bu fakt "Hippokrat andı"nın Avropaya Bizansdan deyil, məhz islam dünyasından keçdiyini təsdiqləyir.[120]

Səlcuqlular dövründə Dəməşqdə inşa edilmiş Nurəddin və Məmlük sultanın 1283-cü ildə Qahirədə tikdirdiyi Kalavun xəstəxanaları Orta Asiya evləri kimi dörd eyvanlı xaçvari planda idi. 1457-ci ildə Milanda inşa edilmiş Ospedale Maggiore xəstəxanasında, hətta Donato Bramantenin (1444-1514) ideal planına görə tikilmiş Müqəddəs Pyotr kilsəsi kimi Renessans dövrünün abidələrində Səlcuqluların memarlıq izlərini görməmək qeyri-mümkündür. Hətta İspaniya-Fransa sərhədində yerləşən qədim xəstəxananın qübbə konstruksiyası Kirman Səlcuq sultanı Turan Məlikşahın tikdirdiyi xəstəxananın konstruksiyası ilə eynidir.[121]

---

[120] TDV İslam Ansiklopedisi, Bimaristan, Cild 6, səh. 171, 1992
[121] Yenə orada, səh.170-171

Səlcuqlular zamanı XII əsrin əvvəllərində Dəməşqdə o dövrün ən böyük xəstəxanası olan Nurəddin xəstəxanası açılmışdır. Atabəy Nurəddin Zənginin 1154-cü ildə yaratdığı xəstəxana onun adını daşıyırdı. Xəstəxanada həkimlər hər gün səhər xəstələrə baş çəkir, onların gündəlik dərmanlarını və yeməklərini müəyyənləşdirirdilər. Daha sonra tələbələrə tibbi dərslər keçilir və onlar xəstələrin üzərində müşahidə və təcrübə apara bilirdilər. Bu dövrdə Qahirədə inşa edilmiş Mənsuri xəstəxanası bu günədək fəaliyyətini davam etdirir. Bu xəstəxanada praktika ilə nəzəriyyə birgə tədris edilirdi.



Orta əsr Şərq əczaxanası

Orta əsrlərdə tibb sahəsində önəmli təhsil ocaqlarından biri Anadolu Səlcuqları dövründə Kayseri şəhərində açılmış Qoşa minarəli mədrəsə, başqa adı ilə Şəfaiyyə olmuşdur. Həm tibb mədrəsəsi, həm də xəstəxana kimi fəaliyyət göstərən bu şəfa ocağını 1205-ci ildə I Qiyasəddin Keyxosrov bacısının vəsiyyətinə əsasən inşa etdirmişdir.[122]

Sonrakı dövrlərdə də həm mədrəsə, həm də xəstəxana kimi fəaliyyət göstərmiş qurumlar yaradılmışdır. Xəlifə Müstənsirin (1226-1242) 1234-cü ildə yaratdığı məşhur Müstənsəriyyə mədrəsəsi xəstəxana kimi də fəaliyyət gös-

[122] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 16

tərmişdir. İslam dünyasında Dəməşq, Bağdad, Qahirə, Nişapur kimi şəhərlərlə yanaşı, Şimali Afrikada, xüsusilə Mərakeşdə və Əndəlüsdə müxtəlif xəstəxanalar açılmışdır.

İslam tarixinin sonrakı mərhələsində Atabəylər, Teymurilər, Ağqoyunlular və Qaraqoyunlular, Səfəvi, Osmanlı və Moğol imperiyaları dövründə çoxlu xəstəxanalar yaradılmışdır. Ağqoyunlular dövlətinin qurucusu Uzun Həsənin (1423-1478) yerinə keçən oğlu Yaqub (1464-1490) 1488-ci ildə Təbriz şəhərində Sahibabad adlı yerdə saray tikərkən yanında min xəstənin müalicə oluna biləcəyi xəstəxana da inşa etdirmişdir. Həmin xəstəxana 1507-1514-cü illərdə Şah İsmayıl Səfəvinin (1487-1524) zamanında Təbrizdə olmuş venesiyalı tacir tərəfindən ətraflı təsvir edilmişdir. Səfəvilər dövründə, xüsusilə XVI-XVII əsrlərdə elm və mədəniyyət sahəsində önəmli inkişaf baş vermiş, Təbrizlə yanaşı, Ərdəbildə, İsfahanda, Qəzvində, Şirazda, Yəzddə Səlcuqlular dövründəkinə oxşar şəfa ocaqları tikilmişdir.

Onu da qeyd etmək lazımdır ki, islam dünyasında daha çox rəğbət bəslənən və sürətlə inkişaf edən elm sahəsi tibb olduğu üçün müsəlman alimlərin əksəriyyəti həm də təbib olmuşdur. İlkin dövrlərdə, yəni VIII və IX əsrlərdə müsəlman təbiblərin arasında ən məşhuru Əli ibn Rəbban ət-Təbəridir (838-923). O, 850-ci ildə 360 bölümlük "Firdovsülhikmət" adlı tibb kitabı yazmış, təkcə xəstəliklərin mahiyyətini və səbəblərini araşdırmamış, həm də müxtəlif müalicə üsullarını müəyyənləşdirmişdir.

Təbəridən sonra onun tələbəsi Əbu Bəkr Məhəmməd ibn Zəkəriyyə əl-Razi sayəsində təbabət daha sürətlə inkişaf etmişdir. Qərbdə Razes (Rhazes) və Albubator (latınca) kimi tanınan Razi böyük həkim və kimyaçı olmuş, ilk dəfə

çiçək və qızılca mikrobunu kəşf etmiş, onların müalicəsi barədə məlumat vermiş, kimyanın təbabət sahəsində uğurlu tətbiqinə nail olmuşdur. O hazırladığı dərmanları öncə sınaqdan çıxarmış, sonra Rey və Bağdad xəstəxanalarında müalicə olunan xəstələrinə vermişdir.

Əvvəlcə Rey xəstəxanasında həkim olan Razi daha sonra Bağdad xəstəxanasına baş həkim təyin edilmiş və onun zamanında bu şəfa ocağı islam dünyasının ən böyük təbabət mərkəzinə çevrilmişdir. Onun hazırladığı dərmanlardan birinin Fransadakı indiki adı "blanc-rhasis"dir.[123] Razinin "Kitabül-havi" əsəri Şərqdə və Qərbdə təbabətin inkişafına təsir göstərmiş ən böyük əsərlərdən biridir.

İslam dünyasında xəstəxanaların, ümumiyyətlə, təbabətin inkişafında ən böyük xidmət Əbu Əli Hüseyn ibn Abdullah ibn Həsən ibn Əli ibn Sinaya (980-1037) məxsusdur. "Təbiblərin sultanı" titulunu daşıyan, tibb sahəsinə bir çox yeniliklər gətirən İbn Sinanın "Tibbin İncili" adlandırılan "əl-Qanun fit-Tibb" ("Təbabətin qanunları") kitabı uzun müddət – təxminən 600 il Avropa universitetlərində dərslik kimi tədris olunmuşdur.[124] Kitabda farmakologiya haqqında əsas biliklər, ürəyin, qaraciyərin, beynin detallı təsvirləri verilmiş, həmçinin taun və vəbanın fərqi izah olunmuş, plevrit və ciyərlərin sətəlcəmi, cüzam, şəkər xəstəliyi, mədə xorası barədə o dövr üçün qiymətli məlumatlar toplanmışdır. Çap dəzgahı ixtira edildikdən sonra ilk nəşr olunan kitablardan biri məhz İbn Sinanın kitabı olmuşdur. Avropada "Avisenna" ("Avicenna") adı ilə tanınan böyük alim, həkim,

[123] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", "Şans Mətbəə Ltd" MMC, 2017. – 28 s.
[124] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 12 s.

filosof İbn Sina müxtəlif sahələrdə əldə etdiyi nailiyyətlərlə dünya elminə böyük töhfə vermişdir. Fransız yazıçısı Fransua Rable (1494-1553) həkimlik fəaliyyətində onun tibbə dair əsərlərindən yararlanmışdır.[125]

Avropada "Averroes" kimi tanınan İbn Rüşd (1126-1198) dövrün ən böyük təbiblərindən olmuşdur. İlk dəfə gözdəki retina təbəqəsinin funksiyasından bəhs edən İbn Rüşdün tibbi ensiklopediya adlandırılan "Külliyyat" əsərində insanın ikinci dəfə çiçək xəstəliyinə yoluxmayacağı və bunun səbəbləri izah edilmişdir. İbn Rüşd müalicə, zəhərlər və qızdırma xəstəlikləri haqqında əsərlər yazmışdır. "Külliyyat" əsəri 1255-ci ildə latın dilinə ("Colliget" adı ilə) tərcümə edilərək uzun müddət nəinki tibb mədrəsələrində, hətta Avropa universitetlərində tədris olunmuşdur.



Müsəlmanların icad etdikləri cərrahlıq alətləri

Əli bin İsa (?-1038) göz xəstəlikləri haqqında kitab yazan ilk islam alimidir. O, müsəlmanlar arasında "Kəhhal", Avropada isə "Hally Jesu" adı ilə məşhur olmuşdur. Əli bin İsanın islam aləmində və Qərbdə məşhur təbib kimi tanınmasının səbəbi gözlə bağlı yazdığı, latın dilinə tərcümə edilmiş "Təzkirə" ("Təzkirətül-kəhhalin") adlı əsəridir.[126]

---

[125] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", "Şans Mətbəə Ltd" MMC, 2017. – 28 s.
[126] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 12 s.

Əsərdə gözün anatomiyası, fiziologiyası, təbəqələri, gözün daxili və xarici xəstəlikləri, onun müalicəsi, göz qapağı, katarakt və əməliyyatı, ümumən gözlə bağlı olan bir çox xəstəliklər haqqında məlumat vermişdir. Əli bin İsa ilk dəfə anesteziya məqsədilə xüsusi maddələrin köməyi ilə göz əməliyyatlarının həyata keçirilməsini təsvir etmişdir. Tibb tarixçiləri qeyd edirlər ki, XIX əsrin ortalarına qədər bu mövzuda yazılan daha mükəmməl bir əsər olmamışdır.

Bir müddət yanlışlıqla ilk katarakt əməliyyatının 1848-ci ildə Blançet tərəfindən həyata keçirildiyi fikri qəbul edilmişdir. Lakin mənbələrdə ilk katarakt əməliyyatının X əsrdə yaşamış Əbülqasım Əmmar ibn Əli əl-Mosuli (950-1010) tərəfindən həyata keçirildiyi qeyd olunur. Onun göz əməliyyatlarını kiçik incəliklərinə qədər təsvir etdiyi tibbə dair "Kitabül-müntəxab" əsəri XIII əsrdə ivrit, XV əsrdə latın və XX əsrdə alman dilinə tərcümə edilmişdir. Əsər XVIII əsrin birinci yarısına qədər göz və göz xəstəlikləri haqqında dərs kitabı kimi istifadə olunmuşdur.

Avropada "Albucasis" adı ilə tanınan Əbülqasım əz-Zəhravi (936-1013) dövrünün dahi cərrahlarındandır. Bir çoxları onu "müasir cərrahiyyənin atası" adlandırır. Zəhravinin cərrahiyyə sahəsindəki "Kitab əl-Təsrif" ensiklopedik əsəri XII əsrdə latın dilinə tərcümə olunmuş və beş əsr boyunca Avropada tibb elminin əsas mənbələrindən hesab edilmişdir. "Kitab əl-Təsrif" əsərində tibb sahəsində müxtəlif əməliyyatlar üçün istifadə olunan cərrahiyyə alətləri, həmçinin müxtəlif dərmanların hazırlanması qaydaları verilmişdir. O, cərrahiyyədə ilk dəfə yeni alətlər tətbiq etmiş, böyrək daşlarının çıxarılması və böyrək əməliyyatını, miqren və bir sıra xəstəliklərin (göz, qulaq, burun və s.) cərrahiyyə üsulu ilə müalicəsini həyata

keçirmiş və ya onların müalicə üsulu haqqında yazmışdır. Zəhravi cərrahi sap olan "ketqut"un da ixtiraçısıdır. Onun ixtiralarının bəzilərindən bu gün də istifadə edilir.

Ağşəmsəddin (Mehmed bin Hamza,1389-1459) mikroorqanizm mövzusundan bəhs edən ilk şəxsdir. O, "Maddətül-həyat" adlı əsərində yazır ki, "...xəstəliklər insandan insana yoluxma vasitəsilə keçir. Bu yoluxma gözlə görülməyəcək qədər kiçik, lakin canlı toxumalar (mikroblar) vasitəsilə olur".

XVII-XVIII əsrlərdə yaşamış, xalq arasında "Qozbel" kimi tanınan Abbas Vəsim Əfəndi (1689-1760) isə "vərəmə ağ ciyərdə yerləşən bir mikrobun səbəb olduğu" qənaətinə gələrək vərəm mikrobu barədə yazmışdır. Lakin Avropada bu cür faktların üzərindən sükutla keçilmiş, müxtəlif mənbələrdə bu sahədə ilk dəfə avropalı alimlərin fikir söylədikləri qeyd edilmişdir.

Məsələn, 1924-cü ildə Almaniyanın Frayburq şəhərindəki Albert Lüdviqs Universitetində tibb tarixi üzrə tədqiqat aparan misirli təbib Dr. Muhyiddin Teltavi Berlindəki Prussiya kitabxanasından "İbn Sinanın "Qanun"undakı anatomiyaya şərh" adlı ərəbcə bir əlyazma aşkar etmişdir. İbnün-Nəfisə (1210-1288) aid olan və anatomiya, patologiya və fiziologiyadan bəhs edən bu əsər ən qiymətli kitablardan biri kimi qəbul olunur. Bu kitab o vaxta qədər diqqət yetirilməmiş bir elmi həqiqəti – kiçik qan dövranının ilk izahını ortaya çıxardı. Bununla da məlum oldu ki, Avropa alimlərindən təxminən 300 il əvvəl İbnün-Nəfis kiçik qan dövranını kəşf etmiş,[127] İbn Sinanın "Qanun"una yazdığı şərhdə

[127] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 13 s.

bunun incəliklərinə qədər izahını vermişdir. Məhz 1924-cü ilə qədər "ağ ciyər dövranı sistemi"nin ilk dəfə Vilyam Harvey (1578-1657) tərəfindən kəşf edildiyi qəbul edilsə də, M.Teltavinin tədqiqatı bu fikrin üzərindən xətt çəkmişdir.

Məşhur şərqşünas Maks Meyerhof (1874-1945) yazır ki, "İbnün-Nəfisin dəyəri orta əsrlərdə ən fundamental əsərlərin müəllifi hesab edilən Qalen və İbn Sinanın bəzi düşüncələrinə, səhv fikirlərinə qarşı təkbaşına mübarizə aparmaq cəsarəti nümayiş etdirməsidir". Qısacası, İbnün-Nəfis böyük nüfuz sahibi olub və bir çox adamlar onun haqqında "o, ikinci İbn Sina idi" deyirlər".[128]

Müsəlmanların tibb sahəsindəki uğurlarının əksəriyyəti orta əsrlər Avropasının "qaranlıq dövr"ündə baş vermişdir. Bu elə bir dövr idi ki, tibb məktəbləri bağlanır, xəstəliklərin fövqəltəbii güclər tərəfindən törədilməsi inancı yayılır, "xəstələrin bədəninə şeytan girmişdir" deyə "rahib-həkimlər" tərəfindən "şeytan çıxaran sözlərlə" xəstələr müalicə olunur, həkimi sehrbaz, xəstəxananı isə şeytan yuvası hesab edir, cərrahi əməliyyat aparmaq istəyən təbiblər təqib olunurdular.

Bəlkə, buna görədir ki, tibb tarixi üzrə tədqiqatçı, doktor Artur Pellegrini müsəlmanların tibb sahəsindəki uğurlarını bu sözlərlə dəyərləndirir: "Bütün orta əsrlər boyunca müsəlmanlar xüsusilə tibb sahəsində inkarı mümkün olmayan üstünlüyə nail olmuşlar. Həqiqi elm adamları olan müsəlman təbiblər xəstəliklərin klinik müşahidəsini aparmış və onları dərindən tədqiq etmişlər".

---

[128] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", "Şans Mətbəə Ltd" MMC, 2017. – 30 s.

Kitabxanalar

İslam dünyasında ilk kitabxanalar Əməvilər dövründə formalaşmışdır.[129] O vaxtlar kitabxanalar məscidlərdə yaradıldığı üçün müstəqil fəaliyyət göstərmirdilər. Məscidlərdə toplanmış kitabların isə, demək olar ki, hamısı Qurani-Kərim və hədislərlə bağlı idi. Həmin dövrdə bəzi alimlər evlərində kitabxanalar yaratmışdılar. Tarixi qaynaqlarda bu alimlərdən bir neçəsinin adı çəkilir.

Məscidlərdən kənar kitabxanaların yaradılması bir qədər sonrakı dövrə təsadüf edir. Belə ki, müsəlmanlar arasında elmə, təhsilə maraq artdıqca məscidlərdə verilən təhsil onları qane etmirdi. Ona görə də əvvəlcə məscidlərin tərkibində, sonrakı mərhələdə isə məscidlərdən kənarda mədrəsələr formalaşdı. Bu baxımdan islam dünyasında böyük və kütləvi kitabxanaların yaradılması təxminən mədrəsələrin açıldığı dövrə təsadüf edir. Çünki təhsil ocaqları yaradılarkən, adətən, onlar üçün kitabxanalar da inşa olunurdu.

Məscid və mədrəsə kitabxanalarından əlavə, demək olar ki, bütün xəlifələrin kitabxanaları olmuşdur. Həmin kitabxanalar ya xəlifələrin sarayında, ya da saraydan kənarda yaradılırdı. Bu cür ilk kitabxananın Müaviyə ibn Əbu Sufyanın (661-680) dövründə Şamda yaradılması barədə tarixi faktlar var. Bəzi tədqiqatçılar həmin kitabxananın, bir növ, araşdırma mərkəzi kimi fəaliyyət göstərdiyini qeyd edirlər. İslam tarixçisi Məsudinin (896-956) yazdığına görə, orada hədis, tarix və bioqrafiyaya aid kitablar və onları mühafizə edən xüsusi şəxslər var imiş. Sonrakı Əməvi xəlifələri bu kitabxananı

[129] TDV İslam Ansiklopedisi Kütüphane, Cild 27, səh. 11, 2003

zənginləşdirmiş, xəlifə Ömər ibn Əbdüləziz (681-720) isə oradakı kitabların yeni kataloqunu hazırlatmışdır.[130]

Abbasilər dövründə kitaba və kitabxanalara maraq daha da artmışdır. Abbasi xəlifəsi Harun ər-Rəşidin (766-809) hakimiyyəti illərində kitablar əldə etmək üçün Bizansa qarşı səfərlər təşkil edilmişdir. Bəzi tədqiqatçılara görə, Beytül-Hikmətin əsası kitabxana formasında bu illərdə qoyulmuş, xəlifə Məmunun (786-833) zamanında isə böyük elm mərkəzinə çevrilmişdir. Fransalı tədqiqatçı alim Qustav Le Bon (1841-1931) yazır ki, "kitab və kitabxanaların Avropa xalqları arasında heç bir dəyəri olmadığı bir dövrdə Bağdaddakı "Beytül-Hikmət" adlı elm mərkəzində dörd milyon kitab var idi".[131]

Abbasilər dövründə mədrəsə kitabxanaları ilə yanaşı, digər kitabxanalar da yaradılmış və bu proses sürətlə getmişdir. Çünki kitablar çox baha qiymətə olduğu üçün kasıblar onu ala bilmir, müsəlmanların isə oxumaq, təhsil almaq arzusu günü-gündən artırdı. Məhz belə bir vəziyyətdə xilafətin rəhbərləri və islam alimləri hər kəsin oxuması və təhsil alması üçün kitabxanalar yaratmağa başladılar. Müəyyən dövrdən sonra müxtəlif təyinatlı kitabxanalar formalaşdı.

İslam dünyasında yaradılmış kitabxanaları şərti olaraq üç qrupa bölmək olar: hər kəsə açıq olan kitabxanalar; imtiyazlı şəxslər üçün nəzərdə tutulmuş kitabxanalar; alimlərin və digər şəxslərin xüsusi kitabxanaları.

Hər kəsin istifadə etdiyi ümumi kitabxanalara nümunə kimi Beytül-Hikmət, Darül-Hikmət və digər mədrəsə kitabxanalarını, eləcə də sonrakı dövrlərdə yaradılmış Nəcəf,

---

[130] TDV İslam Ansiklopedisi Kütüphane, Cild 27, səh. 11, 2003

[131] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", "Şans Mətbəə Ltd" MMC, 2017. – 12 s.

Heydəriyyə, Süleymaniyyə, Bəyazid, Təbriz, Marağa, Həmədan kitabxanalarını göstərmək mümkündür. İmtiyazlı şəxslər üçün nəzərdə tutulmuş kitabxanalar, əsasən, dövlət rəhbərlərinin kitabxanaları idi.

Orta əsrlərdə müsəlman alimlərinin çox zəngin kitabxanaları olmuşdur. Amerikalı tədqiqatçı Vill Durant (1885-1981) yazır ki, "məşhur tarixçi Vaqidi (747-823) vəfat edəndə 600 sandıq kitabı qalmışdı və bu sandıqların hər biri iki nəfərin güclə qaldıra biləcəyi qədər ağır idi".

Başqa bir tarixi mənbədə göstərilir ki, Kufə yaxınlığında Kərkən adlı yerdə Beytül-Hikmətdə çalışan alimlərdən Yəhya ibn Əbu Mənsurun oğlu Əli ibn Yəhyanın (ö. 888) gözəl bir malikanəsi və onun içində "Xəzinətül-hikmət" adlı kitabxanası var idi. İnsanlar müxtəlif yerlərdən oraya axın edər, orada qalar və fərqli elm sahələrində bilik əldə edərdilər. Burada insanların faydalanması üçün çoxlu kitab və qalmalarına şərait var idi. Onların maddi ehtiyaclarını da Əli ibn Yəhya özü ödəyərdi. Əli ibn Yəhya astronom idi və burada astronomiyaya aid kitablar çoxluq təşkil edirdi. Bu baxımdan onun kitabxanasını ilk astronomiya kitabxanası hesab etmək olar.[132]

Bu cür kitabxanaların mədrəsə kitabxanalarından fərqi o idi ki, orada müəllimlər çalışmırdı, hər kəs fərdi qaydada elm öyrənirdi. Nəticədə, mədrəsədə təhsil almayan, maddi imkanı zəif olan insanlar da pul xərcləmədən kitab oxuya və elm öyrənə bilirdilər. O dövrdə kitabxanalarda, hətta kitabların xarab olmaması və itməməsi üçün müəyyən vasitələrdən istifadə olunur və bəzi tədbirlər görülürdü.

---

[132] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 18

Müsəlmanların kitaba və kitabxanaya münasibəti ilə bağlı Qərbin bəzi dairələrində yanlış fikir formalaşmışdır. Belə ki, bəzi iddialara görə, məşhur İsgəndəriyyə kitabxanası guya xəlifə Ömərin (586-644) göstərişi ilə məhv edilmişdir. Əslində, bu iddianın əsassız olduğu tarixi faktlarla təsdiqlənmişdir.

Tarixi qaynaqlara görə, İsgəndəriyyə kitabxanası ilk dəfə miladdan öncə 47-ci ildə Sezarın başı Kleopatra ilə əyləncəyə qarışdığı vaxtı şəhərdə baş vermiş üsyan zamanı yanmışdır. Daha sonra imperator Teodosun hakimiyyəti dövründə xristianlıq Romada yayıldığı zaman digər dinlər və məzhəblər qadağan olunmuş, xristianlıqdan başqa inanclara aid kitablar məhv edilmişdir. O dövrdə İsgəndəriyyə yepiskopu Teofilosun tapşırığına əsasən 391-ci ildə adıçəkilən kitabxanadakı 500 min cild kitab yandırılmışdır.

İsgəndəriyyə kitabxanasının müsəlmanlar tərəfindən yandırılmasına dair heç bir tarixi fakta rast gəlinməmişdir. Bunu bəzi Avropa tarixçiləri də etiraf edirlər. Məsələn, alman şərqşünası Rudolf Krell 1889-cu ildə Fransada şərqşünasların konqresindəki çıxışında xəlifə Ömərin kitabxananı yandırması iddiasının uydurma olduğunu tarixi dəlillərlə sübut etmişdir.[133]

Kitabxanaların geniş yayıldığı ərazilərdən biri də Kordova xilafəti idi. Tarixi mənbələrdə qeyd edilir ki, Kordova əmirinin kitabxanasında 600 mindən çox kitab var imiş və uzun olmasın deyə kataloqlara yalnız kitabın və müəllifin adı yazılırmış. Buna baxmayaraq, Kordova əmirinin kitabxanasında hər biri 50 səhifə olmaqla 44 kataloq mövcud

[133] İrfan Yılmaz, İ.Hakkı İhsanoğlu, Selim Aydın, Fuat Bozer, Nevzat Bayhan, İhsan İnal, İlim ve Din (Yeni Bir Bakış Açısıyla), I və II cild, İstanbul 1998, səh. 469

imiş. Həmin dövrdə Avropada bir kitabxana belə fəaliyyət göstərmirdi, universitet səviyyəsində isə yalnız iki təhsil müəssisəsi var idi. Amma müsəlman İspaniyasında 70 böyük kitabxana yaradılmışdı.

Əndəlüsdə zəngin kitabxanaya sahib olmaq xüsusilə varlılar arasında dəbə çevrilmişdi. Şəxsi kitabxanasında minlərlə kitab saxlayan varlı müsəlman ailələri kifayət qədər idi. O dövrdə islam coğrafiyasında kitab ticarətinin ən geniş yayıldığı bölgə Əndəlüs hesab edilirdi. Misir və Şimali Afrikadan keçməklə Əndəlüsə xeyli sayda kitab tacirləri gəlirdilər. Tarixi mənbələrə görə, Kordova başda olmaqla Əndəlüsdə yüzlərlə kitab kolleksioneri yaşayırdı. Kordova, İşbiliyə (Sevilya), Tuleytula (Toledo) kimi mədəniyyət mərkəzlərində kitab yarmarkaları fəaliyyət göstərirdi. Eyni zamanda Kordova və digər şəhərlərdəki böyük məscidlərdə hər kəsin sərbəst istifadə etdiyi zəngin kitabxanalar yaradılmışdı. Təəssüf ki, Əndəlüsdə müsəlmanların hakimiyyətinə son qoyulduqda bu kitabxanalardakı kitabların böyük əksəriyyəti yağmalanmış, katoliklər tərəfindən yandırılmış, bir qismi isə Şimali Afrikaya aparılmışdı. İspan kralı II Filipp (1527-1598) Əndəlüsdən qalan əlyazmaları topladıqda cəmi 2500 kitab tapa bilmişdir. Həmin əsərlər hazırda İspaniyanın məşhur Eskorial kitabxanasının əsasını təşkil edir.[134]



Orta əsr Bağdad kitabxanası həm də müzakirələr məkanı idi.

[134] TDV İslam Ansiklopedisi Kütüphane, Cild 27, səh. 14, 2003

O dövrdə Əndəlüsdə yüksək səviyyədə təhsil verən 17 mədrəsə açılmışdı. Bu mədrəsələrdə həm müsəlmanlar, həm də yəhudi və xristianlar təhsil alır, yüksək səviyyədə tolerantlıq ab-havası hökm sürürdü. Həmin dövrdə İspaniyada oxumağı və yazmağı bacarmayan müsəlmanların sayı yox deyiləcək qədər az idi.

İslam dünyasında önəmli kitabxanalardan birini də Abbasi xəlifəsi Mötəzid (861-902) sarayında yaratmışdı. O, saray kitabxanası kimi fəaliyyət göstərirdi və hər otaqda yalnız bir elmə aid kitablar toplanmışdı. Bu mənada onu müxtəlif elmlər üzrə ayrıca kitabxanalardan ibarət kitabxana kompleksi də adlandırmaq olar. Saray kitabxanasında hər bir elm üzrə mütəxəssis var idi və onlar həm elmlə məşğul olur, həm də tələbə yetişdirirdilər.

Həm mədrəsə, həm də kitabxana kimi fəaliyyət göstərən elm mərkəzlərindən biri də Mosul şəhərindəki Darül-Elm idi. Şirazdakı Xəzinətül-Kütüb və Reydəki Beytül-Kütüb də Mosul kitabxanasına bənzər fəaliyyət göstərirdi. Tarixçi Yaqut əl-Həməvi (1178-1229) "Mucəmül-udəba" əsərində yazır ki, Rey kitabxanasında 400 dəvə yükündə kitab saxlanılırdı.[135]

Qahirədəki Darül-Hikmət və ya Darül-Elm mədrəsəsində də zəngin kitabxana fəaliyyət göstərmişdir. Bəzi qaynaqlara görə, buradakı kitabların sayı bir milyonu keçmişdir. Fatimi xəlifəsi Hakimin (996-1021) yaratdığı bu təhsil ocağı və onun kitabxanası əvvəllər xəlifənin şəxsi büdcəsindən maliyyələşirdi. Buradakı kitabların bir hissəsi saray kitabxanasının zəngin kolleksiyasından gətirilmişdi. Kitab-

[135] TDV İslam Ansiklopedisi Kütüphane, Cild 27, səh. 18-20, 2003

xana hər kəsin üzünə açıq idi və oxucular pulsuz kağız, qələm və mürəkkəblə təmin edilirdi. Burada oxu zalının yanında iclas və dərs salonları yerləşirdi. Həmin salonlarda elmi müzakirələr keçirilir, bəzən xəlifə də orada iştirak edirdi.

Ümumiyyətlə, Fatimilər dövründə Misirdə həm böyük təhsil ocaqları, həm də zəngin kitabxanalar yaradılmışdır. Həmin kitabxanalardan biri Fatimi xəlifəsinin sarayında olmuşdur. Xəlifə Muiz Lidinillaha (931-975) və oğlu Əziz Billaha (931-996) vəzirlik edən Yaqub ibn Killis siyasi və iqtisadi məsələlərlə yanaşı, təhsilə və mədəniyyətə xüsusi əhəmiyyət vermişdir. O dövrün elm adamlarını ətrafına toplayan Yaqub ibn Killis özünə zəngin kitabxana yaratmışdır. Xəlifə Əziz Billah vəzirinin vəfatından sonra onun kitabxanasını saray kitabxanasına qatmışdır. Tarixi qaynaqlara görə, xəlifə Əziz Billah atası Muiz Lidinillah kimi Qahirədə bir çox memarlıq abidələri, o cümlədən məscid və saray inşa etdirmiş, saray kitabxanasını zənginləşdirmişdir. Tarixçi Yəhya bin Əbu Tay bu kitabxananın dünyanın möhtəşəm abidələrindən biri olduğunu, islam dünyasında ondan böyük kitabxana görülmədiyini yazır.[136] Bəzi mənbələrdə qeyd edilir ki, "Xəzinətül-kütüb" ("Kitab xəzinəsi") adlandırılan bu kitabxana üçün xəlifə sarayında 40 böyük anbar tikilmişdir. Anbarlarda iri rəflər düzəldilmiş, kitablar səliqə ilə yığılmış və onların kataloqu yazılmışdır. Makrizinin yazdığına görə, bu kitabxana islam dünyasının ən zəngin kitabxanalarından sayılırdı. Təkcə 18 min kitab qədim xalqların mədəniyyəti haqqında idi. Hətta elə kitablar var idi ki, kitabxanada onların bir

[136] TDV İslam Ansiklopedisi, Kütüphane, Cild 27, səh. 15, 2003

neçə nüsxəsi saxlanılırdı. Tarixi qaynaqlarda buradakı kitabların sayı ilə bağlı fərqli rəqəmlər verilir. Bəzi mənbələrdə kitabların ümumi sayının 2 milyon olması qeyd edilir.

Səlcuqlular dövründə Nizamülmülkün 1067-ci ildə Bağdadda yaratdığı Nizamiyyə mədrəsəsinin kitabxanası ən zəngin mədrəsə kitabxanalarından olmuşdur. Bağdadla yanaşı, digər şəhərlərdəki Nizamiyyə mədrəsələrində də kitabxanalar fəaliyyət göstərmişdir. Nizamiyyədən sonra Bağdadda açılan ən önəmli mədrəsə kitabxanası xəlifə Müstənsirin (1210-1261) adı ilə bağlı olan Müstənsiriyyə mədrəsəsində yaradılmış kitabxanadır. 1234-cü ildə yaradılan mədrəsəyə xəlifə şəxsi kitabxanasından seçdiyi 290 dəvə yükü kitab göndərmişdir. Mədrəsə binasının şərqində yerləşən və "Xəzinətül-kitab" adlandırılan kitabxanada tarixi mənbələrə görə 80 min kitab var imiş.

İslam dünyasındakı kitabxanalarda, adətən, "hafizül-kütüb" adlandırılan şəxslər çalışırdılar. Onlar kitabxanadakı kitabların adlarını, demək olar ki, əzbər bilirdilər və istənilən kitabı asanlıqla tapırdılar. Kitabxanalarda, o cümlədən Müstənsiriyyə kitabxanasında hafizül-kütüb işləyənlərin çoxu dövrünün böyük alimləri olmuşlar. Mədrəsələrdə işləyənlər arasında ən yüksək məvacib alan ikinci şəxs hafizül-kütüblər idi.

O dövrün məşhur kitabxanalarından olmuş Müstənsiriyyə dünyanın müxtəlif bölgələrindən gəlmiş alim və dövlət xadimlərinin ziyarət yerinə çevrilmişdir. Monqolların Bağdadı işğal etdiyi zaman kitabxana böyük dağıntıya məruz qalmış, monqol əsgərləri kitabların bir qismini satmış, bir qisminin cildini çıxararaq atlarına yəhər – örtük düzəltmək üçün istifadə etmişlər. Yerdə qalan kitabların bir qismini isə

böyük astronom, filosof və teoloq Nəsirəddin Tusi (1201-1274) özü ilə Marağaya aparmışdır.

O dövrdə kitabxanalarda alimlər və tələbələr üçün hər cür şərait yaradılmışdır. Buna görə də əksər alimlər tələbələrini kitabxanalarda yetişdirirdilər.

Orta əsrlərdə islam dünyasında kitabxanaların çoxalmasına kağız istehsalının asanlaşması və bu sahədəki yeniliklər də təsir göstərmişdir. XII əsr alimi Benjamin Tuvel yazır ki, "mən təkcə İsgəndəriyyə şəhərində iyirmi elmi laboratoriyaya rast gəldim".[137] Həmin dövrdə Bağdad, Qahirə, Dəməşq, Mosul, Təbriz, Marağa, Rey və digər şəhərlərdə çoxlu sayda kitabxana və kağız emalatxanaları fəaliyyət göstərirdi.

Bəzi qaynaqlarda kağızın ilk dəfə Çində hazırlanması qeyd edilsə də, bir sıra alimlər bununla razılaşmırlar. Çünki onlar kitab kağızını müsəlmanların icad etdiyi fikrini irəli sürürlər. Yazı məqsədilə Qədim Misirdə papirusdan, Babilistanda gildən (mixi yazıları), Yaxın Şərqin digər bölgələrində qoyun, keçi, ceyran dərisindən istifadə olunurdu. Çinlilər isə 105-ci ildə ipəkdən kağız hazırlamağı öyrənmişdilər. Lakin bu çox baha başa gəldiyinə, eləcə də həmin dövrdə Çindən və Orta Asiyadan başqa ərazilərdə ipək istehsal olunmadığına görə bu cür kağızlar geniş yayılmamışdır. Amma müsəlmanlar kağızı pambıqdan hazırlamağı öyrəndilər və bu çox ucuz başa gəldiyi üçün sürətlə yayıldı. Həmin dövrdə Misir və Əlcəzairdə geniş sahələrdə pambıq əkilir, bu isə kağızın və kitabın ucuz başa gəlməsinə zəmin yaradırdı.

---

[137] Azad Nəhmədov "Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər)", – Bakı: "Şans Mətbəə Ltd" MMC, 2017. – 13 s.

Paris İslam İnstitutunun professoru Jan-Jak Risler yazır ki. "İslamın Avropaya gətirdiyi ən önəmli nemətlərdən birinin kağız olmasına heç şübhə yoxdur". Tədqiqatçı Vill Durant isə kağızın Avropaya gəlməsini belə izah edir: "İslam aləmində ilk kağız emalatxanası 793-cü ildə Harun ər-Rəşidin vəzirinin oğlu Fazl tərəfindən Bağdadda açıldı. Emal üsulu müsəlmanlar tərəfindən Siciliya və İspaniyaya ötürüldü və buralardan İtaliya və Fransaya keçdi. Kağız emalına bəsit formada 707-ci ildə Məkkədə, daha sonra inkişaf etmiş şəkildə 800-cü ildə Misirdə, 950-ci ildə İspaniyada, 1100-cü ildə Bizansda, 1102-ci ildə Siciliyada, 1228-ci ildə Almaniyada və 1309-cu ildə İngiltərədə başlandı. Bu yeni icad getdiyi hər yerdə kitab çapını asanlaşdırdı".

Fransız professor Emile Feliks Qautier (1864-1940) yazır ki, ucuz kağız olan pambıq kağızını Qərbə müsəlmanlar gətirmişlər. Həmin dövrdə Qərbi Avropanı kağızla İspaniya müsəlmanları, Şərqi Avropanı isə Orta Şərq müsəlmanları təmin edirdilər.

Tədqiqatçı Qustav Le Bon isə kağızın yeni mədəniyyət dövrünün yaranmasına səbəb olduğunu qeyd etdikdən sonra yazır: "...Kitab kağızını müsəlmanlar icad etmişlər. Əgər islam mədəniyyətinin kağız, barıt, kompas kimi mirasları əlimizdə olmasaydı, renessansımızın necə baş verəcəyini təsəvvür belə edə bilməzdik. Tarixdən müsəlmanların izlərini silsəniz, elmi renessansımız əsrlərlə gecikmiş olar".[138]

Kağız kimi nəşr işi də Qərbə islam dünyasından keçmişdir. Prinston Universitetinin professoru Filip Hitti (1886-

[138] İrfan Yılmaz, İ.Hakkı İhsanoğlu, Selim Aydın, Fuat Bozer, Nevzat Bayhan, İhsan İnal, İlim ve Din (Yeni Bir Bakış Açısıyla), I və II cild, İstanbul 1998, səh. 472

1978) yazı üçün kağızın və kitabın hazırlanması üsulunun Avropaya müsəlmanların gətirdiyini qeyd edir və Fransanın kağız emalına görə Əndəlüsə borclu olduğunu, bu texnologiyanın buradan bütün Avropaya yayıldığını bildirir.

Akademiya və universitetlər

İslam dünyasında təhsil sisteminin tarixi Məhəmməd peyğəmbərin dövrünə qədər gedib çıxır. O dövrdə Mədinədəki peyğəmbər məscidi dini biliklərin öyrədilməsi mərkəzi kimi fəaliyyət göstərirdi. Burada savadlı səhabələr Qurani-Kərim və şəriət hökmləri barədə peyğəmbərdən əxz etdikləri biliyi başqalarına öyrədirdilər. Mədinə məscidindəki "süffə" adlı məkan yüzlərlə şəxsin əxlaq, mənəviyyat və şəriət məktəbi idi. Sonrakı mərhələdə xilafətin bütün bölgələrində irili-xırdalı mədrəsələr açıldı. Lakin ilkin dövrlərdə bu mədrəsələrdə, bir qayda olaraq, dini elmlər daha geniş tədris olunurdu. Onların əksəriyyəti müstəqil şəkildə deyil, kitabxanaların və məscidlərin nəzdində fəaliyyət göstərirdi.

İslam dini meydana çıxdığı dövrdə ərəblər arasında oxuyub-yazmağı bacaranların sayı çox az idi. İlk dövrlərdə yalnız bir neçə müsəlman oxuyub-yaza bilirdi. Amma təxminən bir əsr sonra oxuyub-yazmaq, təhsil almaq, elm arxasınca getmək müsəlmanlar arasında sanki yoluxucu xəstəliyə çevrilmişdi. Bunun nəticəsi idi ki, IX əsrdə Xorasan və Orta Asiyada onlarla mədrəsə fəaliyyət göstərirdi. Təkcə Buxara, Nişapur, Qəznə və başqa şəhərlərdə 30-dan artıq

iri mədrəsə mövcud idi. Əksər mədrəsələrin fəaliyyəti vəqf sistemi ilə tənzimlənirdi.[139]

IX əsrin əvvəllərindən etibarən mədrəsələrlə bağlı vəziyyət xeyli dəyişdi, dinlə yanaşı, dünyəvi elmlərin tədrisi gücləndirildi. Hətta elə mədrəsələr yaradıldı ki, onlar faktiki olaraq akademiya və universitet səviyyəsində fəaliyyət göstərirdi. Bu tipli ilk elm ocağı Bağdadda yaradılmış Beytül-Hikmət (Bilik evi) olmuşdur. Kim tərəfindən və nə vaxt yaradılması ilə bağlı fərqli fikirlər olsa da, tədqiqatçıların əksəriyyəti onun Abbasi xəlifəsi Məmun tərəfindən 815 və ya 830-cu illərdə formalaşdırıldığını söyləyir. Əvvəllər kitabxana kimi fəaliyyət göstərən, tədricən böyük bir elm mərkəzinə – akademiyaya çevrilən Beytül-Hikmətdə tərcüməçilər məktəbi formalaşmışdı. Burada Platon, Pifaqor, Aristotel, Arximed, Qalen, Hippokrat, Evklid və digərlərinin əsərləri ərəb dilinə tərcümə edilirdi. Məhz bu tərcümə fəaliyyətləri nəticəsində islam dünyası elm, mədəniyyət və fəlsəfənin mərkəzinə çevrildi, məşhur tərcüməçilər yetişdilər. Buna paralel olaraq tərcümə edilən elmi əsərlərin tədqiqi üzərində qızğın işlər başladı.

Elmlə məşğul olmaq istəyənlər xilafətin paytaxtı Bağdada üz tuturdular. Bağdadda o dövrün tanınmış qeyri-müsəlman elm xadimləri Yuhanna ibn Haylan (860-920) və antik mətnlərin ərəb dilinə tərcüməsi üzrə məşhur tərcüməçi Əbu Bişr Matta ibn Yunus (870-940) kimi şəxslər tərəfindən yeni nəsil alimlər yetişdirildi.

Beytül-Hikmətdə bütün dini və dünyəvi elmlər araşdırılır, şəriətdən fəlsəfəyə, riyaziyyatdan astronomiyaya qədər hər bir sahə üzrə tədqiqatçılar fəaliyyət göstərirdilər.

---

[139] TDV İslam Ansiklopedisi, Medrese, Cild 28, səh. 324-325, 2003

Burada rəsədxana bölməsi və böyük kitabxana da var idi. İslam dünyasında elmin inkişafında və təhsil sisteminin formalaşmasında bu mədrəsənin böyük xidmətləri olmuşdur.

Araşdırmalara əsasən Beytül-Hikmət xəlifənin saray kompleksinin daxilində müxtəlif bölmələrdən ibarət binada yerləşmişdir. Burada kitabların qorunduğu hücrələr, alimlər, tərcüməçilər, katiblər, kitab cildi hazırlayanlar üçün otaqlar və oxu zalı var imiş. Beytül-Hikməti görmüş və kitabxanasından istifadə etmiş islam alimi İbn Nədimin (935-995) yazdığına görə, burada yunan dilindən süryani (aysor) dilinə, ondan ərəbcəyə və ya yunan dilindən birbaşa ərəb dilinə tərcümə ilə məşğul olanlar 47, fars dilindən tərcümə edənlər 16, sanskritcədən tərcümə edənlər isə 3 nəfər idi. Tarixçilərin qənaətinə görə, təxminən 500 il ərzində elm dünyasına xidmət etmiş bu mərkəzin fəaliyyətinə 1258-ci ildə Hülakülər dövründə son qoyulmuşdur.



Qaraviyyin mədrəsəsi

İslam dünyasının universitet səviyyəsində ilk təhsil ocaqlarından biri 859-cu ildə indiki Mərakeşin Fəs şəhərində yaradılmış Qaraviyyin mədrəsəsidir. Burada ilahiyyat elmləri ilə yanaşı, ərəb qrammatikası, məntiq, tibb, riyaziyyat, astronomiya, tarix, kimya, coğrafiya və musiqi də tədris edilirdi. Bu günədək fəaliyyətini davam etdirən mədrəsə bəzi mənbələrə görə, islam dünyasında ilk ali təhsil ocağı olmuşdur. Hətta bu mədrəsə (hazırda universitet)

ən uzunömürlü təhsil ocağı kimi "Ginnesin rekordlar kitabı"na düşmüşdür. Qaraviyyin mədrəsəsində tədris edilən dərslər islam tarixi boyunca inkişaf edən sosial, siyasi və iqtisadi elmlərin əsas qaynağını təşkil etmişdir.

Mədrəsədə təhsil planlı şəkildə qurulur, müəllimlərə elmi dərəcələr verilir, indiki dövrdə olduğu kimi elmi şura fəaliyyət göstərirdi. Həm müəllimlər, həm də tələbələr üçün yataqxanası olan mədrəsədə müasir universitetlərdə olduğu kimi tədris ilinin başlaması və diplom işlərinin müdafiəsi münasibətilə təntənəli mərasimlər keçirilirdi.

Qaraviyyin mədrəsəsində Afrika və İspaniyadan gəlmiş başqa din və millətlərin nümayəndələri də təhsil alırdılar. Mədrəsənin məzunları arasında papa II Silvester (946-1003) kimi məşhur şəxslər olmuşdur.[140] Tarixi qaynaqlara görə, XIV əsrdə Qaraviyyin mədrəsəsinin 140 müəllim və 8000 tələbəsi olmuş, dini və dünyəvi fənlərlə yanaşı, incəsənət və musiqi də tədris edilmişdir.

Orta əsrlərdə müsəlman Şərqinin ən mütəşəkkil və universal təhsil ocağı 1067-ci ildə böyük dövlət xadimi Xacə Nizamülmülkün (1019-1092) Bağdadda yaratdığı Nizamiyyə mədrəsəsi sayılır.[141] Nizamülmülk Səlcuq sultanlarından əvvəlcə Alp Arslanın (1029-1072), daha sonra Məlikşahın (1055-1092) vəziri olmuşdur. O dövrün imkanları baxımından ən yüksək təhsil şəraiti, ən savadlı müəllim

[140] İrfan Yılmaz, İ.Hakkı İhsanoğlu, Selim Aydın, Fuat Bozer, Nevzat Bayhan, İhsan İnal, İlim ve Din (Yeni Bir Bakış Açısıyla), I və II cild, İstanbul 1998, səh. 463

[141] TDV İslam Ansiklopedisi, Medrese, Cild 28, səh. 324, 2003

kadrları və mütərəqqi təhsil proqramı ilə təchiz edilmiş Nizamiyyə mədrəsəsinə əvvəlcə məşhur fiqhçi Əbu İshaq Şirazi (1003-1083), daha sonra Əbu Hamid əl-Qəzali (1058-1111) kimi böyük alimlər rəhbərlik etmişdir. Bu mədrəsədə təkcə müsəlmanlar yox, Avropadan gələn tələbələr də təhsil alırdılar. Qədim yunan fəlsəfəsi ərəbcəyə tərcümə olunaraq burada tədris edilirdi. Halbuki həmin dövrdə Avropada bunları tədris edəcək nə elmi müəssisə, nə də müəllim tapmaq, demək olar ki, mümkün deyildi. Sonradan avropalılar həmin qədim ellin fəlsəfəsini məhz islam mədrəsələrindəki kitablardan yenidən əxz etdilər.

Bağdaddakı Nizamiyyə mədrəsəsi iki ilə tikilmiş böyük kompleks idi. Onun daxilində müəllimlər və tələbələr üçün otaqlar, dərs auditoriyaları, məscid, kitabxana, yataqxana, yeməkxana, hamam və digər sosial təsisatlar var idi.

Nizamülmülkün təşəbbüsü ilə Bəlx, Nişapur, Herat, İsfahan, Bəsrə, Mərv, Mosul kimi şəhərlərdə də mədrəsələr açılmışdır. Nizamiyyə mədrəsələri adlandırılan bu təhsil ocaqları Səlcuq sultanlarının nəzarəti altında fəaliyyət göstərirdi. Mədrəsələrdə məzhəb zəminində və digər məsələlərdə ümumi məqsəddən kənara çıxmalar olduqda dərhal müdaxilə edilirdi. Səlcuq sultanı Məlikşah Bağdaddakı Nizamiyyə mədrəsəsinin rəhbəri Əbu İshaq Şiraziyə göndərdiyi məktubda yazırdı ki, “Nizamiyyə mədrəsəsi məzhəb münaqişələri deyil, elmi inkişaf etdirmək üçündür”.

İslam dünyasında dövlətin himayəsi altında ödənişsiz fəaliyyət göstərən və tələbələrin yataqxana ilə təmin olunduğu təhsil sistemini ilk dəfə Səlcuq sultanları qurmuşlar.

O dövrdə Nizamülmülk ölkənin bütün şəhərlərində yaratdığı mədrəsələrə sultanın xəzinəsindən kifayət qədər vəsait ayırırdı. Həmin vəsait hesabına həm yeni mədrəsələr açılır, həm müəllimlərə məvacib verilir, həm də tələbələr yemək, paltar, təqaüd, dərs kitabları və yataqxana ilə təmin edilirdi. Nəticədə, varlı ailələrlə yanaşı, kasıb ailələrin də uşaqları təhsil almaq imkanı qazanırdı. Həmçinin mədrəsələrdə təhsil proqramı əvvəlcədən hazırlanır, tədris edilən elmlər üzrə mütəxəssislər dəvət edilir, onlara dövlət tərəfindən böyük hörmət və qayğı göstərilirdi. Dövlətlə bərabər əhali də müxtəlif vəqflər (xeyriyyə təşkilatları) yaradaraq təhsil prosesinə dəstək verirdi. Məhz buna görə də qısa müddətdə müsəlmanların elm, təhsil və mədəniyyət səviyyəsi yüksəldi.

XIII əsr islam alimi Əbu Şamə (1203-1268) yazır ki, "Nizamülmülkün mədrəsələri dünyada məşhurdur və elə bir şəhər yoxdur ki, orada bu mədrəsələrdən olmasın. Hətta dünyanın ən ucqar yerlərindən Ərəbistana qədər gözəl mədrəsələr yaradılmışdır". Başqa bir islam alimi İsfahani (ö. 1201) isə Nizamülmülkün fəaliyyətini belə qiymətləndirir: "Nizamülmülk hansı şəhərdə və qəsəbədə dərin bir elm adamı tapıbsa, orada onun adına mədrəsə tikib, adına bir vəqf təsis edib və bir də kitabxana yaradıb".

İslam dünyasının ən qədim təhsil ocaqlarından biri də Əzhər Universitetidir. O, təkcə müsəlman Şərqində deyil, bütün dünyada ən qədim təhsil müəssisələrindən hesab edilir. Əzhərin əsası 970-ci ildə Misir Fatimiləri dövründə qoyulmuş, lakin əvvəlcə mədrəsə deyil, Cümə məscidi kimi inşa olunmuşdur. Fatimilərin ordu başçısı Cövhər əs-Səqəli (ö. 992) 969-cu ildə İxşidi hökmdarı Əhmədi taxtdan salıb

Fustata (qədim Qahirə) daxil olur. Fatimilər Misirdə öz paytaxtlarını salmaq istəyirlər və Qahirəni (Qahirə – Qalib şəhər) tikməyə başlayırlar. Əzhər də həmin vaxt inşa edilir. Tikinti işləri iki il çəkir və 972-ci ildə məsciddə ilk namaz qılınır. Fatimi xəlifəsi Muiz Lidinillah Qahirəyə gəldikdən sonra Əzhər məscidi İsmaili Fatimilərin əqidələrini təbliğ edən mərkəzə çevrilir. Baş qazı Əbdülhəsən Əli bin Numan Qeyrəvani 975-ci ildən məsciddə tarix, fəlsəfə və fiqh dərsləri deməyə başlayır. Beləliklə, Əzhər məscidi tədricən elm və tədris müəssisəsinə, dini və dünyəvi elmlər mərkəzinə çevrilir. Artıq 988-ci ildən Əzhər müstəqil təhsil ocağı kimi fəaliyyət göstərirdi. Fatimilərin süqutu və Qahirənin Səlahəddin Əyyubinin (1138-1193) hakimiyyəti altına keçməsi ilə Əzhərdə bir müddət dərslər dayandırılsa da, müəyyən müddətdən sonra yenidən dirçəlmiş və fəaliyyətini bu günədək davam etdirmişdir.



Nizamiyyə mədrəsəsi

XI əsrdə Qahirədəki önəmli elm-təhsil mərkəzlərindən biri də "Darül-Hikmət" adlanırdı. 1005-ci ildə Fatimilər dövlətinin rəhbəri xəlifə Hakim tərəfindən inşa edilən bu mədrəsədə müxtəlif elmlər tədris edilir, xüsusilə riyaziyyat və fizikaya əhəmiyyət verilirdi.[142] Mədrəsənin kitabxanasında milyonlarla kitab saxlanılırdı. Tarixi mənbələrə görə, xəlifə Hakimin

[142] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 17

sarayındakı kitabları Darül-Hikmətə bağışlaması nəticəsində mədrəsənin kitabxanasındakı kitabların sayı bir milyon 600 minə çatmışdır. Bunlardan 100 min kitab sənətkarlıq baxımından dəyəri yüksək olan nadir əsərlər idi. Xəlifə Hakim mədrəsənin və müəllimlərin fəaliyyəti üçün hər cür şərait yaratmış, Qahirədəki bəzi təsisatların gəlirlərini Darül-Hikmətə vəqf etmişdir. Böyük islam mütəfəkkirlərindən Əli bin Rizvan (998-1067), məşhur riyaziyyatçı və optikanın yaradıcısı İbn Heysəm (965-1039) Darül-Hikmətdə təhsil almışlar. Bu elmtəhsil mərkəzi Səlahəddin Əyyubinin Misiri ələ keçirməsinə və Fatimilər dövlətinə son qoymasına qədər fəaliyyət göstərmişdir. 1171-ci ildə Darül-Hikmət ləğv olunmuş, onun yerinə yeni mədrəsə inşa edilmiş və kitabxanasındakı əsərlər müxtəlif kitabxanalara paylanmışdır. Təxminən eynitipli mədrəsə 1189-cu ildə Səlahəddin Əyyubi tərəfindən Qüdsdə və Muvahhidilər dövründə Şimali Afrikada yaradılmışdır.[143]

Səlcuqlular dövründə qurulmuş təhsil sistemi Səfəvilərin və Osmanlıların hakimiyyəti zamanı davam etdirilmişdir. İlk Osmanlı mədrəsəsi 1330-cu ildə Orxan bəy tərəfindən İznikdə, daha sonra Bursada yaradılmışdır. Osmanlı imperiyası gücləndikcə Səlcuqlular dövründən qalan təhsil sistemi də təkmilləşdirilmişdir. Hətta Osmanlı sultanlarının yanında müsəlman elm adamları ilə yanaşı, yunan, italyan və yəhudi alimləri də fəaliyyət göstərmişdirlər. Həmin dövrlə bağlı araşdırma aparmış tədqiqatçılara görə, osmanlıların təhsil üçün ayırdığı vəsait bütün xristian dövlətlərinin ayırdığı vəsaitdən daha çox olmuşdur.

---

[143] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 17

Səfəvilər dövründə Təbriz, Ərdəbil, Həmədan və İsfahanda fəaliyyət göstərən mədrəsələr islam dünyasında ən nüfuzlu təhsil ocaqlarından sayılırdı. Həmin dövrdə indiki Əfqanıstan, Pakistan və Hindistan ərazilərində də islam mədrəsələri fəaliyyət göstərirdi. Lakin XVI əsrdən başlayaraq bu mədrəsələrin fəaliyyəti Avropanın təhsil müəssisələri ilə müqayisədə zəifləmişdir.

İslam dünyasında dini öyrətmək və yaymaq məqsədilə əvvəllər məscidlərin tərkibində yaradılmış mədrəsələr qısa müddət sonra dünyəvi elmlərin də tədris olunduğu yüksək səviyyəli təhsil ocaqlarına çevrilmişdir. Hətta bəzi tədqiqatçılar bir sıra xüsusiyyətlərinə görə müasir dövrlə müqayisədə "Beytül-Hikmət"i və "Darül-Hikmət"i akademiya, Qaraviyyin, Əzhər, Nizamiyyə mədrəsələrini isə universitet hesab edirlər. Bu təhsil ocaqlarının fəaliyyəti Avropada yeni təhsil sisteminin formalaşmasına ciddi təsir göstərmişdir.

Müasir dövrdə universitetlərdə mövcud olan bir sıra ənənə və qaydalar var ki, onların əsasını müsəlmanlar qoymuşlar. Məsələn, Nizamiyyə mədrəsəsində yeni təyin olunmuş müəllimə qara cübbə geyindirilir, mavi rəngli sarıq və şal hədiyyə edilirdi. Müəllim işdən çıxdığı təqdirdə cübbə və sarıq geri qaytarılırdı. Bu qayda sonralar Avropadakı təhsil ocaqlarına da sirayət etmişdir.[144]

X əsrdən başlayaraq islam təhsil müəssisələrində yeni qayda formalaşmışdı. Həmin qaydaya əsasən tələbə müəllimindən hansısa bir dərsi (elmi) bitirməsinə dair icazə alırdı və beləliklə, o elmi tədris etmək hüququ qazanırdı. Bu icazə ərəbcə "icazət lit-tədris" adlanırdı. XII əsrdən etibarən

[144] TDV İslam Ansiklopedisi, Medrese, Cild 33, səh. 189, 2007

belə bir qayda Avropa universitetlərində də tətbiq edildi. Avropalılar bu icazəyə latın dilində "licentia docendi" deyirdilər. Şərq və Qərb dünyasında yüksək təhsil ocaqlarının yaradılmasını müqayisəli şəkildə araşdıran tədqiqatçı Corc Makdisi (1920-2002) müsəlmanların açdığı elm və təhsil müəssisələrinin, o cümlədən mədrəsə və rəsədxanaların uzun "monastır dövrü"ndən sonra orta əsrlər Avropasında universitet sisteminin inkişafına, hətta doktorantura kimi təhsil pilləsinin yaradılmasına örnək təşkil etdiyini yazır. O, "The Rise of Colleges" (1981) əsərində qeyd edir ki, "Bolonya və Parisin (universitetlərinin) də Bağdadın mirasçısı olduğunu söyləmək olar".[145]

1274-cü ildə modern ali təhsil sisteminin (college system) başlanğıcı kimi qəbul edilən Merton kollecinin (Oksford Universiteti) formalaşmasında, eləcə də İngiltərədə vəqf sisteminin inkişafında islam dünyasındakı vəqf anlayışının təsiri böyük olmuşdur. Yeri gəlmişkən, Oksford kolleci Parisə ali təhsil almaq üçün gəlmiş ingilislərin ölkələrinə qayıtdıqdan sonra irəli sürdükləri təşəbbüs və fəaliyyət nəticəsində inşa edilmişdir.[146]

İslam dünyasında formalaşmış təhsil sistemi, elmi fəaliyyət əvvəlcə Misir, Şimali Afrika, İspaniya, Siciliyaya, oradan da Avropaya keçmişdir. Təsadüfi deyil ki, Avropada ilk univeristetlər islam dünyası ilə sərhəddə yerləşən ölkələrdə, İtaliya (Bolonya, Padua və Venesiya universitetləri) və Fransada (Paris universiteti) formalaşmış, daha sonra oradan İngiltərə və digər Avropa ölkələrinə yayılmışdır.

---

[145] TDV İslam Ansiklopedisi, Medrese, Cild 28, səh. 340, 2003
[146] Yenə orada

XII əsrdən etibarən islam dünyasının elm, təhsil və fəlsəfə sistemini öyrənməyə başlayan avropalılar fəlsəfədən riyaziyyata, tibdən optikaya qədər bir çox kitabları ərəbcədən latın və digər Avropa dillərinə tərcümə etmişlər. Xüsusilə İspaniya (Toledo, Sevilya, Kordova) və İtaliyada (Siciliya, Venesiya və s.) islam alimlərinin əsərlərinin latın dilinə tərcüməsi Avropada elm və təhsilin inkişafına təkan vermişdir. Orta əsrlərdə Avropadakı bütün universitetlərdə müsəlman alimlərin latıncaya tərcümə olunmuş əsərləri tədris edilirdi. XIV-XVII əsrlərdə belə İtaliyanın Venesiya və Padua universitetlərində Aristotellə yanaşı, İbn Rüşdün (1126-1198) fəlsəfi fikirləri müzakirə olunur, müsəlman təbiblərin əsərləri öyrədilirdi.[147] Bütün bunlar Avropada formalaşan və oradan dünyaya yayılan müasir təhsil sisteminin qurulmasında müsəlman alimlərinin nə dərəcədə xidmətlərinin olduğunu göstərir.

Rəsədxanalar

Astronomiya müsəlman alimlərin ən çox məşğul olduqları elm sahələrindən biridir. Bunu iki əsas səbəblə izah etmək olar. Birincisi, müsəlmanlar ibadətlərini vaxtlı-vaxtında (namaz, oruc və s.) yerinə yetirmək və qibləni təyin etmək üçün Günəşin və Ayın hərəkətini bilməli, zamanı dəqiq

[147] TDV İslam Ansiklopedisi, Medrese, Cild 28, səh. 339, 2003

müəyyənləşdirməlidirlər. İkincisi, Qurani-Kərimdə səma cisimləri, göy üzünün yaradılması, Günəşin və Ayın hərəkəti barədə təxminən 150 ayə var. Həmin ayələrdə insanlar bunu araşdırmağa təşviq edilir və ibrət almaları tövsiyə olunur. Məsələn, Qurani-Kərimin Yunus surəsinin 101-ci ayəsində buyurulur: "De: bir gör göylərdə və yerdə nələr var". Zariyat surəsinin 47-ci ayəsində isə göyün yaradılmasına toxunulur: "Göyü qüdrətimizlə Biz yaratdıq və Biz (onu) genişləndirməkdəyik".

Beləliklə, müsəlmanlar həm ibadətlərini dəqiq vaxtında yerinə yetirmək, həm də Qurani-Kərimin təşviqi ilə səmanı araşdırmaq üçün astronomiyaya və rəsədxanaların yaradılmasına xüsusi əhəmiyyət vermişlər. Ümumiyyətlə, elm tarixində rəsədxanaların yaradılması daha çox müsəlmanların adı ilə bağlıdır. Amma islam dünyasındakı rəsədxanalarda yalnız səma cisimləri müşahidə edilməmiş, həm də nəzəri və praktiki cəhətdən astronomiya elmi öyrədilmişdir. Bu baxımdan rəsədxanalar islam tarixində xəstəxana və mədrəsələrdən sonra ən qədim elm ocağı hesab edilir.

Müsəlmanlar astronomiya ilə islamın meydana çıxdığı ilk əsrdən məşğul olmuş, bu sahəyə aid çoxlu kitablar tərcümə etmiş, yeni əsərlər yazmış və Sabit ibn Qürrənin (836-901) Ptolemeyin "Almagest" əsərini ərəbcəyə tərcümə etməsi bu prosesi daha da sürətləndirmişdir. İslam coğrafiyasında ilk rəsədxana Abbasi xəlifəsi Məmun (786-833) tərəfindən təxminən 828-ci ildə Bağdadda yaradılmışdır.[148] "Şəmmasiyə" adlanan bu rəsədxananın ilk astronomları

[148] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 18

Fəzl ibn Növbəxt və məşhur riyaziyyatçı Xarəzmi (783-850) olmuşdur. Şəmmasiyə Bağdadın ən hündür qəsəbəsi idi və rəsədxana məqsədli şəkildə burada tikilmişdi. Rəsədxananın astronomları paralel şəkildə Cündişapurda və Dəməşq yaxınlığındakı Qasiyum dağında astronomik müşahidələr aparırdılar və məqsədləri müşahidələrin nəticələrini müqayisəli təhlil etmək idi. Şəmmasiyə rəsədxanasının fəaliyyəti nəticəsində "Məmun cədvəlləri" adlı astronomik cədvəl hazırlanmışdır. Həmçinin Bağdad yaxınlığında iki yerdə meridianın bir dərəcəlik qövsü ölçülmüş və Yer meridianı çevrəsinin uzunluğu təyin edilmişdir. Sonrakı dövrdə islam dünyasında çoxlu rəsədxana yaradılmış və həmin rəsədxanalara orada fəaliyyət göstərən alimlərin adları verilmişdir. Məsələn, IX əsrdə indiki Suriyanın Rəqqə şəhərində açılmış rəsədxana böyük alim Bəttaninin (858-929), Şirazdakı rəsədxana isə Əbdürrəhman ibn Ömər əl-Sufinin (903-986) adını daşıyırdı.

Rəsədxanalarda müsəlman astronomların qazandıqları böyük uğurlar elm dünyasına əsrlər boyu bələdçilik etmiş, Kopernik (1473-1543), Qaliley (1564-1642) və Kepler (1571-1630) kimi bir çox Qərb alimləri üçün ilham mənbəyi olmuşdur. Professor Jan-Jak Risler müsəlmanların Avropa intibahına təsirindən danışarkən qeyd edir ki, "müsəlman astronomları riyaziyyat alimləri səviyyəsində intibahımıza təsir göstərmişlər".[149]

Məsələn, Avropada "Albategnius" adı ilə tanınan, əsərləri XII əsrdən latın dilinə tərcümə edilən Bəttani Günəş, Ay və planetlərin hərəkətlərini, orbitlərini daha dəqiq

[149] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 11 s.

müəyyən etməyə çalışmış, Günəşin dünyadan ən uzaq olduğu nöqtədəki hərəkətini kəşf etmişdir. Ondan beş əsr sonra Kopernikin 23 dərəcə 35 dəqiqə olaraq müəyyənləşdirdiyi dünyanın ekliptik mailliyini o, 23 dərəcə hesablamış, bu gün bilinən bucaq qiymətini az bir fərqlə tapmışdır. Bəttani Günəş ilinin uzunluğunu ən son hesablamalara çox yaxın olan 365 gün, 5 saat, 46 dəqiqə və 24 saniyə olaraq müəyyən etmişdir. Dünyanın ən məşhur 20 astronomundan biri sayılan Bəttaninin hazırladığı "Sabii cədvəlləri" adlı astronomik cədvəl Kopernikin dövrünə qədər Avropada əsas mənbə kimi qəbul olunmuşdur.[150]

İslam dünyasında astronomiyaya aid əsərlərin qələmə alınması rəsədxanaların yaradılmasından əvvəlki dövrə təsadüf edir. Məsələn, "kimyanın atası" hesab edilən Cabir ibn Həyyanın (721-815) astronomiya sahəsində onlarla kitabı var. Onun kitablarının əksəriyyəti latın dilinə tərcümə olunmuş və Qərb alimləri tərəfindən dərindən öyrənilmişdir. Cabir ibn Həyyanın "Kitab əz-Zöhrə" ("Zöhrə ulduzu barədə kitab") əsərindəki elmi məlumatlar yalnız XX əsrin elmi kəşflərindən sonra öz təsdiqini tapmışdır.

Müsəlman alimlər rəsədxanalarla yanaşı, astronomiyaya aid müxtəlif alətlər də yaratmışlar. Uzunluq və en dairələrini təyin etmək üçün bucaqölçən aləti – üstürlabı (astrolyabiyanı) icad edən, təkmilləşdirən, onun müxtəlif növlərini yaradan məhz müsəlmanlar olmuşdur. Abbasilər dövlətinin ilk rəsmi astronomu olan İbrahim əl-Fəzari (ö. 777) üstürlabı icad etmiş, bu sahədə ilk əsəri isə böyük yə-

[150] TDV İslam Ansiklopedisi, Rasathane, Cild 34, səh. 456-457, 2007

hudi əsilli alim Maşallah ibn Atari (740-815) hələ rəsədxanalar yaradılmamışdan öncə yazmışdır. Zaman keçdikcə bu cihaz daha da təkmilləşdirilmişdir. Məsələn, böyük alim Zərqalinin (1029-1087) icad etdiyi yeni növ üstürlab o dövr üçün qeyri-adi cihaz sayılırdı.[151]

Müxtəlif rəsədxanalarda fəaliyyət göstərmiş böyük islam riyaziyyatçısı Məhəmməd ibn Musa əl-Xarəzmi astronomiyaya aid ikicildlik əsərində ulduzlardan və onların hərəkətindən bəhs etmişdir. Onun hazırladığı astronomiya cədvəlləri əsrlər boyu elm dünyasında əsas mənbələrdən hesab edilmiş, XVI əsrə qədər avropalı alimlər öz araşdırmalarında bu cədvəllərdən bəhrələnmişlər.



Rey rəsədxanasının maketi

Əsərləri Avropada dərslik kimi tədris edilmiş və köhnə qitədə astronomiyanın inkişafına təsir göstərmiş islam alimlərindən biri də Qərbdə "Alfraqanus" kimi tanınan Əhməd ibn Məhəmməd Fərqanidir. IX əsrdə yaşamış bu alim Günəşin üzərində ləkələr olduğunu sübut etmiş və əsərlərindən Avropada 700 il elmi mənbə kimi istifadə olunmuşdur.[152] Zəmanəsinin tanınmış alimi Əbdürrəhman ibn Ömər əl-Sufi isə Rey şəhərində yaratdığı rəsədxanada müşahidələr aparmış və nəticədə, ulduzlar kataloqu tərtib etmişdir.

[151] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 11 s.
[152] Yenə orada, səh. 11

Bu kataloq 1874-cü ildə Peterburqda "Sabit ulduzlar siyahısı" adı ilə nəşr olunmuşdur.

İslam dünyasının ən böyük astronomlarından biri də Əbu Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni (973-1048) hesab edilir. Onun yaratdığı teleskopun diametri o zaman üçün ağlagəlməz ölçüdə – 7,5 metr idi. Biruni Yer kürəsinin (öz təbiri ilə desək, dünyanın) həm öz oxu, həm də Günəş ətrafında fırlandığını əsaslandırmışdır. O, yerin diametrini ölçməyi də bacarmışdır. Dahi alimin bu sahədə yaratdığı qanun Avropada "Biruni qanunu" kimi tanınmışdır. O, "əl-Qanun əl-Məsudi" adlı əsərində Ptolemeydən fərqli olaraq heliosentrik bir sistemin astronomik faktlara zidd olmadığını müdafiə edərək[153] Kopernikin müjdəçisi olmuşdur.

Biruni coğrafiya və astronomiya hesablamaları üçün bir çox alətlər yaratmışdır. Hətta onlardan bir neçəsi müasir dövrümüzə qədər gəlib çıxmışdır. O, elmi araşdırmaları ilə bu qənaətə gəlmişdir ki, dünya öz oxu ətrafında fırlanırsa, deməli, onu saxlayan, hərəkətini tənzimləyən qüvvə olmalıdır. Biruni bununla cazibə qüvvəsini tapmış, böyük ingilis alimi İsaak Nyutondan (1643-1727) yeddi əsr əvvəl həmin qüvvənin cazibə qüvvəsi olduğunu sübuta yetirmişdir. Tədqiqatçı alim Karl L.Boyer "Riyaziyyatın tarixi" ("A history of mathematic") adlı əsərində Biruninin bu kəşfinin insanın kosmosu kəşf etməsi qədər mühüm bir hadisə olduğunu qeyd edir.

X əsrdə yaradılmış rəsədxanalardan biri də Həmədanda idi. Onu 1023-cü ildə İsfahan hakimi Əlaüddövlə məşhur təbib və astronom İbn Sina üçün tikdirmişdir. Eyni

[153] Günay Tümer, "Biruni", TDV İslam Ansiklopedisi, Cild 6, səh. 208

əsrdə Səlcuq sultanı Məlikşah Reydə yeni rəsədxana inşa etdirmişdir. Böyük şair və alim Ömər Xəyyam (1048-1131), eləcə də digər məşhur müsəlman alimlər bu rəsədxanada fəaliyyət göstərmişlər. Kainatın sonsuzluğu və Yerin hərəkət etməsi fikrinə tərəfdar çıxan Ömər Xəyyam Qriqori təqvimindən daha dəqiq təqvim təklif etmişdir. Alman tədqiqatçı Morits Kantor (1829-1920) Ömər Xəyyamın bu rəsədxanada hazırladığı "Tarix əl-Cəlali" adlı təqvimin özündən öncə və sonra təklif edilən bütün təqvimlərdən daha doğru olduğunu yazır.

XI əsrdə müsəlman İspaniyasında da bir neçə rəsədxana yaradılmışdır. Onların ən önəmlisi Əməvilərin Toledo şəhərində tikdirdiyi və böyük islam alimi, teleskopun yaradıcısı sayılan Əbu İshaq İbrahim ibn Yəhya İbnuz-Zərqalənin (ö. 1100) adını daşıyan rəsədxana idi. Qərb dünyasına çox böyük təsir göstərən, Avropada astronomiya elminin və rəsədxanaların meydana çıxmasına səbəb olan bu rəsədxananı avropalılar "Arzakel" adlandırırdılar.[154] Həmin dövrdə İspaniyada Cabir ibn Əflah (1100-1150) və İbn Bəccə (1095-1138) dövrün məşhur astronomları sayılırdı və onların hər birinin öz rəsədxanası var idi. Cabir ibn Əflah ulduzların yerini və boşluqlarını ölçən azimut cihazını alman astronomu Regiomontandan (Königsberqli Yohann Müllerdən, 1436-1476) 300 il əvvəl hazırlamışdır.[155]

İslam dünyasında rəsədxanaların inkişaf dövrü Marağa rəsədxanasının inşası ilə ən yüksək nöqtəsinə çatmışdır. Böyük azərbaycanlı alim, riyaziyyatçı, filosof, astronom

[154] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 19

[155] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 12 s.

Nəsirəddin Tusinin (1201-1274) rəhbərliyi və Hülakü xanın (1217-1265) göstərişi ilə 1259-cu ildə yaradılmış, inşası 12 il davam edən Marağa rəsədxanasının 400 mindən çox kitaba malik zəngin kitabxanası və astronomik alətlərin hazırlandığı emalatxanası var idi. Bura təkcə rəsədxana deyil, həm də bütün elmlərin tədris olunduğu yüksək səviyyəli təhsil ocağı kimi 50 il fəaliyyət göstərmişdir.

Tarixi mənbələrə görə, rəsədxana yaratmağı çoxdan arzulayan N.Tusi bunun üçün Elxanilər dövlətinin sultanı Hülakü xanın razılığını alır və təxminən bir ilə yaxın müddətdə rəsədxananın tikiləcəyi yeri müəyyənləşdirir. O, rəsədxananı Ürgənc və Rey rəsədxanalarının əsasında tikir və astronomik cihazlar hazırlayır, müxtəlif şəhərlərdən burada yaradılacaq kitabxana üçün kitablar toplayır. "Zic-Elxani" ("Elxani astronomik cədvəli") əsərində bu barədə yazılır: "Hülakü xan ətraf vilayətlərdən astronomik müşahidələr apara bilən alimləri çağırmağı tələb etdi. Dəməşqdən Müəyyidəddin Ürzi, Mosuldan Fəxrəddin Maraği, Tiflisdən Fəxrəddin Əxlatini, Qəzvindən Nəcməddin Dibranini".

Digər tarixi qaynaqlardan isə dövrün tanınmış alimlərindən Qütbəddin Şirazinin, Şəmsəddin Şirvaninin, Cəmaləddin Zeydi Buxarinin, ümumilikdə 100-dən çox elm xadiminin Marağa rəsədxanasında fəaliyyət göstərdiyi məlumdur. Onların əksəriyyəti N.Tusinin tələbələri olmuşdur.

N.Tusinin rəsədxanası öz həcminə görə Şərqin bütün məşhur rəsədxanalarını geridə qoymuşdur. Burada təkcə müsəlman alimlər deyil, çinli buddist alim Fao Munçi (Fau

Mun Ji), xristian alim Bar Hebraeus, monqol alimi İsa və digərləri fəaliyyət göstərmişlər.[156]

Marağa rəsədxanasında çalışan alimlərin elmi fəaliyyəti və astronomik müşahidələri əsasında "Zic-Elxani" adlı kollektiv əsər meydana gəlmişdir. Bu əsər Marağa rəsədxanası kollektivinin 12 illik gərgin əməyi nəticəsində tərtib edilmişdir. "Zic-Elxani" Uluqbəyin rəsədxanası tikilənədək 200 il ərzində yeganə astronomik kataloq olmuşdur. Astronomlar efemerid tərtib edərək lazım olan bütün astronomik məlumatı bu kataloqdan almışlar. Ay, Günəş və başqa planetlərin (o vaxtlar geosentrik sistemdə Ay və Günəş planet hesab edilirdi) cazibəsi nəticəsində Yerin presessiyasının dəqiq qiyməti, Günəşin zahiri ortaq sutkalıq sürüşməsi, Ay və Günəş tutulmalarının cədvəlləri, 256 yaşayış məntəqəsinin coğrafi koordinatlarının müəyyən edilməsi, yeni torpaqların olması haqqında dəyərli elmi məlumatlar N.Tusi və onun rəhbərlik etdiyi Marağa rəsədxanasının əməkdaşlarının nailiyyətidir. N.Tusi yüz il ərzində yaz bərabərliyi nöqtəsinin, göy sferasında əsas nöqtələrin 123 dərəcə sürüşdüyünü göstərmiş və təqvimin quruluşunu tədqiq etmişdir. Onun əsərlərindən Qərb alimləri tədqiqat işlərində çox bəhrələnmişlər.

Kopernik öz heliosentrik nəzəriyyəsini yaradarkən N.Tusinin isbat etdiyi dairələr haqqında teoremindən daha çox istifadə etmişdir. Hətta yeni yaşayış yerlərini aşkar etmək arzusu ilə səyahətə çıxan Xristofor Kolumbun (1451-1506) gündəliyindən onun N.Tusinin 256 məntəqə üçün

[156] Aqil Şirinov, Nasiruddin Tusi`de Varlık ve Uuhiyyet, İstanbul: İSAM Yayınları, 2011, səh. 24; Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 19

tərtib etdiyi coğrafi koordinatlardan ibarət cədvəldən ustalıqla istifadə etdiyi məlum olmuşdur. Danimarkalı Tixo Brahenin rəsədxanasındakı bir neçə cihazın Marağa rəsədxanasındakı cihazlar olması sübut edilmişdir. 1576-cı ildə Kopenhagen yaxınlığında təşkil edilən bu rəsədxanada 20 il müşahidələr aparılaraq çox dəyərli materiallar toplanmışdır. T.Brahen orta əsrlərdə Uluqbəydən sonrakı dövrdə ən böyük rəsədxananın yaradıcısı hesab edilir. M.Ordinin Parisdə tapılan (1609) əsərində Marağa rəsədxanasının cihazları barədə məlumat verilmişdir. Marağa rəsədxanasının ulduz qlobusu hazırda Almaniyanın Drezden şəhərindəki Riyaziyyat – fizika salonu muzeyində saxlanılır. Ümumiyyətlə, bu rəsədxananın elmi irsi Uluqbəy rəsədxanasının, Caypur, Pekin və bir çox Avropa rəsədxanalarının fəaliyyətinə böyük təsir göstərmişdir. N.Tusinin riyaziyyata dair kitabları, xüsusilə "Təhriri-Öqlidis" ("Evklidin şərhi") əsəri Qərbi Avropada məşhur alimlərin, o cümlədən İsaak Nyutonun müəllimi Con Vallisin Oksford Universitetində uzun müddət mühazirə kitabı olmuşdur.

İslam dünyasının ən məşhur rəsədxanalarından biri XV əsrdə inşa edilmiş Səmərqənd rəsədxanasıdır. Əmir Teymurun nəvəsi Məhəmməd Tarağay Uluqbəy (1394-1449) tərəfindən 1428-ci ildə yaradılmış bu rəsədxana sonrakı dövrlərdə İstanbul rəsədxanasının inşasında örnək kimi qəbul edilmişdir. Osmanlı sultanı IV Muradın (1612-1640) yaratdığı İstanbul rəsədxanası isə Avropada rəsədxanaların yaradılmasına örnək olmuşdur.

Uluqbəy qüdrətli hökmdar olmasına baxmayaraq, özünü elmə həsr etmiş, elmi fəaliyyəti ilə dövrünün ən görkəmli astronomu kimi tanınmışdır. Digər böyük astronomlar

Səlahəddin Qazızadə Rumi (1364-1437), Əli Quşçu (1403-1474) və Qiyasəddin Cəmşid Kaşani (1380-1429) onun tələbələri olmuşlar. Yaşadığı dövrün Ptolemeyi adlandırılan Əli Quşçu ekliptik çevrəni (ulduzların hərəkət çevrəsini) müasir hesablamaya çox yaxın şəkildə hesablamışdır. Əli Quşçu və Səlahəddin Qazızadə Ruminin Azərbaycanın Şamaxı şəhərindən olan tələbəsi Fətullah Şirvani (1417-1486) sonralar Osmanlı dövlətinə gəlmişlər. Səmərqənddən indiki Türkiyənin Kastamonu bölgəsinə köçən Fətullah Şirvani Anadoluda riyaziyyat və astronomiya elminin əsasını qoymuşdur.

Uluqbəyin rəsədxanasında hazırlanmış ən mühüm əsər "Yeni astronomik cədvəllər"dir. Əsərdə astronomiyanın əsasları və T.Brahenin müşahidələrinədək ən dəqiq olan 1018 ulduzun kataloqu şərh edilmişdir.

Uluqbəyin zəngin irsi Avropada astronomiya elminin inkişafına xüsusi təkan vermişdir. Onun orta əsr Avropasında görkəmli astronom kimi tanınmasını 1648-ci ildə Yan Hevel tərəfindən nəşr etdirilmiş "Göy cisimlərinin kataloqu" adlı əsər də sübut edir. Həmin kataloqda məşhur astronomların rəsmləri təsvir edilmiş qravür verilmişdir. Onların arasında Uluqbəy də var.

Astronom kimi əldə etdiyi uğurlara görə hələ 1830-cu ildə Uluqbəyin adının əbədiləşdirilməsi qərara alınmışdır. Alman astronomu, Uluqbəyi özünə ustad hesab edən Yohann Henrix fon Medler Ayda kəşf etdiyi kraterə Uluqbəyin adını vermişdir. İslam dünyasında yalnız astronomiya üzrə ixtisaslaşmış təhsil ocaqları yaradılmışdır. Məsələn,

Səlcuqlar dövründə Konyada yaradılmış Qaratay mədrəsəsi xüsusi olaraq astronomiya elmi üçün təsis edilmişdir.[157] Sonrakı əsrlərdə islam dünyasında bir neçə rəsədxana yaradılmış, lakin XVI əsrdən etibarən onların fəaliyyəti tədricən zəifləməyə başlamışdır.

İslam dünyasındakı rəsədxanaların və müsəlman astronomların Avropada bu sahənin inkişafına təsiri XVII əsrə qədər davam etmişdir. Təsadüfi deyil ki, astronomiyaya aid bəzi terminlərin, alətlərin, hətta planetlərin adları ərəbcədir. Məsələn, Əlqul, Rigel, Merkuri, Venera, Mars, Yupiter, Saturn və s. ərəbmənşəli sözlərdir.

Eyni zamanda müsəlman astronomların yazdıqları əsərlər X əsrdən etibarən XVI əsrə qədər latın, yunan, fransız dillərinə tərcümə edilmiş və müxtəlif vaxtlarda dəfələrlə nəşr olunmuşdur. Bu baxımdan Qalileydən, Kopernikdən Keplerə qədər bir çox Avropa astronomlarının əsərlərində müsəlman alimlərin təsirini görməmək qeyri-mümkündür.[158]

İslam astronomiyası antik, yunan, hind və Çin astronomiyasından müasir astronomiyaya keçid mərhələsini təşkil etmişdir. Başqa ifadə ilə desək, islam astronomiyası antik dövr astronomiyasının, Avropa astronomiyası isə islam astronomiyasının davamıdır. Belə ki, islamın ilk dövrlərində astronomiyaya aid yunan, hind və digər dillərdə olan kitablar ərəbcəyə tərcümə olunmuş və müsəlmanlar onların əsasında bu elmi inkişaf etdirmişlər. Buna görədir ki, ilk müsəlman astronomlar Ptolemeyin və hind astronomiyasının təsirindən çıxa bilməmişlər. Məsələn, Kindinin

[157] Vasim Məmmədəliyev "Quran və elm", Bakı: Qismət, 2006. – 12 s.
[158] Fuat Sezgin, İslam Elmlər Tarixi Haqqında Konfranslar, Başlakitab, 2017, səh. 96-97

(801-873) Yer və göylə bağlı bəzi fikirləri Ptolemeyin nəzəriyyəsinə əsaslanır. Həmin nəzəriyyəyə (geosentrik nəzəriyyə) görə, Yer hərəkətsizdir və Günəş onun ətrafında fırlanır. Lakin qısa bir müddətdən sonra müsəlman astronomlar Qurani-Kərimin prinsiplərinə zidd olan bu nəzəriyyəni inkar etməyə başlamışlar. İslam dünyasında anti-Ptolemeyçi fikir daha çox Fərqaninin adı ilə bağlıdır. Ondan sonra Sabit bin Qürrə, Zərqali, Cabir ibn Əflah Fərqaninin mövqeyini müdafiə etmiş, Yerin hərəkətdə olduğunu söyləmişlər.

Geosentrik nəzəriyyədən heliosentrik (Yerin Günəş ətrafında fırlanması) nəzəriyyəyə keçid Rocer Bekon (1219/20-1292) və digər Renessans dövrü mütəfəkkirlərinin "Yeni astronomiyanın qurucusu" adlandırdıqları Bitruçi (ö. 1217) ilə, demək olar ki, başa çatmışdır. Bitruçi nəinki Ptolemeyin nəzəriyyəsini inkar etmiş, hətta dünyanın hərəkət etdiyini sübuta yetirmişdir. Digər müsəlman astronom Siczi (945-1020) isə dünyanın fırlandığını isbatlamaqla astronomiyada yeni bir dövr açmışdır. Əslində, Biruni, Siczi və digərləri Qaliley, Kopernik və Keplerdən öncə dünyanın fırlanmasını və cazibə qüvvəsini kəşf etmişlər. Kopernikə təsir göstərmiş böyük islam astronomu İbn Şatirlə (1306-1375) bağlı tədqiqat aparmış şərqşünas Viktor Robert və professor Otto Eduard Neygebauer (1899-1990) kiçik bir neçə nöqtə istisna olmaqla İbn Şatirin Günəş və Ay nəzəriyyəsinin Kopernikin nəzəriyyəsi ilə eyni olduğunu yazırlar. Xüsusilə Kopernikin Günəş nəzəriyyəsi İbn Şatirin nəzəriyyəsinin, demək olar ki, təkrarıdır.[159]

[159] Doç. Dr. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh. 81

Ptolemey nəzəriyyəsi xristianlığın Yerlə bağlı inancına uyğun idi və orta əsrlərdə kilsə dünyanın hərəkətsiz olduğunu təbliğ edirdi. Ona görə də Qaliley və digər alimlər Yerin fırlandığını dedikdə kilsənin təzyiqinə məruz qalmışlar. Halbuki Yerin fırlanmasını ilk dəfə Qaliley yox, böyük islam mütəfəkkiri Siczi söyləmişdir. Beləliklə, müasir astronomiyanın yaradıcıları sayılan Qaliley, Kopernik, Kepler, əslində, islamın intibah dövründə yaşamış müsəlman astronomların elmi irsindən bəhrələnərək, bəzən onların kəşflərini təkrarlayaraq bu sahədə yeni mərhələnin əsasını qoymuşlar.



Könül Bünyadzadə,
fəlsəfə elmləri doktoru, professor,
Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü

Azərbaycanın islam sivilizasiyasında yeri və rolu

Azərbaycanın düşüncə tarixi özündə islam sivilizasiyasının əhəmiyyətli məqamlarını ehtiva etdiyinə görə islam sivilizasiyasının hərtərəfli öyrənilməsində bu faktor mütləq nəzərə alınmalıdır. Bu səbəbdən Azərbaycan mütəfəkkirlərinin dünyagörüşlərinin tədqiqi islamın qızıl dövrünün aparıcı ideyalarının araşdırılması və islam düşüncəsinin aydın mənzərəsinin canlandırılması deməkdir.

İslam sivilizasiyası dünya elmi mühitində mübahisə doğuran bir anlayışdır. Sivilizasiyanın yaranmasında dinin, yoxsa milli-etnik köklərin ön plana çəkilməsi haqqında mütəfəkkirlər, tədqiqatçılar arasında ciddi fikir ayrılıqları vardır və hər iki mövqe çox güclü, əsaslı arqumentlərlə çıxış edir. Onlara hörmətimizi bildirməklə yanaşı, biz üçüncü bir mövqeni təklif edirik: bütün mövcudat müəyyən ilahi bir hikmətin təzahürüdür və bütün sivilizasiyalar onun inkişafının, çiçəklənməsinin ifadəsidir. Zaman-zaman müxtəlif dünyagörüşlərə müvafiq şəkildə öz fərqli ifadələrini tapan, forması, üslubu, üsulu, dili, dini fərqlənsə də, düşüncələri işıqlandırıb istiqamətləndirən bu ideyanın mahiyyəti dəyişməz və sabit olaraq qalır. Müəyyən mənada ruhlar vasitəsilə nəsildən nəslə ötürülən bu ideya ənənəsini Seyid Hüseyn Nəsr "İlahi mənbənin

bəşəriyyətə açılan həqiqətləri və ya prinsipləri"[160] adlandırır. İslam fəlsəfəsində *"hikməti xalidə" (farsca. cavidane-xerəd)*, Qərbdə *"perennial philosophy"*, hindularda *"sanatana dharma"* kimi tanınan bu *"əbədi fəlsəfə"*, orta əsrlərin islam mütəfəkkiri İbn Miskəveyhin fikrinə görə, "əzəli bir ağıl, əzəli bir hikmətdir. O, dövrdən dövrə, millətdən millətə dəyişməyən, tarix fövqündə bir həqiqət, özünü əsrlər boyu müxtəlif mədəniyyətlərdə daim təzahür etdirən bir xalidə (əzəli) hikmətdir"[161]. Təbii ki, onu kölgələndirən, məğzindən uzaq salan, təhrif edən təlimlər, təhlillər də olmuş, onu görünməz hala gətirən informasiya bolluğu da yaranmışdır, lakin hər dövrdə onun mahiyyətini görən və onun parlamasına xidmət edən və bununla da yer üzündə mütləq həqiqətin qorunmasına şərait yaradan şəxslər də yaşayıb-yaratmışlar. "Müxtəlif varlıq və var olma formalarında təzahürləri nə qədər fərqli olursa olsun, mahiyyətdə eyni həqiqət", "hansı mədəni qəliblər içində şəkil qazanırsa qazansın, mahiyyətdə eyni bilik"[162] olan bu ideyanın, hikmətin qorunması naminədir ki, Allah-taala özünün seçdiyi peyğəmbərlərə, nəbilərə, filosoflara, alimlərə öz vəhyini, kəşfini, ilhamını lütf etmiş və etməkdədir. Belə şəxslərin düşüncələrinin, mənəvi dünyalarının bir qapısı xalqa – ideyanın təzahür meydanına, digəri isə bu hikmətin sahibi olan Haqqa, Yaradana açıqdır. Səlahəddin Xəlilov yazır: "Sivilizasiyanın ən mühüm şərtlərindən biri

---

[160] Сейид Хусейн Наср. Что такое традиция // http://www.newatropatena.narod.ru/p22.htm

[161] İbn Miskəveyh. əl-Hikmətu'l-xalidə (Cavidan Xirad), Beyrut, 1983, s. 375-376 // Bax: İlhan Kutluer. İslamın klasik çağında felsefe tasavvuru. İstanbul, İz yayıncılık, 2001, s. 29.

[162] İlhan Kutluer. İslamın klasik çağında felsefe tasavvuru, s. 29.

məhz kəsilməz tarixdir. Belə ki, cəmiyyətin inkişafında qazanılan hər hansı bir nailiyyət sonradan davam etdirilmirsə, o, böyük müddət intervalında tarixi prosesə daxil ola bilmir".[163] Filosofun bu sözlərini daha böyük miqyasda qəbul edib onu yalnız bir xalqın tarixinə deyil, ümumilikdə mütləq ideyanın, vahid həqiqətin əbədi sirkulyasiyasına aid etsək, sadə, eyni zamanda daim qorunan bir qanunauyğunluğun şahidi olarıq: *Tarixdə yaranmış hər yeni ideya, fəlsəfi sistem özündən əvvəlkinin davamı, əvvəlki isə özündən sonrakı üçün sabit bir postament olmalıdır. Bu prinsipdən kənarda qalan hər bir ideya isə oyundankənar vəziyyətə düşməyə məhkumdur.*

Sivilizasiya hadisəsi əbədi hikmətin yalnız irəli doğru getməyib müəyyən şərtlər altında həm də eninə və dərininə doğru inkişaf etməsidir. Bu şərtlər hər sivilizasiyada fərqli olur. Bu prosesin gedişində din, dil, mədəniyyət əbədi hikmətin hökmü altına düşür və ümumi inkişafın təkanverici qüvvələrinə çevrilir və öz mahiyyətlərinin üst qatına qalxır. Xüsusilə vurğulayaq ki, mahiyyətində məhz əbədi hikmət durduğuna görə hər sivilizasiya, Samuel Hantinqtonun iddia etdiyi kimi, heçdən yaranıb heçə doğru getmir, özündən əvvəlki sivilizasiyalardan nə isə miras alır. Belə olan halda dini təməl üzərində təşəkkül tapan sivilizasiyalara da baxış bucağı dəyişir. Məsələn, fikrimizcə, Səlahəddin Xəlilovun yazdığı kimi, "xristian sivilizasiyası İncillə, islam sivilizasiyası Quranla yaşıd"[164] deyil, kiçikdir. Çünki yeni din yalnız əbədi

[163] Səlahəddin Xəlilov "Kəsilməz tarix və dövlətçilik ənənələri" // İpək yolu, Beynəlxalq elmi ictimai-siyasi jurnal, № 1, 2001, s. 24.
[164] Səlahəddin Xəlilov "Sivilizasiyalararası dialoq", Bakı: Adiloğlu nəşriyyatı, 2009. – 63 s.

hikmətin inkişafı, genişlənməsi, sabitləşməsi üçün şərait, uyğun mühit yaratdığı halda sivilizasiya təşəkkül tapa bilər.

Bizim məqsədimiz islam sivilizasiyasının yaranma səbəblərini deyil, Azərbaycan alimlərinin, mütəfəkkirlərinin bu prosesdəki payını araşdırmaqdır. Bunun üçün də biz bir neçə məsələni təhlil edəcəyik: a) Azərbaycan islam mədəni bölgəsinin, daha sonra isə islam sivilizasiyanın bir hissəsi kimi; b) İslam düşüncəsinin əsas inkişaf istiqamətləri və Azərbaycan mütəfəkkirləri; c) İslam sivilizasiyasında Azərbaycan mütəfəkkirlərinin orijinal izləri. İslam sivilizasiyası da istisna deyil. O da özündə əvvəlki sivilizasiyaların mütərəqqi ideyalarını ehtiva edən əbədi hikmətin təzahürü və çiçəklənməsidir.



Görkəmli Azərbaycan filosofu Seyid Yəhya Bakuvinin "Virdü-Səttar" əsərinin Türkiyənin Süleymaniyyə kitabxanasında saxlanılan nüsxələrindən birinin titul səhifəsi

Yarandığı VII əsrdən başlayaraq islam dininin coğrafiyası sürətlə genişləndi və bu əraziyə Azərbaycan da daxil oldu. Din yayıldığı məkanda milli kimlik ikinci dərəcəyə keçirdi və ümmət yaranırdı. Nəticədə, vahid islam mədəniyyəti bölgəsi formalaşırdı. Bu isə o demək idi ki, mərkəzdə gedən proseslər tez bir zamanda kənarlarda da əks-səda doğurur, paralel olaraq əyalətlərdə də gedirdi. Biz burada sivilizasiyaların yaranmasında imperiyaların rolunu bir kənara qoyaraq iki əhəmiyyətli faktı vurğulamağa çalışırıq. Əvvəla, xilafət bir imperiyadan daha çox vahid mədəni

məkan, mühit kimi formalaşırdı. İslam bütün bölgələrə yeni düşüncə üfüqləri, yeni elmi imkanlar verirdi. İkincisi isə, hər nə qədər mərkəz Ərəbistan olsa da, Qurani-Kərim ərəb dilində nazil olsa da və beləliklə də, ərəblər hakim xalq hesab edilsələr də, çox tezliklə öz düşüncə qabiliyyətlərinə, orijinal ideyalarına görə qeyri-ərəb xalqların nümayəndələri həm hakimiyyətdə, həm də ən vacibi, elmi mühitin yaranmasında aparıcı şəxslərə çevrildilər. Bununla yanaşı, səyyah alimlər sayəsində əyalətlərin öz düşüncə mərkəzləri də yaranırdı. Başqa sözlə desək, islam sivilizasiyasının yaranmasının nüvəsi Ərəbistandan gəlsə də, onun inkişafında bütünlüklə islam mədəni bölgəsinin sakinlərinin, o cümlədən azərbaycanlı mütəfəkkirlərin xidmətləri böyük olmuşdur. Bilavasitə mövzumuzla əlaqəli olduğuna görə sonuncu fikrimizi daha geniş izah edək.

Tarixçilərin də bildirdiyi kimi, islamın təşəkkülü dövründə ərəb dünyasında əxlaq və bu əxlaq əsasında formalaşmış düşüncə cahil vəziyyətdə olsa da, bədii təfəkkür yüksək səviyyədə idi. Onu da əlavə etmək lazımdır ki, islamın ilk illərində fəaliyyət göstərən, yazıb-yaradan və cəmiyyət üçün yüksək nümunə olan şəxslər – əshabələr heç də islamla bərabər doğulan uşaqlar, yeniyetmələr deyildilər. Pozulmuş cəmiyyətə baxmayaraq, öz düzgün əxlaqlarını qoruyub saxlaya bilmiş bu şəxslər sağlam düşüncələri sayəsində islamın məziyyətlərini olduğu kimi dərk edib qısa müddətdə islamın dayaq sütunlarına çevrilə bildilər. İslamın yayıldığı başqa bölgələrdə, o cümlədən Azərbaycanda da təqribən eyni proseslər gedirdi. Düzdür, burada cahillik hakim deyildi. Bununla belə, Azərbaycan ərazisinin sakinləri artıq zərdüştilik dini ilə tanış idi, burada şumer sivilizasiyasının izləri var idi. Təbii ki, belə bir mühitin

düşüncə sahibləri islamın mütərəqqi ruhunu anlayaraq onu yerli mədəniyyətlə sintezləşdirə bildilər.

Bəli, islam dini yayıldığı coğrafiyaya yeni təfəkkür və həyat tərzi gətirdi. Nəticədə isə, iki istiqamətdə inkişaf edən, lakin eyni nəticəyə gətirən proseslər başlandı: bir tərəfdən əvvəldən var olan biliklərin, düşüncənin yeni istiqamətə yönəldilməsi, uyğunlaşdırılması, digər tərəfdən islamın öz spesifik ideyalarının get-gedə çiçəklənməsi, sistemləşdirilməsidir. Məsələn, əgər bədii təfəkkür, şeir sənəti, düşüncələrin poetik ifadəsi cahiliyyə dövründən qalan bir miras idisə, fikirlər, ideyalar islama xas idi. Əgər yüksək ticari və mədəni əlaqələr cahiliyyə zamanında kifayət qədər inkişaf etmişdisə, insan hüquqlarının tanınması və hər şəxsin haqqına hörmət göstərilməsi islamın bəxş etdiyi bir nemət idi. Xüsusilə vurğulayaq ki, Məhəmməd peyğəmbərin (s) təbliğ etdiyi islami prinsiplər insanların doğru olmayan əxlaqı və əxlaq üzərində təşəkkül tapan düşüncələri ilə mübarizə aparırdı, miras qalan mədəniyyətlə deyil. Buraya həm bir xalqın illər, əsrlər ərzində yaratdığı maddi və mənəvi mədəniyyəti, həm də əvvəlki dinlərdə də var olan bir sıra ənənələri, mərasimləri, ümumiyyətlə, təfəkkürü formalaşdıran amilləri aid etmək olar. Təsadüfi deyil ki, islam ordusu Məkkəni müharibə ilə fəth etmədi və şəhərə sülhlə girdi; Kəbəni deyil, onun içindəki bütləri qırdı. Bu, iki təfəkkürün qarşılaşması və daha mütərəqqi, daha işıqlı olanın digərini get-gedə öz içində əritməsi, assimilyasiyaya uğratması və istiqamətini dəyişdirməsi idi. Təbii ki, bu münasibət bütün yayıldığı məkanlarda da göstərilirdi. Tarixdən də məlum olduğu kimi, bir çox uzaq ərazilərə islam hərb yolu ilə deyil, təbliğat, sevgi yolu ilə gedib. Dinin yerli mədəniyyətlərlə birləşərək inkişaf etməsini,

bir növ, qartopunun hərəkət etdikcə daha da böyüməsinə bənzətmək olar: islam həm yerli qüvvələrlə özü güclənirdi, həm də yerli yaradıcı qüvvələr islamda özlərinə dəstək tapa bilirdi. Xüsusilə vurğulayaq ki, bu, təqlid yolu ilə qəbul deyildi, öz əvvəlki mədəniyyətlərinə uyğunlaşdırmaq, qarşılıqlı təsir, zənginləşmə idi. Böyük Azərbaycan alimi Xudu Məmmədovun da dediyi kimi, "Hər bir xalq dünya sivilizasiyasına nə qədər pay verirsə, ancaq o qədər də götürə bilər".[165] Azərbaycan islam sivilizasiyasına kifayət qədər zəngin bir irslə daxil olduğuna görə özünə böyük bir yer də ayıra bildi.

İslam özündən əvvəlki əbədi hikməti dövrün çirkabından təmizləməklə, ona yeni həyat verməklə yanaşı, həm də yeni bir güc və böyük yaradıcı enerji mənbəyi oldu. Bu proses yalnız Ərəbistanda deyil, islamın yayıldığı bütün bölgələrdə getdi. Bu, əbədi hikmətin yeni mərhələyə keçməsi, bir tərəfdən yerli xalqların düşüncə xəzinəsinin, digər tərəfdən islami prinsiplərin potensialını vahid istiqamətə yönəldərək möhtəşəm bir hadisənin – islam sivilizasiyasının inşasının başlanğıcı idi.



Nizami Gəncəvinin "Xosrov və Şirin" əsərinə illüstrasiya (XVI əsr), Vaşinqtonun Faina bədii qalereyası

Dinin bir sivilizasiyanın nüvəsi olması üçün o, ilk növbədə özü bir inanc sistemi kimi

[165] Aforizmlər: seçilmişlərdən seçilmişlər. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında, Bakı: Çaşıoğlu, 2012. – 306 s.

sabitləşməlidir ki, təsir dairəsi də geniş olsun. Bunun üçün o həm özünü mümkün hücumlardan, təhriflərdən qorumalı, həm də öz prinsiplərinin izahını verməlidir. Bundan sonra isə o, ideoloji əsaslarını, fəlsəfəsini sistem-ləşdirməlidir ki, dünya mədəniyyətləri, fəlsəfi fikirləri ilə qarşılaşmaq gücündə olsun. Yəni din mərasimlər toplusu, əxlaq kodeksindən daha üst mahiyyətə malik olduğu halda sivilizasiyanın təməlində dura bilər. Onu da mütləq əlavə etmək lazımdır ki, bu proses dinin peyğəmbərinin vəfatından sonra başlanır. Yəni əgər sağlığında həmin dinin nüvəsi, cazibə qüvvəsi peyğəmbərin şəxsiyyəti olursa, sonralar onu əvəz edəcək güclü bir sistem, ideologiya hazırlanır. Məhəmməd peyğəmbərin (s) vəfatından sonra islam mədəni bölgəsində təfəkkürün inkişafı şərti olaraq üç istiqamətə ayrıldı: ortodoksal dini təfəkkür, yunan fəlsəfəsinin təsiri ilə təşəkkül tapmış fəlsəfi təfəkkür və dinin öz fəlsəfəsinin təşəkkülü. O da mütləq əlavə olunmalıdır ki, hər üçü bir-biri ilə sıx, əlaqəli şəkildə inkişaf edib və elə mütəfəkkirlər olublar ki, öz yaradıcılıqlarında hər üç istiqaməti birləşdirə biliblər.

Birinci istiqamətə görə, Qurani-Kərim bir mətn kimi oxucular üçün aydınlaşdırılmalı idi. Bu niyyətlə fiqh (islam hüququ) və təfsir (şərhçilik) meydana çıxdı. Eyni zamanda Məhəmməd peyğəmbər (s) bir şəxsiyyət kimi tanıdılmalı idi: dinin peyğəmbəri, müsəlman ümmətinin rəhbəri və Allahın seçdiyi bir bəndə olaraq. Bu niyyətlə hədisçilik (peyğəmbərin həyatından və söhbətlərindən alınan nümunəvi kəlamlar) təşəkkül tapdı. İslam düşüncəsi tarixində böyük bir cərəyan kimi formalaşan, özünü az qala yeganə islam fəlsəfəsi kimi tanıdan, sonralar Qərb renessansının yaranmasında müstəsna xidməti olan ideyalar ehtiva edən ikinci istiqamətin təşəkkül tapıb

formalaşmasında təkanverici amil qədim yunan fəlsəfəsi olmuşdur. Bura məşşailik – peripatetik fəlsəfə aiddir. Bu iki istiqamətlə yanaşı, daha bir istiqamət də mütləq vurğulanmalıdır. Belə ki, əgər islam elmləri adı ilə məlum olan fiqh, kəlam, hədis və təfsirin nümayəndələri sırf dinin mövqeyindən çıxış edərək yad təfəkkürü yaxına buraxmır, onu küfr elan edirdilərsə, ikincilər – filosoflar öz təfəkkürlərində hər ikisinin bərabər nisbətindən və ya sintezindən çıxış edirdilər. Üçüncülərin mövqeyi isə daha orijinal idi: qədim fəlsəfəni bir pyedestal olaraq istifadə edərək islamın öz hikmətini ortaya qoymaq. Bura təsəvvüf və onun əsasında yaranan dini-mistik, fəlsəfi cərəyanlar aiddir. Onu da qeyd edək ki, islam sivilizasiyasının yaranmasında və düşüncə tarixində öz izini qoya bilməsində üçüncü istiqamətin rolu böyükdür, çünki əbədi hikmətin islam mərhələsində davam etməsinin əsas hərəkətverici qüvvəsi məhz bu orijinal ideyalar oldu. Digər tərəfdən çox əhəmiyyətli bir fakt kimi qeyd edək ki, qeyri-ərəb millətləri məhz bu istiqamətdə öz bəhrələrini verə bilmişlər və bu sırada Azərbaycan mütəfəkkirlərinin yeri və rolu əvəzsizdir.

İslam düşüncəsi tarixində təşəkkül tapan hər üç istiqamət islam mədəni bölgəsinin, demək olar ki, bütün yerlərində əks-səda aldı. Təbii ki, Azərbaycanda da eyni proseslər getdi, sadəcə, burada müəyyən spesifikliklər var idi ki, onlar da mütləq qeyd edilməlidir. Belə ki, *məşğul olduqları sahələri və irslərini nəzərə alaraq azərbaycanlı mütəfəkkirləri iki qola ayırmaq mümkündür: artıq yaranmış elmi, fəlsəfi, ədəbi istiqamətlərin davamçıları, nümayəndələri və yeni, orijinal istiqamətlərin yaradıcıları.* Bu qollardan hər birini ayrılıqda nəzərdən keçirək.

İslam düşüncəsinin birinci istiqamətinin – hədisin, kəlamın və fiqhin mərkəzi Ərəbistan, onların ilk nümayəndələri isə, haqlı olaraq, Məhəmməd peyğəmbərin (s) yaxın əshabələri hesab edilirlər. Bununla belə, xilafətin bütün digər yerlərində, o cümlədən Azərbaycan şəhərlərində – Təbrizdə, Ərdəbildə, Marağada, Xoyda, Naxçıvanda, Bərdədə, Gəncədə və daha neçə şəhərdə də mədrəsələr açılır, Quran tədris olunur, hədislər, fiqh öyrədilirdi. Buna görə də bu elmlərin hər birində azərbaycanlı alimlərin də adına rast gəlmək mümkündür. Görkəmli alim Ziya Bünyadovun bildirdiyinə görə, Azərbaycanın Atabəylər dövlətinin bir çox şəhərlərində tikilən çoxsaylı tədris müəssisələri və mədrəsələr sonralar onların yaradıcılarının adları ilə tanınırdı. Buna nümunə olaraq o, Xoyda Fərəc əl-Hüveyyə, Marağada Əhmədağa və Atabəkiyyə mədrəsələrinin adlarını çəkir.[166]

Məlum olduğu kimi, o zamanlar alimlər bir məkandan digərinə ya zor gücünə aparılır, ya da özləri könüllü səyahətlər edir, elm öyrənirdilər. Buna görə də azərbaycanlı alimlərin adlarına başqa məkanlarda, xüsusilə tanınmış elm mərkəzlərində də rast gəlmək mümkündür. Ziya Bünyadov öz tədqiqatlarında xilafətin başqa şəhərlərində, o cümlədən Bağdadın Nizamiyyə mədrəsəsində dərs deyən azərbaycanlı alimlərin – hədisçi və fəqihlərin də adlarını göstərir. Bunlardan, məsələn, Nizamiyyədə dərs deyən və "Azərbaycan tarixi" əsərinin müəllifi olan Fəxrəddin Əbülfəzl İsmayıl ibn əl-Müsənna ət-Təbrizinin, yenə də Nizamiyyədə və Kəmaliyyədə dərs keçən fəqih Əbül-Fadl Mahmud

[166] З.М.Буниятов. Государство Атабеков Азербайджана (1136-1225 годы). Изд-во Элм" Баку, 1978, с. 130-132

ibn Əhməd ibn Məhəmməd əl-Ərdəbilinin, Mosulda dərs keçən fəqih Əbdülxaliq ibn Əbül-Məali ibn Məhəmməd əl-Arraninin, Dəməşqdə fəaliyyət göstərən fəqih əz-Zəki ibn Hüseyn ibn Ömər əl-Beyləqaninin və başqa hədisçi və fəqihlərin adlarını çəkmək olar.[167] Bir çox mənbələrdə və tədqiqat əsərlərində azərbaycanlı alimlər həmişə bacarıq və savadlarına görə xüsusi hörmətlə xatırlanırlar. Onu da əlavə etmək lazımdır ki, bu şəxslərin milli kimliyi mənbələrdə yalnız onların nisbələrindən bəlli olur – Naxçıvani, Ərdəbili, Təbrizi, Marağayi və b. Çünki həmin dövrlərdə etnik kimlik hər hansı bir əhəmiyyət kəsb etmirdi. Onlar mənbəyi, üsulları, çərçivəsi bəlli olan bir sahədə çalışırdılar. Hər hansı yenilik əlavə işin nəticəsinə olan etibarı itirirdi. Burada ən böyük bacarıq, ustalıq Qurani-Kərimi, Məhəmməd peyğəmbərin (s) həyatını və kəlamlarını bütün dərinliklərinə, incəliklərinə qədər bilmək hesab olunurdu. Bununla yanaşı, Azərbaycan şəhərlərində fəaliyyət göstərən mədrəsələrin, tədris ocaqlarının yetirmələri də xilafət ərazisində etibar və hörmətə sahib idilər. Mənbələrdə bir sıra müəlliflərin öz əsərlərinin adları da çəkilir və onlardan bəzilərinin dövrümüzə qədər çatdığı bildirilir. Məsələn, Əl-Həsən ibn Əli ibn Nəsir ibn Mənsur ət-Tusinin "Muxtəsər əl-Əfkər", Hacı Şeyx Mehdi Taha ibn Şeyx Muhəmməd Rza ibn Hacı Nəcəf ət-Təbrizinin "Ehyaul-məvat fi əhvalir-ruvat", **Hüseyn ibn Əhməd ibn Muhəmməd ət-Təbrizinin** "Miftahul-kunuz və misbahur-rumuz", **Muhəmməd ibn Abdulla əl-Xatib əl-Təbrizinin** "Mişkat əl-Məsabih", "İzzəddin" ləqəbli Muhəmməd ibn Muhəmməd ibn Mahmud ət-Təbrizi Müqəddəsi əl-

[167] З.М.Буниятов. Государство Атабеков Азербайджана, с. 130-132.

Bəlinin “Müxtəsər əl-rovza” və “Müxtəsər cəmiəl-üsul”, **Səid əl-Mərəndinin** “Töhvətul-ixvan”, **Səlim ibn əl-Hüseyni əş-Şəbustərinin** “Şərhul-ərbəin əl-nuviyyə”, **Yusif bin İbrahim Cəmaləddin əl-Ərdəbilinin** “Kitabul-ənvar liəməlil-əbrar”[168] adlı əsərlərinin adları və bəzilərinin özləri bu gün məlumdur. Bunlar böyük bir siyahıdan yalnız bir neçəsi olsa da, ümumi mənzərə yaratmaq üçün, zənnimizcə, kifayət edir.



Nəsirəddin Tusinin portreti (rəssam: Nəcəfqulu İsmayılov)

Təfsirçilər arasında xüsusilə adı çəkilməli olan şəxsiyyətlərdən biri Xətib Təbrizidir (1030-1109).[169] İslam elmlərini öyrənmək naminə İraq, Livan, Misir kimi ölkələri gəzən, görkəmli şair və filosof Əbüləla əl-Məərrinin tələbəsi, Bağdadda Nizamiyyə mədrəsəsində dərs keçən, fəlsəfə, əxlaq, ədəbiyyat və dilçilik üzrə mükəmməl savada sahiblənən Xətib Təbrizi tarixdə məhz təfsirçi kimi ad-san qazanıb. Belə ki, onun təfsirləri yalnız mətni şərh etməkdən ibarət olmayıb, həm də öz fəlsəfi düşüncələrini çatdırmaq üsulu olmuşdur. Təsadüfi deyil ki, sonralar yaradıcılığı tədqiq edilən Xətib Təbrizi ilk hermenevtik alim kimi təqdim edilir.[170]

---

[168] Bax: Nailə Süleymanova “Azərbaycanlı mühəddislər” // http://az.strategiya.az/old/index.php?m=xeber&id=6651

[169] Mötərizədə mütəfəkkirlərin ölüm tarixi qeyd olunur.

[170] Hacıyeva A.Ə. “Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti”, Bakı: Adiloğlu, 2004.

Azərbaycanlı hədisçi və fəqihlərin, Quran elmlərinə kamil şəkildə yiyələnib onu tədris edən alimlərin siyahısını uzatmaq olar. Onlardan bəziləri artıq tədqiqatçılara məlumdur, bəziləri hələ yeni-yeni mənbələrdən tapılır, bəziləri isə hələ də öz tədqiqatçısını gözləyir. İlk baxışda məlum bir sahənin nümayəndələri kimi təqdim edilən bu şəxslərə bir də fərqli bir tərəfdən qiymət verək. Əvvəla, onlar Qurani-Kərimi və islam peyğəmbərini (s) xilafətin uzaq yerlərində də dərindən bilib təbliğ edən şəxsiyyətlər olmuşlar. Bu, bir növ, islami prinsiplərin onun əsas ana xəttinin təhrif olunmadan xilafətin ən uzaq nöqtəsinə qədər gedib çıxmasını təmin edirdi. İkincisi, məhz belə şəxsiyyətləri islam mədəni bölgəsinin bütün tərəfləri arasında canlı və sağlam üzvi əlaqələrin yaradıcıları və qoruyucuları hesab etmək doğru olardı. Bu səbəbdən qeyd etdiyimiz kimi, hədisçilərin və fəqihlərin, ümumiyyətlə, islami elmləri tədris edən şəxslərin doğma məkanları nisbəsindən başqa heç bir yerdə xatırlanmır və onların milli kimliyi sonuncu dərəcəli məsələ kimi kölgədə qalır. Axı islamda bütün millətlər eynidir, heç bir ayrı-seçkilik yoxdur və bu prinsip onun alimlərində bariz şəkildə əks olunur. Bununla yanaşı, bir faktı da mütləq vurğulamaq lazımdır. Məlum olduğu kimi, xilafətin, hətta ayrı-ayrı hökmdarların da o zamanlar tarixi yazılırdı və bunun üçün ən yaxşı tarixçilər, salnaməçilər dəvət edilirdi. Belə əsərlərin əksəriyyətində Azərbaycan xüsusi yer tutub. Məsələn, Ziya Bünyadov apardığı tədqiqatda Azərbaycan tarixi üçün əvəzsiz məxəz hesab edilən bir sıra dəyərli əsərlərin adlarını çəkir.[171] Maraqlıdır ki, tarixçilər heç də həmişə Azərbaycan mənşəli olmasalar da, yazılan Azərbaycan tarixidir. Bir daha

[171] З.М.Буниятов. Государство Атабеков Азербайджана..., s. 7-9

təkrar edək ki, Azərbaycan həmişə xilafət daxilində öz azad ruhlu xalqı, zəngin mədəniyyəti, istedadlı alimləri ilə xüsusilə seçilən, diqqət mərkəzində olan bir ərazi olmuşdur.

İslam sivilizasiyasının formalaşmasında ikinci və daha böyük istiqamət islam düşüncəsinin qədim yunan fəlsəfəsi ilə qarşılaşması və bundan yeni bir fəlsəfi cərəyanın – məşşailiyin / peripatetikliyin doğulmasıdır. Hər şeydən əvvəl qeyd edək ki, islam dini yeniliyə, azad düşüncəyə açıq olduğuna, elmin inkişafına dəstək verdiyinə görə yad düşüncə çox tezliklə özünə yol açdı. Bu işdə əhəmiyyətli addım IX əsrdə Bağdadda Beytül-hikmə – Hikmət evinin yaradılması oldu. Dünyanın bütün məşhur əsərlərinin tərcümə edildiyi, eyni zamanda zəngin bir kitabxana kimi fəaliyyətə başlayan bu mərkəzi islamın qızıl çağının başlanğıc nöqtəsi də adlandırmaq olar. Bu, bir tərəfdən yeni dinin özündən əvvəlki düşüncələrlə zənginləşməsi və islami prinsiplərə fərqli baxış bucağından şərhlərin verilməsi, digər tərəfdən artıq qədimdən bəri məlum fəlsəfi ideyalara islam zəminində yeni bir nəfəsin verilməsi idi. Bu, əvvəlki sivilizasiyanın mirasına sahib çıxmaq idi.

Yeri gəlmişkən, onu da bir məlumat kimi əlavə edək ki, Hikmət evinin yaradılması xəlifə Harun ər-Rəşidin hakimiyyəti dövründə başlayıb, oğlu Məmunun dövründə tamamlanıb. Harun ər-Rəşid uzun illər Azərbaycanın valisi olub. Təsadüfi deyil ki, Azərbaycan ədəbiyyatında Harun ər-Rəşidin adı çox yaxşı tanınır və haqqında yazılmış əhvalatlar, rəvayətlər, hekayələr və məsəllər günümüzə qədər gəlib çatıb. Oğlu Məmunun da öz hakimiyyəti dövründə ərəb və farslardan daha çox türklərə etibar etdiyi, onlara güvəndiyi məlumdur və onun həyatında Azərbaycanın xüsusi yeri olub.

Hikmət evində qədim yunan filosoflarının (ilk növbədə Aristotelin) əsərləri tərcümə edilməklə yanaşı, onlara geniş şərhlər də yazılırdı. Yeri gəlmişkən, xatırladaq ki, bir zamanlar qədim yunan filosofları Şərqdən öyrəndiklərinin əsasında öz fəlsəfələrini yaradıblar. Bu sırada Pifaqor, Platon, Demokrit kimi nəhəng filosofların da adları vardır. Maraqlıdır ki, əsrlər sonra bu fəlsəfələr artıq başqa bir sivilizasiyadan qalan hikmət kimi təkrar Şərqə qayıdırdı. Daha bir neçə əsr sonra zənginləşmiş bu ideyalar neçə əsrlər sonra Avropanı əsrlərin mürgüsündən oyadıb onun qızıl dövrünü yetişdirən amil və Qərbdə yeni təfəkkürün təməl daşları olacaqdı.

Hikmət evi qədim yunan filosoflarının əsərlərini ərəb dilinə tərcümə etməklə islam dünyası ilə antik fəlsəfə arasında bir körpü saldı. Dinin öz prinsiplərinə, demək olar ki, tamam yad bir hikmətlə qarşılaşması islam mühitində iki reaksiyaya səbəb oldu: birincilər dini bu yeni baxışlardan müdafiə edir, Quranın və hədislərin üzərindəki şərhləri genişləndirir, islami elmləri inkişaf etdirməyə çalışırdılar. İkincilər isə dini prinsiplərə fəlsəfi terminlərlə yeni münasibət bildirir, bir növ, dini fəlsəfiləşdirir, bəziləri isə fəlsəfi prinsipləri dini aspektdən araşdırır, fəlsəfəni diniləşdirirdilər. Bu, xristian dünyasından fərqli olaraq hikmətin yalnız din xadimlərinin fəaliyyət sahəsi olmaqdan kənara çıxmasına və başqa elm sahələrinin (tibb, astronomiya, riyaziyyat və s.) də inkişaf etməsinə səbəb oldu. İkinci reaksiya daha çox şərh və təhlilə əsaslanan bir yol olsa da, orijinal ideyalar da var idi. Bu, antik fəlsəfəyə islami rakursdan baxış, eyni zamanda islama "yad gözlə" baxmaq, onu qədim fəlsəfənin terminologiyasına uyğunlaşdırmaq cəhdi idi. *Bu, iki fərqli təfəkkürün sintezi, iki qütbün kəsişmə nöqtəsinin aranması və tapılması idi!* Məhz

bu səbəbdən istər mötəzililər və əşərilər, istərsə də məşşailər fəlsəfədə yeni nəfəs, yeni istiqamət oldu və dünya fəlsəfə tarixində əhəmiyyətli rol oynaya bildi.

Qeyd etdiyimiz kimi, bir sıra fəlsəfə tarixçilərinin fikrinə görə, məhz bu illər, yəni orta əsrlər islam Şərqinin qızıl dövrü, renessansıdır. Tarixdə Aristoteldən sonra "ikinci müəllim" adı ilə məşhurlaşan Fərabi, yalnız fəlsəfəsi ilə deyil, tibdəki nəzəriyyələri və metodları ilə dünyanı bu gün belə heyrətə gətirən İbn Sina, Qərbin yalnız XIX əsrdə "kəşf etdiyi" sosiologiya elminin əsl yaradıcısı İbn Xəldun və daha neçə dahi məhz bu dövrün – təfəkkürlərin sintezləşdiyi dövrün yetirmələridir. Onların irəli sürdükləri ideyalar və bu ideyalar əsasında ərsəyə gətirdikləri əsərlər qədim hikmətin islami şərhi və ya qədim fəlsəfənin terminləri ilə islamın mahiyyətinin açılışı idi. Qızıl dövrün əhəmiyyətli məqamlarından biri də onun əsas hərəkətverici düşüncə sahiblərinin qeyri-ərəb mənşəli olmaqlarıdır. Bu faktın üzərində bir çox tədqiqatçı alimlər xüsusilə dururlar. Məsələn, amerikalı müəllif Frederik Starr Fərabini, İbn Sinanı, Birunini və daha neçə dahini dövrünün ehtiva etdiyi elmi istiqamətlərə, nailiyyətlərə görə XVIII əsr fransız maarifçilərindən daha üstün hesab edir və bunun ərəb hadisəsi olmadığını vurğulayır.[172] Hansısa səbəbdən müəllif islam dünyasında bir parlaq işıq olan bu dövrü etnoslarla deyil, məhz coğrafi məkanla əlaqələndirir. Starrın "orta əsr sivilizasiyasının qaynaqlarını və ünvanını daha dəqiq müəyyənləşdirmək işinə xidmətdə" yeni mövqeyini dəyərli hesab

[172] S. Frederick Starr. Lost Enlightenment. Central Asia's Golden Age from the Arab Conquest to Tamerlane, Princeton University Press, 2013, p. 7

edən azərbaycanlı filosof Səlahəddin Xəlilov onu da dəqiqləşdirir ki, "həmin dövrdə göstərilən bölgənin türk məskəni olması və burada bir-birinin ardınca məşhur türk dövlətlərinin yaranması belə düşünməyə əsas verir ki, bütövlükdə mühit, intellektual ab-hava türk kimliyi ilə bilavasitə bağlıdır".[173] Sonuncu fikri əsaslandıran tutarlı dəlillərdən biri də sonrakı əsrlərdə məşşailiyin tanınmış nümayəndələrinin çoxunun azərbaycanlı olmasıdır.

Azərbaycan fəlsəfi məktəbinin banisi, İbn Sinanın davamçısı, "oğlundan daha dəyərli bildiyi, ən yaxını və sadiq tələbəsi"[174] hesab etdiyi Əbülhəsən Bəhmənyar ibn Mərzban əl-Azərbaycani (ö. 1066) islam düşüncə tarixində öz yeri olan bir şəxsiyyətdir. Yaradıcılığında məşşailik xəttini əsas götürən Bəhmənyarın əsərləri bir tərəfdən öz müəlliminin əsərlərinin təbliğinə, digər tərəfdən də öz şəxsi düşüncələrinin təqdiminə həsr edilib. Onun əsərləri, o cümlədən İbn Sina ilə yazışmaları Qahirə, Lahor, Beyrut və başqa dünya kitabxanalarında saxlanılır. Onun "Mövzuu ilmi ma bə`dət-tabia" ("Metafizikanın mövzusu") və "Məratib əl-mövcudat" ("Mövcudatın mərtəbələri") adlı əsərləri 1911-ci ildə Leypsiqdə orijinalda və alman dilində, Qahirədə isə orijinalda, yəni ərəb dilində nəşr edilib. O da öz müəllimi kimi ensiklopedik bir filosof olub və əsas düşüncələri üç kitabdan ibarət olan "Təhsil" kitabında öz əksini tapıb: 1-ci kitab – "Məntiq", 2-ci kitab – "Metafizika" və 3-cü kitab

[173] Xəlilov S. "İtirilmiş maarif, yoxsa türk sivilizasiyası?!" // "Azərbaycan" qəzeti, 05 Aprel 2014.
[174] История Азербайджанской философии, т.1. Баку, Элм, 2002, с. 230.

– “Əyani mövcud şeylərin halları”.[175] Maraqlıdır ki, Bəhmənyar da İbn Sina kimi təfəkkürə təsir göstərən bir çox sahələrə dair əsər yazmışdır: “əz-Zinə fil-məntiq” (“Məntiqə dair zinət”), “əl-Bəhcə” (“Gözəllik”), “əs-Səadə” (“Səadət”), “Kitab fil-musıqa” (“Musiqi haqqında kitab”). Əhəmiyyətli haldır ki, Bəhmənyarın dünyagörüşünü öyrənən A.V.Saqadeyev yazır ki, bəzi tədqiqatçılar yanlışlıqla İbn Sinadan sonra Şərqdə peripatetizmin qırıldığını və İspaniyada, Məğribdə davam etdiyini zənn edirlər. “Bu, yanlış iddiadır: müstəqil fəlsəfi məktəb kimi peripatetizm müsəlman Şərqində mövcudluğunu dayandırmadı və yeni, İbn Sinadan sonrakı mərhələ olaraq davam etdi. Və yaradıcılığında “zamanların əlaqəsi” ehtiva olunan konkret tarixi şəxsiyyət kimi Əbülhəsən Bəhmənyar ibn Mərzban əl-Azərbaycanini göstərmək olar”.[176]



Planetlərin hərəkət trayektoriyasını modelləşdirmək üçün Nəsirəddin Tusinin 1247-ci ildə icad etdiyi riyazi qurğu

Həqiqətən də, Bəhmənyardan sonra Azərbaycan məşşailik məktəbi bir çox məşhur filosoflar yetişdirdi. Bu sırada fəqih, təfsirçi, eyni zamanda filosof olan Yusif ibn Tahir Xoylunun (1154), astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və elmin digər sahələrinə yüzdən

[175] История Азербайджанской философии, т.1. Баку, Элм, 2002, с. 231.
[176] Yenə orada, s. 267.

artıq ciddi əsər həsr edən, riyazi hesablamaları ilə yalnız Şərqdə deyil, həmçinin Avropada həndəsə və triqonometriyanın inkişafında mühüm rol oynayan, Qədim Şərqin ilk və ən mükəmməl rəsədxanası hesab olunan Marağa rəsədxanasının banisi Nəsirəddin Tusinin (1201-1274), yəhudi və islam fəlsəfələri arasında əlaqəni araşdıran və Musa ibn Məymunun (Maymonid) əsərinə şərh yazan Məhəmməd Təbrizinin (1262), əsərləri dünya kitabxanalarında qorunan, "İsaquci" əsəri İtaliyada, Misirdə, Türkiyədə nəşr edilən Əsirəddin əl-Əbhərinin (1265) adlarını çəkməklə bu məktəbin necə zəngin irs qoyub getdiyini göstərmək olar. Bunlarla yanaşı, mütləq Şərqin ilk ensiklopedik toplusunun müəllifi, əsas niyyəti fəlsəfi və elmi biliklərin təbliği, əhalinin maarifləndirilməsi olan, X əsrdə Bəsrədə fəaliyyət göstərən "İxvan əs-Səfa" – "Saflıq qardaşları"nın da xidməti qeyd edilməlidir. 52 traktatdan ibarət dördhissəli "İxvan əs-Səfa" risalələrindən 14-ü riyazi elmlərə və məntiqə, 17-si təbiət elmlərinə, 10-u ruh və ağıla, 11-i ilahi qanun və şəriətə aiddir. Adları gizli qalan və yalnız dördünün adı məlum olan bu maarifpərvər alimlərdən biri – Əbülhəsən Əli ibn Harun əz-Zəncani məhz azərbaycanlı olmuşdur. Düzdür, hansı müəllifin hansı risaləni yazdığı məlum deyil, bununla belə, islam sivilizasiyasının təməlində duran belə bir möhtəşəm cərəyanın aparıcı qüvvələrindən, düşüncə sahiblərindən birinin azərbaycanlı olması böyük qürur hissi yaradır.

Ümumi mənzərədə yalnız məşşailik məktəbinin – qədim yunan fəlsəfəsinin islam Şərqində yalnız davamçıları kimi görünən bu adıçəkilən və çəkilməyən azərbaycanlı filosoflar, əslində, daha böyük xidmət sahibidirlər. Hər şeydən əvvəl onlar Aristotel fəlsəfəsini fərqli, yəni islami

rakursdan araşdırmaqla kifayətlənməyib ona öz dünyagörüşləri, malik olduqları mənəviyyatın işığında baxmaqla təhlillər, şərhlər veriblər. Digər tərəfdən onlar Saqadeyevin də vurğuladığı kimi, "zamanların əlaqələndiricisi" ola biliblər, yaranmış yeni ideyaların yalnız Əbu Nəsr Fərabi və İbn Sina ilə məhdudlaşmağına imkan verməyib onun bir məktəb kimi formalaşmağına və gələcəkdə başqa bir sivilizasiya üçün yetişməsinə nail olublar.

Nəhayət, üçüncü istiqamət – qədim fəlsəfəni bir pyedestal kimi istifadə edərək islamın öz hikmətini ortaya qoyan filosoflar haqqında təhlilimizə başlayaq.

Hər şeydən əvvəl bir məsələni vurğulayaq ki, üçüncü istiqamət ilk ikisinə nisbətdə islam sivilizasiyasının yaranması və inkişafında daha artıq rola malikdir. Belə ki, birinci istiqamət dinin izahı, təfsiri, təbliği və sabitləşməsi üçün böyük əhəmiyyət kəsb edirdi. İkinci istiqamət islam sivilizasiyasının özündən əvvəlki sivilizasiyadan nə dərəcədə yararlanmasının, onu mənimsəyib inkişaf etdirməsinin göstəricisi idi. Və məhz üçüncü istiqamət əbədi hikmətin yeni təkanverici qüvvəsi, yeni sivilizasiyanın orijinal detalları olmalı idi və oldu. Çünki məhz qeyri-ərəb müsəlman alimlər, o cümlədən azərbaycanlılar öz milli-mənəvi dəyərlərini, köklərini də öz fəlsəfələrində əks etdirə bildilər. Qədimdən bəri gələn, özündən əvvəlki başqa sivilizasiyaların da irsini qoruyub saxlayan mədəniyyətlər, təfəkkür islamın simasında yeni nəfəs qazandı, eyni zamanda yeni sivilizasiya üçün kərpic ola bildi.

Dəqiqləşdirilməli olan digər bir məsələ isə üçüncü istiqamətə aid fəlsəfi cərəyanların yaranma səbəbləridir. Bir daha təkrar vurğulayaq ki, islam mədəni bölgəsində nüfuzlu və hərtərəfli "qanunlar" kitabı kimi Qurani-Kərim və

cəmiyyətin bir üzvü olan, eyni zamanda seçilmiş təfəkkürə və imana malik peyğəmbərin (s) hədisləri hakim mövqedə dururdu. Bu bir nüvə idi, gedən əxlaqi və epistemoloji proseslərin mərkəzində dururdu. İslam sivilizasiyası bu təməl üzərində formalaşırdı. Bu səbəbdən də bölgədə təşəkkül tapmış dini və fəlsəfi məktəb və cərəyanlar məqsədindən asılı olmayaraq özünü təsdiqləmək, haqq qazandırmaq, təməl prinsiplərini əsaslandırmaq üçün ilk növbədə onlara istinad etməli idi. Onu da əlavə edək ki, Qurani-Kərimin məzmunu kifayət qədər zəngin, müzakirələrə açıq idi və istənilən yeni fəlsəfi cərəyan oradan özünə lazım olan dəlili tapa bilirdi. Hətta öz görüşlərində kifayət qədər ifrata gedən, ortodoksal din xadimləri tərəfindən bidət elan olunan cərəyanların da ilk istinad mənbəyi Qurani-Kərim olurdu. Bunu da maraqlı bir fakt kimi qeyd edək ki, hər nə qədər islamda tövhidin prinsipləri çox sabit və aydın qoyulsa da, sonralar Qərb alimlərinin "panteizm" kimi təqdim etdikləri görüşlər də burada mövcud olmuşdur. Bu səbəbdən islamın yayıldığı uzaq məkanlarda olan mədəniyyətlər, ideyalar öz mövcudluqlarını davam etdirə bilirdi, sadəcə, indi yeni formada. Eyni zamanda müqəddəs mətnin həm də batini bir tərəfi də var idi ki, bu da dini-mistik cərəyanların yaranmasına imkan verirdi. Ümumiyyətlə, dinin batini tərəfinə, Qurani-Kərimin ezoterik mənasına istinad edən fəlsəfi cərəyanların və dünyagörüşlərin inkişafını iki qola ayırmaq mümkündür: monoteist (vəhdət əl-vücud) və panteist.

Birinci qola yalnız təsəvvüfü, ikinciyə isə təşəkkül və formalaşmasında ictimai-siyasi faktorların əhəmiyyətli rol oynadığı cərəyanları: ismaililiyi, hürufiliyi, nöqtəviliyi və təsəvvüfün bir sıra bidət hesab edilən təriqətlərini aid etmək

olar. Hər iki istiqamətdə bir çox azərbaycanlı alimlərin adları məşhurdur, hətta onların arasında yeni, orijinal ideyaların müəllifləri də olub.

Üçüncü istiqamətin, yəni islamın orijinal fəlsəfəsinin yaranmasında və sürətlə inkişaf etməsində ən böyük rol, şübhəsiz ki, təsəvvüfə aid idi. Təsəvvüf islamın dəruni mahiyyətinin üzə çıxarılması zərurətindən doğuldu. Doğuldu və onun vasitəsilə islamın mahiyyətindəki sevgi və müqəddəslik duyğusu, insaniyyətin ali mərtəbəsinə ucalmağın, həm əxlaqı, həm də təfəkkürü kamilləşdirməyin "xəritəsi" dünyanın ən ucqar yerlərinə qədər gedib çıxdı. Təsəvvüf islamın bütün xoşgörü və tolerantlığını özündə ehtiva edirdi və bu, yerli əhalinin öz əvvəlki hikmətini davam etdirməyə, islamın fonunda ona yeni sima verməyə imkan verirdi. Təsadüfi deyil ki, islam sivilizasiyasının bir çox orijinal ideyalarının təməlində məhz təsəvvüf durur. Deyilənlərdən çıxış edərək cəsarətlə iddia etmək və əsaslandırmaq mümkündür ki, islam fəlsəfəsinin sütunlarından biri və başlıcası məhz təsəvvüfdür.

Təsəvvüfün inkişaf tarixində üç əsas mərhələ fərqləndirmək mümkündür: ilk terminlərin, prinsiplərin yarandığı və sabitləşdiyi ***təşəkkül*** dövrü, təriqətlərin yarandığı və bununla da ayrı-ayrı şeyxlərin görüşlərinin təsiri ilə yaşanan ***parçalanma*** dövrü və təsəvvüfün fəlsəfəsinin ***sistemləşməsi*** dövrü. İlk sufilərdə daha çox zahidliyin ön planda durmasına əsaslanaraq bəzi tədqiqatçılar bu dövrü "zühd dönəmi" adlandırır. Təsəvvüfün zühddən daha geniş bir anlam olduğunu nəzərə alaraq biz nisbətən fərqli mövqedəyik. Bu, təsəvvüfün mərifət, eşq, hal və məqam kimi bəzi ana prinsip və kateqoriyalarının ayrı-ayrı sufi mütəfəkkirlər tərəfindən irəli sürüldüyü dövrdür. Məsələn, Rabiə əl-

Ədəviyyə (792) ilk dəfə ilahi eşqi, Zünnun Misri (859) – hallar və məqamları, mərifəti, Əbu Səid Xərraz (IX) – fəna və bəqa hallarını təsəvvüf fəlsəfəsinə daxil etmişdi. IX əsrin sonu – XII əsrin əvvəllərini əhatə edən ikinci dövrdə müxtəlif şəhərlərdə öz kamilliyi, halının və məqamının ucalığı ilə fərqlənən sufi mütəfəkkirlərin irəli sürdükləri mülahizə və prinsiplər get-gedə məktəb səviyyəsinə qədər yüksəlmişdi və artıq IX əsrdə Haris Mühasibi (857) və Səri Səqəti (870) – Bağdad, Zünnun Misri (859) – Misir, Əbu Yəzid Bistami (875) – Xorasan məktəblərinin əsasını qoymuşdular. Sonralar sufi şeyxlərinin görüşləri müridləri tərəfindən geniş yayılmış və bir çoxu təriqət səviyyəsinə qədər yüksəlmişdir. Bu sırada Əbdülqadir Gilaninin (1166) *qadirilik*, Əhməd Rifainin (1183) *rifailik*, Əhməd Yəsəvinin (1166) *yəsəvilik*, Əbunnəcib Ziyaəddin Sührəvərdinin (1168) *sührəvərdilik*, Mövlana Cəlaləddin Ruminin (1273) *mövləvilik*[177] və s. təriqətlərini göstərmək olar. Hər iki mərhələdə bütün diqqət təsəvvüfün praktiki tərəfinə yönəldilirdi və mərkəzdə şeyxin şəxsiyyəti və görüşləri dururdu. Üçüncü mərhələyə isə önə təsəvvüfün öz mahiyyətini çıxaran, onun fəlsəfəsini təqdim edən filosofları aid etmək olar. Məhz üçüncü mərhələ sayəsində təsəvvüf dünya fəlsəfəsində öz yerini və rolunu təyin edə bildi, təsəvvüfün mistik praktika səviyyəsindən daha üstün bir mahiyyətə malik olduğu təsdiqləndi. Dediklərimizi daha geniş şərh edək.

Təsəvvüfün təşəkkül mərhələsi islam mədəni bölgəsinin hələ kifayət qədər genişlənmədiyi dövrə təsadüf edir.

[177] Sufi təriqətlər haqqında geniş məlumat üçün bax: Yılmaz H.K. Anahatlarıyla tasavvuf ve tarikatlar. İstanbul: Ensar neşriyat, 2002; Тримингем Дж. С. Суфийские ордены в Исламе / Перев. О.Ф.Акимушкина. Москва: Наука, 1989.

Azərbaycanın müəyyən yerləri bu bölgəyə coğrafi baxımdan daxil edilsə də, hələ elmi mühit formalaşmamışdı, təsəvvüf yayılmamışdı. Bu səbəbdən mənbələrdə hər hansı məşhur azərbaycanlı sufinin, zahidin adına rast gəlmək çətindir. Təriqət və ya parçalanma mərhələsində, yəni sufi səyyahların diyar-diyar gəzdiyi, təsəvvüfün özünün bir islam təbliğatçısına çevrildiyi dövrlərdə bir çox azərbaycanlı sufi mütəfəkkirlər yaşayıb-yaradıblar. Onlardan bir neçəsini xatırladaq:

İlk sufi təriqətlərdən sayılan *sührəvərdiliyin* banisi Əbunnəcib Ziyaəddin Sührəvərdi (1168) Əbu Hamid Qəzalinin müridi və "Kitab ədəb əl-mürid"in ("Müridlərin ədəb kitabı") müəllifidir. Təriqət sonralar onun əmisi oğlu Əbu Həfs Şihabəddin Ömər ibn Məhəmməd Sührəvərdi (1234) tərəfindən daha da genişləndirilmişdir. Rəsmi olaraq Bağdad xəlifəsi Nasir Lidinillah tərəfindən "Şeyxlər şeyxi" titulu verilən Əbu Həfs Sührəvərdinin müəllifi olduğu "Əvarif əlməarif" təsəvvüfün əsasları haqqında dörd klassik mənbədən biri hesab edilir. Qeyd etmək lazımdır ki, sührəvərdilik təriqəti Uzaq Şərqdən Hindistana qədər gedib çıxıb və orada islamın yayılmasında böyük xidməti vardır.

İlk təriqətlərdən biri və bu gün də fəaliyyətini davam etdirən *mövləviliyin* yaranışı Mövlana Cəlaləddin Ruminin adı ilə bağlı olsa da, məlum olduğu kimi, onun bir sufi şeyxi kimi yetişməsi azərbaycanlı dərviş, sufi mütəfəkkir Şəms Təbrizinin (1185-1248) adı ilə bağlıdır. Mənbələrə görə, əvvəllər şair və qazi kimi tanınan Rumi Şəmslə görüşündən sonra təsəvvüfün sirlərinə bələd olur və mövləvilik təriqəti onun müridləri tərəfindən yaradılır. Qəribədir ki, bəzi tədqiqatçılar Şəms Təbrizinin tarixi şəxsiyyət olub-olmamasına şübhə

edirlər, “Külliyyat”ı, “Mərqub əl-qulub”u, “Məqamat”ı və divanı onun deyil, Ruminin qələmindən çıxan əsərlər kimi təqdim etməyə çalışırlar. Təbii ki, əks mövqeyi təsdiq edən sanballı araşdırmalar da kifayət qədərdir. Biz isə, öz növbəmizdə, sadəcə onu qeyd edək ki, bu gün də mövləvilik təriqətinin mərasimləri Şəmsin adı ilə başlanır və ən ali həqiqətlərin açarı onun kəlamlarında, onun Rumiyə öyrətdiyi hikmətlərdə axtarılır, mövləvilik bütün dünyada məhz Şəmsin şüarı olan eşq və xoşgörünün carçısı kimi tanınır. Bu, Şəms Təbrizinin Mövlananın şeyx kimi yetişməsindəki, mövləviliyin ma-hiyyətinin formalaşmasındakı rolunun əhəmiyyətinin kifayət qədər aydın ifadəsidir. Maraqlı bir fakt kimi onu əlavə edək ki, Konyada o zamanlar təsəvvüf kifayət qədər yayılmışdı. İbn Ərəbi, onun müridi Sədrəddin Konəvi kimi şeyxlərin məktəbləri, müridləri vardı. Belə bir mühitdə “Sultanül-üləma” (“Alimlər sultanı”) ləqəbi ilə tanınan Bəhaəddin Vələdin oğlu Cəlaləddin Rumiyə təsəvvüfün sirlərini bir azərbaycanlı sufi açır və onun bütün həyat yolunu dəyişir.

Azərbaycan ərazisində də bir sıra yeni sufi tə-riqətlər yaranıb və bunlardan ən böyüyü, zənnimizcə, *xəlvətilikdir*. X əsrdə Əbdülqahir Sührəvərdidən etibarən təşəkkülə başlamış xəlvətilik sufi məktəbinin əsası lənkəranlı İbrahim Gilani (1300) və şirvanlı Ömər Xəlvəti tərəfindən qoyulmuşdur. Lakin təriqətin dördüncü piri Seyid Yəhya Bakuvi (1457) daha məşhurdur. Bunun səbəbi, zənnimizcə, onun sufi-fəlsəfi görüşlərini ehtiva edən əsərləridir: “Şəfaül-əsrar”, “Kəşfül-qülub”, “Bəyanul-elm”, “Əsraru-Talibin”, “Mənazilül-aşiqin”, “Virdü-Səttar” və daha neçə əsər. Məhz Bakuvinin fəaliyyətinin nəticəsi olaraq xəlvətiliyin sərhədləri Şimali Afrikaya, Balkanlara, Orta Asiyaya qədər genişləndi.

Əhəmiyyətli faktlardan biri də budur ki, 2013-cü ildə UNESCO-nun Baş Konfransının 36-cı sessiyasında dünya mədəniyyətinə göstərdiyi əvəzsiz xidmətə görə Seyid Yəhya Bakuvinin 550 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsi haqqında qərar qəbul edildi.

Xəlvətiyyə təriqəti özündən sonra bir neçə başqa təriqət üçün də mənbə rolu oynadı. Bunların arasında tarixdə ən çox müzakirələrə və mübahisələrə səbəb olan təriqət *səfəvilikdir*. Azərbaycan ərazisində yaranan və geniş coğrafi məkana yayıla bilən, bədii və fəlsəfi təfəkkürə təsir etməklə yanaşı, həm siyasi gücə sahib olan təriqəti XIV əsrdə Ərdəbil şəhərində İbrahim Gilaninin müridi sufi şeyxi Səfiəddin Ərdəbili yaratdı. Şeyx Cüneyddən başlayaraq siyasiləşməyə başlayan səfəvilik Şah İsmayıl Xətainin zamanında Səfəvilər dövlətinin əsasında durdu. Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, islam düşüncə tarixində təriqətin özündən daha çox onun sonuncu piri – Şah Xətainin yaradıcılığı böyük əhəmiyyət kəsb edir və biz böyük şairin yaradıcılığının təhlilinə təkrar qayıdacağıq.

Qeyd etdiyimiz kimi, Seyid Yəhya Bakuvinin zamanında təriqət geniş yayılır, onun müridlərindən bir çoxu öz təriqətini qurur. Belə təriqətlərdən biri Dədə Ömər Rövşəninin (1487) adı ilə bağlı olan *rövşənilikdir*. O, Dədə Ömərin görüşlərini Anadoluya, daha sonra Şimali Afrikaya qədər yayan İbrahim Gülşəni, Şeyx Dəmirdaş, Şahin Xəlvəti və Həsən Bayati Mahmudoğlu kimi müridlər tərəfindən yaradılır. Sonralar İbrahim Gülşəni (1534) *gülşəniyyə*, Şeyx Dəmirdaş isə *dəmirdaşiyyə* təriqətlərinin əsasını qoyurlar.

Bakuvinin başqa bir müridi Yusif Müsküri Şirvani haqqında ilk dəfə Abbasqulu ağa Bakıxanov özünün “Gülüstani-

İrəm" əsərində məlumat verir və onun "Bəyanul-əsrar" əsərinin adını çəkir. Daha sonra isə Azərbaycan Milli Elmlər Akademiyasının Əlyazmalar İnstitutunda onun daha bir əsərinin – "Silsilətül-Uyun"un da əlyazması tapılmışdır. Bunlarla yanaşı, sufi mütəfəkkirin daha iki əsəri haqqında da məlumat vardır: "İbadul-irşad" və "Silsilətül-Ərvah".[178] Yusif Müsküri *müsküriyyə* təriqətinin yaradıcısıdır və məlumata görə, Quba rayonunda onun dəfn olunduğu və hazırda nəslinin, davamçılarının yaşadığı kənd Şeyxlər adlanır.[179]

Sufi təriqətlər haqqında qısa təhlilimizi bitirərək əlavə edək ki, əlbəttə, sufi təriqətlərin çoxluğu heç də islam sivilizasiyasına verilən bəhrədən xəbər vermir. Bununla belə, Azərbaycan sufi mütəfəkkirlərinin yaratdığı təriqətləri qeyd etməkdə biz bir əhəmiyyətli məqamı vurğulamağa çalışmışıq. Birincisi, bu təriqətlərdən hər biri öz zamanında kifayət qədər nüfuzlu məktəb hesab edilib və çoxsaylı davamçıları olub. Onlar yalnız öz yaxın ətrafının deyil, həm də yayıldığı ərazilərdə insanların düşüncəsinə, dünyagörüşünə ciddi təsir göstərirdi. Nəticədə, gözəl əsərlər yazılır, divanlar bağlanırdı. Onlardan bəzilərinin nüfuzu xəlifə səviyyəsinə qədər gedib çıxır, hətta dövlət quruculuğunda da özünə yer edirdi. Bundan başqa, sufi mütəfəkkirlərin əsərləri çox böyük əhəmiyyətə və spesifikliyə malikdir və islam mədəniyyət xəzinəsinin nadir inciləri hesab edilirlər. Təsadüfi deyil ki, bu gün də bu əsərlər qiymətli dini-fəlsəfi mənbələr kimi akademik səviyyədə araşdırılır, ətrafında ciddi müzakirələr açılır, beynəlxalq simpoziumlar, konfranslar keçirilir.

---

[178] История Азербайджанской философии, т.2, Баку, Элм, 2008, с. 415.
[179] Yenə orada, s. 414.

Yuxarıda da qeyd etdiyimiz kimi, təriqətlər hər nə qədər islam düşüncə tarixinin zəngin səhifələri hesab edilsə də, onları mahiyyətcə təsəvvüfün parçalanması adlandırmaq daha düzgün olardı. Məhz təriqətlər dövründə şeyxlərin şəxsiyyətinin və görüşlərinin ön plana keçməsi səbəbindən vahid həqiqət çoxsaylı qollara ayrıldı. Bu, fəlsəfə tarixi, islam sivilizasiyası üçün bir bəhrə sayılmazdı, əgər üçüncü mərhələ olmasaydı. Yəni məhz mahiyyəti, əsas prinsiplərinin həqiqəti və əhəmiyyəti açıqlanmasa, müəyyən sistemə salınmasa, təriqətlər böyüklüyündən və kiçikliyindən asılı olmadan nə sabit qalar, nə də bir-birini tamamlayaraq ümumi fəlsəfəni təşkil edə bilərdi. Əhəmiyyətini nəzərə alaraq üçüncü istiqamətə aid olan fəlsəfi görüşlərə nisbətən geniş yer ayırmışıq.

Təsəvvüf fəlsəfəsini sistemli şəkildə ilk təqdim edən şəxs azərbaycanlı mütəfəkkir Əbülməali Eynəlqüzat Miyanəci Həmədani (1098-1131), ondan təqribən bir əsr sonra isə Muhyiddin ibn Ərəbi (1165-1240) olub. Əlbəttə, 28-29 yaşlarında düşüncələrinə görə fəqihlər tərəfindən kafir elan olunan və 33 yaşında edam olunan Miyanəci özündən sonra qoyub getdiyi əsərlərin sayı 75 yaşında vəfat etmiş İbn Ərəbinin əsərləri ilə müqayisəyə gəlməyəcək qədər azdır. Bununla belə, "Zübdətül-həqaiq" ("Həqiqətlərin məğzi"), "Təmhidat" ("Müqəddimələr") və "Şəkval-ğarib" ("Qəribin şikayəti") adlı cəmi üç əsərində o, təsəvvüfün fəlsəfəsini sistemli şəkildə təqdim etməyi bacarıb. Ən vacibi isə, Miyanəci hələ ilk sufi mütəfəkkirlərin (Mənsur Həllacın, Əbu Yəzid Bistaminin) görüşlərində öz əksini tapan, sonralar İbn Ərəbinin tələbələrinin *vəhdət əl-vücud* kimi elmi ədəbiyyata daxil etdiyi prinsipi şərh etmişdir. Əslində, təsəvvüfün mahiyyəti və ümumiyyətlə, islam sivilizasiyasının ana xətti

və təməli olan bu prinsipi Miyanəcinin görüşləri əsasında qısa şəkildə təhlil edək.

İslam dininin əsasında tövhid prinsipi, yəni Allahın təkliyinin və yeganəliyinin ifadəsi durur. Sufi mütəfəkkirlərin dünyagörüşündə də təməl anlayış olan tövhid iki aspektdən nəzərdən keçirilir: Allahın zatı və Yaradan-yaradılan vəhdəti baxımından. Birinci halda sufi mütəfəkkirlər Qurani-Kərimə istinadən Allahı bənzərsiz, mütləq və transsendent, hər təfəkkür və mülahizənin fövqündə duran bir varlıq kimi müzakirə obyekti etmirlər. Eynəlqüzat deyir: "Onun nuru Onun zatı deyil. Günəşin şüası sığal çəkir və onu görmək mümkündür. Amma Günəşin özünü görmək olmaz, çünki yandırıcıdır. Burada böyük bir məsələni bil!"[180] İkinci aspektdə isə Allah-taala Xaliq sifəti ilə təcəlli edir və Yaradanın izini, sifətini bütün yaradılmışlarda görmək mümkündür. Qurani-Kərim də təsdiqləyir ki, "O, ilkdir və sondur, zahirdir və batindir…" (Quran 57/3). Hər şey Onun mülkündə, Ona səbəb vardır. Məxluqat həm maddi vücud qazanmayana qədər, həm də sonra Haqqın batinindədir. Onların maddi varlıq qazanması Yaradanın ideyalarının təzahürüdür. Vəhdət əl-vücud Allahın zatının deyil, məhz Onun öz yaratdıqları ilə vəhdətinin, qarşılıqlı münasibətinin ifadəsidir. Miyanəci yazır: "Hər bir məxluqun var olmasına səbəb Allah-taaladır. Ondan başqa heç bir varlığın, həqiqətən, zatı və varlığı yoxdur"[181]. Bütün yaradılış Allahın sifətlərinin

---

[180] . الميانجي الهمداني ابو المعالي عبد الله بن محمد بن علي بن الحسين بن علي الملقب بعين القضاة. (Miyanəci. Təmhidat, s. 304)تمهيدات. تقديم و تحقيق ع.عسيران .طهران. گلشان. 1373 هـ .

[181] الميانجي الهمداني ابو المعالي عبد الله بن محمد بن علي بن الحسين بن علي الملقب بعين القضاة. (Miyanəci, ,طهران. چاپخانه دانشگاه. 1341 هـ. زبدة الحقائق. تقديم و تحقيق ع.عسيران Zübdətu`l-həqaiq..., s. 144)

təzahürüdür və bu baxımdan O həm forma kimi zahir, həm də mahiyyət kimi batindir. Bununla belə, Allah səbəb-nəticə zəncirinin bir halqası deyil, bu zəncirin Yaradanıdır və O, mütəfəkkirlərin təbiri ilə desək, mümkün varlıqlara vücud verən, onların mahiyyətini təşkil edən gövhərdir. Miyanəci deyir: "Ey dost, əsl cövhər kimi Allah da bütün şeylərin əsli və köküdür. Öz işini iradə və məhəbbətlə görür".[182] Bütün mövcudat bir "vücud"un – Haqqın təzahürüdür, bütün kainatın mövcudluğu və inkişafı həmin "vücud"un daxilində baş verir. Bir termin kimi tərifindən və məfhum kimi şərhindən belə məlum olur ki, vəhdət əl-vücud tövhidin məhz ikinci aspektdən, yəni Yaradan-yaradılan vəhdətinin ifadəsidir.

Qeyd etdiyimiz kimi, hər nə qədər vəhdət əl-vücud sonralar, təqribən XIII əsrdə terminləşdirilsə də, o, təsəvvüf yaranandan, hələ ilk sufi mütəfəkkirlərin düşüncələrində var. Daha doğrusu, vəhdət əl-vücud bu həqiqətin üzərində qurulub. Bununla belə, o, sistemli şəkildə təqdim edilməsə, təriqət şeyxlərinin şəxsiyyətlərinin və görüşlərinin arxasında görünməz qalardı.

İslam sivilizasiyasında yeni bir səhifə olan, təməlində vəhdət əl-vücud prinsipi duran böyük cərəyanlardan biri də işraqilik və ya işraq fəlsəfəsidir. Tarixdə "Şeyx əl-İşraq" ("İşraq şeyxi") və "Şeyx əl-Məqtul" ("Öldürülmüş şeyx") adı ilə məşhur olan Şihabəddin Yəhya Sührəvərdinin (1191) fəlsəfəsi, ümumiyyətlə, nur hikmətinin ilk sistemli təqdimidir. Şihabəddin Sührəvərdi dərin təhsil görmüş bir şəxsiyyət idi və o həm qədim yunan fəlsəfəsinin islam dini zəminindəki ifadəsini – məşşailiyi, həm də islamın öz mahiyyətini

[182] Miyanəci. Təmhidat, s. 181.

yüksək səviyyədə bilirdi. Təsadüfi deyil ki, onun əsas traktatı və işraq fəlsəfəsinin təqdimi olan "Hikmət əl-işraq" kitabı Aristotel məntiqi ilə başlayır, əsas hissədə isə əsl hikmət – nur haqqında mülahizələr verilir. Onu da əlavə edək ki, bir çox elmləri gözəl bilməsinə, xüsusilə məşşailiyə 10-dan artıq əsər həsr etməsinə, işraqilik fəlsəfəsinin giriş mərhələsini də onun prinsipləri əsasında yazmasına baxmayaraq, nur hikmətinin fəlsəfi aspektlərinin şərhində Sührəvərdi məhz təsəvvüf fəlsəfəsinə, onun metodlarına müraciət edir. Zənnimizcə, bunu ilk növbədə, mənbələrin də təsdiq etdiyi kimi, Sührəvərdinin özünün də sufi dünyagörüşlü mütəfəkkir olması ilə izah etmək olar.

Sührəvərdinin öz fəlsəfəsini "işraq" adlandırmasını bəzi filosoflar "nurlanma" ilə yanaşı, həmçinin "Şərq" anlamı ilə də əlaqələndirir. Məsələn, Sührəvərdinin tədqiqatçılarından biri Anri Korbenin yazdığına görə, "işraq" şərqli bir idrakdır, çünki özü idrakın şərqidir (doğulduğu yerdir).[183] Təbii ki, Sührəvərdinin öz əsərlərindən çıxış edərək deyilən bu fikirlərlə biz də razıyıq. Eyni zamanda onu da əlavə etmək istərdik ki, həm Qurani-Kərimin ayəsində deyilən: "Nə Şərqə, nə Qərbə aid olan" (Quran 24/35) ifadəsinə, həm də Sührəvərdinin öz dünyagörüşündə Qərb və Şərqdən daha çox hikmətin dünəni və bu günü nəzərdə tutulduğuna görə, zənnimizcə, işraq termini daha çox "nurlanma" – ilahi hikmətin nur vasitəsilə çatdırılması anlamına yaxındır. Filosof yazır: "Nurlar elmini və onun təməli üzərində olanları qeyd

[183] İslam düşüncesi tarihi: 4 cilddə, I c. / Edit. M.M.Şərif. İstanbul: İnsan yayınları, 1990, c. 417

etməkdə mənə Allah-taalanın yolu ilə gedən hər kəs yardım edib və bu, hikmət almaq qabiliyyətidir".[184] Sührəvərdi bildirir ki, bütün elmlərin başında Ağasademon (Şit və ya Şis peyğəmbər), Hermes və Asqlinos durur və bir kökdən qaynaqlanan hikmət iki istiqamətə ayrılır: antik filosofların və qədim fars müdriklərinin, daha sonra Zərdüştün düşüncə və mülahizələrində, həyat tərzində və mənəvi təcrübə yollarında özünü büruzə verən hikmət. Bəşərlə bərabər doğulan və qırılmadan davam edən nur hikmətinin son olaraq islam filosof və mütəfəkkirlərinin dünyagörüşlərində təcəlli etdiyini yazan Sührəvərdi burada da hikmət sahiblərini iki istiqamətə ayırır: məşşailərə – Aristotel fəlsəfəsinin davamçılarına və sufilərə – ilahi hikmət (mərifət) sahiblərinə. Başqa sözlə desək, o, işraqi hikmətin rasional (bəhs, tədqiq) və irrasional (ilahi hikmət) mərtəbələrdən[185] ibarət olduğunu və bu silsilənin ta qədimdən bu günə kimi uzandığını bildirir. Xatırladaq ki, Sührəvərdinin yazdığına görə, onun hikmət aldığı müdriklərdən, peyğəmbərlərdən biri də Zərdüştdür – Azərbaycan ərazisində yayılan dinin banisi və azərbaycanlı olması haqqında da iddialar olan bir peyğəmbər. Sührəvərdi zərdüştilik haqqında monist bir din kimi danışır: "Bu, məcusların küfrünün və manilərin bidətinin təməli [prinsipi] deyil və Allaha şərik qoşmağa, Onu inkara gətirmir".[186] "Kəlimə ət-təsəvvüf" əsərində yazır: "Qədim iranlılar arasında həqiqətə rəhbərlik edən və Doğru Yolda

---

[184] Geniş bax: 1952 ,سهروردي شهاب الدين يحيي. شيخ إشراق. بقلم هنري كربين, تهران (Sührəverdi. Hikmət əl-İşraq, s. 10) ,مجموعة دوم مصنفات

[185] Geniş bax: 1952 ,سهروردي شهاب الدين يحيي. شيخ إشراق. مجموعة بقلم هنري كربين, تهران (Sührəverdi. Hikmət əl-İşraq, s. 11-12) ,دوم مصنفات

[186] Yenə orada, s. 11

Onun (Tanrı) tərəfindən bələdçilik edilən bir toplum vardı. Bu qədim müdriklər məcusi adlandırılan şəxslərdən fərqli idilər. Platon və ondan əvvəlkilərin öz mənəvi təcrübələrində şahid olduqları və bizim "Hikmət əl-işraq" adlı əsərimizdə yenidən diriltdiyimiz hikmət onların yüksək və aydınlanmış hikmətidir".[187] "Mutarahat" adlı kitabında isə o, işraq hikmətinin ilk öncə qədim fars mifik rahib-kralları olan Kiumart, Fəridun və Keyxosrovda olduğunu, daha sonra Pifaqor və yunanlılar arasında, sonra Platona keçdiyini və son olaraq da Zünnun Misri və Əbu Yəzid Bistami kimi müsəlman sufilərə keçdiyini yazır.[188] Sührəvərdinin təqdim etdiyi inkişaf xəttindən belə məlum olur ki, o öz fəlsəfəsini əbədi hikmətin təcəllisi, deməli, həm də qədim sivilizasiyaların varisi olaraq qəbul edir. Bu baxımdan mütəfəkkirin işraq fəlsəfəsinin yalnız bir şərqli təfəkküründün məhsulu deyil, universal xarakterli bir nəzəriyyə olduğunu iddia etmək olar. Fəlsəfə tarixiçisi S.H.Nəsr yazır: "Sührəvərdinin əllərində Platon və Aristotel fəlsəfələri zərdüştiliyin mələk elmi və hermetik fikirlərlə birləşdi və bütün bunların təsəvvüf içərisində yerləşdirildiyi yeni bir hikmət məktəbi halına gəldi. İnsan Sührəvərdinin kitablarını oxuyanda Quran, hədis və sufilərin sözlərindən gətirilən fikirlərin çoxluğundan və Sührəvərdinin maraqlandığı bütün fərqli fikirləri islam qəlibinə tökməsindən çox təsirlənir".[189]

İşraq fəlsəfəsində nur iki aspektdən araşdırılır: mütləq, "tək, bənzəri və tayı olmayan Nurlar Nuru" (Nur əl-ənvar) və "var olmaqlarına görə Ona möhtac olan, səbəb və

[187] İslam düşüncəsi tarihi, I c., s. 414
[188] Yenə orada, s. 417
[189] Yenə orada, s. 418

mənbəyi, varlıqları Ondan gələn"[190] digər nurlar. "Ondan sonra nur olmayan, müqəddəs və mütləq",[191] varlığı vacib olan Nurlar Nurundan fərqli olaraq bu nurların varlığı mümkün hesab edilir, çünki yaradılışları sonradan baş verdiyinə görə onlar haqqında var olma ilə yanaşı, yoxluq anlamı da işlənə bilər. Sührəvərdi düşüncələrində hər şeyin nurlandırıcısı – yaradıcısı olduğuna görə Nurlar Nurunu hər hansı forma və sifətlərin fövqündə hesab edir; Onu nurlandırdığı bir şeylə təsvir etmək mümkün deyil, çünki "Nurlandıran nurlanandan nur bəxş etməsi cəhətdən daha nurludur, Zatı onun zatından daha nurludur",[192] yəni O öz yaratdığının təfəkkür çərçivəsindən daha genişdir. Nurlar Nuru yeganə "zəngin mücərrəd nurdur" və "hər bir şey üzərində hakimdir", heç bir şey Ona hakim deyil və Ona qarşı ola bilməz, çünki hər bir güc, qüvvə və kamal Ondan faydalanır".[193]

Burada Sührəvərdinin iki fikri üzərində xüsusi dayanaq. Əvvəla, qeyd etdiyimiz kimi, Nurlar Nuru vahiddir, bölünmür və transsendentdir. Nurlanma Onun hökmü ilə baş verən bir yaradılış prosesidir. İkincisi, ilk nur Nurlar Nuru ilə vasitəsiz əlaqədə olduğu üçün Onun bütün keyfiyyətlərinə malik olsa da, yaradılmış və varlığı Ondan asılı bir məxluq kimi naqisdir, yəni zatı baxımından Yaradan və yaradılan arasında fərq qətidir.

İşraq fəlsəfəsinin daha geniş təhlilinə yer vermədən yalnız iki faktı vurğulayaq. Əvvəla, qeyd etdiyimiz kimi, Sührəvərdi öz nur hikmətinin təqdimində təsəvvüfdən – islamın

[190] Sührəverdi. Hikmət əl-İşraq, s. 122
[191] Yenə orada, s. 121
[192] Yenə orada, s. 123
[193] Yenə orada, s. 122

mahiyyətindən, hikmətindən bir metod kimi istifadə edirdi. İşraq fəlsəfəsində yaradılış prosesini, Nur əl-ənvarın nisbi nurlarla əlaqəsini, iyerarxik mərtəbələrin bir-birini əvəzetmə sistemini və daha əvvəl təqdim etdiyimiz vəhdət əl-vücudu müqayisə etmiş olsaq, deyilənləri bir daha təsdiqləmiş olarıq. Lakin nəzərə alsaq ki, Sührəvərdinin fəlsəfəsi məhz nur anlamı üzərində qurulub və bütünlükdə nur hikmətinin ifadəsidir, onda onu tam əhatə və dəqiq ifadə etmək üçün fərqli bir termin irəli sürmək olar: *vəhdət əl-işraq* və ya *vəhdət ən-nur*. Onu "vəhdət əl-vücudun nur vasitəsilə ifadəsi" də adlandırıb belə təsvir etmək olar: Nurlar Nuru digər nurların əbədi mənbəyi kimi onların fövqündədir, O heç nəyə qarışmır, Ona heç nə birləşə və Onunla heç nə eyniləşə bilməz, çünki O heç bir təsvir və düşüncəyə sığmır. Eyni zamanda hər şey Onunla, Onda baş verir və varlığını təşkil edən nuru Ondan alır. Burada kiçik və əhəmiyyətli bir faktı da vurğulayaq: Nurlanma Onun zatı ilə əlaqəli deyil, Onu əskiltmir və ya artırmır, Onun bütün ad və sifətləri təzahür edib tanındığı halda, zatı dərkedilməz qalır. Bütün yaradılış – nurlanma Onun iradəsi ilə Onun mülkündə, Onunla daimi hərəkətdə olan sabit sistemdir.

İkinci vurğulanmalı fakt isə Sührəvərdinin fəlsəfəsində qədim hikmət – zərdüştilik, nur haqqında hikmət islam zəminində nəinki yeni həyat qazandı, həm də yeni bir addım ola bildi. Təsadüfi deyil ki, işraqiliyin ilk işartıları hələ zərdüştiliyi yaxından tanıyan, babalarının ulu dini sayılan İbn Sinada rast gəlinib. Düzdür, İbn Sinanın işraqilik haqqında düşüncələri itmiş hesab olunur. Bununla belə, bir həqiqət var ki, özündə əbədi hikmətin zərrəsini ehtiva edən

zərdüştilik mütləq yeni sivilizasiyada təzahür etməli idi və bu, Sührəvərdinin işraqilik fəlsəfəsi vasitəsilə baş verdi.

Azərbaycanda təsəvvüf zəminində bir sıra cərəyanlar təşəkkül tapmışdır ki, dini nöqteyi-nəzərdən bidət qəbul olunsa da, nümayəndələri edam edilsə də, islam sivilizasiyasında onların öz yeri və rolu var. Bunlardan ilk olaraq *hürufiliyin* adını çəkmək olar. Hürufiliyin fəlsəfi əsaslarının tədqiqatçısı Z.Quluzadənin verdiyi məlumata görə, "Azərbaycanda, İranda, Türkiyədə və islam Şərqinin bir sıra digər ölkələrində yayılmış bidət təlim"[194] olan hürufiliyin "ideya mənbələrini, zənnimizcə, islam yayılmamışdan qabaq və sonrakı Yaxın və Orta Şərq fəlsəfəsində axtarmaq lazımdır. Çünki tədqiq olunan ideologiya bu ölkələrin sosial-iqtisadi və mədəni inkişafının nəticəsi idi".[195] Düşüncələrini "Cavidani-kəbir", "Ərşnamə", "Məhəbbətnamə", "Növmnamə", "İsgəndərnamə" adlı əsərlərində təqdim edən hürufiliyin banisi Fəzlullah Nəimi "bir tərəfdən gerçək dünyanı hərflərlə, yaxud hərfə bərabər tutaraq mistikləşdirir, digər tərəfdən – bu, zənnimizcə, onun panteizminin əsasını təyin edir – hərfləri maddiləşdirir".[196] Mütəfəkkir dünyanın, in-sanın və Tanrının 28 və 32 hərfdə olduğunu iddia etməklə yanaşı, bu hərflərin mahiyyətcə dörd maddi ünsürdən ibarət olduğunu da bildirir.[197] Hürufilərin məqsədi əzəlini dərk etməkdir və bu, hərflərin (28 və 32 ərəb və fars hərflərinin) dərki ilə mümkündür. Bundan çıxış edərək onlar (hürufilər)

---

[194] Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку: Элм, 1970, с. 5.
[195] Yenə orada, s. 56
[196] Yenə orada, s. 102.
[197] Geniş bax: yenə orada

“əql və nitqi ilahiləşdirirdilər”.[198] Hər şey Tanrıdır, eyni tərzdə hər şey sözdür və səsdir, deməli, hər şey həm də insandır, çünki o bu hərf və səslərin daşıyıcısıdır. Nəhayət, hər şey dörd maddi ünsürdür: od, su, hava və torpaq.[199] Göründüyü kimi, hürufilikdə hər şeyin – həm ilahi, həm maddinin mahiyyəti maddiləşdirilir, dörd ünsürdən ibarət olduğu bildirilir. Hətta ilahi əmr olan “Ol” kəlməsi də Nəimi tərəfindən bəşəri nitq kimi təqdim edilir. O: “İnsan nitqi kimi dörd maddi ünsürdən ibarətdir”[200] – bildirir və “Adəmin nitqi ilə ilahi nitqi”[201] eyniləşdirir.

Yeri gəlmişkən, qeyd etmək lazımdır ki, hürufilik Əmir Teymurun istilası zamanı daha geniş vüsət almışdır və Fəzlullahın qətli ilə, ümumiyyətlə, xalq üsyanı xarakteri aldı.[202] Başının üstündə islam bayrağı ilə ölkələr fəth edən bir Əmirdən fərqli olaraq Nəimi elə həmin islama istinadən insanın böyüklüyünü, kamilliyini tərənnüm edirdi. Bəndəsinin zülm törətməyinə izin verən Tanrıya qarşılıq onlar insanın özünü Tanrı elan edirdi. Maraqlıdır ki, islama görə, bütün insanlar eynidir və yalnız imanlarına görə fərqlənə bilərlər. Hürufilər sanki insanlara bu həqiqəti xatırladırdılar. Onlar təhrif olunmuş, insanlardan aralı salınmış dini həqiqətləri təkrar onlara tanıdırdılar, ancaq öz təqdimatlarında, başqa böyük bir təhriflə. Təsadüfi deyil ki, hürufilər və sonradan

---

[198] Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку: Элм, 1970, с. 16.
[199] Yenə orada, s. 124
[200] Yenə orada
[201] Yenə orada, s. 102
[202] Сара Ашурбейли. История города Баку - период средневековья, Баку, 1992, с. 181

onların üsyanına qoşulanlar sadə xalq – kəndlilər, sənətkarlar idi.[203] Öz prinsiplərində və fərziyyələrində kifayət qədər irəli gedən hürufilərə görə, əvvəla, Tanrı bir Yaradan olsa da, öz yaratdığı ilə ayrı deyil, hətta eynidir və onlarla eyni mahiyyətə malikdir və bu mahiyyət mistik xarakterliyinə baxmayaraq, maddidir. İkinci tərəfdən Mütləq Həqiqətin dərki üçün insanın təfəkkürü təbiətin fövqünə qalxmır, əksinə, maddinin özünə nüfuz etməli olur, çünki bu həqiqət onun dörd ünsüründədir. Nəhayət, insanın hər şeyi – dörd ünsürü və bununla Tanrının özünü də ehtiva etdiyindən hürufilər belə nəticəyə gəlirlər ki, hər şey insandır.

Hürufilik fəlsəfəsinin xüsusiyyətlərini, mahiyyətcə eyni qəbul edilən varlıqlar arasında insanın tutduğu mövqeyini və özlüyündə (ruhu ilə yanaşı, maddi cəhətdən də) bütün makrokosmu ehtiva etməyini, nəhayət, bütün fəlsəfi sisteminin mərkəzində insanın dayandığını nəzərə alaraq hürufilik fəlsəfəsini, zənnimizcə, *antropoloji panteizm* adlandırmaq olar.

Panteist dünyagörüşlü digər cərəyan isə XV əsrdə əsası azərbaycanlı Mahmud Pasihani Gilani (1427/8) tərəfindən qoyulmuş *nöqtəvilikdir*. Fəzlullah Nəiminin tələbəsi olmuş Pasihani görüşlərindəki ifrata görə müəllimi tərəfindən uzaqlaşdırılsa da, o öz təlimini yaratmağa müvəffəq olur. Təlim qısa müddətdə Azərbaycandan kənara, Hindistana qədər gedib çıxır. Sonralar artıq siyasi gücə çevrilən nöqtəvilik dövlət tərəfindən bidət elan edilir və nümayəndələri edam olunur. Təqibdən qaçan nöqtəvilər Hindistanda elmi təbəqə

[203] Сара Ашурбейли. История города Баку - период средневековья, Баку, 1992, с. 182-183

ilə əlaqələr yaradır, şahla yaxınlaşıb öz elmlərini dövlət səviyyəsində təbliğ etməyə müvəffəq olurlar.[204]

Hər hansı bir Yaradan və ilahi qüvvəni qəbul etməyən nöqtəvilərə görə, ruhun ölməzliyi materiyanın forma dəyişməsidir. Onlar tək Allaha deyil, insanın özünə də müraciət etmək ideyasını irəli sürürlər, çünki insan – "vəhyin daşıyıcısıdır". Nöqtəvilər daha çox rasional düşüncəyə və əqlin dəlillərinə inanır və Quran ayələrini, islami prinsipləri də bu baxımdan şərh edirdilər, hər hansı bir irrasional vasitəni, yaxud fövqəlşüur biliyi qəbul etmirdilər.[205]

Nöqtəviliyə görə, "bütün varlıqlar vəhdətdədir, vəhdət nöqtədədir, nöqtə isə Yerdə. Yer daimi hərəkət və dəyişmədədir. Bütün varlıqlar yerlə əlaqəlidir, o cümlədən yer üçün zəruri və əzəli nöqtə olan göylər də. Bütün forma və cismə malik şeylər hissəciklərin təzahürüdür, daimi və yalnız bu dünyada mövcuddurlar. Onun müxtəlif formaları (mineral, bitki və s.) var".[206] Digər tərəfdən nöqtəvilər bütün varlıqların dörd elementdən yaranması fikrini də irəli sürürlər. Dairə xarakterli inkişaf xətti minerallardan insanlara doğrudur və hər bir forma üçün təməldir.[207]

Hürufilikdən daha kəskin şəkildə öz müddəalarını təqdim edən nöqtəviliyə görə, "Quran 28 hərfdən ibarətdir. Onların mənası əlifdədir, əlifinki isə nöqtədə. Nöqtə insanın başlanğıcıdır, insan isə bütün varlıqların başlanğıcıdır".[208]

---

[204] Сара Ашурбейли. История города Баку - период средневековья, Баку, 1992, с. 183
[205] Кулизаде З.А. Хуруфизм..., с. 255
[206] Yenə orada, s. 254
[207] Yenə orada, s. 254-255
[208] Yenə orada, s. 253

İstər-istəməz Əli ibn Əbu Talibin: “Quranın bütün mənası Fatihədədir, Fatihənin mənası bismillahda, bismillahın mənası isə bə (ب) hərfindədir. Mən həmin bə (ب) hərfinin nöqtəsiyəm” kəlamı yada düşür. Əslində, özündə böyük bir hikmət ehtiva edən nöqtə anlayışı Pasihani tərəfindən fəlsəfi bir cərəyan səviyyəsinə qədər qaldırıldı. Nöqtəvilikdə bu nöqtə bütün varlıqların başlanğıcıdır və vəhdət nöqtədədir. Dini mövqedən fərqli olaraq nöqtəvilər Yaradanı və yaratma aktını qəbul etmirlər. Onların söz açdıqları vəhdət Allahla deyil, maddi varlıqların öz vəhdətidir. Digər tərəfdən onlara görə nöqtə – Yerdir (dörd ünsürdür).

Hər nə qədər nöqtəvilik batini cərəyan hesab edilsə də, mistik təlimlərdən yararlansa da, onun istinad etdiyi mənbələri və çıxış etdiyi prinsipləri nəzərə alaraq, zənnimizcə, onun mövqeyini *materialist panteizm* adlandırmaq doğru olardı.

Azərbaycanın islam sivilizasiyasında ən böyük və dəyərli nemətlərindən biri də fəlsəfi yüklü poeziya nümunələridir. Məsələ burasındadır ki, bu səviyyədə olan poeziya bir poema, qəzəl, qəsidə, məsnəvi olmaqdan daha çox bir mütəfəkkirin, filosofun öz düşüncələrinin poetik üslubla ifadəsidir. Düzdür, belə mütəfəkkir-şairlər əksər hallarda hansısa cərəyanın nümayəndəsi olublar və onların yazdıqları da ilk növbədə həmin cərəyanın söz və hikmət xəzinəsinə aid edilirlər. Bununla belə, bir tərəfdən mənsub olduqları cərəyanın islam sivilizasiyasındakı yeri və roluna görə, digər tərəfdən ehtiva etdikləri fəlsəfi mahiyyətə görə onlar bir millətin düşüncəsinin fövqünə qalxaraq bəşəri əhəmiyyətə malik olublar. Onlardan bir neçəsi haqqında qısa məlumat verək.

Rabiə əl-Ədəviyyədən sonra dünya fəlsəfəsinin səhifələrinə adı yazılan müsəlman qadın mütəfəkkir, heç şübhəsiz, şair-mütəfəkkir Məhsəti Gəncəvidir (1089-1181). İslam fəlsəfəsində ilahi eşq konsepsiyasının yaradıcısı olan Rabiədən sonra onun yolunu davam etdirən bir çox, o cümlədən azərbaycanlı qadın şairlər olub. Məsələn, elə təsəvvüfün erkən illərində mənbələrdə böyük ehtiramla adı çəkilən sufi şair xanımlar sırasında Ərdəbildən Fatimə Bərdəi də var. Məhsəti Gəncəvi isə yalnız şair yox, həm də bir mütəfəkkir olduğuna görə düşüncə tarixində öz yerini tuta bilib. Təsadüfi deyil ki, onun nəinki islam sivilizasiyasına, eləcə də dünya mədəniyyətinə xidmətinə görə 2013-cü ildə UNESCO-nun Baş Konfransının 36-cı sessiyasında Məhsəti Gəncəvinin 900 illik yubileyinin dünya səviyyəsində qeyd edilməsi haqqında qərar qəbul edilib. Nisbətən geniş təhlilə keçək.

XI əsrin sonları – XII əsrin əvvəllərində yaşamış böyük Azərbaycan şairi, ilk şahmatçı qadın, ilk görkəmli qadın musiqiçi, çox ehtimal ki, ilk qadın bəstəkar, şeir üslubuna görə çox vaxt Ömər Xəyyam məktəbinin nümayəndəsi hesab edilən Məhsəti Gəncəvinin şeirlərini daha çox şəhər mədəniyyətinin nümunələri hesab edirlər. Bir tərəfdən sufi düşüncələrini, digər tərəfdən musiqi və şeir məclislərini tərənnüm edən şairin hansı təriqətə mənsubluğu hələ də mübahisə obyektidir. Bir şey məlumdur ki, onun şeirlərində sələfi Rabiə əl-Ədəviyyə kimi ilahi eşqin tərənnümü var. Bununla belə, bir sıra əhəmiyyətli məqamlar dəqiqləşdirilməlidir. Düzdür, hər iki şair ilahi eşq tərənnümçüsü olub, lakin aralarında çox böyük fərqlər var. Məhsətini Rabiənin davamçısı adlandırmaq olmaz, çünki onun xətti yenidir.

Xatırladaq ki, XI-XII əsrlər məhz təsəvvüfün tarixində parçalanma – təriqətləşmə dövrüdür. Məhz bu dövrdə təsəvvüfün təməl prinsipləri yanında ayrı-ayrı təriqətlərin öz prinsipləri də ön plana keçməyə başlamışdır. Bu baxımdan, təbii ki, Məhsəti Gəncəvinin şeirlərində IX-X əsr sufi poeziyasından fərqli notlara rast gəlməliyik. Hər şeydən əvvəl Məhsətinin şeirlərində təsəvvüfün erkən illərinə xas olan zahidlik yoxdur, burada yalnız ilahi eşq deyil, bəşəri eşq də əks olunur. Məhsəti cəmiyyətin bir üzvüdür və onun yaradıcılığında həmin vaxtlar şəhərdə (Gəncədə) mövcud olan mühitin əks-sədasını görmək mümkündür. Əhəmiyyətli məqamlardan biri də mütəfəkkirin şeirlərində azad ruhun daim ön planda durmasıdır. Təsəvvüfdən gələn bu vacib detalı öz yaradıcılığında, düşüncələrində əks etdirmək bir şair-mütəfəkkirdən böyük cəsarət tələb edirdi:

Bir əlimizdə qədəh, birində Quran,
Gah ayıq oluruq, gah sərxoş.
Biz bu fani dünyada kimik?
Kafir deyilik, amma həqiqi müsəlman da deyilik.

Əgər Rabiə üçün bu azadlıq cəmiyyətdən uzaq, maddi istəklərin fövqündə durmaq idisə, Məhsəti tam cəmiyyətin ortasında öz azadlığını bəyan edirdi. Ortodoksal dinin hökm sürdüyü bir mühitdə belə bir mövqe, təbii ki, rahat qarşılanmırdı. Buna baxmayaraq, Məhsəti öz dövrünün səsi ola bildi. Bu, yeganə qadın səsi olsa da.

İslamın qızıl dövrünün nümayəndələrindən biri də dahi Azərbaycan şairi Nizami Gəncəvidir (1141-1209). Özü-

nün “Xəmsə”si sayəsində epik poeziyanın ən nəhəng nümayəndəsi adını qazanan şair-mütəfəkkir öz əsərlərində dövrünün ictimai problemləri ilə yanaşı, həm də fəlsəfi məsələlərin müzakirəsini açır, həll yolları axtarırdı. Təsadüfi deyil ki, onun poeziyasında həm dövrünün sosial problemlərinin, həm məşşailiyin, həm də təsəvvüfün izlərini tapmaq mümkündür. Nizaminin dahiliyi məhz bu istiqamətləri yüksək poetik ustalıqla cəmləşdirməsində idi. Dünya mədəniyyətindəki roluna görə Nizami Gəncəvi də UNESCO-nun diqqətinə layiq görülmüş və onun 850 illik yubileyi şərəfinə 1991-ci il “Nizami ili” elan edilmişdir.

Şairin yaradıcılığında əhəmiyyətli məqamlardan biri islam dininin bir təməl olmasıdır. İstər bir şahın zülmündən yazanda, istər bir ülvi sevgini tərənnüm edəndə, istərsə də qədim yunan filosoflarını bir məclisə yığıb onların varlıq-yoxluq haqqında dialoqunu təşkil edəndə o, islamı dərindən bilən mütəfəkkir, həqiqi müsəlmandır. Təsadüfi deyil ki, onun poemalarının əksəriyyəti münacatla – Allaha sidq dua ilə, mənəvi kamilləşmə üçün ilahi nurun ricası ilə başlayır. Bununla şair islamı həm gerçək həyatda, həm də mənəvi təcrübədə ən düzgün yol kimi qəbul edir. Əhəmiyyətli məqamdır ki, həyat yolunda islami prinsipləri şüar bilən Nizami Gəncəvi bir saray şairi olmaq istəmir və bununla bir insanın azadlığının hər şeydən üstün olduğunu əyani olaraq öz həyatı ilə sübut edir.

Nizami Gəncəvinin yaradıcılığı bütün islam bölgəsində güclü nüfuza və təsirə malik olub. Təsadüfi deyil ki, ondan sonra bir çox müsəlman şairlər “Xəmsə” yazıb, onun toxunduğu problemlərə təkrar müraciət ediblər. Onun təsirini islam dünyasının Hafiz Şirazi, Cəlaləddin Rumi, Sədi

Şirazi, Əlişir Nəvai kimi dahi şairlərin yaradıcılığında görmək mümkündür.

İslam mədəniyyətində özünəməxsus yeri və izi olan şair-mütəfəkkirlərdən biri də Əvhədi Marağayidir (1274-1338). Uzun illər səyahət edib elmlər öyrənən və öyrəndiyi hikmətləri poetik dillə çatdıran şairin ən məşhur əsərləri "Dəhnamə", yaxud "Məntiqül-üşşaq", xüsusilə "Cami-Cəm"dir. 9142 beytdən ibarət "Cami-Cəm" tədqiqatçılar tərəfindən ensiklopedik əsər kimi dəyərləndirilir. 114 başlıqdan ibarət poemada müəllifin həm fəlsəfi, həm də dini görüşləri öz əksini tapıb. Qeyd etdiyimiz kimi, Marağayi çox güclü təhsil görmüşdür, həmin dövrdə məlum olan ideoloji cərəyanlarla – ismaililik, işraqilik, təsəvvüf, mötəziliklə tanış idi, hələ gənc yaşlarında Firdovsi, Sənai, Əttar, Rumi kimi mütəfəkkirlərin yaradıcılığını çox yaxşı bilirdi. Şairlər arasında Marağayinin üzərində xüsusi durmağımızın səbəbi onun öz dövrünün düşüncə sahibinin yüksək bir nümunəsi olmasıdır: dünyanı, varlığı çoxsaylı dini-fəlsəfi cərəyanların pəncərəsindən görən, öz düşüncələrini dövrün aparıcı üslubu olan poetik dillə çatdıran, yaradıcılığında özündən əvvəlki ustadların məktəbini yaşadan, bir məkanda yaşanan ədalətsizlikdən başını götürüb başqa diyarlara gedən və getdiyi hər yerdə orada yayılan elmi öyrənən bir şəxs. Daha əvvəl qeyd etdiyimiz kimi, orta əsrlərdə islam mədəni bölgəsinin əksər yerlərində çox zəngin elmi, dini mərkəzlər, kitabxanalar fəaliyyət göstərirdi, çox güclü ənənələr, məktəblər var idi və bu, təbii ki, yaradıcı şəxslərin, düşüncə sahiblərinin əsərlərində, dünyagörüşlərində öz əksini tapırdı. Hətta heç bir səyahətə çıxmayan, öz şəhərinin divarları arasında qalan bir şəxs də yerli imkanlardan yararlanıb

mükəmməl təhsil ala, zəngin kitabxanalardan istifadə etməklə istədiyi elm sahəsində öz biliklərini dərinləşdirə bilirdi. Təsadüfi deyil ki, həmin dövr mütəfəkkirlərinin, şairlərinin antik fəlsəfədən tutmuş astronomiyaya, riyaziyyata, məntiq, təsəvvüfə qədər və daha neçə hikməti öyrənməsi, onlardan yararlanması, özünün də o sahələrin birində dəyərli əsər yaratması, onlara ətraflı təfsirlər yazması az qala bir qayda kimi qəbul edilirdi.

Yuxarıda da qeyd etdiyimiz kimi, islamın qızıl dövründə daha çox yayılan və insanların düşüncəsinə dərindən nüfuz edən cərəyanlardan birincisi təsəvvüf idi. Bunu yalnız onun azad təfəkkürə yol açması ilə deyil, həm də islamın mahiyyətindəki sevgini, xoşgörünü, öyrənmək təşnəsini daha aydın ifadə etməsi, ən başlıcası isə, insana, insanlığa yüksək dəyər verməsi ilə izah etmək olar. Təbii ki, aldığı təhsildən, düşdüyü elmi mühitdən asılı olaraq təsəvvüf həmin şəxsin yaradıcılığında ya aparıcı ideya, ya da müəyyən fikirlərini əsaslandırmaq, çatdırmaq üçün bir üsul olub.

Yaradıcılığında sufi mövqeyin aparıcı olduğu şair-mütəfəkkirlərdən ilk yada düşən, zənnimizcə, Mahmud Şəbüstəridir (1287-1320). Əksər elmlər üzrə mükəmməl təhsil almış mütəfəkkir öz qısa ömründə (33 il) bir çox əhəmiyyətli əsərlər yaratmışdır – "Haqqul-yəqin fi mərifəti rəbbil-aləmin", "Miratül-mühəqqiqin", "Şahidnamə", "Səadətnamə" və s. Dünyanın əksər tanınmış kitabxanalarında əlyazmaları qorunan Şəbüstərinin adını islam düşüncə tarixində əbədiləşdirən "Gülşəni-raz" məsnəvisi isə xüsusi diqqətə layiqdir. Əsər Xorasanın nüfuzlu alimlərindən olan Seyid Hüseyn Hərəvinin 15 suala nəzmlə verilmiş cavabıdır. Sual-cavab şəklində tərtib olunan əsər təfəkkür, varlıq, yaradılış, bir sıra

sufi termin və istilahların, rəmzlərin şərhidir. Mütəfəkkir bütün cavabları, hətta əsərin adını belə Haqdan aldığını bildirir:

Buna bir ism sordum Həqqdən çün,
Cavab gəldi: "O, gülşəndir bizimçün".
Dedi: "Məktubun ismi gülşən olsun,
Onunla qəlb çeşmi rövşən olsun".[209]

Əsərin ümumi məzmunundan nəticə çıxararaq qeyd etmək olar ki, "Gülşəni-raz" vəhdət əl-vücudun poetik dillə və yüksək ustalıqla ifadəsidir. Zənnimizcə, Şəbüstərini fərqləndirən başlıca xüsusiyyət onun əsərinin müəyyən bir elmi polemika şəklində qurulmasıdır. Bu baxımdan onu klassik sufi traktatlara bərabər tutmaq daha düzgün olardı. Məhz belə süjet xəttinə malik olduğuna görə də bir çox alimlər ona şərhlər, təhlillər yazıblar. Bunların arasında ən məşhuru Şəmsəddin Məhəmməd Lahicinin "Məfatihül-ecaz fi şərhi-"Gülşəni-raz" (""Gülşəni-raz"ın şərhinə aid möcüzələrin açarı") adlı əsəridir. Lahicinin bu şərhində "Gülşəni-raz"ın hər bir beytinin geniş izahı verilib. Bundan başqa, Əminəddin Təbrizi, Seyid Yəhya Şirvani-Bakuvi, Baba Nemətullah Naxçıvani, Kəmaləddin Hüseyn ibn Şərəfəddin Əbdülhəqq Ərdəbili və başqa Azərbaycan alimlərinin də "Gülşəni-raz"a şərhləri məlumdur.

Yaradıcılığı və şəxsiyyəti üzərində xüsusi dayanılmalı olan şair-mütəfəkkirlərdən biri də, heç şübhəsiz, Məhəmməd Füzulidir (1494-1556). Ərəb, fars və türk dillərində yazıb-yaradan, divan ədəbiyyatının məşhur nümayəndəsi

[209] Şeyx Mahmud Şəbüstəri "Gülşəni-raz", Bakı: "Elm və təhsil", 2013. – 19 s.

olan Füzuli öz sələfləri kimi poeziyasında fəlsəfi məsələlərə, sosial problemlərə toxunur, onların poetik müstəvidə geniş müzakirəsini açır. Məsələn, onun ərəbcə yazdığı "Mətlə ül-etiqad" əsərində o, bilik, elm, yaranış, varlıq haqqında məsələlərə toxunur. Bununla belə, şair tarixdə məhz ilahi eşqin tərənnümçüsü kimi qalıb. Erkən orta əsrlərin dastanlarından olan, dahi Nizaminin də yaradıcılığında yer alan, onun beş poemasından biri olan "Leyli və Məcnun" dastanı Füzulinin qələmi ilə yenidən zirvələrə qaldırıldı. Şairi istər sələflərindən, istərsə də xələflərindən fərqləndirən onun əsərindəki yüksək şeiriyyət və süjet xəttinə özünəməxsus yanaşmasıdır. Üstəlik, əsər türk dilində olduğuna görə xalq arasında daha çox sevilir. Xatırladaq ki, ilahi eşq hələ VIII əsrdə Rabiə əl-Ədəviyyə tərəfindən təsəvvüf ədəbiyyatına daxil edilib, sonralar XIII əsrdə Şəms Təbrizidən təsirlənmiş Cəlaləddin Ruminin yaradıcılığında yeni bir nəfəs qazandı, təsəvvüfün çağırış şüarına çevrildi. XVI əsrdə Füzuli isə iki gəncin nümunəsində ilahi eşqin zirvəsinə gedən yolu yaranışından sonuna qədər izləyir və bəşəri müstəvidən ilahi məqama keçidi təsvir edir. Maraqlıdır ki, bir sıra tədqiqatçılar bu incə keçid anını görmədiklərinə, yaxud qəbul etmədiklərinə görə "Leyli və Məcnun" poemasını sadəcə ülvi bir bəşəri sevgi çərçivəsində görürlər. Halbuki Füzuli daha irəli gedərək bir eşqin timsalında sufi idrak prosesini təsvir edir. Təqribən X əsrdə təsəvvüfdə idrak prosesini qısa və dəqiq ifadə edən bir formul irəli sürülüb: ilm əl-yəqin (yəqinliyin bilinməsi), ayn əl-yəqin (yəqinliyin görülməsi) və haqq əl-yəqin (yəqinliyin haqqı). Mənsur Həllac eyni formulu "yəqinliyi" "həqiqətlə" əvəz etməklə istifadə edir. Əslində, nəzərə alsaq ki, təsəvvüf yolçuluğunun sonu,

yəni şəriət-təriqət-mərifət-həqiqət trayektoriyası həqiqətlə nəticələnməlidir və bütün əvvəlki mərhələlər məhz ona çatmağa xidmət edir, o zaman Həllacın traktovkası daha məqsədəuyğundur. Bu formulu Rabiənin təqdimatında isə belə ifadə etmək olar: *ilm əl-eşq, ayn əl-eşq və haqq əl-eşq – eşqin bilinib, görülüb və həqiqətinin yaşanması, dərk edilməsi.* Füzulinin "Leyli və Məcnun"u məhz Rabiənin təqdimatında olan eşqin nəzmə çəkilməsidir. Onu da bir daha təkrar edək ki, bu ustalıq və dahi ifadə tərzi nə Füzulidən əvvəl, nə də sonra başqa bir şairdə görülüb.

Yaradıcılığında hər hansı cərəyanın təsiri duyulan mütəfəkkirlərlə yanaşı, öz əsərləri ilə yeni cərəyanın təşəkkülündə və təbliğində müstəsna rolu olan şəxsiyyətlər də vardır ki, bəzən onları yalnız bir şair kimi təqdim etmək onların fəaliyyətinin məhdudlaşdırılması kimi görünə bilər. Belə mütəfəkkirlərin əsərləri, əslində, həmin cərəyanın mənbəyi hesab edilir. İlk belə mütəfəkkir kimi istər şəxsiyyəti, istərsə də əqidəsi ətrafında müzakirələr bu gün də səngimək bilməyən Şah İsmayıl Xətaini (1524) göstərmək olar. Babası tərəfindən qurulan və xəlvətilik təriqətinin bir qolu hesab edilən səfəvilik zəminində qüdrətli bir dövlət quran, qızılbaşlar hərəkatının yaradıcısı və başçısı olan Şah Xətai islam düşüncə tarixində, zənnimizcə, iki əsas xidməti ilə qalmağa layiqdir. Birincisi, o, Azərbaycan dilini dövlət dili səviyyəsinə qaldırmaqla yanaşı, məhz həmin dildə çox gözəl, nadir bədii ustalıqla yazılmış poeziya yaratdı. Onun "Dəhnamə"si də bunun bariz nümunəsidir.

Ənəlhəqq sirri uş könlümdə gizlü
Ki, həqqi-mütləqəm, həq söylərəm mən.
...
Məhəmməd nurindən, Əli sirrindən
Həqiqət bəhri içrə gövhərəm mən.[210]

Xətai sufi mütəfəkkir Mənsur Həllacdan keçib Hz. Əliyə və bütün yaradılmışların mahiyyəti hesab edilən Məhəmməd nuruna çatdığını söyləyən bu həqiqəti öz dilində – Azərbaycan türkcəsində bəyan edir. Xalqa daha yaxın olduğuna, hakim ərəb və ya fars dilində deyil, məhz xalqın öz ana dilində ilahi həqiqətləri səsləndirdiyinə görə Xətainin poeziyası xalq yaradıcılığının, təsəvvüfün Anadolu qolunun daha da inkişaf etməsində böyük rol oynadı. Başqa sözlə desək, Xətainin görüşlərində, yaradıcılığında danılmaz bir həqiqət var: o, islamın mahiyyəti və kamilliyə aparan təsəvvüfün sirlərindən agah bir şəxs olmaqla yanaşı, milli ruha malik bir mütəfəkkirdir.

Şah Xətainin ikinci xidməti isə onun şəxsiyyətinin və şeirlərinin ələvilik təriqətinə, onun nümayəndəsi olan şairlərə güclü təsiridir. Əsas ana xətti Hz. Əlinin və əhli-beytin tərənnümü, kamilliyə, həqiqətə çatmağın onlardan keçdiyini iddia edən Şah Xətainin yaradıcılığı bu gün də ələvilər arasında mənəvi yolçuluqda, ruhani təcrübədə açar rolunu oynamaqdadır. Təbii ki, bunun ən böyük və əsaslı səbəbi yenə də onun poeziyasının xalqın öz dilində və milli ruhda olmasıdır.

[210] Şah İsmayıl Xətai. Əsərləri, Bakı: Şərq-Qərb, 2005. – 162 s.

Nəhayət, sonuncu müraciət etmək istədiyimiz şair-mütəfəkkir Nəimidən sonra hürufiliyin ən görkəmli nümayəndəsi hesab edilən İmadəddin Nəsimidir (1369-1417). Nəzərə alsaq ki, Nəsimi uzun illər ərzində diyar-diyar gəzərək hürufiliyi, öz fəlsəfi görüşlərini yayıb, bu zaman onun rolunun miqyasını təyin etmək çətin olmaz. Bununla belə, zənnimizcə, Nəsimi öz fəlsəfi görüşlərində hürufilik çərçivəsinin fövqünə qalxaraq təsəvvüfə keçib, çünki Nəsimi kimi bir mütəfəkkir təsəvvüf kimi güclü bir cərəyanın prinsiplərini bildiyi halda hürufiliklə kifayətlənə bilməzdi. Düzdür, bəzi tədqiqatçılar bu prosesin əksinə, təsəvvüfdən hürufiliyə doğru getdiyini bildirir, lakin onun şeirlərinin təhlilindən belə nəticə çıxartmaq olar ki, Nəsiminin Nəimidən daha güclü bir mənəvi mürşidi və bələdçisi də olub. Bu, özünün də etiraf etdiyi kimi, onu dara aparan düşüncələrinin mənbəyi, xüsusilə "ənəlhəq"in müəllifi, X əsr sufi mütəfəkkiri Mənsur Həllacdır:

Faş eylədim cahanda ənəlhəq rümuzunu,
Doğru xəbərdir, anın üçün dara düşmüşəm.[211]

Nəsiminin fəlsəfəsinin ana xətti Kamil İnsan ideyasıdır. Əslində, bu ideya hürufiliyin də əsas prinsiplərindən biridir. Fəzlullah Nəiminin fikrinə görə, "hərf və kəlam Kamil İnsandan ayrılmazdır", "ruh və hərf eynidir".[212] Və Nəsiminin məşhur kəlamı da mahiyyətcə fərqli görünmür:

---

[211] İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. Bakı: "Lider nəşriyatı", 2004. – 147 s.
[212] Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку: Элм, 1970, с. 126-127

Səni bu hüsni-camal ilə, bu lütf ilə görən
Qorxdular həq deməgə, döndülər insan dedilər.[213]

Bununla belə, Nəsimi əksər hallarda tövhidi – vahid olan Haqqı unutmur və zənnimizcə, onu hürufilikdən ayıran əsas məqam məhz budur:

Aləmi tövhidə çün irişdi Nəsimi,
Nar ilə nur olduvü nur nar ilə xoşdur.[214]

Düzdür, Nəsiminin ideyaları arasında o vaxta qədər məlum olmayan hər hansı bir ideya tapmaq çətindir, ancaq onun islam düşüncə tarixində, islam sivilizasiyasında öz yeri və rolu vardır. Hər şeydən əvvəl o, islam mədəni bölgəsində ilahi həqiqətlərin yayılmasında, tanınmasında müstəsna xidməti olan bir şəxsdir. Bu işin daha genişmiqyaslı olması onun poeziyasının Azərbaycan dilində olması idi. İslam dininin müqəddəs kitabı – Qurani-Kərim də, onun təfsirləri, tanınmış mütəfəkkirlərin əsərləri də ya ərəb, ya da farsca idi. Nəsimi öz şeirləri ilə, bir növ, xalq arasında sufi həqiqətlərinin, deməli, həm də islamın təbliğatçısı idi. Müəyyən müddət xalq üsyanına qoşulan Nəsimi ruhən də xalqa yaxın idi və yazdıqlarının başa düşülməsi üçün bu dildə yazması məntiqli idi.

Onu da qeyd etmək lazımdır ki, biz burada Azərbaycan mütəfəkkirlərindən yalnız az hissəsinin, daha dəqiq desək, öz əsərləri ilə düşüncə və mədəniyyət tarixində yeni bir səhifə açmağa müvəffəq olmuş şəxslərin adlarını çəkdik. Xüsusilə qeyd edək ki, bu sırada Azərbaycan dilində

---

[213] Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку: Элм, 1970, с. 262
[214] Yenə orada, s. 231

yazan mütəfəkkirlərin olması çox qürurverici faktdır. Bunlarla yanaşı, öz elmləri, poeziyaları ilə islam elmini, düşüncə tarixini zənginləşdirən neçə görkəmli şair, mütəfəkkirin yaradıcılıqları toxunulmamış qaldı. Bunlardan kəlamçı və sufi şair Baba Kuhi Bakuvinin (1050), dövrünün tanınmış alim və fəqihi Yusif Xoylunun[215] (1154), ictimai-siyasi xadim Siracəddin Urməvinin (1283), görkəmli şair-mütəfəkkirlər Xaqani Şirvaninin (1199), Şəms Məğribinin (1416), Qasimi Ənvarın[216] (1434) və daha neçələrinin yalnız adlarını çəkməklə kifayətlənməli oluruq. Halbuki onların yaradıcılığının hər biri islam xəzinəsinin əvəzsiz gövhəridir.

Azərbaycanın islam sivilizasiyasına əvəzsiz bəhrələrindən biri də, heç şübhəsiz, muğamdır. Yayılan bəzi rəylərə görə, guya islam dini musiqinin əleyhinədir. Halbuki islam nəinki belə qadağa qoymadı, hətta türk musiqisinin inkişafına yeni təkan verdi. Daha ətraflı təhlilə keçək.

Hədislərin birində deyildiyinə görə, Məhəmməd peyğəmbər (s): "Quranı gözəl səsinizlə bəzəyin",[217] – deyə buyurur. Şərhçilər bu fikri iki cür izah edir. Bir tərəfdən Quranı gözəl səslə və qiraətlə oxumaq həm də müqəddəs kitabın dinlənilməsini asanlaşdırır, onu dinləyicinin qəlbinə daha yaxın edir. Digər tərəfdən belə hesab edilir ki, Quranın oxunuşu da, öz növbəsində, səsi gözəlləşdirir. Təbii ki, gözəl avaz, xoş səs Quranın oxunuşunu daha lətif, dinləyənlər üçün daha duyğulu etsə də, o hər şeydən əvvəl bir səmavi kitabdır, düşündürmək, dərk etdirmək, riayət edilmək üçündür, yəni

---

[215] Bax: История Азербайджанской философии, т. 1.

[216] Bax: История Азербайджанской философии, т. 2.

[217] 1960 الطوسي ابو نصر السراج. حققه وقدم له وخرج أحاديثه عبد الحليم محمود المثنى ببغداد, وطه عبد الباقي سرور دار الكتب الحديثة بمصر, (Sərrac Tusi. əl-Lümə`, s. 339)

o, zövqdən əvvəl idrak üçündür. Əslində, peyğəmbər (s) də buyurur ki, “Quranın oxunuşunda bir tədbir yoxdursa, heç bir fayda verməz”.[218] Yəni hər nə qədər avaz Qurani-Kərimin mətnində, məzmununda olsa da, ön planda çatdırılan həqiqət durur, avaz isə müşayiətçidir. Müəyyən mənada təsəvvüf peyğəmbərin (s) tövsiyəsinin üzərindən çıxış edərək dini, xüsusilə Qurani-Kərimi gözəlliklə, xoş avazla, sonrakı dövrlərdə hətta musiqi ilə çatdırmağa üstünlük verdi. Oxunan müqəddəs mətnin ayələri olmasa da, onun həqiqətlərini ehtiva edən şeirlər olurdu. Düzdür, bu işdə də bəzi təriqətlər ifrata vardı, lakin klassik təsəvvüfdə peyğəmbərin (s) buyurduğu kimi, musiqi bir zövq vasitəsi deyil, yalnız həqiqətin dərkində bir vəsilə oldu. Təsadüfi deyil ki, Orta və Uzaq Şərqə də islam qılıncın gücünə deyil, əsasən, sufilərin təbliği ilə gəlib çatmışdır. Məhz bu səbəbdən islam Şərqdə yeni bir səhifə açа bildi. Yəni musiqinin köməyi ilə insanın fövqəlqüvvəsini kəşf edən, ilahi aləmdən həqiqət payını ala bilən şərqlilər, xüsusilə türklər üçün islam dini yad görünmədi. Əhəmiyyətli bir fakt kimi əlavə edək ki, islam mədəni bölgəsində musiqi bir elm kimi öyrənilir və görkəmli islam alimlərinin çoxu bu sahədə ciddi əsərlər yazırdı. Məhz bu əsərlərdəki ideyalar əsasında musiqi bir əyləncə deyil, düşüncə vasitəsi olaraq öyrənilir və tədris olunurdu. Belə alimlər sırasında, təbii ki, azərbaycanlı alimlər də vardır – Səfiəddin Urməvi (XIII əsr), Əbdülqadir Marağayi (XIV əsr), Mirzəbəy (XVII əsr), Mir Möhsün Nəvvab (XIX əsr). “Təbii ki” deyirik, çünki hər nə qədər Qurani-Kərim avazla oxunsa da, islam

---

[218] الطوسي ابو نصر السراج. حققه وقدم له وخرج أحاديثه عبد الحليم محمود المثنى ببغداد, 1960 وطه عبد الباقي سرور دار الكتب الحديثة بمصر, (Sərrac Tusi. əl-Lümə`, s. 353)

dünyasına ciddi və düşündürən musiqi türklərdən gəlirdi. Muğam məhz hikməti çatdıran həmin ciddi, düşündürən musiqidir. Muğam əsrlər boyu inkişaf edən Şərq musiqisinin Azərbaycan təfəkkürü işığında təcəllisidir. O özündə üç əhəmiyyətli komponenti birləşdirir: gözəl avaz, dərin hikmət və idrak prosesi. Muğam bir sufi və ya mərasim musiqisi deyil. O özündə milli ruhu və düşüncəni ehtiva edən, eyni zamanda islam dininin kamilliyə doğru aparan prinsiplərini mənimsəyən bir sistemdir. Təsadüfi deyil ki, muğamda başlanğıcın, zilin, bəmin, bir sözlə, hər birinin öz daxili qanunauyğunluğu vardır ki, yalnız onların izlənməsi ilə mükəmməl bir dəsgah yaratmaq mümkündür.

Muğamın maraqlı və əhəmiyyətli daha bir məqamı da onun həm də bir tarixi yaddaş olmasıdır. Belə ki, muğam adlarında onun sahibi olan millətin yaşadığı, vətən dediyi, yaxud müəyyən əlaqədə olduğu yerlərin adı əks olunub: Azərbaycan, Qarabağ, Şiraz, İsfahan, İraq, Hicaz, Şirvan və s. Məsələn, əgər "Şikəsteyi-fars"ın tarixi islamdan öncəyə gedirsə, "Qarabağ şikəstəsi"ni, "Kəsmə şikəstə"ni, yaxud "Şirvan şikəstəsi"ni daha sonrakı dövrə aid eləmək olar. Mavəraünnəhr, İraq / Bağdad, Hicaz / Məkkə, Mədinəyə yaxın olan və əhəmiyyətli bir mərkəz hesab edilən məkanlar da eyni şəkildə izah edilə bilər. Və burada artıq islamın və ümumi islam mədəniyyətinin mərkəzləri öz əksini tapmağa başlayır. Adlar vasitəsilə bir xalqın coğrafiyasını, daha sonra isə bu xalqın da daxil olduğu islam mədəniyyətinin yayıldığı sərhədləri öyrənmək mümkündür. Yerlərlə yanaşı, muğamlarda həm də millətin taleyində xüsusi rolu olmuş və ya millətin sevgisini qazanmış şəxsiyyətlər də əks olunub. Bu adlar sırasında istər hökmdarların: "Bayatı Qacar", "Şah Xətai",

“Heydəri”, istərsə də poeziyada güclü təsirə malik din xadimlərinin, imamların, sufi şeyxlərinin: “Hüseyni”, “Mənsuriyyə”, “Əbu Əta”, “Səmayi Şəms” və s. adlarını tapmaq olar. Yəni muğamların ayrı-ayrı şöbələri fərqli dövrlərdə yaransa da, ümumi təməl üzərində yazılır, əsas qaydalara tabe olurdu. Maraqlı faktlardan biri də budur ki, əsrlər sonra Şərqdə ilk muğam-operanı Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyli Azərbaycan şairi Füzulinin “Leyli və Məcnun” poeması əsasında yazdı. Əgər təkrar Məhəmməd peyğəmbərin (s) “Quranı gözəl səsinizlə bəzəyin” hədisinə qayıtsaq və onu daha geniş miqyasda götürsək, belə ifadə edə bilərik: Azərbaycan muğamı islamın bəzəyidir.

Beləliklə, Azərbaycanın islam sivilizasiyasında yeri və rolu haqqında təhlilimizə yekun vuraraq bildirək ki, burada bir neçə prinsipə riayət etməli olduq. Əvvəla, məlum olduğu kimi, islam sivilizasiyası renessansdan başlayaraq yerini Qərb sivilizasiyasına verməli oldu, yəni burada əldə olunan bütün nailiyyətlər növbəti sivilizasiya üçün zəmin oldu. Bu səbəbdən biz də yalnız islamın qızıl dövründə yaşayıb-yaratmış azərbaycanlı mütəfəkkirləri araşdırmalı olduq. İkincisi, biz diqqətimizi, əsasən, düşüncə tarixinə yönəltməli olduq. Belə ki, bizim fikrimizə görə, sivilizasiyanın təməlində duran da, onun inkişafını, uzunömürlü olmağını təmin edən də təfəkkürdür. Bu mənada islam mədəni bölgəsində yayılan təfəkkürün mahiyyətini araşdırmaqla biz mövcud mədəniyyətin, siyasətin, iqtisadi inkişafın, hətta savaşların da mahiyyətini, alt qatını öyrənmiş oluruq.

Kamal Qasımov

Müsəlmanların dünya sivilizasiyasına töhfələri

Müasir ateistlər və islamı tənqid edənlər arasında belə bir tezis məşhurdur ki, "müsəlmanlar min il ərzində dünya sivilizasiyasına yeni heç nə gətirməyiblər" [219]. Əslində isə, bu tezisin ideya qaynaqları uzaq keçmişə gedib çıxır, tezisin özü isə təkcə Qərbdə deyil, hətta Şərqdə müəyyən intellektual dairələrin arasında hələ də məşhur olan geniş diskursun bir hissəsinə çevrilmişdir. Hələ XVIII əsrin sonlarından, müstəmləkəçilik dövründən müsəlmanların elmi, fəlsəfi, hüquqi və teoloji irsi Qərb alimləri, yazıçıları, coğrafiyaşünasları və şərqşünasları tərəfindən əvvəlki dövrlərin ali sivilizasiyalarının nailiyyətlərinin yalnız imitasiyası (təqlidi) kimi qəbul edilirdi. Bir tərəfdən oriyentalizm diskursu islam memarlığında və mətnlərində ekzotika, mistika, "Şərq irrasionallığı" və oriyental gözəllik axtarırdı. Digər tərəfdən isə o, coşqu və böyük maraqla xristian-yunan sivilizasiyasının islama təsir köklərini, genealogiyasını araşdırırdı.

Şərqşünaslıq (oriyentalizm), dinşünaslıq, sosiologiya, antropologiya və elm tarixi kimi sahələr vasitəsilə tezliklə yayılan bu diskurs aşağıdakı məntiqi rəhbər tuturdu: (1) islam sivilizasiyası orijinal, yeni heç bir şeyi əhatə etmir. O,

[219] Məsələn, bax: İslamın tanınmış tənqidçisi amerikan yazıçısı Sem Harrisin tənqidi: [https://www.samharris.org/blog/item/no-ordinary-violence]

Qərb-Avropa sivilizasiyasının əsasını qoymuş digər mühüm mədəniyyətlərin yalnız öyrənilməsi üçün elmi marağa layiqdir. (2) İslam elmi və fəlsəfi təfəkkürlə bir araya sığmır və ərəb dilində orta əsrlərə aid elmi-fəlsəfi əsərlərin varlığını isə belə izah etmək olar ki, ya onların müəllifləri gizlin "eretik" idilər və müsəlman deyildilər, ya da onlar, sadəcə olaraq, yunan əsərlərini köçürüblər.

Bu fenomeni "XX əsrin İbn Rüşdü", məşhur Mərakeş filosofu Məhəmməd Abid əl-Cabiri daha dəqiq şəkildə təsvir edib. O müşahidə edib ki, həm Qərb şərqşünasları, həm də onların təsiri altında olan bir sıra ərəb liberalları ərəb-müsəlman irsinə və müasir ərəb cəmiyyətinə sırf oriyentalizm nöqteyi-nəzərindən baxırlar. Onlar ərəb-müsəlman irsinin köklərini qədim yunan, yəhudi, xristian, fars və ya hind mədəniyyətlərinə aparıb çıxarırlar. İslam irsində hər hansı orijinallığın olmadığına əvvəldən əmin olduqlarına görə onlar onda yalnız yad mədəniyyətlərin təsirlərini və izlərini axtarırlar. Bununla da eyni fikri bölüşən bəzi müasir Qərb, həm də islam ziyalıları əmindirlər ki, əgər keçmişdə islam mədəniyyəti yad sivilizasiyaların (məsələn, yunan və ya yəhudi-xristian) elementlərini yalnız qəbul edərək çiçəklənə bilibsə, onda elə indi də o, növbəti dəfə sırf Avropa təcrübəsini əxz etməklə inkişafa nail ola bilər[220].

Belə fikirlərin müəlliflərindən biri məşhur fransız samişünası, şərqşünas Ernest Renan (1823-1892) olmuşdur. Onun üçün ərəb elmi və ya fəlsəfəsi anlayışı mövcud deyildi. O hesab edirdi ki, yalnız "yunan mənşəli ərəb

[220] Muhammad Abid əl-Cabiri. Nahnu va turas [Biz və bizim irsimiz]. Dar əl-Bayda: Markaz as-saqafi al-arabi, 1993, s. 14-16.

elmindən və fəlsəfəsindən" söhbət gedə bilər, ərəblərin etdikləri isə yalnız yunan elminin və fəlsəfəsinin ərəb dilinə mexaniki tərcüməsidir. Bundan əlavə, o hesab edirdi ki, ərəb xilafətinin yaranması ilə mümkün olmuş geniş intellektual proseslərin, ideya hərəkatlarının və elmi-fəlsəfi debatların, ümumiyyətlə, islamla heç bir əlaqəsi yoxdur[221]. O bütün müsəlman filosoflarını öz dinləri ilə gizli mübarizə aparan gizli "eretiklər" hesab edirdi. İslamın elmlə bir araya sığmadığını, elmi və fəlsəfəni daim təqib etdiyini iddia edən bu tezis artıq "klassik" tezisə çevrilib, təəssüf ki, bu gün də hətta alimlər arasında özünə tərəfdarlar tapır.

Digər məşhur şərqşünas İqnas Qoldziherin yayılmasına böyük töhfə verdiyi fikir bu idi ki, islamda "ortodoksal islam"la azad düşünənlər, filosoflarla rasionalistlər arasında daim mübarizə gedib[222]. Maraqlıdır, kanadalı fizik və elm tarixçisi Müzəffər İqbalın qeyd etdiyi kimi, İqnas Qoldziher müsəlman alimlərin məhz islam ortodokslarının təqibləri qorxusundan elmə sığındıqlarını sübut etməyə var-qüvvəsi ilə çalışsa da, müsəlman alimlərin belə təqiblərdən şikayət etdiklərini təsdiq edən hər hansı mənbə göstərmir[223].

---

[221] Nelly Lahod. Islamic Responses to Europe at the Dawn of Colonialism. In: (ed.) Takashi Shogimen, Cary J. Nederman. Western political thought in dialogue with Asia. Lahnam MD: Lexingtong Books, pp. 170-172; Həmçinin baxın: Ernest Renan. Islam and Science. A lecture presented at La Sorbonne 29 March 1883. [https://www.mcgill.ca/islamicstudies/files/islamicstudies/renan_islamism_cversion.pdf].

[222] Bu fikri o "Ortodoksal islamın gədim elmlərə münasibəti" əsərində səsləndirib: "The Attitude of Orthodox Islam Toward the 'Ancient Sciences". In: Studies on Islam, (ed) Merlin L. Swartz. Oxford: Oxford University Press, 1981, pp. 185-215

[223] Muzaffar Iqbal. Islam and Science. Westport, CT and London: Greenwood Press, 2007, p. 70.

Gördüyümüz kimi, oriyentalist diskursun problemlərindən biri fərqli ictimai-siyasi mühitdə inkişaf etmiş konsepsiyaların islama, islam tarixinə və mədəniyyətinə tətbiq edilməsidir. İslamda ortodoksal islam, yəni ən mömin və ya düzgün islam anlayışı heç vaxt olmayıb, belə ki, nəyin islam olub-olmaması barədə qərar verən kilsələr də mövcud olmayıb. Orta əsr müsəlman alimi üçün islam qaydaları ilə yaşamaq və islam ayinləri ilə məşğul olmaq adi iş idi (çoxsaylı misallar arasında İbn Sina, əl-Qəzali, İbn Rüşd və başqalarını göstərmək olar).



Sokrat şagirdləri ilə. XIII əsrə aid miniatür. İstanbul, Topqapı Muzeyi

Bu fəsildə ikili ziddiyyətlərin və dixotomiyaların, eləcə də müxtəlif sivilizasiyaların bəşəriyyətin inkişafına verdiyi töhfələri "yüksək" və "aşağı", "mühüm" və "cüziyə" bölən ideoloji konstruksiyaların hüdudlarından kənara çıxmağa çalışacağıq. Qeyd edilməlidir ki, islam dünyasında müstəmləkəçilik əleyhinə hərəkatların, eləcə də humanizmi daim müdafiə edən, humanitar elmlər üzrə tədqiqatçıların sayəsində bu gün oriyentalizm üzərində qurulan konsepsiyalar və dünyagörüşlər tənqid edilmiş və yenidən şərh edilmişdir. Bu fəslimizdə göstərəcəyik ki, mədəniyyətlərin imitasiyasından daha çox onların qarşılıqlı təsiri və dialoqu barədə danışmaq tarixən məqsədəuyğundur. Axı 750-1000-ci illər arasında müsəlman alimləri yunan məxəzlərini öyrənir, təfsir edir, şərh edirdilərsə, 1100-1350-ci illər arası

dövrdə avropalılar müsəlmanların əsərlərini latıncaya çevirərək müsəlmanlardan öyrənməkdə davam edirdilər[224]. Fikrimizcə, islam və onun sivilizasiyasının tarixi müsəlmanların öz ənənələri və fərqli mədəniyyətlərin ənənələri ilə sonsuz, mürəkkəb və çoxaspektli dialoq kimi dərk edilməyə çalışılarsa, ağ-qara düşüncə tərzini aradan qaldırmaq mümkün olar. Böyük islam sivilizasiyası imitasiya və ya mexaniki təqlidlə deyil, məhz bu cür yaradıcı dialoqun nəticəsində ortaya çıxıb. Bu sivilizasiyada hamıya – ilahiyyatçılara, astronomlara, qazilərə, fiziklərə, fəqihlərə, kimyagərlərə, müfəssirlərə, mühəndislərə yer olub. Böhran və intellektual durğunluğa gəlincə isə o, belə dialoqun kəsildiyi, bu cür dialoq ənənələri üçün ab-havanın və şəraitin yox olduğu andan başlayır.

Elmi kəşflər mədəniyyətlərarası dialoqun nəticəsidir

Orta əsrlərdə tarixçilər arasında uzun müddət belə bir avropasentrik yanaşma yayılmışdır: Avropa elminin inkişafı yunan və Roma alimlərinin sayəsində baş verirdi. Bundan əlavə, İntibah dövrünə (Renessans) qədər tarixin "qara" epoxası davam edirdi. Bu yanaşma elə bir təsəvvür yaradır ki, sankı İntibah dövrü qədim yunan və Roma imperiyasının

[224] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу. Москва: «Наука», 1976, с. 17.

elmi mirasının birbaşa davamıdır və sanki 300-cü ildən 1500-cü ilə qədər heç bir epistemoloji və metodoloji ənənə mövcud olmamışdır və elmi biliklərin ötürülmə prosesi baş verməmişdir. Yəni sanki İntibah dövrü bir boşluqdan əmələ gəlmişdir. Bu kontekstdə müsəlmanların dünya sivilizasiyasına və elmə verdiyi töhfələri nəzərə almadan müasir dünyanın tarixini və İntibah dövrünə gətirən hadisələri geniş şəkildə anlamaq mümkün olmayacaq. Əgər "orta əsrlər", əsasən, Qərb tarixçiliyində "qara çağlar" kimi adlanırsa, müsəlman dünyasında bu dövr – daha dəqiq V-XV əsrlər – islam sivilizasiyasının "qızıl dövr"ü kimi tanınır. Təqribən VIII əsrin əvvəlindən etibarən islam dünyasında müxtəlif elm sahələrinin inkişafı başladı. Xəlifələr biliyin himayə edilməsi, artırılması və yayılmasında maraqlı idilər, alimləri yüksək qiymətləndirir və onlar üçün lazımi şərait yaradırdılar. Biliklərə yiyələnməyə maraq müqəddəs Quranın və ərəb dilinin öyrənilməsi ilə başlandı. Müsəlmanlar Quranı və peyğəmbərin hədislərini əzbərdən yadda saxlayır, onun həyatını və təlimlərini öyrənirdilər. Şübhəsiz ki, islam dininin müəyyən xüsusiyyətləri elmin inkişafına töhfə vermişdir. Məsələn, müsəlman alimləri, xüsusən kəlamçılar *(mütəkəllimun)* və fəlsəfəçilər *(fəlasifə)* tez-tez elm öyrənməyin faydalarından danışarkən Quranın təbiəti öyrənmək və təbiətdə gedən müxtəlif prosesləri müşahidə etmək çağırışlarına işarə edirdilər. Quran açıq şəkildə insanları onların ətrafında gedən bütün prosesləri öyrənməyə, elmi biliklər əldə etmək üçün səfərə çıxmağa və daim düşünməyə çağırır: "Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində, içərisində insanlar

üçün mənfəətli şeylər olan gəmilərin dənizlərdə üzməsində, quruyan yer üzünü Allahın göydən yağmur yağdıraraq yenidən diriltməsində, cins-cins heyvanları onun hər tərəfə yaymasında, göylə yer arasında ram edilmiş küləyin və buludların bir səmtdən başqa səmtə döndərilməsində (Allahın hikmət və qüdrətinə dəlalət edən) əlamətlər vardır" (2:164); "Göyə (baxmırlar ki) necə ucaldılmışdır? Dağlara (baxmırlar ki) necə dikəldilmişdir? Və yerə (baxmırlar ki) necə döşədilmişdir?" (18:20)[225]. Məhəmməd peyğəmbər isə öz hədislərində müsəlmanları bilik uzaq Çində də olsa, onun dalınca yollanıb əldə etməyə çağırırdı. Peyğəmbər deyirdi: "Kim bilik almaq üçün yola çıxarsa, o, geri dönənəcən Allah yolundadır" və "Bilik dalınca düşənlərə Allah yardım edər". Həmin mövzuda onun belə hədisləri də var: "Bilik axtarmaq hər bir müsəlmanın [kişi və qadının] borcudur"; "Sizin yanınıza elm tələb edən insanlar gələcək, onları görərkən "Xoş gəlmisiniz, xoş gəlmisiniz" deyin"; "Elmin fəziləti ibadətdən üstündür"[226]. Mühüm budur ki, peyğəmbər bilik qazanmaq üçün hətta uzaqlara getməyə çağırış edəndə o, biliyi təkcə dini mənada deyil, geniş mənada nəzərdə tuturdu. Belə ki, dini biliyi hər hansı səfərə çıxmadan belə elə Məkkə və Mədinədə asanlıqla almaq mümkün idi.

Misir və Bizans imperiyasının bəzi ərazilərinin işğalından sonra müsəlmanlar Cündişapurda, Harranda və İsgəndəriyyədə mövcud olan elm müəssisələri ilə tanış oldu-

[225] Quran ayələri akademik Ziya Bünyadov və Vasim Məmmədəliyevin tərcüməsində verilir.

[226] Əbu Süleyman əl-Muxtar b. əl-Arabi Mömin əl-Şanqiti. Elmin öyrənilməsinə aid 40 hədis, al-alukah.net, 2012 [http://www.alukah.net/sharia/0/39856/]

lar. Qeyd edək ki, ərəblərin gəlməsindən və xilafətin yaradılmasından sonra Suriyada, İraqda və İranda olan intellektual mühit heç də pozulmamışdır. Məsələn, İsgəndəriyyə fəlsəfi məktəbi bir müddət hələ də fəaliyyət göstərirdi. İranın cənubunda Cündişapur tibb məktəbi də funksiyasını davam etdirirdi[227]. Ərəb xilafətinin xüsusiyyətlərindən biri o idi ki, müxtəlif sahələrin mütəxəssisləri bir-birindən təcrid olunmamışdılar və davamlı ünsiyyətdə idilər. Teoloqlar, mühəddislər, müfəssirlər, fəqihlər, filosoflar, sufilər, həkimlər və məntiqçilər – hamısı daim bir-biri ilə elmi müzakirələr aparır, təmasda olur və öyrənirdi[228]. İslam dünyasında bir çox mütəfəkkirlər dövlət işləri, tibb, astronomiya, mexanika, musiqi və s. ilə məşğul olmuşlar. Onların elmə və fəlsəfəyə marağı bu məşğuliyyətlərin davamı olmuşdur ki, bu da onların dünyagörüşlərinə ciddi təsir etmişdir.



Əl-Cəzarinin 1206-cı ildə ixtira etdiyi daimi hidravlik nasosun sxemi

Əməvilərin vaxtında xristian həkim İbn Üsal xəlifə sarayının rəhbəri təyin olunmuşdur. O, xəlifə Müaviyə ibn Əbu Sufyan üçün ərəb dilinə bir neçə tibbə aid elmi əsər tərcümə etmişdir. Müaviyənin nəvəsi Xalid ibn Yəzid isə xristian

[227] Albert Hourani. A history of the Arab peoples. London: Faber and Faber, 2005, p. 75.
[228] Marhsall G. S. Hodgson. The Venture of Islam. Vol. 2. Chicago: The University of Chicago Press, 1974, pp. 152-153.

rahibi Miryanisdən kimya dərsi almışdır[229]. Onun rəhbərliyi altında tibbə dair mühüm risalələr Suriya dilindən ərəb dilinə tərcümə edilmişdir. Hərçənd islam dünyasında elmin inkişafı VIII əsrdə başlamışdı, növbəti iki əsr bu inkişafın əsl qızıl dövrü idi. Həmin müddət ərzində, demək olar ki, elmin bütün sahələri Abbasi xəlifələrin himayəsi altında inkişaf edirdi. Bu inkişafın iki mühüm səbəbi var idi: imperiyanın elitasını və elmi təbəqəsini birləşdirən vahid dil və xəlifələrin praqmatizmi. Ərəb dilinin geniş istifadəsi biliklərin islam ölkələrində yayılmasına şərait yaradan amillərdən biri idi. Öməvi xəlifə əl-Vəlid ibn Əbdülməlikin hakimiyyəti dövründə (705-715) ərəb dili xilafətin ərazilərində sürətlə yayılırdı və demək olar ki, dövlət dili statusunu almışdı. Abbasilər dövründə isə ərəb dili Quran, hədis və poeziya dilindən xilafətin bütün alimləri üçün ortaq dilə *(lingua franca)* çevrilmişdir. Müxtəlif etnosları, dinləri və mədəniyyətləri birləşdirən xilafətin ərazisində ərəb dili müsəlman dünyasını birləşdirən mühüm ictimai və mədəniyyətlərarası funksiyaları icra edirdi. Vahid ünsiyyət vasitəsinin formalaşması biliyin ötürülməsi və elmi informasiya mübadiləsi prosesini olduqca sürətləndirdi. Tərcüməçilər hərəkatına təkan verən və islam dünyasının müxtəlif bölgələrindən alimləri və tərcüməçiləri bir araya gətirən xəlifə Məmunun təsis etdiyi Hikmət evi *(Beyt əl-Hikmə)* islam dünyasının ən mühüm mədəni hadisələrindən və fenomenlərindən sayıla bilər[230]. Bu elmi-mədəni ocaq islam dünyasının ən parlaq

[229] Arshad Islam. The contribution of Muslims to science during the Middle Abbasid Period (750-945) // Revelation and Science Vol. 01, No. 01 (2011), p. 41.
[230] Majid Fakhri. A history of Islamic Philosophy. New York: Columbia University Press, 2004, pp. 4-5.

yəhudi, xristian və müsəlman beyinlərini bir araya toplayaraq böyük tədqiqatların və mühüm elmi müzakirələrin aparılmasına şərait yaratdı.

Geniş tərcümə hərəkatı elmin inkişafına böyük təkan verdi[231]. Ərəb dilinə tərcümə edilmək üçün seçilmiş ilk yunan əsərləri o əsərlər idi ki, onların mövzuları, tədqiqat obyektləri ərəblər üçün mühüm maraq kəsb edirdi. Xüsusilə tibb və astronomiya kimi praktik elmlərlə bağlı əsərlər bu qəbildən idi. Məsələn, astronomiya sayəsində müsəlmanların namaz vaxtı döndükləri Məkkənin istiqamətini müəyyən etmək olurdu. Riyaziyyat da praktik şəkildə tətbiq olunurdu; ərəb alimləri öz ilk addımlarını məhz bu sahədə atmışdılar[232].

Geniş tərcümə prosesinin nəticəsində alimlər, filosoflar, riyaziyyatçılar və astronomlar ərəb dilinə tərcümə olunmuş yunan və latın mənbələri ilə yanaşı, fars və hind mənbələrini də əldə edə bilmişdilər. Ərəb dilinə tərcümə edilənlər içərisində Pifaqor, Platon, Aristotel, Arximed, Qalen, Hippokrat, Evklid kimi antik dövrün alimlərinin əsərləri var idi. Bu əsərlərə çoxcildli şərhlər yazılmış, antik filosofların ideyaları islam ənənəsi işığında yaradıcı şəkildə izah edilmiş və sonrakı inkişafına nail olmuşdur. Belə ki, daim mədəni və elmi mübadilədə olan müsəlman alimləri elmin müxtəlif sahələrinə aid qiymətli əsərlər ortaya qoymuşlar və elmə dəyərli töhfələr vermişlər. Lakin bəzi tarixçilər müsəlmanların yunan, fars, hind və digər elmi mirası tədqiq

[231] Hala Khalidi, Basma Ahmad, Sedki Dajani. Facets from the Translation Movement in Classic Arab Culture // Procedia - Social and Behavioral Sciences Vol. 205, 2015, p. 570.
[232] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 54

etməsinə və tərcüməsinə sivilizasiyalararası elmi-mədəni mübadilə, dialoq prosesi kimi baxmırlar. Məsələn, Qoldziher yuxarıda qeyd etdiyimiz özünün "Ortodoksal islamın "qədim elmlər"ə münasibəti" əsərində yazır ki, islam dünyasında elmlə kiçik xristian və yəhudi qrupları məşğul olurdu. Həmin dövrdə müsəlman cəmiyyəti və islamın özü, adətən, elmlərin öyrənilməsinə qarşı idi. Onun fikrincə, elmlə məşğul olan müsəlmanlar təqib edilir, hətta edam edilirdilər. Qoldziher burada eynilə Renan, Bernar Kara de Vo və bir sıra müasir şərqşünaslar kimi oriyentalizm nöqteyi-nəzərindən çıxış edirdi. Bu nöqteyi-nəzərə görə, xəlifə əl-Məmunun (ö. 833) hakimiyyət illərində öz zirvəsinə çatmış elm və tərcümə fəaliyyətləri qısa dövrdən sonra dərin tənəzzülə başlayıb.

Qeyd edək ki, həmin avropasentrik tezis görkəmli alim Əbdülhəmid Sabra tərəfindən sistemli şəkildə tənqid olunmuşdur. Sabra "Yunan elminin orta əsr islam tərəfindən mənimsənilməsi və naturalizasiyası: ilkin tezis" adlı konseptual məqaləsində yazır ki, "Biz yunan-ərəb elminin və fəlsəfəsinin ötürülməsi kimi bildiyimiz fenomen, əslində, çox mürəkkəb bir proses idi. Bu prosesdə tərcümə çox vaxt əvvəlki akademik ənənənin interpretasiyasının və yeni formalaşan ərəb dilinə və islama aid fənlərin terminlərinin təsiri altına düşür"[233]. Belə bir yanaşma tərcüməyə yeni mətn kimi baxır, çünki hər hansı tərcümə yeni ictimai-mədəni kontekstə uyğunlaşmaqdır ki, bu da, öz növbəsində, yeni şərhlər, düşüncələr, ideyalar və həm də mətnlər yaradır.

[233] A. I. Sabra. The Appropriation and Subsequent Naturalization of Greek Science in Medieval Islam: A Preliminary Statement // History of Science, Vol. 25, p. 224-225.

Tərcümə prosesinə tarixi aspektdə baxılarsa, görmək olar ki, o, müsəlman alimlərin sanskrit, yunan, süryani və pəhləvi (orta fars) dillərindəki mətnlərlə düşüncəyə əsaslanan və yaradıcı dialoqudur. Tərcümələr müxtəlif elmi dairələrdə həyata keçirilərdi. Bir sıra kitablar müxtəlif şəxslər tərəfindən bir neçə dəfə tərcümə edilmişdir. Bir çox mühüm mətnləri şərhlərlə və izahatlarla (haşiyələrlə) birlikdə oxuyardılar. Bütün bunlar ondan xəbər verir ki, müsəlman alimləri sadəcə bilikləri mexaniki şəkildə ötürmürdülər, onları yenidən dərk edir, onlara yeni mənalar verir, yeni tərcümələrin əsasında mühüm elmi nəticələr çıxarırdılar. Məsələn, Ptolemeyin "Almagest"[234] və Evklidin "Elementlər"i bir neçə dəfə ərəb dilinə tərcümə edilmişdir[235]. Dahi riyaziyyatçı Əl-Xarəzminin "Kitab əl-cəbr" əsəri müxtəlif bilik mənbələrinin maraqlı və uğurlu inteqrasiyasına bariz nümunədir. Əl-Xarəzmi öz əsərində yunan və hind riyazi konsepsiyalarını birləşdirərək mühüm nəticələrə gəlmiş və bunları ərəbcə qələmə almışdır.

Tərcümə prosesi və elmi mübadilənin sürətlə inkişaf etməsinə təkan verən başqa amil o idi ki, islam dünyasının bütün əyalətlərində bir-biri ilə sıx əlaqədə olan elmi dərnəklər və kitabxanalar təsis edilmişdir. Onu da qeyd edək ki, islam dünyasında məscidlər, mədrəsələr və kitabxanalar təkcə elmin öyrənilməsi, kitabların saxlanılması və mütaliəsi işinə xidmət etmirdi. Onlar həm də elmi yığıncaqların və

---

[234] C. M. Linton From Eudoxus to Einstein: A History of Mathematical Astronomy. Cambridge: University of Cambridge, 2004, p. 88.

[235] Roshdi Rashed. Greek into Arabic: Transmission and translations. In: (ed.) Richard M. Frank, James Edward Montgomery. Arabic Theology, Arabic Philosophy: From the Many to the One. Leuven: Peeters, 2006, p. 190

diskussiyaların keçirildiyi məkan idi[236]. Bağdad, Dəməşq və Qahirədə yazılan kitablar ticarət karvanları və səfər edən alimlər vasitəsilə bir neçə müddət ərzində islam dünyasının qərb regionlarına – məğribə qədər gedib çıxırdı. Ərəb dilinə, Quranın təfsirinə, peyğəmbərin hədislərinə, islam hüququna (fiqhə), alimlərin və hökmdarların tərcümeyi-hallarına, coğrafiyaya və başqa elmlərə aid minlərlə kitab xilafətin ən uc-qar şəhərlərinə tez bir zamanda çatırdı. Xilafətin siyasi elitası elmin inkişafında birbaşa maraqlı idi və buna görə alimlərə dəstək və bilik almaq üçün geniş imkanlar yaradırdı. Bütün bu amillər xilafətdə ictimai və elmi fikrin güclü inkişafına səbəb olmuş, fəlsəfəyə və təbiət elmlərinə maraq oyatmışdır. Müsəlman alimlərin müxtəlif bilik sahələrində nailiyyətləri şəhərsalmanın, hərb sənətinin, dənizçiliyin, iqtisadi və sosial münasibətlərin inkişafına geniş töhfə vermişdir.

Belə ki, biz ayrı-ayrı elm sahələrini qeyd edərək əvvəlcə müsəlmanların o elmləri başqa mədəniyyətlərdən yaradıcı şəkildə ötürməsindən, müxtəlif dillərdən elmi mətnlərin tərcüməsindən və elmi töhfələrin verilməsindən danışacağıq. Bundan sonra avropalılar tərəfindən müsəlmanların onlara ötürdüyü biliklərin necə assimilyasiya (özününküləşdirildiyini) edildiyini və daha sonra isə onların özləri tərəfindən yenidən yaradıldığını qeyd edəcəyik.

[236] Hedi BenAicha. Mosques as libraries in Islamic civilization: 700-1400 A.D. // The Journal of Library History, 21 (2), 1986, p. 253-260.

Müsəlman alimləri dünya elmində

Abbasilərin hakimiyyəti dövründə riyaziyyata böyük maraq ticarətin, memarlığın, astronomiyanın, coğrafiyanın və başqa elm sahələrinin inkişafının nəticəsi olaraq yaranmışdır. Qədim yunan, fars və hind mütəfəkkirlərinin traktatları ərəb dilinə tərcümə edilirdi. Evklidin "Elementlər" və Gerasalı Nikomaxusun "Hesaba giriş" kimi əsərlərinin ərəb dilinə tərcümələri müsəlman riyaziyyatçılar üçün böyük əhəmiyyət kəsb edirdi. Bu tərcümələrə əsaslanaraq onlar Evklid və Nikomaxusun nəzəriyyələrini əsaslı şəkildə öyrənib müəyyən qədər genişləndirə biliblər. Bu kontekstdə başqa bir misal da gətirmək olar – sabiilərin dinində olan riyaziyyatçı Sabit ibn əl-Qurra (ö. 901) Nikomaxusun əsərinin böyük hissəsini tərcümə etmiş[237] və məşhur tərcüməçi və alim İshaq ibn Huneynin (ö. 910) Evklidin "Elementlər" əsərinin tərcüməsini redaktə etmişdir[238].

Müsəlmanların hesab elmində ən mühüm nailiyyətlərindən biri Ömər Xəyyam (ö. 1130) və Nəsirəddin Tusi (1201-1274) tərəfindən irrasional ədədlər anlayışının inkişaf etdirilməsi idi. Ömər Xəyyamın əsərlərində geometrik məsələlərin cəbri metodlarla həllinə cəhd edilir. Buna görə də bəzi elm tarixçiləri onu "Dekartın uzaq sələfi"

[237] Max Meyerhof. Science and Medicine. In: (ed.) Sir Thomas Arnolad. The Islamic Art and Architecture. New Dehli: Goodword Books, 2003, p. 364.
[238] Roshdi Rashed. Classical Mathematics from al-Kwarazmi to Decartes. New York: Routledge, 2015, p. 53.

adlandırırlar[239]. Nəsirəddin Tusi isə Evklidin geometriya barədə əsərlərinin o dövrlər üçün ən yaxşı izahını vermiş, onun əsərlərinə bir sıra əlavələr etmiş və paralel xətlər nəzəriyyəsinin sonrakı inkişafına töhfə vermişdir[240]. Onluq hesablama sisteminin yayılması müsəlman alimlərin riyaziyyata böyük töhfəsidir. Onu da qeyd edək ki, avropalılar "ərəb rəqəmləri" kimi tanınan, amma əslən Hindistandan gələn sistemlə ensiklopedist alim Məhəmməd ibn Musa əl-Xarəzminin (ö. 847-dən sonra) tərcümələri vasitəsilə tanış olmuşlar. Onun "Hind hesabı əsasında toplama və çıxma barədə kitab"ı yalnız latıncaya tərcümədə bizim zamanımıza gəlib çatmışdır. Həmçinin Əl-Xarəzmi avropalıları cəbrlə (əl-cəbr) və say sistemində hesablama ifadə edən "alqoritm" məfhumu ilə tanış edən "Kitabül müxtəsər fi hesabil cəbri muqabələ" ("Cəbr və tənlik haqqında müxtəsər kitab") adlı kitabın müəllifi idi[241]. Digər müsəlman alimi Qiyasəddin Cəmşid əl-Kaşi (ö. 1429) avropalı alimlərdən iki əsr öncə onluq kəsrləri tətbiq etmişdir[242].



Əl-Xarəzminin cəbr kitabının bir səhifəsi

[239] Roshdi Rashed. Classical Mathematics from al-Kwarazmi to Decartes, p. 153.
[240] Carl B. Boyer, Uta C. Merzbach. A History of Mathematics. New Jersey: John Willey and Sons, third edition, 2011 p. 220-221.
[241] Baron Carra De Vaux. Astronomy and Mathematics. In: (ed.) Sir Thomas Arnold. The Islamic Art and Architecture, p. 381-386.
[242] Carl B. Boyer, Uta C. Merzbach. A History of Mathematics, p. 222.

İstedadlı riyaziyyatçı və astronomlardan biri də Qərbdə daha çox *Albategnius* (əl-Bəttani) kimi tanınmış suriyalı Məhəmməd ibn Cabir ibn Sinan (ö. 929) olmuşdur. O, triqonometriyanın əsaslarını qoymuş, triqonometrik funksiyaları – sinus, tangens, kotangens – ilk dəfə istifadə etmiş, ekvatora doğru ekliptik mailliyin bucağını yeni və daha dəqiq şəkildə hesablamışdır[243]. Əbülvəfa Məhəmməd əl-Büzcani (ö. 998) və Əbu Bəkr əl-Kəraçi (ö. 1030) riyaziyyatın inkişafında böyük xidmətlər göstərmişdir. Əl-Büzcani Ptolemeyin "Almagest" əsərinə yazdığı şərhində öz zamanının, demək olar ki, bütün əsas astronomik biliklərini əks etdirib. Əl-Kəraçi isə özünün məşhur "Fəxri" əsərində kvadrat tənliklərin həlli yollarını və ikinci dərəcədən yuxarı köklərin hasil edilməsi üsullarını araşdırmışdır[244].

Qeyd etdiyimiz kimi, astronomik tədqiqatlar həm müsəlman elitası, həm də sadə müsəlmanlar üçün ilk öncə praktik xarakter daşıyırdı. Buna görə bir çox görkəmli riyaziyyatçı, filosof və coğrafiyaşünaslar astronomiya ilə ciddi şəkildə məşğul olurdular. Astronomiya ərəblərin marağını cəlb etdikcə onlar həm yunan və süryani dillərindən, həm də sanskrit və pəhləvi dillərindən tərcümələr etməyə başladılar. Əsas nəzəri əsər Ptolemeyin "Almagest"i (ərəbcə: "Əl-Məcisti") hesab edilirdi. Lakin sonralar ərəblər Ptolemey sisteminin zəifliyinə əmin olduqdan sonra onu tənqid etdilər[245]. Müsəlman alimlər tərəfindən yazılan astronomiya elminə aid əsərlər Nikolay Kopernik (ö. 1543) və Qalileo

[243] Baron Carra De Vaux. Astronomy and Mathematics. In: (ed.) Sir Thomas Arnold. The Islamic Art and Architecture, p. 388-389.
[244] Roshdi Rashed. Classical Mathematics from al-Kwarazmi to Decartes, p. 119.
[245] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 55-56.

Qaliley (ö. 1642) kimi avropalı alimlərin elmi araşdırmalarına da təsir etmişdir. Məsələn, İbrahim əl-Fəzari (ö. 777) öz oğlu – məşhur astronom Məhəmməd ibn əl-Fəzari ilə birgə astronomiyaya aid "Sindhind" *("Sidhanta")* kitabını sanskrit dilindən ərəb dilinə tərcümə etmişdir[246].

Əl-Fəzari *üstürlabı* – ulduzların vəziyyətini müəyyən etmək üçün bucaqölçən cihaz ixtira etmiş, sonralar Əndəlüs alimi İbrahim əz-Zərqəli (ö. 1087) bu cihazı təkmilləşdirmişdir. Təkmilləşdirilmiş cihaz "düz üstürlab" adlanırdı və bir neçə əsr boyunca səyyahların və astronomların ehtiyaclarını ödəmişdir. Digər müsəlman alimi, Hikmət evində elmi araşdırmalarla məşğul olan Əhməd əl-Fərqani (Avropada *Alfraganus* kimi tanınır) Günəşdə ləkə aşkar etmiş və səma sferaları, göy cisimlərinin hərəkəti barədə əsərlər yazmışdır[247]. "Astronomiya elementləri" əsəri XII əsrdə latın dilinə çevrilmiş, Avropa məktəblərində dərs vəsaiti kimi istifadə olunmuş və XVI əsrə qədər avropalı astronomların stolüstü kitabı olmuşdur. Bu kitabda əl-Fərqani Yerin kürə formasında olması



İstanbul rəsədxanası. "Şahnamə" əlyazmasından miniatür, 1404, İstanbul Universitetinin mərkəzi kitabxanası

[246] Thomas Hockey et al. (eds). Biographical Encyclopedia of Astronomers. New York: Springer, 2007, p. 362.
[247] Yavuz Unat. Alfarganus and elements of Astronomy. Manchester: FSTC, 2007, p. 6-7.

faktını sübut edir və planetin ölçüsü barədə qiymətli mülahizələr paylaşır. Əl-Fərqaninin əsərləri Kolumb və digər səyyahları coğrafi kəşflərə təşviq etmişdir[248].

Astronomiya sahəsində əndəlüslü alim – orta əsrlərdə Avropada *Geber Hispalensis* kimi məşhur olan Cabir ibn Əflah (ö. 1150) da mühüm nailiyyətlərə imza atmışdır. "İslah əl-macisti" ("Ptolemeyin "Almagest" əsərinin təshihi") kitabında "Almagest" əsərində buraxılmış bir sıra səhvlərin düzəldilməsində onun xidməti olmuşdur[249]. Digər əndəlüslü astronom, məşhur islam humanist filosof İbn Tufeylin tələbəsi Nurəddin Əbu İshaq əl-Bitrucinin (ö. 1204) latın dilinə tərcümə edilmiş əsərləri Avropada çox məşhur idi. Ümumən, əl-Bitrucinin kitabını XII əsrin əndəlüslü aristotelçi filosoflar (İbn Bacca, İbn Tufeyl, İbn Rüşd, Maymonid və b.) tərəfindən Ptolemeyin "Almagest" əsərində həndəsi modellərin fiziki çətinliklərini aradan qaldırmaq və kosmosu aristotelçi, ya neoplatonçu fizikaya müvafiq olaraq təsvir etmək səylərinin son davamı kimi hesab etmək olar. O, Ptolemeyin planetlərin hərəkəti nəzəriyyəsini tənqid edərək göy cisimlərinin hərəkəti ilə bağlı yeni nəzəriyyə ortaya qoymuşdur. Ay kraterlərindən biri onun şərəfinə *Alpetragius* adlandırılmışdır. Müsəlman alimlər tərəfindən çoxlu ulduz kəşf edilmiş və adlanmışdır. Aldebaran, Bətəlqeyzə, Deneb, Əltair və onlarla başqa adlar avropalılar tərəfindən ərəb dilindən əxz edilmişdir. Astronomik istilahlar olan zenit, azimut, alidada və başqaları ərəb mənşəlidir. Müsəlman alimlər

[248] Yavuz Unat. Alfarganus and elements of Astronomy, p. 13; Silvio A. Bedini (ed). The Christopher Columbus Encyclopedia, Macmillian Publishers, 1992, p. 14.
[249] Thomas Hockey et al. (eds.). The Biographical Encyclopedia of Astronomers. New York: Springer, 2007, pp. 581-582

hava şəraitini təsvir və məhsuldarlığın astronomik hadisələrdən asılılığını qeyd edən “manax” adlanan təqvimlər hazırlamışlar. Bu nəşrlərin adından da “almanax” sözü yaranmışdır[250].

Böyük ensiklopedist alim Əbu Reyhan əl-Biruni (ö. 1048) 150-dən çox əsərin müəllifi idi. Təkcə astronomiyaya əl-Biruni 35 elmi əsər həsr etmişdir[251]. O, ekvatora doğru ekliptik mailliyin bucağını və Yerin radiusunu hesablamış, Ayın tutulmalarda rəng dəyişməsinin, gün tutulmalarında isə Günəş tacının təsvirini vermişdir[252]. Əl-Biruni orta əsr Şərqində ilk dəfə olaraq Yerin Günəş ətrafında fırlanması ehtimalını irəli sürmüşdür. Onun əsərlərində riyaziyyat, astronomiya, fizika, coğrafiya, ümumi geologiya, mineralogiya, botanika, etnoqrafiya, tarix və xronologiya məsələləri şərh edilirdi[253]. Əl-Biruni özünün traktatlarının birində coğrafi uzunluqların müəyyən edilməsi metodunu yaratmış, eləcə də Yer çevrəsinin uzunluğunu təyin etmişdir. Əl-



Ayın fazalarının izahı, əl-Biruni

[250] Salim Ayduz. Glances on Calendars and Almanacs in the Islamic Civilization. FSTC, 2007.
[http://www.muslimheritage.com/article/glances-calendars-and-almanacs-islamic-civilization]
[251] Salah Zaimeche. A review on Muslim Contribution to Astronomy. Manchester: FSTC, 2002, p. 6
[252] Seyyed Hossein Nasr. An Introduction to Islamic Cosmological Doctrines. London: Thames and Hudson, 1978, p. 120
[253] Amelia Carolina Sparavigna. The Science of al-Biruni. PHILICA N 443, 2014.

Biruni mineralogiyaya dair əsərlərində təkcə kifayət qədər dəqiq riyazi sabitlər (kəmiyyətlər), məsələn, mineralların nisbi sıxlıqlarının müəyyən edilməsini təqdim etməmiş, həm də onların yayılmasını (habelə filizlərin, metalların və xəlitələrin yayılmasını) müəyyən etmiş, onların iqtisadi dəyəri və emalı vasitələri barədə fikirlər söyləmişdir. Əl-Biruni "Qədim xalqların xronologiyası" əsərində Yaxın Şərqin müxtəlif xalqlarının təqvim sistemini təsvir etmişdir. O coğrafi biliklər bu elmin ərəbdilli mühitdə uğurlarının göstəricisi idi. Belə ki, Cənubi Asiya, Afrika və Avropa ölkələri ilə geniş ticarət əlaqələri coğrafi və etnoqrafik axtarışları inkişaf etdirmişdir. Əl-Biruni Hindistanda yaşayarkən sanskrit dilini öyrənmiş, bu ölkə haqqında böyük əsər yazmışdır[254]. Həmçinin qeyd edilməlidir ki, əl-Biruni antik alimlərin bəzi əsərlərini sanskritə çevirərək ilk dəfə hind alimlərini qədim yunan riyaziyyatının və astronomiyasının nailiyyətləri ilə tanış etmişdir.

Qədim yunan filosoflarının əsərləri ilə tanışlıq islam dünyasında fəlsəfi fikrin inkişafına təkan verdi. Qədim ellin dünyagörüşünün təsiri altına düşən alimlər öz mühakimələrində antik fəlsəfənin prinsiplərinə istinad edirdilər. Ərəb dilində yazılmış ilk orijinal fəlsəfi əsərlər Yaqub ibn İshaq əl-Kindiyə (ö. 866) aiddir. Sokratın, Platonun və Aristotelin baxışlarının qiymətləndirildiyi bu əsərlər ərəb-müsəlman fəlsəfəsinin təşəkkül tapmasına kömək edib. Məhəmməd əl-Fərabi (ö. 950) və daha çox *Avisenna* kimi tanınmış İbn

[254] Seyyed Hossein Nasr. An Introduction to Islamic Cosmological Doctrines. London: Thames and Hudson, 1978, p. 125-126; 147-149.

Sina (ö. 1037) bu fəlsəfənin inkişafına böyük töhfə vermişlər. Antik mütəfəkkirlərin irsini öyrənərək onlar özlərinin neoplatonizmə yaxın fəlsəfi konsepsiyalarını hazırlamışlar.

Məşhur Əndəlüs maliki məzhəbi üzrə görkəmli hüquqşünas və eyni zamanda filosof İbn Rüşd (ö. 1198) Aristotelin ilk orta əsr şərhçisi hesab olunur[255]. Onun əsərlərinin təsiri ilə Fransada "Latın averroizmi" (İbn Rüşdün latınca adı *Averroesdir*) – latın ibnrüşdçülüyü kimi məşhur olan bir cərəyan ortaya çıxmışdır. Digər tərəfdən onun əsərləri Böyük Albert (ö. 1280) və Akvinalı Foma (ö. 1274) kimi mütəfəkkirlərin fəlsəfi baxışlarının formalaşmasına kömək etmişdir[256]. Maraqlıdır ki, İbn Rüşdün həqiqətə çatmaq üçün iki yolun mövcud olduğunu və onların ikisinin də hədəfə apardığını ifadə edən fikri Qərbdə düzgün başa düşülməmişdir. İbn Rüşdün latın və ibricəyə tərcümələri əsasında belə anlaşılıb ki, burada söhbət ikili və ya ikiqat həqiqət nəzəriyyəsindən gedir. Yəni fəlsəfənin də, dinin də öz həqiqət kriteriyaları vardır, müəyyən ideya fəlsəfədə yanlış, dində isə düzgün ola bilər, yaxud da əksinə[257]. Lakin İbn Rüşd hesab edirdi ki, din və fəlsəfə bir-birinə uyğundur, bir-birinə zidd deyildir. Əql bütün fikri ziddiyyətləri həll edə bilər. İbn Rüşdün əsərlərini xristian və yəhudi



Piri Rəisin xəritəsindən fraqment (1513)

[255] Marhsall G. S. Hodgson. The Venture of Islam. Vol. 2, p. 320.
[256] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 13.
[257] Оливер Лимэн. Введение в классическую исламскую философию. Москва: Весь Мир, 2007, с. 46.

Avropasında diqqətlə öyrənirdilər. İlahiyyatçılar, alimlər və filosoflar dinlə elmi barışdırmağa və konfliktlərə gətirib çıxarmış ziddiyyətləri həll etməyə çalışmışlar. İbn Rüşdə mənsub edilən fikirlər həm də sərt tənqidlərə məruz qalırdı. 1270 və 1277-ci illərdə Paris yepiskopu Etyen Tampye bu mütəfəkkirə nisbət edilən 13 tezisin küfr olduğunu elan etdi[258]. Bundan başqa, dində və fəlsəfədə məntiqin bir-birinə ziddiyyət təşkil edən müxtəlif növlərinin tətbiq edildiyini bildirən fikir – latın averroizmi *(latın ibnrüşdçülüyü)* də tənqidə məruz qaldı. Lakin İbn Rüşdün Akvinalı Foma, Böyük Albert və Bonaventura kimi tərəfdarları da var idi və onlar İbn Rüşdü öz müəllimləri hesab edirdilər. Avropa alimləri İbn Rüşdün ideyalarını və konsepsiyalarını təkcə orta əsrlərdə deyil, həm də İntibah dövründə universitetlərdə müzakirə edirdilər. İbn Rüşdün intellektual irsi Qərbin fəlsəfi həyatında mühüm rol oynadı və müasir Qərb fəlsəfəsinin inkişafına təsir etdi. Faktiki olaraq İbn Rüşdün əsərləri Avropada tənqidi diskurs formalaşdırdı, onun ətrafında mühüm müzakirələr, fikir mübadiləsi, dini etiqadla əqlin rolu, mətnlə kontekst arasında əlaqə barədə debatlar, diskussiyalar aparıldı. Lakin İbn Rüşdün irsi islam ölkələrində unuduldu və yalnız Nahda ("ərəb renessansı") dövründən (XIX əsrdən) etibarən islam modernizminin mənbəyi hesab edilməyə başlandı.

Dövlət və cəmiyyət haqqında antik baxışların inkişaf etdirilməsində və yeni, öz zamanlarına uyğun siyasi və sosioloji konsepsiyaların təqdimində də müsəlman alimlərin böyük rolu vardır. Tarixi tədqiqatın metod və prinsiplərinin öyrənilməsində ən mühüm töhfəni "sosiologiyanın atası"

[258] Оливер Лимэн. Введение в классическую исламскую философию, с. 47.

Əbdürrəhman ibn Xəldun (ö. 1406) vermişdir. O öz "əl-Müqəddimə" əsərində dövlətin formalaşması, inkişafı və süqutu qanunlarını aşkara çıxararaq cəmiyyətin təkamülü haqqında təlim yaratmışdır[259]. Rus və Avropa filosoflarını, məsələn, O.Şpenqler, N.Danilevski, A.Toynbi, L.Qumilyev və başqalarını qabaqlayaraq o, tarixin gedişatında müəyyən qanunauyğunluqları təyin etməyə çalışmış və insan cəmiyyətinin zaman-zaman dəyişməsinin təhlilinə imkan verən bir elm kimi izah etmişdir.

Müsəlman alimlər kimya sahəsində də böyük nailiyyətlər qazana bilmişdilər. Orta əsr Avropasında *Geber* kimi məşhur olan Cabir ibn Həyyan (ö. 805) çoxlu kimyəvi reaksiyaların və onlarla kimyəvi maddələrin (zağ, zəy, qələvi, kamfora, naşatır və s.) təsvirini vermişdir. O, maddələrin buxarlanma, süzmə, distillə, kristallaşma, rafinə, oksidləşmə və ərimə metodlarını təkmilləşdirmişdir. Cabirin əsərlərində sirkə turşusunun, azot turşusunun zəif qatışığının, qurğuşun belilin alınması üsulları qeyd edilir. O həmçinin filizin aşqarlardan təmizlənməsi və polad istehsalının effektiv yollarını qeyd etmiş, şüşə istehsalında maqnezium oksiddən istifadə edilməsini ilk dəfə təklif etmişdir. Kimyaçılar Həyyan *(Geber)* və kimyanın inkişafına böyük töhfə verən ensiklopedist alim əl-Razi (ö. 925) müxtəlif vaxtlarda kimyəvi maddələrin təmizlənməsi üçün distillə aparatı, xlorid, kükürd, azot və sirkə turşuları, distillə edilmiş su və spirtin istehsalı, o cümlədən nəcib metalları həll edən azot və xlorid turşularının qarışığını *(aqua regia)* ixtira etmişdilər[260].

---

[259] Majid Fakhri. A history of Islamic philosophy, p. 334-335.

[260] Eric John Holmyard. Makers of Chemistry. London: Oxford University Press, 1931, pp.57-60

Fizika sahəsində dərin biliklərə yiyələnmiş alimlərdən biri bəsrəli həkim, riyaziyyatçı və astronom əl-Həsən ibn Heysəm (ö. 1039) idi. İşığın xüsusiyyətləri barədə 7 məqaləni ehtiva edən "əl-Mənazir" ("Optika haqqında kitab") traktatı orta əsrlərdə optika sahəsində ən mühüm əsərlərdən biri hesab edilir. Bu kitabın latıncaya tərcüməsi *(Perspectiva / De Aspectibus)* görkəmli alimlərə, Rocer Bekon (ö. 1292) və Yohann Keplerin (ö. 1630) elmi ideyalarına və kəşflərinə birbaşa təsir göstərmişdir[261]. İbn Heysəm işığın əksi və sınması qanunlarını izah etmiş, gözün quruluşunu və onun hər qişasının funksiyasını ilk dəfə təsvir etmişdir[262]. Digər müsəlman alimi, məşhur filosof Əbu Reyhan əl-Biruni kimya sahəsində yüksək dəqiqliklə hazırlanmış bir çox maddələrin xüsusi çəkisinin ölçülməsini həyata keçirmişdir. Dahi filosof əl-Fərabi (ö. 950) isə musiqi haqqında "Böyük musiqi kitabı" traktatında səsin fiziki izahını vermişdir[263]. Astronom Əbdürrəhman ibn Yunus (ö. 1009) ilk dəfə olaraq kəfgirli saat ixtira etmişdir. Kibernetikanın banisi hesab edilən Əbülizz əl-Cəzəri (ö. 1206) "Mühəndislik fəndləri barədə bilik" adlı traktatında nasosların işləmə prinsipi, deşiklərin dəqiq kalibrlənməsi, tikintidə ağacların laminasiyası, fəvvarələrin və musiqi maşınlarının konstruksiyası, su saatları, valların statik tarazlanması, kağız modellərin tətbiqi kimi texnologiyaları açıqlayan ilk müəlliflərdən biri olmuşdur[264].

---

[261] A. I. Sabra. Theories of Light: From Descartes to Newton. Cambridge: Cambridge Uuniversity Press, 1981, p. 98.
[262] Nader El-Bizri. Ibn al-Haytham - An Introduction. Manchester: FSTC, 2001.
[263] John Freely. The light from the East. London-NY: Tauris, 2001, p. 58.
[264] Salim Al-Hassani. Al-Jazari: The Mechanical Genius. Manchester: FSTC, 2002

Müsəlman alimləri coğrafiya elminin inkişafında da xüsusi rol oynamışdılar. Coğrafi xəritələrin tərtib edilməsində ensiklopedist alim Əbu Zeyd əl-Bəlxi (ö. 934) böyük rol oynamışdır. Onun "Suvar əl-Əqalim" əsəri digər görkəmli coğrafiyaşünaslar və səyyahlar İbrahim əl-İstəxri (ö. 950), Məhəmməd ibn Hövqəl (ö. 988) və Əbu Abdullah əl-Müqəddəsinin (ö. 991) əsərlərinin əsasını təşkil etmişdir[265]. Onun coğrafi xəritələr və izahedici mətnlər ehtiva edən "Suvər əl-Əqalim" əsəri coğrafiya üzrə ənənəvi əsərlər üçün nümunə olmuşdur. Müəllif ölkələri 20 iqlimə bölür, səyahət marşrutlarını dəqiq məsafələri ilə birlikdə göstərir, şəhərlərin topoqrafiyası barədə qiymətli məlumatlar təqdim edir, müxtəlif ölkələrin iqlim şəraitini, faydalı qazıntılarını, bitki aləmini, heyvandarlıq məhsullarını və ticarət vasitələrini təsvir edir[266]. X əsrin digər görkəmli coğrafiyaçısı "Surət-əl-ərz" ("Kitab əl-məsalik vəl-məmalik" də adlanır) əsərinin müəllifi Məhəmməd ibn Hövqəldir. O, Şimali Afrikaya, Əndəlüsə, Cənubi Qafqaza, Mesopotamiyaya, İrana və Orta Asiyaya çoxlu səyahətlər etmişdir[267]. İslam dünyasının Qərb məntəqələrində elmi araşdırmalar aparmış coğrafiyaşünas və tarixçi əl-İdrisi (ö. 1166) dünyanın müfəssəl xəritəsini tərtib etmiş və Asiyanın, Avropanın və Şimali Afrikanın bir çox əyalətlərinin təsvirini vermişdir. Onun

---

[265] Encyclopedia of the history of science, technology, and medicine in non-western cultures, (ed.) Helaine Selin. Dordrech: Kluwer Academic publishers, 1997, p. 149.

[266] W. M. Watt, "Abu Zayd Balki," Encyclopædia Iranica, I/4, pp. 399-400; [http://www.iranicaonline.org/articles/abu-zayd-balki].

[267] Encyclopedia of the history of science, technology, and medicine in non-western cultures, (ed.) Helaine Selin. Dordrech: Kluwer Academic publishers, 1997, p. 419.

əsərlərində hətta İdil (Volqa) bulqarları və Cənubi Ural haqqında qiymətli məlumatlar verilir[268]. Əl-İdrisi 70 xəritəni özündə ehtiva edən "Rocer kitabı" kimi tanınan (Sisiliya kralı Rocer tərəfindən sifariş olunmuşdur) atlasında nadir və qiymətli məlumatlar toplaya bilib[269]. Yaqut əl-Həməvinin (ö. 1228) "Ölkələr haqqında lüğət" ("Mucəm əl-buldan") traktatı coğrafiya üzrə ensiklopedik əsər sayılır. Coğrafi adları əlifba sırasına əsasən sıralayan bu kitab coğrafi obyektlər, sərhədlər və koordinatlar barədə geniş məlumatlar verməklə yanaşı, eyni zamanda müsəlman dünyasının müxtəlif bölgələrində yaşamış alimlər, rəssamlar və elm adamları barədə ətraflı biliklər verir[270].

O, Tanja şəhərində anadan olmuş və 22 yaşında Misirin İsgəndəriyyə şəhərinə gəlməklə uzun səyyahətə başlamışdır. Misirdən Fələstinə, oradan isə Məkkəyə getmişdir. Məkkədən o, İraqa və İrana səfər etmiş və yenidən Məkkəyə qayıtmışdır. Bu dəfə Məkkədən qayıdaraq o, Kiçik Asiyaya çatmışdır və sonra hətta Rusiyaya daxil olmuş və Sibirə yollanmışdır[271]. Ümumən, 29 il ərzində ölkələrə və materiklərə səyahət etmiş İbn Bətutə (ö. 1377) müxtəlif xalqlar, inanclar, adətlər, tarixi hadisələr, ölkələr, şəhərlər və marşrutlar barədə qiymətsiz və nadir məlumatlar

---

[268] Бейлис В. М. Ал-Идриси (XII в.) о восточном Причерноморье и юго-восточной окраине русских земель. Древнейшие государства на территории СССР, 1982 г. С. 208-228.
[http://www.vostlit.info/Texts/rus17/Idrisi/frametext2.htm].

[269] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 42.

[270] Muzaffar Iqbal. Islam and Science, p. 39.

[271] Walled A. Al-Monaes. Muslim Contributions to Geography until the End of the 12th Century AD. GeoJournal, Vol. 25, No. 4 (December 1991), pp. 396-397

verərək təkcə coğrafiya elmini yox, həm də tarix, antropologiya və kulturologiya elmlərini zənginləşdirmişdir.

Onu da qeyd edək ki, avropalı dənizçilər və səyyahlar müsəlman alimlərin tərtib etdiyi xəritələrdən müəyyən qədər məlumatlı idilər. Məsələn, coğrafiyaşünas Əhməd ibn Məcid (ö. 1530) Vasko da Qamanın (ö. 1524) Hindistana 1498-ci ildə səfəri zamanı ona bələdçilik etmişdir. O, "Faydalar" ("Favaid") və digər əsərlərində Hind və Atlantik okeanlarında, Qırmızı dənizdə və Hindistandan şərqdəki adalar arasında gəmiçilik barədə mühüm məlumatlar verir[272]. Katibe-Rum kimi tanınan Osmanlı admiralı Piri Rəis (ö. 1554) isə 1513-cü ildə dünyanın xəritəsini tərtib etmişdir. 1521-ci ildə Piri Rəis çoxsaylı xəritə və qeydlərini toplayaraq "Kitabi-Bəhriyyə"ni ("Dənizçilik kitabı") hazırlayıb. Bu kitab müasir dövrə qədər gəmilərin naviqasiyasına və astronomik biliklərə aid ən dəqiq və ən məşhur kitablardan sayılır. Bununla yanaşı, kitabda limanlar və Aralıq dənizinin ətrafında yerləşən şəhərlər, hər bir şəhərin əhalisi və mədəniyyəti haqqında ətraflı məlumat da



Qədim dünyanın ən böyük həkimləri: Qalen, İbn Sina və Hippokrat

[272] Michael N. Pearson. Ibn Majid, Ahmad (b. c.1432) navigator and writer. In: John J. Hattendorf (ed) The Oxford Encyclopedia of Maritime History. 2007 Online version:
[http://www.oxfordreference.com/view/10.1093/acref/9780195130751.001.0001/acref-9780195130751]

yer alır. O, bir çox xəritəçiləri qabaqlayaraq bu xəritədə Şimali və Cənubi Amerikanın və Antarktidanın sahil xətlərinin şəklini çəkmişdir. Xəritənin bir hissəsi cırılmış kimidir, orada İspaniya, Şərqi Afrika, Atlantik okeanın o dövr üçün məlum olan hissələri, Cənubi Amerika, eləcə də Antil adaları təsvir edilmişdir. Piri Rəis xəritəsi Amerikanı ehtiva edən dünyanın ən qədim xəritələrindən biridir[273].

Bu kontekstdə digər məşhur alimi də yada sala bilərik. Yarım əsrdən çox davam edən səyahətləri zamanı apardığı müşahidələri qələmə alan türk tarixçisi və səyyahı Övliya Çələbinin (ö. 1682) "Səyahətnamə" adlı 10 cildlik əsəri hələ də öz qiymətini saxlayır[274].

Müsəlman təbiətşünasları da müəyyən elmi nailiyyətlər qazanmışlar. 880-ci ildə əndəlüslü astronom və ixtiraçı Abbas bin Firnas ət-Takurini (ö. 887) quş lələklərindən və parçadan ilk uçan aparat düzəltmişdir. O həmçinin planetarium və armillyar sfera quraşdırmış, zamanı ölçmək üçün orijinal cihaz ixtira etmişdir. Onun adı Ay kraterlərindən birinə verilmişdir. Öncə qeyd etdiyimiz tarixçi-alim Çələbi "Səyahətnamə"də yazır ki, iki qardaş Hezarfən Əhməd Çələbi və Laqari Həsən Çələbi bir neçə dəfə səmanı fəth etməyə cəhd göstərmişlər. Məsələn, Hezarfən əldəqayırma qanadlardan istifadə edərək İstanbuldakı Qalata qülləsindən Üsküdardakı Doğançı adlanan yerə qədər uçmuşdur. Onun qardaşı Laqari Həsən Çələbi isə konusşəkilli barıt ra-

[273] Salah Zaimeche. Piri Reis: A Genius 16th-Century Ottoman Cartographer and Navigator. Manchester: FSTC, 2002.
[274] Эвлия Челеби. Книга путешествия. Вып. 1 Земли Молдавии и Украины. М. Наука. 1961

ket vasitəsilə havaya qalxan ilk insan olmuşdur. Alim özünün uğurlu uçuşunu Osmanlı sultanı IV Muradın qızı Qaya sultanın doğum günü münasibətilə həyata keçirmişdir və sultan tərəfindən mükafatlandırılmışdır[275].

Tarixçi və islamşünas M.Vottun dəqiq ifadəsinə görə: "Tərcümə prosesinin birinci mərhələsindən sonra ərəblər Qalen və Hippokratın əsas əsərləri ilə tanış olmaq imkanı əldə etdikləri zaman bəzi müsəlmanlar tibb elmində elə səviyyəyə çatdılar ki, öz xristian və yunan sələflərindən daha çox irəliyə getdilər"[276]. Burada iki ən məşhurun adını çəkmək kifayətdir: ər-Razi və İbn Sina. Avropa təbabəti XVI əsrin sonlarınadək müsəlman elmindən geniş şəkildə faydalanmışdır. Müsəlman təbiblərinin kitabları latın dilinə tərcümə edilir və bütün Avropa universitetlərində dərs vəsaiti kimi istifadə edilirdi. Orta əsr Avropasından fərqli olaraq müsəlman alimləri tibbi praktikanı təşviq edir və şəfaverici-liyi cadugərliklə əlaqələndirmirdilər[277]. XI əsrdə yaşayan məşhur filosof, alim və həkim İbn Sina (ö. 1037) tibdə müasir zamanda edilən bir sıra kəşfləri qabaqlayır. Məsələn, psixosomatikanın yaranmasından qabaq İbn Sina xəstəliyin, mikrobların insanın ruhi vəziyyətinə necə təsir etməsini müəyyən və təsvir edən ilk alimdir[278]. Onun "əl-Qanun" əsərinin latıncaya tərcüməsi XVI əsrdən bəri 30 dəfədən

---

[275] Terzioglu, Arslan. "The First Attempts of Flight, Automatic Machines, Submarines and Rocket Technology in Turkish History. Mancherster: FSTC, 2007, pp. 10-13

[276] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 58

[277] Yenə orada, s. 89-90.

[278] Сагадеев А.В. Ибн-Сина (Авиценна), 2-е изд. М.: Мысль, 1985. [http://www.e-reading.club/bookreader.php/1016238/Sagadeev_-_Ibn-Sina_(Avicenna).html]

çox nəşr olunmuşdur. Qeyd edək ki, kitabın oftalmologiyaya aid fəsli müasir zamanda da öz əhəmiyyətini itirməmişdir. "Əl-Qanun" Avropada və müsəlman dünyasında XVII əsrin ortalarınadək tədris olunmuşdur.

Təbabətin inkişafına böyük töhfə verənlərdən biri, öncə qeyd etdiyimiz, ensiklopedist alim Əbu Bəkr ər-Razidir (ö. 925). Onun latın, yunan, fransız və ingilis dillərinə tərcümə edilmiş tibbə aid məşhur əsərlərindən biri "Suçiçəyi və qızılca barədə traktat" kitabıdır *(Dt la variole et delarougeole)*. Onun ən böyük və tibbin müxtəlif sahələri haqqında şah əsəri isə "əl-Havi" ("Hər şeyi əhatə edən kitab") adlanır. Tibb elmlərinin ensiklopediyası sayılan əsərdə ər-Razi hər bir xəstəlik üçün yunan, süryani, hind, fars və ərəb müəlliflərinin fikrini verir, sonra ona öz şəxsi təcrübəsindən qeydlərini və müşahidələrini əlavə edir və nəticəni bildirirdi. Ər-Razinin özü təcrübəli həkim-cərrah olaraq kitabında təkid edir ki, əgər həkim təcrübəli və uğurlu olmaq istəyirsə, o gərək mütləq xəstələrə tez-tez baş çəksin, onların vəziyyəti, əhvali-ruhiyyəsi ilə maraqlansın[279]. Bu əsərin dövrümüzə çatmış hissələri siciliyalı yəhudi həkim Fərəc ibn Səlim *(Farragut)* tərəfindən XIII əsrin sonlarında latın dilinə tərcümə edilmişdir. Qeyd edək ki, İbn Sina və ər-Razinin kitabları ilə yanaşı, Əli bin Abbas əl-Məcusinin (ö. 994) "Mükəmməl tibb sənəti" ("əl-Kitab əl-mələki") adlı kitabı da Avropa alimləri tərəfindən diqqətlə oxunurdu. Bu

[279] Mohammed Abattouy, Salim Al-Hassani, Mohammed El-Gomati, Sali Shahsivari, Salim Ayduz, Savas Konur, Cem Nizamoglu, Anne-Maria Brennan, Maurice Coles, Amar Nazir and Margaret Morris. Medical Sciences in the Islamic Civilization. Manchester: FSTC [http://www.muslimheritage.com/article/medical-sciences-islamic-civilization]

kitab latın dilinə tərcümə edilən ilk kitablardan biri kimi Avropada "Liber regius" adı ilə məşhurlaşmışdı[280].

Müsəlman İspaniyasında XIV əsrədək Şərqdəki qədər xəstəxana inşa edilməsə də, bura da tibbi araşdırmalar sahəsində geri qalmamışdır. Orada müsəlman alimi, cərrahiyyəni müstəqil elmə çevirən və əsərlərində bir sıra cərrahiyyə alətinin təsvirini verən Əbülqasım Xələf əz-Zəhravi (ö. 1013) *(Abulcasis)* cərrahiyyə elminə mühüm töhfələr vermişdir. Onun cərrahiyyə və cərrahi alətlər barədə "əl-Təsrif" traktatı cərrahiyyənin inkişafına böyük təsir göstərmiş və Avropada cərrahlıq elminin əsaslarını qoymuşdur. Bu əsər yəhudi, latın və provansal dillərinə də çevrilmişdir. Əz-Zəhravi mürəkkəb əməliyyatları uğurla həyata keçirmiş, ilk dəfə döş xərçəngi əməliyyatını, sidik kisəsində daşların litotripsiyasını və qalxanabənzər vəzinin bir hissəsinin kəsilib çıxarılmasını təsvir etmişdir[281]. Bunlar Avropada bu cür əməliyyatların həyata keçirilməyə başlamasından hələ doqquz əsr qabaq edilmişdir. Əz-Zəhravi ağız boşluğuna cərrahi müdaxilə etmiş, xüsusi alətlərin köməyi ilə dişdaşını *(dental calculus)* çıxarmış, sınıqları müalicə



Gözdə cərrahiyyə əməliyyatı. XV əsrə aid miniatür

[280] L. Richter-Bernburg. ʿALĪ B. ʿABBĀS MAJŪSĪ // EI: [http://www.iranicaonline.org/articles/ali-b-abbas-majusi]

[281] Sharif Kaf al-Ghazal. Al-Zahrawi (Abulcasis) the great Andalusian surgeon. Manchester: FSTC, 2007, p. 4.

etmiş, alt çənənin burxulmalarını düzəltmişdir. Onun əsərində dişlərin çıxarılmasında istifadə edilən bütün mümkün növ kəlbətinlər təsvir edilmişdir. Diş yuvasının qanaxması zamanı onu xırdalanmış zağla doldurmağı və ya həmin yeri isti alətlə dağlamağı tövsiyə etmişdir. Müsəlman alimləri tibbin müxtəlif sahələrində mühüm uğurlara imza atıblar. Qədim yunan təbiblərinin təcrübəsini öyrənərək onlar çox uzağa addımlamış və öz sələflərində bir çox səhvləri üzə çıxarmışlar. Xüsusilə müəyyən olunmuşdur ki, insanın qaraciyəri dörd deyil, üç paydan ibarətdir. Əbdüllətif əl-Bağdadi (ö. 1231) müəyyən etmişdir ki, alt çənə bir sümükdən ibarətdir, iki bitişik sümükdən yox[282]. Omba sümüyü isə romalı həkim Qalenin iddia etdiyi kimi, altı sümükdən deyil, bir sümükdən ibarətdir. Dəməşqli alim Əlaəddin ibn ən-Nəfis (ö. 1288) kiçik qan dövranının ilk təsvirini vermiş və müəyyən etmişdir ki, insanın ürəyi dörd kameradan ibarətdir[283].

Belə ki, M.Votta əsasən Avropa təbabətinin ərəb təbabətindən XV-XVI əsrlərə qədər davam etmiş asılılığı erkən çap kitablarının siyahılarında aydın görünür. XIII əsrin əvvəlində Avropada təbabət İspaniyanın cənubunda mövcud olan ərəb ənənəsi ilə sıx bağlı idi. Səlibçilərin təcrübəsi 1200-cü illərdə xəstələrin saxlanılması üçün nəzərdə tutulmuş xüsusi müəssisələr kimi açılmış ilk müalicəxanalara da təsir etmişdir. Lakin onlar infeksion xəstəliklər üçün

[282] Emilie Savage-Smith (1996), "Medicine". In Roshdi Rashed (ed). Encyclopedia of the History of Arabic Science. London and New York: Routledge, 1996, Vol. 3, p. 951.

[283] John B. West. Ibn al-Nafis, the pulmonary circulation, and the Islamic Golden Age // Journal of Applied Physiology. 2008 Dec; 105(6): 1877–1880 [http://jap.physiology.org/content/105/6/1877]

xüsusi palataların ayrılması kimi məsələlərdə hələ də ərəb xəstəxanalarından geri qalırdı. Xəstəxanalardakı pasiyentlərə həkimlər baş çəkirdilər, lakin şəxsi həkimi olan xəstəxanalar haqqında ilk dəlil 1500-cü ilə aiddir (Strasburqda). Digər ərəb ənənəsi – tələbələrin xəstəxanalarda kliniki təcrübə keçməsi Avropada yalnız təxminən 1550-ci ildə tətbiq olunmağa başlanmışdır[284].



Zəhərlənmələrdən müalicəyə dair kitabın bir səhifəsi. İraq, XIII əsr

Botanika, zoologiya və mineralogiyada müsəlman dünyasında yaşayan alimlərin əsərləri bitkilərin, heyvanların və daşların təsviri və sistemləşdirilməsi ilə bağlı olmuşdur. Bu əsərlərdən bəziləri əczaçılıq və təbabət üçün praktik məna daşımaqla yanaşı, yüzlərlə bitki növləri barədə məlumatlar vermiş, onların müalicəvi xüsusiyyətləri və istifadə qaydaları geniş izah edilmişdir. Əndəlüsdən olan məşhur botanik Abdullah ibn Baytar (ö. 1248) 1400-ə yaxın dərman bitkisinin təsvirini vermişdir. Onlardan təxminən 300-ü əvvəllər tibbə məlum deyildi. Onun əsərləri, o cümlədən dərman bitkiləri barədə traktatı XVI əsrədək öz əhəmiyyətini itirməmişdir.

Müsəlman dünyasında baytarlıq da inkişaf etmişdir. Məhəmməd peyğəmbər heyvanlarla yaxşı davranmağa çağırır, əyləncə xatirinə onları öldürməyi, həzz almaq məqsədilə onlara daş atmağı, onlara damğa vurmağı, qulaqlarının və

[284] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 92.

quyruqlarının kəsilməsini qadağan edirdi. Baytarlar heyvanların müxtəlif xəstəliklərini, onların müalicə üsullarını, canlıların xarici görünüşü və ayrı-ayrı orqanlarının funksiyalarını təsvir edirdilər. Atların xəstəliklərinə xüsusi diqqət ayrılırdı.

Ərəbdilli elmi və fəlsəfi mətnlərin tərcüməsi Avropada təhsilə güclü təsir göstərmişdir. Bu tərcümələr bir çox orta əsr Avropa universitetlərində əsas dərs vəsaiti kimi istifadə edilirdi. Avropa təhsilində əsas yeri tibb, inşaat, memarlıq, astrologiya və metal emalı ilə bağlı kitabların ərəb dilindən latın dilinə tərcümələri tuturdu. XVII əsrdən başlayaraq Avropa universitetlərində tədricən ərəb dili fakültələri açılmağa başlanır[285].

Ərəb dilindən tərcümə edilən ilk mətnlər, əsasən, riyaziyyat, astronomiya və təbabətlə bağlı əsərlər idi. İlk tərcüməçilər rahiblər idilər və ilk belə tərcümələr Kataloniyanın monastırlarında həyata keçirilirdi. Müasir İspaniyanın ərazisi müsəlmanlarla xristianlar arasında daimi mədəni təmasların mərkəzi idi. Məsələn, tərcüməçilərdən biri, sonralar papa seçilərək II Silvestr adlanmış rahib Herbert Oriyaklı (ö. 1002) riyaziyyat və astronomiya ilə bağlı əsərlərin tərcüməsi ilə məşğul olmuşdur. Digər tanınmış tərcüməçi, Salerno tibb məktəbində müəllim işləmiş Afrikalı Konstantin məktəbdə mövcud tibbi ədəbiyyatı kəskin tənqid etmiş və təbabətə dair ərəbcə yazılmış əsərləri latın dilinə çevirməklə məşğul olmuşdur. O, Əbu Bəkr Məhəmməd ər-Razi, Huneyn bin İshaq əl-İbadi, İbn İmran, İbn Süleyman və İbn əl-Cəzzar kimi müsəlman alimlərin tibbə dair əsərlərini, eyni zamanda qədim yunan dilindən Hippokrat və Qalenin

[285] Robert Irwin. For lust of knowing. The Orientalists and their enemies. London: Penguin books, 2006, p. 85.

əsərlərini tərcümə etmişdir. Onun əsas elmi işi Əli ibn Abbas əl-Məcusinin "əl-Kitab əl-mələki" ("Tibbə dair hökmdar kitabı") əsərinin nəzəriyyə və praktikaya həsr olunmuş 10 cildinin tərcüməsidir[286].

Tərcümə mədəni fenomen kimi. Müsəlman dünyasından Avropaya elmi biliklərin ötürülməsi

XII əsrdən etibarən islam irsi Avropa elm dairələrinə daha güclü təsir göstərmişdir. Bu dövrdə müxtəlif elm sahələrinə həsr olunmuş bir çox kitabların tərcüməsi həyata keçirilmişdir. Müsəlmanların elmi biliklərinin Avropaya ötürülməsi prosesinin güclənməsi xristianların müsəlmanların torpaqlarına daxil olması, daha dəqiq desək, Toledonun kastiliyalılar tərəfindən 1085-ci ildə, Siciliyanın isə normanlar tərəfindən 1061-ci ildə işğalı və Birinci xaç yürüşü (1098-ci il) ilə bağlı idi. Səlibçilərlə birgə olmuş alimlər arasında Stiven Antioxski də var idi. O, Əli ibn Abbasın "əl-Kitab əl-mələki" əsərinin (həmin dövrdə *"Liber Regalis dispositionis"* adlanırdı) 1127-ci ildə ikinci tərcüməsini həyata keçirdi. Onun bu tərcüməsi Afrikalı Konstantinin tərcüməsindən daha dəqiq idi. Stiven orta əsr Avropasını İbn əl-Heysəmin (ö. 1040) riyazi kosmologiya ilə bağlı əsərinin ərəbcədən latıncaya ilk tərcüməsi ilə tanış etmişdir. Bu əsərdə Ptolemeyin planetar

[286] Daha ətraflı baxın: Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 82-87.

orbitlərlə bağlı riyazi modelləri Aristotel fizikası ilə birlikdə verilib[287]. Stiven Antioxskinin həmkarı Vinçesterli Əbdülməsih Ptolemeyin "Almagest"inin, astronomiya ilə bağlı təməl əsərin latıncaya ən erkən tərcüməçisidir. Həmin dövrdə ingilis filosofu sxolast Adelard Batski (ö. 1150) Evklidin "Elementlər"ini və əl-Xarəzminin astronomik cədvəllərini ərəb dilindən latıncaya çevirmişdir[288].

XII əsrin ikinci yarısından etibarən rahib tərcüməçilər astronomiya və həndəsə ilə bağlı əsərləri də tərcümə etməyə başladılar. Məsələn, German Karintiyski (ö. 1143) və Robert Kettonski (ö. 1150) astronomiya və həndəsə sahəsində çoxsaylı əsərlər tərcümə etmişlər[289]. Həmin dövrdə Santallalı Hüqo (ö. 1145) ərəb mənbələrindən istifadə edərək əlkimya, astronomiya və astrologiya üzrə mətnləri latıncaya çevirmiş, italiyalı riyaziyyatçı Tivolili Platon (ö. 1145) triqonometriya və cəbrlə bağlı əsərləri, xüsusilə məşhur müsəlman alimi və orta əsr Avropasında *Alboxali* kimi tanınmış Əbu Əli əl-Xəyyatın (ö. 835) "Kitab əl-məvalid" ("Doğum haqda kitab") əsərini tərcümə etmişdir[290].

Qeyd edilməlidir ki, tətbiqi əhəmiyyətli, məsələn, astrologiya və təbabətlə bağlı mətnlərin tərcüməsi daha çox idi. Məsələn, Avropada *Alchabiz* kimi tanınmış İbn Əli

---

[287] Sonja Brentjes, Jürgen Renn (eds). Globalization of Knowledge in the Post-Antique Mediterranean, 700-1500. London: Routledge, 2016, pp. 134-138

[288] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 85-86.

[289] Sita Steckel, Niels Gaul, Michael Grünbart (Eds.) Networks of Learning Perspectives on Scholars in Byzantine East and Latin West, c. 1000-1200, Zurich-Berlin: Lit Verlaq, 2014, p. 142.

[290] M. J. L. Young, J. D. Latham, R. B. Serjeant (eds). Religion, Learning and Science in the 'Abbasid Period. Cambridge: Cambridge University Press, 1990, p. 296

əl-Qabisi, Maşallah (Messeallah), Səhl bin Bişr və Əbu Məşər (Albumasar) kimi alimlərin astrologiyaya dair bütün orta əsrlər boyu dəfələrlə üzü köçürülmüş və tədris edilmiş əsas əsərləri Sevilyalı Yohann (ö. 1135) tərəfindən tərcümə edilmişdir[291]. Ən istedadlı və məhsuldar tərcüməçilərdən biri Kremonlu Cerard (ö. 1187) olmuşdur ki, o həm tibbə, həm də riyaziyyata dair əsərlər tərcümə etmişdir. Məhz o, Ptolemeyin "Almagest" əsərinin daha müfəssəl və etibarlı tərcüməsinin müəllifi sayılır. Onun elmə verdiyi əsas töhfələrdən biri Aristotelin təbiətlə bağlı, daha dəqiq, "Fizika", "Səma haqqında", "Elementlərin xüsusiyyətlərinin səbəbləri haqqında", "Nəsillər və rüşvət haqqında" əsərlərinin və "Meteorologiya haqqında" olan ilk üç kitabının ərəbcədən tərcümələridir[292]. O öz tərcümələrinə əl-Fərabinin və əl-Kindinin müqəddimələrini və şərhlərini əlavə etmişdir[293]. Tibb məktəblərində Cerardın İbn Sinanın "əl-Qanun"unun tərcüməsi Əli ibn Abbasın "əl-Kitab əl-Mələki" əsərini əsas dərs vəsaiti olaraq əvəz etmişdir. Onun Əbu Bəkr Məhəmməd ibn Zəkəriyyə əl-Razi tərəfindən yazılmış bir sıra mətnlərinin tərcüməsi, eləcə də Əbulqasım əz-Zəhravinin (ö. 1013) cərrahlığa aid tibbi ensiklopediyası "əl-Təsrif"in 30-cu bölümünün tərcüməsi təbabətə dair proqrama salınmışdır[294]. Qeyd edək ki, latıncaya çevrilmiş tibbə dair ən

---

[291] Charles Bernet. John of Seville. İn: E. Michael Gerli (ed.) Medieval Iberia: An Encyclopedia, New York: Routledge, 2013, p. 446

[292] Richard Henry Popkin (ed.). The Columbia History of Western Philosophy. New York: Columbia University Press. 1999, pp. 230-231.

[293] Yenə orada, s. 232-233.

[294] Sami Khalaf Hamarneh,Glenn Allen Sonnedecker (eds). A pharmaceutical view of Abulcasis al-Zahrawi in Moorish Spain, with special reference to the "Adhan". Leiden: Brill, 1963, pp. 24-27.

böyük ərəbcə kitab ər-Razinin "əl-Havi" əsəri idi. O, bir qədər öncə qeyd etdiyimiz kimi, Fərəc bin Salim tərəfindən Siciliyada XIII əsrin ikinci yarısında latıncaya *(Liber continens)* çevrilmişdir. Cerardın müasiri ispan keşiş Dominik Qundissalin (ö. 1191) yəhudi alim İbrahim bin Davudla (ö. 1180) *(Con Avendot)* birlikdə bir sıra mühüm tərcümələr etmişlər. Onların arasında İbn Sinanın (ö. 1037) ərəbcə böyük fəlsəfə toplusu *(kompendium)* "əş-Şifa", əl-Qəzalinin "Məqasid əl-fəlasifə" ("Filosofların məqsədləri") əsərində İbn Sinanın fəlsəfəsinin qısa xülasəsi, ərəbcə yazmış ispan yəhudi filosofu Yəhya bin Cebirulun (ö. 1058) "Həyat mənbəyi" mistik fəlsəfəsinin mətnləri də var idi[295].

Qeyd edək ki, Avropa fəlsəfəsi fikirləri Avqustinian və Platonun çox güclü təsiri altında idi, bunlar İbn Sinanın neoplatonik təliminin və onun ardıcıllarının təsiri ilə daha da güclənmişdir. Eyni zamanda İbn Rüşdün *(Averroes)* əsərlərinin, xüsusilə onun Aristotelin metafizik əsərlərinə şərhlərinin tərcümələri sayəsində aristotelizm Avropada geniş yayılmağa və təsir etməyə başladı. Lakin, öncə qeyd etdiyimiz kimi, İbn Rüşdün Avropa fikrinə təsirləri Siger Brabantski (ö. 1284) və başqalarının latın averroizmi ilə bağlı fikirləri kontekstində yanlış anlaşıla bilər. Vottun qeyd etdiyi kimi, İbn Rüşd heç vaxt "ikili həqiqət" məfhumunu işlətməmişdir. Lakin onun fikirləri və dini mətnlərin (Quran ayələri və hədislərin) interpretasiya metodu bir qədər avropalı averroistlərin arasında məşhur olan "ikili həqiqət" konsepsiyasına yaxındır. İbn Rüşdə görə, Quran mətnlərini elə təfsir etmək olar ki, bütün ziddiyyətlər

[295] Richard Henry Popkin (ed.). The Columbia History of Western Philosophy, pp. 233-234.

aradan qalxa bilər. M.Vottun fikrinə görə, məsələ burasındadır ki, ərəb dili latın dilindən fərqli olaraq müxtəlif interpretasiyalar üçün daha geniş imkanlara malik idi. Latın ibnrüşdçülər əqli-zəkanı vəhylə barışdırmaq üçün belə cəhdlər etməmişlər, onların müasirləri, bəlkə də, əsaslı olaraq güman edirdilər ki, onların dəlilləri məntiqi sonluğuna çatdıqca dini tədricən məhv edir[296]. İbn Rüşdün Avropaya təsirini nəzəri şəkildə qiymətləndirərək Vott çox mühüm bir fikir səsləndirir: "Latın ibnrüşdçülər adının özü yanlış nəticəyə gətirib çıxarmamalıdır və elə düşünülməməlidir ki, təkcə bu istiqamətin sayəsində ərəb fəlsəfi fikri, xüsusilə də İbn Rüşdün baxışları Avropaya təsir etmişdir. Əslində, müsəlman fəlsəfəsi avropalılara yeni material təqdim etmiş, onlar üçün öz dünyagörüşləri ilə birlikdə metafizikanın yeni dünyasını açmışdır. Ərəbcədən tərcümələr Avropa fikrinin bütün axınlarında, təkcə ibnrüşdçülərə və onların rəqiblərinə, Akvinalı Fomanın ardıcıllarına deyil, həm də Bonaventura kimi konservativ platonizmin tərəfdarlarına, yaxud Robert Qrossetest və Rocer Bekon kimi platonçu rasionalistlərə məlum idi. Avropa fəlsəfəsinin bütün sonrakı inkişafı ərəb müəlliflərinə çox borcludur. Akvinalı Foma da Siger Brabantski kimi İbn Rüşdün aristotelizminə çox borcludur"[297].

Müsəlmanlar tərəfindən yaradılmış elmi və fəlsəfi əsərlərin tərcüməsi prosesi XIII əsrdə də davam etmişdir. Demək olar ki, XIII əsrdə Qərbi Avropa alimlərinin arasında müsəlmanların elm və fəlsəfədəki nailiyyətlərini assimilyasiya edə biləcək, yeni kəşflərə hazır olan güclü axın müşa-

[296] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 95.
[297] Yenə orada, s. 96.

hidə olunur. Məsələn, ingilis Alfred (ö. 1222) Aristotelin "Bitkilər haqqında" əsərini tərcümə etmiş, İbn Sinanın "Daşlar haqqında" əsərinin tərcüməsini Aristotelin "Meteorologiya" əsərinə əlavə edib tərcümə etmişdir. Həmin dövrlərdə Maykl Skott (ö. 1235) Aristotelin "Canlılar haqqında" 12 kitabdan ibarət ərəbcə toplusunu Toledoda tərcümə etmişdir. Bundan başqa, ərəb və ivri dillərini öyrənən Skott bir çox əsərləri, o cümlədən ərəb astronomu əl-Bitrucinin "Astronomiya kitabı"nı latın dilinə çevirmişdir[298]. Əl-Bitruci bu əsərində Ptolemeyin fikirlərinə zidd nöqteyi-nəzər ortaya qoymuşdur. M.Skott Aristotelin təbiət elmləri haqqında əsərlərinə məşhur filosof İbn Rüşdün şərhlərini də tərcümə etmişdir[299].

Qeyd edək ki, ərəbdilli elmi və fəlsəfəni öyrənmiş bəzi yəhudilər də elmi tərcümə sahəsində mütəxəssisə çevrilmişdilər. İbn Qabirol *(Avicebron)* (ö. 1058) və ya Moşe Maymonid (ö. 1204) kimi görkəmli yəhudi alimləri ərəbcə yazırdılar. XII əsrin əvvəlində ərəb elmi əsərlərinin qədim ivri dilinə tərcümələri həyata keçirilməyə, həmçinin bu dildə orijinal əsərlər yazılmağa başlandı. Bu dövrün məşhur yəhudi alimlərindən İbn Əzra və ya İbrahim Yəhudanı (ö. 1167) qeyd etmək olar. XIII-XIV əsrlərdə yəhudi elmi təkcə İspaniyada deyil, həm də Fransanın cənubunda və başqa əyalətlərdə çiçəklənmişdir. Bəzən qədim yəhudi dilindəki əsərlərin latıncaya çevrilməsi halları da baş vermişdir. Lakin hər şeydən əvvəl yəhudilər Qərbi Avropanın xristian

[298] Helaine Selin. Encyclopedia of the history of science, technology, and medicine in non-western cultures, (ed.) Helaine Selin. Dordrech: Kluwer Academic publishers, 1997, p. 97.
[299] Alfred Gillaume. Philosophy and Theology. In: (ed.) Sir Thomas Arnold. The Islamic Art and Architecture, p. 280.

alimləri ilə tez-tez birbaşa təmas qura bildiklərindən ərəb elminin və fəlsəfəsinin ötürücüləri rolunu oynamışlar.

XIII əsrdə Leon və Kastiliyanın kralı "Münəccim" ləqəbli Kastiliyalı X Alfonso (ö. 1284) sırf praqmatik maraqlardan çıxış edərək elmi və tarixi əsərlərin tərcüməsini sifariş edirdi. Hətta o, bir neçə ali təhsil müəssisəsini də təsis etmişdir. Bəzi tərcümələr latın dilinə, bəziləri isə təzəcə rəsmi dövlət dili olmuş ispan dilinin Kastiliya ləhcəsinə edilirdi. Kral Alfonso astronomiya, astrologiya, tibb, naviqasiya barədə böyük sayda əsərlərin ərəbcədən Kastiliya dilinə çevrilməsi üçün yəhudi alimləri işə dəvət edirdi[300]. Bu əsərlərdən bəziləri sonralar latıncaya çevrilmişdir.

XIII əsrin ortalarında Siciliya kralı II Frederikin (ö. 1266) xələfi Manfred Aristotelin əsərlərinin külliyyatının latıncaya tərcüməsini bitirmişdir. Toledoda Hermannus *(Alemannus)* Aristotelin, xüsusilə İbn Rüşdün və əl-Fərabinin şərhlərindən istifadə edərək ritorika və poetikaya aid əsərləri tərcümə edirdi. İbn Rüşdün Aristotelin "Poetika"sına yazdığı orta şərhinin Hermannus tərəfindən tərcüməsi universitetlərin fəlsəfə proqramında öyrənilən poetikaya aid əsərlər içərisində ən məşhuru idi[301]. XIII əsrin son rübündə Burgoslu Xuan Qonzalez və Solomon adlı yəhudi alimi fəlsəfə və təbiət elmləri barədə yazılmış İbn Sinanın "əl-Şifa" adlı əsərinin bir hissəsinin Dominik Qundissalin

[300] Jack Segura. Some Thoughts on the Spanish Language in Medicine. In: Henry Fischbach. Translation and Medicine, Amsterdam-Philadelphia: Jon Benjamins Publishing company, 1998. pp. 38-39.

[301] Dag Nikolaus Hasse Latin Averroes Translations of the First Half of the Thirteenth Century // Plenary session paper read on 21 September 2007 in Palermo at the XII International Congress of Medieval Philosophy.

tərəfindən keçən əsrdə başlanmış tərcüməsini tamamlamağa çalışmışlar. Bu iki insanın eyni tərcümə ilə məşğul olduğundan danışdıqda qeyd etməliyik ki, onlardan biri əsəri ərəbcədən ümumdanışıq (kobud) latıncaya, digəri isə səhih latıncaya çevirirdi. XIII əsrin ortalarında ilk dəfə danışıq dilinin tərcümə dili kimi ortaya çıxdığını görürük.

Avropalılar ərəb say sisteminə də XIII əsrdə çox geniş şəkildə keçmişdilər. Ərəb hesabının rahatlığına əmin olandan dərhal sonra o, geniş şəkildə tətbiq edilməyə başlandı. Rəqəmlərlə birlikdə Avropa dillərinə müxtəlif yeni sözlər də keçdi. Fransızca *chiffre*, almanca *ziffer*, ingiliscə *cipher*, həmçinin ingilis və fransızcadakı *zero* sözlərinin hamısı ərəbcə *sıfır* – boşluq sözündən düzəldilib[302].

Ümumən, XIII əsrin sonu tərcümə prosesinin zəiflədiyi və azaldığı dövrdür. Amma ayrı-ayrı tərcümələr hələ XVI əsrdə, hətta XVII əsrdə də həyata keçirilirdi. Məhz bu erkən tərcümələr sayəsində ərəbdilli elm və fəlsəfə Qərbi Avropanın intellektual inkişafına böyük təsir etmişdir. XVII əsrdə avropalıların özləri elm və fəlsəfədə yüksək səviyyəyə çatmışdılar. Məsələn, Avropa təbabətinin ərəb təbabətindən XV-XVI əsrlərə qədər davam etmiş asılılığı erkən çap kitablarının siyahılarında da aydın görünür. Onlardan biri Paviyadan olan Ferrari da Qradonun ər-Razinin əsaslarının 9-cu hissəsinə şərhləridir. İbn Sinanın "əl-Qanun"u 1473-cü ildə nəşr olundu, ikinci nəşri isə 1475-ci ildə baş tutdu. Kitabın üçüncü nəşri isə Qalenin birinci əsərinin çap edilməsinədək nəşr edilmişdir. 1500-cü ilədək "əl-

[302] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 88.

Qanun"un 16 nəşri çıxmışdır. 1650-ci ildən sonra da bu kitabın istifadəsi davam etmişdir. Bu, bəşəriyyət tarixində ən çox öyrənilən tibbi əsər hesab edilir. "Əl-Qanun"dan sonra sırada ər-Razi, İbn Rüşd, Hüneyn bin İshaq və Hali Abbas kimi müəlliflərin ərəbcədən tərcümə edilmiş əsərləri gəlir. M.Vottun sözlərinə görə, "statistik məlumatlar göstərir ki, Avropada erkən orijinal əsərlərdə istinadların sayı ərəbcənin yunancaya çox təsiri olmasına qəti şəkildə dəlalət edir. Ferrari da Qradonun əsərlərində, məsələn, Avisennaya 3 mindən çox, ər-Raziyə və Qalenin hər birinə min dəfə, Hippokrata isə cəmi 100 dəfə istinad edilir. Bir sözlə, XV-XVI əsrlərdə Avropa təbabəti ərəb təbabətinin zəif inkişaf etmiş forması idi[303]".

Bununla belə, XIII əsrin sonlarından etibarən Qərb alimləri Qərb tədqiqatlarında boşluqları doldura biləcək və ya interpretasiyalara kömək edəcək tərcümə üçün ərəbdilli mətnləri daha axtarmırlar. Ərəb dilinin tədris edilməsi artmışdır. Lakin Rocer Bekon özünün 1267-ci ildə yazdığı "Opus Majus" ("Böyük əsər") əsərində fəlsəfəni etibarsız tərcümələrdən deyil, orijinaldan oxumağa çağırırdı. Bununla belə, ərəb dili missionerlik məqsədi üçün öyrədilirdi. Bu səbəbdən Vyana Ekumenik Kilsə Məclisi (Fransa) 1312-ci ildə dörd universitetdə (Paris, Oksford, Bolonya və Salamankada) və Roma kuriyasında ərəb dili kafedralarının təsis edilməsinə çağırdı[304]. Bu papa fərmanı ancaq universitetlərdə tətbiq edilsə də, ərəb dilinin tədrisi məktəbləri İspaniyada, Mursiyada, Valensiyada və Miramarda (Mayorkada) çiçəkləndi.

---

[303] Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 92.
[304] Robert Irwin. For lust of knowing. The Orientalists and their enemies, p. 47.

XIV əsrin əvvəllərində və ondan sonra tərcümələr birbaşa ərəbcədən deyil, ərəbdilli əsərlərin XIII və XIV əsrlərdə edilmiş yəhudi tərcümə versiyalarından həyata keçirilirdi. Misal üçün, İbn Rüşdün ən azı 38 əsəri yəhudi dilinə çevrilmiş və yəhudi alimlər onlara "supra-şərhlər" yazmışdılar. Humanitar elm adamları XIV əsrin sonunda ərəblərin yazdıqları əsərlərə düzəliş və ya əlavələr etmək istəyərkən bu yəhudi versiyalarına müraciət edirdilər. Bu hal filoloji məsələlərin dəqiqləşdirilməsində də baş verirdi. İntibah humanitar elm adamları bu zaman yəhudi versiyalarına, hərdənbir onların ərəbcə orijinallarına müraciət edirdilər: Girolamo Ramusio (ö. 1486) İbn Sinanın "əl-Qanun"unun üzünü köçürərkən özünün latın tərcüməsini sətirlər arasına əlavə etmişdir[305]. Andrea Alpago (ö. 1522) təkcə "əl-Qanun"u ərəb orijinalı ilə müqayisədə yenidən işləmiş, həm də İbn Sinanın ruh və elmlərin qisimləri barədə əlavə mətnlərini də tərcümə etmişdir. Bu əsər Andreanın nəvəsi tərəfindən Venesiyada 1546-cı ildə nəşr edilmişdir. Müəllifin (Kopernikin) öldüyü ildə (1543) tam şəkildə "De revolutionibus orbium coelestium" adı ilə nəşr edilmiş Kopernikin yeni astronomiyasının mühüm elementləri erkən ərəb paradiqmalarını əks etdirdiyini göstərir. Müəyyəd əd-din əl-Urdi (ö. 1266), Nəsirəddin Tusi (ö. 1274), İbn Şatir (ö. 1375), Əli Quşçu (ö. 1474) və Şəmsəddin əl-Xəfri (ö. 1550) bu paradiqmaların mənbəyidir. Amma Kopernikin bu ərəb mətnlərindən bilikləri hansı kanallarla aldığı hələ də məlum deyil.

[305] Dag Nikolaus Hasse, The social conditions of the Arabic (Hebrew) Latin translations movements in Medievil Spain and in the Rennaisance. In: Andreas Speer, Lydia Wegener. Wissen über Grenzen Arabisches Wissen und lateinisches Mittelalter. Berlin-New York: Walter De Gruyter, 2006, pp. 75-82.

XVI əsr ərzində Osmanlının Dəməşqdəki və İstanbuldakı Venesiya səfirlikləri ilə yeni təmasları nəticəsində ərəb dilinə maraq yenidən dirçəlir. Belə ki, Ramusio və Alpago Venesiyanın Dəməşqdəki səfarətxanasında həkim idilər. Onların sayəsində ərəbşünaslığın başlanğıcını görürük. Ərəbşünaslıq tədqiqatlarına ən mühüm töhfəni dinini dəyişmiş müsəlman Afrikalı Leo (ö. 1554), Parisdə linqvist Giyom Postel (ö. 1581) və "Medici Oriental Press" nəşriyyatının rəhbəri Cambattista Raymondi (ö. 1614) vermişdir[306]. Məhz həmin nəşriyyatda əsas ərəbdilli kitablar – İbn Sinanın "əl-Qanun"u, əl-İdrisinin dünya atlası "Kitab Nüzhət əl-müştaq" və Nəsirəddin Tusinin Evklidə şərhi çap edilmişdir[307]. Ərəbşünaslıq tədqiqatları XVII əsrdə də çiçəklənmişdir. Ərəb qrammatikasını yazan Tomas van Erpen *(Erpenius)* Leyden Universitetinin bu sahədə 1613-1624-cü illər arasında ilk professoru olmuşdur. Onun xələfi Yakobus Qolius (ö. 1667) ərəbcə-latınca lüğət yazmışdır ki, bu da XIX əsrin ortalarınadək istifadə edildi. Həmin vaxt tərcümə fəlsəfi əsərlərdən daha çox tarix, teologiya və poeziyanı əhatə edirdi. Eyni zamanda bəzi riyazi, astronomik və tibbi əsərlər də tərcümə edilmişdir. Bunlara misaldır: Uluq bəyin "Zici" (astronomik cədvəllər) (Tomas Hayd tərəfindən 1665-ci ildə Oksfordda tədqiq edilmiş üç fars əlyazması əsasında) və Perqalı Apolloninin üç kitabının icmalı (bunun orijinal yunan mətni itmişdir və maroni alimi Abraham Eçelensis tərəfindən hazırlanmış və 1661-ci ildə Florensiyada çap edilmişdir). Ər-Razinin çiçək haqqında traktatı isə 1747-ci ildə Riçard Midin sifarişi

[306] Robert Irwin. For lust of knowing. The Orientalists and their enemies, p. 62-70.
[307] Yenə orada, s. 75; 80; 104.

ilə tərcümə edilmişdir. Bunu da qeyd etmək mühümdür ki, Qolius böyük sayda ərəb əlyazmasını toplamışdır. Onların içərisində ən aktual ərəb astronomiyası barədə çoxlu yazı (bunlar Təqiyəddin bin Mərufun İstanbulda az fəaliyyət göstərmiş rəsədxanasının (1577-1580) kitabxanasının bir hissəsini də təşkil etmiş olardı) var idi. Lakin Qoliusun (və ya başqa Avropa aliminin) bu əlyazmalardan hazırladığı yeganə elmi əsər əl-Fərqaninin astronomiyaya elementar giriş barədə "The Elementa astronomica" əsərinin redaktəsi və yeni latınca tərcüməsi (1669) idi. Lakin XVI əsrin sonlarından etibarən ərəb elmi və fəlsəfəsi, əsasən, tarixi aspektdə fərqli dəyərləri olan mədəniyyətin bir parçası kimi götürülür, orta əsrlərdə və İntibah dövründə olduğunun əksinə olaraq insan təliminə mühüm töhfə kimi baxılmırdı.

Belə ki, bizim kiçik fəslimiz göstərir ki, müsəlmanların elmə töhfə verməsinin tarixi, əslində, biliklərin ötürülməsi prosesi, tərcümələrin yaradıcı şəkildə hazırlanması və başqa əsrlərdə və siyasi-ictimai mühitdə yaşayan alimlərin birbiri ilə mətnlər vasitəsilə davamlı ünsiyyətdə olmasının tarixidir. Müsəlmanların elmə töhfələrinə həm mədəniyyətlərarası, həm də müsəlmanların öz elmi-mədəni mirası ilə çoxaspektli diskursu icad edən davamlı dialoq kimi baxmaq lazımdır. Məhz belə bir dialoqun nəticəsində yeni mənalar, elmi kəşflər, yüzlərcə yeni elmi-fəlsəfi mətnlərin yazılmasına səbəb olan keyfiyyətli tərcümələr, dilin inkişafı və orijinal mədəniyyətin yaranması mümkündür.

İstifadə olunmuş ədəbiyyat

1. Баллада о Западе и Востоке. перевод из Р. Киплинга, https://www.stihi.ru/2000/12/31-39
2. Восток – Запад. Исследования, переводы, публикации. М., 1982, 1985, 1988.
3. Thomas Asbridge, “The First Crusade: A New History”, Oxford University Press, 2004
4. Р.Докинз. Бог как иллюзия, Азбука, 2022
5. R.Foley. Religious populations growing faster than atheists worldwide; 2 Christian denominations stand out: report, Christian Post Reporter, https://www.christianpost.com/news/religious-populations-growing-faster-than-atheists-worldwide.html
6. “İslamofobiya: qərəzin ifşa olunması və stiqmaların dağıdılması” mövzusunda beynəlxalq konfransın iştirakçılarına https://president.az/az/articles/view/68919
7. Будущее мировых религий: прогнозы демографического роста - 2010-2050, Pew Research Center, https://inosmi.ru/religion/20170208/238688310.html
8. Инвестирование в культурное разнообразие и межкультурный диалог: всемирный доклад ЮНЕСКО, https://unesdoc.unesco.org/ark:/48223/pf0000185202_rus
9. Амелин В. Социология политики. Москва, 1992
10. А.Садохин. Межкультурные барьеры и пути их преодоления в процессе коммуникации, http://www.ifapcom.ru/files/Monitoring/sadohin_mejcult_barrier.pdf
11. Ульрих Бек. Что такое глобализация? Ошибки глобализма – ответы на глобализацию М.: Прогресс-Традиция, 2001.
12. Хантингтон С. Столкновение цивилизаций? “Полис”. №1, 1994.
13. Тойнби А. Дж. Цивилизация перед судом истории. Москва, 2003

14. Декларация мирового этоса. http://anthropology.ru/ru/text/dokumenty/deklaraciya-mirovogo-etosa
15. Микаел Золиан. Исторический нарратив и репрезентация конфликта (еще раз о конфликте в Нагорном Карабахе и вокруг него), https://ge.boell.org/en/2005/01/16/istoricheskiy-narrativ-i-reprezentaciya-konflikta-eshche-raz-o-konflikte-v-nagornom
16. Г.Шлее. Управление конфликтами: теория и практика, Москва, 2004
17. Detlef Pollack. “Germans are much less tolerant of Muslims.” Survey on religious plurality in Europe shows delicate results in terms of integration politics, https://www-uni–muenster-de.translate.goog/Religion-und-Politik/en/aktuelles/2010/dez/PM_Studie_Religioese_Vielfalt_in_Europa.shtml?_x_tr_sl=en&_x_tr_tl=ru&_x_tr_hl=ru&_x_tr_pto=rq#:~:text=42%20per%20cent%20of%20Germans,Muslim%20holidays%20is%20even%20lower.
18. С.Бенхабиб. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. М., 2003.
19. Мультикультурализм и кризис национальной идентичности, http://studme.org/59710/politologiya/multikulturalizm_krizis_natsionalnoy_identichnosti
20. Сильный удар по иммигрантам от Саркози, http://www.pravda.ru/world/europe/european/07-03-2012/1110581-sarkozy-0/
21. Христианская идентичность в плюралистической Европе, Доклад на Европейском форуме католиков-мирян (Братислава, 1-6 июля 2008 г.), http://www.katolik.ru/mir/1016-archive/101109-st34406.html
22. Хафса Орхан Астром. Мультикультурализм: османский опыт, http://islam.com.ua/dialog/1699-mulytikulyturalizm-osmanskiy-opyt
23. Tolan, Saracens; Islam in the Medieval European Imagination (2002)

24. Гегель. Сочинения. Т. IX. М.-Л., 1932.
25. Христианская идентичность в плюралистической Европе, Доклад на Европейском форуме католиков-мирян (Братислава, 1-6 июля 2008 г.), http://www.katolik.ru/mir/1016-archive/101109-st34406.html
26. Fredman, Snadra. Discrimination and Human Rights. Oxford University Press, 2012
27. Islamophobia: A Challenge for Us All, https://www.runnymedetrust.org/publications/islamophobia-a-challenge-for-us-all
28. Адам Тейлор. Что думает Франция о мультикультурализме и исламе, http://inosmi.ru/social/20160717/237220560.html
29. Д.Наумов, С.Ломов. Мультикультурализм в контексте формирования общеевропейской идентичности, http://cyberleninka.ru/article/n/multikulturalizm-v-kontekste-formirovaniya-obscheevropeyskoy-identichnosti
30. Мультикультурализм и кризис национальной идентичности, http://studme.org/59710/politologiya/multikulturalizm_krizis_natsionalnoy_identichnosti
31. К.Малик. Крах мультикультурализма, http://www.globalaffairs.ru/number/Krakh-multikulturalizma-17450
32. К.Шмитт Понятие политического, Киев: Изд. “КНТ”, 2021
33. Ф.Кардини. Европа и ислам. История непонимания, Серия “Становление Европы”, изд. “Алнександлия”, 2016
34. Lewis Bernard. “The New Anti-Semitism”, The American Scholar, Volume 75 No. 1, Winter 2006
35. Ю.Кантор. Образцово-показательный террор, http://www.vremya.ru/print/225527.html
36. У.Липпман. Общественное мнение. – М.: Институт Фонда “Общественное мнение”, 2004
37. Чалдини Роберт. Психология влияния, издательство Питер, 2009
38. Власть стереотипов, Washington ProFile, 2005, https://psyfactor.org/lib/stereotype.htm

39. Hans Küng. Der Islam. Geschichte, Gegenwart, Zukunft, Piper Verlag GmbH, Munchen 2004
40. Исламофобія опірается на стереотіпное “імперіалістіческое” мышленіе – эксперт ООН, https://news.un.org/ru/story/2021/03/1397982
41. Т.Стефаненко. Стереотипы социальные, https://www.krugosvet.ru/enc/gumanitarnye_nauki/sociologiya/STEREOTIPI_SOTSIALNIE.html?page=1
42. В.Захаров. Между властью и верой: религиозные конфессии Восточной Германии в годы советского оккупационного режима, 1945-1949, https://statearchive.ru/398
43. Эрих Фромм. “Бегство от свободы”, АСТ, 2017
44. D.Motadel. Islam and Nazi Germany’s War, Published by: Harvard University Press, Belknap Press https://doi.org/10.2307/j.ctt1287gpk
45. Кардини Франко, Европа и ислам. История непонимания, Александрия, 2016
46. Свидетельства западных ученых об Исламской культуре, https://islam.uz/statya/4994
47. Karoui el H. La fabrique de l’islamisme. Institut Montaigne. Rapport. Septembre 2018. Paris, 2018
48. Эгиль Аспрем (Egil Asprem), Ислам играет важную роль в религиозной истории Европы, https://inosmi.ru/social/20160529/236690324.html
49. Мусульмане в войсках антигитлеровской коалиции. https://islam-today.ru/istoria/musulmane-v-vojskah-antigitlerovskoj-koalicii/
50. Манифест 12 “Вместе против нового тоталитаризма”, https://vseobislame.livejournal.com/56738.html
51. Взгляд на распространенные мусульманскіе і арабскіе стереотіпы на телевіденіі і в кіно, https://www.greelane.com/ru/%d0%b3%d1%83%d0%bc%d0%b0%d0%bd%d0%b8%d1%82%d0%b0%d1%80%d0%bd%d1%8b%d0%b5-%d0%bd%d0%b0%d1%83%d0%ba%d0%b8/%d0%b2%d0%be%d0%bf%d1%80%d0%be%d1%81%d1%8b/tv-film-stereotypes-arabs-middle-easterners-2834648/

52. Том Брук. Стереотіпы Голлівуда: почему русскіе всегда плохіе? BBC Culture, https://www.bbc.com/russian/society/2014/11/141110_vert_cul_why_russians_always_bad_guys
53. Rea Steven. Just 300, but CG on their side, Philadelphia Daily News (9 March 2007)
54. Режиссеру не дали показать фільм об исламе, http://news.bbc.co.uk/hi/russian/entertainment/newsid_7311000/7311253.stm
55. İncil, Mattanın müjdəsi, 5:39
56. İncil, Mattanın müjdəsi, 10:34-36
57. İncil, Lukanın müjdəsi 12:49
58. Р. Барт. “Избранные работы. Семиотика. Поэтика”. М. Прогресс, 1979
59. Ибн Халдун.Введение (ал-Мукаддима), Составление, перевод с арабского и примечания А.В. Смирнова, Историко-философский ежегодник 2007. М.: Наука, 2008
60. И.Кон. Психология предрассудка: о социально-психологических корнях этических предубеждений// Новый мир. 1966, №9
61. Эгиль Аспрем. Ислам играет важную роль в религиозной истории Европы. 29.05.2016 – http://inosmi.ru/social/20160529/236690324.html
62. Ibn Kammuna, Examination of the Three Faiths, trans. Moshe Perlmann (Berkeley and Los Angeles, 1971; Warraq Ibn. Leaving Islam: Apostates Speak Out. – Prometheus Books, 2003.
63. “Деяния франков и прочих иерусалимцев”, Новосибирск, 2010
64. А.Журавский. Христианство и ислам социокультурные проблемы диалога. Москва “НАУКА” Главная редакция восточной литературы 1990
65. Синицына Р. Кто такие мориски? Http://espanamyhome.com/?p=5723
66. Ницше Ф. Антихрист. Проклятие христианству. Москва, 1988
67. Michael Alpert, Crypto-judaism and the Spanish İnquisition Basingstoke, Hampshire; New York. Palgrave, 2001. p.246

68. Meriç S. Büyük yahudi göçünün gerçek hikayesi. http://odatv.com/endulus-muslumanlari-ve-yahudi-surgunun-gercek-yuzu-0205101200.html
69. Real Academia de la Historia Boletin XV. Historia social, politica y religiosa de los Judíos de España y Portugal, Tomo III. Madrid.1875
70. Т.Григорьева. Еще раз о Востоке и Западе // Иностранная литература. 1976. № 7; В.Бартольд. История изучения Востока в Европе и России. Л., 1925
71. Баязитов А.. Возражение на речь Эрнеста Ренана, сказанную в Научной французской ассоциации. – С.-Петербург, 1883
72. Tolan, Saracens; Islam in the Medieval European Imagination, 2002
73. Гегель. Сочинения. Т. IX. М.-Л., 1932.
74. Ханнун М., Спан С.. Когда Европа любила ислам. 05.06.2016 – http://inosmi.ru/religion/20160605/236764173.html
75. Гете И.В. Собрание сочинений в 10 томах. Том 7. М., 1978
76. Аюпова Д. И. Синтез Запада и Востока в “Западно-восточном диване” Гёте // Молодой ученый. – 2014. – №7. – С. 621-623. – URL https://moluch.ru/archive/66/10824/
77. Göte Y. “Şərq-Qərb divanı”. Alman dilindən tərcümə edən Ələkbər Qubatov, Bakı, Şirvannəşr, 2008.
78. Hədislərlə islam (sərlövhə hədislər), Diyanet İşleri Başkanlığı, 2017, səh. 205
79. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara, 1985, səh.11
80. Vasim Məmmədəliyev, Quran və elm, Bakı: Qismət, 2006. – 7 s.
81. İrfan Yılmaz, İ.Hakkı İhsanoğlu, Selim Aydın, Fuat Bozer, Nevzat Bayhan, İhsan İnal, İlim ve Din (Yeni Bir Bakış Açısıyla), I və II cild, İstanbul 1998, səh. 282
82. Mehmet Bayrakdar, İslamda Bilim ve Teknoloji Tarihi, Ankara 1985, səh.11
83. Fuat Sezgin, İslam Elmlər Tarixi Haqqında Konfranslar, Başlakitab, 2017, səh.142

84. Azad Nəhmədov. Müsəlmanların dünya elminə və mədəniyyətinə bəxş etdiyi töhfələr (ixtiralar və kəşflər). – Şans Mətbəə Ltd MMC, 2017. – 22 s.
85. TDV İslam Ansiklopedisi, Bimaristan, Cild 6, səh.168, 1992
86. TDV İslam Ansiklopedisi Kütüphane, Cild 27, səh.14, 2003
87. TDV İslam Ansiklopedisi, Kütüphane, Cild 27, səh.18-20, 2003
88. TDV İslam Ansiklopedisi, Medrese, Cild 28, səh.324, 2003
89. Сейид Хусейн Наср. Что такое традиция // http://www.newatropatena.narod.ru/p22.htm
90. İbn Miskəveyh. əl-Hikmətu'l-xalidə (Cavidan Xirad), Beyrut, 1983, s. 375-376 // Bax: İlhan Kutluer. İslamın klasik çağında felsefe tasavvuru. İstanbul, İz yayıncılık, 2001, s. 29.
91. İlhan Kutluer. İslamın klasik çağında felsefe tasavvuru, s. 29.
92. Səlahəddin Xəlilov. Kəsilməz tarix və dövlətçilik ənənələri // İpək yolu, Beynəlxalq elmi ictimai-siyasi jurnal, № 1, 2001, 24 s.
93. Səlahəddin Xəlilov. Sivilizasiyalararası dialoq. – Bakı: Adiloğlu nəşriyyatı, 2009. – 63 s.
94. Aforizmlər: seçilmişlərdən seçilmişlər. Prof. Dr. Səlahəddin Xəlilovun təqdimatında. – Bakı: Çaşıoğlu, 2012. – 306 s.
95. З.М.Буниятов. Государство Атабеков Азербайджана (1136-1225 годы). Изд-во Элм" Баку, 1978, с. 130-132
96. Nailə Süleymanova. Azərbaycanlı mühəddislər// http://az.strategiya.az/old/index.php?m=xeber&id=6651
97. Hacıyeva A.Ə. Mədəni-tarixi irsin tədqiqində hermenevtikanın fəlsəfi və metodoloji əhəmiyyəti. – Bakı: Adiloğlu, 2004.
98. S. Frederick Starr. Lost Enlightenment. Central Asia's Golden Age from the Arab Conquest to Tamerlane, Princeton University Press, 2013, p. 7
99. Xəlilov S. İtirilmiş maarif, yoxsa türk sivilizasiyası?! // "Azərbaycan" qəzeti, 05 Aprel 2014.
100. История Азербайджанской философии, т.1. Баку, Элм, 2002, с. 230.
101. Sufi təriqətlər haqqında geniş məlumat üçün bax: Yılmaz H.K. Anahatlarıyla tasavvuf ve tarikatlar. İstan-

bul: Ensar neşriyat, 2002; Тримингем Дж. С. Суфийские ордены в Исламе / Перев. О.Ф.Акимушкина. Москва: Наука, 1989.
102. История Азербайджанской философии, т.2, Баку, Элм, 2008, с. 415.
103. . الميانجي الهمداني ابو المعالي عبد الله بن محمد بن علي بن الحسين بن علي الملقب بعين القضاة. تمهيدات. تقديم و تحقيق ع.عسيران .طهران. گلشان. 1373(Miyanəci. Təmhidat, s. 304) ه .
104. الميانجي الهمداني ابو المعالي عبد الله بن محمد بن علي بن الحسين بن علي الملقب بعين القضاة. زبدة الحقائق. تقديم و تحقيق ع.عسيران .طهران. چاپخانه دانشگاه. 1341 ه. (Miyanəci, Zübdətu`l-həqaiq..., s. 144)
105. İslam düşüncesi tarihi: 4 cilddə, I c. / Edit. M.M.Şərif. İstanbul: İnsan yayınları, 1990, c. 417
106. Кулизаде З.А. Хуруфизм и его представители в Азербайджане. Баку: Элм, 1970, с. 5.
107. Сара Ашурбейли. История города Баку – период средневековья, Баку, 1992, с. 181
108. Şeyx Mahmud Şəbüstəri. Gülşəni-raz. – Bakı: “Elm və təhsil”, 2013. – 19 s.
109. Şah İsmayıl Xətai. Əsərləri. – Bakı: “Şərq-Qərb”, 2005. – 162 s.
110. İmadəddin Nəsimi. Seçilmiş əsərləri. İki cilddə. I cild. – Bakı: “Lider” nəşriyyatı, 2004. – 147 s.
111. История Азербайджанской философии, т. 1.
112. История Азербайджанской философии, т. 2.
113. الطوسي ابو نصر السراج. حققه وقدم له وخرج أحاديثه المثنى ببغداد, 1960 عبد الحليم محمود وطه عبد الباقي سرور دار الكتب الحديثة بمصر, (Sərrac Tusi. əl-Lümə`, s. 339)
114. Muhammad Abid əl-Cabiri. Nahnu va turas [Biz və bizim irsimiz]. Dar əl-Bayda: Markaz as-saqafi al-arabi, 1993, s.-14-16.
115. Nelly Lahod. Islamic Responses to Europe at the Dawn of Colonialism. In: (ed.) Takashi Shogimen, Cary J. Nederman. Western political thought in dialogue with Asia. Lahnam MD: Lexingtong Books, pp. 170-172; Həmçinin baxın: Ernest Renan. Islam and Science. A lecture presented at La Sorbonne 29 March 1883.

[https://www.mcgill.ca/islamicstudies/files/islamicstudies/renan_islamism_cversion.pdf].
116. The Attitude of Orthodox Islam Toward the 'Ancient Sciences". In: Studies on Islam, (ed) Merlin
117. Swartz. Oxford: Oxford University Press, 1981, pp. 185-215
118. Muzaffar Iqbal. Islam and Science. Westport, CT and London: Greenwood Press, 2007, p. 70.
119. Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу. Москва: "Наука", 1976, с. 17.
120. Əbu Süleyman əl-Muxtar b. əl-Arabi Mömin əl-Şanqiti. Elmin öyrənilməsinə aid 40 hədis, al-alukah.net, 2012 [http://www.alukah.net/sharia/0/39856/]
121. Albert Hourani. A history of the Arab peoples. London: Faber and Faber, 2005, p. 75.
122. Marhsall G. S. Hodgson. The Venture of Islam. Vol. 2. Chicago: The University of Chicago Press, 1974, pp.152-153.
123. Arshad Islam. The contribution of Muslims to science during the Middle Abbasid Period (750-945) // Revelation and Science Vol. 01, No. 01 (2011), p. 41.
124. Majid Fakhri. A history of Islamic Philosophy. New York: Columbia University Press, 2004, pp. 4-5.
125. Hala Khalidi, Basma Ahmad, Sedki Dajani. Facets from the Translation Movement in Classic Arab Culture // Procedia - Social and Behavioral Sciences Vol. 205, 2015, p. 570.
    A. I. Sabra. The Appropriation and Subsequent Naturalization of Greek Science in Medieval Islam: A Preliminary Statement // History of Science, Vol. 25, p. 224-225.
    B. M. Linton From Eudoxus to Einstein: A History of Mathematical Astronomy. Cambridge: University of Cambridge, 2004, p. 88.
126. Roshdi Rashed. Greek into Arabic: Transmission and translations. In: (ed.) Richard M. Frank, James Edward Montgomery. Arabic Theology, Arabic Philosophy: From the Many to the One. Leuven: Peeters, 2006, p. 190

127. Hedi BenAicha. Mosques as libraries in Islamic civilization: 700-1400 A.D. // The Journal of Library History, 21 (2), 1986, p. 253-260.
128. Max Meyerhof. Science and Medicine. In: (ed.) Sir Thomas Arnolad. The Islamic Art and Architecture. New Dehli: Goodword Books, 2003, p. 364.
129. Roshdi Rashed. Classical Mathematics from al-Kwarazmi to Decartes. New York: Routledge, 2015, p. 53.
130. Carl B. Boyer, Uta C. Merzbach. A History of Mathematics. New Jersey: John Willey and Sons, third edition, 2011 p. 220-221.
131. Baron Carra De Vaux. Astronomy and Mathematics. In: (ed.) Sir Thomas Arnold. The Islamic Art and Architecture, p. 381-386.
132. Baron Carra De Vaux. Astronomy and Mathematics. In: (ed.) Sir Thomas Arnold. The Islamic Art and Architecture, p. 388-389.
133. Thomas Hockey et al. (eds). Biographical Encyclopedia of Astronomers. New York: Springer, 2007, p. 362.
134. Yavuz Unat. Alfarganus and elements of Astronomy. Manchester: FSTC, 2007, p. 6-7.
135. Thomas Hockey et al. (eds.). The Biographical Encyclopedia of Astronomers. New York: Springer, 2007, pp. 581-582
136. Salim Ayduz. Glances on Calendars and Almanacs in the Islamic Civilization. FSTC, 2007. [http://www.muslimheritage.com/article/glances-calendars-and-almanacs-islamic-civilization]
137. Salah Zaimeche. A review on Muslim Contribution to Astronomy. Manchester: FSTC, 2002, p. 6
138. Seyyed Hossein Nasr. An Introduction to Islamic Cosmological Doctrines. London: Thames and Hudson, 1978, p. 120
139. Amelia Carolina Sparavigna. The Science of al-Biruni. PHILICA N 443, 2014.
140. Marhsall G. S. Hodgson. The Venture of Islam. Vol. 2, p. 320.

141. Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 13.
142. Оливер Лимэн. Введение в классическую исламскую философию. Москва: Весь Мир, 2007, с. 46.
143. Majid Fakhri. A history of Islamic philosophy, p. 334-335.
144. Eric John Holmyard. Makers of Chemistry. London: Oxford University Press, 1931, pp.57-60
A. I. Sabra. Theories of Light: From Descartes to Newton. Cambridge: Cambridge University Press, 1981, p. 98.
145. Nader El-Bizri. Ibn al-Haytham - An Introduction. Manchester: FSTC, 2001.
146. John Freely. The light from the East. London-NY: Tauris, 2001, p. 58.
147. Salim Al-Hassani. Al-Jazari: The Mechanical Genius. Manchester: FSTC, 2002
148. Encyclopedia of the history of science, technology, and medicine in non-western cultures, (ed.) Helaine Selin. Dordrech: Kluwer Academic publishers, 1997, p. 149.
149. W. M. Watt, “Abu Zayd Balki,” Encyclopædia Iranica, I/4, pp. 399-400; [http://www.iranicaonline.org/articles/abu-zayd-balki].
150. Encyclopedia of the history of science, technology, and medicine in non-western cultures, (ed.) Helaine Selin. Dordrech: Kluwer Academic publishers, 1997, p. 419.
151. Бейлис В. М. Ал-Идриси (XII в.) о восточном Причерноморье и юго-восточной окраине русских земель. Древнейшие государства на территории СССР, 1982 г. С. 208-228. [http://www.vostlit.info/Texts/rus17/Idrisi/frametext2.htm].
152. Монтгомерри Уотт. Влияние ислама на средневековую Европу, с. 42.
153. Muzaffar Iqbal. Islam and Science, p. 39.
154. Walled A. Al-Monaes. Muslim Contributions to Geography until the End of the 12th Century AD. GeoJournal, Vol. 25, No. 4 (December 1991), pp. 396-397
155. Michael N. Pearson. Ibn Majid, Ahmad (b. c.1432) navigator and writer. In: John J. Hattendorf (ed) The

Oxford Encyclopedia of Maritime History. 2007 Online version:
[http://www.oxfordreference.com/view/10.1093/acref/9780195130751.001.0001/acref-9780195130751]
156. Salah Zaimeche. Piri Reis: A Genius 16th-Century Ottoman Cartographer and Navigator. Manchester: FSTC, 2002.
157. Эвлия Челеби. Книга путешествия. Вып. 1 Земли Молдавии и Украины. М. Наука. 1961
158. Terzioglu, Arslan. "The First Attempts of Flight, Automatic Machines, Submarines and Rocket Technology in Turkish History. Mancherster: FSTC, 2007, pp. 10-13
159. Сагадеев А.В. Ибн-Сина (Авиценна), 2-е изд. М.: Мысль, 1985. [http://www.e-reading.club/bookreader.php/1016238/Sagadeev_-_Ibn-Sina_(Avicenna).html]
160. Mohammed Abattouy, Salim Al-Hassani, Mohammed El-Gomati, Sali Shahsivari, Salim Ayduz, Savas Konur, Cem Nizamoglu, Anne-Maria Brennan, Maurice Coles, Amar Nazir and Margaret Morris. Medical Sciences in the Islamic Civilization. Manchester: FSTC [http://www.muslimheritage.com/article/medical-sciences-islamic-civilization]
161. L. Richter-Bernburg. ʿALĪ B. ʿABBĀS MAJŪSĪ // EI: [http://www.iranicaonline.org/articles/ali-b-abbas-majusi]
162. Sharif Kaf al-Ghazal. Al-Zahrawi (Abulcasis) the great Andalusian surgeon. Manchester: FSTC, 2007, p. 4.
163. Emilie Savage-Smith (1996), "Medicine". In Roshdi Rashed (ed). Encyclopedia of the History of Arabic Science. London and New York: Routledge, 1996, Vol. 3, p. 951.
164. John B. West. Ibn al-Nafis, the pulmonary circulation, and the Islamic Golden Age // Journal of Applied Physiology. 2008 Dec; 105(6): 1877-1880 [http://jap.physiology.org/content/105/6/1877]
165. Robert Irwin. For lust of knowing. The Orientalists and their enemies. London: Penguin books, 2006, p. 85.

166. Sonja Brentjes, Jürgen Renn (eds). Globalization of Knowledge in the Post-Antique Mediterranean, 700-1500. London: Routledge, 2016, pp. 134-138
167. Sita Steckel, Niels Gaul, Michael Grünbart (Eds.) Networks of Learning Perspectives on Scholars in Byzantine East and Latin West, c. 1000-1200, Zurich-Berlin: Lit Verlaq, 2014, p. 142.
168. Şirinov Aqil. Nasiruddin Tusi`de Varlık ve Uluhiyyet, İstanbul: İSAM Yayınları, 2011, səh. 24.
169. M. J. L. Young, J. D. Latham,R. B. Serjeant (eds). Religion, Learning and Science in the 'Abbasid Period. Cambridge: Cambridge University Press, 1990, p. 296
170. Charles Bernet. John of Seville. İn: E. Michael Gerli (ed.) Medieval Iberia: An Encyclopedia, New York: Routledge, 2013, p. 446
171. Richard Henry Popkin (ed.). The Columbia History of Western Philosophy. New York: Columbia University Press. 1999, pp. 230-231.
172. Sami Khalaf Hamarneh,Glenn Allen Sonnedecker (eds). A pharmaceutical view of Abulcasis al-Zahrawi in Moorish Spain, with special reference to the "Adhan". Leiden: Brill, 1963, pp. 24-27.
173. Helaine Selin. Encyclopedia of the history of science, technology, and medicine in non-western cultures, (ed.) Helaine Selin. Dordrech: Kluwer Academic publishers, 1997, p. 97.
174. Alfred Gillaume. Philosophy and Theology. In: (ed.) Sir Thomas Arnold. The Islamic Art and Architecture, p. 280.
175. Jack Segura. Some Thoughts on the Spanish Language in Medicine. In: Henry Fischbach. Translation and Medicine, Amsterdam-Philadelphia: Jon Benjamins Publishing company, 1998. pp. 38-39.
176. Dag Nikolaus Hasse Latin Averroes Translations of the First Half of the Thirteenth Century // Plenary session paper read on 21 September 2007 in Palermo at the XII International Congress of Medieval Philosophy.

177. Robert Irwin. For lust of knowing. The Orientalists and their enemies, p. 47.
178. Dag Nikolaus Hasse, The social conditions of the Arabic (Hebrew) Latin translations movements in Medievil Spain and in the Rennaisance. In: Andreas Speer, Lydia Wegener. Wissen über Grenzen Arabisches Wissen und lateinisches Mittelalter. Berlin-New York: Walter De Gruyter, 2006, pp. 75-82.

Qeyd

Qeyd

Qeyd

Qeyd

Qeyd

Qeyd

“Maxofset”
Mətbəəsində təqdim edilmiş
hazır material əsasında çap olunmuşdur.

Aşurbəyovlar küç. 8A, AZ1080 Bakı
www.maxofset.az | info@max-offset.com
(+994 12) 451 88 10; mob: +994 77 227 27 27